4. Заморозка мер по пересмотру уровня административных цен. Временное приостановление роста административных цен позволит предотвратить ускорение инфляции как по спросу, так и по предложению.

Проведение дальнейших исследований с использованием статистически-математического аппарата с применением эмпирических методов позволило бы выявить более глубинные причины инфляции в Азербайджане.

**Литература**


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi https://www.stat.gov.az/.
2. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-ci il üzrə Pul siyasəti İcmalı
3. Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il mart ayı üzrə statistik bülleteni
4. Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsi– https://www.cbar.az/
5. Azərbaycan Respublikasi Mərkəzi Bankinin 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə Bəyanatı
6. Armas A., Vallejos L., Vega M. (2009). Measurement of price indices used by the central bank of Peru. Bank for International Settlements Papers, 49, Monetary policy and the measurement of inflation: prices, wages and expectations, 259-283.
7. Chand K.S. (1993). Fiscal Impulse measures and their ficscal impact. Published in: How to measure fiscal deficit: analytical and methodological issues, Publication Services International Monetary Fund, 85-99.
8. Silver M. (2007). Core Inflation: Measurement and Statistical Issues in Choosing among Alternative Measures. IMF Staff Papers , 54, 163-190.
9. Turkay M. and Atasoy B.S. (2019). Has inflation targeting been successful? Evidence from unit root tests. Investigación Económica , Vol. 78, No. 308, 120-139
10. Wells G. (1995). Macroeconomics. (Thomas Nelson: Australia.)
11. World Bank Report (2022). Commodity Markets Outlook, April 2022.

## "COVİD-19 PANDEMİYASI ŞƏRAİTİNDƏ MÜƏSSİSƏLƏRDƏ MALİYYƏ QƏRARLARININ QƏBULU PROSESLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ"


**Aytac Fazilzadə**

a.faziizada@unec.edu.az

**Azərbaycan Dövlət İqtisad Universiteti**



### Xülasə

Mövzunun aktuallığı: Son iki ildə pandemiyanın iqtisadiyyatın bütün sahələrinə təsirləri iqtisadçı alimlərin diqqət mərkəzindədir. Pandemiya şəraitində müəssisələrdə maliyyə qərarlarının qəbulu zamanı yaranan çətinliklərin müəyyən olunması, bu məsələlərlə bağlı dünya təcrübəsinin araşdırılması,həmin yeniliklərin Azərbaycan mühitinə uyğunlaşdırılması kimi məsələlər həm elmi, həm də praktiki aktuallığı ilə seçilir. Covid-19 pandemiyasının müəssisələrin maliyyə qərarlarına təsirinin tədqiqi əsasında səmərələşdirici tövsiyyələrin verilməsidir. Tədqiqat işinin aparılmasında müqayisəli təhlil və məntiqi ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Tədqiqatın aparılmasında mövzu ilə əlaqəli hazırlanmış məqalələr, "Big 4" audit şirkətlərinin araşdırma mərkəzlərinin tədqiqatlarından istifadə olunmuşdur. Azərbaycan Respublikasının Statistika Komitəsinin və Mərkəzi Bankın saytlarında yerləşdirilmiş məlaumatlar, eləcə də müəssisələrin maliyyə hesbataları tədqiqatın informasiya bazasını təşkil etmişdir. Müəssisələrdə hesabatlıqla bağlı bəzi məlumatların ictimaiyyətə açıqlanmaması, məlumat bazasının kifayət qədər olmaması tədqiqatın aparılmasına əngəl törədən səbəblərdir. Gəlinən nəticələrin müəssisələrin maliyyə menecerləri, idarəedici strukturları üçün maraqlı və praktiki faydalı olduğunu qeyd edə bilərik. Tədqiqat işinin nəticələri pandemiya kimi şəraitlərdə biznes subyektlərində maliyyə menecmentinin təkmilləşdirilməsi üçün mənbə kimi istifadə edilə bilər.



**Açar sözlər:** maliyyə menecmenti, mənfəətlilik, maliyyə strategiyası, Covid-19



### Summary

In last two years the effects of pandemic observed in all areas of economy and these effects are on the focus point of economists and researchers. Issues such as identifying difficulties in making financial decisions in enterprises in a pandemic, studying the world experience on these issues, adapting these innovations to the environment of Azerbaijan are distinguished by both scientific and practical relevance. Based on the research providing useful and effective recommendations for entities which suffers from pandemic and wants to enhance financial decision making process. Comparative analysis and logical generalization methods used for research. During the research period the articles related with this topic and researches conducted by research centers of "Big 4" audit firms. The database which used for research consists of reports of Central Bank of Azerbaijan Republic, State Statistics Committee and financial reports of different entities. Research limitation is lack of information database about financing decision making, the challenges in getting information from enterprises about how they changed their strategy because of pandemic. The results obtained from research are interesting and practical useful for financial managers or other regulatory bodies of companies. The research results can be used as a source for enhancing financial decision making process in the companies which suffered from pandemic effects.



**Key words:** financial management, profitability, financial strategy, Covid-19


### Giriş

Maliyyə qərarlarının verilməsi və maliyyə siyasəti müəssisənin səmərəli fəaliyyətinin əsas atributlarından hesab olunurlar. Səbəb isə düzgün dəyərləndirilmiş və qəbul olunmuş qərarların müəssisənin mənfəətinin maksimallaşdırılmasına, kapital quruluşunun optimallaşdırılmasına, müəssisənin maliyyə vəziyyətinin dayanıqlılığının artırılmasına, maliyyə vəziyyətində dayanıqlığın yaradılmasına və bunun nəticəsində investor və kreditorların diqqət mərkəzində olaraq əlavə maliyyə resurslarının cəlb olunmasına imkan yaratmasıdır. Həmçinin uğurlu idarə olunan müəssisələrin inkişafı dövlət üçün də maraq dairəsində olmuşdur. Çünki müəssisələrin fəaliyyət nəticələri həm makroiqtisadi göstəricilərə, həm büdcəyə öz təsirini göstərəcəkdir.

Covid-19 pandemiyası müəssisələrin fəaliyyət mühitini kəskin şəkildə dəyişərək onların maliyyə menecmenti qarşısında tamamilə yeni vəzifərlərin yaranmasına gətirmişdir. Bu baxımdan, mövzu praktiki və nəzri aktuallıq daşıdığını qeyd edə bilərik. Covid-19 pandemiyasının ölkələrin maliyyə sabitliyin və müəssisələrin maliyyə menecmentinə təsiri bir çox tədqiqatlarda araşdırılmışdır. Baldwin, Mauro, Schweser, Nurunnabi, Alhawal, Hoque, Savcı, Balioğlu, Kazan, Evrim, Altuk, Arslan, Atılgan, Günaydın, Kaya kimi tədqiqatçılar bu prosesin müxtəlif cəhətlərini işıqlandıran əsərləri nəşr etdirmişlər. Müəssisələrin maliyyə hesabatlılığı məsələləri Deloitte, KPMG, PwC kimi məşhur audit şirkətlərinin tədqiqatlarında və hesabatlarında geniş təhlil edilmişdir. Lakin Azərbaycanda bu prosesin necə getməsi, pandemiyanın Azərbaycan müəssisələrinə təsiri öyrənilməmişdir.

Tədqiqatın məqsədi Covid-19 pandemiyasının müəssisələrin maliyyə qərarlarına təsirinin tədqiqi əsasında səmərələşdirici tövsiyyələrin verilməsidir. Pandemiya şəraitində müəssisənin maliyyə siyasəti, maliyyələşmə metodunun seçimi və maliyyə qərarlarının qəbulu prosesi tədqiqatın obyekti, bu müəssisənin maliyyə menecmentinin nəzəri-metodoloji əsasları isə tədqiqatın predmeti kimi qəbul edilmişdir.

Tədqiqat nəticəsində maliyyə qərarlarının qəbulunda likvidlik, dayanıqlıq və səmərəlilik kimi maliyyə əmsallarının proqnozlaşdırılması, dövriyyə vəsaitlərinin normalaşdırılması, məhsulların material tutumnun azaldılması və məhsuldarlığın artırılması, alıcı və satıcı arasında pul axınlarının sürətləndirilməsi alətlərindən geniş istifadə kimi tövsiyələr verilmişdir. Eyni zamanda, aktivlərin maliyyə səmərəliliyinin təmin edilməsi üçün debitor borcların orta müddətinin azaldılması, satış həcmlərinin investisiya məbləğlərini üstələməsi, müasir marketinq üsullarından istifadə etməklə nəğd satış həcmlərinin artırılması, dövriyyə vəsaitlərinin dövretmə sürətinin artırılması və dövriyyə vəsaitlərinə tələbatın mümkün qədər azaldılması kimi tədbirlərin səmərəli olacağı göstərilmişdir.

Gəlinən nəticələrin müəssisələrin maliyyə menecerləri, idarəedici strukturları üçün maraqlı və praktiki faydalı olduğunu qeyd edə bilərik. Tədqiqat işinin nəticələri pandemiya dönəmində fəaliyyətində çətinlik yaranmış biznes subyektlərində maliyyə menecmentinin təkmilləşdirilməsi üçün mənbə kimi istifadə edilə bilər.

**Müəssisələrdə Maliyyə Qərarlarının Qəbulu Proseslərinin Nəzəri Əsasları**

Müəssisənin maliyyə menecmenti anlayışı ilk olaraq ötən əsrin 60-cı illərindən başlayaraq öz təşəkkülünü tapmışdır. Səbəbi isə neoklassik nəzəriyyənin inkişafı olmuşdur. Bu dövrdə baş verən sənaye inqilabları da kapitalın daha yaxşı idarə edilməsinin zəruriliyini gündəmə gətirmiş və maliyyə menecmentinin düzgün tənzimlənməsi üçün zəmin yaratmışdır. Maliyyə menecmentinin əsas məqsədi müəssisənin dayanıqlı və inkişaf yönümlü fəaliyyətini təmin etmək məqsədi ilə maliyyə resurslarınım effektiv tənzimlənməsi əlavə kapital cəlbi üçün optimal yolların tapılması və seçilməsidir.

Maliyyə menecmentində yeniliklər, qərar qəbulu prosesində fərqli yanaşmalar ilkin olaraq Avropada müşahidə olunmağa başlamışdır. Fransada 1980-ci illərdən başlayaraq maliyyə menecmenti sahəsində islahatlar yerli idarəetmə orqanları tərəfindən tətbiq edilməyə başlanmışdır (Guthrie, Humphrey və Olson, 2002). Növbəti mərhələdə isə mərkəzi idarəetmə orqanlarında bu sahədə islahatlar keçirilməyə başlamışdır.

Almaniyada isə maliyyə menecmenti istiqamətində keçirilən islahatlar daha çox büdcə tənzimlənməsinin inkişafı, maliyyə uçotunun təşkili üzrə istiqamətlənmişdir (Lüder,1998).

Şərqdə isə ilkin olaraq Yaponiyada bu islahatlar başlamışdır. Ənənəvi metodları daha çox qoruyaraq mərkəzləşmiş formada maliyyə nəzarətininin inkişafı həyata keçirilirdi (Kokubu və Okano, 1998). Yaponiyada maliyyə menecmenti sahəsində yeniliklərin tətbiqində çətinliklər yaranmasının əsas səbəbi idarəetmə

orqanlarında yeniliklərin tətbiqi nəticəsində bürokratiyanın pozulacağının düşünülməsi idi. Bu səbəbdən maliyyə qərarlarının verilməsi zamanı müasir metodlardan istifadənin tətbiqi özəl sektorda daha sürətli və effektiv müşahidə olundu. Göründüyü kimi maliyyə qərarlarının verilməsində daha yenilikçi yanaşmanın tətbiqi bütün dünyada lazımi olsa da fərqli şəkillərdə reallaşır. Bunun əsas səbəbi isə hər ölkənin özünəməxsus idarəetmə sisteminin formalaşmasıdır. Bu onu göstərir ki, qlobal olaraq maliyyə menecmenti sahəsində yeniliklərə uyğun idarəetməyə keçid yalnız ölkələrin inkişaf səviyyəsindən deyil, eləcə də onların daxili idarəetmə strukturunda olan yanaşmadan da asılıdır.

Müəssisənin maliyyə menecmentinin əsas funksiyalarından biri maliyyə siyasətini müəyyən etməsidir. Maliyyə siyasəti isə qeyd olunan sahələrdə fikir sahibi olmağı tələb edir. Bu sahələrə büdcə, uçotun düzgün aparılması, kredit vasitəsilə vəsait cəlb olunması və xərclərin maliyyələşməsi üzrə siyasət aiddir.

Büdcə siyasəti dedikdə, müəssisənin növbəti illər üçün büdcə proqnozlaşmasından əlavə dövlət orqanları ilə hesablaşmalar nəzərdə tutulur. Vergi , gömrük, sosial ödənişlər bu kateqoriyaya aiddir.

Uçot siyasəti müəssisənin fəaliyyətinin uçotunun aparılması barədə qaydaların, vahid yanaşmanın tərtibinin irəli sürülməsini təmin edir.

Kredit siyasəti dedikdə isə maliyyələşmə metodlarından kredit hesabına maliyyələşmədən hansı hallarda istifadə olunmasını, istifadə olunacağı təqdirdə hansı şərtlərin və yeniliklərin olacağını müəyyənləşdirməkdir (Fisman və Inessa, 2003).

Yuxarıda sadalananlardan əlavə qeyri-stabil maliyyə şəraitində olan müəssisələrdə fəaliyyətin normallaşdırılması, tənzimlənməsi üçün sağlamdırma siyasətinin tətbiqi aktualdır.

Maliyyə sağlamlaşdırılması siyasəti – müəssisənin pis maliyyə şəraitində olan maliyyə fəaliyyətinin idarə olunması siyasətidir. Belə siyasət fövqəladə hallarda da, yəni müəssisənin maliyyə sabitliyinin pozulması və iflas və müflisləşmə şəraitində də tətbiq olunur. Maliyyə sağlamlaşdırılması siyasəti məcburi tədbirdir. Belə siyasət iqtisadiyyatda və maliyyədə köklü dəyişiklikləri nəzərdə tutmur. Maliyyə sağlamlaşdırılması siyasəti maliyyə münasibətlərinin sabitləşdirilməsini deyil, müəssisədə mövcud olan şəraitin yaxşılaşdırılması deməkdir. Bununla əlaqədar müəssisədə tez-tez çox maliyyə proseslərinin və münasibətlərin tərkibi və xarakteri dəyişir (Karacan, 2020).

Müəssisənin maliyyə qərarlarının effektiv şəkildə verilməsinin mahiyyəti böyükdür. Belə ki, düzgün dəyərləndirilmiş və qəbul olunmuş qərarlar müəssisənin mənfəətinin maksimallaşdırılmasına, kapital quruluşunun optimallaşdırılmasına, müəssisənin maliyyə vəziyyətinin dayanıqlılığının artırılmasına, maliyyə vəziyyətində stabilliyin yaradılmasına və bunun nəticəsində investor və kreditorların diqqət mərkəzində olaraq əlavə maliyyə resurslarının cəlb olunmasına imkan yaradır (Mughal, 2006).

**Maliyyə qərarlarının qəbulu metodları**

Müəssisələr maliyyə vəsaitinin cəlbi üçün istifadə etdikləri ənənəvi metodlara əlavə olaraq faktorinq və lizinqdən danışa bilərik. Bu üsullardan istifadə zamanı pul vəsaiti cəlb olunmasa da, kapitala ehtiyac duyulan və müəssisənin fəaliyyətini dayandırmaq istəmədiyi dövrlərdə fəaliyyətin kəsilməzliyinə kömək edir.

Lizinq müəssisənin hər hansı əsas vəsaitlərini əldə etməsi yoludur. Hansı ki, burada üçüncü şəxslər iştirak edir. Lizinq vasitəsilə əsas vəsaitlər əldə olunduqda alıcı əldə etdiyi vəsait üçün aylıq ödəniş ödəyir, lakin hüquqi

olaraq məhsulun sahibi sayılmır. Lizinqin iki növü mövcuddur əməliyyat lizinqi və maliyyə lizinqi. Maliyyə lizinqində əməliyyat lizinqindən fərqli olaraq məhsulla bağlı məsuliyyət alıcı tərəfin üzərinə ötürülür. Maliyyə lizinqi və əməliyyat lizinqi arasında digər bir fərq isə əməliyyat lizinqinin balans arxası hesab olmasıdır. Bu şəraitdən hətta bəzi müəssisələr kredit müraciəti zamanl sui-istifadə edirlər (Fletcher və Umarov, 2005). Belə ki, balans arxası hesab olduğundan əldə etdikləri lizinq məhsulu maliyyə lizinqi olsa belə onu əməliyyat lizinqi olaraq göstərirlər. Bu yolla əmsalların hesablanması və təhlili zamanı bəzi manipulyasiyalar etmək istəyirlər. Beləliklə onlar borclanma əmsallarını daha aşağı göstərmək istəyirlər.

Dünya təcrübəsində istifadə olunan daha bir qeyri-ənənəvi və ya alternativ maliyyələşmə metodu mövcuddur. Bu maliyyələşmə metodu əsasən yeni fəaliyyətə başlayan, maliyyə hesabatları çox da şəffaf və anlaşıqlı olmayan bu səbəbdən banklardan vəsait cəlb edə bilməyən müəssisələr tərəfindən istifadə olunur (Beck və Vojislav, 2008). Bu maliyyələşmə metodunda müəssisənin kapitalla təmin olunmasında investor şəxslər iştirak edir, lakin hər hansı səhm tələb olunmur.

Digər bir metodda isə bu  məbləğ bir şəxsdən deyil, kiçik məbləğlərin cəmi olaraq çoxlu şəxslər tərəfindən təmin olunur.

Qəbul olunan maliyyə qərarlarının keyfiyyətinə təsir göstərən başlıca amillərdən biri müəssisənin fəaliyyəti ilə bağlı təqdim olunan informasiyanın düzgünlüyüdür. Bu xüsusda maliyyə hesabatlarının şəffaf hazırlanmasının rolu böyükdür.Maliyyə hesabatlarının şəffaf hazırlanmasının maliyyə menecerlərinin qərar qəbulu prosesinə təsiri qlobal olaraq  2008-ci il krizisində də müşahidə olunmuşdur. Bu dövrdən ən az zərərlə çıxmaq üçün müəssisələr tərəfindən qərar qəbulu zamanı aktiv və passivlərin tanınma üsulu ilə də bağlı qərarlar qəbul olunmuşdur (Bezemer, 2010). Belə ki, aktivlərin ədalətli dəyərlə tanınması üsulu uyğun bilinmişdir. Lakin bazarda müşahidə olunan qeyri-stabillik səbəbindən aktivlərin ədalətli dəyərini müəyyən etmək çətinliklər yaratmışdır.

Maliyyə hesabatları həm şirkət daxilində maliyyə menecerlərinə, həm də xarici investorlara kömək olur. Şirkət daxilində menecerlər keçmiş illərin nəticələrindən istifadə edərək növbəti il üçün proqnozlar verə bilirlər. Təbii ki, maliyyə menecerləri üçün maliyyə qərarlarının qəbulu zamanı yeganə mənbə maliyyə hesabatları deyil. Xarici istifadəçilər yəni investorlar üçün əsas mənbə maliyyə hesabatlarıdır. Hansı ki, onların təhlili müəssisənin fəaliyyəti, davamlılığı barədə fikir yaratmağa kömək olur. Maliyyə hesabatlarıyla bağlı digər məqam isə onların hazırlanmasıdır. Belə ki, maliyyə hesabatlarının brynəlxalq standartlara uyğun hazırlanması ölkə xairicindən investor cəlbi zamanı kömək olur (Barış və Poroy, 2010).

Kapital cəlbi zamanı təqdim olunana məlumatların vacibliyini qeyd etdik. Buna görədə bu zaman təqdim olunan assimmetrik informasiya və onun yarada biləcəyi məqamlardan danışaq. Maliyyə hesabatlarında göstəricilərin qeyri-şəffaf şəkildə göstərilməsindən əlavə olaraq fəaliyyətlə bağlı məlumatların təqdimatı zamanı informasiyanın qeyri-şəffaflığı halı müşahidə oluna bilər (Maran və Nizamani, 2015). Məsələn müəssisə banka müraciəti zamanı fəaliyyət sahəsini fərqli bildirə bilər.

Kənd təsərrüfatı ilə məşğul olan müştəri daha tez mənfəət əldə edə biləcəyi bir kənd təsərrüfatı sahəsində fəaliyyət göstərməsiylə bağlı məlumat verir Kredit rəsmiləşdirildikdə bu fəaliyyət növünə uyğun olaraq gəlir əldə olunacaq müddətə qədər güzəşt müddəti tanınır və daha sonra ödəniş olunması tələb olunur.  Müştəri fərqli fəaliyyət sahəsi ilə məşğul olduqda isə bu güzəşt müddəti bitdikdə hələ də fəaliyyətdən mənfəət əldə etməmiş

olur və ödəmədə gecikmələr yaranır. Beləliklə bu borcun problemli kredit statusu altına düşməsi halı aktuallaşmağa başlayır.

Maliyyə qərarlarının verilməsi mərhələləri:

Maliyyə qərarlarının verilməsi bir neçə mərhələdən ibarətdir:

- Cari dövr üçün hansı maliyyələşmə metodundan istifadə olunmasının müəyyənləşdirilməsi;
- Verilən qərarlar fonunda mümkün risklərin müəyyənləşdirilməsi və təhlili;
- İnvestisiya cəlbi planlaşdırılması;
- Pulun zaman dəyəri kimi digər faktorların nəzərə alınması;

Müəssisəylə bağlı büdcə proqnozlarının verilməsi;  Ümumilikdə, maliyyə qərarlarının qəbulu zamanı geniş aspektə müəssisənin analizi mütləqdir. Müəssisənin aktiv və passivlərinin uçotunun, sağlamlaşdırma siyasətinin, kapital cəlbinin, şəffaf maliyyə hesabatlarının, dividend siyasətinin, risklərin müəyyənləşdirilməsinin necə aparılması maliyyə menecmentinin təsir dairəsinə daxil olan fəaliyyət sahələridir. Bəzən isə müəssisənin fəaliyyəti dövründə müxtəlif fors-major hallar müşahidə edilir. Son illər yaşanan pandemiya bu hala nümunədir. Bu cür hallarda müəssisələrin maliyyə nəzaərtində olan boşluqlar onların fəaliyyətinə təsir göstərir:

2019-cu ilin sonlarından yayılmağa başlayan, lakin təsirini 2020-ci ilin əvvəllərindən başlayaraq göstərən pandemiyanın dünyada yalnız səhiyyə sahəsinə deyil, iqtisadiyyatın bütün sahələrinə təsir göstərdiyi hamımıza məlumdur. Pandemiya təkcə tibb sahəsində, sosial münasibətlərdə deyil biznes münasibətlərində də dəyişikliklər yaratdı. Hansı ki, həm müştərilərlə, həm partnyorlarla, həm səhmdarlarla, həm də işçilərlə korporativ münasibətlərin qurulmasında yeni cığır açmışdır. Biznes strukturları artıq pandemiyaya adaptasiya tədbirləri görməyə çalışaraq mövcud şəraitdən minimum itki ilə qurtulmağı hədəfləmişdirlər (Hogue,2020). Bu dövrdə maliyyə sıxıntıları cəhətdən kiçik və orta sahibkarlıq subyektləri daha çox təsir görmüşdür. Səbəb isə təkcə həmin müəssisələrin iri korporasiyalara nisbətən dövriyyəsinin az olması yox, maliyyə hesabatlarınnı hazırlanması və təqdimatı zamanı çatışmazlıqların olmasıdır.

Aydın məsələdir ki, dövlət tərəfindən subsidiyalar və ya digər yardımlar təklif olunan zaman rəsmi qeydiyyatda olan göstəricilər əsas tutulur. Bir çox kiçik və orta sahibkarlıq subyektlərində isə maliyyə hesabatlarının şəffaf şəkildə hazırlanması və təqdimatı ilə bağlı çatışmazlıqlar mövcuddur. Əlavə olaraq bu cür sıxıntılı vəziyyətlərdə sahibkarların maliyyə vəsaitləri əldə etmək üçün müraciət edəcəkləri əsas ünvan kommersiya banklarıdır. Hansı ki, kommersiya bankları da kredit rəsmiləşdirilməsi zamanı rəsmi hesabatları əsas tutur və məbləği ona uyğun təyin edir.

Belə olan halda şirkətlərin bu təsirlərdən minimum itkiylə yan keçməsi üçün əsas diqqət yetirilməli məqam aydındır ki, maliyyə hesabatlarının şəffaf və düzgün şəkildə təqdimatıdır (Çavlak, 2020). Bu səbəbdən maliyyə hesabatlarının hazırlanması və təqdimatı zamanı əsas istinad nöqtəsi Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına yenidən diqqət yetirilməsi vacibdir.

**Maliyyə Qərarlarının Qəbul Mexanizmlərinin Təhlili**

Nəzəri olaraq qeyd olunanların bir müəssisənin göstəriciləri üzərindən təhlil edək. Aşağıda yeni fəaliyyətə başlamış "W.A" MMC-nin son beş il üzrə göstəriciləri təqdim olunur. Müəssisə qida məhsullarının distribütorluq fəaliyyəti ilə məşğuldur.

**Cədvəl 1:** Balans hesabatı (min AZN-lə)

| Balans Hesabatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Nağd pul vəsaitləri | 1,690 | 1,710 | 1,750 | 1,525 | 1,047 |
| Debitor borcları | 790 | 815 | 907 | 750 | 820 |
| Əsas vəsaitlər | 800 | 810 | 810 | 746 | 710 |
| Mal-material ehtiyatları | 590 | 600 | 610 | 520 | 570 |
| Cəmi aktivlər | 3,870 | 3,935 | 4,077 | 3,541 | 4,147 |
| Kredit öhdəlikləri və digər qısamüddətli borclar | 590 | 608 | 620 | 713 | 650 |
| Kreditor borcları | 550 | 564 | 587 | 674 | 610 |
| Digər öhdəliklər | 320 | 350 | 370 | 154 | 487 |
| Səhmdar kapitalı | 1,000 | 1,000 | 1,000 | 1,000 | 1,000 |
| Bölüşdürülməmiş mənfəət | 1,410 | 1,413 | 1,500 | 1,000 | 1,400 |
| Cəmi öhdəliklər və kapital | 3,870 | 3,935 | 4,077 | 3,541 | 4,147 |

Mənbə: Müəllif tərəfindən təqdim olunan nümunə müəssisə barədə göstəricilər

**Cədvəl 2 : Mənfəət və zərər hesabatı (min AZN-lə)**

| Mənfəət / Zərər Hesabatı | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Satış | 2,400 | 2,500 | 2,620 | 3,050 | 5,013 |
| Maya dəyəri | 1,800 | 1,870 | 2,200 | 2,700 | 4,240 |
| Ümumi mənfəət | 600 | 630 | 420 | 350 | 773 |
| Amortizasiya xərcləri | 83 | 82 | 80 | 92 | 85 |
| Ümumi və inzibati xərclər | 130 | 119 | 112 | 130 | 145 |
| Satış və reklam xərcləri | 57 | 47 | 49 | 52 | 51 |
| Digər gəlirlər | 35 | 32 | 30 | 25 | 57 |
| Vergidən əvvəlki mənfəət | 295 | 350 | 209 | 51 | 435 |
| Mənfəət vergisi | 73 | 87 | 60 | 13 | 96 |
| Xalis mənfəət | 222 | 263 | 149 | 38 | 339 |

Mənbə: Müəllif tərəfindən təqdim olunan nümunə müəssisə barədə göstəricilər

Verilən nümunəni təhlil edərək son 5 ildə müəssisənin fəaliyyətində baş vermiş dəyişiklikləri müşahidə etmək olar. İlkin olaraq onu qeyd etmək lazımdır ki, maliyyə hesabatlarına əsasən təhlil zamanı müqayisə olunan göstəricilər üzrə məbləğlər proporsional şəkildə uyğun olmalıdır. Ümumi mənfəət marjası ilə təhlili davam etdirsək bu göstəricinin 2017 və 2018-ci illərdə 25%, 2019-cu ildə 16%, 2020-ci ildə 11%, 2021-ci ildə isə 16% olmuşdur. Göründüyü kimi, 2021-ci ildən artıq müəssisə keçmiş fəaliyyət göstəricilərinə doğru irəliləməyə başlamışdır. Xalis mənfəət marjası üzrə göstəricilər isə 2017-ci ildə 9.25, 2018-ci ildə 10.52, 2019-cu ildə 5.68, 2020-ci ildə 1.25, 2021-ci ildə 6.76 olmuşdur. Ümumi olaraq müəssisənin aktiv və passiv məbləğlərində keçmiş illərdə bir-birinə yaxın göstəricilər müşahidə olunmuşdur. 2020-ci ilin təsirlərindən sonra isə artıq 2021-ci ildə tendensiyanın müsbət istiqamətdə irəlilədiyi aydın görünür.

Balans hesabatının digər komponentləri ilə təhlili davam etdirsək nağd pul vəsaitlərinin həcmində ən yüksək nəticənin 2019-cu ildə müşahidə olunduğunu görə bilərik. Nağd pul axınlarının həcminin yüksək olması müəssisə üçün həm müsbət, həm də mənfi şəkildə qiymətləndirilə bilər. Belə ki, nağd pul vəsaitlərinin

həcminin lazımi dərəcədə olması müəssisənin likvidliyinin yüksək olması və bunun nəticəsində öhdəliklərin ödənməsində çətinlik yaşamayacağı deməkdir. Lakin digər tərəfdən yanaşsaq satış dövriyyəsi normal olan bir müəssisənin yüksək miqdarda nağd pul saxlaması düzgün qərar qəbuletmədə bəzi çətinliklərin mövcudluğundan xəbər verir. Çünki yetəri qədər nağd vəsaiti olan müəssisə düzgün investisiya yatırımı edə, vəsaitini alternativ mənbələrə məsələn satışın və istehsalın diversifikasiyasına yeni növ məhsulların istehsalına və ya hazırda istifadə etdiyi texnologiyann inkişafına sərf edə bilər. Vəsait olduğu halda, bu addımlar atılmırsa bu müəssisənin gələcəkdə fəaliyyətində problemlər yarana biləcəyini, rəqiblərindən geridə qalma ehtimalı olacağını göstərir.

Verilmiş göstəricilərdən istifadə edərək likvidlik əmsallarının təhlilini aparaq. İlkin olaraq cari likvidlik əmsalları üzrə göstəriciləri müəyyən edək. 2017-ci ildə cari likvidlik əmsalı 2.7, 2018-ci ildə 2.66, 2019-cu ildə 2.07, 2020-ci ildə 2.01, 2021-ci ildə isə 1.93 olmuşdur. Digər maliyyə hesabatı isə pul axınlarının hərəkəti barədə hesabatdır. Müəssisənin ödəyicilik qabiliyyəti yalnız onun pul axınları haqqında hesabatdakı göstəricilərlə müəyyən olunur. Belə ki, mənfəət və zərər haqqında hesabatda müəssisənin satış dövriyyəsinin həcminin yüksək olduğunu görə bilərik. Balans hesabatında aktivlərin həcminin yüksək olduğunu görə bilərik. Lakin müəssisənin öhdəlikləri üzrə ödəyicilik qabiliyyəti yalnız nağd vəsaitlərin həcmi ilə aydınlaşdırıla bilər. Çünki, satışların həcmi böyük olsa da satışlar nağd həyata keçirilməyə bilər, aktivlərin həcmi satış hesabına artsa da debitor borclarının artımı müşahidə oluna bilər. Bu isə müəyyən hallarda likvidlik riskinin yaranmasına səbəb ola bilər.

Ümumi olaraq pandemiyanın təsirlərinin daha kəskin hiss olunduğu 2020-ci ilin nəticələri üzərindən təhlil aparsaq, müəssisənin kreditor borclarının artdığını görə bilərik. 2020-ci ildə baş verən qapanmalar, qadağalar səbəbindən satışların həcmində müşahidə olunan artım gözləniləndən daha aşağı olmuşdur. Kreditor borclarda artım müşahidə olunmasının bir səbəb olaraq satışların artmasıyla əlaqəli olaraq təchizatçılara olan borclanmanın artması kimi izah oluna bilər. Digər yanaşmayla isə debitorların borclarını ödəməkdə çətinlik çəkməsi bu səbəbdən şirkətdə nağd pul vəsaitlərinin həcminin azalması və şirkətin öz növbəsində təchizatçılara və digər borcalanlara öhdəliklərinin artması və ödəmə müddətinin uzanması ilə nəticələnir.

**Covid-19 Pandemiyası Şəraitində Maliyyə Qərarlarının Qəbulu Mexanizminin Təkmilləşdirilməsi**

Pandemiyanın inkişaf etməkdə olan ölkələrə təsirinin 2008-ci il maliyyə böhranı zamanı olduğu kimi darlaşdırıcı iqtisadi təsiri olmuşdur. Lakin müddət ərzində iqtisadiyyatda kiçilmə yəni müəssisələrin fəaliyyətinə pandemiyanın neqativ təsirlərinə gəldikdə müəyyən fərqlər olduğu aydınlaşır. Belə ki, bu dönəmdə heç də bütün biznes strukturlarında neqativ yöndə dəyişikliklər olmamışdır. Məsələn aviasiya sahəsində sərhədlərin bağlı olması səyahətlərin ləğv olunması səbəbiylə uçuşların dayanması və fəaliyyətdə fasilələr mənfi yondə pandemiya təsirləri kimi aydın anlaşıla bilər. Tibb sahəsində, daha doğrusu tibbi məhsulların,dərman preparatlarının istehsalı və satışı iqtiqamətində artım müşahidə olunmuşdur. Bu sıraya telekommunikasiya, internet xidmətləri kimi sahələri də əlavə edə bilərik. Hansı ki, kütləvi olaraq küçəyə çıxma qadağası olduğu dövrlərdə əhalinin istifadə etdiyi əsas xidmət növləri olmuşdur. Bu dövrdə ölkə iqtisadiyyatında fəaliyyət dövrünün və sosial strukturun əsasını təşkil edən kiçik və orta sahibkarlıq subyektləri bir tərəfdən istehsal etməklə, digər tərəfdən isə mövcud konyukturada yaşamaq uğrunda mübarizə aparmaqda davam edir. Qlobal bazarda sərhədlər qaldırılır və informasiya texnologiyaları rəqabət mühitini sərhədlərdən kənara çıxarır fərqli təcrübələrin bir-birinə inteqrasiya olunmasına şərait yaradır.

Müəssisələr qlobal bazara çıxdıqları şəraitdə dünyanın demək olar ki, bütün bazarlarında yer almaq imkanı ilə heç vaxt tanımadığı oyunçularla rəqabət aparmalı olurlar. Buna paralel olaraq,  rəqabət apara bilməsələr belə həmin təcrübələrdən yararlanaraq inkişaf əldə edirlər. Rəqiblərin indi daha güclü olması və öyrənən təşkilatların güclənməsi və bazarlarda görünməsi qlobal bazarda qlobal rəqabəti də özü ilə gətirir.
Bu periodda müəssisələrdə maliyyə qərarlarının verilməsinin təkmilləşdirilməsi, yeniliklərin edilməsi üçün ilkin mərhələ müəssisənin pandemiyadan öncəki və pandemiya dönəmindəki fəaliyyətini və vəziyyətini müqayisə etməkdir (Baldwin və Mauro, 2020).

Pandemiya prosesində biznesin davamlılığı fərziyyəsinin davam edib-etməməsi ilə bağlı narahatlıqlar və qiymətləndirmələr əsasən biznesin likvidlik-pul vəsaitlərinin hərəkəti görünüşü ilə həll olunur.

Bunun üçün ən effektiv yollardan biri xərclərin uçotunun aparılmasıdır. Belə ki, bu yolla maliyyə menecerləri müəassisənin kapitalının istifadəsi və bölüşdürülməsinin effektiv aparılma dərəcəsinin , istehsal fəaliyyətini illər üzrə müqayisə edərək müddət ərzində inkişafın hansı səviyyədə olduğunun, istehsala çəkilən xərclərin effektivliyinin, mənfəətlilik səviyyəsinin artıb –artmadığının müəyyənləşdirilməsi mümkün olur. Dövriyyə kapitalının təhlili likvidlik və gəlirlilik arasındakı əlaqəni müəyyən edir. Bu analiz biznesin borclarının ödənilməsi, fəaliyyət həcminin artırılması və rəqib müəssisələr üzərində üstünlük əldə edilməsi ilə sıx bağlıdır və biznesin gəlirlilik və likvidlik kimi məqsədlərinə təsir edən əsas amillərdən biridir. Dövriyyə kapitalının təhlilinin xərclərin uçotu sisteminin inkişafına töhfə verməsi üçün dövriyyə aktivləri, qısamüddətli öhdəliklər, ümumi və xalis dövriyyə kapitalı nəzərə alınmalıdır.

Xərclərin uçotunun aparılmasının bir neçə növü mövcuddur. Ümumilikdə bu növlər müəssisənin bütöv fəaliyyəti barədə fikir sahibi olmağa imkan yaradır (Periasamy, 2010). Ilk mərhələ produktivliyin yoxlanmasıdır. Səmərəlilik təhlili istehsal olunan əmtəə və xidmətlərin miqdarı ilə bu miqdarda mal və xidmətlərin istehsalı üçün istifadə olunan vəsaitlər arasındakı əlaqə ilə əlaqədardır. Bu mərhələdə ehtiyatların idarə edilməsinin təhlili, ehtiyatların saxlanması siyasətlərinə və ehtiyatların qiymətləndirilməsi üsullarına diqqət yetirir. Bu yolla müəssisənin istifadə etdiyi materiallar, istehsal kəmiyyətləri, istehsal vaxtı, məhsulun maya dəyəri və saxlanma yeri haqqında məlumatlar əldə edilir. Səhmlərin idarə edilməsinin təhlilinin xərclərin uçotu sisteminin inkişafına töhfə verməsi üçün; satınalma siyasəti, fiziki yoxlama prosedurları, inventar idarəetməsi nəzərə alınmalıdırprosedurları, inventar idarəetməsi nəzərə alınmalıdır. İkinci mərhələ uyğunluğun ölçülməsidir. Bu mərhələdə müəssisəyə qoyulan kapitalla onun fəaliyyətinin, fəaliyyətə çəkilən xərclərin uyğunluğu, strategiyanın düzgün hədəflənməsi kimi məsələlərə aydınlıq gətirir. Üçüncü mərhələ isə hesabatlıq və uçotun düzgünlüyünün yoxlanmasıdır.

Covid-19 pandemiyası səbəbindən yaranmış yüksək qeyri-müəyyənlik səviyyəsi proqnozların daha az etibarlı olacağının və mahiyyət etibarilə qərar qəbulunun çətin olacağını müəyyənləşdirirdi. Şirkətlər onların fəaliyyətini davam etdirmək qabiliyyətinə dair əhəmiyyətli şübhələrə səbəb ola biləcək hadisələrlə bağlı əhəmiyyətli qeyri-müəyyənlikləri izah etməli, rəhbərlik pandemiyanın səbəb olduğu cari iqtisadi qeyri-müəyyənliyi və bazar dəyişkənliyini araşdırmalı, eyni zamanda şirkətin davam etmək qabiliyyətini qiymətləndirməlidir (Alhawal, Hoque və Nurunnabi, 2020). Şirkətlər həmçinin hesabat tarixindən sonra baş verən bütün hadisələri qiymətləndirməli və hesabat tarixindən sonra ortaya çıxan yeniliklərə səbəb olan hadisələri qiymətləndirməlidirlər.

Yeni prosesə hazır olmaq üçün, içində olduğumuz sektorda işimizi nələr gözləyir, müştəri vərdişləri necə dəyişəcək, hansı gələcək trendlər mövcud olacaq onları qiymətləndirmək və müəyyənləşdirmək lazımdır.

Xüsusən də kapital strukturuna malik kiçik müəssisələr öz kapitallarını gücləndirəcək alternativləri dəyərləndirməlidirlər.

Verilənləri və beynəlxalq təcrübəni ümumiləşdirsək maliyyə menecerlərinin bu dövr üçün öhdəliklərini aşağıdakı kimi təqdim edə bilərik:

Müəssisə menecerlərinin ən mühüm vəzifələrindən biri olan maliyyə səmərəliliyini artırmaq üçün qısa müddətdə aşağıdakı tədqiqatlar aparıla bilər:

- Qısa müddətdə səhmlərin satışa çevrilməsi,

- Debitor borclarının orta hesablama müddətinin azaldılması,

- Əsas kapital qoyuluşları ilə müqayisədə daha çox satış,

- Müasir marketinq texnikalarından istifadə etməklə satışlarının artırılması,

- Mövcud müştərilərin müəssisə ilə davamlı əməkdaşlıqlarının davam etdirmələrini təmin etmək,

- İnternetdən istifadə edərək material sifarişini daha qənaətli etmək,

- Daha az dövriyyə vəsaiti ilə fəaliyyətlərin həyata keçirilməsi.

Çünki, əgər müəssisələr öz aktivlərinin dövriyyəsini (maliyyə səmərəliliyini) artırmaq istəyirlərsə, ya aktivlərinin həcmini azaltmalı, ya da satış gəlirlərini artırmalıdırlar. Məcmu aktivlərə nisbətən biznes həcminin maksimuma çatdırılması maliyyə səmərəliliyinin artırılmasında vacibdir. Rasional biznes menecerləri mənfəətlərinin istifadə etdikləri resurslara nisbətini artırmağa və maksimumlaşdırmağa çalışırlar. Bunun yolu resursdan istifadədə səmərəliliyin, yəni maliyyə səmərəliliyinin artırılmasıdır. Mənfəət artımı maliyyə səmərəliliyini artırmadan müsbət inkişaf hesab edilə bilməz.

**Nəticə və Təkliflər**

Pandemiyanın bütün dünyanı təsir dairəsinə alması keçən dövr ərzində hər kəsi mövcud vəziyyətdən ən az zərərlə çıxış yolu tapmağa və ya mövcud vəziyyətə hansı yolla uyğunlaşmağın mümkün olacağını müəyyənləşdirməyə vadar etmişdir. Pandemiyanın təsirlərini həm makro, həm də mikro iqtisadi səviyyədə yumşaldılmasına göstərilən cəhdlər müəyyən mənada öz təsirini effektiv göstərmişdir. Müəssisələr tərəfindən effektiv qərar qəbulu prosesinin həyata keçirilməsinədək bir neçə proses mövcuddur. Bu mərhələlər müəssisənin maliyyə göstəricilərinin təhlili ilə başlayır. Tədqiqatın gedişatında da müəyyən olunmuşdur ki, maliyyə hesabatlarının hazırlanması standartlara uyğun və şəffaf olduğu halda bu göstəricilərlə aparılan təhlil də lazımi nəticənin əldə olunmasında kifayət qədər mühüm pay sahibi olur. Maliyyə təhlili zamanı müəssisədə olan işlərin vəziyyəti haqqında bütün məlumatlardan istifadə edilir. Müəssisənin gələcəkdə müvəffəqiyyətlə inkişafı üçün mütləq onun inkişafının mümkün variantlarını tədqiq etmək və arzu olunan nəticələrin əldə olunması üçün metodlar hazırlanmalıdır.

Müəssisənin fəaliyyətinin mərhələrindən asılı olaraq qərar qəbulu prosesi dəyişir. Müəssisədə maliyyə qərarları dedikdə yalnız əlavə kapital cəlbi üçün planlama aparılması deyil, mövcud olan resursların effektiv idarəsi nəzərdə tutulur. Bunun üçün də əsas alət maliyyə əmsallarıdır. Tədqiqat işində də aydın göstərildiyi kimi maliyyə əmsallarının müəssisəylə bağlı proqnozlar verilməsində, qəarar qəbulu prosesində, öz sektorundakı mövqeyinin müəyyənləşdirilməsində rolu böyükdür. Müəssisənin fəaliyyət göstərdiyi sektordan

asılı olaraq təhlil prosesində müəyyən fərqlər mövcud ola bilər. Lakin, müəssisələrin əksəriyyətinə tətbiq oluna biləcək proqnozlaşdırma metodları oxşardır.

Aparılan araşdırma nəticəsində müəssisənin fəaliyyətinin davamlılığını təmin etməsi, effektiv idarə olunmasına nail olunması, sektorda sahib olduğu mövqeyinin qorunub saxlanılması üçün atacağı addımlar bir çox göstəricilər üzrə oxşardır. Belə ki, əsas məsələlərdən biri likvidlik səviyyəsinin aşağı olmasından qaçınılması əsas məqsədlərdən biri olmalıdır. Müəssisənin nağd pul vəsaitlərinin dövriyyəsinin sürətləndirilməsi və yaxşılaşdırması istiqamətində müəyyən yanaşmalar mövcuddur ki, müəssisələr bu üsullardan istifadə edərək öz dövriyyəsinin sürətləndirilməsinə nail olurlar. Bunlar aşağıdakılardan ibarətdir ;

- müəssisələri tərəfindən normalaşdırmanın təkmilləşdirilməsi
- istehsalın intensivləşdirilməsi
- məhsulları material tutumunun nisbətən aşağı salınması
- satıcı ilə alıcı təşkilatlar arasında daimi və optimal əlaqələrin qurulması

Qalan hədəflər isə müəssisənin fəaliyyət sahəsindən asılı olaraq dəyişə bilər.Beləliklə, araşdırma nəticəsində əldə olunanları və beynəlxalq təcrübəni ümumiləşdirsək maliyyə menecerlərinin bu dövr üçün öhdəliklərini aşağıdakı kimi təqdim edə bilərik:

Müəssisə menecerlərinin ən mühüm vəzifələrindən biri olan maliyyə səmərəliliyini artırmaq üçün qısa müddətdə aşağıdakı tədqiqatlar aparıla bilər:

- Qısa müddətdə səhmlərin satışa çevrilməsi,
- Debitor borclarının orta hesablama müddətinin azaldılması,
- Əsas kapital qoyuluşları ilə müqayisədə daha çox satış,
- Müasir marketinq texnikalarından istifadə etməklə satışlarının artırılması,
- Mövcud müştərilərin müəssisə ilə davamlı əməkdaşlıqlarının davam etdirmələrini təmin etmək,
- İnternetdən istifadə edərək material sifarişini daha qənaətli etmək,
- Daha az dövriyyə vəsaiti ilə fəaliyyətlərin həyata keçirilməsi.

**İstifadə Olunmuş Mənbələr**


1. “Accounting considerations related to the coronavirus 2019 disease. IFRS in Focus” Deloitte. (2020a).
2. “Accounting implications of the effects of coronavirus. In Depth - A Look at Current Financial Reporting Issues” PwC. (2020a)
3. Baldwin, R. ve Mauro, B. W. di.(2020) “Mitigating the Covid economic crisis: Act fast and do whatever it takes. London” CEPR Press
4. Beck T., Asli D.K., Vojislav M.(2008)“Financing patterns around the world: are small firms different?” Journal of Financial Economics, pp 467-487
5. Bezemer, D.J.(2010) “Understanding financial crisis through accounting models”, Accounting, Organization and Society Journal,volume 35, issue 7, pages 676-688
6. Evrim V., Altuk (2021). “The impact of covid-19 on accounting and auditing: a literature review”, Denetişim dergisi sayı 22
7. Fisman R., Inessa L. (2003).“Trade Credit, Financial Intermediary Development, and Industry Growth.”, The Journal of Finance vol LVIII no1,03, pp 354-374
8. Fletcher, M., R. Freeman, M. Sultanov and U. Umarov (2005).“Leasing in Development. Guidelines for Emerging Economies”; World Bank Document,2005, International Financial Corporation Publication

9. Mohammad Nurunnabi, Hisham Mohammed Alhawal, Zahirul Hoque (2020). “Impact of COVID-19: How CEOs Respond to SMEs Recovery Planning in Saudi Arabia”. Monshaat and Prince Sultan University, White Paper 03, June 2020

10. Nizamani F., and Maran M. (2015). “Small and Medium Enterprises: Asymmetric Information and Critical Factors Affecting Bank Financing.” Advanced Finance Letters, volume 21, number 5 pp 1615-1618

11. Periasamy, P.(2010) “A Textbook Of Financial Cost and Management Accounting. Hindistan” Himalaya Publishing House

12. Sami Karacan (2020). “Possible effects of a new type of coronavirus (covid-19) on financial statements”. Journal of International Social Research, vol.13, pp 944-951

1. Barış S., Aylin Poroy A.(2010)“ Finansal Raporlamada Yeni Yaklaşımlar”, Öneri Dergisi 2010, cilt 9 sayı 33, s.51-57

2. Hakan Çavlak (2020). “Covid-19 pandemisinin finansal raporlama üzerindeki olası etkileri: BİST 100 endeksindeki işletmelerin ara dönem finansal raporlarının incelenmesi”. Gaziantep Unoversity Jorunal of Social Sciences, 19, 143-168

3. Mughal, S. (2006). ”İşletmelerde Karar Verme Açısından Katkı Payı Analizi ve Bir Uygulama”. Kocaeli Üniversitesi – Sosyal Bilimler Enstitüsü / Yüksek Lisans Tezi

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİMİZDƏ YENİ İQTİSADİYYAT QURUCULUĞU VƏ LOGİSTİKANIN STRTATEJİ ƏHƏMİYYƏTİ

**Hacıyeva Aytac**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**aytaj_hajiyeva@unec.edu.az**

## Xülasə

Mövzu üzrə əsas tədqiqat sualı bölgənin iqtisadi potensialının və tranzit imkanlarının diversifikasiyasında rolunun araşdırılmasıdır. Qeyd olunan araşdırma istiqamətində məqalədə regionun tarixi, əlverişli coğrafi mövqeyi, erməni vandalizmi nəticəsində məruz qaldığı iqtisadi zərər, infrastrukturunun dağıdılması, ölkə iqtisadiyyatı miqyasında bölgənin əhəmiyyəti, əvvəlki dövrlərdə regionun iqtisadiyyatının səciyyəsi, xüsusiyyətləri, bölgənin müasir dövrdə iqtisadi inkişaf perspektivləri, infrastrukturu, iqtisadi potensialı eləcə də, regional miqyasda bölgənin rolu, tranzit potensialı və alternativlərlə müqayisəsi araşdırılmışdır. Bundan əlavə, hasilat sənayesinin inkişaf etdirilməsi məqsədi ilə perspektivləri baxımından regionun geoloji quruluşu, mineral və hidroresurs ehtiyatları və bu ehtiyatların ümumi iqtisadiyyatın inkişafına təsir perspektivləri, avtomobil və hava nəqliyyat infrastrukturu, turizm potensialı, ərzaq təhlükəsizliyinin təmini məqsədi ilə kənd təsərrüfatı və heyvandarlığın inkişaf perspektivləri təhlil edilmişdir.

Mövzunun sonunda hazırda regionda aparılan quruculuq işləri çərçivəsində bölgənin enerji təchizatının bərpası üçün infrastrukturun hazırlanması, Qarabağ və Şərqi Zəngəzurda inşa olunan avtomobil yolları, hava nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi, quruculuq işlərinin icrası istiqamətində xarici ölkələrin şirkətləri ilə konkret əməkdaşlıq barədə məlumat verilir və müvafiq nəticə və təkliflər təqdim edilir.

**Açar sözlər:** iqtisadi potensial, infrastruktur, tranzit, logistika

## Abstract

The main research question on the topic is to study the role of the region in the diversification of economic potential and transit opportunities. The article covers the history of the region, favorable geographical position, economic damage caused by Armenian vandalism, destruction of infrastructure, the importance of the region in the country's economy, the pecularities of the region's economy in the past, the region's economic development prospects, infrastructure, economic potential and, the role of the region at the continental level, transit potential and comparison with alternatives. Additionally, in terms of development prospects of the mining industry, the geological structure of the region, mineral and hydro resources and prospects for the impact of these resources on the overall economy, highway and air transport infrastructure, tourism potential, agricultural and livestock development prospects to ensure food security.

At the end of the topic, information is provided on the preparation of infrastructure for the restoration of energy supply in the region, the construction of roads in Karabakh and East Zangazur, the development of air transport infrastructure, cooperation with foreign companies in the implementation of construction work and the results and recommendations are presented.

**Keywords:** economic potential, infrastructure, transit, logistics

## Giriş

Vaxtilə Osmanlı imperiyasında özünü "loyal millət" (Dawisha & Parrott, 1997) kimi tanıtmağı bacarmış, lakin I Dünya Müharibəsində isə naxələflikdən çəkinməyən, bolşeviklərin yanında da yenidən öznü "loyal millət" qismində qələmə verən erməni xalqı nədənsə qərara gəlir ki Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiaları qaldırmaq sona nə isə qoparmağa imkan verəcək. Tarixi hadisələri yaxşı xatırlayırıq; geosiyasi oyunların necə oynanıldığı da sirr deyil. Neft Azərbaycan xalqına gələcəyini qurmağa ümid yeri olsa da cəmiyyəti vətəndaş

müharibəsi həddinə çatdırmış konflikt kimlərinsə əlində bir bazar aləti idi. Geriyə baxanda, göz önünə pis mənzərə durmur. Karbohidrogen ehtiyatlarını reallaşdırmağa yaradılmış nəqliyyat infrastrukturu özül olaraq Azərbaycanı nəqliyyat qovşağına çevirməkdədir. Azərbaycan Neftini dünya bazarına çıxaracaq infrastruktur hazır olan məqama isə, neftin dünya bazar qiyməti əlverişli səviyyəyə yüksəldi. 2005-2007-ci illərdə ölkə ÜDM kifayət qədər yüksək templər hesabına 2.1 dəfədən də çox artmışdır (Azərbaycan Dövlət Statistika Komitəsi. "Azərbaycan Milli Hesabları" Statistik məcmuə, 2009).
Həmin müddət ərzində Azərbaycana təcavüz etmiş Ermənistan nəinki inkişaf etmiş, hətta özünü regionun aparıcı iqtisadi layihələrindən kənarda qalmasına çarə tapa bilməmişdir. Azərbaycan iqtisadiyyatı və dövlətçiliyi paralel inkişaf edir, paralel möhkəmlənirdi. Zaman sübut edir ki, Ermənistan materialist dünyada heç kimə lazım deyil. O sadəcə təzyiq alətidir – həm Osmanlı İmperiyasının varisi Türkiyəyə, həm də resurslarla zəngin Azərbaycana.

Azərbaycan Respublikası ərazilərinin işğalına heç bir müstəvidə haqq qazandıra bilməyən Ermənistan rəhbərliyinin 1994-cü ildən davam edən danışıqlar prosesini dalana dirəməsindən sonra Azərbaycan Respublikası zamanı boşuna itirmədiyini və bütün sahələrdəki uğurları ilə bərabər müzəffər ordu quruculuğunu da uğurla həyata keçirdiyini, ərazilərimizin azad edilməsi üçün 27 sentyabr tarixində başlanan hərbi əməliyyatların hərb tarixində iz buraxacaq səmərəliliklə yerinə yetirilməsinin mümkünlüyünü dünyaya göstərdi. Hollandiyanın Oryx müharibə tədqiqat qrupunun təsdiqi ilə birgə təqdim etdiyi hesabata əsasən Azərbaycan ordusu düşmənin 255 tankını, 78 zirehli döyüş maşınını, 82 piyadaların döyüş maşınını, 29 özüyeriyən artileriya qurğusunu, 250 top, 85 reaktiv yaylım atəş sistemini, 149 tank əleyhinə idarə olunana raketini, 2 ballistik raketini, 39 yer-hava tipli raket sistemini, 18 radar və 737 avtomobil texnikasını məhvə etmiş və ya qənimət kimi ələ keçirmişdir[4].
44 gün davam edən hərbi əməliyyatlar 8262 $km^2$ ərazilərin işğaldan qaytarılmasını və İran-İslam Respublikası ilə dövlət sərhəddinə nəzarətin tam bərpasını təmin etdi,[5] Cənubi Qafqaz regionunda Azərbaycanın hansı geosiyasi-strateji mövqeyinin olması barədə dünya ictimaiyyətini xəbərdar etdi.

Lakin təəssüf ki arzuların reallaşdırılması üçün bu hələlik kifayət deyil. İşğal müddətində vurulmuş misilsiz iqtisadi zərər, ardınca isə təsərrüfatsızlığın səbəb olduğu dağıntı eroziya və itkilərlə bərabər, ərazi hərbi əməliyyatların miras qoyduğu partlamamış sursatlar və düşmənin minaların qadağan olunması üzrə 1997-ci il Ottava Konvensiyasının tələblərinə məhəl qoymadan basdırdığı və təmizləməyə heç səy də göstərmədiyi (Convention on the prohibition of the use, stockpiling, production, and transfer of anti-personnel mines and on their destruction, 1997) minaların təhlükəsi ilə formalaşmış fəlakət zonasıdır. (Victor, Sidel, Barry, Levy, and Jonathan, 2009).
İşğal altında qalmış ərazilərə düşmənin vurduğu zərərin miqyası çox böyükdür. Misli görünməmiş talançılıq nəticəsində əvvəllər mövcud olmuş şəhərlər, yaşayış məntəqələri, kommunal və nəqliyyat infrastrukturu, zavod və fabriklər sadəcə olaraq yoxa çıxarılıb. Ekosistemə ciddi ziyan vurulub, meşələr məhv olunub. Su resurslarından düzgün istifadə olunmaması, döyüş əməliyyatlarının aparılması üçün müdafiə istehkamlarının qurulması, silah və sursatın dağıdıcı təsirləri ilə yanaşı tərkibindəki zərərli maddələrin deqradasiya edərək ətrafa yayılması ərazinin təkrara məskunlaşdırılmasından əvvəl ərazilərin təmizlənməsini tələb edir. Bu baxımdan vurulmuş zərərin qiymətləndirilməsini zəruridir. Belə ki, Vyetnam müharibəsi təcrübəsi göstərir ki, ətraf mühitə dəyən ziyan uzunmüddətli və davamlı fəsadlar törədə bilir (Almqvist & Wiksell, 1976).

[4] https://www.oryxspioenkop.com/2020/09/the-fight-for-nagorno-karabakh.html
[5] https://www.kavkaz-uzel.eu/blogs/83781/posts/45972

Məsafədən sensorların tətbiqi ilə ətraf mühitə dəymiş zərərin qiymətləndirilməsinin tətbiqi Fars Körfəzində aparılan hərbi əməliyyatlar zamanı Küveytdə ətraf mühitə dəymiş zərərin qiymətləndirilməsində effektiv vasitə kimi sınaqdan çıxarılmışdır (Dhari&Saif ud din, 2009).

İqtisadi zərərin qiymətləndirilməsinə gəlincə, dünya praktikasında qəbul olunmuş yanaşmaya əsasən ərazilərin bərpasının dəyəri əsas götürülür (Austin& Bruch, 2000).

Növbəti bölmələrdə işğal olunmuş ərazilərdə mövcud olmuş infrastruktur haqqında daha geniş bəhs olunacaqdır.

Minilliklər və əsrlər boyu incələnərək ərsəyə çıxarılmış və qorunaraq nəsillər üçün yadigar sdaxlanılan mədəniyyət nümunələrinə vurulmuş ziyanı təsvir etmək bu mövzunun predmeti olmasa da, 738 abidə, 83500-dən çox eksponatı olan 28 muzey, 4 şəkil qallereyası, 1107 mədəniyyət evi və 14 xatirə kompleksini əhatə edən 1891 mədəniyyət abidəsinin  işğalı və talan edilməsi Azərbaycana qarşı yürüdülən düşmənçiliyin miqyası barədə təssəvvür yaradır (War Against Azerbaijan Targeting Cultural Heritage, 2007).

Hazırda sülh razılaşmasının əldə olunması istiqamətində siyasi səylər göstərilir, hansı ki iqtisadi potensialın reallaşmasına təməl funksiyasını yerinə yetirəcəkdir.

Mövzu üzrə əsas tədqiqat sualı bölgənin iqtisadi potensialının və tranzit imkanlarının diversifikasiyasında rolunun araşdırılmasıdır.

Bu məqalənin davamı aşağıdakı kimi formalaşdırılmışdır: Region iqtisadiyyatının xüsusiyyətləri bölməsində ölkə iqtisadiyyatı miqyasında bölgənin əhəmiyyəti, əvvəlki dövrlərdə iqtisadiyyatın səciyyəsi verilmişdir. İşğaldan azad edilmiş ərazilərin iqtisadi inkişaf perspektivləri bölməsində bölgənin müasir dövrdə inkişaf perspektivləri, infrastruktur obyektlərinin təmin olunması istiqamətində yerinə yetirilən işlər şərh olunmuşdur. Tranzit imkanlarının diversifikasiyasında bölgənin rolu bölməsində qlobal, o cümlədən regional miqyasda bölgənin rolu, tranzit potensialı və alternativlərlə müqayisəsi verilmişdir. Tədqiqatdan çıxarılan nəticələr ümumiləşdirilərək əlavə olunmuş, sonda isə istinad olunmuş ədəbiyyatın siyahısı verilmişdir.

**İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı**

İşğaldan azad olunmuş ərazilərdə iqtsadi quruculuq üçün vacib olan məsələlərdən biri bölgənin potensial müqayisəli üstünlük sahələrinin müəyyən edilməsidir. Həm ölkədaxili, həm də beynəlxalq üstünlüklərin müəyyənləşdirilməsi zamanı işğaldan azad olunmuş ərazilərin iqtisadi resursları, işğala qədərki ənənəvi məşğulluq, bacarıq, vərdiş və peşəkarlıq səviyyəsi nəzərə alınmalıdır. Həmçinin, bu ərazilərlə ölkənin digər rayonları arasında istehsal-emal-satış zəncirindəki qarşılıqlı əlaqələr dəyərləndirilməlidir. Son rəqəmsal metodologiyalardan istifadə etməklə bölgə üçün müqayisəli üstünlük sahələrinin də müəyyən edilməsi vacib amildir.

Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi resursları, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Bundan səmərəli yararlanmaq üçün ilkin olaraq müvafiq infrastrukturun yaradılması vacib amildir. Bunu nəzərə alaraq Azərbaycan dövləti bu istiqamətdə kompleks tədbirlər planı əsasında hazırlıq işlərini artıq başa çatdırmış və bu istiqamətdə intensiv fəaliyyət davam etdirilir. Yaradılan infrastruktur təkcə Şərqi Zəngəzur iqtisadi rayonu üçün deyil, həm də Azərbaycan və bütün region ölkələrinin inkişafında əsas amilə çevriləcəkdir. Şərqi Zəngəzur iqtisadi rayonunda əlvan metallurgiyanın inkişafı üçün yüksək potensial mövcuddur. Belə ki, ərazidə qızıl, civə, xromit, mərmər, perlit, üzlük tikinti daşları, koral və digər faydalı qazıntı ehtiyatları çoxşaxəli iqtisadiyyatımızın inkişafında xüsusi rola malikdir. İşğaldan azad edilmiş ərazilərdəki qızıl yataqlarının innovativ texnologiyaların tətbiqi vasitəsi ilə istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatının

2. В целях повышения эффективности антикризисного управления в соответствии с данным разделом следует создать Совет по мерам, планированию и координации в связи с пандемией с участием различных сегментов. Заседания этого комитета в определенные сроки, например, не позднее чем через полгода (разумеется, чаще в первые дни).
3. Совет должен разработать краткосрочные и среднесрочные планы, программы и планы действий по преодолению кризиса Covid-19, включая меры и правила, а также экономические и

социальные меры, политику и положения, которым необходимо следовать в следующий период, в частности бороться с безработицей.

**Список Литературы**


1. Hultman, K. (2020). Building a Culture of Employee Optimization. Organization Development Journal. https://s3.amazonaws.com/academia.edu.documents/63277276 01.06.2020
2. John-Eke. (2020). Strategic Planning and Crisis Management Styles in Organizations: A Review of Related Literature. Journal of Strategic Management, Vol. 5, Issue 1, pp 36-46.
3. Kırpık, G. (2020). "Örgütsel Davranış Çalışmalarında Yeni Kavramlar: Google Akademik (2019) ve SCI (2020) Veri Tabanlarına Yönelik Sistematik Literatür Taraması", Örgütsel Davranış Üzerine Güncel Çalışmalar (Ed. Müjdat Avcı ve Ergün Kara). İstanbul: Hiperyayın.
4. Koirala, J. and Acharya, S. (2020). Dimensions of Human Resource Management Evolved with the Outbreak of COVID-19 (April 24, 2020). Available at SSRN: https://ssrn.com/abstract=3584092or http://dx.doi.org/10.2139/ssrn.3584092
5. Krishnamurthy, S. (2020). The Future of Business Education: A Commentary in the Shadow ofthe Covid-19 Pandemic, Journal of Business Research, doi: https://doi.org/10.1016/j.jbusres.2020.05.034 A.D.: 30.05.2020
6. Lahtinen, S. (2020). Reframing the Role of Companies in Sustainability- Toward business sustainability transitions. The Faculty of Management and Business of Tampere University, https://trepo.tuni.fi/bitstream/handle/10024/121641/978-952-03-1559-7.pdf?sequence=5&isAllowed=y 01.06.2020
7. Nastopoulous, C. (2020). A Scenario-Based Analysis on the Impact of COVID-19 on the Public Sector, Private Sector, and International Business. Senior Theses, University of South Carolina, Moore School of Business. https://scholarcommons.sc.edu/senior_theses/379/ A. D.: 30.05.2020
8. Nguyen, N. (2020). Thematic analysis of the effects of COVID-19 on Vietnamese micro-entrepreneurs in the service business in Finland. https://www.theseus.fi/handle/10024/340094 A. D.: 30.05.2020
9. Qasim, M. and Alavandi, T.S.S. (2020). Exploring Adult Education& Employee Motivation: A Reiteration of Theoretical Perspective. The Place Names Society of India, Volume 40, Issue 60, 1723-1733.
10. Sengupta, G. and Bose, P. (2020). Preparing for Post COVID-19 Sustainable Supply Chain. International Journal of Management, IT & Engineering, Vol. 10, Issue 05, 200-209.
11. Shen, E. (2020). Global Virus of the Digital Village COVID-19 and Senism. Eurasian Journal of Researches in Social and Economics, 7 (3), 176-204.
12. Ting, H., Ling, J. and Cheah, J. H. (2020). Editorial: It Will Go Away!? Pandemic Crisis and Business in Asia. Asian Journal of Business Research, Volume 10, Issue 1, pp 1-7. DOI: 10.14707/ajbr.190072
13. Wangila, F. (2020). Organizational Cyber-Security Measures during COVID-19 Epidemic. International Journal of Innovative Science and Reserach Technology, Volume 5, Issue 3, 1340-1341.
14. Wen, J., Kozak, M. (2020). COVID-19: potential effects on Chinese citizens‟ lifestyle and travel. Tourism Review, Vol. ahead-of-print No. Ahead-of-print. https://doi.org/10.1108/TR-03-2020-0110 A. D.: 30.05.2020

15. Yap, J. (2020). Average to Aces: Sharing Lives, Living Better Lives. books.google.com https://books.google.com.tr/books?hl=tr&lr 01.06.2020Willig, C. (2008). A Phenomenological Investigation of Taking Part in „Extreme Sports‟. Journal of Health Psychology. Vol. 13, No. 5, 690-702.

# İŞĞALDAN AZAD EDİLMİŞ REGİONLARIN İNKİŞAFI MİLLİ STRATEGİYANIN VƏ DÖVLƏT TƏNZİMLƏMƏSİNİN REALLAŞDIRILMASI VASİTƏSİ KİMİ

**Baba Məmmədov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**baba.mammadov89@gmail.com**

**Ülviyyə Əmirova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**amirova_ulya@yahoo.com**

## Xülasə

Tədqiqatın məqsədi işğaldan azad edilmiş iqtisadi rayonlarda milli strategiyanın reallaşması çərçivəsində həyata keçirilən tədbirləri qeyd etmək, mövcud problemləri təhlil etmək, dövlətin regional strategiya və siyasətinin xüsusiyyətlərini açıqlamaq, bərpa və inkişafın yüksəldilməsinin praktiki həll yollarını müəyyən etməkdir. Məqalədə regionların milli inkişaf strategiyasının həyata keçirilməsində iştirakına dair nəzəri yanaşmalar qeyd edilmiş, işğaldan azad edilmiş ərazilərin dövlət tənzimlənməsinin praktiki əhəmiyyəti tədqiq edilmişdir. Tədqiqat zamanı müşahidə, təhlil, müqayisə metodlarından istifadə edilmişdir. İşğaldan azad edilmiş iqtisadi rayonlar üzrə bərpa və yenidənqurmanın təmin edilmənin artırılması üçün təklif edilən tədbirlər dövlət orqanları və sahibkarlar tərəfindən istifadə edilə bilər. Sosial-iqtisadi, ekoloji göstəricilərin təhlili göstərir ki, bu regionlarda bərpa və yenidənqurma işləri son 2 ildə dövlət tərəfindən xüsusi diqqət yetirilməklə aktiv şəkildə həyata keçirilir. Lakin işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurmanın təmini üçün yeni rəqəmsal texnologiyalara əsaslanan innovativ nəzarət və koordinasiya mexanizmlərə ehtiyac var. İşğaldan azad edilmiş iqtisadi rayonlar üzrə idarəetmə, təşkil və planlaşdırma üzrə təklif edilən tədbirlər yenidir.

**Açar sözlər:** iqtisadi rayon, region, strategiya, tədbir, bərpa

## Abstract

The purpose of the study is to highlight the measures taken in the implementation of the national strategy in the liberated economic regions, to analyze the existing problems, to explain the features of the regional strategy and policy of the state, to identify practical solutions for recovery and development. The article highlights theoretical approaches to the participation of regions in the implementation of national development strategies and explores the practical significance of state regulation of liberated territories. Observation, analysis, and comparison methods were used during the research. The proposed measures to increase the recovery and reconstruction of the liberated economic regions can be used by government agencies and entrepreneurs. The analysis of socio-economic and environmental indicators shows that the restoration and reconstruction work in these regions has been actively carried out by the state with special attention over the past two years. However, innovative control and coordination mechanisms based on new digital technologies are needed to ensure recovery and reconstruction in the liberated areas. The proposed measures for the management, organization and planning of the liberated economic regions are new.

**Keywords**: economic region, region, strategy, measure, recovery

## Giriş

Davamlı inkişaf üçün əsas şərt milli strateji məqsədləri və onun uzunmüddətli istiqamətlərini müəyyən etməkdir. Bu zaman dövlət iqtisadiyyata təsir göstərmək üçün bir sıra sənədlərdən istifadə edir ki, onlar da öz növbəsində strateji inkişafı idarəetmə prosesini daha səmərəli edir.

İşğaldan azad olunmuş ərazilərin iqtisadiyyatı həm siyasi-tarixi, həm də hüquqi, sosial - iqtisadi baxımdan son 25 ildə diqqət mərkəzində saxlanılıb. Bu regionların potensialı hazırda da müxtəlif səviyyəli dövlət

sənədlərində təhlil edilir, strateji baxış müəyyən edilmişdir. Lakin bu ərazilərin inkişafı milli strategiyanın reallaşma istiqaməti kimi tam şəkildə aparılmamışdır.
44 günlük İkinci Qarabağ Vətən Müharibəsindəki qələbədən sonra regionların yenidən qurulması, bərpası və nəhayət, sosial-iqtisadi inkişafını sürətləndirmək, işğaldan azad edilmiş regionlarla digərlərinin inkişafındakı fərqlərin aradan qaldırılmasının dövlətin prioritet vəzifəsi kimi təsdiqləməsi işğaldan azad edilmiş iqtisadi rayonların sosial-iqtisadi inkişafının başlıca istiqamətlərinin müəyyənləşdirilməsini, milli strategiyadan irəli gələn dövlət tədbirlərinin yenidən dəyərləndirilməsini və təkmilləşdirilməsini zəruri edir. Bunun üçün strateji baxışı müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bğlı Konsepsiya", "Azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli məqsədilə hazırlanmış Strateji Fəaliyyət Planı" və 59 dövlət orqanı, müəssisə və təşkilatının cəlb edildiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmış, Qarabağ Dirçəliş Fondu, "Yaşat" Fondu təsis edilmişdir (https://e-qanun.az; https://president.az/az/articles/view/31697; https://report.az/qarabag/isgaldan-azad-edilmis-eraziler-uzre-elaqelendirme-qerargahinin-novbeti-iclasi-kecirilib/).
Bu tədbirlər fonunda işğaldan azad edilmiş iqtisadi rayonların dirçəlişi, əhalinin işğaldan azad edilmiş torpaqlara və evlərinə qayığışı istiqamətində də tədbirlərin davam etdirilməsi müşahidə edilir. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatında qeyd edilir ki, "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın və Qarabağ regionunun ölkə iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi üçün artıq 2020-ci ildə bölgənin şəhər və kəndlərinin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması, hərbi infrastrukturların tikintisi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, Silahlı Qüvvələrin hərbi bazasının yerli istehsal və xaricdən alınan hərbi texnika hesabına komplektləşdirilməsi və müharibə zamanı mülki əhaliyə dəymiş ziyanın örtülməsi, dağıdılmış yaşayış evlərinin, infrastrukturların bərpa edilməsi işlərinə başlanılmış və Azərbaycan Respublikası Prezidentinin və dövlət büdcəsinin ehtiyat fondlarından müvafiq maliyyə vəsaiti ayrılmışdır" (AR 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı, 2020). Göründüyü kimi bir çox rəsmi sənədlərdə işğaldan azad edilmiş regionların inkişaf tədbirləri xüsusi vurğulanır və bunun ölkə iqtisadiyyatı ilə müəyyən əlaqəsi qeyd edilir. Lakin bu rəsmi sənədlərin qəbulu ilə praktikada reallaşma zamanı mövcud ola bilən problemlərin tədqiqinə böyük ehtiyac var və bu da tədqiqatın mvzusunu aktual edir.
Tədqiqatımızın məqsədi işğaldan azad edilmiş iqtisadi rayonlarda milli strategiyanın reallaşması çərçivəsində həyata keçirilən tədbirləri təhlil etmək, mövcud problemləri qeyd etmək, dövlətin regional strategiya və siyasətinin xüsusiyyətlərini açıqlamaq, bərpa və inkişafın yüksəldilməsinin praktiki həll yollarını müəyyən etməkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri müəyyən etmişik:

- milli iqtisadi strategiyanın reallaşmasında regionların iştirakına dair nəzəri yanaşmanı öyrənmək;
- işğaldan azad olunmuş regionların iqtisadi potensialını təhlil etmək və hazırda milli iqtisadiyyatın inkişafına təsiri baxımından qiymətləndirmək.

Tədqiqat zamanı müşahidə, qruplaşdırma, statistik və analitik təhlil, müqayisə metodlarından istifadə edilmə nəzərdə tutulmuşdur. Ərazilərin uzun müddət işğalda olması nəticəsində tədqiqat üçün zəruri statistik məlumatların məhdud olması təhlillərin aparımasında çətinliklər yaradır.
Aparılan araşdırmalar nəzəri yanaşmaların fərqli səpgidə olduğunu göstərir.
Bachtler John və Yuill Douglas gələcək regional inkişaf siyasəti üçün institusional ilkin şərtləri qiymətləndirərkən, dörd problem qrupunu müəyyən etmişdir: "Birincisi, qloballaşmanın təsirləri var. Milli

iqtisadiyyatlar beynəlxalq iqtisadi inkişaflara getdikcə daha çox açıqdır, lakin milli hökumətlər getdikcə daha çox siyasətə reaksiya verməkdə çətinlik çəkirlər. Ölkələrin və bölgələrin beynəlxalq hadisələrə məruz qalmasının artması və dəyişikliklərin baş vermə sürəti və təsirlərinin qlobal miqyasda ötürülməsi iqtisadi inkişaf haqqında yeni düşüncə tələb edir. İkincisi, sosial rifahla bağlı problemlər yaranır. Sosial bərabərliyə ənənəvi bağlılığın və universal rifah siyasətinə kollektivist yanaşmanın, sosial təhlükəsizlik və əmək bazarı siyasətlərinin regional və milli rəqabət qabiliyyətinə olan təzyiqə uyğunlaşdırılması zərurətinin necə uzlaşdırılacağı sual doğurur. Üçüncüsü, davamlı inkişafın təsirlərinin hələ tam başa düşülmədiyi iddia edilir. İqtisadi inkişaf siyasətləri və strategiyaları dayanıqlılıq mövqeyindən ifadə edə bilsə də, bir çox problemlərin transregional və ya transmilli xarakteri, həm siyasətçilərin, həm də insanların mədəniyyət və mədəni modellərdə köklü dəyişikliklərə ehtiyacının olması səbəbindən planların minimal praktiki təsiri vardır. Nəhayət, gələcək çətinliklər və ilkin şərtlər yeni bir informasiya və kommunikasiya texnologiyası vədlərini əhatə edir. Avadanlıq və proqram texnologiyalarındakı inkişaflar həm regional inkişafın məqsədlərinə (məsələn, vəzifələrin və işlərin mərkəzsizləşdirilməsi və ya mərkəzləşdirilməsinə) kömək etmək və ya qarşı çıxmaq potensialına malikdir. Əlbəttə ki, kritik amillər infrastrukturun paylanmasıdır, eyni zamanda xidmətlərin mövcudluğu və əlçatanlığı və fərdlərin, icmaların və təşkilatların imkanlardan istifadə etmə qabiliyyətidir" (Bachtler John, Douglas Yuill, 2001). Həqiqətən də regional inkişafın milli strategiyanın reallaşma vasitəsi kimi təhlili bu dörd problem qrupunu nəzərə almağı tələb edir. Biz bu təsirlərin işğaldan azad edilmiş regionların inkişafı prizmasından dəyərləndirməyə çalışacağıq.

Marcin Bogdanskinin fikrincə "başqa bir çox regional inkişaf nəzəriyyələrinə, xüsusən də klassik nəzəriyyələrlə endogen inkişaf nəzəriyyələrin əsas fərziyyələri arasında fikir ayrılığı var. İqtisadi inkişafı müəyyən edən kapital yığımı və sərbəst ticarət prosesi nadir hallarda konvergensiyaya səbəb olur. Bəzi bölgələrin nisbətən yüksək investisiya cəlbediciliyi, xarici investisiyaların daha böyük axınına səbəb olur ki, bu da regional inkişaf mexanizminin öz-özünü idarə etməsinə gətirir. Yeniliklər və yeni texnologiyalar yaratmaq və uyğunlaşdırmaq qabiliyyətlərindəki fərqlər də vacibdir. Məhsul kimi bilik və texnologiyanın qeyri-müstəsna və rəqabət qabiliyyətli olmamasına baxmayaraq, onlardan istifadə edilən gəlirlər məkan baxımından çoxşaxəlidir" (Marcin Bogdanski, 2012). Hazırda bunun təcrübədə şahidi olmaq mümkündür. Ölkəmizdə regionların qeyri-bərabər inkişafa və investisiya baxımından cəlbediciliyi bunun bariz nümunəsidir. Onu da qeyd etməliyik ki, işğaldan azad olunmuş regionun iqtisadi siyasəti digər regional siyasətlərdən fərqlənməlidir. Richard M. McGahey haqlı olaraq qeyd edir ki, "regionlara öz sterategiyalarını işləyib hazırlamaq və ümumi identikliyi yaratmaq lazımdır. Əsas şəhərlər və böyük olmayan regional şəhərlər arasında münasibətlər onlar bir regiona aid olsalar da belə, məhsuldar deyil. Bu siyasi məsələlər, vergiqoyma və milli xüsusiyyətlər, müxtəlif stimullarla birgə şəhərətrafı ərazilərin inkişafına, regionun vahid iqtisadi taleyini görməyə imkan verir. Fərqli baxışların dəyişdirilməsi və regional identikliyin yaradılması müvəffəqiyyət üçün həlledici əhəmiyyət daşıyır" (Richard M. McGahey, 2016).

Regional inkişaf kontestindən araşdırmalar, problemli regionlara dövlətin strategiya və siyasətinin həyata keçirilməsi ərazisi kimi baxılması bir çox elmi tədqiqatlarda öz əksini tapmışdır. Haqlı olaraq Samir Makdisi və Raimundo Soto qeyd edirlər ki, „bir tərəfdən, iqtisadi siyasət, münaqişələrin təkrarlanma riskini minimuma endirməyi, iqtisadi qurumlara inamı bərpa etməyi, məşğulluq yaratmağı və investisiyanı artırmağı, dövlətin ev təsərrüfatları və icmalar üçün təhlükəsizliyi təmin etmək, qanunun aliliyini tətbiq etmək və həyata keçirmək qabiliyyətini artırmağı hədəfləməlidir" (Samir Makdisi, Raimundo Soto, 2020).

Düzgün olaraq qeyd edilir ki, "regionun əsas şərtlərindən biri ölkənn inzibati ərazi bölgüsü ilə bağlı idarəetmədir. İdarəetmə müəyyən dərəcədə regionun tamlılığına yönəldilməlidir, belə ki, inzibati ərazi

orqanları ümumi təsərrüfatın bütün elementləriin – maddi istehsal, təbii sərvətlər potensialı, infrastruktur, əmək ehtiyatları, habelə müəyyən məkan və zaman davamlılığına malik əlaqələr müxtəlifliliyinin (ticarət, maliyyə, sosial, ekoloji, istehsalat) koordinasiyasını təmin etməlidir" (Mahmudov M, Mahmudova İ., 2011, səh.20). Q.K.Kameron regionların sosial-iqtisadi inkişafına dövlət müdaxiləsini əks etdirən cərəyanların 3 qrupda - müdaxilə etməyənlər, adaptasiya tərəfdarları, radikal islahatçılar adı altında birləşdirildiyi müəyyən edilmişdir (Gordon C. Cameron, 2017). Lakin son illər iqtisadiyyata dövlət müdaxiləsinin minimuma endirilməsi ilə bağlı diskussiyalar artıq və bu, fərqli idarəetmə və tənzimləmə modelinin hazırlanması ilə bağlı tədqiqatları zəruri edir. V.V. Kotilko tədqiqatlarında regional siyasətin metodlarına geniş yer verərək onların xüsusiyyətlərini açıqlamışdır. O, regionların ümumi - iqtisadi və hüquqi mühiti formalaşdırdığı və yalnız müəyyən normativ-hüquqi aktların qəbulu ilə mövcud problemlərin həll edilə bilməsi haqda fikirlərin olmasını uzun müddət ərazilərin özünəməxsusluqlarının qəbul edilməməsi ilə nəticələnməsinə səbəb olduğunu göstərmişdir (Котилко В.В., 2001 s.5). A.Torre və F. Vallet qeyd edirlər ki, "ərazi idarəçiliyi daim inkişaf edir və mexanizmləri buna görə tam sabitləşməyib və mübahisə mövzusudur... İştirakçı və informasiya mexanizmlərinin dəsti qərarların qəbul edilməsini və ictimai qaydada qəbul edilməsini asanlaşdırmaq məqsədi daşıyır, ünsiyyətdən danışıqlara qədər artan iştirak səviyyəsi ilə xarakterizə olunur; eyni zamanda prosedurları da çətinləşdirir" (Torre A., Wallet F, 2016).

Düşünürük ki, inkişafın əvvəlki mərhələsindən fərqli olaraq hazırda innovativ əsaslı metod və mexanizmlərin tədqiq edilməsinə üstünlük verilməlidir. Biz regional inkişafın dövlət tənzimlnməsi metodlarının təkmilləşdirilərək müasir dövrə uyğunlaşdırılmasınının zəruriliyini düşünürük. Məhz regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar olaraq Azərbaycanda bu gün bir sıra normativ–hüquqi aktlarla yanaşı belə alətlərin istifadəçsinə böyük ehtiyac duyulur. Regionların daxili vəziyyətlərində və inkişaflarında mövcud olan əhəmiyyətli fərqlərin olması onların hər birinin daxili inkişafı üçün xüsusi şəraitin olmasını tələb edir ki, bu da özünü regional planlaşdırmanın, yerli, mərkəzdən asılı olmayan idarəetmənin və onların hər birinin inkişafı üçün zəruri tədbirlərin həyata keçirilməsini tələb edir. Regional inkişafla bağlı problemlər daha çox öz əksini dövlət səviyyəsində qəbul edilmiş proqoramlarda tapır. Regionların yerli resurslarını və digər amilləri nəzərə almaqla, onların sosial-iqtisadi inkişafı məqsədi ilə 2004-2023-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramıları qəbul olunmuşdur.

Hazırda dünya iqtisadiyyatı VI texnoloji ukladın nəticələrinə əsaslanan inkişafa üstünlük verir. Hazırda Qarabağ regionu ilə bağlı 5 innovasiya layihəsinin maliyyələşdirilməsi 2023-2025-ci illərdə planda nəzərdə tutulmuşdur. Prioritet biznes sahələrinin siyahısının hazırlanması da bu sahədə atılan əsas addımlardandır. İnnovativ iqtisadiyyatın formalaşdırılması üçün elmtutumlu texnoparkların yaradılması və klasterləşmənin təşkil edilməsi isə təkcə Qarabağ regionunun inkişafı üçün deyil, həm də milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və dayanıqlı olması üçün vacibdir.

Dünya təcrübəsinin təhlilindən belə qənaətə gəlmək olur ki, işğaldan azad edilmiş regionların məqsədli proqramlar, strateji və indeqativ planlar əsasında inkişaf etdirilməsi arxa plana keçərək ilk növbədə region miqyasında bütöv təsərrüfat sahələrinin yenidən mənimsənilməsi, innovativ inkişafı üçün tam fərqli mexanizmlər istifadə oluna bilər. İşğaldan azad olunmuş bölgələrdə regional idarəetmə və tənzimləmənin müasir forma və metodlarının tətbiqinin, yeni innovativ idarəetmənin təşkilinin şərtləri və xüsusiyyətlərinin araşdırılmasına ehtiyac artmışdır.

**İşğaldan azad edilmiş regionların sosial-iqtisadi vəziyyətinin təhlili**

Hazırda işğaldan azad edilmiş regionlarda mövcud vəziyyət nəzərə alınmaqla regional siyasətin yeni inkişaf modelinə üstünlük verilməklə problemli rayonların iqtisadi artımını stimullaşdırılması üçün dövlət tədbirlərinə ehtiyac duyulur.

Milli strategiyalarda əsas problemlərdən biri kimi regionların inkişafında fərqlərin olması və get-gedə dərinləşməsi göstərilir. İlk öncə ədalətsizlik və qeyri-bərabər inkişaf regionların potensialından tam istifadəyə imkan vermir. İkincisi, onlar yalnız qısa müddətli dövrdə effektiv olmaqla uzun müddətli dövrdə disproporsiyaların artmasına və bu disproporsiyaların aradan götürülməsi üçün əlavə vaxt tələb edilməsinə gətirib çıxaracaq. Üçüncüsü, delə disproporsiyalar sosial gərginliyin artması və gözlənilən iqtisadi səmərəyə qədər baş verə bilən sosial partlayışa səbəb ola bilər.

Lakin bəzi nəzəri yanaşmalara görə ərazi ədalətliliyi yalnız neqativ deyil, həm də pozitiv effektlər verir. Bu həmin regionların vasitəsilə ölkə iqtisadiyyatına əlavə investisiyaların cəlb edilməsinə, tikinti "bumu" effektinin yaranmasına, yeni iş yerlərinin açılması və sahibkarlığın dəstəklənərək inkişaf etməsinə, beynəlxalq çoxvektorlu əlaqələrin yaranmasına və çoxtərəfli sazişlərin imzalanmasına və s. səbəb ola bilir.

Aparılan araşdırmalar (cədvəl 1 və 2 məlumatları) işğal altında olmuş regionlarda vəziyyətin həqiqətən acınacaqlı olmasını təsdiqləyir.

**Cədvəl 1.** 2020-ci il üzrə işğal altında olmuş və azad edilmiş regionların iqtisadi göstəriciləri

| | **Əsas sahələr üzrə [1] məhsulun ümumi buraxılışı, milyon manat** | **Sənaye məhsulu, min manat** | **Kənd təsərrüfatı məhsulu, min manat** | **Pərakəndə ticarət dövriyyəsi, min manat** | **Əsas kapitala yönəldilmiş vəsaitlər[2]** |
|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikası** | **82345,0** | **37269864,5** | **8428908,6** | **40166452,5** | **17226110,7** |
| **Qarabağ iqtisadi rayonu** | **1543,6** | **114680,1** | **849469,8** | **960391,4** | **259565,6** |
| Xankəndi şəhəri | … | … | … | … | ... |
| Ağcabədi rayonu | 466,5 | 52356,5 | 249602,4 | 253148,4 | 90892,3 |
| Ağdam rayonu | 177,3 | 13104,8 | 132260,2 | 45930,8 | 14226,5 |
| Bərdə rayonu | 474,2 | 23946,0 | 282117,2 | 431799,0 | 22705,7 |
| Füzuli rayonu | 191,0 | 18224,9 | 87872,3 | 57814,6 | 74387,6 |
| Xocalı rayonu | 28,6 | … | 5484,5 | … | … |
| Xocavənd rayonu | 14,3 | 647,7 | 13145,8 | … | … |
| Şuşa rayonu | 18,6 | 15,1 | 5391,9 | … | 12500,0 |
| Tərtər rayonu | 173,0 | 6385,1 | 73595,5 | 171698,6 | 44853,5 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **133,4** | **2543,0** | **84353,6** | **…** | **21468,0** |
| Cəbrayıl rayonu | 30,0 | 2050,3 | 21811,7 | … | … |
| Kəlbəcər rayonu | 49,1 | 224,4 | 39209,8 | … | … |
| Qubadlı rayonu | 12,1 | … | 1334,2 | … | 1972,3 |
| Laçın rayonu | 41,1 | 268,3 | 21070,4 | … | 19495,7 |
| Zəngilan rayonu | 1,2 | … | 927,5 | … | … |

[1] İlkin məlumatlar əsasında

[2] Əsas kapitala yönəldilmiş investisiyaların regionlar üzrə bölüşdürülməsi mümkün olmayan hissəsi cədvəldə öz əksini tapmamışdır.

Mənbə: Müəllif tərəfində Dövlət Statistika Komitəsi məlumatları əsasında tərtib edilmişdir, https://www.stat.gov.az/source/regions/ (29.05.2022)

Təhlil göstərir ki, 2020-ci ildə əsas sahələr üzrə məhsul buraxılışının 1,87 % Qarabağ, 0,16% isə Şərgi Zəngəzurun payına düşmüşdür. Bu əsasən həmin ərazilərin həmin dövrdə hərbi risk altında olması, yəni işğal altında olması və ya hərbi münaqişə zonası olması ilə bağlı olmuşdur. Həmin dövrdə sənaye məhsulunun cəmi 0,3 % Qarabağ iqtisadi rayonunda, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 0,006% istehsal edilmişdir. Kənd təsərrüfatı məhsullarının 10% Qarabağ itisadi rayonunda, 1% isə Şərqi Zəngəzur iqtisadi rayonun ərazisində yetişdirilmişdir. İşğal altında olmuş rayonların torpaqlarının həddi görünməyən dərəcədə işğalçılar tərəfindən minalanması bu ərazilərdə bitkiçiliyin inkişafına imkan verməniş, daha çox heyvandalığın inkişaf etməsinə səbəb olmuşdur. Pərakəndə ticarətin 2,39%, əsas kapitala yönəldilmiş vəsaitin isə 1,5% Qarabağ regionunun payına düşmüşdür. Şərqi Zəngəzur regionunda əsas kapitala yönəldilmiş vəsaitin həcmi respublika üzrə olan vəsaitin cəmi 0,12% təşkil etmişdir. Lakin 2021-ci ildə bu vəziyyət xeyli yaxşılaşmışdır.
Belə ki, 2021-ci ildə sahibkarlığın inkişafı üçün Qarabağ iqtisadi rayonu üzrə 630 layihənin həyata keçirilməsi üçün 10,8 milyon manatlıq güzəştli kredit verilmişdir. Bu layihələr hesabına regionda 419 yeni iş yeri açılmışdır. Bu güzəştli kreditlər hesabına açılan yeni iş yerlərinin 13% təşkil etmişdir (İqtisadiyyat nazirliyinin Sahibkarlığın İnkişaf Fondu, illik hesabat 2021, https://www.economy.gov.az/az).

**Cədvəl 2.** 2020-ci il üzrə işğal altında olmuş və azad edilmiş regionların sosial göstəriciləri

| | **01.01.2021-ci ilə təsərrüfat subyektlərinin sayı** | | **Muzdlu işçilərin sayı, min nəfər** | **Muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı, manat** | **Əhalinin nominal gəlirləri, min manat[1)]** | **2020-ci ildə yaşayış evlərinin istifadəyə verilməsi, ümumi sahə, min kvadrat metr** | |
|---|---|---|---|---|---|---|---|
| | **hüquqi şəxslər** | **fiziki şəxslər** | | | | ümumi sahə, kvadrat metr | əvvəlki ilə nisbətən, faizlə |
| **Azərbaycan Respublikası** | **155435** | **1062537** | **1698,7** | **707,7** | **55726100,1** | **5223729** | **55,2** |
| **Qarabağ iqtisadi rayonu** | **4626** | **68409** | **67,7** | **409,9** | **1343153,5** | **68 128** | **155,8** |
| Xankəndi şəhəri | 0 | 0 | … | … | … | ... | ... |
| Ağcabədi rayonu | 1120 | 16080 | 13,6 | 398,9 | 347673,8 | 53 355 | 2,7 d. |
| Ağdam rayonu | 466 | 10196 | 14,1 | 396,5 | 59316,2 | 490 | 26,9 |
| Bərdə rayonu | 1310 | 25415 | 17,0 | 394,9 | 626524,8 | 10 730 | 86,5 |
| Füzuli rayonu | 984 | 6542 | 9,5 | 440,7 | 80060,0 | 2 193 | 131,3 |
| Xocalı rayonu | 22 | 111 | 1,2 | 511,2 | … | - | - |
| Xocavənd rayonu | 155 | 918 | 1,5 | 506,1 | … | - | - |
| Şuşa rayonu | 38 | 74 | 3,3 | 410,2 | … | - | - |
| Tərtər rayonu | 531 | 9073 | 7,5 | 414,9 | 229578,7 | 1 360 | 17,7 |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | **749** | **3341** | **22,5** | **500,3** | **…** | **…** | **…** |
| Cəbrayıl rayonu | 221 | 454 | 4,2 | 491,8 | … | … | … |
| Kəlbəcər rayonu | 78 | 855 | 6,5 | 489,6 | … | … | … |
| Qubadlı rayonu | 120 | 141 | 3,0 | 555,6 | … | … | … |
| Laçın rayonu | 267 | 1756 | 6,6 | 488,8 | … | … | … |
| Zəngilan rayonu | 63 | 135 | 2,2 | 516,6 | … | … | … |

[1)] İlkin məlumatlar əsasında

Müəllif tərəfində Dövlət Statistika Komitəsi məlumatları əsasında tərtib edilmişdir, https://www.stat.gov.az/source/regions/ (29.05.2022)

Təhlildən aydın olur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkə ərazisinin analoji olaraq 10,38% və 8,62% mənsubdurlar. Lakin bu ərazilərdən 2021-ci ildə və 2022-ci ilin ilk 6 ayında tam istifadə etmək mümkün

olmamışdır. Bu da ərazilərin minaların xəritəsinin verilməməsi səbəbindən postmünaqişə dövründə belə hələ də minalardan təmizləmə işlərini yekunlaşdırmağa maneə yaratması ilə bağlıdır. Yəni insan həyatı üçün təhlükəli ərazilər kimi hələ məskunlaşma üçün qənaətbəxş vəziyyətdə olmaması bu ərazilərdə həm bərpa və yenidənqurma, həm də məskunlaşma işlərinin ləngiməsinə səbəb olur. Azərbaycan hökumətinin idarəetmə altında olan rayonlarda müsbət göstəricilərin olması isə bu ərazilərə dövlət dəstək və qayğısından xəbər verir. Ümumilikdə, ərazi ədalətliliyinə minimal nail olma problemi əlbəttə cari maliyyə köməyinin edilməsi ilə birbaşa bağlıdır. Lakin işsizliyin yüksək olduğu hər bir şəraitdə bu lazımi səmərəni verməyə də bilər. Digər tərəfdən heç bir vaxt dəqiqliklə demək olmaz ki, nə vaxt bu cari maliyyə köməyinə artıq ehtiyac duyulmur. Ona görə də dövlət tənzimlənməsi tədbirləri konkret dövlətin mövcud problemlərindən və onların xarakterindən asılı olaraq müxtəlif hesab edilir. Hesab edilir ki, problemli regionların inkişafında investorların cəlb edilməsi bir sıra maliyyələşmə problemlərinin həllinə kömək göstərə bilər. Ancaq bu məsələdə də investorlar üçün problemli regionların cəlbedici olması üçün bir-birindən fərqli prinsipial qrup tədbirlərin tətbiqi ilə bağlı fikir ayrılığına gətirir:

Birincisi, ərazilərin investorlar üçün cəlbedici olması onların infrastrukturlarının təkmilləşdirilməsi hesabına əldə edilir. Bu zaman infrastrukturu geniş mənada bu regionda təsərrüfatçılıq şəraitinin sintetik göstəricisi kimi qəbul etmək lazımdır.

İkincisi, regiona gələn investorlar üçün bir çox vergi güzəştlərinin edilməsi halıdır. Bu halda, regionların uzun müddətli inkişafı üçün əlverişli şərait yaradılır. Halbuki, vergi güzəştləri tətbiq edilən halda beynəlxalq təcrübə əsasında tam qeyd etmək olar ki, bu güzəştlərin müddəti bitdikdən və ya onlar ləğv edildikdən sonra investorların həmin regionlardan getməsi ilə də nəticələnə bilər.

Regional siyasətlə bağlı dövlət strategiyasını uğurla həyata keçirmək üçün, respublikadaxili iqtisadi rayonların, bizim halda isə işğaldan azad edilmiş regionların əmək ehtiyatlarından, istehsalın maddi ünsürlərindən, müxtəlif təbii ehtiyatlardan, iqlim şəraitindən, maliyyə imkanlarından, xarici investisiya və elmi-texniki potensialından səmərəli istifadə etməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafına və respublikanın iqtisadi rayonlarında məhsuldar qüvvələrin səmərəli yeniləşdirilməsinə nail olmaq üçün yeni tədbirlər müəyyənləşdirilmişdir.

**Nəticə**

Beləliklə, mövcud regional siyasət vahid iqtisadi məkanın formalaşmasına kömək etməlidir. Bu həm sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin mövcud olduğu məkanın formalaşmasına, həm də “nöqtəvi” və ya „ünvanlı“-seçici xarakter daşıyaraq investisiya imkanlarının ölkə üzrə eyni səviyyədə olmamasına, yəni daralmasına gətirib çıxarır. Bu, iqtisadi məkanın heterojenlik xassəsinin hipertrofik şəkildə güclənməsinə və regional iqtisadi sistemlərin özünütəşkilat xassəsinin sıxışdırılmasına gətirib çıxarır. Digər problem isə iqtisadi cəhətdən problemli bölgələr üçün hərtərəfli bir strategiya hazırlamaqda böyük çətinliklərin olmasıdır. Post–münaqişə dövründə iqtisadi və sosial siyasətləri əlaqələndirmək kifayət qədər çətindir. Hökumətdən və digər maraqlı tərəflərdən bütün mexanizmlərin eyni vaxtda tətbiqini, yəni işləmələrini istəmək hər gün iqtisadi cəhətdən dağıdılmış bir bölgədə xüsusilə çətin görünə bilər.

Bu gün regional inkişafın endogen potensialın istifadəsi ilə sıx bağlı olduğu fikri geniş təbliğ edilir. Bir region yalnız özünəməxsus xüsusiyyətlərindən və endogen, yəni daxili qabiliyyətlərindən istifadə etdikdə uzunmüddətli irəliləyişə nail ola bilər. Hər bir regionun vəzifəsi daxili resurslarından istifadə etməkdir ki, bu da onu rəqabətədavamlı və bazara cəlbedici edəcəkdir. Bir regionun tərəqqisi çox dərəcədə şəraitdən və yerli səviyyədəki müxtəlif sektorların qarşılıqlı təsirindən asılıdır. Müasir neo-endogen inkişaf anlayışı, iqtisadi,

sosial və ekoloji məqsədlərin uyğunlaşdırılmasını ehtiva edən regionun vahid və davamlı inkişafını nəzərdə tutur. Fəza, zaman və çoxşaxəli ölçüləri birləşdirir və "inkişaf proseslərinin idarə olunmasında yerli və xarici qüvvələrin qarşılıqlı təsirini" vurğulayır.

Müasir dövrdə işğaldan azad olunmuş regionların iqtisadiyyatının dövlət tənzimlənməsi metod və vasitələrinin dəyişən şəraitə və tələbata uyğunlaşdırılması mövcud problemlərin kökündən həlli üçün mühüm şərtdir. İndiyə qədər regionların sosial-iqtisadi inkişafında geniş tətbiq edilən inzibati (birbaşa) və iqtisadi (dolayı) metodlarının tətbiqi geniş şəkildə araşdırılmışdır. Lakin işğaldan sonra regionun yenidən qurulması, bərpası və inkişafı üçün bu metodların istifadə yetərli görünmür.

Aparılan araşdırma nəticəsində aşağıdakılar təklif edilir:

–işğaldan azad olunmuş regionlara sosial-iqtisadi və hərbi-ekoloji baxımdan problemli regionlar kimi dəyərləndirilməli, sırf onların sosial-iqtisadi inkişafının dövlət tərəfindən fərqli tənzimlənməsinə və idarə edilməsi mexanizmlərinə diqqət yetirilməlidir;

–regionların işğaldan əvvəl və sonrakı idarəetmə və tənzimləmə vəziyyəti, metodlarının qiymətləndirilərək, potensialının düzgün istifadə edilməsi üçün yeni rəqəmsal texnologiyalara əsaslanan innovativ nəzarət və koordinasiya mexanizmlərin tətbiqini artırmaq zəruridir;

–regional iqtisadiyyat subyektləri arasında konsensusun əldə edilməsi və işğaldan azad edilmiş bölgələrin inkişafına xidmət edəcək fərqli dövlət-özəl tərəfdaşlıq modellərinin tətbiqini artırmaq mütləqdir;

–işğaldan azad edilmiş refionlarda forsaytın tətbiqini həyata keçirmək mümkündür;

–iqtisadi regionun tərkibinə daxil olan rayonların inkişaf vəziyyətindən asılı olaraq dövlət tənzimlənməsi tədbir və mexanizmləri fərqli olmalıdır və regionların sosial, iqtisadi, ekoloji və etnik tənzimləmə ilə inkişafına nail olunma dövlətin həyata keçirdiyi regional siyasətin səmərəliliyinin artırılmasında əsaslı rol oynamalıdır;

–işğaldan azad edilmiş regionların məqsədli proqramlar, strateji və indeqativ planlar əsasında inkişaf etdirilməsi arxa plana keçərək, ilk növbədə, region miqyasında bütöv təsərrüfat sahələrinin yenidən mənimsənilməsi, innovativ inkişafı üçün lokal xarakterli və tam fərqli mexanizmlər istifadə edilməlidir.

**Ədəbiyyat**

1. "Azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin səmərəli həlli məqsədilə hazırlanmış Strateji Fəaliyyət Planı", İşğaldan azad edilmiş ərazilər üzrə Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib, 04.02.2021, https://report.az/qarabag/isgaldan-azad-edilmis-eraziler-uzre-elaqelendirme-qerargahinin-novbeti-iclasi-kecirilib/

2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı

3. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı", https://report.az/qarabag/isgaldan-azad-edilmis-eraziler-uzre-elaqelendirme-qerargahinin-novbeti-iclasi-kecirilib/

4. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və inkişafı ilə bğlı Konsepsiya" https://report.az/qarabag/isgaldan-azad-edilmis-eraziler-uzre-elaqelendirme-qerargahinin-novbeti-iclasi-kecirilib/

5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2019-2023-cü illər), https://president.az/az/articles/view/31697

6. Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrasına dair illik hesabatı, 2021-ci il.

7. Bachtler John, Douglas Yuill. (2001)Policies and strategies for regional development: a shift in paradigm?, Regional and Industrial Policy, Research Paper, Number 46, https://www.researchgate.net/publication/228396056_Policies_and_strategies_for_regional_development_a_shift_in_paradigm

8. İqtisadiyyat nazirliyinin Sahibkarlığın İnkişaf Fondu, illik hesabat 2021-ci il.

9. Mahmudov M, Mahmudova İ.(2011) Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi, Bakı, "İqtisad Universiteti".

10. Marcin Bogdanski.(2012) Modern Theories of Regional Development – a Review of Some Concepts, Oeconomia Copernicana,DOI:10.12775/OeC.2012.007, https://www.researchgate.net/publication/290151887_Modern_Theories_of_Regional_Development_-_a_Review_of_Some_Concepts

11. Richard M. McGahey. (2016)Regional Economic Development in Theory and Practice/ https://www.brookings.edu/wp-content/uploads/2016/07/retoolingforgrowth_chapter.pdf

12. Samir Makdisi, Raimundo Soto(2020). Economic agenda for post-conflict reconstruction, Working Paper No. 1395 https://erf.org.eg/app/uploads/2020/08/1598531136_133_452682_1395.pdf

13. Torre A., Wallet F(2016) Regional Development in Rural Areas. Analytical tools and Public policies, Springer Briefs in Regional Science, Springer, 110 p. https://www.researchgate.net/publication/303182836_Policies_of_Regional_Development_and_Planning

14. Gordon C. Cameron (2017). Regional economic development. The Federal role.

15. Котилко В.В. (2001). Региональная экономическая политика. Учеб. пособие. М., Изд-во РДЛ, 272 стр.

16. https://www.economy.gov.az/az

17. https://www.stat.gov.az/source/regions/

18. https://e-qanun.az

# FAİZ VE ENFLASYON ORANLARININ HİSSE SENETLERİNE ETKİSİ: BİST 100 ÜZERİNE AMPRİK ANALİZ

**Bakhtiyar Garayev**

**Anadolu Üniversitesi**

**bakhtiyar.garayev@gmail.com**

## Özet

Piyasayı etkileyen birçok faktör bilinmektedir. Bu faktörler siyasi, ekonomik ve davranışsal sebeplerden dolayı ortaya çıkmaktadır. Piyasanın durumunun belli olması durumunda işletmeler buna uygun hareket eder. Hisse senedi fiyatlarının ve makroekonomik değişkenlerin hareketlerini analiz etmek kurumsal ve bireysel yatırımcılar için portföylerini yönetmede önemlidir. Dünyada ve Türkiye'de piyasalar ekonomik krizler zamanı enflasyondan ve merkez bankalarının uyguladığı faiz oranlarından etkilenmiştir. Çalışmamızda bu nedenle piyasa ile faiz ve enflasyon oranları arasındaki ilişki incelenecektir. Faiz oranları, hisse senedi fiyatlarının en önemli belirleyicilerinden biri olarak kabul edilmektedir. Faiz oranları dolaylı olarak hisse senedi fiyatlarını ve oynaklıklarını etkilemekte ve ekonomik büyümeyi doğrudan etkileyen en önemli faktörlerden birini temsil etmektedir. Ayrıca, enflasyon oranları bekleneni üzerinde olduğu zaman piyasayı kötü etkilemektedir. Araştırmamızın amacı, son dönemlerde önemi daha da artan makroekonomik faktörlerin piyasa endeksi ile olan ilişkilerini belirlemektir. Analizin yapılması için 2006-2021 yıllarını kapsayan çeyreklik veriler olmakla BİST-100 endeksi, faiz oranı olarak, TL bazında bankalara açılan tüketici kredileri, enflasyon oranı olarak ise Tüketici Fiyat Endeksi( TÜFE) ele alınmıştır. BİST-100 endeksi ile bahsedilen makroekonomik faktörler arasındaki ilişkinin mevcut olup olmaması belirlenmiştir. Enflasyon oranından hisse senetleri fiyatlarına doğru tek yönlü bir ilişki bulunmuştur. Uzun dönemde ise eflasyon oranlarıdaki artışların hisse senetlerinin fiyatlarını artıracağı, faiz oranlarındaki artışlar ise azaltacağı tespit edilmiştir.

**Anahtar Kelimeler:** Enflasyon oranı, Faiz oranı, BİST 100, VAR analizi

# THE EFFECT OF INTEREST AND INFLATION RATIOS ON EQUITY: EMPRIC ANALYSIS ON BIST 100

## Abstract

Many factors affecting the market are known. These factors arise due to political, economic and behavioral reasons. If the situation of the market is clear, businesses act accordingly. Analyzing the movements of stock prices and macroeconomic variables is important for institutional and individual investors in managing their portfolios. The markets in the world and in Turkey have been affected by inflation and the interest rates applied by the central banks during the economic crisis. For this reason, in our study, the relationship between the market and interest and inflation rates will be examined. Interest rates are considered one of the most important determinants of stock prices. Interest rates indirectly affect stock prices and volatility and represent one of the most important factors directly affecting economic growth. In addition, when inflation rates are higher than expected, it affects the market badly. The aim of our research is to determine the relationship between the macroeconomic factors, which have become more important recently, and the market index. In order to conduct the analysis, the BIST-100 index, consumer loans to banks on a TL basis as an interest rate, and the Consumer Price Index ( CPI) as an inflation rate were considered as quarterly data covering the years 2006-2021. It has been determined whether there is a relationship between the BIST-100 index and the mentioned macroeconomic factors. A unidirectional relationship was found from inflation rate to stock prices. In the long run, it has been determined that increases in inflation rates will increase the prices of stocks, while increases in interest rates will decrease them.

**Keywords**: Inflation rate, Interest rate, BIST 100, VAR analysis

## Giriş

Son yıllarda, borsalar birçok ülke ekonomisinin önemli bir parçası haline geldi. Borsaların artan önemi ekonomistleri hisse senedi fiyatlarını ve finansal getirileri tahmin etmeye motive etti. Ayrıca, borsa dalgalanmalarının tahmini yatırımcılar ve politika yapıcılar arasında önemli bir uygulamadır. Bir ülkenin makroekonomik değişkenlerindeki değişikliklerden çeşitli sektörlerin nasıl etkilendiğine ilişkin bilgi edinmek özellikle önemlidir. Hisse senedi fiyatlarının ve makroekonomik değişkenlerin hareketlerini analiz etmek kurumsal ve bireysel yatırımcılar için portföylerini yönetmede önemlidir. Bu nedenle, bu ilişki akademisyenler ve uygulayıcılar tarafından uzun yıllardır incelenmektedir. Politika yapıcılar, karar vericiler yatırımcılar, farklı faktörlerin borsa ve zaman içindeki oynaklığını nasıl etkileyebileceğine daha fazla önem vermelidir. Ayrıca, enflasyon ve faiz oranları, borsaları etkileyen önemli finansal ve ekonomik faktörlerdir. Faiz oranları, hisse senedi fiyatlarının en önemli belirleyicilerinden biri olarak kabul edilmektedir. Faiz oranları dolaylı olarak hisse senedi fiyatlarını ve oynaklıklarını etkilemekte ve ekonomik büyümeyi doğrudan etkileyen en önemli faktörlerden birini temsil etmektedir.

Shiller (1988) hisse senedi fiyatlarındaki değişikliklerin, yatırımcının hisse senetlerinin doğrudan fiyatlandırmasını etkileyen belirli ekonomik değişkenlerin gelecekteki değerlerine ilişkin beklentilerindeki değişiklikleri yansıttığını ileri sürmektedir. Bu nedenle, bazı makroekonomik temellerin finansal toplamların davranışını yönlendirip sürdüremeyeceğini inceleyen ampirik bir çaba sarfetmeye değer görünmektedir. Finansal teoride, hem enflasyonun, hem de faiz oranlarının hisse senedi fiyatları gibi finansal toplamların davranışını önemli ölçüde etkilediği görülmüştür. Aynı zamanda, iki değişkenin hisse senedi fiyatları üzerinde nasıl bir etkiye sahip olduğu konusunda farklı argümanlar olmuştur. Bununla birlikte, araştırmacılar için hisse senedi fiyatlarındaki değişikliklerin faiz oranı değişikliklerine mi, yoksa enflasyon hareketlerine mi, yoksa her ikisine mi atfedilebileceğini belirlemek oldukça zordur. İktisat teorisine göre, faiz oranı hareketleri, borç verenleri faiz oranı ödemelerinin gerçek değerindeki değişimleri telafi etmek için enflasyon hareketlerini (Fisher etkisi) yakından takip etmektedir.

Hisse senedi getirileri ile faiz oranlarındaki ve enflasyondaki değişimler arasındaki ilişki kapsamlı araştırmalara konu olmuştur. Fama ve Schwert (1977) ve diğerleri, hisse senedi getirileri ile faiz ve enflasyon oranlarındaki değişiklikler arasında negatif ilişkiler olduğunu belgelemişlerdir. İlişkiler çağdaş bir şekilde ve faiz ve enflasyon oranı değişkenleri ile gecikmeli olarak gözükmektedir. Bu, enflasyon ve faiz oranlarındaki artışın sadece hisse senedi fiyatları için kötü olmadığını, aynı zamanda piyasa fiyatlarındaki olumsuz tepkileri de öngördüğünü göstermektedir.

Bu çalışmada biz faiz oranları ve enflasyon gibi makroekonomik değişkenlerin hisse senetlerinin getirisinin etkileri ve ilişkisi üzerine araştırma yapılmıştır. Hisse senetlerinin getirileri BİST-100 endeksi ile temsil edilmektedir. Çalışmanın temel amacı, faiz oranları ve enflasyonun piyasaya etkisinin belirlenmesidir. Literatürde ele aldığımız değişkenlerin bir biriyle etkileşimi araştıran çalışmalar olsa bile, faiz ve enflasyon oranlarının Türkiye'de piyasasına etkisini inceleyen çok az çalışma mevcuttur. Son dönemlerdeki mevcut durumu göz önünde bulundurarak, faiz ve enflasyon oranının Türkiye piyasasına etkisini incelemek dikkat edilmesi gereken bir husustur. Bu kapsamda, öncelikle literatür taraması yapılmış, daha sonra veri seti ve yöntemden bahsedilmiştir. Analizden elde edilen bulguların ardından göre ise bir sonuç değerlendirmesi yapılmıştır.

**Literatür Taraması**

Borsalar ve makroekonomik güçler arasındaki ilişki, finans ve makroekonomik literatürde geniş ölçüde tartışılmaktadır. Dolayısıyla hisse senedi fiyatlarının belirlenmesi konusunda geniş bir literatür mevcuttur. Son birkaç on yılda, makroekonomik değişkenlerin hisse senedi fiyatları ve yatırım kararları üzerindeki etkilerini belirlemek, ikisinin de bir ülke ekonomisinin gelişimini etkilemede önemli rol oynadığı için iktisatçıların zihinlerini meşgul etmiştir. Böylece hisse senedi fiyatlarını yönlendiren ana faktörlerin ne olduğunu belirlemek için çok sayıda ampirik çalışma yapılmıştır. Dünyada hisse senedi fiyatları, faiz oranı ve enflasyon arasındaki ilişki ve buna benzer birçok makroekonomik değişkenin etkileri incelendiğinde, sonuçlar birbirinden farklılık göstermektedir. Literatürde bu iki değişken arasındaki ilişkinin etki ve anlamlılık düzeyi için çeşitli ampirik sonuçlar bulunmaktadır.

Schwert (1981), yapmış olduğu çalışmada, hisse senedi ve enflasyon arasında ilişkiyi inceleyen bir çalışma yapmıştır. Çalışmada 1953-1978 dönemine ait tüketici fiyat endeksi ve Standard and Poor Birleşik Endeksi değişkenlerine veriler kullanılmıştır. Yapılan çalışma sonucunda hisse senedi fiyatları ve enflasyon oranı arasında ters yönde bir ilişki saptanmıştır.

Chen, Roll ve Ross (1986) borsa piyasalarında bazı makroekonomik değişkenlerin fiyatlandırılıp fiyatlandırılmadığını incelemektedir. Araştırmaları, uzun ve kısa faiz oranları, beklenen ve beklenmeyen enflasyon, sanayi üretimi ve yüksek ve yüksek düşük dereceli tahviller hisse senedi fiyatları üzerinde önemli bir etkiye sahiptir.

Lee (1992) yapmış olduğu çalışmada ABD için 1947 -1987 dönemi verilerini kullanarak hisse senetleri ve enflasyon arasında ilişki araştırılmıştır. Çalışmada VAR yöntemi kullanılmıştır. Sonuç olarak, hisse seneleri ve enflasyon arasında ters yönlü bir ilişki saptanmıştır.

Mukherjee ve Naka (1995) Japonya'da borsa ve döviz kuru, enflasyon, para arzı, reel ekonomik aktivite, uzun vadeli devlet tahvil oranı ve çağrı para oranı arasındaki ilişkiyi analiz ettiler. Bir eşbütünleşme ilişkisinin gerçekten var olduğu ve hisse senedi fiyatlarının bu ilişkiye katkıda bulunduğu sonucuna varılmıştır. Sanayi üretimi ile borsa fiyatları arasında ise pozitif bir ilişki tespit edilmiştir. Kargı ve Terzi(1997), BİST-100 endeksi ve faiz oranı arasında nedensellik ilişkisinin olmadığını tespit etmiş ve 24 aylık dönemde kendi şoklarıyla beraber enflasyon ve faizden etkilendiği saptamıştır.

Nath ve Smantha (2002), endüstriyel üretimdeki değişikliklerin Hindistan'daki hisse senedi fiyatlarını etkilediğini bulmuştur. Kim (2003), Amerika Birleşik Devletleri'nde Ocak 1974 ve Aralık 1998 arasındaki aylık verileri kullanır. Bulgular, hisse senedi fiyatının sanayi üretimi ile pozitif bir korelasyona sahip olduğunu, ancak reel döviz kuru, faiz oranı ve enflasyon ile negatif bir ilişki olduğunu desteklemektedir. Apergis ve Eleftheriou (2002), hisse senedi fiyatları ile Yunanistan'daki hazine oranı arasındaki ilişkiyi ampirik olarak analiz etmektedir. Elde edilen sonuçlara göre, anlamlı bir ilişki bulunmamıştır.

Nishat ve Shaheen (2004), borsası endeksini kullanarak bir dizi makroekonomik değişken ile Pakistan'daki borsa arasındaki ilişkiyi incelemektedir. Çalışmalarındaki makroekonomik değişkenler sanayi üretim endeksi, , para arzı, enflasyon ve faiz oranını içermektedir. Sanayi üretiminin hisse senedi fiyatları ile en büyük pozitif ilişkiye sahip olduğunu buldular.

Chakravarty (2005) Hindistan'daki borsa dinamiklerini de incelemiştir. Bulgular, Granger nedensellik testini kullanarak hisse senetleri fiyatları ve sanayi üretimi arasındaki pozitif ilişkiyi desteklenmektedir.

Tursoy, Reşatoğlu ve Rjoub (2008), Türkiye'de borsa ve makroekonomik değişkenler arasındaki etkileşimler üzerine ampirik kanıtlar sunmaktadır. Bu çalışmalar ağırlıklı olarak borsa ve ülke içindeki makroekonomik değişken etkileşimleri incelemektedir.

Gençtürk (2009), BİST-100 ve hazine bonosu faizi arasında kriz olmadığı dönemde anlamlı bir ilişki tespit edilmemiş, kriz olmadığı dönemlerde ise anlamlı ve ters yönde bir ilişkinin olduğu bulunmuştur. Mahmood ve Dinniah (2009) seçilen altı Asya-Pasifik ülkesinde hisse senetlerinin ekonomik değişkenler arasındaki ilişkisini incelemişlerdir. Çalışmada, Malezya, Kore, Tayland, Hong Kong, Japonya ve Avustralya. Ocak 1993'ten Aralık 2002'ye kadar aylık veriler ele alınmıştır. Japonya, Kore, Hong Kong ve Avustralya'da uzun vadeli bir ilişki bulurken, Hong Kong ve Tayland dışındaki tüm ülkelerde kısa vadeli bir ilişki bazı etkileşimler göstermektedir. Hong Kong'da sadece döviz kuru ve hisse seneleri fiyatı arasında bir ilişki bulunmuş, Tayland'da ise çıktı ve hisse senetleri arasında anlamlı bir ilişki olduğu bildirilmiştir.

Büyüksalvarci ve Abdioglu (2010), Granger nedensellik testi uygulanarak BİST-100 Endeksi ile beş makroekonomik değişken (döviz kuru, altın fiyatı, geniş para arzı, sanayi üretim endeksi ve tüketici fiyat endeksi) arasındaki nedensellik ilişkileri Mart 2001-Haziran 2020 dönemi için aylık verileri dikkate alınmıştır. Türkiye için hisse senedi fiyatından makro değişkenlere doğru tek yönlü uzun dönem nedensellik olduğunu göstermektedir. Bu, hisse senedi piyasasının Türkiye'de döviz kuru, altın fiyatı, para arzı, sanayi üretim endeksi ve enflasyon oranındaki gelecekteki büyüme için öncü bir gösterge olarak kullanılabileceği anlamına gelir.

Özer, Kaya, Özer (2011), 1996-2009 yıllarını kapsayan çalışmalarında BİST-100 endeksi ile bazı makroekonomik değişkenler arasındaki ilişkiyi Granger nedensellik, Johansen Eşbütünleşme testi ve VEC modelleri aracılığıyla tespit etmişlerdir. Hisse senetleri ile faiz oranı arasında Johansen Eşbütünleşme testine göre uzun dönemde ve tek yönde bir ilişki tespit edilmiştir. Sayılgan ve Süslü(2011), 1999-2006 senelerini kapsayan çalışmalarında panel veri analizi kullanılarak Türkiye, Polonya, Endonezya, Malezya, Macaristan, Brezilya, Arjantin, Rusya, Meksika, Ürdün ve Şili piyasalarının S&P-500 piyasa endeksi, enflasyon ve döviz kurundan etkilendiği, fakat GSYİH, petrol ve M1 fiyatları ve faiz oranlarından etkilenmediği tespit edilmiştir.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin hesabatına görə, 2021-ci ildə bərpa olunan enerji mənbələrinin qoyuluş gücü 257 qiqavat artıb (Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi, 2022). Dünyada bərpa olunan enerji mənbələri elmi-texniki tərəqqi və yüksək qabaqcıl texnologiyalar sayəsində ənənəvi enerji mənbələrinə nisbətdə ən sürətli inkişaf edən enerji sektorudur.

Azərbaycan enerji resursları ilə zəngin ölkələrdəndir və dünyada enerji ixracatçısı kimi tanınır. Son illər qanunverici, tənzimləyici və institusional mühitin təkmilləşdirilməsi ilə bağlı qəbul edilən qərarlar irəlidə bu sahədə nəzərəçarpacaq nailiyyətlərə imkan yaradacaq.

Tədqiqat işində yerli və xarici ədəbiyyat mənbələrindən, statistik göstəricilərdən, beynəlxalq hesabatlardan istifadə edilməklə statistik və analitik təhlil aparılmış, xarici investisiyaların bərpa olunan enerji sahəsinin inkişafı baxımından əhəmiyyəti araşdırılmışdır. Tədqiqatın aktuallığı müasir dövrün qlobal məsələlərindən olan bərpa olunan enerji mənbələrini və enerji keçidi məsələlərini əhatə etməsidir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktiki informasiyanın tələb olunmasıdır. Bu səbəblə, tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr arasında əsasən xarici dildə dərc olunmuş araşdırmalara üstünlük verilib.

Tədqiqatın praktik əhəmiyyəti Azərbaycanda bərpa olunan enerji potensialından istifadə və bu enerji mənbələrinə qoyulan investisiyaların sektora təsiri barəsində nəzəri köməklik göstərilməsidir.

Tədqiqatın əsas məqsədi Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı və investisiyaların sektorun inkişafı baxımından əhəmiyyətini müəyyən etməkdir. Tədqiqatın nəticəsində sektor üzrə yerli və xarici göstəricilər qiymətləndirilmiş, bununla əlaqədar olaraq müvafiq nəticələr əldə edilmişdir

## Bərpa Olunan Enerji Mənbələrindən İstifadənin İqtisadi və Sosial Təsirləri

### Ənənəvi enerjidən "yaşıl" enerjiyə keçid

Beynəlxalq Enerji Agentliyinin (IEA) hesablamalarına əsasən, 2030-cu ildə qlobal enerji tələbi 50 faiz artacaqdır (Babayev, 2020). Bu artımın böyük hissəsi isə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) daxil olmayan və inkişaf etməkdə olan ölkələrin payına düşəcəkdir. Buna səbəb isə həmin ölkələrin iqtisadi səviyyələrinin yüksəlməsi və buna paralel olaraq enerjiyə olan tələbatın da artmasıdır. Xüsusilə də Çin və Hindistan kimi yüksək əhali sayına malik olan ölkələr başda olmaqla, OECD-yə daxil olmayan ölkələrin enerji istehlakı bu təşkilata daxil olan ölkələrin ümumi enerji istehlakını üstələyəcəkdir. Bu fərqin gələcək dövrlərdə daha da dərinləşəcəyi gözlənilir (Məmmədov 2021).

Atmosferə atılan karbon qazının həcminin azaldılması və yaşıl enerji mənbələrindən istifadə dünya təşkilatlarının ən aktual mövzularından biridir. Dünyanın bir çox ölkələrində kömür və nüvə enerjisi istehsalı qadağan edilir, kömürlə işləyən və atom elektrik stansiyaları bağlanır.

IEA 2050-ci ildə elektrik enerjisi istehsalının 90 faizinin bərpa olunan enerji mənbələrinin payına düşəcəyini, bu göstəricinin 70 faizinin isə külək və günəş enerji mənbələrindən əldə ediləcəyini proqnozlaşdırır. Aşağıdakı qrafikdən də göründüyü kimi Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) məlumatına görə, 2010-2020-ci illər ərzində külək və günəş enerjisinin inşası xərcləri 81 %-ə qədər azalıb, bu mənbələr üçün elektrik enerjisinin qiyməti (LCOE) isə 85 %-ə qədər ucuzlaşıb.

**Qrafik 1. Mənbələr üzrə elektrik enerjisi qiyməti (ABŞ dolları ilə)**




Mənbə: Ula Chrobak (2021)

Ancaq qeyd etmək lazımdır ki, koronavirus pandemiyası və Rusiya-Ukrayna münaqişəsi səbəbindən qlobal bazarlarda külək və günəş enerjisindən istehsal olunan elektrikin qiyməti artan tələb, təchizat zəncirindəki problemlər və qiymətlərdəki artım səbəbilə son bir ildə təxminən 30 faiz artıb. Bu isə son on ildir davam edən qiymət azalmasının ilk dəfə olaraq artması deməkdir (LevelTen, 2022).

Karbohidrogenlərin üstünlüyü kimi dəyərləndirilən aşağı qiymət, texnologiyaların yaşıl enerji qiymətlərini getdikcə ucuzlaşdırması ilə aradan qalxır. BMT-nin “İqlim Dəyişikliyi 2022: İqlim Dəyişikliyinin Azaldılması” hesabatına görə 2010-2019-cu illərdə günəş enerjisinin qiyməti (meqavat-saat) 85 % (2000-ci ildə bu rəqəm 600 dollar idisə, 2020-ci ildə 100 dollar olub), külək enerjisinin qiyməti isə 55 % azalıb (UN, 2022).

Dünyada istixana qazı emissiyaları 2010-2019-cu illərdə tarixin ən yüksək həddinə çatıb. Dünya ölkələri istixana qazı emissiyalarını azaltmaq və iqlim hədəflərinə çatmaq üçün bərpa olunan enerji mənbələrindən istifadə edir. Qeyd etmək lazımdır ki, aşağı karbonlu həllər təklif edən bu enerji növünün istifadəsi hər il artmaqdadır.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin bu il dərc olunan "Bərpa Olunan Güc Statistikası"na görə, 2021-ci ildə dünyada bu enerji növünün qoyuluş gücü 3 064 qiqavata çatıb. Təkcə 2021-ci ilin ilk iki ayında 9,1 % və ya 257 qiqavat artım müşahidə olunub (BBOEA, 2022).

**Qrafik 2. Bərpa olunan enerji mənbələrinin illər üzrə qoyuluş gücü artımı (qiqavatla)**




Mənbə: Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi, www.irena.org (2022)

Ember" analitik şirkətinin hesabatına görə, 2021-ci ildə külək və günəş enerjisindən elektrik istehsalı 17 % artıb. Paris İqlim Sazişi çərçivəsində qəbul edilmiş iqlim hədəfinə çatmaq üçün külək və günəş enerjisinin istehsalı 2030-cu ilə qədər hər il 20 % artmalıdır (Ember, 2022).

Bərpa olunan mənbələr üzrə nəzər yetirsək, günəş enerjisi 133 qiqavat (və ya 19 %), külək enerjisi 93 qiqavat (və ya 13 %), hidroenerji 19 qiqavat (və ya 2 %), bioenerji isə 10 qiqavat (və ya 8 %) artıb. Bərpa olunan enerji gücünün artımının 88 %-i günəş və külək enerjisi gücləri olub.

Qlobal Külək Enerjisi Konsulluğunun hesabatına görə isə, dünyada külək enerjisinin qoyuluş gücü hər il ortalama 93 qiqavat artacaq (GWEC, 2022).

Hidroenerji üzrə ən çox güc əlavə edən ölkələr Çin və Kanada olub, müvafiq olaraq 14.6 və 1.3 qiqavat. Bu baxımdan günəş enerjisi üzrə Asiya ölkələri liderdir. Ötən il dünyanın ən çox günəş enerjisi gücü quraşdırmış ölkələri Çin, Hindistan, Yaponiya və Koreyadır. Yeni külək enerjisi gücləri üzrə Çin və ABŞ, bioenerji üzrə Çin, geotermal enerji üzrə ABŞ, İndoneziya, Türkiyə fərqlənirlər.

Qlobal miqyasda məqsəd bərpa olunan enerji mənbələrinin 2050-ci ilə qədər enerji istehlakının üçdə ikisini və elektrik enerjisi istehsalının 86 %-ni təmin etməsini tələb edir. Bu transformasiya, həmçinin dünya ÜDM-sinin 2,5 % artımını və adi ssenari ilə müqayisədə qlobal məşğulluğun 0,2% artımını təmin edəcək (BBOEA, 2019)

**Qrafik 3. Bərpa olunan enerji mənbələrinin 2021-ci ildə qoyuluş gücü artımı (qiqavatla)**




Mənbə: Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi, www.irena.org (2022)

Dünyada bərpa olunan enerji mənbələri elmi-texniki tərəqqi və yüksək qabaqcıl texnologiyalar sayəsində ənənəvi enerji mənbələrinə nisbətdə ən sürətli inkişaf edən enerji sektorudur. Lakin bu inkişafa rəğmən, 2040-cı ilə qədər ənənəvi enerji mənbələri hələ də əsas enerji mənbələri olaraq öz yerini qoruyub saxlayacaqdır. Belə ki, ənənəvi enerji mənbələri 2040-cı ilə qədər ümumi enerji istehlakının 77 %-ni təşkil edəcəkdir. Xüsusilə, təbii qazın ənənəvi enerji mənbələrinin digər növlərinə nisbətdə daha çox inkişaf edən enerji mənbəyi olacağı, neft və maye yanacaqlarının isə cüzi azalacağı proqnozlaşdırılır.

**Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı və onlardan istifadə**

Azərbaycan enerji resursları ilə zəngin ölkələrdəndir və dünyada enerji ixracatçısı kimi tanınır. Buna baxmayaraq "yaşıl" enerji hesab olunan bərpa olunan enerji mənbələrindən istifadə son zamanlar diqqət mərkəzindədir. Azərbaycanın zəngin neft-qaz ehtiyatları olsa da, ənənəvi enerji ehtiyatlarının tükənən olduğu sirr deyil.

Azərbaycan bərpa olunan enerji mənbələri üzrə geniş potensiala malik olan ölkələrdəndir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin hesabatına görə, Azərbaycanda bərpaolunan enerji mənbələrinin qoyuluş gücü 1 308 meqavat təşkil edib ki, bunun da 1 152 meqavatı su, 67 meqavatı külək, 45 meqavatı bio, 43 meqavatı isə günəş enerjisinin payına düşüb (BBOEA, 2022)

"Yaşıl" enerji mənbələrindən istifadə və bu sahənin inkişafı dayanıqlı iqtisadiyyatın qurulması istiqamətində vacib bir amildir. Ölkənin bərpa olunan enerji mənbələri üzrə potensialı 27 min meqavat həcmində qiymətləndirilir. Külək enerjisi potensialı 3 min meqavat, günəş enerjisi potensialı 23 min meqavat, bioenerji potensialı 380 meqavat, dağ çayları üzrə potensial isə 520 meqavat həcmindədir. Bundan əlavə, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində dənizdə külək enerjisinin texniki potensialı 157 QVt səviyyəsində qiymətləndirilmişdir (Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, 2022).

**Cədvəl 1. Azərbaycanda bərpa olunan enerji mənbələrinin qoyuluş gücü**

| | |
|---|---|
| Hidro enerji | 1 152 meqavat |
| Külək enerjisi | 67 meqavat |
| Bioenerji | 45 meqavat |
| Günəş enerjisi | 43 meqavat |
| **Ümumi qoyuluş gücü** | **1 308 meqavat** |

Mənbə: Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi, www.irena.org (2022)

Azərbaycanın ümumi elektrik enerjisi istehsalı gücü 7542.2 meqavat, iri su elektrik stansiyaları daxil olmaqla bərpa olunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücü 1304.5 meqavatdır ki, bu da ümumi gücün 17.3 %-ni təşkil edir. Ölkəmizdə ümumi gücü 66,1 meqavat təşkil edən külək, 48,9 meqavat olan günəş, 37,7 meqavat bioenerji elektrik stansiyaları, həmçinin 44,3 meqavat gücündə kiçik su elektrik stansiyaları enerji istehsal edir. Su elektrik stansiyalarının ümumi qoyuluş gücü isə 1110,5 meqavat təşkil edir. 2021-ci ildə respublikada ümumi elektrik enerjisi istehsalı 27,8 milyard kilovat-saat olub ki, bunun 1,6 milyard kilovat-saatı su elektrik stansiyaları da daxil olmaqla bərpa olunan enerji mənbələrinin payına düşüb (Azərbaycan Respublikası Energetika Nazirliyi, 2021).

**Cədvəl 2. Azərbaycanda bərpa olunan enerji mənbələrinin potensialı**

| | |
|---|---|
| Günəş enerjisi | 23 040 meqavat |
| Külək enerjisi | 3 000 meqavat |
| Hidro enerji (dağ çayları) | 520 meqavat |
| Bioenerji | 380 meqavat |
| **Ümumi potensial** | **26 940 meqavat** |

**Mənbə:** Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, www.area.gov.az

Bərpa olunan enerji enerji bazarını şaxələndirə və enerji təhlükəsizliyini təmin edə bilər. Azərbaycan 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payını 30 faizə çatdırılmasını (hazırda 17.3 % təşkil edir) hədəf kimi müəyyənləşdirib.

Qeyd edim ki, bu hədəflərə nail olmaq üçün, Energetika Nazirliyi tərəfindən 2030-cu ilə qədər ölkənin ümumi enerji balansında bərpa olunan enerji üzrə qoyuluş gücü payının 30 %-ə çatdırılması əsas hədəf kimi müəyyən edilmişdir.

Bərpa olunan enerji mənbələri haqqında qanunun qəbul edilməsi Azərbaycanda sektorun ümumi inkişaf istiqamətini təmin edəcək və bərpa olunan enerji mənbələrinin yerli bazarının inkişafına əhəmiyyətli töhfə verəcək. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə haqqında hələ 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" qəbul edilib.

Bu sahədə qəbul edilən "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanunu elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadənin hüquqi, iqtisadi və təşkilati əsaslarını, habelə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının təşviq edilməsi üçün dəstək mexanizmlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir. Hazırda qanunun tətbiqi və icrasının təmin edilməsi məqsədilə alt qanunverici sənədlərin hazırlanması istiqamətdə müvafiq

tədbirlərin icrası davam etdirilir. Qanuna əsasən ölkəmizdə bərpa olunan enerji layihələrinin daha səmərəli və rəqabətli mühitdə həyata keçirilməsi məqsədilə hərrac qaydasında və həmçinin layihənin strateji əhəmiyyətindən asılı olaraq birbaşa cəlbetmə yolu ilə icrası nəzərdə tutulub. Bununla bağlı Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) ilə "Azərbaycanda bərpa olunan enerji hərraclarının keçirilməsinə dəstək" layihəsi həyata keçirilir. Qanunla nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası çərçivəsində "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası" təsdiq olunmasından sonra bərpa olunan enerji layihələri üzrə hərracların təşkili prosesinə başlanılacaq. Hərracların keçirilməsi zamanı əsasən külək və günəş enerjisi üzrə layihələrə üstünlük verilməsi nəzərdə tutulur.

Azərbaycanın neft-qaz sektorundakı zəngin təcrübəsi bərpa olunan enerji texnologiyalarının tətbiqi üçün uğurlu hesab oluna bilər. Məsələn, Kanadada bu təcrübədən geotermal enerji potensialının inkişafında, Norveç dənizdə quraşdırılan külək elektrik stansiyalarının inkişafında, Böyük Britaniya isə dalğa enerjisi istehsalının inkişafında istifadə edib. Xəzəryanı ərazilərin yüksək külək potensialı, eyni zamanda Xəzər dənizinin külək enerjisi potensialından istifadədə Azərbaycan neft-qaz təcrübəsindən istifadə edərək uğurlu nəticələr əldə edə bilər. Gələcəkdə bu enerjinin Qara dənizdən keçməklə sualtı elektrik kabeli vasitəsilə Avropaya ixracı da müzakirə edilir.

**Bərpa Olunan Enerjiyə Keçiddə İnvestisiyaların Əhəmiyyəti**

**Bərpa olunan enerji mənbələrinə qoyulan investisiyaların sektorun inkişafına təsiri**

Beynəlxalq şirkətlər bərpa olunan enerjiyə yeni qazanc mənbəyi kimi investisiya qoyarkən, dövlətlər həm təmiz enerji əldə etmək həm də ənənəvi enerji mənbələrindən daha səmərəli istifadə etmək məqsədilə bu enerji mənbələrinə investisiya qoyur.

Külək və günəş enerjisi ən çox investisiya yatırılan bərpa olunan enerji mənbələridir. 2021-ci ildə günəş enerjisi yatırımları iki qat artaraq 27,8 milyard dollara çatıb (Mercom, 2022). Beynəlxalq Enerji Agentliyinin hesabatına əsasən, iqlim dəyişikliyinin qarşısını almaq üçün təmiz enerji yatırımları 10 ildə 3 qat artmalı və bu artımın 70 faizi inkişaf etməkdə olan ölkələr tərəfindən qarşılanmalıdır (IEA, 2021). Bərpa olunan enerji avadanlıqlarının istehsalı, logistika məsələləri bu ölkələr üçün baha başa gəldiyindən enerji keçidi ləngiyir. Məhz bu baxımdan özəl və ya xarici investisiyaların cəlbi bu kimi ölkələrdə bərpa olunan enerjinin inkişafı baxımından vacibdir.

"BloombergNEF" tərəfindən dərc olunan hesabata görə, 2021-ci ildə bərpa olunan enerji yatırımları 6,5 % artaraq 366 milyard dollar olub. Günəş və külək enerjisi investorların ən cəlb etdiyi bərpa olunan mənbələrdir. Son illər isə korporativ (şirkət) yatırımlarda artım müşahidə edilir. Dünyanın bir sıra investisiya şirkətləri, o cümlədən enerji, texnologiya şirkətləri bərpa olunan enerjiyə yatırım edir. "Google", "Apple", "Facebook", "Vodafone", "Beko", "Microsoft", "Amazon" və digər texnologiya nəhəngləri bərpa olunan enerji mənbələrinə investisiya yatırır və yaşıl enerjidən istifadə edir.

Ümumiyyətlə, bərpa olunan enerji sahəsinin əsaslı və sürətli inkişafı üçün investisiyaların cəlbi və bu sahəyə investisiya qoyuluşu əsas şərtlərdəndir. Araşdırmalara görə, xarici investorlar tərəfdaşlıq zəminində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar. Bu baxımdan investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin qurulması mühüm əhəmiyyət kəsb edir.

Keçmiş Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin məlumatına görə, 2005-ci ildən 2015-ci ilədək günəş fotovoltaik və istilik nasosları, külək, kiçik su elektrik stansiyaları, biokütlə və tullantılar da daxil olmaqla, ayrı-ayrı enerji mənbələrinə 579,1 milyon ABŞ dolları (987,4 milyon manat) məbləğində investisiya yatırılıb, onlardan 480,9 milyon ABŞ dolları (820 milyon manat) və ya 83 %-ni dövlət investisiyaları təşkil edib (BBOEA, 2019).

Günəş və külək enerjisindən sistemli şəkildə istifadə edilməsi “yaşıl enerji” konsepsiyasının əsas elementlərindəndir.
2021-ci ildə Azərbaycan Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə külək, Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” və BP şirkətləri ilə günəş enerjisi layihəsi ilə bağlı müqavilələr imzalanıb. Müqavilələr prioritet vəzifə olaraq irəli sürülmüş bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, o cümlədən 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəfi istiqamətində atılan ilk addım qiymətləndirilə bilər.
“ACWA Power” tərəfindən inşa ediləcək külək elektrik stansiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük külək elektrik stansiyası olacaq. Hazırda isə Azərbaycanda ən böyük külək elektrik stansiyası 50 MVt gücündəki “Yeni Yaşma” stansiyasıdır.
Külək elektrik stansiyası Azərbaycanın Xızı və Abşeron rayonları ərazilərində inşa ediləcək. Bu ərazilər külək enerji baxımından ən əlverişli zona hesab edilir. Qoyuluş gücü 240 MVt olacaq stansiyanın 162,5 MVt-lıq gücü Xızı rayonunun Sitalçay kəndində, 78 MVt-lıq gücü isə Abşeronun rayonunun Pirəkeşkül qəsəbəsində inşa ediləcək. Stansiyalarda quraşdırılacaq külək turbinləri Çindən alınacaq. Qoyuluş gücü 6,5 MVt olacaq turbinlərin 25 ədədi Xızı ərazisində, 12 ədədi isə Abşeron rayonunda yerləşdiriləcək. Külək parkı ilk elektrik enerjisini 2023-cü ildə istehsal edəcək, 2024-cü ildə isə tam gücü ilə işləyəcək. Tam gücü ilə stansiya ildə 1 milyard kilovat-saat yaşıl enerji istehsal edəcək.
Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə imzalanmış müqavilə iki ölkə arasındakı iqtisadi və siyasi əlaqələrini genişləndirəcək. Stansiya tam gücü ilə işlədikdə ildə təxminən 220 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verəcək ki, bu da ixrac imkanını genişləndirərək ölkənin valyuta gəlirlərini artıracaq. Layihənin sosial təsirlərindən danışsaq, layihənin məşğulluq sahəsinə verdiyi töhfəni söyləyə bilərik. Stansiyanın inşası yeni işlərinin yaranmasına, məşğulluğun artmasına səbəb olacaq. Bundan əlavə, xarici təcrübənin öyrənilməsi, sektor üzrə ixtisaslaşmış kadrların hazırlanmasına, bilik və bacarıqların daha da artmasına səbəb olacaq.
Külək elektrik stansiyası tam gücü ilə işlədikdə ildə təxminən, 400 min ton karbon tullantısının qarşısını alacaq. Bu, layihənin əsas ekoloji önəmi hesab edilə bilər. “Masdar” şirkəti ilə imzalanan müqaviləyə əsasən, Qaradağda 230 meqavat gücündə günəş elektrik stansiyası inşa ediləcək. İnvestisiya dəyəri 250 milyon ABŞ dolları olan stansiyanın inşasına Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) 51 milyon ABŞ dolları həcmində uzunmüddətli kredit ayırıb. EBRD ilə yanaşı bir sıra digər beynəlxalq maliyyə qurumlarının da layihəyə dəstək verməsi gözlənilir. Qaradağ günəş elektrik stansiyası güclü iqtisadi və ekoloji fayda təmin edəcək. Stansiya karbon emissiyasını 200 min tona qədər azaldacaq və 110 000 evi elektrik enerjisi ilə təmin edəcək. Hazırda “Masdar” şirkəti ilə yeni investisiya layihələrinin müzakirəsi davam edir. Qarabağın “yaşıl” enerji potensialı və “yaşıl enerji zonası”nın yaradılmasında investisiyaların əhəmiyyəti Ümumiyyətlə, bərpa olunan enerji mənbələri üzrə uzunmüddətli hədəf və planların müəyyən edilməsi bu sahənin inkişafı və investisiya cəlbi üçün mühümdür.
İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Prezidentin sərəncamında qeyd edilir ki, işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, “yaşıl artım” yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorlar dəstəklənəcək.
Cari iqtisadi dövrün əsas xüsusiyyətlərindən biri birbaşa xarici investisiyalarda (BXİ) olan sürətli artımdır. Aydındır ki, BXİ-nin istiqamətləndiyi ölkəyə əsas iqtisadi faydası həmin ölkədə kapitalı daha əlçatan etməsidir (Blanşard, 2017).

Böyük həcmdə karbohidrogen ehtiyatlarına sahib olan Azərbaycanın neft-qaz sahəsi xarici investisiyalar üçün hər zaman cəlbedici olmuşdur. Qeyd edək ki, 1995-ci ildən bu ilin iyul ayına qədər iqtisadiyyata 300 milyard ABŞ dolları investisiya qoyulub.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə əsasən, investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, ölkənin inkişaf səviyyəsinin yüksək olması birbaşa olaraq investisiyaların çoxluğundan asılıdır. Xüsusilə, xarici investisiyaya daha çox zərurət duyan, inkişafda olan ölkələr bu sahədə öz siyasətlərini qurduqları zaman investisiya münasibətlərinin inkişafının ciddi şəkildə araşdırılmasına xüsusi diqqət göstərirlər (Babayev, 2017).

İnvestisya axınlarının intensivliyi bütövlükdə iqtisadiyyatın inklüziv inkişafını təmin edir. Azərbaycan qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması məqsədilə 2030-cu ilədək istixana effekti yaradan qaz emissiyalarının 35 % azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürmüşdür. Həmçinin 2050-ci ilə qədər könüllü öhdəlik kimi emissiyaların 40 %-dək azaldılması və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması üzrə ölkəmiz yeni öhdəlik qəbul etmişdir.

Qarabağda bərpa olunan enerji mənbələrinin potensialının müəyyən edilməsi üçün ilkin tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında aparılır.

Azad edilən ərazilərdə günəş enerjisinin potensialı 4 min meqavatdan, külək enerjisinin potensialı isə 500 meqavatdan, hidroelektrik potensialı isə 700 meqavatdan çoxdur.

Təhlillər göstərir ki, Vətən müharibəsində ölkəmizin qələbəsi işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarından digər məqsədlərlə yanaşı, enerji məqsədli istifadəyə şərait yaratmışdır. Tərtərçay, Həkəri çayı və bu çayların qollarında böyük hidroenerji potensialı mövcuddur. Digər bərpa olunan enerji mənbələrinə gəldikdə isə, Kəlbəcər və Şuşada geotermal enerji mənbələrinin olmasına dair müvafiq elmi araşdırmalar var. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı və digər sahələrin inkişafı nəticəsində gələcəkdə bioenerji potensialı qiymətləndiriləcəkdir.

Azad edilmiş ərazilərdə Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25 %-i formalaşır və bu da təxminən illik 2.56 milyard $m^3$ təşkil edir. Xüsusən qeyd etmək lazımdır ki, Qarabağda günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. İlkin müşahidələr nəticəsində əlverişli günəş radiasiyanına malik müvafiq ərazilər müəyyən edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə günəş enerjisi potensialı 7 200 MVt-dan artıq qiymətləndirilir. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur.

İlkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması müəyyən edilmişdir. Təhlillər bu ərazilərdə külək enerjisi potensialının 2 000 MVt ətrafında olmasını göstərir. Bu ərazilərdə külək enerji layihələrinin həyata keçirilməsi üçün zəruri işlər görülür.

Bu ərazilərdə geotermal enerji mənbələrinin olmasına dair əvvəlki illərdə müvafiq elmi araşdırmalar aparılmışdır. İlkin təhlillər göstərir ki, Kiçik Qafqazın dağlıq hissəsində geotermal mənbələr var (4000-5000 $m^3$/gün (30-74°C)). İlkin müşahidələrə əsasən, bu potensialdan müvafiq olaraq istilik təminatı və balneoloji məqsəd üçün istifadə daha məqsədəuyğundur (AREN, 2022). Bütün bu mənbələr işğaldan azad olunmuş rayonlarımızda yeni enerji layihələrini gerçəkləşdirməyə imkan verir. Həmin istiqamətdə genişmiqyaslı işlər

nəzərdə tutulub və onlar ardıcıllıqla həyata keçirilir. “Yaşıl enerji” layihələrinə xarici investorların cəlb edilməsi üçün də artıq müəyyən əməli addımlar atılır.
Bərpa olunan enerji mənbələri həm də təbii qazın çəkilişinin texniki olaraq mümkünsüz və iqtisadi səmərəli olmayan məntəqələrin enerji tələbatı üçün həll yoludur. Kəlbəcər və Laçın rayonlarının hündür dağlıq ərazi olduğunu nəzərə alsaq, bərpaolunan enerji mənbələrindən istifadə daha səmərəli olar.
Yeni investisiyaların cəlbi, bərpa olunan enerji potensialından istifadə Azərbaycanı yaşıl enerji ölkəsi kimi dünya ölkələri arasında öz yerini tutmasına imkan verəcək. Yaşıl enerji sahəsinin inkişafı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"dən biri olan “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” prioriteti üzrə qarşıya qoyulmuş hədəflərə də öz töhfəsini verəcəkdir.
Ümumilikdə isə xarici investisiyanın ölkənin iqtisadi, sosial, ekoloji hədəfləri və digər istiqamətlərdə təsiri böyükdür. Xarici investisiyanın hesabına həyata keçiriləcək bərpa olunan enerji layihələri qənaət olunan təbii qazın ixraca yönəldilərək ölkəyə valyuta axınına səbəb olacaq, məşğulluğun artmasına, sektor üzrə ixtisaslı kadrların hazırlanmasına, yeni iş yerlərinin yaranmasına, ildə minlərlə ton karbon qazı emissiyasının qarşısının alınması ilə ölkənin qlobal iqlim hədəflərinə və digər istiqamətlərdə mühüm töhfə verəcək.

**Nəticə**

Bərpa olunan enerji enerji bazarını şaxələndirə və enerji təhlükəsizliyini təmin edə bilər. Bərpa olunan enerji mənbələri haqqında qanunun qəbul edilməsi Azərbaycanda sektorun ümumi inkişaf istiqamətini təmin edəcək və bərpa olunan enerji mənbələrinin yerli bazarının inkişafına əhəmiyyətli töhfə verəcək.
Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın “yaşıl” enerji sektorunun inkişafına ciddi töhfələr verə bilər.
İqlim hədəflərinə nail olmaq üçün bərpa olunan enerji mənbələrindən istifadə xüsusilə vacib əhəmiyyət kəsb edir. Alternativ enerjinin ölkə ərazisində geniş vüsət alması məqsədilə dövlətin maliyyə dəstəyi ilə yanaşı, fərdi istifadəçilər üçün də stimullaşdırıcı tədbirlər görülməlidir. Vergi və gömrük rüsumu güzəştləri də bərpa olunan enerji sahəsinin inkişafını sürətləndirə bilər.
Qanunverici, tənzimləyici və institusional mühitin təkmilləşdirilməsi ilə bağlı qəbul edilən qərarlar irəlidə bu sahədə nəzərəçarpacaq nailiyyətlərə imkan yaradacaq. Bərpa olunan enerji mənbələrinə keçid neft və qaz istehlakının azalmasına və yaranan ixrac potensialı hesabına əlavə gəlir əldə etməyə imkan verəcəkdir.
Xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsi bərpa olunan enerji sahəsində özəl investisiyaların payını artıracaq.
Bu istiqamətdə innovativ texnalogiyalardan istifadənin geniş tətbiq edilməsi və beynəlxalq təcrübələrin öyrənilməsi bütünlükdə sektorun inkişafını sürətləndirəcək. Azərbaycanın BƏƏ və Səudiyyə Ərəbistanı şirkətləri ilə imzaladığı investisiya müqavilələri və Qarabağda dağıdılmış elektrik stansiyaların bərpası ölkənin 2030-cu ilə qədər müəyyənləşdirdiyi 30 faiz bərpa olunan enerji hədəfinə çatmasında paya sahib olacaq

**Ədəbiyyatlar**

1. Azərbaycan Respublikası Energetika Nazirliyi (2022). Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə.
2. Azərbaycan Respublikası Energetika Nazirliyinin 2021-ci il üzrə elektrik enerjisinə dair operativ məlumatları.
3. Babayev J. (2020). Why should we switch to alternative energy?
4. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA). (2019). Azərbaycan Respublikasında bərpa olunan enerji mənbələrindən istifadəyə hazırlığın qiymətləndirilməsi.

5. Babayev E. (2019). Alternativ və bərpa olunan enerji mənbələri, onlardan istifadənin ekoloji-iqtisadi nəticələri.
6. Şahbazov P. (2021). Azərbaycan energetikasının yeni dövrü Qarabağ və Şərqi Zəngəzurdan başlayır.
**7. Məmmədov C. (2021).** Alternativ və bərpa olunan enerji mənbələri və onun üstünlükləri.
8. LevelTen Energy. (2022). LevelTen Energy's new report reveals that European P25 solar and wind PPA prices increased 8,6% in Q1 of 2022, reaching 57€ per MWh.
Chapter 2 9. UN Climate Report. (2022). It's 'now or never' to limit global warming to 1.5 degrees.
Chapter 3 10. IRENA. Renewable Capacity Statistics 2022.
11. Ember. Global Electricity Review 2022.
Chapter 4 12. GWEC. Global Wind Report 2022.
13. IRENA. Global Energy Transformation: A Roadmap to 2050.
14. "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında. https://e-qanun.az/framework/5796
15. Mercom Capital Group. (2022). Global corporate funding in solar sector nearly doubles to $27.8 bn in 2021.
16. IEA. World Energy Outlook 2021.
17. Oliver Blanchard. Macroeconomics (2017).

# COVID-19 PANDEMIYASININ SƏHIYYƏ SEKTORUNDA FƏALIYYƏT GÖSTƏRƏN BIZNESLERƏ TƏSIRI

**Əsgərova Cəvahir**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Javahirasgarova444@gmail.com**

## Xülasə

Bu məqalədə COVID-19 pandemiyasının səhiyyə sektorunda fəaliyyət göstərən əczaçılıq, baytarlıq və optika şirkətlərinə iqtisadi və sosial təsirləri araşdırılmışdır. Tədqiqatlar COVID-19 pandemiyası dövründə bir cəmiyyətin əsas ehtiyaclarından birinin səhiyyə xidməti olduğunu və pandemiyanın yayılmasına nəzarət etmək üçün sosial təcrid olunmanın çox vacib olduğunu ortaya qoymuşdur. Tədqiqatda keyfiyyət və kəmiyyət tədqiqat metodlarının birlikdə istifadə edildiyi qarışıq tədqiqat dizaynlarından biri olan kəşfiyyat xarakterli ardıcıl qarışıq metod dizaynından istifadə edilmişdir. Tədqiqatın kəmiyyət aspektində təsviri sorğu modeli modeli istifadə edilmişdir. Kəmiyyət tədqiqat nümunəsi klaster seçmə üsulu ilə müəyyən edilmiş 300 şirkətdən ibarətdir. Araşdırmadan əldə edilən nəticələrə görə Azərbaycanda pandemiya dövründə araşdırma obyekti olan səhiyyə sektorunda fəaliyyət göstərən şirkətlər iqtisadi cəhətdən mənfi təsir göstərib. Satışlar və gəlirlər 50% və ya daha çox artdı, lakin sabit əməliyyat xərclərində azalma olmadı. Şirkətlər əməyin mühafizəsi və təhlükəsizliyi tədbirlərinə ən yüksək səviyyədə riayət edirlər. Firmalar faydalandıqları dəstək və yardımlarla məşğulluq səviyyələrini qoruyaraq xidmətlərini davam etdirirlər. Şirkətlərin pandemiya ilə mübarizə aparmaq üçün səhiyyə xidmətləri göstərməyə davam etməsi zəruri şərtdir. Bu səbəbdən, pandemiya ilə mübarizədə uğur qazanmaq üçün sektora xüsusi dəstək və yardımın göstərilməsi zəruri və vacibdir.

**Açar sözlər:** COVID-19 pandemiyası, səhiyyə sektoru, biznes subyektləri

## Abstract

This article examines the economic and social impact of the COVID-19 pandemic on pharmaceutical, veterinary and optical companies operating in the health sector. Studies have shown that during the COVID-19 pandemic, one of the main needs of a society is health care, and social isolation is very important to control the spread of the pandemic. In the quantitative aspect of the study, a descriptive survey model was used. The sample survey consisted of 300 companies identified by cluster sampling. According to the study, companies operating in the health sector, which is the subject of research during the pandemic in Azerbaijan, have had a negative economic impact. Companies adhere to the highest level of occupational safety and health measures. Firms continue to provide services with the support and assistance they receive, while maintaining employment levels. It is imperative that companies continue to provide health services to combat the pandemic. Therefore, it is necessary and important to provide special support and assistance to the sector to succeed in combating the pandemic.

**Keywords**: COVID-19 pandemic, health sector, business entities

## Giriş

Çin Xalq Respublikasının Hubey əyalətinin Uhan şəhərində koronavirus ailəsinə aid olan yeni bir virus, Ağır Kəskin Tənəffüs Sindromu Coronavirus-2 (Severe Acute Respiratory Syndrome Coronavirus-2; SARS-CoV-2) müəyyən edildikdən sonra 2019-cu ilin sonunda bu virus dünyanın bir çox ölkəsinə yayıldı və pandemiyaya səbəb oldu. Virusun yayılmasının qarşısını almaq üçün müxtəlif məhdudiyyətlər qoyulub, karantin qaydaları tətbiq edilmiş və daha bir çox sərt tədbirlər həyata keçirilmişdir. COVID-19 pandemiyası öz təsirləri ilə həm cəmiyyətlər, həm də fərdlər, həm də müəssisələr zəminində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. İnsanlar, eləcə də müəssisələr əvvəllər üz-üzə gördükləri bəzi fəaliyyətlərini internet və sosial media vasitəsilə etməyə başlamışlar.

Məlumdur ki, pandemiya səbəbilə ölkələr müvafiq xəstəlikdən qorunma tədbirləri həyata keçirirlər. Bu tədbirlər vasitəsilə bəzi ölkələrdə, eləcə də Azərbaycanda pandemiyanın yarada biləcəyi zərər payı minimuma endirilmişdir. Sözügedən tədbirlər müxtəlif sahələr üzrə fərqlilik təşkil edir. Bu isə hər bir sahənin

özünəməxsus xüsusiyyət və formalarının olmasından irəli gəlir. Bu sahələrə təhsil, sosial müdafiə, miqrantlar, qadın və uşaqlar, Azərbaycanın biznes subyektləri və s. aid etmək olar. İşçi kütləsinin əsasən biznes subyektləri üzərindən formalaşdığını nəzərə alaraq deyə bilərik ki, xəstəliklərdən qorunma xidmətinin formalaşmasını zəruri edən əsas sahələrdən biri də biznes subyektləridir. Bu isə mövzumuzu olduqca aktual edir.

Ədəbiyyatımıza yeni daxil olan COVID-19 anlayışı, xəstəlikdən qorunma tədbirləri, eləcə də biznes subyektlərinin fəaliyyəti araşdırılması geniş və əhəmyyətli sahələrdir. Sözügedən mövzu olduqca yenidir və koronavirus pandemiyası şəraitində biznes subyektlərində xəstəliklərdən qorunma xidmətinin formalaşması daha əvvəllər nə yerli, nə də xarici tədqiqatçıların araşdırma mövzusu olmamışdır. Məhz bu vəziyyət Koronavirus (COVID-19) pandemiyası şəraitində Azərbaycanın biznes subyektlərində xəstəliklərdən qorunma xidmətinin formalaşması və sosial-iqtisadi cəhətdən qiymətləndirilməsi məsələlərinə diqqət yetirilməsini aktual edir.

Tədqiqatın əsas məqsədi Azərbaycanda (COVID-19) pandemiyası şəraitində Azərbaycanın biznes subyektlərində xəstəliklərdən qorunma tədbirlərinin müəyyənləşdirilməsi, təhlili və qiymətləndirilməsi təşkil edir.

Tədqiqatın aparılmasında səhiyyə xidmətinin təşkili, pandemiya tədbirləri, COVID-19 və onun xüsusiyyətləri, biznes subyektlərinin fəaliyyəti üzrə yerli və xarici monoqrafiyalardan, kitab, nəşrlərdən, elmi işlərdən, və digər vəsaitlərdən istifadə edilmişdir.

Mövzunun daha öncə dünya miqyasında tədqiq olunmaması və COVID-19 pandemiyasının həyatımıza son 2 ildə daxil olduğunu nəzərə alaraq Azərbaycan üzrə bu sahədə aparılan tədqiqatlar yetərsiz saydadır.

Pandemiya şəraiti, eləcə də yumşaldılmış karantin rejimi hələ də davam etdiyi üçün biznes subyektləri ilə əlaqlərin qurulmasın və üzbəüz sorğuların aparılması, eyni zamanda maliyyə nöqteyi nəzərindən yaranacaq problem də bu sıraya əlavə edilə bilər.

Tədqiqatın məqsədinə müvafiq olaraq Azərbaycanda (COVID-19) pandemiyası şəraitində biznes subyektlərində xəstəliklərdən qorunma tədbirlərinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və virusla mübarizədə yeni həll yollarının, eləcə də tədbirlərin təklif edilməsidir.

**Tədqiqat Metodu**

Tədqiqatda kəmiyyət tədqiqat metodlarının birlikdə istifadə edildiyi qarışıq tədqiqat dizaynlarından biri olan kəşfiyyat xarakterli ardıcıl qarışıq metod dizaynından istifadə edilmişdir. Tədqiqatın kəmiyyət ölçüsündə təsviri sorğu modelindən və ümumi sorğu modelindən istifadə edilmişdir. Tədqiqatın birinci mərhələsində toplanmış kəmiyyət məlumatları ilə təsviri təhlil aparılıb və ümumi perspektivi təmin edən kəmiyyət nəticələri əldə edilmişdir. İkinci mərhələdə kəmiyyət datalarına əsaslanan keyfiyyət məlumatları toplanmış və təhlil edilmişdir. Tədqiqatda istifadə olunan kəmiyyət tədqiqat metodundan əldə edilmiş nəticələrin işlənib hazırlanması, təqdim edilməsi, çoxaldılması və aydınlaşdırılmasında keyfiyyət tədqiqat metodunun nəticələrindən istifadə edilmişdir.

Tədqiqatın kəmiyyət mərhələsinin məlumatları Azərbaycan daxilində səhiyyə sektorunda fəaliyyət göstərən apteklər, baytarlıq müəssisələri və optikalar arasında klaster seçmə üsulu ilə müəyyən edilmiş və tədqiqat kütləsini təmsil edə biləcək üç yüz nümunə ilə könüllülük əsasında tətbiq edilən anket formlar ilə toplanmışdır. Beynəlxalq Əmək Təşkilatı tərəfindən COVID-19 böhranı zamanı institusional tədqiqatlar üçün hazırlanmış BƏT COVID-19 Müəssisə Sorğu şkalası kəmiyyət təhlilində istifadə olunan məlumatların toplanması üçün istifadə edilmişdir. Tədqiqatın keyfiyyət təhlilində istifadə olunan məlumatlar kəmiyyət mərhələsində tədqiqatçıların istifadə etdiyi ölçmə alətinə və ədəbiyyata uyğun olaraq yaradılmış yarımstrukturlaşdırılmış

müsahibə formasından istifadə etməklə əldə edilmişdir. Yarı strukturlaşdırılmış müsahibə məlumatları faiz və tezlik şəklində təqdim edilir və şirkətlərin fikirlərini əks etdirmək üçün birbaşa daxil edilir. Toplanılan məlumatlar Excel proqramı vasitəsilə təhlil edilmişdir. Dataların toplanmasında "Business Insight" beynəlxalq araşdırma şirkətinin apardığı tədqiqat məlumatlarına istinad edilmişdir. Tədqiqatın aparılmasında istifadə edilən data "Business Insight" araşdırma şirkəti tərəfindən toplanılmışdır. Təhlillər isə müəllif tərəfindən aparılmışdır. Tədqiqat Azərbaycan üzrə fəaliyyət göstərən müəssisələrin iş mexanizminə əsaslanır.

**Təhlil**

2019-cu ilin son ayında Çin Xalq Respublikasının Hubai əyalətinin Uhan şəhərində qeydə alınan mənşəyi məlum olmayan pnevmoniya hallarının yanvarın 7-də yeni növ koronavirus (koronavirus) səbəbindən baş verdiyi məlum olmuşdur. 2020. Geniş istifadə edildiyi üçün 2019-nCoV və ya COVID-19 adlandırılan bu xəstəlik qısa müddətdə sürətlə yayılmışdır (İnce və Pet, 2020: 236). Bu səbəbdən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən 11 mart 2020-ci ildə (ÜST, 2020) pandemiya elan edilmişdir. COVID-19 sadəcə sağlamlıq böhranı kimi qəbul edilməməlidir. Bu, iqtisadi və sosial təsirləri ilə biznesdə çalışanlar üçün qlobal problemdir (BVF, 2020). COVID-19 epidemiyasının yayılmasının qarşısını almaq üçün hökumətlər tərəfindən görülən tədbirlər vardır. Bunlar sərhədlərin bağlanması, səyahət qadağaları, evdə işləmək və sosial məsafənin qorunması çərçivəsində görülən tədbirlərdir. Bütün ölkələr oxşar tədbirlər görür və virusun yayılma qarşısını almaq üçün effektiv mübarizə aparır (Erdem, 2020).

**Pandemiyanın fəaliyyət göstərən biznes subyektlərinə iqtisadi və sosial təsiri**

Bu tədbirlər təbii olaraq mal və xidmətlərə olan tələb və təklifi azalmasına gətirib çıxarmışdır. Eyni şəkildə, işçi sağlamlığı üçün virus riski də işçi qüvvəsinə mənfi təsir göstərir (Kara, 2020; Kıvılcım, 2020). Epidemiyanın qarşısını ala bilməmək və epidemiya ilə mübarizədə uğurlu nəticələrin nə vaxt əldə ediləcəyinin qeyri-müəyyənliyi səbəbiylə yaşanan daralma şirkətlərin bütün sektorlarda daralmasına səbəb olur (Torun Kayabaşı, 2020). Pandemiya ilə mübarizə çərçivəsində qeyri-vacib müəssisələrin bağlanması, karantin tətbiqləri, səyahət məhdudiyyətləri, sosial təcrid və sosial məsafənin qorunması zərurəti həm insan sağlamlığına, həm də əczaçılıq sektoruna, eləcə də bir çox digər sektorlara təsir göstərir: işçi qüvvəsi və iqtisadi cəhətdən (Rutkowski, 2020; Barrot, Grassi və Sauvagnat, 2020). Koronavirus prosesi zamanı bütün insanlar sağlamlıq baxımından ciddi simptomlar yaşamasalar da, COVID-19 böhranından iqtisadi və sosial baxımdan ciddi şəkildə təsirlənirlər. Hökumətlər və beynəlxalq təşkilatlar tədqiqatları dəstəkləyir və ilk növbədə COVID-19 virusunun yayılmasının qarşısını almaq üçün xəstəliyin diaqnozu və müalicəsi üçün yeni resurslar ayırırlar. Eyni zamanda, COVID-19 pandemiyasında yaşanan iqtisadi və sosial çətinliklərin aradan qaldırılması üçün iş yerlərində və evlərdə etimadın aşılanması, şirkətlərin istehsal prosesindən qopmaması, məşğulluğun davamlılığının təmin edilməsi üçün tədbirlər hazırlayırlar. Məşğulluq və istehsal prosesinin davamlılığını təmin etmək məqsədi ilə şirkətlərə investisiya dəstəkləri və nağd dəstək proqramları təqdim etmək, şirkətlərin sabit xərc xərclərini müəyyən dövrlər üçün (sosial sığorta mükafatı ödənişləri, kirayə ödənişləri və kredit borcları kimi) dayandırmaq və bu müddətə təxirə salmaq görülən tədbirlər arasında önə çıxır (BƏT, 2020; OECD, 2020).

Koronavirusun mənbəyinə baxdıqda dəqiq aydın olmasa da, məlumatlar dəniz məhsullarının satıldığı bazarda heyvanların olduğu göstərilir (Özçiftçi, 2020). Virusun insandan insana keçmə qabiliyyətini olması səbəbilə "COVID-19"-un mənbəyinin xəstəliyin pozitiv aşkarlandığı insanlar olduğu düşünülür. Damcı yoluyla ötürüldüyü bilinən koronavirus, öskürək və asqırma yolu ilə xəstə şəxslərin yaydığı damcılarla digər insanların

təmas etməsi ilə ötürülür (Singhal, 2020). Koronavirusun qızdırma, öskürək, nəfəs darlığı, boğaz ağrısı, baş ağrısı, əzələ ağrıları, dad və qoxu itkisi kimi simptomları var (Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, 2020). Koronavirusun ortaya çıxmasından bu yana ölkəmizdə ümumi yoluxma sayı 492 min, ölənlərin sayı isə 6 mini (koronavirusinfo.az, 11.10.2021-ci il tarixli məlumat) keçmişdir. Dünyada 238 milyondan çox yoluxma və 4 milyondan çox ölüm hadisəsi baş vermişdir. Demək olar ki, hər yaş qrupuna ciddi təsirləri səbəbindən koronavirus 21 -ci əsrin ən əhəmiyyətli sağlamlıq problemi hesab olunur.

Araşdırmalar COVID-19 pandemiyası dövründə cəmiyyətin əsas ehtiyaclarından birinin səhiyyə xidməti olduğunu və pandemiyanın yayılmasına nəzarət etmək üçün sosial təcrid olunmanın çox vacib olduğunu ortaya qoymuşlar (Hotar, 2020). Koronavirusun yoluxucu olduğunu başa düşməklə sosial təcrid və karantin tədbirləri tədricən artmağa davam etmişdir (Üstün, 2020). Sosial təcrid fərdlə cəmiyyət arasında tam və ya demək olar ki qismən ünsiyyət əksikliyi vəziyyəti olaraq təyin olunur.

Pandemiya dövründə dünyada sosial ictimai sağlamlıq problemlərinə və iqtisadi çətinliklərə səbəb olan COVID-19 pandemiyasının sosial həyata təsirləri ilə bağlı araşdırmalarda sosial təcrid və səyahət azadlığının qadağan edilməsi bəzi problemlərə səbəb olmuşdur. Pandemiyanın təhsil sisteminə, iqtisadi vəziyyətə, kənd təsərrüfatı istehsal prosesinə, sağlamlıq hüququna və insan psixologiyasına bəzi mənfi təsirləri olduğu aşkar edilmişdir. Sosial təcrid fərdlərdə müxtəlif psixoloji pozğunluqların yaranmasına yol açmaqla COVID-19 pandemiyasının təsirləri həmçinin biznes subyektlərində də özünü göstərirmişdir (Məmmədov, 2020).

Dünyada sosial ictimai sağlamlıq problemlərinə və iqtisadi çətinliklərə səbəb olan COVID-19 pandemiyasının sosial həyata təsirləri ilə bağlı araşdırmalarda pandemiya dövründə sosial təcrid və səyahət azadlığının qadağan edilməsi bəzi problemlərə səbəb oldu, pandemiyanın təhsil sisteminə, iqtisadi vəziyyətə, kənd təsərrüfatı istehsal prosesinə, sağlamlıq hüququna və insan psixologiyasına bəzi mənfi təsirləri olduğu ifadə edildi. Sosial təcrid fərdlərdə müxtəlif psixoloji pozğunluqların yaranmasına yol açdı. COVID-19 pandemiyasının təsirləri həmçinin biznes subyektlərində də özünü göstərirmişdir (Rəhmanov, 2021).

COVID-19 pandemiyası yoxsulluq, artan stres və səhiyyə xidmətinin azalması səbəbindən bütün dünyada fərdlərin inkişafına mənfi təsir göstərmə potensialına malikdir. Əvvəlki pandemiya və fəlakətlərin təsirləri ilə bağlı araşdırmalar göstərir ki, iqtisadi vəziyyət nöqteyi nəzərindən həm qısamüddətli, həm də uzunmüddətli mənfi nəticələr ola bilər (Shonkoff və Garner, 2013).

**Azərbaycanda fəaliyyət göstərən aptek, optika və baytarlıq mağazalarında aparılan sorğunun nəticələri**

Tədqiqatın kəmiyyət ölçüsü ilə bağlı nümunəni təşkil edən Azərbaycandakı şirkətlər haqqında məlumatlar Cədvəl 1-də təqdim olunmuşdur. Məlumat üçün qeyd edim ki, tədqiqatın aparılmasında istifadə edilən data "Business Insight" araşdırma şirkəti tərəfindən toplanılmışdır. Təhlillər isə müəllif tərəfindən aparılmışdır. Tədqiqat Azərbaycan üzrə fəaliyyət göstərən müəssisələrin iş mexanizminə əsaslanır.

**Cədvəl 1: Tədqiqatda iştirak edən şirkətlərin məlumatları**

| **Firma məlumatları** | | **N*** | **%**** |
|---|---|---|---|
| **Fəaliyyət sahəsi** | Optika mağazaları | 119 | 38.3 |
| | Apteklər | 115 | 39.7 |
| | Baytarlıq | 66 | 22 |
| **Fəaliyyət müddəti (il)** | 0-5 il | 46 | 15.3 |
| | 6-10 il | 59 | 19.7 |
| | 11-15 il | 66 | 22 |
| | 16-20 il | 61 | 20.3 |

| | | | |
|---|---|---|---|
| | 20+ il | 68 | 22.7 |
| **İşçi sayı (nəfər)** | 1 | 47 | 15.7 |
| | 2 | 89 | 29.7 |
| | 3 | 72 | 24 |
| | 4 | 37 | 12.3 |
| | 5+ | 55 | 18.3 |

*N (say): 300

**%: sorğuda iştirak edən müəssisələrin ümumi sayda (300) faizi

**Mənbə:** "Business Insight" tərəfindən toplanılan dataların müəllif tərəfindən "MC Excel 2016" statistik proqramı vasitəsilə təhlili

Tədqiqatın kəmiyyət ölçüsündə iştirakçıların şirkətlərin fəaliyyət sahəsinə görə bölgüsü araşdırıldığında 39,7%-ni əczaçı, 22%-ni baytar həkimləri, 38,3%-ni optika işçiləri təşkil edir. Tədqiqatda iştirak edən şirkətlərin 22,7%-i öz sahələrində 20 il və daha çox fəaliyyət göstərən müəssisələrdir. Müəssisələrdə çalışan işçilərin sayı araşdırıldığında onların 29,7 faizinin iki nəfər işlədiyi görülür. Bir şirkətdə orta hesabla 2,5 nəfər çalışır.

Cədvəl 2-də pandemiya dövründə şirkətlərin gəlirlərinin, sifarişlərinin, işçi qüvvəsinin və satış vəziyyətlərinin necə təsirləndiyini göstərilmişdir.

**Cədvəl 2: Azərbaycanda COVID-19 Pandemiya Prosesinin Aptek, Baytarlıq və Optika mağazalarına Təsiri**

| **Pandemiyanın təsiri** | | **Azaldı** | | | **Artdı** | **Təsiri olmadı** |
|---|---|---|---|---|---|---|
| | | **20%** | **30%** | **50-100%** | | |
| **Gəlir (%)** | Apteklər | 8.7 | 14.3 | 11.3 | 2 | 2 |
| | Optika mağazaları | 0.3 | 7.7 | 31.7 | 0 | 0 |
| | Baytarlıq | 2.7 | 8.7 | 9 | 1.3 | 0.3 |
| | Cəm | 11.7 | 30.7 | 52 | 3.3 | 2.3 |
| **Sifarişlər (%)** | Apteklər | 8.3 | 16.8 | 9 | 2.3 | 2.3 |
| | Optika mağazaları | 0.3 | 8 | 31.3 | 0 | 0 |
| | Baytarlıq | 2.3 | 12.7 | 5 | 1.7 | 0.3 |
| | Cəm | 10.6 | 37.5 | 45.3 | 4 | 2.6 |
| **İş yükü (%)** | Apteklər | 7.7 | 12.5 | 4.3 | 10.7 | 4 |
| | Optika mağazaları | 2.7 | 6 | 25.9 | 0 | 5 |
| | Baytarlıq | 5 | 4.7 | 5.3 | 2 | 5 |
| | Cəm | 15.4 | 22.4 | 35.5 | 12.7 | 14 |
| **Satışlar (%)** | Apteklər | 8.3 | 13 | 11.3 | 3 | 2 |
| | Optika mağazaları | 0.3 | 8 | 31.3 | 0 | 0 |
| | Baytarlıq | 2.7 | 8.3 | 9 | 1.7 | 0.3 |
| | Cəm | 11.3 | 29.3 | 51.7 | 4.7 | 3 |

**Mənbə:** "Business Insight" tərəfindən toplanılan dataların müəllif tərəfindən "MC Excel 2016" statistik proqramı vasitəsilə təhlili

COVID-19 pandemiya prosesinin şirkətlərə təsirini göstərən Cədvəl 2-ə əsasən şirkətlərin 52%-nin gəliri 50%-100% aralığında azalıq. 30,7%-nin gəliri 30% azalıb. 11.7% müəssisənin gəlirləri isə 20% azalıb. Ümumi müəssisələrin cəmi 3.3%-nin gəlirinində artım müşahidə edilir. Gəlir ən çox optika mağazaları arasında azalıb.

Sifarişlər araşdırıldıqda şirkətlərin sifarişlərinin 45,3%-i 50%-100%, 37,5%-i 30%, 10,6%-i 20% azalmışdır, 4%-i isə artmışdır. Sifarişləri ən çox azalan şirkətlər optika mağazaları olmuşdur. İşçi qüvvəsi yoxlanıldıqda; Şirkətlərin 35,5%-nin işçi qüvvəsi 50%-100% azaldığı halda, şirkətlərin 22,4%-nin işçi qüvvəsi 30%, 15,4%-nin işçi qüvvəsi 20% azalmışdır, 12,7%-nin işçi qüvvəsi artmışdır. İşçi qüvvəsi ən çox apteklərdə artıb. Şirkətlərin satışları araşdırıldığında, onların 51,7%-nin satışları 50%-100%, 29,3%-nin satışları 30%, 11,3%-nin işçi qüvvəsi 20% azalaraq 4,7% artıb. . Satışlarda azalma daha çox optika mağazalarında müşahidə olunmuşdur.

Tədqiqatda iştirak edən şirkətlərin işçiləri və müştəriləri tərəfindən onları virusun yoluxucu təsirindən qorumaq üçün həyata keçirilən əməyin mühafizəsi və təhlükəsizlik tədbirləri Cədvəl 3-də göstərilmişdir.

**Cədvəl 3: Şirkətlər tərəfindən görülən əməyin mühafizəsi və təhlükəsizliyi tədbirləri**

| İş Sağlamlığı və Təhlükəsizliyi Tədbirləri | Xüsusi çəki, %-lə |
|---|---|
| İşçiləri virusun ötürülməsi və qarşısının alınması tədbirləri haqqında məlumatlandırmaq. | 100 |
| İşçiləri yaxşı hiss etmədikdə evdə qalmağa təşviq etmək. | |
| İşçilər və müştərilər arasında fiziki məsafənin qorunması. | 69 |
| Mərhələli - növbəli iş. | 63 |
| Evdən onlayn iş. | 37.6 |
| İş yerində temperaturun ölçülməsi. | 0.006 |
| Maskalar, əlcəklər, dezinfeksiyaedici maddələr kimi qoruyucu vasitələrdən istifadə edilmə | 21 |
| | 100 |

**Mənbə:** "Business Insight" tərəfindən toplanılan dataların müəllif tərəfindən "MC Excel 2016" statistik proqramı vasitəsilə təhlili

Cədvəl 3-dən görünür ki, tədqiqatda iştirak edən bütün şirkətlər əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinə ən yüksək səviyyədə riayət etməklə işçilərini və müştərilərini iki və ya daha çox tədbir görərək virusun ötürülməsindən qoruyurlar. Şirkətlər arasında onlayn işləmə ölçüsü olduqca aşağıdır. Şirkətlərin 63%-i işçilərlə müştərilər arasında fiziki məsafə qaydasını tətbiq edir.

Tədqiqatda iştirakçılar pandemiya zamanı satışlarının və gəlirlərinin çox azaldığını qeyd etmişdirlər. İştirakçıların bəzi cavablarını aşağıda görə bilərik:

Ə2: "Növbətçi olduğumuz günlərdə orta hesabla 500 reseptimiz olduğu halda, pandemiya dövründə insanların xəstəxanaya getmək istəməməsi və poliklinika xidmətlərinin azalması səbəbindən bu rəqəm 30 reseptə düşüb. Dövr ərzində gəlirimdə ən azı 60-80% azalma oldu. Bir işçini işdən çıxartmağı düşündüm, amma qadağan olduğu üçün etmədim, qadın işçim evləndiyi üçün işdən çıxdı, işdən çıxma pulunu verdim. Aptekimi köçürməyi düşünürəm, çünki icarə haqları çox yüksəkdir, çünki bu proses belə davam etsə, icarə haqqımı ödəyə bilməyəcəm".

Ə3: "Mən mühüm turizm zonasında fəaliyyət göstərirəm. Hər il yerli və xarici turistləri yerli əhalimizdən qat-qat çox qəbul edirik. Bu il pandemiya ilə əlaqədar turistlərin sayının azalması mənə və bu bölgədə fəaliyyət göstərən digər müəssisələrə mənfi təsir etdi. Bu prosesdə mənim satışlarım və gəlirlərim 60%-dir. 70% azaldı. Ən əsası isə stokumuzda olan gündəlik dərmanlar və bu dərmanların son istifadə tarixləri yaxınlaşır. Bütün bu neqativlər davam etsə də, əməliyyat xərclərimizdə azalma olmadı. Bu vəziyyətə nə qədər dözə biləcəyimi hesablamağa çalışıram".

O1: “Covid-19 prosesində iqtisadi baxımdan gözlədiyimizdən daha çox əziyyət çəkdik. Xəstəxanalar ambulator xidmət göstərmədiyindən resept gəlmədi, gündəlik satışlarımız bitdi. Dövriyyə əsasında 90%-ə qədər itki yaşadıq. Bəzi filiallarımızı heç işlətmədik və açıq olanlarda məhdud müddətdə (11:00-17:00) xidmət göstərmişik”.
O2: “Pandemiya prosesində vətəndaşlarımızın virusun yayılması ilə bağlı ehtiyatlılığı və gələcəyə dair qeyri-müəyyənlik, komendant saatları kimi səbəblərdən satışlarımız normal dövrlərlə müqayisədə 75% azalıb. İyun ayı etibarilə satışlarımızda cüzi artım olsa da, itkilərimiz davam edir”.
16. Singhapakdi, A., Kraft, K. L., Vitell, S. J., & Rallapalli, K. C. (1995). The perceived importance of ethics and social responsibility on organizational effectiveness: A survey of marketers. Journal of the Academy of Marketing Science, 23(1), 49–56. https://doi.org/10.1007/BF02894611
17. Vitell, S., Nwachukwu, S.L., and Barnes, J.J., (1993), "The effects of culture on ethical decision making: An application of Hofstede's typology", Journal of Business Ethics, October 1993, Vol 12, Issue 10, pp753-860.
18. Yücel, R., & Solak, B. (2012). The Effects of Accountant Professionals' Social Responsibility Perceptions On Self Esteem And Job Performance. Atatürk Üniversitesi İktisadi ve İdari Bilimler Dergisi , 26 (3-4) , 15-31 . Retrieved from https://dergipark.org.tr/en/pub/atauniiibd/issue/2707/ 35718.
19. Yücel, R., Bulut, Ç. Gerni, M., & Şen, B. (2010). The Effects of Accounting & Finance Staffs' Perceptions of Ethical Climate and Corporate Social Responsibility on Job Satisfaction and Organizational Commitment. ICBME'10 6th International Conference on Business, Management And Economics, 7th to 9th October 2010, İzmir-TURKEY.

# QARABAĞ REGİONUNUN KƏND TƏSƏRRÜFATI POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Dilarə Qasımova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**d.gasimova@unec.edu.az**

## Xülasə

Müasir rəqabət dünyasında iqtisadiyyatın dayanıqlı olması və inkişaf etməsi üçün əsas faktor innovasiyadır. Texnoparklar isə innovasiya sahəsində əsas yerləri tutur. Bu gün Azərbaycanda bir çox texnoparklar fəaliyyət göstərir. Həmçinin Qarabağın işğaldan azad olunması ölkənin inkişafı üçün geniş imkanlar yaratmışdır, ancaq işğal müddətində hər sahədə inkişafdan geri qalmış əraziləri yenidən dirçəltmək və inkişaf etdirmək vaxt və xərc tələb edir. Zəngin təbii sərvətləri, əlverişli mövqeyi, yeni nəqliyyat əlaqələrinin yaranması regionda texnoparkların yaradılmasını mümkün edir. Son illər qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafı dövlətin diqqət mərkəzindədir. Bu və digər amillər nəzərə alınarsa, Qarabağda kənd təsərrüfatının inkişaf etdirilməsi əsas prioritet istiqamətlərdən biri olmalıdır. Kənd təsərrüfatı sahəsində aqroparkların yaradılması Azərbaycanın nail olduğu mühüm bir təcrübədir. Aqroparklar həm sənayedə, həm də kənd təsərrüfatında innovativ sistemin tətbiqi olmaqla inkişafa aparan vasitədir. Azərbaycan üçün hazırda aktual mövzu olmağını nəzərə alaraq məqalədə Qarabağda kənd təsərrüfatı potensialının qiymətləndirilməsi verilmişdir. Həmçinin GZİT (SWOT) təhlil metodu tətbiq edilməklə burada aqroparkların yaradılmasının zəruriliyi vurğulanır.

**Açar sözlər:** Qarabağ, kənd təsərrüfatı, aqropark, innovasiya.

## Abstract

In today's competitive world, innovation is a key factor for the sustainability and development of the economy. Technoparks play a key role in innovation. Today, there are many techno parks in Azerbaijan. Also, the liberation of Karabakh has created great opportunities for the country's development, but the revival and development of underdeveloped areas in all areas during the occupation requires time and money. Rich natural resources, favorable position, the emergence of new transport links make it possible to create techno parks in the region. In recent years, the development of the non-oil sector, especially agriculture, has been in the focus of the state. Taking into account these and other factors, the development of agriculture in Karabakh should be one of the main priorities. The establishment of agricultural parks in the field of agriculture is an important experience achieved by Azerbaijan. Agro parks are a tool for development through the application of innovative systems in both industry and agriculture. Given that it is currently a topical issue for Azerbaijan, the article provides an assessment of the agricultural potential of Karabakh. It also emphasizes the need to create agroparks by applying the SWOT analysis method.

**Keywords:** Karabakh, agriculture, agropark, innovation.

## Giriş

İnnovasiya bu gün yalnız iqtisadiyyatda, idarəetmədə, sənayedə, mühəndislikdə deyil, həm də ictimai həyatın müxtəlif sahələrində inkişafı təyin edən əsas amildir. Odur ki, innovativ fəaliyyətin reallaşdırılması hazırda elm, təhsil, siyasət və mədəniyyət sahələrində geniş müşahidə edilir. Ölkədə biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin və istehsalatın inteqrasiyasının təmin edilməsi, innovasiya siyasətinin səmərliliyiinin artırılması mühüm fəaliyyət istiqamətləri hesab olunur. Bu baxımdan innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparkların, texnoloji mərkəzlərin, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur. Hazırda texnoparklar iqtisadiyyatın inkişafına öz müsbət təsirini göstərir.

Azad edilmiş ərazilərin bərpası ilə bağlı həyata keçirilən innovativ layihələr onu göstərir ki, Azərbaycan bu əraziləri regionun ən inkişaf etmiş iqtisadi mərkəzlərindən birinə çevirməyi qarşıya məqsəd kimi qoymuşdur.

Azad edilmiş ərazilərin zəngin təbii resurslara və ehtiyatlara malik olması iqtisadiyyatın müxtəlif sahələrini, o cümlədən kənd təsərrüfatının, sənayenin inkişafı üçün geniş imkanlar yaradır.

**Qarabağ Bölgəsində Kənd Təsərrüfatı Potensialı: Aqroparklar**

Ərzaq təhlükəsizliyi hər bir ölkənin müstəqilliyinin, milli-iqtisadi təhlükəsizliyinin əsas təminatçısıdır. Azərbaycan bu baxımdan dünyanın ən üstün mövqedə olan ölkələrindən biridir. 2001-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramr'nda deyilir: "Ərzaq təhlükəsizliyi insan ləyaqətinin başlıca amili olaraq əsas insan hüquqlarından biri sayılır. Ona görə də bu hüququn təmin olunması Azərbaycan Respublikasının Hökumətinin mühüm vəzifələrindən biridir" (https://www.elibrary.az/docs/jurnal/jrn2017_320.pdf, 2022).

**Cədvəl 1: Kənd təsərrüfatına istiqamətlənmə indeksi**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | 0.56 | 0.55 | 0.52 | 0.46 | 0.50 | 0.49 | 0.58 | 0.49 | 0.60 | 0.59 | 0.51 | 0.48 |

**Mənbə:** BMT, İqtisadi və Sosial Şurası. https://unstats.un.org/sdgs/indicators/database/, *2022.*

*Cədvəldəki indeks aqrar sektora ayrılmış vəsaitlərin büdcədəki payının bu sektorun ÜDM-dəki payına nisbəti əsasında hesablanmışdır.* Statistika göstərir ki, Azərbaycanda aqrar sahəyə büdcədən ayrılmalar üzrə göstəricilər aşağıdır. Həmçinin digər ölkələr üzrə göstəricilərə nəzər yetirsək, görərik ki, əksər ölkələrdə bu göstəricilər o qədər də yüksək deyil. Bunun üçün də dünya ölkələrin qəbul etdiyi "Dayanıqlı İnkişaf Məqsədləri" konsepsiyasında bir sıra hədəflər təyin edilmişdir. Bu hədəflərə çatmaq üçün əsas qlobal çağırışlardan biri aqrar sektora ayrılacaq vəsaitin lazımi səviyyəyə çatdırılmasıdır (www.un.org/sustainabledevelopment/hunger/, 2022).

Azərbaycanda 2010-2021-ci illər üzrə kənd təsərrüfatına ayrılmış vəsaitlər təxminən 2,5 dəfə, subsidiyalar isə 4 dəfə artması dövlətin kənd təsərrüfatına ölkə inkişafının prioritet sahələrindən biri kimi proqnozlaşdırmasının əsas göstəricilərindəndir.

**Cədvəl 2: Azərbaycanda cəmi kənd təsərrüfatı xərclərinin büdcə xərclərində payı**

| | **Aqrar sahə üzrə əlavə dəyərin ÜDM-də payı** | **Cəmi büdcə xərcləri, milyon ₼** | **Kənd təsərrüfatı xərcləri, milyon ₼** | **Kənd təsərrüfatı xərclərinin büdcədə payı** |
|---|---|---|---|---|
| **2010** | 5.5% | 11,765.9 | 363.4 | 3.1% |
| **2011** | 5.1% | 15,397.5 | 435.4 | 2.8% |
| **2012** | 5.1% | 17,416.5 | 458.2 | 2.6% |
| **2013** | 5.4% | 19,143.5 | 477.5 | 2.5% |
| **2014** | 5.3% | 18,709.0 | 494.0 | 2.6% |
| **2015** | 6.2% | 17,784.5 | 537.1 | 3.0% |
| **2016** | 5.6% | 17,751.3 | 574.1 | 3.2% |
| **2017** | 5.6% | 17,594.5 | 484.6 | 2.8% |
| **2018** | 5.3% | 22,731.6 | 718.6 | 3.2% |

| | | | | |
|---|---|---|---|---|
| **2019** | 5.6% | 25,190.0 | 836.4 | 3.3% |
| **2020** | 6.9% | 25,617.7 | 897.7 | 3.5% |
| **2021** | 7.5% | 28,627.2 | 943.0 | 3.6% |

**Mənbə:** Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/agriculture/, 2022.

İşğaldan əvvəl Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatı istehsalının təqribi 20 faizini qarşılayırdı və ət, süd məhsullarının 13 faizi bu ərazilərdən gəlirdi. Bu ərazidə çoxlu əkinə yararlı, həmçinin heyvandarlığın inkişafı üçün resursların mövcudluğunu nəzərə alsaq, burada kənd təsərrüfatı istiqamətində layihələrin tətbiqi üçün imkanlar vardır (Fikrətzadə və Hacıyeva, 2020).

**Cədvəl 3: Kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha**

| | |
|---|---|
| Azərbaycan Respublikası | 342004 |
| Qarabağ iqtisadi rayonu | 50032 |
| Mərkəzi Aran iqtisadi rayonu | 43715 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 43171 |
| Şirvan-Salyan iqtisadi rayonu | 41555 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 35201 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 29590 |
| Mil-Muğan iqtisadi rayonu | 28715 |
| Qazax-Tovuz iqtisadi rayonu | 28220 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 21020 |
| Abşeron-Xızı iqtisadi rayonu | 7919 |
| Bakı | 5399 |
| Lənkəran-Astara iqtisadi rayonu | 5364 |
| Şərqi Zəngəzur | 1927 |
| Naxçıvan Muxtar Respublikası | 176 |

**Mənbə:** Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/agriculture/, 2022.

Cədvələ əsasən deyə bilərik ki, Qarabağ əkinə yararlı torpaq sahələrinə görə ölkənin əsas zonalarındandır, burada kənd təsərrüfatının sahələrinin inkişaf etdirilməsi regionun inkişafında əsas rol oynayacaqdır.

**Cədvəl 4: ÜDM-in sektorlar üzrə artım tempi, faizlə**

| | *2022* | *2023* |
|---|---|---|
| Ümumi Daxili Məhsul | 3,0 | 2,7 |
| Kənd, meşə və balıqçılıq təsərrüfatı | 4,1 | 4,0 |
| Sənaye | 3,2 | 2,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 3,4 | 3,8 |
| İnformasiya və rabitə | 7,0 | 5,0 |
| Turizm | 5,7 | 5,6 |
| Sosial və digər sahələrdə yaradılmış əlavə dəyər | 2,3 | 2,3 |

**Mənbə:** 2022-2025-ci illər üçün makrofiskal çərçivə və 2022-ci il üçün icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama. http://www.maliyye.gov.az/static/253/ilkin-budce-gostericileri, 2022.

Cədvəldən göründüyü kimi qeyri-neft sektorunun inkişaf etdirilməsi əsas prioritet məsələlərdəndir. Növbəti illər ərzində qeyri-neft sektorunun ÜDM-dəki payının artırılması istiqamətində təkmilləşmə mexanizmaları

hazırlanır, həmçinin işğaldan azad olunmuş ərazilər bu istiqamətdə mühüm potensiala malik olacaqdır. Növbəti illərdə ÜDM-də qeyri-neft sektorunun 65,8 faiz, neft sektorunun isə 34,2 faiz olacağı proqnozlaşdırılır.

Buna görə də bu ərazilərdə ilkin olaraq kənd təsərrüfatı sahələrinə diqqət artırılmalıdır. Bu həm ölkə iqtisadiyyatı, həm də məşkunlaşacaq əhalinin məşğulluğu baxımından əhəmiyyətlidir. Bundan əlavə, əhalinin, əsasən yüksək ixtisaslı kadrların və gənclərin məskunlaşmasında maraq yaratmaq üçün kənd təsərrüfatı üzrə innovativ layihələrə böyük ehtiyac vardır.

Kənd təsərrüfatı sahəsində aqroparkların yaradılması da Azərbaycanın nail olduğu mühüm bir təcrübədir. Bu həm sənaye parklarıdır, həm aqroparklardır, həm də sənayedə və kənd təsərrüfatında innovativ sistemin tətbiqidir. Kənd təsərrüfatı məhsulları vaxtında satılmadıqda və ya çatdırılma ilə bağlı problemlər yarandıqda xarab olur. Bu da həm ərzaq qıtlığına səbəb olur, həm də fermerlərin maddi itkisi ilə nəticələnir. Buna görə də əsasən idxal məhsullarına önəm verilir ki, onlar da geni dəyişdirilmiş məhsullar olur. Bütün bunları nəzərə alsaq, yerli və ekoloji cəhətdən sağlam məhsul üçün onların istehsalı, emalı, logistikasını vahid ərazidə cəmləşdirən aqroparkların yaradılması məqsədəuyğundur (https://news.milli.az/society/635741.html, 2022).

Hazırda ölkənin 32 rayonunda 51 aqropark və iri fermer təsərrüfatı mövcuddur. Bunlardan 44-ü fəaliyyətinə başlamış, digərləri isə layihələndirmə prosesindədir. Bugünə qədər 25 aqroparka İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan 184 milyon manat güzəştli kredit, həmçinin 27 aqropark üçün 1 milyard manat dəyərində investisiya təşviq sənədi təyin edilmişdir. Aqroparklara həmçinin 1,3 milyard manat dəyərində özəl investisiyalar edilmişdir (https://apa.az/az/aqrar-senaye-kompleksi/azerbaycanda-23-mlrd-manatliq-51-fermer-teserrufati-yaradilir-693158, 2022).

Prezidentin 22 yanvar 2021-ci il tarixli Fərmanı ilə respublikada sənaye parklarının və məhəllələrinin, aqroparkların idarəetmə mexanizmasının inkişafı məqsədilə idarəedici təşkilat İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır (https://president.az/az/articles/view/50330, 2022). Bu dövlətin aqroparkların yaradılmasında maraqlı olduğunun əyani sübutudur.

2021-ci ilin son statistik göstəricilərinə əsasən, Azərbaycanda 68991 yeni iş yeri açılmışdırsa, bunlardan 681-i Qarabağ iqtisadi rayonunun payına düşür. Həmçinin kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə ümumilikdə 3117 yeni açılmış iş yerlərindən 140-ı Qarabağ bölgəsindədir (https://www.stat.gov.az/source/labour/, 2022). 2015-2020-ci illərdə aqrar sahədə məşğul olanların sayı 4.9% artıb, aqrar sahə üzrə muzdlu məşğul olanların ümumi muzdlu məşğulluqda payı isə 2,9%-dən 3,3%-ə yüksəlib (https://agroeconomics.az/az/article/13/azerbaycanda-kend-teserrufatina-ayrilan-subsidiyal/, 2022). Bu baxımdan aqroparklar da mühüm əhəmiyyətə malikdir. Aqroparklarda işçi sayı ümumilikdə daimi iş yerləri üzrə 4000-dən çoxdur, eləcə də 5000-dən çox işçi mövsümü işlərlə təmin edilmişdir. Gələcək dövrdə 5000-dən çox iş yerlərinin də yaradılması planlaşdırılır.

Sənaye və texnologiya parklarının yaradılması özünütəminetmə səviyyəsini yüksəltməklə, gələcək dövrdə artması ilə nəticələnəcək. Bununla xaricə valyuta axınını dayandıraraq və yerli istehsala yönəltməklə dövlət büdcəsinə əlavə gəlirlər gəlməsinə səbəb olacaq. Özünütəminetmə səviyyəsinin yüksəldilməsində parklar yerli istehsalçıları cəsarətləndirəcək və onların istehsal gücünü artıracaqdır. Bu gün ciddi problemlərdən biri də torpaqlardan səmərəsiz istifadə olunması və bir çox torpaqların becərilməməsidir. Bu kimi problemlər dövlət büdcəsini böyük miqdarda gəlirdən məhrum edir. Yeni yaradılan sənaye və texnologiya parkları bu

problemlərin həllində kömək ola bilər. Torpaqların səmərəli istifadəsində, istifadəsiz torpaqların əkib-becərilməsində, torpaqlardan bol məhsulların götürülməsində, yerli fermerlərin stimullaşdırılmasında parkların rolu vacibdir (Aliyeva, 2020).

Bölgələrdə yaradılan parklar fermerlər üçün məhsulların göndərilməsində, gəlir əldə olunmasında çox mühüm rol oynayacaq. Bu, iqtisadiyyatın mühüm sahəsi olan və çoxlu işçi qüvvəsi tələb edən kənd təsərrüfatının inkişafına töhfə verəcək. Pambıq, kartof, üzüm və digər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı təmin ediləcəkdir. Hazırkı dövrdə yerli şirkətlər ölkə bazarlarında ərzaq məhsulları sahəsində xarici şirkətlərlə rəqabət apara bilmir, ərzaq təhlükəsizliyinin təmin olunmasında problemlər mövcuddur. Parkların yaradılması ərzaq təhlükəsizliyini təmin edəcək və gələcəkdə xarici bazarlara çıxış açacaq. Burada sənaye parkları ilə aqroparklar arasındakı bağlılığı xüsusilə qeyd etməliyik. Bu əlaqə təkcə ərzaq təhlükəsizliyinə deyil, ümumilikdə kənd təsərrüfatının inkişafına da töhfəsini verəcəkdir (https://news.milli.az/society/635741.html, 2022).

Parkların üstünlüklərindən biri “Made in Azerbaijan” brendinin təbliği və məhsullarımızın xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasında roludur. Parklarda istehsal olunan məhsullara “Made in Azerbaijan” etiketi vurularaq dünya bazarlarında Azərbaycan məhsulları kimi satılacaq. Geniş çeşiddə məhsullar “Made in Azerbaijan” brendi ilə istehlakçılarına çatacaq və brend daha geniş yayılacaq ((https://azedu.az/az/news/38267-unec-rektorundan-qarabagteklifleriuniversitet-istiqraz-brend, 2022).

**Aqroparkların GZİT (SWOT) Təhlili**

Kənd təsərrüfatı potensialının qiymətləndirilməsi üçün müxtəlif təhlil metodlarından istifadə oluna bilər. Kənd təsərrüfatı potensialının qiymətləndirilməsi üçün işğaldan azad olunmuş Qarabağın rayon və kəndləri seçilmişdir. Qarabağ ərazisində kənd təsərrüfatının inkişafında aqroparkların mühüm rol oynamasını nəzərə almaqla, aqroparkların timsalında kənd təsərrüfatı potensialını GZİT (SWOT) metodu vasitəsilə qiymətləndirək.

GZİT təhlil metodu geniş yayılmış qiymətləndirmə üsullarından biri olaraq, təhlil aparılan mövzunun güclü tərəf (G), zəif tərəf (Z), imkan (İ) və təhlükələrini (T) müəyyənləşdirir. Bu təhlil vasitəsilə tədqiqat obyektinə təsir edən daxili amillər (güclü, zəif) və xarici amillər (imkan, təhlükə) müəyyənləşdirilir.

Regionun zəngin resursları, coğrafi mövqeyi, işçi qüvvəsi burada kənd təsərrüfatının inkişaf etdirilməsində üstünlüklər yaratmaqla onun güclü tərəfləri hesab olunur.

Uzun müddət işğal altında qalması, dağıntılar və yanğınlar nəticəsində torpaqların, təbii mühitin zərər görməsi, ümumiyyətlə isə ölkədə elm tutumlu kənd təsərrüfatının zəif inkişafı, bu sahədə ixtisaslı kadrların azlığı kənd təsərrüfatında aqroparkların yaradılmasında bir sıra çətinliklərə səbəb olacaqdır. Bunlar isə zəif tərəflər hesab edilir.

Qarabağda aqroparkların yaradılması yeni bazarlara çıxış imkanlarına səbəb olmaqla, artan ixrac potensialı gəlirlərin də artması ilə nəticələnəcəkdir. Həmçinin bunlar dövlətin bu sahəyə diqqət ayırmasına, kənd təsərrüfatı siyasətinin genişləndirilməsi zəruri edəcəkdir. Xarici bazarlara çıxış “Made in Azerbaijan” brendinin dünyada tanınmasına və təbliğinə şərait yaradacaqdır. Bunlar aqroparkların yaratdığı imkanlardır.

Aqroparkların ölkə və region üçün təhlükələrini qiymətləndirsək, buraya torpaqlardan səmərəsiz istifadə nəticəsində yaranacaq ekoloji problemləri, landşaftın dəyişdirilməsini, rəqabətin artmasını göstərə bilərik. Həmçinin qeyri-neft sektorunda aşağı ixrac, bu sahəyə xarici investisiyaların azlığı aqroparkların gələcək inkişafı üçün müəyyən təhlükələr yarada bilər.

**Cədvəl 5: Aqroparkların GZİT (SWOT) təhlili**

| *Güclü tərəflər* | *Zəif tərəflər* |
|---|---|
| 1. Təbii iqlim şəraiti.<br>2. Əkinə yararlı torpaqların olması.<br>3. Heyvandarlıq üçün geniş otlaq sahələri.<br>4. İşçi qüvvəsi. | 1. Torpaqların uzun müddət istifadəsiz qalması.<br>2. Elm tutumlu kənd təsərrüfatının zəif inkişaf etməsi. |
| *İmkanlar* | *Təhlükələr* |
| 1. Yeni bazarlara çıxış imkanları.<br>2. Dövlət siyasətinin genişləndirilməsi.<br>3. "Made in Azerbaijan" brendinin təbliği. | 1. Ekoloji problemlər.<br>2. Yeni müəssisələrin tikintisi ilə təbii landşaftda dəyişikliklər.<br>3. Artan rəqabət mühiti.<br>4. Qeyri-neft sektorunda aşağı ixrac səviyyəsi.<br>5. Kənd təsərrüfatı üzrə xarici investisiya cəlbinin aşağı səviyyədə olması. |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

### Nəticə

Son illərdə ölkəmizdə qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafına diqqət artırılmışdır. Həmçinin azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı dövlətin əsas prioritet vəzifələrindən biridir. Bölgənin kənd təsərrüfatı potensialının geniş olması, burada onun inkişafını zəruri edir. Aparılan təhlillər göstərir ki, Qarabağ ölkənin ərzaq təhlükəsizliyində mühüm rol oynaya bilər. Burada resursların çoxluğu, iqlim şəraiti və s. kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar yaradır. Həmçinin artan rəqabət şəraitində kənd təsərrüfatının inkişafına nail olmaq üçün innovativ layihələrin tətbiqinə ehtiyac vardır. Bunun üçün ərazidə aqroparkların yaradılması məqsədəuyğundur. Aqroparkların yaradılması bir sıra sahələrə də müsbət təsir edəcəkdir:

1. Yeni iş yerlərinin açılması ilə məşğulluğun artması;
2. Ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi;
3. İxrac potensialının artması ilə dünya bazarlarına çıxış və Azərbaycan brendinin tanıdılması;
4. Yerli bazarda yerli məhsulların rəqabət qabiliyyətinin yüksəlməsi və s.

Həmçinin Qarabağda kənd təsərrüfatının inkişafını təmin etmək üçün aşağıdakıların həyata keçirilməsini təklif etmək olar:

1. Dövlətin xüsusi dəstək mexanizmlərinin yaradılmasını;
2. Əhalinin, yüksək ixtisaslı kadrların məskunlaşması üçün stimullaşdırıcı tədbirlərin görülməsini;
3. Kənd təsərrüfatı ilə bağlı ixtisaslı kadr hazırlığının səviyyəsinin artırılması, dünyada mövcud olan yeni ixtisaslar üzrə təhsilə başlanılması, aqroparkların, fermerlərin universitetlərlə, təhsil müəssisələri ilə əməkdaşlığının təşkil olunması və s.

**İstifadə Edilmiş Ədəbiyyat**


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, Bakı, 2016.
2. Fikrətzadə F., Hacıyeva S. (2020). "İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması". Kənd Təsərrüfatının İqtisadiyyatı, № 4.
3. Aliyeva Y. (2020). "Science, Technology, and Innovation (STI) Gap Assessment of Azerbaijan". Baku.
4. "Agropark in the Noordoostpolder", Industrial Ecology, 2009.
5. https://www.elibrary.az/docs/jurnal/jrn2017_320.pdf, 2022.
6. https://unstats.un.org/sdgs/indicators/database/ *, 2022.*
7. https://www.stat.gov.az/source/agriculture/, 2022.
8. http://www.maliyye.gov.az/static/253/ilkin-budce-gostericileri, 2022.
9. https://www.stat.gov.az/source/labour/, 2022.
10. www.un.org/sustainabledevelopment/hunger/, 2022.
11. https://president.az/az/articles/view/50330, 2022.
12. https://apa.az/az/aqrar-senaye-kompleksi/azerbaycanda-23-mlrd-manatliq-51-fermer-teserrufati-yaradilir-693158, 2022.
13. https://azedu.az/az/news/38267-unec-rektorundan-qarabagteklifleriuniversitet-istiqraz-brend, 2022.
14. https://news.milli.az/society/635741.html, 2022.
15. https://agroeconomics.az/az/article/13/azerbaycanda-kend-teserrufatina-ayrilan-subsidiyal/, 2022.

# «УМНЫЕ ГОРОДА» НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ – НОВЫЙ ШАГ В РАЗВИТИИ ИНФРАСТРУКТУРЫ АЗЕРБАЙДЖАНА

**Динара Рамазанова**

**Азербайджанский Государственный Экономический Университет**

**d.ramazanova@unec.edu.az**

## Резюме

Начиная с конца 1980-х годов было проведено множество исследований, анализирующих связь между обеспеченностью инфраструктурой и экономическим развитием. Благодаря эффективному управлению инфраструктурой можно улучшить социально-экономическую политику, повысить национальную конкурентоспособность, оказать положительное влияние на такие показатели, как ВВП и ВВП на душу населения. Помимо претворения в жизнь государственных программ по социально-экономическому развитию страны и политики стремительной диверсификации экономики, в 2020-м году с возвращением раннее оккупированных территорий у Азербайджана появилась новая цель по реконструкции разрушенных городов Карабахского региона и интеграции его экономики в общую экономику страны. Одним из направлений восстановления инфраструктуры в этом регионе является применение идеи проекта «Умный город» и использование альтернативных источников энергии. Целью этой статьи является знакомство с понятием концепции «Умный город» и анализ необходимости данного проекта в Азербайджане. В результате исследования были изучены роль и виды инфраструктуры, сущность концепции «умного» города и «умных» технологий, проанализирована урбанизация в Азербайджане за последние 10 лет, ее влияние на столицу и районы Азербайджана; был проведен SWOT анализ идеи «Умного города» и рассмотрены препятствия, которые могут возникнуть в ходе реализации вышеупомянутых проектов на территории Карабахского экономического региона, а также основные положительные стороны выбора именно этих территорий.

**Ключевые слова:** инфраструктура, «умный город», урбанизация, Карабахский район.

## Abstract

Since the late 1980s, many studies have analysed the relationship between infrastructure and economic development. It is possible to improve socio-economic policy, increase national competitiveness, and have a positive impact on indicators such as GDP and GDP per capita through effective infrastructure management. In addition to the implementation of state programs for the country`s socio-economic development and the policy of economy`s sweeping diversification, in 2020, due to return of the previously occupied territories, Azerbaijan has a new goal to reconstruct the destroyed cities and integrate Karabakh`s economy into the national economy of our country. One of the restoration directions of infrastructure in this region is the application of the Smart City idea and the use of alternative energy sources. The artcile`s purpose is acquaintance with the concept of «Smart City» and the analysis of the need for this project in Azerbaijan. In the result of the study the role and types of infrastructure, the essence of the concept of «smart» were studied. Urbanization in Azerbaijan over the past 10 years, its impact on the capital and regions of Azerbaijan was also analyzed. The study carried out a SWOT analysis of the Smart City idea and considered the obstacles that may arise during the implementation of the above projects in the Karabakh economic region, as well as the main positive aspects of choosing these particular territories.

**Key words:** infrastructure, "smart city", urbanization, Karabakh region.

## Введение

Инфраструктура — это система поддержки промышленного и сельскохозяйственного производства, а также иностранных и отечественных предприятий. Это базовая организационная и физическая структура, необходимая для нормального ведения бизнеса. В организации или для страны базовая инфраструктура включает связь и транспорт, канализацию, водоснабжение, систему денежную образования, систему здравоохранения и чистую питьевую воду. Экономическое и социальное

развитие страны напрямую зависит от инфраструктуры страны. Многие развитые страны добились значительного прогресса благодаря огромному росту экономической и социальной инфраструктуры. Хорошая инфраструктура облегчает процесс работы, что приводит к позитивной и высокой производительности.

На таблице 1. представлена инфраструктура и ее основные виды:

**Таблица 1: Инфраструктура и ее виды**

| Секторы инфраструктуры | |
|---|---|
| **Транспортная инфраструктура** | Дороги (улицы и автомагистрали), мосты, туннели, общественный транспорт, железные дороги, аэропорты и морские порты |
| **Высокоскоростная связь** | высокоскоростные данные<br>коммуникационные каналы (для сельских общин) |
| **Утилизация отходов** | Сточные воды, условия для реализации твердых отходов |
| **Наличие водных ресурсов** | Питьевая вода, водоснабжение |
| **Энергетическая инфраструктура** | Энергопредприятия, производство, передача и распределение электроэнергии<br>установки, возобновляемая энергия, трубопроводы. |
| **Социальная инфраструктура** | жилищное и коммунальное хозяйство, здравоохранение, физкультура и спорт, розничная торговля, общественное питание, бытовое обслуживание, система образования, учреждения культуры, наука и т.д. |

Источник: National Association of Insurance Commissioners (март,2020)

«Умный» город, или Smart City – это созданная человеком взаимосвязанная система информационных и коммуникативных технологий, которая упрощает управление внутренними городскими процессами и делает жизнь жителей комфортнее и безопаснее. Британский институт стандартов определил умные города как «эффективную интеграцию физических, цифровых и человеческих систем в искусственную среду для обеспечения устойчивого, процветающего и инклюзивного будущего для своих граждан» (Британский Институт Стандартов, 2014). Кроме того, умный город можно определить как городскую территорию (охватывающую, возможно, разные районы и масштабы города — улицу, площадь, район или, в конечном счете, весь город), в которой используются датчики электронного сбора данных, расположенные в инфраструктуре, зданиях, транспортных средствах и учреждениях.

## Сущность проектов «Умное село» и «Умный город», необходимость их внедрения в Азербайджане

После заключения мирного соглашения между Арменией и Азербайджаном в ноябре 2020 года последний немедленно приступил к работе по очистке, реконструкции, реабилитации и реинтеграции освобожденного Карабаха, который в течение последних 30 лет подвергался огромным разрушениям в ходе армянской оккупации.

Крупномасштабное переселение граждан на новые освобожденные территории путем устойчивого расселения при реинтеграции экономической деятельности является одним из пяти национальных приоритетов Азербайджана, изложенных в национальной "Стратегии до 2030 года", которая была разработана на основе Организации Объединенных Наций "Преобразование нашего мира: Повестка дня для устойчивого развития до 2030 года." Азербайджан полон решимости мобилизовать все ресурсы и заинтересованные стороны для возрождения Карабаха, преобразования "призрачных поселений" в

умные города и умные деревни с уделением особого внимания потребностям наиболее уязвимых групп - 1 миллиона внутренне перемещенных лиц (ВПЛ) и беженцев.

Концепция «Умного города» в Азербайджане рассматривалась еще в 2018-2019 гг., в ходе чего была включена в Государственную программу социально-экономического развития регионов Азербайджанской Республики на 2019-2023 годы. На тот момент было принято решение о создании двух экспериментальных подобного типа сел. Однако после завершения военных действий и присоединения раннее оккупированных территорий площадью более 8000 квадратных километров было принято новое решение о проекте «Умные села». В феврале 2021 года президент Ильхам Алиев заявил, что первый проект «умного села» будет реализован в селении Учунджу Агалы Зангиланского района.

В последние годы многие развитые и развивающиеся страны обратили свое внимание на запоминающиеся и привлекательные новые концепции Смарт-Сити и Смарт-Виллидж. В научной и популярной литературе эти концепции представлены в качестве универсальных решений городских и сельских проблем. От Финляндии и Дании до Индии и Сингапура политики с различной степенью успеха поспешили реализовать эти концепции. Тем не менее различия в понимании и неправильные концептуализация и осуществление привели к сомнительным результатам. Таким образом, в литературе много говорится об успехах датских городов Орхуса и Копенгагена, Разумного Хельсинки Финляндии, Умной Нации Сингапура и других. Тем не менее, примеры Лаваса (Индия), Ордос (Китай) и Сантандер (Испания) — это случаи, когда города имели большой план, но не развивались естественным образом, как того требовали граждане (Albino, Berardi and Dangelico ,2015). В виде схемы концепцию «Умный город» можно представить следующим образом (см. рисунок 1.):

**Рисунок 1: Концепция «Умный город»**




Источник: составлено автором на основе источника (Mohanty, 2016)

В раскрытом варианте содержимое пунктов рисунка 1 можно охарактеризовать так:

- Умная экономика: эффективность использования энергии; инновации, экономические последствия и окупаемость инвестиций; круговая экономика

- Умная мобильность: интеллектуальные перевозки и транспортные системы, интеллектуальные решения для парковки, управление дорожным движением, мобильность как услуга
- Умная среда: управление водными ресурсами и отходами, мониторинг экологических показателей, устойчивые процессы и урбанизация, гибридные подходы к производству
- Умные люди: подключенные граждане, работники и посетители; электронное здравоохранение; электронное обучение
- Умная жизнь: умные пространства, передовые материалы, общественная безопасность и городская устойчивость
- Умное управление: цифровая автоматизация процессов, открытые данные, участие граждан (Moura&Silva, 2019).

Кроме того, Дамери предполагает, что уровень интеллекта, реализованный в каждом из этих компонентов, должен быть результатом трех характеристик:

1. Эффективность, так как умный город должен создавать ценность для своих граждан

2. Экологические соображения, предотвращающие дальнейшую деградацию окружающей среды

3. Инновации для снижения вреда окружающей среде и предоставления более качественных услуг (Dameri, 2017).

Хотя умные города могут изменить города к лучшему, они также сопряжены с потенциальными скрытыми затратами. Определение масштабируемой, эффективной и реалистично достижимой политики умных городов требует четкого понимания сильных и слабых сторон, возможностей и угроз, с которыми сталкиваются умные города. Определенный аспект умных городов может играть несколько ролей в этом анализе, в зависимости от того, с какой точки зрения он рассматривается. Одним из примеров являются данные, которые могут представлять собой как слабость, так и возможность и угрозу. Данные часто называют одним из самых ценных активов в современном мире. Данные предлагают умным городам фундаментальную возможность для использования в будущем; но это также может представлять собой слабость в городах, которые менее способны использовать данные, и угрозу при рассмотрении проблем конфиденциальности, возникающих из-за большого количества данных, генерируемых умными городами. SWOT-анализ концепции «Умного города» можно представить следующим образом (см. рисунок 2):

**Рисунок 2.: SWOT-анализ концепции «Умного города»**




Источник: составлено автором

Первый вопрос заключается в следующем: зачем нам нужны умные города сегодня? Согласно статистическим данным Фонда Организации Объединенных Наций в области народонаселения, более половины населения мира проживает в городах. Однако это число постоянно растет и, как ожидается, к 2050 году достигнет 70 процентов (Фонд ООН в области народонаселения, 2007). Массовая урбанизация приводит к колоссальному потреблению ресурсов, что приводит к негативным последствиям для окружающей среды. Такой быстрый рост численности городского населения приводит к целому ряду технических и инфраструктурных проблем, таких как культ сложности в управлении отходами, нехватка ресурсов, загрязнение воздуха, проблемы здоровья человека, перегруженность трамвая и ухудшение инфраструктуры. Кроме того, социальные проблемы, такие как здравоохранение, распределение пенсий, управление социальными услугами, образование и другие, стали значительно более сложными. Для предотвращения негативных последствий урбанизации городам необходимы решения, требующие сотрудничества правительства, общин, городских учреждений, некоммерческих организаций и т. д. физические и социальные проблемы. В этом случае Смарт-Сити помогает сделать города лучше.

В Азербайджане проживает более 10 миллионов человек, и урбанизация продолжает расти. 56% всего населения проживает в городских районах или городах (Всемирный банк, 2020 год), в то время как неофициально это число может быть выше. Например, в Баку проживает около 2,4 млн. человек, в то время как Бакинский столичный район (территория, куда ежедневно приезжают люди из областей для работы, учебы и отдыха, включая Баку, Хирдалан и Абшерон), возможно, имеет население более 4 млн. человек 35 % рабочей силы, или около 1,5 млн человек, живут в сельской местности. Ожидается, что в результате все более широкого внедрения технологических новшеств в сельском хозяйстве ускорится

миграция сельского населения в городские районы. Также, в связи с высокими издержками пандемии в течение нескольких лет более миллиона человек будут мигрировать в городские районы и, в частности, в Баку. Это произойдет из-за дальнейшего технологического прогресса в сельском хозяйстве, роботизации и снижения стоимости труда в сельских районах. Пандемия ускорила внедрение передовых технологий в обществе и особенно в сельском хозяйстве.

**График 1: Урбанизация в Азербайджане в период с 2009 по 2019**




Источник: www.stat.gov.az (март, 2022)

Еще одной проблемой является экономическое и социальное неравенство между городами Азербайджана. На долю столицы Баку приходится 70% ВВП в нефтяном и других секторах экономики. Тем временем, львиная доля налоговых сборов и инвестиций также генерируется Баку. Отставание в диверсификации экономики и отсутствие структурных изменений в экономике в сочетании с сохраняющимся разрывом в уровнях человеческого капитала между городским и сельским населением (Всемирный банк, 2021 год) привели к возникновению этой сложной ситуации. Еще одной проблемой, требующей решения, является разрыв в возможностях получения дохода между Баку и остальной частью Азербайджана.

**Проекты «Умное село» и «Умный город» на территории Карабахского района: возможности и угрозы**

При осуществлении вышеупомянутых проектов может возникнуть ряд определенных проблем. В Азербайджане существует значительный цифровой разрыв между столицей и другими городскими/сельскими районами. Этот цифровой разрыв объясняется главным образом нехваткой стационарной инфраструктуры и более низким уровнем цифровой грамотности в сельских районах (Asian Development Bank, 2019 год). Стране также необходимо сделать широкополосный интернет более быстрым, дешевым и доступным. Хотя в целом охват мобильной широкополосной связью и ее внедрение являются высокими, между городскими и сельскими районами существует значительный цифровой разрыв в отношении качества/скорости, использования и доступности Интернета (ВБ, 2019 год). Согласно данным обследования домашних хозяйств по использованию ИКТ, опубликованным

Комитетом Статистики АР, в 2018 году только 15% лиц использовали Интернет для взаимодействия с властями и пользования общественными услугами, и 7% использовали его для образовательных или образовательных мероприятий. Кроме того, скорость Интернета в Азербайджане является самой низкой в Европе, что затрудняет реализацию концепции Smart City (Государственный комитет статистики АР, 2018). Наконец, Speed Test Global Index за июнь 2021 года поставил Азербайджан на 122-е место среди 181 стран по скорости широкополосного Интернета с 25,5 Мбп скорости загрузки. Скорость Интернета в Азербайджане самая низкая в Европе (The Speedtest Global Index, 2021).

Следующим препятствием является то, что только один из 20 человек в Азербайджане (5%) приобрел что-то онлайн в 2017 году, по сравнению с мировым средним показателем почти каждый четвертый человек (24%). Азербайджан занимает 68-е место среди 144 стран по индексу электронной торговли B2C из-за низкой распространенности электронных платежей, включая кредитные и дебетовые карты, нехватки внутренних интернет-магазинов, слабого развития логистики, отсутствия доверия со стороны как покупателей, так и продавцов, а также из-за низкого уровня цифровой грамотности в целом. Менее трети населения имеют банковские счета, и лишь четверть населения имеет дебетовую карту, многие из которых являются карточками социального страхования и заработной платы.

Последней, но достаточно серьезной проблемой в этих проектах может послужить нестабильное положение на освобожденных территориях, связанное с наличием мин и неразорвавшихся боеприпасов. Стоит учитывать то, что процесс разминирования долгий, ресурсоемкий и может занять несколько лет.

Однако, факт того, что инфраструктура на освобожденных территориях полностью разрушена и сведена на нет является крупной возможностью с нуля отстроить абсолютно новые города и села, применив все современные технологии и идеи, которые в случае удачного завершения пилотных проектов, войдут в основу реконструкции остальных районов Азербайджана. Первый испытательный проект планируется реализовать на территории сел Агалы-I, II и III Зангиланского района. Особенность жилых домов, построенных в этой местности будет заключаться в том, что в строительстве будут использованы инновационные технологии и строительные материалы. Помимо жилищного сектора, в рамках проекта реконструктивные работы будут осуществляться в секторе производства, сельского хозяйства, социальных услуг и альтернативной энергии.

Так как развитие сельского хозяйства является одним из основных направлений диверсификации нашей экономики, Министерство сельского хозяйства выступило с предложением о внедрении усовершенствованных «умных» методов управления и контроля в аграрном секторе данном регионе. В сфере социальных услуг запланировано строительство административных зданий, школ и больниц, основанных на современных «умных» технологиях.

В области обеспечения электроэнергией планируется прибегнуть к альтернативным источникам энергии, так как территория Карабаха обладает всеми необходимыми ресурсами для осуществления проектов зеленой энергии. В Физулинском, Джебраильском и Зангиланском районах солнечная радиация на квадратный метр горизонтальной поверхности составляет 1600-1700 кВт·ч в год. Суммарный потенциал солнечной энергии этих районов составляет 3000-4000 мегаватт. Потенциал ветровой энергетики же составляет приблизительно 300-500 мегаватт, так как скорость ветра в горных районах Карабаха составляет 7-8 м/с на высоте 100 метров. Помимо этого, Карабах является одним из основных регионов, где формируются местные водные ресурсы в Азербайджане. 25% местных водных

ресурсов Азербайджана, т.е. около 2 миллиардов 560 миллионов кубометров воды ежегодно формируется в этой области. Крупные реки области, такие как Тертер, Базарчай (Баргушадчай), Хакари и другие малые реки обладают большим водно-энергетическим потенциалом. Некоторые из них используются еще с советских времен, но большую часть можно будет использовать в будущем (Министерство энергетики АР, 2020).

Наиболее важным преимуществом возобновляемой энергии является то, что она является бытовым источником. Второе преимущество заключается в том, что она предоставляет новые возможности для бизнеса. Это способствует экономическому развитию государства на макроуровне. Хотя первоначальная стоимость установки высока, со временем они становятся более доступными. Эти ресурсы экологически безопасны и могут быть использованы в долгосрочной перспективе. В то время как солнечная энергия и энергия ветра обновляются ежедневно, источники энергии из биомассы могут быть получены на фермах в рамках программы. Кроме того, эксплуатационные расходы небольших заводов являются экономически эффективными. Стоимость обслуживания солнечной энергии очень низкая, а технология солнечной энергии проста. Также солнечная энергия не наносит ущерба окружающей среде и устойчивости. Это также будет способствовать диверсификации энергетики и повышению ее конкурентоспособности.

К слабым сторонам можно отнести первоначальные инвестиционные затраты на энергию ветра, а также то, что производство не происходит на стабильном уровне. Вдобавок, солнечная энергия не может быть эффективной в зимний период. Так что объекты остаются бесполезными на этот период. Кроме того, первоначальная стоимость установки солнечной энергии довольно высока и требует системы хранения.

**Заключение**

Хотя Азербайджан сталкивается с проблемами при реализации концепции «умного села» и «умного города», Карабах – идеальное место для экспериментов. Несмотря на все трудности, создание умных городов или умных деревень в Азербайджане является выполнимым и возможным. Правительство и частный сектор могут предоставить весь необходимый финансовый и технический капитал в течение очень короткого периода времени для претворения в жизнь вышеупомянутых идей в селах Агалы-I, II и III Зангиланского района. Что невозможно сделать в течение короткого периода времени, так это подготовить и создать новые группы умных, творческих людей, работающих в различных творческих отраслях. Правительство должно приложить все усилия для привлечения и обучения этих людей, поскольку только человеческий капитал может сделать концепцию Смарт-Сити реальной.

**Список использованной литературы**


1. Albino V., Berardi U., Dangelico R. (2015) Smart Cities: Definitions, Dimensions, Performance, and Initiatives. Journal of Urban Technology, 22, 8-10.
2. Asian Development Bank (2017). Strengthening Functional Urban Regions in Azerbaijan.
3. Biehl, D. (1991). The Role of Infrastructure in Regional Development. in Infrastructure and Regional Development R.W.Vickerman. London, Pion.
4. Dameri R.P. (2017) Smart city implementation. Springer, Heidelberg, 59-62.

5. Gramlich, E. M. (1994). "Infrastructure Investment: A Review Essay " Journal of Economic Literature XXXIII: 1176-1196.
6. Ibrahimov R. (2021) Economic Potential of the Liberated Territories of Azerbaijan: A Brief Overview.
7. Lucian T., Eremia M. and Sanduleac M. (2017) “The Smart City Concept in the 21st Century.” Procedia Engineering 181 12–19.
8. Mohanty Saraju P. (2016) Everything You Wanted to Know About Smart Cities IEEE Consumer Electronics Magazine 5(3), 60-70.
9. Moura F., Silva J. (2019) Smart Cities: Definitions, Evolution of the Concept and Examples of Initiatives In book: Industry, Innovation and Infrastructure, 1-9.
10. Torrisi G. (2009) Public infrastructure: definition, classification and measurement issues. Published in: Economics, Management, and Financial Markets, Vol. 4, No. 3, 100-124.
11. https://ereforms.gov.az/en/media/meqale-ve-musahibeler/baku-s-039-smart-039-karabakh-plan-paints-a-bright-future-231
12. https://notemlaw.com/news-ru/244-podpisan-ukaz-ob-utverzhdenii-azerbaydzhan-2030-nacionalnye-prioritety-socialno-ekonomicheskogo-razvitiya.html
13. https://caspiannews.com/news-detail/azerbaijan-accelerates-development-of-smart-village-and-smart-city-projects-2021-4-20-0/
14. https://russian.eurasianet.org
15. http://cbc.az/ru/news/news1618848593
16. https://caspianpost.com/en/post/perspectives/smart-villages-and-smart-cities-an-avenue-for-reconstruction, 2021
17. https://www.speedtest.net/global-index, 2021
18. https://www.bsigroup.com/, 2014
19. www.stat.gov.az, 2018
20. https://www.un.org/ru/ecosoc/unfpa/, 2007
21. https://content.naic.org/, 2020
22. https://www.adb.org/, 2019
23. https://www.vsemirnyjbank.org/ru, 2019
24. https://minenergy.gov.az/en/xeberler-arxivi/dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali, 2020
25. www.stat.gov.az

# AZƏRBAYCANDA FOND BAZARININ PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**Əli Həsənov**

alihasanov@unec.edu.az

**i.e.f.d., dos. Zöhrab İbrahimov**

z.ibrahimov@unec.edu.az

**Azərbaycan Dövlət İqtisad Universiteti**

## Xülasə

Hal-hazırda ölkəmizdə sahibkarlığın inkişafına böyük ehtiyac duyulur. Buna görə də, yeni sahibkarların maliyyə vəsaitlərinə effektiv çıxışının təmin edilməsi Azərbaycanın biznes mühitinə öz müsbət töhfəsini verə bilər. Bunu nəzərə alaraq, bu məqalə hazırda ölkəmizdə fond bazarı ilə bağlı cari vəziyyəti müzakirə edir və bu sahədə olan problem və inkişaf perspektivlərini təhlil edir. Məqalə fond birjası və birja üzvlərinin təcrübəsi və dünya fond bazarlarında mövcud olan qiymətli kağız növlərinin Azərbaycan fond bazarında mövcudluğunu araşdıraraq maliyyə və biznes sektorunda mümkün yeniliklərin tədbiqini nəzərdən keçirir. Qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə yalnız bir fond birjası (Bakı Fond Birjası) fəaliyyət göstərir. Bundan əlavə, Azərbaycanın qiymətli kağızlar bazarında maliyyə alətləri müxtəlifliyi demək olar ki yox dərəcəsindədir. Bütün bu problemlər məqalənin əsas hissəsində dərindən analiz edilir. Bu problemlərdən çıxış edərək gələcək inkişaf istiqmətləri və qərb dövlətləri təcrübəsi də qiymətləndirilir. Məqalədən çıxan nəticələr Azərbaycanın fond bazarındakı, o cümlədən yerli biznes mühitindəki mümkün islahat imkanlarının müəyyən edilməsinə töhfə verir. Bu da öz növbəsində ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində atılan addımlar üçün əhəmiyyətlidir.

**Açar sözlər:** Fond bazarı, fond birjası, vençur investisiya,  qiymətli kağızlar, maliyyə bazarları.

# PROBLEMS AND DEVELOPMENT PERSPECTİVES OF FUND MARKET İN AZERBAİJAN

## Abstract

Currently, there is a great need for the development of entrepreneurship in our country. Therefore, ensuring effective access to financial sources for new entrepreneurs can make a positive contribution to Azerbaijan's business environment. With this in mind, this article discusses the current situation with stock market in our country and examines the problems and development perspectives in this area. The article examines the application of possible innovations in financial and business sector by analysing the presence of securities available in the world stock markets, the experience of the stock exchange and stock exchange members in the Azerbaijani stock market. It should be noted that, currently there is only one stock exchange in our country (Baku Stock Exchange). In addition, there is almost no diversification of financial instruments in the securities market of Azerbaijan. All these problems are analyzed in depth in the main part of the article. Based on these problems, future development directions and the experience of western countries are also evaluated. The results of the article contribute to the identification of possible reform opportunities in the stock market, also in the local business environment of Azerbaijan. This, in turn, is important for the consideration of steps taken to develop entrepreneurship in our country.

**Key words:** Stock market, stock exchage, venture investment,  securities, financial markets.

## Giriş

**Tədqiqatın aktuallığı:** Hər zaman olduğu kimi bu gün də fond bazarı diqqət mərkəzindədir. Fond bazarlarının inkişafı ölkənin biznes mühitini və qarşılıqlı olaraq yaxşı biznes mühiti də güclü fond bazarlarını formalaşdırır. Dünyanın inkişaf etmiş ölkələri güclü fond bazarları, çoxsaylı fond birjaları, investisiya bankları, əlverişli biznes mühiti, cəlbedici investisiya imkanları və çoxşaxəli maliyyə alətləri ilə güclü maliyyə sisteminə malikdirlər. Son zamanlar biznes mühitinə dövlət dəstəyinə diqqətin artması xarici təcrübələrin öyrənilməsini və Azərbaycan fond bazarına uyğunlaşdırılmasını aktual edir.

**Tədqiqatın əsas məqsədi və vəzifəsi:** Çoxəsrlik fond bazarı tarixindən çıxarılası çoxlu nəticələr vardır. Ölkəmizdə bu sahə üzrə beynəlxalq təcrübələrin öyrənilməsi və tətbiqi biznes mühiti və iqtisadi inkişaf üçün əvəzsiz rola malik ola bilər. Əlbəttə ki, Azərbaycan bu sahədə müəyyən inkişaf yolu keçmişdir. Lakin mövcud şərait və yeni reallıqlar yeniliklərin maliyyə sektorunda tətbiqini zəruri edir. Bu tədqiqat işi bu yeniliklərin istiqamətlərini öyrənir.

**Tədqiqatın metodologiyası:** Məqalədə lazımi ədəbiyyat nümunələri və Azərbaycan iqtisadiyyatı ilə bağlı rəsmi informasiyalardan istifadə olunaraq məntiqi ümumiləşdirmə, riyazi və iqtisadi təhlillərdən istifadə edilmişdir.

**İstinad edilən mənbələr haqqında məlumat:** İstinad edilmiş ədəbiyyat beynəlxalq elmi jurnallar, o cümlədən rəsmi qurumların yaydığı məlumatlar əsasında formalaşdırılmışdır.

51. Obrenovic, B., Du, J., Godinic, D., Tsoy, D., Khan, M. A. S., & Jakhongirov, I. (2020). Sustaining enterprise operations and productivity during the COVID-19 pandemic: "Enterprise effectiveness and sustainability model." *Sustainability (Switzerland)*, *12*(15), 1–27. https://doi.org/10.3390/su12155981
52. Ochieng, A. O. (2018). *Supply Chain Resilence and Organizational Performance of Pharmaceutical Manufacturing companies in Nairobi*. 14–17.
53. Pavlov, A., Ivanov, D., Werner, F., Dolgui, A., & Sokolov, B. (2019). Integrated detection of disruption scenarios, the ripple effect dispersal and recovery paths in supply chains. *Annals of Operations Research*, *0123456789*. https://doi.org/10.1007/s10479-019-03454-1
54. Pereira, C. R., Christopher, M., & Lago Da Silva, A. (2014). Achieving supply chain resilience: the role of procurement. *Supply Chain Management*, *19*(January), 626–642. https://doi.org/10.1108/SCM-09-2013-0346
55. Petrocelli, J. V. (2003). Hierarchical multiple regression in counseling research: Common problems and possible remedies. *Measurement and Evaluation in Counseling and Development*, *36*(1), 9–22.

https://doi.org/10.1080/07481756.2003.12069076

56. Pettit, T. J., Croxton, K. L., & Fiksel, J. (2013). Ensuring supply chain resilience: Development and implementation of an assessment tool. *Journal of Business Logistics*, *34*(1), 46–76. https://doi.org/10.1111/jbl.12009
57. Pettit, T. J., Croxton, K. L., & Fiksel, J. (2019). The Evolution of Resilience in Supply Chain Management: A Retrospective on Ensuring Supply Chain Resilience. *Journal of Business Logistics*, *40*(1), 56–65. https://doi.org/10.1111/jbl.12202
58. Ponomarov, S., & Holcomb, M. C. (2009). Understanding the concept of supply chain resilience. *The International Journal of Logistics Management*, *20*(1), 124–143. https://doi.org/10.1108/09574090910954873
59. Ponomarov, S. Y. (2012). Antecedents and consequences of supply chain resilience: a dynamic capabilities perspective. *Doctoral Dissertations University*, 1–151.
60. Preacher, K. J., & Hayes, A. F. (2008). Asymptotic and resampling strategies for assessing and comparing indirect effects in multiple mediator models. *Behavior Research Methods*, *40*(3), 879–891. https://doi.org/10.3758/BRM.40.3.879
61. Pullman, M. E., Maloni, M. J., & Carter, C. R. (2009). Food for thought: Social versus environmental sustainability practices and performance outcomes. *Journal of Supply Chain Management*, *45*(4), 38–54. https://doi.org/10.1111/j.1745-493X.2009.03175.x
62. Qrunfleh, S., & Tarafdar, M. (2013). Lean and agile supply chain strategies and supply chain responsiveness: The role of strategic supplier partnership and postponement. *Supply Chain Management: An International Journal*, *18*(6), 571–582. https://doi.org/10.1108/SCM-01-2013-0015
63. Queiroz, M. M., Ivanov, D., Dolgui, A., & Fosso Wamba, S. (2020). Impacts of epidemic outbreaks on supply chains: mapping a research agenda amid the COVID-19 pandemic through a structured literature review. In *Annals of Operations Research* (Issue 0123456789). Springer US. https://doi.org/10.1007/s10479-020-03685-7
64. Sánchez-Flores, R. B., Cruz-Sotelo, S. E., Ojeda-Benitez, S., & Ramírez-Barreto, M. E. (2020). Sustainable supply chain management-A literature review on emerging economies. *Sustainability (Switzerland)*, *12*(17), 1–27. https://doi.org/10.3390/SU12176972
65. Sarkis, J., Cohen, M. J., Dewick, P., & Schröder, P. (2020). A brave new world: Lessons from the COVID-19 pandemic for transitioning to sustainable supply and production. *Resources, Conservation and Recycling*, *159*(April), 104894. https://doi.org/10.1016/j.resconrec.2020.104894
66. Scholten, K., Stevenson, M., & van Donk, D. P. (2020). Dealing with the unpredictable: supply chain resilience. *International Journal of Operations and Production Management*, *40*(1), 1–10. https://doi.org/10.1108/IJOPM-01-2020-789
67. Soni, U., Jain, V., & Kumar, S. (2014). Measuring supply chain resilience using a deterministic modeling approach. *Computers and Industrial Engineering*, *74*(1), 11–25. https://doi.org/10.1016/j.cie.2014.04.019
68. Taherdoost, H., Sahibuddin, S., & Jalaliyoon, N. (2014). Exploratory Factor Analysis ; Concepts and Theory To cite this version : HAL Id : hal-02557344 Exploratory Factor Analysis ; Concepts and Theory. *Mathematics and Computers in Science and Engineering Series*, *27*, 375–382.
69. Tarafdar, M., & Qrunfleh, S. (2017). Agile supply chain strategy and supply chain performance:

complementary roles of supply chain practices and information systems capability for agility. *International Journal of Production Research*, *55*(4), 925–938. https://doi.org/10.1080/00207543.2016.1203079

70. Whitten, G. D., Kenneth, W. G., & Zelbst, P. J. (2012). Triple-A supply chain performance. *International Journal of Operations and Production Management*, *32*(1), 28–48. https://doi.org/10.1108/01443571211195727
71. Wieland, A., & Wallenburg, C. M. (2013). The influence of relational competencies on supply chain resilience: A relational view. *International Journal of Physical Distribution and Logistics Management*, *43*(4), 300–320. https://doi.org/10.1108/IJPDLM-08-2012-0243
72. Wilujeng, S., Sarwoko, E., & Nikmah, F. (2022). Triple-a strategy: For supply chain performance of indonesian smes. *Uncertain Supply Chain Management*, *10*(1), 95–100. https://doi.org/10.5267/j.uscm.2021.10.007
73. Wu, J., Zhang, X., & Lu, J. (2018). Empirical research on influencing factors of sustainable supply chain management-evidence from Beijing, China. *Sustainability (Switzerland)*, *10*(5). https://doi.org/10.3390/su10051595
74. Yusuf, Y. Y., Adeleye, E. O., & Sivayoganathan, K. (2003). Volume flexibility: the agile manufacturing conundrum. *Management Decision*, *41*(7), 613–624. https://doi.org/10.1108/00251740310495540
75. Zhang, Y., Wang, Y., & Wu, L. (2012). Research on Demand-driven Leagile Supply Chain Operation Model: A Simulation Based on AnyLogic in System Engineering. *Systems Engineering Procedia*, *3*(2011), 249–258. https://doi.org/10.1016/j.sepro.2011.11.027
76. Zsidisin, G. A., & Wagner, S. M. (2010). Do Perception Become Reality? The Moderating Role of SCM on Disruption Occurrence. *Journal of Business Logistics*, *31*(2), 1–20.

# AZƏRBAYCANDA MÜHASİBAT UÇOTUNUN İNKİŞAFININ MÜASİR ASPEKTLƏRİ HAQQINDA

**Ənvər Salahov**

**UNEC**

**anver_salahov.58@mail.ru**

## Xülasə

Məqalədə 4 may 2018-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişikliklər təhlil edilərək, bu əsasda mühasibat uçotunun inkişafında baş verən yeniliklərdən bəhs edilir. Tədqiqat işinin məqsədi Qanunun müddəalarının ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsinə necə uyğunlaşdırılmasını açıqlamaqdan, onun istiqamətlərini göstərməkdən və hər bir istiqamətin xüsusiyyətlərini araşdırmaqdan ibarətdir. Mövzunun aktuallığı mühasibat uçotunun inkişafı məsələlərinin ölkənin iqtisadi inkişafı ilə qarşılıqlı əlaqədə araşdırılmasının və bununla da müasir dövrdə mühasibat uçotunda baş verən keyfiyyət dəyişikliklərinin əsaslandırılmasının zəruriliyi ilə bağlıdır. Burada ölkənin iqtisadi inkişafında mühasibat uçotunun tutduğu yer, onun qanunverici əsaslarla tənzimlənməsi məsələləri, Qanunun, beynəlxalq standartların və onların əsasında hazırlanmış uçot qaydalarının ardıcıl və qarşılıqlı tənzimləmə mexanizmi araşdırılır. Tədqiqatın məhdudiyyətləri ölkədə davamlı iqtisadi islahatlar şəraitində mühasibat uçotunun qanunverici əsaslarla tənzimlənməsi sahəsində çoxsaylı dəyişikliklərin edilməsi və bu sahədə müəyyən bir qarışıqlığın mövcud olması ilə əlaqədardır. Tədqiqat nəticəsində mühasibat uçotunun inkişafının müasir mərhələsinə aydınlıq gətirilmiş və bu sahədə davamlı keyfiyyət dəyişiklikləri əsaslandırılmışdır. Tədqiqatın nəticələri mühasibat uçotunun inkişafı istiqamətlərinin dərindən öyrənilməsində və subyektlərdə onun bu istiqamətlərə uyğun təşkil edilməsində istifadə edilə bilər.

**Açar sözlər:** inkişaf, qanunverici əsas, qayda, tənzimləmə.

# ON MODERN ASPECTS OF THE DEVELOPMENT OF ACCOUNTING IN AZERBAIJAN

**Anvar Salahov**

**UNEC**

**anver_salahov.58@mail.ru**

## Summary

The article analyzes the changes made to the Law of the Republic of Azerbaijan "On Accounting" dated May 4, 2018 and discusses the innovations in the development of accounting on this basis. The purpose of the study is to explain how the provisions of the Law are adapted to the current stage of development of the country's economy, show its directions and study the features of each direction. The relevance of the topic is due to the need to study the development of accounting in relation to the economic development of the country, and thereby justify qualitative changes in accounting in the modern era. The article considers the role of accounting in the economic development of the country, its regulation on a legislative basis, a mechanism for coordinated and mutual regulation of legislation, international standards and rules of accounting developed on their basis. The limitations of the study are due to numerous changes in the regulation of accounting on the legislative basis in the context of sustainable economic reforms in the country, and there is some confusion in this area. As a result of the study, the current stage of accounting development was clarified and constant changes in quality in this area were justified. The results of the study can be used for an in-depth study of the development of accounting and its organization in the subjects of accounting in accordance with these areas.

**Keywords:** development, legislative basis, rule, regulation.

**Giriş**

**Mövzunun aktuallığı** mühasibat uçotunun inkişafı məsələlərinin ölkənin iqtisadi inkişafı ilə qarşılıqlı əlaqədə araşdırılmasının və bununla da müasir dövrdə mühasibat uçotunda baş verən keyfiyyət dəyişikliklərinin əsaslandırılmasının zəruriliyi ilə bağlıdır. Burada ölkənin iqtisadi inkişafında mühasibat uçotunun tutduğu yer, onun qanunverici əsaslarla tənzimlənməsi məsələləri, Qanunun, beynəlxalq standartların və onların əsasında hazırlanmış uçot qaydalarının ardıcıl və qarşılıqlı tənzimləmə mexanizmi araşdırılır.

**Tədqiqat işinin məqsədi** Qanunun müddəalarının ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsinə necə uyğunlaşdırılmasını açıqlamaqdan, onun istiqamətlərini göstərməkdən və hər bir istiqamətin xüsusiyyətlərini araşdırmaqdan ibarətdir.

**Tədqiqatın vəzifəsi** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda 4 may 2018-ci ildə edilmiş dəyişikliklərin təhlil edilməsindən və bu əsasda mühasibat uçotunun müasir inkişafında baş verən yeniliklərin şərh edilməsindən ibarətdir.

**Tədqiqatın metodologiyası** mühasibat uçotu üzrə mövcud olan normativ-hüquqi bazaya əsaslanaraq müqayisəli təhlil aparmaqla, müasir iqtisadi şəraitdə onun mikroiqtisadi inkişafa təsirinin araşdırılmasına istiqamətləndirilmişdir. Bunun üçün "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun ilk dəfə 1995-ci ildə, ikinci redaksiyada isə 2004-cü ildə qəbul edilmiş və 4 may 2018-ci ildə dəyişiklik edilmiş mətnlərinin müəyyən hissələrinin məzmunları müqayisəli şəkildə araşdırılaraq, bunların əsasında müstəqillik illərində ölkəmizdə mühasibat uçotunun inkişafının mərhələləri müəyyən edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri** ölkədə davamlı iqtisadi islahatlar şəraitində mühasibat uçotunun qanunverici əsaslarla tənzimlənməsi sahəsində çoxsaylı dəyişikliklərin edilməsi və bu sahədə müəyyən bir qarışıqlığın mövcud olması ilə əlaqədardır. Tədqiqat nəticəsində mühasibat uçotunun inkişafının müasir mərhələsinə aydınlıq gətirilmiş və bu sahədə davamlı keyfiyyət dəyişiklikləri əsaslandırılmışdır.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr:** Tədqiqat prosesində mühasibat uçotu sahəsində mövcud olan qanunlara və onların icra edilməsinə dair hökumət orqanlarının qəbul etdikləri qərar və təlimatlara, həmçinin də mühasibat uçotunun tədqiq edilməsi sahəsində tanınmış iqtisadçı alimlərin əsərlərinə istinad edilmişdir.

**Tədqiqatın nəticələri** mühasibat uçotu üzrə hal-hazırda mövcud olan qanunvericiliyin təkmilləşdirilməsində, mühasibat uçotunun inkişafı istiqamətlərinin dərindən öyrənilməsində və subyektlərdə onun bu istiqamətlərə uyğun təşkil edilməsində istifadə edilə bilər.

**Mühasibat Uçotunun İnkişafı Ölkədə Aparılan İqtisadi İslahatların tərkib hissəsi kimi**

Müasir dövrdə ölkəmizdə iqtisadiyyatın bütün sahələrində davamlı şəkildə yüksələn inkişaf tempi müşahidə olunur. Müstəqillik dövründə Azərbaycanın iqtisadi inkişafı üçün ardıcıl iqtisadi islahatların aparılması xətti xarakterikdir. Aparılan iqtisadi islahatlar çoxsahəlilik, mərhələlilik və ardıcıllıq xüsusiyyətlərinə malik olmaqla, hal-hazırda da müvəffəqiyyətlə davam etdirilir. Bunun nəticələri göz qabağındadır və burada onları ətraflı şərh etməyə ehtiyac yoxdur. Belə islahatların tərkib hissələrindən biri mühasibat uçotu sahəsində aparılan islahatlardır ki, bunlar da ümumi iqtisadi islahatların əsas ana xəttinə uyğun olaraq, mərhələli və ardıcıl xarakterə malikdir. Əsası 1994-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə qoyulmuş mühasibat uçotu islahatları bu gün də davam etməkdədir. Həmin

islahatların bir çox xarakterik xüsusiyyətləri həm Qanunun 2004-cü ildə qəbul edilmiş yeni redaksiyasında, həm də 4 may 2018-ci ildə ona edilmiş dəyişikliklərin məzmununda aydın şəkildə görünür. Bununla da mühasibat uçotunun inkişafının ölkədə aparılan iqtisadi islahatların mühüm tərkib hissəsi olduğu qeyd edilir.

Qeyd edək ki, ölkə iqtisadiyyatının inkişafı ilə mövcud nühasibat uçotu sisteminin də ona paralel şəkildə inkişaf etməsi və mühasibat uçotunun iqtisadi inkişafa uyğun təkamülü məsələləri bir çox iqtisadçı alimlərin əsərlərində öz əksini tapmışdır. Dünya miqyasında mühasibat uçotunun tədqiqi sahəsində tanınmış iqtisadçı alimlərdən olan Devid Aleksander, David Annand, Henry Dauderis, Michael Jones və digərləri öz əsərlərində mühasibat uçotu sisteminin iqtisadi inkişaf mərhələlərinə uyğunlaşdırılması məsələlərinə toxunmuşdurlar (*Devid Aleksander və b.,2010; David Alexander, Christopher Nobes, 2013; David Annand, Henry Dauderis, (2017); Michael Jones, 2013*). Azərbaycanda mühasibat uçotunun formalaşması və inkişafı məsələlərinin tədqiqi ilə məşğul olan iqtisadçı alimlərdən Abbasov Q.Ə., Sadıqov Ə.A., Səbzəliyev S.M., Quliyev V.M., Fətullayev R. və başqaları öz əsərlərində mühasibat uçotunun inkişafı məsələlərini tədqiq etmişdirlər (*Abbasov Q.Ə.,2017; Sadıqov Ə.A, və b., Səbzəliyev S.M. və Quliyev V.M., 2014; Fətullayev R. və b.,2011*). Bunlara baxmayaraq, ölkəmizdə müstəqillik illərindən sonra mövcud olan mühasibat uçotu sisteminin inkişafının bir sıra müasir məsələləri kifayət qədər tədqiq edilməmişdir. Ona görə də bu tədqiqat işində ölkəmizdə mühasibat uçotunun inkişafının müasir xüsusiyyətləri nəzərdən keçirilir.

**Müstəqillik Dövründə Mühasibat Uçotunun İnkişafı Mərhələləri**

Müstəqillik dövründə ölkəmizdə mühasibat uçotunun inkişafında aşağıda göstərilən 4 mərhələ diqqəti cəlb edir:

**Birinci mərhələ** 1992-ci ildən 1995-ci ilədək olan dövrü əhatə edir. Bu dövr müstəqil Azərbaycanda iqtisadiyyatın bazar prinsiplərinə uyğun istiqamətləndirilməsinin ilkin dövrü kimi xarakterizə edilir. Buna müvafiq olaraq, ölkədə mühasibat uçotunun gələcək inkişaf istiqamətləri qəbul edilir. Bu istiqamətlər 1995-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda təsbit edilir.

**İkinci mərhələ** 1995-ci ildən 2004-cü ilədək olan dövrü əhatə edir. Bu dövr 1995-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə başlanır. Mühasibat uçotunun inkişafının bu mərhələsi üçün sosialist təsərrüfatçılığına xas olan uçot elementlərinin müəssisə və təşkilatlarda hələ də geniş tətbiq edilməsi ilə yanaşı, mühasibat uçotunun beynəlxalq prinsiplərinə istiqamətlənmək kimi xarakterizə edilir.

**Üçüncü mərhələ** 2004-cü ildən 04 may 2018-ci ilədək olan dövrü əhatə edir. Bu dövr 2004-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada qəbul edilməsi ilə başlanır. Qanunda mühasibat uçotunun beynəlxalq standartlara keçilməsinin konkret istiqamətləri, müddətləri və qaydaları, həmçinin, Milli Mühasibat Uçotu Standartlarının hazırlanması və tətbiqi məsələləri təsbit edilir. Mühasibat uçotunun inkişafının bu mərhələsində ictimai əhəmiyyətli qurumlar kimi qəbul edilmiş iri həcmli təşkilatlarda beynəlxalq standartlar, digərlərində isə milli standartlar tətbiq edilir.

**Dördüncü mərhələ** 04 may 2018-ci ildən sonrakı dövrü əhatə edir. Bu dövr 04 may 2018 ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda əhəmiyyətli dəyişikliklərin qəbul edilməsi ilə başlanır və mühasibat uçotunun inkişafının müasir dövrü adlanır. Mühasibat uçotunun inkişafının bu

mərhələsində milli standartların fəaliyyəti dayandırılır və bütün ölkədə yalnız beynəlxalq standartlar tətbiq edilir.

Göründüyü kimi, ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar müstəqillik dövründə ardıcıl olaraq məhələlərlə həyata keçirilmişdir. Əsası 1995-ci ildə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun ilk dəfə qəbul edilməsi ilə qoyulmuş mühasibat uçotu islahatları bu gün də davam etməkdədir.

**Mühasibat Uçotunun İnkişafının Müasir İstiqamətləri**

Ölkəmizdə davam etməkdə olan iqtisadi inkişaf prosesi bir sıra iqtisadi islahatlarla müşayiət olunur. Buna rəğmən, mühasibat uçotu sahəsində də baş vermiş inkişaf, müvafiq iqtisadi islahatların həyata keçirilməsi ilə yanaşı gedir. Bizim fikrimizcə, 4 may 2018-ci ildə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununda edilmiş dəyişikliklər ölkə üzrə mühasibat uçotunun inkişafı istiqamətində aparılan islahatların növbəti mərhələsinin qanunvericilik bazası kimi qəbul edilməlidir. İqtisadi islahatların bu mərhələsinin həyata keçirilməsi ilə ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara keçirilməsi prosesinin tam başa çatacağını gözləmək olar. Bu dəyişikliklər ölkə iqtisadiyyatının müasir inkişaf mərhələsinin xarakterik xüsusiyyətləri ilə şərtlənməklə, özünü bir neçə istiqamətdə göstərir. Bunlar aşağıdakılardan ibarətdir:

1) 2006-cı ildən ölkəmizdə fəaliyyət göstərən kommersiya qurumlarında tətbiqinə başlanılmış Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının fəaliyyətinin dayandırılması və bunun əvəzində Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiq edilməsi;

2) Büdcə təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının fəaliyyətinin dayandırılması və bunun əvəzində İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiq edilməsi;

3) Publik hüquqi şəxslər üçün mühasibat uçotu və maliyyə hesabatının qanunverici əsaslarının müəyyən edilməsi;

4) Peşəkar mühasib statusunun müəyyən edilməsi və ona dair sertifikatların verilməsi əsaslarının formalaşdırılması;

5) Peşəkar mühasib təşkilatlarının və onların akkreditasiyasının qanuni əsaslarının formalaşdırılması;

6) Mikro və kiçik sahibkarlıq subyektlərində mühasibat uçotu və maliyyə hesabatı qaydalarının iri və orta sahibkarlıq subyektləri üçün müvafiq qaydalardan əvvəlki dövrlərə nisbətən daha ciddi şəkildə fərqləndirilməsi;

7) Mühasibat uçotu üzrə qanunvericiliyin pozulmasına görə məsuliyyətin daha da gücləndirilməsi;

8) Mühasibat uçotu subyektlərinin Qanunda nəzərdə tutulmuş ayrı-ayrı qrupları üzrə beynəlxalq standartların ayrı-ayrı növlərinə əsaslanan müvafiq mühasibat uçotu qaydalarının tətbiq edilməsinin qanunverici əsaslarının formalaşdırılması;

9) Mühasibat uçotu sahəsində dövlət nəzarətinin təşkilinin qanunverici əsaslarının formalaşdırılması;

10) Ali qanunvericilik səviyyəsində müəssisənin baş mühasibi haqqında önəmli müddəaların qəbul edilməsi.

**Mühasibat Uçotunun Dövlət Tərəfindən Tənzimlənməsinin Müasir Xüsusiyyətləri**

Mühasibat uçotunun inkişafı prosesləri onun dövlət tərəfindən məqsədyönlü şəkildə tənzimlənməsi ilə birbaşa əlaqəyə malikdir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda mərhələ-mərhələ dəyişikliklər edildikcə, mühasibat uçotunun dövlət tərəfindən necə tənzimlənməli olduğu da təkmilləşdirilir ki, bu da mühasibat uçotunun mikroiqtisadi idarəetmə aləti olması zərurətindən irəli gəlir. Həmin idarəetmə aləti ölkə iqtisadiyyatının mikro səviyyədə inkişaf etməsində mühüm rol oynamaqla, onun əsas hərəkətvetici və istiqamətləndirici rıçağı dövlətin əlindədir. Bu rıçaq ilə üçpilləli mexanizm idarə olunur ki, onun da 1-ci pilləsi Qanun, 2-ci pilləsi Standartlar, 3-cü pilləsi isə Qaydalardan ibarətdir. Burada hər bir üst pillə özündən sonra gələn alt pilləni müəyyən edir. Belə ki, Qanun Standartlara, Standartlar isə Qaydalara istiqamətverici təsir göstərir. Mühasibat uçotu adlanan idarəetmə sistemində Qanun, Standartlar və Qaydalar vahid bir tənzimləmə mexanizmi şəklində fəaliyyət göstərirlər. Həmin mexanizmin hərəkətverici elementləri və onların mühasibat uçotu subyektlərinə təsiri sxemdə əks olunmuşdur (Bax: Sxem):

**Sxem: Azərbaycanda mühasibat uçotunun tənzimlənməsi ierarxiyası**




*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

Sxemdən göründüyü kimi, mühasibat uçotunun tənzimlənməsi ierarxiyasında ən yuxarı pillədə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu, ikinci pillədə mühasibat uçotu və maliyyə hesabatlarının beynəlxalq standartları, onlardan sonra isə mühasibat uçotunun aparılması qaydaları dayanır. Nəzərə alsaq ki, burada göstərilən standartlar beynəlxalq səviyyəli sənədlərdir və ona ölkə daxilində hər hansı bir düzəlişin və ya dəyişikliyin edilməsi imkan xaricindədir, onda məlum olur ki, sözügedən mexanizmin real şəkildə işlək fəaliyyətini təmin etmək üçün ilk əvvəl Qanunu Standartların çərçivə prinsiplərinə uyğunlaşdırmaq, daha sonra isə həm Qanuna, həm də Standartlara uyğun olan Qaydalar hazırlamaq tələb olunur. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişikliklərin edilməsi belə bir tələbdən irəli gəlmişdir.

**Mühasibat Uçotunun Hüquqi Bazasının Təkmilləşdirilməsi**

Bütün bu göstərilənlər Qanunda mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsi mexanizminin necə əks olunmasına diqqət yetirməyi şərtləndirir. Qanunun 1994-cü il redaksiyasında mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinə aid ayrıca maddə yox idi. Yalnız "Qanunun təyinatı" adlanan 1-ci maddədə göstərilirdi ki, bu Qanun Azərbaycan Respublikasında mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsi qaydasını müəyyən edir *(İbadoğlu LTD,1995, s.3)*. Qanunun 2 sentyabr 2004-cü ildə qəbul edilmiş redaksiyasında ona mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinə dair ayrıca maddə daxil edildi. O vaxt bu maddənin məzmunu belə idi:

**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 2 sentyabr 2004-cü ildə qəbul edilmiş redaksiyasında 4.1-ci maddənin məzmunu**

*"Maddə 4. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi*

*4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimlənməsinin əsas məqsədi kommersiya təşkilatları üçün Maliyyə hesabatlarının beynəlxalq standartlarını və onlara əsaslanan Milli Mühasibat Uçotu Standartlarını, qeyri-kommersiya təşkilatları üçün isə İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsaslanan Milli Mühasibat Uçotu Standartlarını hazırlamaqla və tətbiq etməklə ölkədə mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişaf etdirilməsini və maliyyə hesabatlarında şəffaflığı təmin etməkdən ibarətdir" (Qanun, 2004, s.4).*

Son illərdə bu maddədə dəyişiklik prosesi 2 mərhələdə edilmişdir: birinci mərhələdə 1 fevral 2017-ci il tarixli Qanunla "kommersiya təşkilatları üçün" sözləri çıxarılmış, "qeyri-kommersiya təşkilatları üçün isə" sözləri "habelə" sözü ilə əvəz edilmişdir; ikinci mərhələdə 4 may 2018-ci il tarixli Qanunla 4.1-ci maddə tamamilə dəyişdirilərək, yeni redaksiyada verilmişdir. Həmin dəyişikliklərdən sonra 4.1-ci bəndin məzmunu belə olmuşdur:

**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda 4 may 2018-ci ildə edilmiş dəyişiklikdən sonra 4.1-ci bəndin məzmunu**

*"Maddə 4. Mühasibat uçotu sahəsində dövlət tənzimlənməsi*

*4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun*

*Beynəlxalq Standartları və uçot qaydaları əsasında ölkədə maliyyə hesabatlarının tərtib olunmasını və mühasibat uçotunun aparılmasını təmin etməkdən ibarətdir” (Qanun, 2018, s.4).*

Qeyd edək ki, 4.1-ci bəndin burada verilmiş məzmununda bir qədər dil qüsuru görünür. Bunu ətraflı şərh etmədən, həmin qüsurun aradan qaldırılması məqsədi ilə təklif edirik ki, Qanunun 4-cü maddəsində yeni dəyişiklik edilərək, orada 1-ci bəndin məzmunu belə verilsin:

**“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununda 4 may 2018-ci ildə edilmiş dəyişiklikdən sonra 4.1-ci bəndin məzmununda yenidən dəyişiklik edilməsinə dair təklif**

*Maddə 4. Mühasibat uçotu sahəsində dövlət tənzimləməsi*

*4.1. Azərbaycan Respublikasında mühasibat uçotu sahəsində dövlət tənzimləməsinin əsas məqsədi ölkədə mühasibat uçotunun aparılmasını və maliyyə hesabatlarının tərtib olunmasını Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları və uçot qaydaları əsasında təmin etməkdən ibarətdir.*

Bunların əsasında Qanunun 4-cü maddəsinin məzmununda diqqəti cəlb edən bəzi əhəmiyyətli məqamları bir daha nəzərə çatdırmağı vacib hesab edirik. Bunlar aşağıdakılardır:

1) Qanunun 4.1-ci maddəsinin məzmunundan göründüyü kimi, hal-hazırda ölkəmizdə mühasibat uçotu və maliyyə hesabatı 3 növ beynəlxalq standartlar əsasında tənzimlənir: 1) Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, 2) Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və 3) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları.

2) Mühasibat uçotu və maliyyə hesabatının tənzimlənməsində bu göstərilən üç növ beynəlxalq standartlarla yanaşı, uçot qaydaları da istifadə edilir. Qeyd etməliyik ki, həmin uçot qaydaları burada göstərilən beynəlxalq standartların tələblərinə uyğun hazırlanmışdır.

3) Qanunun 4.3-cü maddəsinin məzmunundan göründüyü kimi, burada göstərilən üç növ beynəlxalq standartlar onların Azərbaycan dilində hazırlanmış rəsmi mətnlərinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən dərc olunmasından sonra qüvvəyə minmişdir.

4) Həmin gündən etibarən, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən 2006-2008-ci illərdə təsdiq edilmiş Milli Mühasibat Uçotu Standartları və onların əsasında hazırlanaraq, müvafiq qaydada təsdiq edilmiş uçot qaydaları ləğv edilir.

Burada diqqəti cəlb edən məqamlardan biri 4 may 2018-ci ildə Qanuna edilmiş dəyişikliklərdə “maliyyə hesabatlarında şəffaflığı təmin etmək” ifadəsinin Qanundan çıxardılmasından ibarətdir. İlk baxışda bu belə qiymətləndirilə bilər ki, maliyyə hesabatlarında şəffaflığın təmin edilməsi məsələsi, artıq öz aktuallığını itirmiş və arxa plana keçirilmişdir. Lakin bu, heç də belə deyildir. “Maliyyə hesabatlarında şəffaflığı təmin etmək” ifadəsinin Qanunun mətnindən çıxardılması, heç də o demək deyildir ki, maliyyə hesabatlarında şəffaflığın təmin edilməsi funksiyası dövlətin nəzarəti dairəsindən kənarlaşdırılmışdır. Əksinə, müasir iqtisadi inkişaf dövrünün aktual məsələlərindən biri həm mühasibat uçotunda, həm də maliyyə hesabatlarında şəffaflığın təmin edilməsindən ibarətdir. Bunu Prezident İ.H.Əliyevin iqtisadi məsələlərə həsr olunmuş çoxsaylı çıxışlarında tez-tez görmək olar. Sadəcə olaraq, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununda belə bir dəyişikliyin edilməsi bununla əlaqədar ola bilər ki, ölkəmizdə

bu sahədə dövlət tənzimləməsinin əsas məqsədi mühasibat uçotunda və maliyyə hesabatında birmənalı şəkildə beynəlxalq standartların tətbiq edilməsini təmin etməkdən ibarətdir. Həmin standartlar isə maliyyə hesabatında şəffaflığın olmasını kifayət qədər təmin edir.

4.1-ci bəndin məzmunundan göründüyü kimi, müasir dövrdə ölkəmizdə mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinin 2 əsas məqsədi mövcuddur: 1) mühasibat uçotunun mövcud uçot qaydaları əsasında aparılmasını təmin etmək; 2) maliyyə hesabatlarının beynəlxalq standartlar əsasında tərtib olunmasını təmin etmək.

Qeyd etmək lazımdır ki, hər hansı bir mühasibat uçotu subyektində onun iqtisadi fəaliyyətinin (biznes fəaliyyəti və ya təsərrüfat fəaliyyəti də deyilə bilər) mühasibat uçotunun aparılması və maliyyə hesabatının tərtib edilməsi, bir-biri ilə sıx bağlı olan və biri digərini tamamlayan ikimərhələli bütöv bir prosesdir. Bu prosesin 1-ci mərhələsi subyektin iqtisadi fəaliyyətinin mühasibat uçotunun aparılmasını, 2-ci mərhələsi isə hər bir hesabat dövrü başa çatdıqdan sonra həmin dövrə aid olan maliyyə hesabatının tərtib edilməsini özündə ehtiva edir. Hər bir subyektin iqtisadi fəaliyyəti özlüyündə bir proses olub, onun başlanğıc nöqtəsi subyektin ilkin dövlət qeydiyyatından keçərək, biznes fəaliyyətinə başlandığı vaxta təsadüf edir. İqtisad elmində bu prosesin sonunun görünmədiyi və onun sonsuzluğu prinsipi qəbul edilmişdir. Mühasibat uçotunda da subyektin iqtisadi fəaliyyətinin fasiləsizliyi və sonsuzluğu prinsipləri mövcuddur. Mühasibat uçotunun fəlsəfəsi bundan ibarətdir ki, subyekt mövcud olduğu dövrdə özünün iqtisadi fəaliyyətinin mühasibat uçotunu aparmalı və bu dövrdə hər bir müəyyən edilmiş zaman kəsiyinə aid, yəni hər bir hesabat dövrünə aid maliyyə hesabatı tərtib etməlidir. Subyektin iqtisadi fəaliyyətinin fasiləsizliyi və sonsuzluğu prinsipləri, mühasibat uçotunun da anoloji prinsiplərini şərtləndirir. Yəni, subyektin iqtisadi fəaliyyətinin mühasibat uçotunun sonsuz, arasıkəsilməz və fasiləsiz bir proses olması prinsipi qəbul edilmişdir. Mühasibat uçotu, subyektin iqtisadi fəaliyyətini əks etdirən informasiyaların işlənilməsi prosesi olub, həm subyektin özünün iqtisadi fəaliyyətinin, həm də onun daxil olduğu cəmiyyətin (ölkənin, regionun) iqtisadi fəaliyyətinin idarə edilməsinə yönləldilmişdir. Maliyyə hesabatı isə bu göstərilən idarəetmə prosesinin davamlı şəkildə yönləndilməsi üçün zəruri olan informasiyaların vaxtaşırı cəmiyyətə təqdim olunması formasından ibarətdir.

Burada mühasibat uçotunun bir iqtisadi idarəetmə aləti kimi mövcud olmasının məqsədini və iqtisadiyyatın idarəedilməsi sistemindəki yerini də xatırlatmaq yerinə düşər. Bunu üçün hər hansı bir istənilən mühasibat uçotu subyektinin, deyək ki, müəssisənin, iqtisadiyyatın müstəqil təsərrüfatçılıq hüququna malik olan bir tərkib hissəsi olduğu qəbul edilir. Bütövlükdə iqtisadiyyatın isə mühasibat uçotu subyektlərinin toplusundan ibarət olduğu qəbul edilir. Yəni bütövlükdə iqtisadiyyat ilə mühasibat uçotu subyektləri arasında belə ifadə edilə bilən birbaşa əlaqə və əks-əlaqə mövcuddur:

1) bütövlükdə iqtisadiyyat mühasibat uçotu subyektlərinin toplusundan ibarətdir;

2) çoxsaylı mühasibat uçotu subyektlərinin toplusu, bütövlükdə iqtisadiyyatı təşkil edir.

Bu ifadələrin hər ikisi eyni mənaya malik olsa da, onlar ayrı-ayrılıqda iqtisadiyyata yuxarıdan və aşağıdan baxışı ifadə edir. Yuxarıdan aşağıya doğru baxdıqda, bütövlükdə iqtisadiyyatı gördüyümüz halda, aşağıdan yuxarıya baxda, onun tərkib hissələri olan müəssisələri (və fərdi sahibkarları) görürük ki, bu sonuncular da mühasibat uçotunun subyektləridir.

Mühasibat uçotu subyektinin biznes-təsərrüfat fəaliyyəti, bu subyektin daxilində baş verən iqtisadi prosesdir. Məcmu subyektlərin daxilində baş verən biznes-təsərrüfat əməliyyatlarının toplusu ərazidə,

yaşayış məntəqəsində, regionda, ölkədə və dünyada baş verən iqtisadi prosesləri formalaşdırır və nəticədə iqtisadi inkişaf baş verir.

Beləliklə, burada göstərilənlərdən aydın olur ki, mühasibat uçotunun subyekti bütövlükdə iqtisadiyyatın tərkib hissəsidir, onun biznes-təsərrüfat fəaliyyəti iqtisadi prosesləri formalaşdırır və mühasibat uçotu özlüyündə, bunları əks etdirən informasiyaların işlənməsindən ibarətdir. Bu kontekstdə mühasibat uçotu, subyektin maliyyə hesabatının tərtib edilməsi üçün zəruri olan baza rolunu oynayır. Mühasibat uçotu bazis, maliyyə hesabatı isə üstqurum qismində çıxış edir. Maliyyə hesabatı, mühasibat uçotunun mühasibat qaydasında işlənmiş yekun informasiyaları əsasında tərtib edilir.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununu əsas ana xətti də bu prinsiplər üzərində qurulmuşdur. Qanunun 24 mart 1995-ci ildə ilk dəfə qəbul edilməsindən keçən 30 illik inkişaf dövrünə nəzər saldıqda, onun ölkə iqtisadiyyatının inkişaf mərhələlərinə uyğun şəkildə yeniləndiyini görə bilərik. Qanun ilk dəfə qəbul edildiyi dövrdə (1995-ci ildə) iqtisadiyyatın bütün sahələrində sosialist təsərrüfatçılığı mövcud idi. İqtisadiyyatın bazar prinsipləri əsasında inkişaf etdiriləcəyi bəyan edilsə də, bu prinsiplər yenicə təşəkkül tapırdı və ölkə iqtisadiyyatında tam mənası ilə tətbiq edilə bilmirdi. İqtisadiyyat, sözün tam mənası ilə sosialist inzibati-amirlik təsərrüfatçılığının dağıntılarından ibarət idi. Belə bir dövrdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi və orada ölkə iqtisadiyyatının bazar prinsipləri istiqamətində inkişafına rəğmən, qanunvericilik səviyyəsində ilk dəfə olaraq göstərildi ki, ölkəmizdə mühasibat uçotu standartlar əsasında aparılacaqdır (Bax: "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu, 1995-ci il redaksiyası, maddə 3) *(Qanun, 1995, s.2)*.

Qanunun 1995-ci il redaksiyasının "Mühasibat uçotunun əsas anlayışları" adlanan 3-cü maddəsində mühasibat uçotu standartının ümumi anlayışı belə göstərilir: "Mühasibat uçotu standartları: bu Qanunun müddəalarının inkişafı məqsədilə qəbul edilmiş mühasibat uçotunun aparılmasına dair icbari qaydaları və ya göstərişləri müəyyən edən normativ sənəddir" *(Qanun, 1995, s.4)*. Bu cümlədən başqa, Qanunun heç bir maddəsində mühasibat uçotu standartı barəsində heç nə göstərilməmişdir. Bununla yanaşı, Qanunun "Mühasibat uçotu və hesabatı qanunvericiliyi" adlanan 2-ci maddəsində birbaşa olaraq mühasibat uçotu standartı haqqında heç nə göstərilməsə də, dolayısı yolla, sətiraltı ifadədə "mühasibat uçotunun beynəlxalq standartları" mənasına işarə edilir. Burada belə göstərilir:

**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunundan (1995-ci il redaksiyası) çıxarış**

***"Maddə 2. Mühasibat uçotu və hesabatı qanunvericiliyi.***

*Mühasibat uçotu hesabatı ilə bağlı münasibətlər bu qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.*

*Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydalar Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində müəyyən edilmiş qaydalardan fərqli olduqda Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin qaydaları tətbiq edilir" (Qanun, 1995, s.3).*

Göründüyü kimi, burada Qanunla müəyyən edilmiş qaydalar beynəlxalq müqavilələrdə göstərilən qaydalardan fərqləndiyi halda, Qanun yox, beynəlxalq müqavilələrin qaydaları üstün mövqedə dayanır və bu qaydalar keçərli sayır. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində isə həmin müqavilələrin

təsir dairəsinə düşən müəssisələrdə mühasibat uçotunun beynəlxalq standartlar əsasında aparılmalı olduğu göstərilmişdir. Bununla da, burada göstərilən 2-ci maddənin sətiraltı ifadəsində *"beynəlxalq müqavilələrin qaydaları"* ifadəsi altında *"mühasibat uçotu və maliyyə hesabatının beynəlxalq standartları"* ifadəsinin gizləndiyi məlum olur.

Digər tərəfdən də qeyd etmək lazımdır ki, o vaxtlar "Əsrin müqaviləsi" yenicə bağlanmışdı (20 sentyabr 1994-cü ildə) və 2-ci maddədə göstərilən *"beynəlxalq müqavilələrin qaydaları"* dedikdə, əsasən, neft müqavilələri nəzərdə tutulurdu. Ona görə də həmin müqavilələrin təsir dairəsinə düşən müəssisələrdə mühasibat uçotu və maliyyə hesabatı, elə o vaxtdan beynəlxalq standartlar əsasında aparılır. Məsələn, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin müəssisələrində bunlar aydın şəkildə görünür. Odur ki, ölkəmizin müstəqilliyinin 30 illik dövründə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində mühasibat uçotu və maliyyə hesabatı sahəsində formalaşmış olan təcrübə bütün ölkədə mühasibat uçotu və maliyyə hesabatına dair beynəlxalq standartların tətbiqi istiqamətində əsaslı inkişaf bazası kimi istifadə edilir.

Beləliklə, burada göstərmək istəyirik ki, Qanunun 1995-ci il redaksiyasında mühasibat uçotu və maliyyə hesabatının beynəlxalq standartları haqqında birbaşa mənada ətraflı şəkildə yazılmasa da, ölkədə formalaşan bazar iqtisadiyyatı şəraitində mühasibat uçotunun beynəlxalq standartların tətbiq edilməsi istiqamətində inkişaf edəcəyinin qanunverici əsası qoyulmuşdur. Bizim fikrimizcə, "Mühasibat uçotu haqqında" Qanunun 1995-ci il redaksiyasında burada verilmiş 2-ci maddədə əks etdirilən həmin qanunverici əsas mühasibat uçotunun inkişafında keçid dövrünün başlanğıcı kimi qəbul edilə bilər. Məlumdur ki, hər bir keçid dövrü mürəkkəb xarakterə malik olur və bu, bir çox hallarda ziddiyyətli məqamlarla müşayiət olunur. Lakin bu dövrdə baş verən inkişaf prosesi elmi prinsiplər əsasında idarə edildikdə, keçid dövrü müvəffəqiyyətlə başa çatır və qarşıya qoyulan məqsədlərə nail olunur. Ölkəmizdə mühasibat uçotunun sosialist təsərrüfatçılığına xas olan iqtisadi sistemdən bazar iqtisadiyyatı sisteminə keçirilməsi dövrü tam başa çatmış olsa da, onun bu istiqamətdə inkişafı hələ də davam edir və bu inkişaf, mühasibat uçotu və maliyyə hesabatının beynəlxalq standartları ilə tənzimlənir. Mühasibat uçotunun inkişafının belə tənzimlənməsinin qanunverici əsası 2004-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun yeni redaksiyada qəbul edilməsi ilə formalaşdı. Qanunun 1995-ci il redaksiyasından fərqli olaraq, 2004-cü il redaksiyasında mühasibat uçotunun inkişafında beynəlxalq standartların tətbiq edilməsi əsas istiqamət kimi təsbit edildi. Burada Qanunun 3-cü maddəsində göstərilirdi ki, ölkədə mövcud olan mühasibat uçotu subyektlərində mühasibat uçotu *beynəlxalq* standartlar əsasında aparılmalıdır. Burada verilmiş *"beynəlxalq"* sözü xüsusilə vurğulanmalıdır, çünki o, bundan sonra ölkədə mühasibat uçotunun hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirir. Burada Qanunla müəyyən edilir ki, ölkədə mühasibat uçotunun inkişafı beynəlxalq standartlar istiqamətinə yönəldilməlidir. Bununla yanaşı, Qanunda mühasibat uçotunun milli standartlarının da yaradılması və tətbiq olunması məsələlərinə kifayət qədər önəmli yer verildi. Eyni zamanda qeyd etmək lazımdır ki, milli standartların özü də müvafiq beynəlxalq standartların bazasında hazırlandığından, onları da beynəlxalq standartlar qismində qəbul etmək olardı.

Qanunun 2004-cü li redaksiyasının qəbul edilməsi ilə mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsinin ağırlıq mərkəzi "Mühasibat uçotu haqqında" Qanundan götürülərək, mühasibat uçotunun beynəlxalq standartlarına keçirildi. Bunu Qanunun "Mühasibat uçotunun məcburiliyi" adlanan 3-cü maddəsində edilmiş dəyişiklikdən daha yaxşı görmək olar. Qanunun əvvəlki redaksiyasında 3-cü maddədə göstərilirdi ki, bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu Qanunda müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və ya sadələşdirilmiş uçotun qaydalarına uyğun aparılması

məcburidir. Yeni redaksiyada göstərilir ki, bütün mühasibat uçotu subyektlərində mühasibat uçotunun bu Qanunla müəyyən edilmiş müvafiq mühasibat uçotu standartlarına və uçot qaydalarına uyğun aparılması məcburidir *(Qanun, 2004, s.3)*.

Göründüyü kimi, əvvəlki redaksiyada verilmiş "sadələşdirilmiş uçotun qaydaları" ifadəsi "uçot qaydaları" ifadəsi ilə əvəz edilmişdir. Bu isə göstərir ki, müasir dövrdə müəssisə və təşkilatlarda mühasibat uçotunun aparılması üçün müxtəlif uçot qaydaları tətbiq edilə bilər. "Uçot qaydaları" dedikdə, təsnifatı "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununu ilə müəyyən edilən ayrı-ayrı mühasibat uçotu subyektlərində onların öz maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunda ardıcıl və fasiləsiz olaraq əks etdirilməsi ilə meydana gəlmiş uçot və analitik informasiyalarının müvafiq uçot registrlərinə işlənməsi və bu əsasda vaxtaşırı olaraq, subyektin maliyyə və idarəetmə hesabatlarının tərtib edilməsi proseslərinin məcmu qaydaları başa düşülür. Yaxşı olar ki, Qanunda tez-tez rast gəlinən "uçot qaydaları" ifadəsi iqtisadi ədəbiyyatda "mühasibat uçotunun aparılması qaydaları" kimi işlənsin. İndi isə belə qəbul edirik ki, "uçot qaydaları" ifadəsi "mühasibat uçotunun aparılması qaydaları" kimi başa düşülür.

Qanunun 2.1.1-ci maddəsində "uçot qaydaları" anlayışının məzmunu belə göstərilmişdir: "2.1.1. Uçot qaydaları – mühasibat uçotu subyektlərində mühasibat uçotunun aparılması, mühasibat uçotu sənədlərinin tərtib edilməsi, habelə ayrı-ayrı maliyyə-təsərrüfat əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsi üzrə normativ hüquqi aktlardır" *(Qanun, 2004, s.1)*.

Qanunda edilmiş dəyişikliklərin həyata keçirilməsi məqsədilə 2018-2019-cu illərdə Maliyyə Nazirliyi tərəfindən mühasibat uçotu və maliyyə hesabatının beynəlxalq standartlarının məzmunu və mahiyyətinə uyğun olan yeni uçot qaydaları yaradılmışdır. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının ""Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının bəzi qərarlarında dəyişiklik edilməsi haqqında" 18 oktyabr 2018-ci il tarixli Q-09 saylı və ""İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi barədə" 25 dekabr 2018-ci il tarixli Q-13 saylı qərarları ilə adları aşağıda göstərilən 3 uçot qaydaları təsdiq edilmişdir:

1) Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları;

2) Mikro və kiçik sahibkarlıq subyektlərində uçotun aparılması Qaydaları;

3) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları *(MN Kollegiyasının qərarları: 18 oktyabr 2018, 25 dekabr 2018)*.

Daha sonra, 09 dekabr 2019-cu ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının ""Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Q-15 saylı qərarı ilə burada göstərilən "Mikro və kiçik sahibkarlıq subyektlərində uçotun aparılması Qaydaları" əvəzinə "Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları" təsdiq edilmişdir *(MN Kollegiyasının Qərarı: 09 dekabr 2019)*. Beləliklə, Qanunda dəyişiklik edildikdən sonra müasir dövrdə ölkəmizdə aşağıda göstərilən uçot qaydaları tətbiq edilməkdədir:

1) Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları;

2) Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları;

3) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları *(MN Kollegiyasının qərarları: 25 dekabr 2018, 09 dekabr 2019)*.

Bu göstərilən uçot qaydaları bundan əvvəl istifadə edilən anoloji qaydaların üzərində müəyyən dəyişikliklər etməklə və köhnə qaydaları ləğv etməklə qəbul edilmişdir. Bununla da yeni qəbul edilmiş mühasibat uçotunun aparılması qaydaları ölkəmizdə mühasibat uçotunun beynəlxalq standartlara uyğun inkişaf etdirilməsinə zəmin yaradır.

**Nəticə**

Aparılmış tədqiqat işindən aşağıdakı nəticələr alınmışdır:

1. Mühasibat uçotunun inkişafı ölkəmizin iqtisadi inkişafı istiqamətində aparılan iqtisadi islahatların mühüm tərkib hissəsidir. Onun bazar iqtisadiyyatının təməl prinsiplərinə uyğun istiqamətdə inkişafının hərəkətverici qüvvəsi, əsası 1994-cü ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qoyulmuş uçot islahatlarıdır. Qanunun 2004-cü il redaksiyasının qəbul edilməsi ilə mühasibat uçotunun inkişaf istiqamətləri daha da dəqiqləşdirilmiş, 4 may 2018-ci il dəyişiklikləri isə onun inkişafında yeni mərhələnin başlanmasına start vermişdir. Hal-hazırda davam edən bu mərhələnin başa çatması nəticəsində ölkəmizdə müasir bazar iqtisadiyyatının bütün tələblərinə cavab verən mühasibat uçotu institutunun formalaşacağı gözlənilir. Tədqiqat işində mühasibat uçotunun inkişafının müasir mərhələsinin 10 xüsusiyyəti deyd edilmişdir.

2. Mühasibat uçotunun inkişafı onun tənzimlənməsi ilə sıx bağlıdır. O, üçpilləli tənzimlənmə ierarxiyasına malikdir: 1) qanun, 2) standart və 3) qaydalar. Mühasibat uçotunu ölkə iqtisadiyyatının müasir inkişaf xüsusiyyətlərinə uyğun tənzimləmək üçün Qanuna müəyyən dəyişikliklərin edilməsi zəruri idi. Əvvəlcə Qanun bazar iqtisadiyyatının çərçivə prinsiplərinə və beynəlxalq standartların tələblərinə uyğunlaşdırılmış, sonra isə onların əsasında mühasibat uçotunun aparılmasının yeni qaydaları yaradılmışdır. Bütün bunlar mühasibat uçotunun inkişafının tənzimlənməsinin üçpilləli mexanizmini təşkil edir.

3. Mühasibat uçotunun inkişafının tənzimlənməsində ayrı-ayrı subyekt tiplərində mühasibat uçotunun aparılması qaydaları mühüm rol oynayır. Onların məzmunu və mahiyyəti Qanunun tələblərinin mühasibat uçotunun subyektləri tərəfindən necə icra edilməsi mexanizmini ifadə etməklə, eyni zamanda beynəlxalq standartların təcrübədə tətbiqi məsələlərini müəyyən edir.

**Təklif edilir:** Ölkəmizdə mühasibat uçotunun inkişafının 4 may 2018-ci il dəyişiklikləri ilə başlanmış olan müasir mərhələsinin xüsusiyyətlərinin dərindən öyrənilməsi və onların yeni hazırlanan mütəxəssislərə çatdırılması istiqamətində məqsədyönlü işlər aparılsın. Bunun üçün həmin xüsusiyyətlərin tədqiqat işində göstərilmiş hər birinə aid 1 magistr dissertasiyasının işlənməsi məqsədəuyğun hesab edilsin.

Bizim fikrimizcə, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun dil-üslub keyfiyyəti baxımından təkmilləşdirilməsinə ehtiyac vardır. Tədqiqat işində Qanunun 4-cü maddəsinin araşdırılması prosesində onun 1-ci bəndinin məzmununda yeni dəyişikliyin edilməsi təklif edilmişdir. Bu səpgili dəyişikliklərin bir sıra digər maddələrdə də edilməsi tərəfimizdən məqsədəuyğun hesab edilir.

**Ədəbiyyat**

1. "İbadoğlu LTD". Mühasibat işi (Normativ sənədlər toplusu). "Elm və həyat" nəşriyyatı. Bakı, 1998, 393 səh. ("Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanunu, 1995-ci il redaksiyası, maddə 3);

2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 2 sentyabr 2004-cü ildə qəbul edimiş redaksiyası;

3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. 4 may 2018-ci ildə dəyişiklik edilmiş redaksiyası;

4. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının bəzi qərarlarında dəyişiklik edilməsi haqqında. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 18 oktyabr 2018-ci il tarixli, Q-09 saylı qərarı;

5. "İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları"nın təsdiq edilməsi barədə. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 25 dekabr 2018-ci il tarixli, Q-13 saylı qərarı;

6. "Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 09 dekabr 2019-cu il tarixli, Q-15 saylı qərarı.

7. Abbasov Q.Ə.(2017). Mühasibat uçotu.Dərslik və metodik vəsait. Bakı,"Təknur" nəşriyyatı. -528s.

8. Ə.A.Sadıqov və b. (2012). Mühasibat uçotu. Dərslik. Bakı, "Təhsil İşçiləri Mətbəəsi" MMC. -688s.

9. Səbzəliyev S.M., Quliyev V.M. (2014). İdarəetmə uçotu. Dərslik. Bakı: "Elm və təhsil" nəşriyyatı. -524s.

10. Quliyev V., Fətullayev R., Kərimov A. (2011). Beynəlxalq uçot və hesabata giriş (GAAP və İFRS əsasında). Bakı, "Nurlar" nəşriyyat poliqrafiya mərkəzi. -280s.

11. Devid Aleksander, Anne Britton, Ann Yorissen.(2010). Maliyyə hesabatının beynəlxalq standartları: nəzəriyyədən praktikaya. Rus dilindən tərcümə. Bakı: «Iqtisad Universiteti» nəşriyyatı. -762 s.

12. David Alexander, Christopher Nobes. (2013). Financial accounting. An international introduction. Fifth edition. Pearson Education Limited. -508p.

13. David Annand, Henry Dauderis. (2017). Introduction to Financial Accounting. -361p.

14. Michael Jones. (2013). Accounting. Third edition. University of Bristol. -740p.

# “QARABAĞ VƏ ŞƏRQI ZƏNGƏZUR İQTISADI RAYONLARININ CARI VƏZIYYƏTININ TƏHLILI”

**Eyyub Rəfiyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**e.rafiyev@unec.edu.az**

## Xülasə

İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı işlər aparılır. Yolların və infrastrukturun bərpası, həyati əhəmiyyət kəsb edən obyektlərin tikintisi və ya yenidən qurulması, bir çox tarixi abidələrin, işğal zamanı dağıdılmış milli-mənəvi irsimizin bərpası istiqamətində iri miqyaslı işlər həyata keçirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlar olub. Bu ərazilər sovet dövründə dövlətə məxsus sənaye obyektləri olmaqla yanaşı, heyvandarlıqda çox gəlirli sahələr idi. Təəssüf ki, 30 ildir ki, biz bu məsələlərdən kənarda qalmışıq. Eyni zamanda bu ərazilər təbii sərvətlər sahəsi idi. Mis, civə, qızıl və bir çox təbii sərvət yataqları var idi. Bu ərazilərdə sözü gedən işləri həyata keçirmək üçün texniki-iqtisadi əsaslandırmanın aparılması lazım idi. Bu ərazilərin təbiəti və topoqrafiyası sözügedən ərazilərdə istirahət mərkəzləri və təbii istirahət mərkəzləri yerləşməsinə gətirib çıxarmışdır. Eyni zamanda, bu bölgələrdə Azərbaycan mədəniyyətinin milli-mənəvi irsimizin çoxlu abidələri var.

Azərbaycanda iki yeni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Azərbaycan paytaxtı ayrıca iqtisadi rayon kimi seçilib və ekspertlərin fikrincə, bu, yerli özünüidarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində gələcək addımlar üçün əlverişli şərait yaradır.

**Açar sözləri:** Qarabağ, Şərqi Zəngəzur, iqtisadiyyat, investisiya.

## Summary

Large-scale work is being carried out in the liberated territories. Some work is being done to restore roads and infrastructure, to build or reconstruct vital facilities, to restore many historical monuments and our national and spiritual heritage destroyed during the occupation.

Upper Karabakh and Kalbajar-Lachin were economic regions. In addition to being state-owned industrial facilities during the Soviet era, these areas were very lucrative areas for livestock. Unfortunately, we have been left out of these issues for 30 years. At the same time, these areas were areas of natural resources. There were deposits of copper, mercury, gold and many natural resources. A feasibility study was required to carry out the work in these areas. The nature and topography of these areas have led to the location of recreation centers and natural recreation centers in these areas. At the same time, there are many monuments of our national and spiritual heritage of Azerbaijani culture in these regions.

Two new economic regions Karabakh and East Zangazur economic regions have been created in Azerbaijan. The Azerbaijani capital has been selected as a separate economic region, which, according to experts, creates favorable conditions for future steps to improve local self-government.

**Keywords**: Karabakh, East Zangazur, economy, investment.

## Giriş

Tədqiqatın aktuallığı: Azərbaycan ermənilər tərəfindən dəfələrlə təcavüzə məruz qalmışdır. Sonuncu dəfə Ermənistan ordusunun 27 Sentyabr 2021-ci il tarixində atəşkəsi pozması müharibəni alovlandırmışdır. 44 gün davam edən Vətən Müharibəsi Azərbaycanın qələbəsi ilə nəticələnib. 28 ildir ermənilərin işğalda olan torpaqlara vurduqları zərər, xarici ölkələrdən mədənçıxarma sənayesinə investorların cəlb edilməsi və Qarabağda olan təbii resursların istismar edilməsi günümüzdə aktualdır.

Tədqiqatın elmi yeniliyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialı və işğaldan azad edilmiş ərazilərin coğrafi əhəmiyyəti müəyyən olunmuş və zəngin olduğu resurslar tədqiq edilmişdir.

Tədqiqatın məqsədi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iqtisadi şəraitdə mövcud iqtisadi potensiyalının qiymətləndirilməsidir.

Tədqiqat metodları olaraq Deduksiya və induksiya metodlarından da istifadə olunmuşdur. Belə ki, induksiya metodu vasitəsilə tədqiqat işi barəsində iqtisadi dəlillər toplanmış, araşdırılmış və sistemləşdirilmişdir. Sintez metodu, daha detallı bir araşdırma məqsədi vasitəsilə fərdi elementləri bütöv hala gətirmək üçün istifadə olunmuşdur, bu metod təhlil metodu vasitəsilə olduqca sıx əlaqəlidir, çünki hər zaman fərdi analiz nəticələrini özündə cəmləyən əsas element kimi mövcuddur. Beləliklə dissertasiya işində sistemli analiz metodu tətbiq edilir, buna müvafiq şəkildə, problem iqtisadi inkişafa müvafiq əlaqəli tarixi inkişaf yönündən təhlil olunur. Tədqiqatın, hər bir mərhələsində həm ümumi sintez metodları və elmi analiz, həmçinin məntiqi analiz metodlarından istifadə olunmuşdir.

Tədqiqatın məhdudiyyəti Dağlıq Qarabağ və ətraf rayonların azad olunmasından sonra, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi göstəricilərinin cəmiyyətə açıqlanmamasıdır.

Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, müxtəlif konfrans materialları və internet informasiya resursları təşkil edir.

Tədqiqat zamanı istinad olunan ədəbiyyatlar: Tədqiqat zamanı Azərbaycan Dövlət İqtisad Universitetinin konfrans materiallarından, Sumqayıt Dövlət Universitetinin konfrans materiallarından, internet səhifələrdə yerləşən məlumatlar və müxtəlif tarix ədəbiyyatlarından istifadə edilmişdir.

Tədqiqatın nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatına, əkinçiliyə, heyvandarlığa yararlılığı, işğal nəticəsində itirilmiş resurslar haqqında məlumatlar verilmiş, regionun iqtisadi potensiyalı araşdırılmış və mövcud resurslardan səmərəli istifadə etmək üçün istiqamətlər verilmişdir.

## Qarabağın Tarixi

Azərbaycan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Mövcud araşdırmalar nəticəsində görmək olur ki, dünya ərazisində yaradılmış ilk insan mədəniyyətlərindən biri olan Quruçay vadisi burada formalaşmışdır. İlk insanın burada var olmasının və tapılan ən əhəmiyyətli arxeoloji qazıntılardan biri alt çənə sümüyüdür, insana məxsus olduğu müəyyən edilən alt çənə sümüyü araşdırmaçıların fikirlərinə görə 18-22 yaşında olan bir qadına məxsus olmuşdur və təqribən bu insanın bu torpaqlarda 350-400 min il əvvəl yaşadığı düşünülür. (Nəcəfli və Dədəyev, 2013).

Təsadüfi deyil ki, arxeoloji qazıntılar nəticəsində tapılan dəyərli tarixi sübutun tapıldığı yer Qarabağdır. Qarabağ bölgəsinə Kiçik Qafqaz dağları ilə Kür və Araz çayları arasındakı bölgə daxildir. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın adı Azərbaycanca "qara" və "bağ" sözlərindən yaranıb. . "Qara" sözü Azərbaycan dilində "qalın" və ya "böyük" mənasını ifadə edir. Bu baxımdan "Qarabağ" "böyük bağ" və ya "sıx bağ" deməkdir. Qarabağın və hal-hazırda mövcud Ermənistanın ərazisi ermənilərin qədim yaşayış məskənlərindən biri deyildir və onlar bu ərazidə məskunlaşan qədim xalqlardan hesab etmək olmaz, bu məlumatları digər dövlətlərin və tarixi araşdırmaların nəticələri ilə yanaşı erməni mənbələrində də bu məlumatın doğruluğun təsdiqləmək mümkündür. Zəngin mədəniyyətə, dövlətçilik ənənələrinə malik

Azərbaycan xalqı qədim zamanlardan bu torpaqlarda məskunlaşıb. Azərbaycan e.ə III minillikdən III əsrə qədər bu torpaqlarda ən qədim tayfa birliklərinin, ilk dövlət qurumlarının və dövlət ənənələrinin formalaşdığı dövrdür. Bu dövrdə Aratta, Kuti, Lullubi, Turukki, Manna, Atropatena, Albaniya kimi ən qədim tayfa birlikləri Azərbaycan ərazisində olmuşdur. Azərbaycanın cənubunda qüdrətli Manna dövləti e. ə. IX-VI əsrlərdə meydana çıxmışdır. Manna qədim türk xalqlarının tarixində ilk türk dövlətidir. Azərbaycanlıların dövlət ənənəsinin tarixi Mannadan başlayır. Manna Assuriya və Urartuya qarşı mübarizəsində öz müstəqilliyini qoruyub saxlaya bilmiş, Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ Urartu işğalından kənarda qalmışdır.2-ci əsrdə müasir Azərbaycanın ərazisinə qədim türk tayfalarının köçü başlanmışdır, ilk köçən təyfalardan Hunların, Sabirlərin və digər türk tayfalarının adlarını qeyd etmək olar, türk tayfaları bu vaxtdan sonra regionda əsas rol almağa başlamışlardır. IV əsrdə və sonralar Azərbaycanın şimalında Atropatenanın da torpaqları olub və o zaman Qarabağın tərkibində olan torpaqların bir qismi bu dövlətə məxsus olub. Atropatena ilə eyni vaxtda qurulan Alban dövləti, VIII əsrdə mövcud olan o, 1200 ilə yaxın Azərbaycan tarixində böyük rol oynamışdır. Qarabağın bütün ərazisi Alban dövlətinin tərkibində idi və bu dövlət Qarabağın müdafiəsi üçün amansız mübarizə aparırdı. Qədim dövrlərdən bəri yerli türk tayfalarını xristianlaşdırmaq üçün müxtəlif addımlar atılmışdır, 515-ci ildə Alban kilsəsinin yepiskopu regionda xristianlığı yaymağa çalışmışdır. Lakin Ərəb xilafətinin regionu fəth etməsi ilə islamın yayılmasına gətirib çıxarmışdır. (Yunusov, 2005).

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikası daxili problemlərdən əlavə xarici problemlərlə də üz-üzə idi. Bu problemlərdən istifadə edən erməni terrorçuları Azərbaycanın gözəl guşələrindən olan Qarabağda soyqırımlar törətməyə başlamış və minlərlə günahsız insanın soyqırımına səbəb olmuşdur. 1991-ci ildə Ermənistan hakimiyyəti əvvəlcə Sovet Sosialist Respublikaları daha sonra Rusiya hakimiyyətinin əli ilə regionda geniş miqyaslı hərbi əməliyyatlara başladı. 1991-ci ilin sentyabr ayında Azərbaycan hakimiyyətinin razılığı olmadan, ermənilər "Dağlıq Qarabağ" adlı qondarma respublikanın təşkil edildiyini elan etdilər, bunun ardınca Qarabağın müxtəlif regionlarında dinc əhaliyə qarşı soyqırımlar törətdilər və nəticədə Azərbaycanın 20%-ni işğal etdilər. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni terrorçular, 1918-ci ildə baş vermiş Azərbaycan xalqına qarşı törədilmiş soyqırımdan sonra baş verən dəhşətli hadisələrdən biridir. Xocalı soyqırımı nəticəsində, 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nərəfər əsir götürldü (Nəcəfli və Dədəyev, 2013).

## Regionun Mövcud İqtisadi və Coğrafi Potensialı

Azərbaycanda iki yeni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Azərbaycan paytaxtı ayrıca iqtisadi rayon kimi seçilib və ekspertlərin fikrincə, bu, yerli özünüidarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində gələcək addımlar üçün əlverişli şərait yaradır.

İqtisadi rayonlaşdırmanın yeni prinsipi bütün ölkə üzrə iqtisadi fəallığın və dövlət investisiyalarının səmərəliliyinin artırılması, ölkənin regionlarında sahibkarlığın və biznesin inkişafı, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin gəlirlərinin şaxələndirilməsi və mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasıdır. Xüsusilə, Covid-19 pandemiyası ilə bağlı mövcud qlobal təhdidlər və çağırışlar kontekstində iqtisadi sektorların sürətli bərpası, iqtisadi geriliyin aradan qaldırılması və məhsuldarlığın artırılması üçün daha geniş perspektivlər mövcuddur.

Digər tərəfdən, iqtisadi rayonlaşdırmanın yenilənməsi və yeni iqtisadi zonaların yaradılması Böyük Vətən Müharibəsində Qələbədən sonra meydana çıxan obyektiv reallıqları əks etdirir. Ona görə də azad edilmiş

zonaların ölkənin iqtisadi və iqtisadi dövriyyəsinə daxil edilməsi iqtisadi zonaların bölünməsinin bərpasını, məhsuldar qüvvələrin və resursların daha dəqiq, rasional bölüşdürülməsini tələb edir.

Hər bir iqtisadi rayonun özünəməxsus ixtisas sahələri və xüsusiyyətləri vardır. Burada müxtəlif amillər, o cümlədən coğrafi, təbii və iqtisadi amillər daha böyük əhəmiyyət kəsb edir. Mühüm şərtlər həm də məşğulluğun xüsusiyyətləri, adət-ənənələr, əhalinin milli tərkibidir.

Dağlıq Qarabağ regionu və ona bitişik 7 rayon, o cümlədən Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli , Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunu 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi tam olaraq işqal olunmuşdur. Beləliklə Azərbaycan iqtisadi baxımdan Qarabağ regionu üzrə ərazi potensialının demək olar ki, 18,6 %-ni və inkişafa təsir və transkontinental əlaqələr baxımından geosiyası mövqe ərazi funksiyası əhəmiyyətini tam olaraq itirmişdir. Nəticədə 1988-1993-cü illər ərzində Qarabağ regionunda 900 yaşayış məntəqəsi,150 min ev, 7 min içtimai bina, 693 məktəb, 693 tibb müəssiəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi və digər infrastruktur obyektləri, ən əsası isə 540,4 min nəfərdən artıq region əhalisi məcburi köçkün vəziyyətinə düşərək, məhsuldar qüvvəyə malik ərazi təsərrüfat fəaliyyətindən kənarda qalmışdır (Həsənov, Babayev, İsmayılova və Bayramov, 2021).

**Cədvəl 1:** Qarabağ regionun münaqişə nəticəsində1988-1993-cü illər ərzində itirilmiş iqtisadi ərazi potensialı

| **İtirilmiş ərazilər** | **Sahəsi (km2)** | **Əhalisi (min.nəfər.)** |
|---|---|---|
| Xankəndi | 926 | 57,0 |
| Ağdam | 1154 | 15,8 |
| Xocavənd | 1458 | 9,01 |
| Xocalı | 970 | 11,6 |
| Şuşa | 289 | 24,9 |
| Cəbrayıl | 1050 | 52,05 |
| Füzuli | 1112 | 95,94 |
| Tərtər | 957 | 97,3 |
| Laçın | 1893 | 69,1 |
| Kəlbəcər | 3050 | 43,7 |
| Qubadlı | 802 | 31,5 |
| Zəngilan | 707 | 32,5 |
| Qarabağ Regionu üzrə | 14368 | 540,4 |
| Azərbaycan Respublikası | 86600 | 7440,0 |
| Qarabağ regionunun Respublikada xüsusi çəkisi %-lə | 18,6 | 7,3 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib olunmuşdur, www.stat.gov.az

Ərazi potensialı iqtisadi baxımdan ən mühüm inkişaf kateqoriyası hesab edilir. Burada iqtisadi inkişafa təsiri ilə seçilən mineral xammal yataqları, kənd təsərrüfatına yararlı torpaqlar, turizmin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən təbii-iqlim şəraiti və müalicə suları xüsusi yer tutur. İşğal altında olan Qarabaq Regionunda 163 faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 6 gəc, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü,16 yeraltı şirin su və 11 mineral su mənbəyi aşkarlanmışdır (2). Həmçinin regionun 261 min hektar meşə, o cümlədən 13197 hektar qiymətli meşə sahələri, 215 ədəd təbiət abidəsi, 5 ədəd geoloji-paleontoloji obyekt, hündürlüyü 45 metr, diametri 6-8 metrədək, yaşı 120 ildən cox olan pasportlaşdırılmış

145 Şərq çinarı və digər təbiət abidələri, böyük əhəmiyyətə malik xüsusi mühafizə olunan təbiət ərazilərinin 70389 hektarı - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri, 100 min ha-dan çox otlaq-biçənək sahəsi yerləşir ki, bu sərvətlər ölkənin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edən ərazi potensialı elementləri olmaqla, son 30 il ərzində ermənilər tərəfindən talan olunmuşdur.Ümumiyyətlə isə, Qarabağın ermənilər tərəfindən işğal olunmuş ərazilərində 561 yataq və perspektiv minerallaşma sahəsi müəyyən edilmişdir (Mükərrəmoğlu, 2019).

Ərazi potensialında aqrar-sənaye kompleksinin aparıcı sahəsi olan kənd təsərrüfatının, və onun inkişafında mühüm rol oynayan torpaq-iqlim ehtiyatları xüsusi yer tutur.Bu baxımdan Qarabağ Regionu istisnalıq təşkil edir. İşğal dövrü ərzində demək olar ki, ÜDM istehsalında əhəmiyyətli rola malik olan kənd təsərrüfatına yararlı torpaq sahələri dövriyyədən çıxmış və onlardan istifadə etmək mümkün olmamışdır (Vəliyev, 2019).

**Cədvəl 2:** Qarabağ reqionun münaqişə nəticəsində 1988-1993-cü illər ərzində itirilmiş və dövriyədən çıxarılmış kənd təsərrüfatına yararlı torpaq resurs potensialı (ha)

| Itirilmişvə işqal olunmuş ərazilər | Kənd təsərrüfatına yararlı ümumi torpaq sahəsi | Əkin sahələri | Meyvə və giləmeyvə sahələri | Üzümlük sahələri | Meşəlik sahələri |
|---|---|---|---|---|---|
| DQMV-daxil olan ərazilər üzrə | 220004 | 66748 | 1701 | 11211 | 147913 |
| Laçın | 75810 | 11600 | 124 | - | 33258 |
| Kəlbəcər | 48200 | 3800 | - | - | 32774 |
| Aqdam | 91800 | 33400 | 268 | 12483 | 850 |
| Füzuli | 85100 | 28700 | 8 | 6400 | 78 |
| Cəbrayıl | 60300 | 19300 | 48 | 6477 | 4039 |
| Qubadlı | 35000 | 14300 | 96 | 977 | 13360 |
| Zəngilan | 32800 | 7700 | 43 | 2391 | 13399 |
| Qarabağ Regionu üzrə cəmi | 647504 | 185548 | 2288 | 39959 | 246698 |
| Qarabağ regionunun Respub-likada xüsusi çəkisi %-lə | 13,8 | 10,5 | 3,2 | 22,0 | 27,8 |

Mənbə: ARDSK, www.stat.gov.az.

Aparılmış təhlillər göstərir ki, Qarabağ Regionu üzrə işğal ərazilərində kənd təsərrüfat dövriyyəsindən çıxarılmış və kənd təsərrüfatı baxımından itirilmiş iqtisadi potensial kənd təsərrüfatına yararlı torpaq sahələri üzrə 647,5 min ha.və ya respublika kənd təssərüfatına yararlı torpaq sahələrinin 13,8%-i, əkin sahələri üzrə 185,5 min ha. və ya respublika ümumi əkin sahəsinin 10,5%-i, meyvə-giləmeyvə sahələri üzrə 2,29 min ha və ya respublika meyvə-giləmeyvə sahələrinin 3,2%-i, üzümlük sahələri üzrə 39,96 min ha və respublika üzümlük sahələrinin 22,0%-i, meşəli ərazilər üzrə 246,69 min ha və ya respublika meşə ərazisinin 27,8%-ini təşkil edir (Məmmədova, 2021).

Bunu Qarabağ Regionunun işqal altında qalmış kənd təsərrüfatına yararlı torpaqlarindan təkcə 1988-cı ildə əldə olunmuş bitkiçilik və heyvandarlıq məhsulları üzrə apardığımız təhlillər də sübut edir. Belə ki, təkcə 1988-ci ildə Azərbaycan Respublikası Qarabağ Regionu üzrə itirilmiş kənd təsərrüfatına yararlı torpaq sahələrinin dövriyyədən çıxarılması nəticəsində respublikada istehsal olunan ümumi taxıl məhsulunun 14,3%-ni və ya 179,4 min ton, üzümün 31,5%-ni və ya 324,3 min ton, kartof istehsalının 6,3%-ni və ya 2,35 min ton, ət istehsalının 14,5%-ni və ya 20,0 min ton , süd istehsalının 17,1%-ni və ya 75,5 min ton itirmiş və ərzaq təhlükəsizlik balansında ciddi çətinliklər yaranmasına səbəb olmuş və xarici dövlətlərdən ərzaq

məhsulları xüsusən ərzaq taxılı idxal etmək məcburiyyətində qalmışdır. Qarabağ regionunun işğal altında qalmış 30 illik dövrü ərzində isə respublika ərzaq balansı 5,4 mln ton taxıl, 9,7 mln ton üzüm məhsulu, 70,5 min ton kartof, 600,0 min ton ət, 2,27 mln ton süd, yüngül sənaye kompleksi isə 615, 0 min ton pambıq və 25,39 min ton barama məhsulu itirmişdir. Hazırkı şəraitdə bir sıra xarici informasiya mənbələrinin verdiyi məlumatlar göstərir ki, 1992-2020-ci illər ərzindəki işqal müddətində Ermənistan Qarabağ Regionunun məhsuldar kənd təssərüfatına yararlı torpaq sahələrindən istifadə etməklə özlərinin ərzaq balans təminatını xeyli yaxşılaşdıra bilmiş, şərab istehsal müəssisələrinin üzümə olan tələbatının 50%-ni təmin etmiş, özlərinin valyuta ehtiyatlarını isə Qarabağ Regionunda yerləşən müalicə su mənbələrini: Yuxarı və Aşağı İstisu,Bağırsaq, İliqsu, Minkənd, Turşsu, Şırlan - istismar etməklə, erməni brendi altında qablaşdıraraq dünya bazarına çıxarmaqla əhəmiyyətli artımına nail ola bilmişlər. Təkcə 2019-cu işqal dövrü ərzində Qarabağ regionunda 247,31 mln ha müxtəlif kənd təsərrüfatı bitkiləri altında olan əkin sahələrindən 2,51 mln sentner ərzaq məhsulları əldə edə bilmişdir ki, bunun da 1,18 mln sentinerini və ya 47,0%-ni taxıl və paxlalılar, 1.21 mln sentinerini və ya 49,0%-ni ərzaq buğdası, 31,18 min. sentinerini və ya 2,0%-ni kartof, 83,91 min. sentinerini və ya 4,0 %-ni isə tərəvəz məhsulu təşkil etmişdir (Həsənov vd., 2021).

**Cədvəl 3:** QarabağrReqionun münaqişə nəticəsində işqal olunmuş kənd təsərrüfatına yararlı torpaq sahələrindən 2019-cu ildə Ermənistan Respublikası tərəfindən istehsal olunmuş kənd təsərrüfatı məhsullarının həcmi (sentnerlə)

| Qarabağ regionu | Taxılvə paxlalılar | Buğda | Kartof | Tərəvəz |
|---|---|---|---|---|
| Əskəran | 239387,5 | 150050,0 | 9272,0 | 40452,2 |
| Hadrut | 273199,0 | 86503,0 | 6660,0 | 10190,0 |
| Ağdərə | 149397,9 | 671014,0 | 5928,1 | 3900,1 |
| Xocavənd | 228996,3 | 178789,8 | 1885,0 | 3517,5 |
| Kəlbəcər | 1797,5 | 1592,0 | 608,0 | 472,5 |
| Şuşa | 3513,0 | 2844,0 | 1760,0 | 2924,0 |
| Laçın | 285245,0 | 119180,0 | 5065,0 | 22458,0 |
| Qarabaq Regionu üzrə cəmi | 1181536,2 | 1209972,8 | 31178.1 | 83914,3 |

Mənbə: “Вестник Кавказа” İnformasiya Agentliyinin 6 fevral 2021 nömrəsində verilmiş məlumatlar əsasında tərtib olunmuşdur.

Verilmiş informasiya məlumatları göstərir ki, Qarabağ Regionu Ermənistan işqalı dövründə potensial iqtisadi, o cümlədən kənd təsərrüfat regionu kimi istismar olunmuş və istisimar onun inkişafında əhəmiyyətli rol oynamışdır. Həmçinin qeyd olunmalıdır ki, bu göstəricilər xarici informasiya agentliklərinin müxtəlif yollarla əldə olunmuş istisimar nəticələrinin üz qabığını təşkil edir. Əslində isə istisimarın faktiki iqtisadi göstəriciləri verilmiş informasiyadan qat-qat yüksək rəqəmlərlə ifadə olunur və bu 30 illik bir işğal-istisimar dövrünü əhatə edir.Vəhşicəsinə istismar, yararsız hala salınmış və minalanmış məhsuldar torpaqlar, qırılıb məhv edilmiş meşə massivləri,infrastruktur, yaşayış məntəqələri, xüsusi qorunan təbiət əraziləri, işğaldan azad olunmuş Qarabağ Regionu ərazilərindən Azərbaycan Respublikasına miras qalmış “iqtisadi potensial”ın bərpası isə, xüsusi reabilitasiya proqramlarının həyata keçirilməsini, xüsusi strateji istiqamətin qəbul olunmasını və milyard manatlarla əlavə kapital qoyuluşu xərcləri tələb edir.

Qarabağ Regionu intensiv inkişaf potensialına malik, perspektivli regional ərazi kimi xarakterizə olunur. Regionun ərazisində salınacaq ən müasir "Ağıllı şəhər", "Ağıllı kənd" lərin enerji təminatında çayların, günəş və külək enerji potensiallarından istifadə edəcək kiçik elektrik stansiyalarının tikintisi üzrə əsaslı tədbirlər görülür. İqtisadi potensiala malik olan region aqrar-sənaye kompleksinin inkişafı baxımından da yüksək qiymətləndirilir. Bunu, ərazinin aqrar kompleksini xammala təmin edən, kənd təsərrüfatının inkişafına şərait yaradan təbii-resurs potensialı, həmçinin işqaldan əvvəlki dövr ərzində tarixi inkişaf nəticəsində formalaşan emaledici sənaye kompleksinın geniş strateji istiqaməti müəyyən etməyə imkan verir. Belə ki, təkcə 1988-1992-ci illər ərzində region Azərbaycan Respublikasında istehsal olunan şərab materiallarının 35%-ni, heyvandarlıq mənşəli yağların 25,2%-ni, ət istehsalının 5,0%-ni, konserv istehsalının 6,9%-ni, yun istehsalının 19,5%-ni, xam ipəyin 13,5%-ni, mineral suların isə 15,0 %-ni özündə birləşdirən xüsusi çəkiyə malik idi. Bnunla yanaşı region ərazisi sənaye məhsulu istehsalının 299,6 və sənaye əsas fondlarının 75,4 mln manat hissəsini özündə birləşdirirdi (Həsənov vd., 2021).

**Regionun İnvestisiya Potensialı**

Bütün bu tarixi inkişaf bazasını nəzərə alaraq aqrar-sənaye kompleksinin inkişaf strategiyasını və reabilitasiya-dirçəliş proqramının bizim fikrimizcə bu istiqamətdə qurulması və mərhələli həllinin təmin edilməsi zəruri davamlı inkişaf variantı kimi qəbul olunmalıdır. Apardığımız təhllilər və hesablamalar göstərir ki, aqrar-sənaye kompleksinin qeyd olunan isiqamət bazası və müasir texnologiya əsasında inkişaf etdirilməsi, yaxın perspektivdə, xüsusən 2025-2030-cu illər ərzində işqaldan azad olunmuş Qarabağ Regionun ərazisində bütün kənd təsərrüfatı məhsulları istehsalını, 1988-1992-ci baza illərinə nisbətən 1,5-2,0, şərab məhsulları istehsalını 1,0-1,5, konserv istehsalını 2,5-3,0, mineral sular istehsalını 3,0-3,5 , xam ipək istehsalını 1,0-1,5 dəfə artırmaq üçün hərtərəfli imkan və şəraiti formalaşdırmaq mümkün olacaqdır.Ona görə tarixi inkişaf ixtisaslaşmasının aqrar-sənaye kompleksinin reabilitasiya və dirçəliş strategiyasında nəzərə alınması ən zəruri problemlərdən biri kimi qəbul olunmalıdır (Həsənov vd., 2021).

Regional investisiya siyasətinin həyata keçirilmə mexanizminin bir xüsusiyyəti, iştirak edən bütün tərəflərin maraqlarının uyğunlaşdırılmasına yönəldilməsidir. Buna görə də nəzərdən keçirilən mexanizmin strukturunda əhəmiyyətli yeri investisiya prosesi iştirakçılarının təkcə bir-biri ilə deyil, həm də xarici mühit ilə qarşılıqlı əlaqəsini təmin edən stimullaşdırma bloku tərəfindən tutulur.

İnvestisiya siyasəti regionda investisiya fəaliyyətinin ən vacib tərəfləri kontekstində investisiya strategiyasının həyata keçirilməsinin bir formasıdır. Regionun sosial-iqtisadi inkişafı məqsədi ilə plan və proqramların həyata keçirilməsi investisiya strategiyasının formalaşdırılmasını tələb edir. İnvestisiya strategiyasından fərqli olaraq regional investisiya siyasətinin formalaşdırılması regionun strateji qərarları və mövcud maliyyə imkanları çərçivəsində həyata keçirilən orta müddətli idarəetmə prosesidir.İnvestisiya strategiyası investorlar üçün bərabər şərait yaratmağa və regiondakı ümumi investisiya mühitini yaxşılaşdırmağa kömək edir. Region üçün investisiya strategiyasının hazırlanması və reallaşdırılması iqtisadi artımın keyfiyyət xüsusiyyətlərinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması probleminin həllinə yönəlmiş mürəkkəb prosesdir.İnvestisiya strategiyası maliyyə resurslarının cəlb edilməsi üçün mexanizmlərin yaradılmasına, onların səmərəli istifadəsinə və regionun innovasiya potensialının həyata keçirilməsinə yönəlir. İnvestisiya strategiyasının hazırlanmasında məqsəd region iqtisadiyyatının strateji əhəmiyyətli kəmiyyət və keyfiyyət xüsusiyyətlərini, inkişafı üçün mövcud mənbələri qiymətləndirmək və

sosial problemlərin həlli məqsədilə investisiya cəlb etmək üçün əlverişli şərait yaradan tədbirləri müəyyənləşdirməkdir. Belə bir strategiyanın formalaşdırılmasının əsas vəzifələri aşağıdakılar olmalıdır:

- regionun sosial-iqtisadi inkişafının təmin edilməsi və rəqabətqabiliyyətli sahələrin işləməsi üçün şərait yaradılması;
- regionun investisiya ehtiyaclarının maksimum ödənilməsi;
- investisiya cəlbediciliyinin regionun sosial-iqtisadi inkişafına təsirinin müəyyənləşdirilməsi;
- zəruri investisiya mənbələrinin daxil olmasını təmin etmək üçün regionun investisiya cəlbediciliyini tənzimləyən tədbirlərin hazırlanması;
- regionun investisiya cəlbediciliyinə təsir göstərən səbəblərin aydınlaşdırılması;
- investisiya cəlbediciliyinin və investisiya fəaliyyətinin monitorinqi (Самогородская, 2012).

Qeyd edək ki, Azərbaycanda regionlarda müəssisələrin modernləşdirilməsinə və yenilərin inşasına qoyulan investisiyaları artırmaq üçün geniş imkanları var. Regionlarda əsas kapitala qoyulan investisiyalar müəssisə və təşkilatların sabit fəaliyyətinin əsasını qoyur ki, bu da müasir şəraitdə xüsusilə vacibdir. Çünki regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, müəssisə və təşkilatların fəaliyyətinin səmərəliliyinin artırılması üçün imkanlar açır. Aşağıdakı cədvəl vasitəsilə regionlar üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmini nəzərdən keçirək.

**Cədvəl 4:** Regionlar üzrə əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat

| **2015** | | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|
| **Cəmi** | 15957,0 | 15772,8 | 17430,3 | 17244,9 | 18539,5 |
| **Bakı** | 11457,3 | 11759,9 | 11869,0 | 10723,8 | 10893,3 |
| **Abşeron** | 391,0 | 314,0 | 459,4 | 1223,9 | 2534,1 |
| **Gəncə-Qazax** | 654,4 | 565,4 | 793,7 | 765,4 | 884,5 |
| **Şəki-Zaqatala** | 214,8 | 177,1 | 363,7 | 384,1 | 404,2 |
| **Lənkəran** | 340,8 | 440,0 | 540,8 | 498,3 | 283,6 |
| **Quba-Xaçmaz** | 269,8 | 353,8 | 401,1 | 455,2 | 672,6 |
| **Aran** | 1106,5 | 808,5 | 1459,1 | 1472,3 | 1319,7 |
| **Qarabağ** | 41,9 | 144,6 | 199,4 | 67,6 | 130,7 |
| **Şərqi Zəngəzur** | - | - | - | - | - |
| **Dağlıq Şirvan** | 152,0 | 192,5 | 294,4 | 316,2 | 387,4 |
| **Naxçıvan** | 951,2 | 997,6 | 1005,8 | 1017,1 | 1029,4 |

Mənbə: ARDSK, www.stat.gov.az.

Cədvəldən göründüyü kimi, ölkə üzrə 2019-cu ildə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 18539,5 milyon manat təşkil etmişdir ki, bunun da 10893,3 milyon manatı və yaxud 58,8%-i Bakı, 2534,1 milyon manatı və yaxud 13,7%-i Abşeron, 1319,7 milyon manatı və yaxud 7,1%-i Aran, 1029,4 milyon manatı və yaxud 5,6%-i Naxçıvan, 2763,3 milyon manatı və yaxud 14,8%-i isə digər iqtisadi rayonların payına düşür. 2019-cu ildə 2018-ci illə müqayisədə regionlar üzrə əsas kapitalın həcmi 1294,6 milyon manat və yaxud 7,5%, 2017-ci illə müqayisədə 1109,2 milyon manat və yaxud 6,4%, 2016-cı illə müqayisədə 2766,7 milyon manat və yaxud 17,5%, 2015-ci illə müqayisədə isə 2582,5 milyon manat və yaxud 16,2% artmışdır. Aşağıdakı şəkildə Azərbaycanda investisiyaların məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisi üzrə bölgüsü əks olunub.

**Qrafik 1:** Azərbaycanın regionları üzrə məhsul istehsalına, xidmət sahələrinə və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, faizlə




Mənbə: ARDSK, www.stat.gov.az

Qrafik 1-dən göründüyü kimi, ölkəmizdə investisiyaların əsas hissəsi məhsul istehsalı sahəsinə yönəldilib. Son 5 ilin məlumatları bunu əyani şəkildə göstərir. Təkcə 2019-cu ili nəzərdən keçirsək görərik ki, qeyd edilən dövrdə ölkə üzrə 66,1% investisiyalar məhsul istehsalına, 26,8% xidmət sahələrinə, 7,1%-i isə yaşayış evlərinin tikintisinə yönəldilmişdir. Ən çox məhsul istehsalına investisiyalar 2016-cı ildə - 78,3%, xidmət sahələrinə 2015-ci ildə - 31,2%, yaşayış evlərinin tikintisinə isə 2018-ci ildə - 8,1% yönəldilmişdir.

Beləliklə, son 5 ildə əsas kapitala qoyulmuş investisiyaların təhlili göstərdi ki, onların həcminin artmasına baxmayaraq, regionlarda müəssisə və təşkilatların investisiya fəaliyyətini məhdudlaşdıran bir sıra amillər hələ də mövcuddur. Bu amillərə öz maliyyə mənbələrinin kifayət qədər olmamasını, kommersiya kreditlərinin yüksək faiz dərəcələrini, investisiya layihələrinin həyata keçirilməsi üçün kredit mənbələri əldə etmə mexanizminin mürəkkəbliyini, investisiya layihələrinin icrası ilə əlaqəli ümumi investisiya risklərini və s. aid etmək olar.

İnvestisiya cəlbediciliyinin idarə olunması prinsipinə əsaslanan regionun inkişafı üçün investisiya strategiyası ərazinin sosial-iqtisadi inkişafının əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə imkan verəcəkdir. İnvestisiya fəaliyyətinin strateji hədəflərinin formalaşması, ilk növbədə, iqtisadi inkişafın ümumi strategiyasının məqsədlər sistemindən başlamalıdır. Bu hədəflər fərqli ola bilər. Regionun sahə quruluşu investisiya strategiyasının istiqamətlərini seçmək üçün əsasdır.

İşğaldan azad edilmiş torpaqlarimizin dirçəldilməsi və inkişaf etdirilməsi hazirki dövrdə azərbaycan dövləti qarşisinda dayanan ən mühüm strateji vəzifədir.

Bu vəzifənin uğurlu həlli, ilk növbədə, Ermənistanın hərbi təcavüzü nəticəsində iqtisadiyyatımıza dəyən zərərin, işğal altında olan bölgələrimiz tərəfindən itirilmiş iqtisadi potensialın dəqiq müəyyən edilməsini, onların mövcud iqtisadi potensialının qiymətləndirilməsini, bu potensialın səmərəli reallaşdırılması üçün resursların və imkanların müəyyən edilməsini və zəruri iqtisadi mexanizmlərin işlənib hazırlanmasını, bu

əsasda həmin torpaqlarda inkişafımızın prioritet sahələrinin və istiqamətlərinin müəyyənləşdirilməsini vacib edir (Manafov, 2020).

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üçün hələ vaxtilə ölkə rəhbərinin göstərişi ilə yaradılmış işçi qrupu 2014-cü ildən başlayaraq, bu işlə ciddi məşğul olmuş, konkret nəticələr əldə etmişdir. Müəyyən edilmişdir ki, işğal olunmuş ərazilərdə 1988-1994-cü illərdə 2,4 min sənaye, aqrar sahə obyektləri və digər müəssisələr tamamilə məhv edilmiş, 5,2 min km avtomobil yolu, 350-ə yaxın körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 min km elektrik xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyektləri dağıdılmış və talan edilmişdir. Bununla yanaşı, kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi potensiala ciddi ziyan vurulmuş, təqribən 1 milyon hektar suvarılan torpaq, 34,6 min hektar üzüm və meyvə bağları işğalçılar tərəfindən ələ keçirilmiş, böyük həcmdə əkin sahələri üçün yararlı torpaqlar suvarılmayaraq faktiki olaraq iqtisadi dövriyyədən çıxarılmış, 220 min baş mal-qara işğalçıların əlinə keçmişdir. Bütövlükdə isə işçi qrupu tərəfindən 2017-ci il üçün verilmiş məlumata görə, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş itki və ziyanların ümumi dəyəri 820 milyard dollar olaraq qiymətləndirilmişdir. Heç şübhəsiz ki, 2020-ci ilin sentyabrında başlamış Vətən müharibəsi dövründə ölkəmizə vurulmuş ziyanın və tələfatların həcmini, həmçinin Qarabağ bölgəsində vaxtilə işləyən müəssisələrin işğal nəticəsində dağıdılması səbəbindən əldə edilməsi mümkün olmayan, itirilmiş gəlirləri və mənfəətləri nəzərə alsaq, bu rəqəm xeyli yüksək olacaqdır (Manafov, 2020).

## Nəticə və Təkliflər

Xarici investisiyalar Qarabağın dirçəlməsinə və Azərbaycan iqtisadiyyatının yenidən inkişafına və potensial resursların üzə çıxmasına gətirib çıxaracaqdır. Dünyada mövcud olan müxtəlif şirkətlərin bu ərazilərə cəlb edilməsi, kiçik və orta sahibkarlıq obyektlərinin burada yaradılması regionun iqtisadiyyat və sərmaye baxımından daha cəlb edici hala gətirəcəkdir. Ölkəyə investorların cəlb edilməsi üçün əsas istiqamətlər seçilməlidir, bunun üçün rayonda mövcud şərait diqqətə alınmalı və əldə olunan məlumatlar cəmiyyətə açıqlanmalıdır.

Nəticə etibarı ilə, müxtəlif bizneslərin və yeni investisiyaların cəlb edilməsi üçün dövlət tərəfindən bir sıra strategiyalar müəyyənləşdirilməli, bu istiqamətdə xüsusi planlar hazırlanmalı, istər yerli investorlar, istərsə də xarici investorların Qarabağ regionuna yatıracağı investisiyaların dövlət tərəfindən qorunması və qarantı müəyyənləşdirilməlidir. Buraya aşağıdakıları aid edə bilərik:

- İlk olaraq Qarabağ regionunda baş verə biləcək hərbi təhlükələrin aradan qaldırılması istiqamətində dövlət tədbirləri və qarantı olmalıdır;
- İstehsal layihələri üçün lazımlı avadanlıqlarım, xammalların və eləcə də müəyyən inventarların gətirilməsi zamanı gömrük rüsumları ləğv edilməlidir;
- Dövlət büdcəsindən və dövlət fondlarından investorlar üçün xüsusi subsidiyalar ayrılmalıdır;
- Məsələnin əsas nöqtəsi bundan sonra işğaldan azad olunan bölgənin qurulması üçün atılacaq addımlardır. Postmüharibə dövründə Azərbaycan masa üzərində apardığı siyasi mübarizə ilə bərabər, həm də strateji iqtisadi inkişaf planı hazırlamalıdır;
- Regionun ilkin olaraq infrastrukturu qurulmalı, kommunal xətlər çəkilməli, yollar salınmalı və eyni zamanda əhalinin yaşayışı üçün lazımlı minimum infrastruktur layihələri həyata keçirilməlidir;
- Əhalinin köçürülməsi məsələsi sürətlənməli və yaşayış güvənliyi təmin edilməlidir;

- Xarici kapitalın, xüsusilə valyuta əməliyyatlarının aparılması üçün əlverişli qanunvericilik ortaya qoyulmalıdır.
- Regionun resurslarından istifadə imkanları investorların istifadəsinə açıq olmalıdır.

**İstifadə Olunmuş Mənbələr**


1. Ermənilər işğal olunmuş ərazilərdə ekoloji terror törədirlər, 14 sentyabr 2014 http://www.anl.az/down/meqale/olaylar/2018/sentyabr/604971.htm.
2. Həsənov T., Babayev M., İsmayılova Ü., Bayramov A., (2021), "Qarabağ Regionu: Ərazi Potensialı və Aqrar-Sənaye Kompleksi Sahələrinin Dirçəlişinin İnkişaf Strategiyası", Sumqayıt Dövlət Universiteti Konfrans Materialları, Sumqayıt Dövlət Universiteti, Sumqayıt, s. 269-275.
3. Manafov Q., "İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri", UNEC Ekspert, (2021), Azərbaycan Dövlət İqtisad Universiteti, s. 6-9.
4. Məmmədova Ş., "Azərbaycanın Torpaq Resurslarının Qiymətləndirilməsi Problemləri", İPƏK YOLU, No.3, 2021, Azərbaycan Universiteti, s. 57-65.
5. Mükərrəmoğlu M., Ermənilər işğal etdikləri ərazilərimizdə ekoloji genosid həyata keçirirlər, 09 avqust 2014, "Xalq Qəzeti", https://xalqqazeti.com/mobile/az/news/28268.
6. Nəcəfli T., Dədəyev B., (2013), Azərbaycan Tarixi, Bakı, "Qafqaz Universtiteti" nəşriyyatı, 287 səh.
7. Vəliyev A.H. (2019), Torpaqlardan səmərəli istifadənin və torpaq münasibətlərinin hüquqi-iqtisadi aspektləri, Bakı, Vəliyev A.H. nəşriyyatı, 386 səh.
8. Yunusov A. (2005), KARABAKH: PAST AND PRESENT, Baku, 55 pages.
9. Вестник Кавказа, У карабахских сепаратистов не осталось энергетических и продовольственных перспектив, 06 февраля 2021, https://vestikavkaza.ru/analytics/u-karabahskih-separatistov-ne-ostalos-energeticeskih-i-prodovolstvennyh-perspektiv.html
10. Самогородская М.И. Разработка региональной инвестиционной стратегии. Региональная экономика: теория и практика, 2002, 2(2), стр.46-52
11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, **https://www.stat.gov.az/.**

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TƏBİİ EHTİYYATLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI VƏ ƏRAZİLƏRİN DİRÇƏLDİLMƏSİNİN İQTİSADİ ASPEKTLƏRİ

**Əhmədzadə Fidan**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**fidanahmed7@yahoo.com**

## Xülasə

Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafı bilavasitə regionların inkişaf etdirilməsindən də asılıdır. Tədqiqat işinin məqsədi işğaldan azad olunmuş ərazilərdə təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji aspektlərin müyyən edilməsi və bu prosesdə dövlərin rolu və dəstəyi üzrə qabaqcıl xarici təcrübə və yeni metodlardan istifadə edərək onların həllinə dair əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması təşkil edir.

Tədqiqat işinin nəzəri metodoloji əsasını bu sahədə araşdırmalar aparmış müxtəlif məktəblərin nümayəndələrin nəzəri xarakterli əsərləri, müasir qərb iqtisadçılarının əsərləri, Azərbaycan Respublikası Konstitusiyası, qanunları, regionların sosial iqtisadi inkişafı ilə bağlı normativ hüquqi aktlar, eləcə də ölkə prezidentinin fərman və sərəncamlarını, həmçinin nəzəri müddəalar təşkil edir. Hal-hazırda Azərbaycanda və dünyada olan pandemiya ilə bağlı kitabxanaların işləməməsi ən əsas məhdudiyyətlərdən biridir.

Tədqiqat işində elmi yenilik kimi diqqətə cəlb edən əsas bir sıra məsələlər təhlil edilmiş və buna uyğun müxtəlif yanaşmalar araşdırılmış və şərh edilmişdir ki ki, bunları elmi yeniliklər kimi diqqəti cəlb edir. Tədqiqat işinin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işində əks olunan məsələlər digər xarici ölkələrin eko system üzrə həyata keçirdiyi təcrübələrə əsaslanaraq, işğaldan azad edilmiş ərazilər üzrə eko inkişaf konsepsiyası və strategiyasının işlənib hazırlanmasından istifadə oluna bilər.

**Açar sözlər:** istifadə səmərəliliyi, təbii ehtiyyatlar, Qarabağ

## Abstract

Sustainable and sustainable development of the Azerbaijani economy also depends on the development of the regions. The purpose of the study is to identify the rational use of natural resources and environmental aspects in the liberated territories and to develop substantiated proposals and recommendations for their solution using advanced foreign experience and new methods on the role and support of states in this process.

The theoretical and methodological basis of the research is the theoretical works of representatives of various schools, modern western economists, the Constitution of the Republic of Azerbaijan, lawsa and etc. One of the main limitations is the lack of libraries in Azerbaijan and around the world due to the current pandemic.

The research analyzes a number of key issues that attract attention as scientific innovation, and accordingly, different approaches are explored and commented on, which attract attention as scientific innovations. The practical significance of the research is that the issues covered in the research can be used to develop a concept and strategy for eco-development in the liberated areas, based on the experience of other foreign countries in the ecosystem.

**Keywords:** efficiency of use, natural resources, Karabakh

## Giriş

Günümüzdə II Qarabağ müharibəsində qələbəzmidən sonra işğal edilmiş ərazilərdə təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji aspektlərin müəyyən edilməsi və burada dövlətin oynadığı rol mühüm əhəmiyyət kəsb edir və aktual məsələdir. İşğaldan azad edilmiş ərazilərin inkişafının diqqət mərkəzinə gətirilməsi milli resurlardan istifadənin səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmişdir. Bu ərazilərin ölkəmizdə inkişafının tədqiqi dünya elmində mövcud olan mütərəqqi təcrübəyə əsaslanmalıdır. İşğaldan azad edilmiş regionların inkişafının təmin edilməsi ilə bütövlükdə milli iqtisadi inkişafı təmin etmək mümkündür. Təbii ki, regionları inkişafı külli miqdarda vəsait tələb etdiyindən iqtisadi inkişafın müəyyən mərhələsində

başlayaraq bu tədbirləri həyata keçirmək mümkündür. Beləki ilk öncə bu tədbirlərin metodologiyası hazırlanmalıdır. Bu medodologiya özündə ölkənin real gerçəkliyini əks etdirməklə yanaşı inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanmalıdır. Əks təqdirdə iqtisadiyyatın mütərəqqi qurluşunun formalaşdırılması və resurslardan səmərəli istifadə mexanizminin yaradılması mümkün olmayacaq.

Bu zəngin təcrübədən yararlanan ölkəmizdə işğaldan azad edilmiş ərazilər üzrə təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji aspektlərin müəyyən edilməsi üçün kompleks tədbirlər həyata keçirilməlidir. İlk öncə bu ərazilər üzrə ekoloji inkişafa mane ola biləcək səbəblər araşdırılmalı, təhlil edilməli, regional təbii ehtiyatlardan səmərəli istifadə üzrə strategiya hazırlanmalı, müasir dövrün texnika və texnologiyalarından istifadəyə yönəlik tədbirlər görülməlidir. İşğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatlardan səmərəli istifadə üçün və ekoloji apektlərin müəyyən olunmasına dair ölkəmizin və digər xarici ölkələrin alimlərinin təklif etdikləri əsərlərə nəzər yetirilmişdir.

Tədqiqat işinin məqsədi işğaldan azad olunmuş ərazilərdə təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji aspektlərin müyyən edilməsi və bu prosesdə dövlərin rolu və dəstəyi üzrə qabaqcıl xarici təcrübə və yeni metodlardan istifadə edərək onların həllinə dair əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması təşkil edir.

Ermənilərin Azərbaycan dövlətçiliyinə və xalqına qarşı törətdikləri beynəlxalq cinayətlər 100 ildən artıqdır ki, davam edir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində törətdiyi ən ağır cinayətlərdən biri də ekoloji cinayətlərdir. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində 30 ilə yaxındır ki, Azərbaycan torpaqlarının 20 faizi, Qarabağ ərazisi və yeddi ətraf rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. 2020-ci il sentyabrın 27-də Azərbaycan ordusu erməni təxribatlarının qarşısını almaq üçün əks hücuma keçərək Azərbaycanın Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad edib. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Ağdam rayonları ərazilərindən qeyd-şərtsiz çıxarılmasına dair birgə bəyanat imzalayıblar (https://president.az/az/articles/view/40968).

Uzun illər Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində təbiətə düşmən münasibət və ekoloji terror nəticəsində regionun ətraf mühiti üçün ciddi təhlükə yaranıb. Azərbaycan Respublikasının Qarabağ və ətraf rayonlarının uzun müddət işğalı nəticəsində biomüxtəlifliyə, o cümlədən flora və faunaya, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi ziyan dəymiş, su ehtiyatlarının yandırılması, çirklənməsi, qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət. Abidələrin, ümumiyyətlə, yeraltı və yerüstü təbii sərvətlərin qəsdən talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuş, Azərbaycanın ekologiyasına ciddi ziyan dəymişdir. Nəzərinizə çatdırırıq ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti Şuşa şəhəri yaxınlığında yerləşən və dövlət qoruğu sayılan Topxana meşəsinin qırılması ilə başlayıb. Ermənistanın işğalı altında olan 260 min 311 hektar meşə (bunun 224 min 792 hektarı sıx meşələrlə örtülmüşdür) və palıd, fıstıq, vələs, göyrüş, şam, ağcaqayın, ayı fındığı, qoz, çinar kimi qiymətli ağac növləri kəsilib (https://azerforum.com/az/xidmet-reisi-tenqidlerden-qacmiriq-ishine-vicdansiz-yanashanlar-uzaqlashdirilir-msahibe).

Uzun müddət işğal olunmuş ərazilərdə meşələrin kütləvi qırılması səhralaşmaya və torpaq eroziyasına səbəb olmuşdur. Təsadüfi deyil ki, son illərdə Ermənistanda mebel sənayesinin istehsalı və ixracında xeyli artım müşahidə olunur. Şübhəsiz ki, buna Azərbaycanın işğal olunmuş ərazilərində qiymətli minillik ağac növlərinin amansızcasına kəsilməsi ilə nail olunub. Nəzərinizə çatdırırıq ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 43 min hektar torpaq sahəsi (Bəsitçay Dövlət Təbiət Qoruğu - 107 hektar, Qaragöl Dövlət Təbiət Qoruğu - 240 hektar, Qubadlı Dövlət Təbiət Qoruğu - 20 min hektar, Dövlət Təbiət Qoruğu

- 20.000 hektar, Daşxəştə 40 hektar) Arazboyu Dövlət Təbiət Qoruğu - 2200 ha və Laçın Dövlət Təbiət Qoruğu - 20000 ha) "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 70-dən çox flora növü xüsusi mühafizə olunan təbiət ərazilərində qorunur, onların əksəriyyəti artıq məhv edilib. Bu ərazilərdə 460-dan çox yabanı ağac və kol bitkisi bitir. Onlardan 70-i dünyanın heç bir yerində təbii şəkildə bitməyən endemik bitkilərdir. İşğal zamanı yüzlərlə ağac və kol növü (Ayı Fındıq, Araz palıdı, Yalangöz, Şərq çinarı, Hirkan Şümşədi, Eldar şamı, Söyüdyarpaq armudu, Qafqaz Xədicəquli, Qarabağ dağ laləsi, Şmidt dağ laləsi və s.) məhv edilərək məhv edilib (http://anl.az/down/meqale/respublika/2021/may/745464.htm).

Təbiət abidəsi statusunda olan 152 ağac (şərq çinarı, palıd, azat, armud), 8 xüsusi qiymətli meşə sahəsi (Şərq çinarı, püstə, fındıq, ardıc, Azat, Araz palıdı, Çaytikanı, Pirkal), 6 geoloji-paleontoloji obyekt ("Azıx", "Tağlar", "Xan", "Qaxal" və "Nəhənglər sarayı" mağaraları, "Bazaltın sütunlu ayrılması") 120 ildən 2000 ilə qədər olan 145 sertifikatlı Şərq çinarları və digər təbii sərvətlər üz-üzə qalmışdır. Kəlbəcər rayonunda 968 hektar sahədə "Qırmızı kitab"a düşən ayı fındıq ağacları da kütləvi şəkildə kəsilib (https://botany.az/az/news/1974).

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 7 ekoloji əhəmiyyətə malik relikt göl (Kəlbəcər və Laçın rayonlarının otlaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə (Tərəqaçayda, Tərtər qoruğunun 000 qolu) və 1-ci göllər Ermənistan antropogen təsirdən ciddi şəkildə zərər çəkib.Azərbaycan ərazisindən axan çayların əksəriyyəti Ermənistan və Qarabağ ərazisindən qaynaqlanır.İşğal olunmuş ərazilərdən axan və yerləşən su mənbələrinin uzun müddət çirklənməsi qiymətli balıq növlərinin nəsli kəsilməsinə və balıq ehtiyatlarının tükənməsinə səbəb olub (http://www.anl.az/down/meqale/baki_xeber/2018/avqust/603696.htm).

## Tədqiqat Metodu

Tədqiqat işinin nəzəri metodoloji əsasını bu sahədə araşdırmalar aparmış müxtəlif məktəblərin nümayəndələrin nəzəri xarakterli əsərləri, müasir qərb iqtisadçılarının əsərləri, Azərbaycan Respublikası Konstitusiyası, qanunları, regionların sosial iqtisadi inkişafı ilə bağlı normativ hüquqi aktlar, eləcə də ölkə prezidentinin fərman və sərəncamlarını, həmçinin Azərbaycan və xarici ölkə alimlərinin regionlarda ekoloji inkişafın iqtisadiyyatı və təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı tədqiqatlarını əks etdirən nəzəri müddəalar təşkil edir. Məqalənin tədqiq edilməsi zamanı ümumiləşdirmə, statistik təhlil, müqayisə, analiz və bir sıra metodlardan istifadə edilmişdir.

Azərbaycan Statistik Məcmuəsi, regionlarda ekoloji inkişaf mövzusuna uyğun olaraq müxətlif ədəbiyyatlardan (rus, türk), statistik göstəricilərdən, internet saytlarindan və digər vəsaitlərdən istifadə edilmişdir.

## Təhlil

Vətən müharibəsinin başa çatdırılması və Qarabağın işğaldan azad edilməsindən sonra Azərbaycan kifayət qədər iqtisadi potensial topladı. Ölkədə təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı iqtisadi islahatların sayı artırılmaqdadır. İqtisadiyyatın və sosial məkanın bazar tələblərinə uyğun yenidən qurulması üçün mühüm addımlar atılmağa başlanılmışdır (https://president.az/az/articles/view/50798).

**İşğaldan azad olunmuş ərazilərdə təbii ehtiyyatların səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və islahatının aparılması**

Vətən müharibəsi başa çatdıqdan və Qarabağ işğaldan azad edildikdən sonra Azərbaycanda xeyli iqtisadi potensial toplanıb. Ölkədə təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı iqtisadi islahatların sayı artır. İqtisadiyyatın və sosial məkanın bazar tələblərinə uyğun yenidən qurulması istiqamətində mühüm addımlar atılıb.

Ərazilərin işğalı Ermənistana ciddi iqtisadi fayda gətirməyib. Baxmayaraq ki, bu ərazilər yeraltı və yerüstü təbii sərvətlərlə, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və digər geniş yayılmış faydalı qazıntılarla, eləcə də çoxlu sayda kurortlarla zəngindir. Ermənistan heç vaxt bu potensialdan tam istifadə edə bilməyib. Prezident İlham Əliyevin İranla Araz çayı üzərində Xudafərin və Qız qalası bəndlərinin və elektrik stansiyalarının tikintisi və istismarı ilə bağlı uzaqgörənliklə əldə etdiyi razılaşma bu gün özünü göstərir. Xudafərin su qovşağı Azərbaycana ildə 368 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verəcək (https://www.azerbaijan-news.az/view-202021/ilham-eliyev-qarabagi-azerbaycanin-en-inkisaf-etmis-mekanina-cevirecek).

"AzerGold" QSC və Azərbaycan Sənaye Korporasiyası bu resursların istehsalı və emalı üçün təcrübəyə, ixtisaslı kadrlara, ixrac və investisiya imkanlarına malikdir (https://azergold.az/diger-fealiyyetler).

Beləliklə, Azərbaycan yeni təbii ehtiyatları cəlb etməklə qərb regionunun inkişafını, mədənçıxarma sənayesinin, eləcə də metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı Azərbaycanda bir sıra sənaye sahələrinin, eləcə də hərbi sənayenin inkişafını sürətləndirəcək (Mahmudov,2012). Azərbaycan Ordusunun 5G texnologiyaları ilə təmin olunmasında hərbi sənayemiz öz sözünü deməlidir. Azad edilən ərazilərdə "tikinti bumu" gözlənilir. Ərazilərimizin işğaldan azad edilməsi nəticəsində illər ərzində qeyri-neft sektorunun inkişafı ilə bağlı proqnozlara yenidən baxılmalı olacaq. Çünki Ordumuzun bu qələbəsi həm də qeyri-neft sektorunun sürətlə artmasına təkan verəcək. Ərazilərin işğaldan tam azad olunması iqtisadi inkişafa böyük təsir göstərəcək. İlkin hesablamalar göstərir ki, növbəti illərdə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının əsas sahələrində ümumi məhsul istehsalı 2 milyard manatdan çox arta bilər (https://www.azerbaijan-news.az/view-202021/ilham-eliyev-qarabagi-azerbaycanin-en-inkisaf-etmis-mekanina-cevirecek).

Qloballaşan dünyamızda firmalar yalnızca ölkədaxili deyil, beynəlxalq səviyyəli firmalar ilə də, rəqabət etməli olurlar. Bu rəqabət mühitində bəzi firmalar rəqabət şərtlərinə tab gətirə bilməməsi səbəbindən sektordan ayrılmalı olur. Xüsusi ilə, kiçik və orta sahibkarlıq subyektləri üçün bu hal qaçınılmaz olur. Yerli və beynəlxalq firmalarla mübarizə apara bilmək üçün KOS subyektləri birləşməyə gedərək öz güclərini birləşdirməyə, bilik və təcrübələri paylaşaraq daha da, inkişaf etməyə nail olurlar. Firmaların birləşərək yaratdıqları klasterlər qloballaşan dünyamızda çox böyük önəmə malikdir. Azərbaycan kimi gənc, müstəqilliyini yeni qazanmış ölkə üçün klasterlərin yaradılması bütün sektorların inkişafına gətirib çıxaracaqdır. Ölkəmizdə heç bir sektor üzrə klasterin olmaması, klasterlərin yaradılması və inkişafı məsələlərinə xüsusi dövlət dəstəyinin olması bu mövzunun aktuallığını ortaya çıxarır.

Klaster nəzəriyyəsinin banisi hesab olunan Maykl Porter klasterləri bir-biri ilə bağlantılı olan firmaların eyni coğrafi ərazidə birləşərək müştərək fəaliyyət göstərməsi olaraq adlandırmışdır.

"Klaster" – müştərək fəaliyyət göstərən və eyni zamanda rəqabət aparan, coğrafi əlamətlərinə görə qarşılıqlı əlaqədə olan şirkətlərin, ixtisaslaşdırılmış xidmət sahəsinin, tədarükçülərinin, eləcə də, bir-birinə yaxın sahələrin və onların fəaliyyətləri ilə bağlı olan təşkilatların təmərküzləşməsi olaraq adlandırmışdır (Porter, M., 2003, 37 (6-7): 549-578).

Tədqiqatda, "Avropa Klasterlər Təşkilatı" tərəfindən yaradılmış lokallaşma əmsalından istifadə edilmişdir. Lokallaşma əmsalı bölgədə fəaliyyət göstərən firmaların sayı və əldə etdikləri gəlirlər üzərində riyazi hesablamalar aparılaraq hesablanır. Əldə edilmiş nəticələr- minimal hədd əmsalı ilə müqayisə edilərək perspektiv klaster sahələri haqqda fikirlərin formalaşmasına imkan verir.

Tədqiqatın məhdudiyyəti daha geniş praktiki informasiyanı tələb etməsi və bəzi statistik göstəriciləri əldə etməklə bağlı mövcud olan çətinliklərlə bağlıdır.

Bu tədqiqat işində, Azərbaycan iqtisadiyyatında xüsusi çəkiyə malik olan Gəncə-Daşkəsən iqtisadi rayonunda müəyyənləşdirilmiş iqtisadi göstəricilər əsasında lokallaşma əmsalı hesablanaraq klaster sahələri aşkarlanmağa çalışılmışdır. Tədqiqatın birinci mərhələsi klaster və onun iqtisadi mahiyyətinin əsaslandırılmasına, ikinci başlıq tədqiqat metodu olan "Lokallaşma Əmsalı" haqqında nəzəri biliklərə; üçüncü başlıq isə lokallaşma əmsalının tədbiq edilməsinə həsr olunmuşdur. Lokallaşma əmsalı tikinti, turizm, sənaye (mədənçıxarma sənayesi və emal sənayesi), kənd təsərrüfatı (bitkiçilik və heyvandarlıq) sektorlarında mövcud olan iş yerləri və əldə edilən gəlirlər əsasında hesablanmışdır.

## Klaster və Onun İqtisadi Mahiyyətinin Əsaslandırılması

Kökü İngilis dilindən olan "Klaster" sözü dilimizə yeni söz (neologizm) olaraq daxil olmuşdur. AMEA Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanmış "yeni sözlər və yeni mənalar lüğəti" adlı elmi nəşrində klaster eyniprofilli müəssisələrin kompleksi olaraq göstərilmişdir. İngilis dilində olan "cluster" kəliməsi isim olaraq "qrup, dəstə, bölük" , feil olaraq " komalaşmaq, bir araya gəlmək" kimi dilimizə tərcümə edilir.

Klaster anlayışı ilk olaraq Harvard universitetinin professoru Maykl Yucin Porter tərəfindən istifadə edilmişdir. 90-ci illərin əvvəlində Porter klaster anlayışının yaradılması və iqtisadiyyatda tədbiq edilməsinə böyük töhfə vermişdir. Bu anlayış institusional və sosial-iqtisadi nəzəriyyələrin bəzi elementləri vasitəsilə inkişaf etdirilmişdir. Porter regional inkişafın təmin edilməsi və rəqabətqabiliyyətliliyin artırılması üçün Almaz modelini təqdim etmişdir.

Porterin yaratmış olduğu klaster anlayışının əsasında regional inkişaf və rəqabətqabiliyyətlilik ideası durur. Bəzi bölgələrin sektordakı rəqabət üstünlüyü əldə etməsi onların beynəlxalq bazardakı rəqabətə davam gətirə biləcəyini göstərir.

Porterə görə klaster " eyni fəaliyyət sahəsində həm rəqabət, həm də əməkdaşlıq edən şirkətlərin, müəyyən bir sahədə ixtisaslaşmış xidmət göstərənlərin, istehsalçıların, həmin sektordakı firmaların və qurumların coğrafi sıxlaşmasıdır". (Porter, 1998a, s. 158)

Klaster anlayışının yaranması təxminən otuz illik tarixə malik olmasına baxmayaraq tam iqtisadi izahı ilə bağlı sabit, analitik bir tərifi mövcud deyildir. Hər bir iqtisadçının klasterin izahı ilə bağlı verdiyi tərifdə müxtəlif aspektlərə vurğu etməsi oxşar anlayışlar arasında semantik sürüşmənin yaranmasına şərait yaradır.

Beynəlxalq təşkilatlardan olan və Azərbaycanla əməkdaşlıq edən OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) klasteri " İstehsal zəncirində əlavə dəyər yaradan, bir-birlərinə güclü şəkildə bağlı olan firmaların, bilik yaradan agentliklərin və müştərilərin istehsal şəbəkəsi" olaraq adlandırmışdır. Bir digər beynəlxalq təşkilat olan və Azərbaycanın 1993-cü ildən üzvü olduğu UNİDO ( BMT-nin Sənaye İnkişafı Təşkilatı ) klasteri " bir-biri ilə əlaqəli və ya bir-birini tamamlayan məhsulların istehsalı və coğrafi və sektorlar üzrə satış müəssisələrinin birləşməsi" olaraq göstərilmişdir. Avropa Komissiyası klasterləri " ixtisaslaşmış təcrübə, resurs, xidmət, satınalma və yenilik yarada biləcək bilik və bacarıqlara sahib olan şirkətlər, iqtisadi subyekt və institutlar qrupu" olaraq adlandırmışdır. Sənaye baxımından klaster " ortaq fürsət və təhdidlərə sahib olan firmaların sektor və coğrafi baxımdan cəmləşməsi" kimi göstərilmişdir ( Kəskin, 2009, s.101 ).

Yuxarıdakı klasterlə bağlı təriflərə nəzər yetirdikdə bəzi təriflərdə bilik mübadiləsi məsələlərinə daha çox diqqət edilərkən, bəzi təriflərdə isə şirkət və sektor birliyi məsələlərinə daha çox yer verilir. Beynəlxalq təşkilatlar tərəfindən verilən bu təriflərə əlavə olaraq ədəbiyyat icmalına nəzər yetirsək məkan yaxınlığına əsaslanan və ya digər aspektləri daha ön plana çıxaran təriflərin olduğu görmək mümkündür.

Aşağıda adları sadalanan iqtisadçıların klasterlərə münasibətinin coğrafi yaxınlıq təməlli olduğu görülür:

- Swan və Prevəzer : Klasterlər- bir coğrafi ərazidə yerləşmiş eyni sektorda fəaliyyət göstərən firmalar qrupudur (Swan və Prevəzer, 1996).

- Breshan və digərləri : Klaster- firmaların məkan və sektor baxımından cəmlənməsidir (Breshan və digərləri, 2001 ).

- Oakey və digərləri: Klaster- firmaların yerli rəqabət üstünlüyü əldə edə bilmısi üçün eyni coğrafi məkanda cəmlənməsidir (Oakey vd 2001).

- Klik və Delangen: Klaster- bir-biri ilə əlaqəli fəaliyyətlərin müəyyən bir ərazidə cəmlənməsidir (Klik və Delangen, 2001)

Aşağıda adları sadalanan iqtisadçıların klasterlərə münasibəti isə başqa aspektlərə əsaslanır:

-Anderson və digərləri: Klasterlər- Birlikdə rəqabəti artırmaq üçün dərin iqtisadi münasibətlər və işbirliyi içərisində olan firmaların eyni coğrafi bölgədə cəmlənməsidir (Anderson və digərləri,2004).

-Fesər: Klasterlər- sadəcə iqtisadi münasibətə əsaslanan və bir-birinə dəstək olan sənaye quruluşları və firmalar deyil, bir-birlərinə rəqabət üstünlüyü yaradan firma və quruluşlardır (Fesər, 1998)

-Raeland və Den Hertoq: Klasterlər- bir-birlərinə əlavə dəyər yaradan istehsal zəncirində güclü əlaqələrə malik olan firma və istehsalçıların birliyidir (Raeland və Den Hertoq, 1999).

-Stainle və Şiele: Klasterlər- qarşılıqlı fəaliyyətləri ilə öz performansını artıran və sektoral cəmlənmə yaradan quruluşlardır (Stainle və Şiele, 2002).

-Perri: Klasterlər- firmaların biologiyadakı orqanizmalar kimi müxtəlif şəkildə qarçılıqlı əlaqədə olduqları mühitdir (Perri, 2005).

-Porter: Klasterlər- alıcı və tədarükçü vasitəsilə və ya ortaq texnologiya , ortaq istehsal və ortaq qurumlar ilə dərin münasibət və işbirliyi içərisində olan kompanentlərdən ibarətdir. (Porter, 1990).

Klaster anlayışı və yaranma səbəbləri ilə bağlı iqtisadi ədəbiyyatda daha çox təriflər verilmiş və müxtəlif nəzəriyyələr irəli sürülmüşdür. Lakin, klasterlə bağlı əsas açıqlama daha əvvəl də, qeyd etdiyimiz kimi Porterə aiddir. Porter klasterləri bu şəkildə adlandırmışdır : "Klasterlər- müəyyən bir sektorda coğrafi

yaxınlıq ilə bir-birinə bağlanmış şirkətlərin, firmaların, ixtisaslaşmış tədarükçülərin, xidmət sahəsinin və rəqabət edən, lakin işbirliyi içərisində olan ortaq quruluşların ( universitet, standart agentlikləri və kommersiya təşkilatları) eyni bir coğrafi ərazidə cəmlənməsidir. (Porter,1998b).

Porter, bir-birinə əlavə dəyər yaradan eyni istehsal zəncirinə daxil olan, bir məhsul və yaxud olan, bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqda olan quruluşların ( istehsalçı, tədarükçülər, müştərilər, universitet və digər elmi araşdırma mərkəzləri, qeyir-hökümət təşkilatları, konsaltinq şirkətləri, dövlət idrələri, yerli idarəetmə mərkəzləri, mediya, maliyyə quruuşları) ortaq bir coğrafi ərazidə cəmlənməsidir (Porter,1998a:78 ).

Porterin klasterlərlə bağlı vermiş olduğu tərifləri nəzərdən keçirsək, klasterləri eyni sektorda fəaliyyət göstərən və müəyyən coğrafi yaxınlığa malik olan, eyni zamanda da, bir-birilə qarşılıqlı əlaqə və işbirliyi içərisində olan iqtisadi quruluşlar olaraq təsəvvür etdiyini görərik. Porter tərifdə coğrafi yaxınlığı xüsusilə vurğulayır. Burada coğrafi yaxınlıq dedikdə yalnızca bir şəhər deyil, eləcə də, bir bölgə, bütünlüklə bir ölkə, hətta qonşu ölkə sənayeləri belə nəzərdə tutula bilər.

Klasterlərlə bağlı olduqca çox və fərqli açıqlamaların olması klasterlərlə bağlı qarışıqlığı yaradır. Klasterin tərifi ilə bağlı ədəbiyyat icmalında olan bəzi tərifləri qısa şəkildə aşağıdakı kimi göstərmək mümkündür:

Porter; “ Klaster, coğrafi olaraq bir-biriylə əlaqəli firma və quruluşların müəyyən bir ərazidə qrup yaratması , ortaqlar və tamamlayıcı şirkətlərin birliyidir.” (Porter, 1990).

Rosenfeld; “ Klaster, sinergiya yarada bilən firmalan birləşməsidir. Firmaların coğrafi yaxınlığı, firmalararası həmrəylikdən başqa heç bir əhəmiyyəti yoxdur”. (Rosenfeld, 2003:359).

Prevezer; “Klaster, bir sənaye sektoruna aid olan firmaların müəyyən bir bölgədə birləşməsidir. Klaster fərqli sektorların bir arada cəmlənməsi olaraq başa düşülməməlidir” (Prevezer, 1997:255).

Cames; “Klaster bir-biri ilə əlaqəli olan firmaların  ortaqlı yoluyla istehsal zənciri yaradaraq,eyni  bazar şərtləri altında bir araya gəlməsidir” (Cames, 2002:50).

Enright; “Klaster üzv olan ölkələrin sıx əlaqələr şəklində birləşməsidir”. (Enright, 2003:85).

Poter və Mirenda; “Klaster, istehsal zəncirində iştirak edən firmalar, müştərilər, elmi araştırma mərkəzləri, vasitəşi quruluşlardan biarət olan istehsal şəbəkəsidir. (Poter və Mirenda, 2009:25).

Roeland və Denhertaq; “Klaster, güclü şəkildə bir-birinə bağlı olan istehsalçı şəbəkəsidir” (Roeland və Denhertaq, 1999).

Yuxarıdakı tərifləri yekunlaşdıraraq klasterləri firmaların rəqabət gücünə artırıcı təsir edən iqtisadi inkişaf modeli kimi adlandıra bilərik. Klasteri eyni sektorda fəaliyyət göstərən  sahibkarlıq subyektləri , elmi araşdırma mərkəzləri ( universitet, elmi tədqiqat institutları), dəstəkləyici quruluşar (banklar, sığorta şirkətləri, konsaltinq xidməti göstərən şirkətlər), mediya, müştərilər, yerli özünü idarəetmə orqanlar, dövlət orqanlarının eyni bir coğrafi məkanda cəmlənməsi şəklində dəyərləndirmək mümkündür. Klasterə daxil olan firmalar həm bir-biri ilə sıx əlaqədə, həm də bir-birindən asılı olmayan şirkətlərin rəqabətqabiliyyətliliyinin artırılması məqsədi ilə yaratdıqları işbirliyidir.

**Lokallaşma Əmsalı**

Tədqiqatda Gəncə-Daşkəsən iqtisadi rayonunda klaster sahələrinin təyini məqsədilə “Lokallaşma əmsalı”ndan istifadə edilmişdir. Bu əmsalın tədbiq edilməsi üçün Azərbaycan Dövlət Statistika Komitəsinin müəyyənləşdirdiyi və paylaşdığı iqtisadi məlumatlar toplanılmışdır. 2021-ci il Respublika

üzrə bütün sektorlara dair iş yeri və əldə edilən gəlirlər və Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə iş yeri sayı və əldə edilən gəlirlər barədə olan iqtisadi göstəricilər stat.gov.az portalından əldə edilmişdir.

Klasterin mümkün ola biləcəyi sektorların müəyyənləşdirilməsi üçün "Üç ulduz analizi" , "Təmərküzləşmə əmsal", "Herfindal-Hirşman indeksi" və s. kimi metodlardan istifadə edilir. Bu tədqiqatda bir çox ölkələrin iqtisadi araşdırmalarında geniş yer verilən "Lokallaşma əmsalı"ndan istifadə edilmişdir. Lokallaşma əmsalı bir bölgədəki, məkandakı və ya sektordakı milli və ya eyni bölgədəki toplam dəyərlər əsasında müəyyənləşdirilir. Lokallaşma əmsalı aşağıdakı şəkildə hesablanır:

LQ(Location Quotient ) = $(e_i/e_t) / (E_i/ E_t)$

$E_i$ –ölkə iqtisadiyyatında müvafiq sektordakı iş yeri sayı və gəlirləri;

$E_t$– ölkədəki bütün sektorlardakı iş yerləri sayı və gəlirləri;

$e_i$ – Gəncə -Daşkəsən iqtisadi rayonundakı müvafiq sektordakı iş yerləri sayı və gəlirləri;

$e_n$ – Gəncə-Daşkəsən iqtisadi rayonunun bütün sektorlarındakı iş yerləri sayı və gəlirləri.

Lokallaşma əmsalı 1-ə bərabər olduqda (LQ=1), sektorun müvafiq regiondakı firma sıxlığı ölkə ortalamasına bərabərdir. Lokallaşma əmsalı 1-dən kiçik olduqda (LQ<1), sektorun bölgədaxilindəki xüsusi çəkisinin az olduğunu söyləmək mümkündür. Əmsalı 1-dən böyük olduqda isə (LQ>1), sektorun ölkəyə nəzərən həmin bölgədə daha intensiv fəaliyyət göstərdiyi və ölkə iqtisadiyyatında aparıcı rola malik olduğu haqqında fikir irəli sürmək mümkündür.

**Gəncə-Daşkəsən İqtisadi Rayonunda Klaster Sahələrinin Lokallaşma Əmsalı İlə Təyini**

Son dövrlərin Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyin yüksəldilməsi və regional iqtisadi yüksəlişin təmin olunması kimi iki əsas problemlə üz-üzədir. Beynəlxalq təcrübələr problemlərin həllində klasterlərin yaradılmasının önəmli rola malik olduğunu göstərir. Bu baxımdan da, hazırkı mərhələdə dövlət bu sahənin yaradılması və inkişafı üçün bir sıra qanun və layihələr hazırlamaqdadır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edilir ki, iqtisadiyyatın klasterlər əsasında inkişafı çərçivəsində neft, qaz emalı və neft-kimya zavodlarından ibarət kompleksin inşası təmin edilməli, ölkənin bölgələrində iqtisadiyyatın prioritet sahələri üzrə əraziistehsal klasterləri yaradılmalıdır. 2016-cı ilin dekabrında təsdiqlənən milli iqtisadiyyatın inkişafına dair Strateji Yol Xəritəsində klasterlərin yaradılmasının davamlı iqtisadi inkişafa müsbət təsirinə görə daha çox diqqət göstərilməsinin lazımlılığı öz əksini tapmış və bu proqramda klaster mexanizminin tətbiqi ilə bağlı yanaşmalar öz əksini tapmışdır.

Gəncə-Daşkəsən iqtisadi rayonu Azərbaycan iqtisadiyyatında xüsusi çəkiyə malik olan bölgədir. Bölgə yeraltı sərvətlərlə zəngin bölgədir. Bölgədən neft, qaz, kobalt, əhəng daşı, mərmər, qranit, mərmər, sement, gips, seolit, bentonit və s. bu kimi yeraltı sərvətlər çıxarılır. Daşkəsən geniş dəmir filizi yataqlarına, Xaşbulaq əhəngdaşı, Zəylik isə alunit, mis və qızıl yataqlarına malikdir.

Bölgə hidroelektrik potensialına malikdir. Gəncə və Yenikənd SES-ləri elektrik enerjisi sektorunda xüsusi əhəmiyyətə malikdir.

Ağır sənaye iqtisadiyyatı Gəncə-Daşkəsən iqtisadi rayonunun iqtisadiyyatında əhəmiyyətlidir. Bu bölgədə avtomabil, rabitə qurğularının, kənd təsərrüfatı avadanlıqlarının təmiri ilə bağlı ağır sənaye inkişaf etməkdədir. Konservlər, şərab, konyak, süd və süd məhsulları, ət və ət məhsulları istehsalı ilə əlaqədar olan yüngül sənaye də, inkişaf edən sektorlardandır.

Mərmər, kəroic-keramit fabrikləri, ev tikmə, dəmir-beton zavodları  tikinti sektorunu təmsil edir. Əlvan və qara metallurgiya xammalın ilk emalı müəssisələri Gəncə və Daşkəsən kimi şəhərlərdə yerləşir. Gəncə şəhərində kalium gübrələri və kükürd turşusu istehsal edən kimya fabrikləri mövcuddur. Eyni zamanda, Gəncə-Daşkəsən iqtisadi rayonunda kənd təsərrüfatı sektoru üzümçülük, bağçılıq, meyvəçilik, tərəvəzçilik və heyvandarlıq istiqamətində inkişaf edir.

Gəncə-Daşkəsən iqtisadi rayonu turizm sektorunun inkişafı baxımından əlverişli iqlim şəraitinə malikdir. Beynəlxalq səviyyədə tanınan, Azərbaycanın diqqət mərkəzində saxladığı Naftalan sanatoriyası məhz bu bölgədə yerləşir. Eyni zamanda Göygöl və Hacıkənd istirahət zonaları da, bu bölgədə yerləşir.

Tədqiqat Gəncə-Daşkəsən iqtisadi rayonunun davamlı və artan iqtisadi inkişafının təmini məqsədilə yaradılacaq klaster sahələrinin lokallaşma əmsalı ilə təyini ilə bağlı fikirlərin formalaşmasına yön verə bilər. Lokallaşma əmsalının tədbiq edilməsi üçün həmin bölgənin tikinti, sənaye və kənd təsərrüfatı sektorları üzrə olan iqtisadi göstəricilər toplanılmış və lokallaşma əmsalını hesablanması üçün istifadə edilən düstur tədbiq edilərək müəyyən nəticələr əldə edilmişdir.

**Tikinti sektoru üzrə lokallaşma əmsalının tədbiqi.**

Tikinti sektoru üzrə lokallaşma əmsalını tədbiq edilməsi üçün iqtisadi göstəricilər müəllif tərəfindən toplanılmış və aşağıdkı cədvəldə əks etdirilmişdir.

**Cədvəl 1. Tikinti sektoru üzrə fəaliyyət göstərən müəssisələrin sayı və əldə edilən gəlirlər.**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| İş yeri Sayı | 43 | 1901 |
| Əldə edilən gəlir (min manatla) | 243 330 500 | 9 778 800 000 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Cədvəldəki iqtisadi göstəricilər əsasında lokallaşma əmsalını aşağıdakı düsturla hesablanmalıdır:

LQ(Location Quotient ) = (ei/et) / (Ei/ Et) olduqda;

$LQ_{\text{iş yeri sayı}} = 1.7$

$LQ_{\text{əldə edilən gəlir}} = 1.1$ olar

Tikinti sektoru üzrə lokallaşma əmsalının hər iki iqtisadi göstərici üzrə 1-dən böyük olması sektorun bu bölgədə inkişafının lazımi həddə olduğunu və həmin bölgədə klasterlərin yaradılmasının mümkünlüyünü ortaya çıxarır.

Bütövlükdə, ölkə iqtisadiyyatındakı xüsusi çəkisinə nəzər yetirdikdə  bu bölgədə kifayət qədər  tikinti fəaliyyəti göstərən firmaların olması və həmin firmaların kifayət qədər gəlir əldə edə bilməsi kimi amillər klasterlərin yaradılmasında böyük əhəmiyyətə malikdir.

**Sənaye sektoru üzrə lokallaşma əmsalının tədbiqi.**

Ümumilikdə Respublika iqtisadiyyatımızda olduğu kimi Gəncə-Daşkəsən iqtisadi rayonunda da, sənaye sektoru əhəmiyyətli rola malikdir.Bu alt başlıqda sənaye sektoru üzrə klasterlərin yaradılmasının mümkünlüyü test edilmişdir. Sənaye sektoru üzrə lokallaşma əmsalının tədbiqi üçün lazım olan iqtisadi göstəricilər toplanaraq aşağıdakı cədvəldə əks etdirilmişdir.

**Cədvəl 2. Sənaye sektoru üzrə fəaliyyət göstərən müəssisələrin sayı və əldə edilən gəlirlər.**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| İş yeri Sayı | 193 | 3389 |
| Əldə edilən gəlir (min manatla) | 37 269 900 | 46 999 200 000 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Cədvəldəki iqtisadi göstəricilər əsasında lokallaşma əmsalı hesablanmış və aşağıdakı nəticələr əldə edilmişdir:

$LQ_{\text{iş yeri sayı}} = 1.6$

$LQ_{\text{əldə edilən gəlir}} = 1.5$

Sənaye sektorunu Gəncə-Daşkəsən iqtisadi rayonunda aparıcı sektor olduğunu əldə edilən nəticələrdə görmək mümkündür. Hər iki göstərici üzrə lokallaşma əmsalının 1-dən böyük olmağı bu sektorda klaster yaradılmasının mümkünlüyünü ortaya çıxarır.

Sənaye sektorunun tərkibində bir neçə istehsal sahələri mövcuddur. Bu sektorun daha yaxşı təhlili baxımından mədənçıxarma sənayesi, emal sənayesi üzrə lokallaşma əmsalı tətbiq edilmişdir.

**Mədənçıxarma sənayesi üzrə lokallaşma əmsalının tədbiqi**

Mədənçıxarma sənayesi, sənaye sektorunda xüsusi əhəmiyyətə malikdir. Bu sənaye sahəsinə neft və qaz hasilatı, tikinti qumu, çınqıl, qırma daş , xırda çay və çaxmaq daşı, inşaat üçün əhəngdaşı, duz, qızıl, gümüş, mis filizləri və konsentratları, dəmir filizi istehsalı daxildir.

Gəncə-Daşkəsən bölgəsi geniş yeraltı təbii sərvətlərə malik olan bölgələrdəndir. Bu bölgə üzrə mədənçıxarma sənayesi üzrə əldə edilən gəlirlər toplanmış və əldə edilən bu iqtisadi göstəricilər üzərində lokallaşma əmsalı hesablanmışdır. Gəncə-Daşkəsən bölgəsində mədənçıxarma sənayesi üzrə fəaliyyət göstərən firmaların sayı üzrə ətraflı məlumat olmadığı üçün lokallaşma əmsalı yalnız əldə edilən gəlirlər əsasında hesablanmışdır. Əldə edilən göstəricilər aşağıdakı cədvəldə əks etdirilmişdir.

**Cədvəl 3. Mədənçıxarma sənayesi üzrə fəaliyyət göstərən müəssisələrin sayı və əldə edilən gəlirlər.**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| Əldə edilən gəlir | 19 578 400 | 22 836 300 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Yuxarıdakı cədvəldə əks etdirilən iqtisadi göstəricilər əsasında lokallaşma əmsalı 4.5-ə bərabər olduğu müəyyənləşdirilmişdir. Əldə edilən bu nəticə mədənçıxarma sənayesində klasterlərin yaradılması üçün münbit şəraitin olduğunu ortaya çıxarmışdır.

**Emal sənayesi üzrə lokallaşma əmsalının tədbiqi**

Emal sənayesi inkişafının bütövlükdə ölkə iqtisadi inkişafına böyük təsiri vardır. Bu baxımdan da, bu sahənin inkişafı ilə bağlı ölkə başçısı tərəfindən bir sıra tədbirlər görülməsi haqqında göstərişlər verilmişdir.

İqtisadiyyatda davamlı inkişafın təmin edilməsi məsələsində klasterlərin nə dərəcədə əhəmiyyətli olduğunu xarici təcrübədən görmək mümkündür. Emal sənayesi sektorunda da, klasterlərin yaradılmasının böyük önəmə sahib olduğunu söyləmək olar. Gəncə-Daşkəsən bölgəsində klasterlərin yaradılmasının mümkünlüyünü test etmək məqsədilə iqtisadi göstəricilər toplanılmış və aşağıdakı cədvəldə əks etdirilmişdir

**Cədvəl 4. Emal sənayesi üzrə fəaliyyət göstərən müəssisələrin sayı və əldə edilən gəlirlər.**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| Əldə edilən gəlir | 13094 | 11 848 300 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Əldə edilən göstəricilər əsasında lokallaşma əmsalının 1-dən kiçik olduğu müəyyənləşdirilmişdir. Bu isə sektorun bölgədaxili çəkisinin az olduğunu göstərir. Gəncə-Daşkəsən bölgəsinin hazırki iqtisadi vəziyyəti bu sektorda klasterlərin yaradılmasının mümkün olmadığını göstərir.

**Kənd təsərrüfatı sektor üzrə lokallaşma əmsalının tədbiqi.**

Kənd təsərrüfatı sektoru Azərbaycan iqtisadiyyatında qeyri-neft sektor sahələrinin inkişafı baxımından böyük önəmə malikdir. Kənd təsərrüfatı sektoru bitki mənşəli və heyvan mənşəli istehsal olaraq iki əsas kateqoriyaya ayrıldığı üçün tədqiqatında iki kategoriya şəklində aparılması məqsədəuyğundur.

**Bitkiçilik sahəsi.**

**Cədvəl 5. Bitkiçilik məhsullarının növlər üzrə istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| Əldə edilən gəlir (min manatla) | 446 379 | 6 825 400 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Bitkiçilik məhsullarının istehsalından əldə edilən gəlirlər əsasında lokallaşma əmsalı 0.7-ə bərabər olduğu aşkarlanmışdır. Əmsalın 1-dən kiçik olması bu sektorda indiki dövr üçün klasterlərin yaradılmasının mümkün olmadığını söyləməyə imkan verir.

**Heyvandarlıq sahəsi**

**Cədvəl 6. Əsas heyvandarlıq məhsullarının istehsalı**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| Əldə edilən gəlir (min manatla) | 176 167 | 4 460 834 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Əsas heyvandarlıq məhsullarının istehsalı sahəsində klasterlərin yaradılmasının mümkünlüyünü aşkara çıxarmaq üçün lokallaşma əmsalı hesabalanmış və LQ<1 olduğu aşkarlanmışdır. Əldə edilən bu nəticə heyvandarlıq məhsullarının istehsalı sahəsində klasterlərin hazırkı şəraitdə yaradılmasının mümkün olmadığını göstərir.

**Turizm sektoru üzrə lokallaşma əmsalının tədbiqi**

Turizm sektoru üzrə lokallaşma əmsalı hesablanaraq Gəncə-Daşkəsən bölgəsində klasterlərin yaradılmasının mümkün olub-olmadığı aşkarlanmağa çalışılmışdır. Əmsalın tədbiqi üçün əldə edilən gəlirlər aşağıdakı cədvəldə əks etdirilmişdir.

**Cədvəl 6. Turizm sektoru üzrə fəaliyyət göstərən müəssisələrin sayı və əldə edilən gəlirlər.**

| | Gəncə-Daşkəsən iqtisadi rayonu | Azərbaycan Respublikası |
|---|---|---|
| İş yeri Sayı | 23 | 647 |
| Əldə edilən gəlir (min manatla) | 9100 | 450 338 700 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/ (01.05.2022)

Əldə edilən göstəricilər əsasında lokallaşma əmsalı aşağıdakı kimi hesablanmışdır:

$LQ_{\text{iş yeri sayı}} = 2.5$

$LQ_{\text{əldə edilən gəlir}} = 0.6$

İş yeri sayına görə nəticə 1-dən böyük olsa da, əldə edilən gəlirlər üzrə hesablanmış lokallaşma əmsalının 1-dən kiçik olması, turizm sektoru üzrə klasterlərin yaradıla bilməməsinin səbəbinin kifayət qədər gəlirin əldə edilə bilməməsi ilə bağlı olduğunu göstərir.

**Nəticə**

Dünya təcrübəsində beynəlxalq və yerli səviyyədə klasterlərin müəyyənləşdirilməsi üçün kəmiyyət və keyfiyyət araşdırma metdolarının istifadə edildiyi bir çox araşdırmalar aparılmışdır. Bu metodlar içərisində ən çox istifadə olunanı " Lokallaşma əmsalı" (LQ- Location Quotient ) və "Üç ulduz analizi"dir. Bu tədqiqatda lokallaşma əmsalından istifadə edilərək Gəncə-Daşkəsən bölgəsindəki klasterlərin yaradılması mümkün olunan qabaqcıl sektorlar müəyyənləşdirilmişdir. Lokallaşma əmsalı müəyyən sektorun bölgədəki üstünlüyünün, həmin sektorun ölkədəki üstünlüyünə olan nisbəti şəklində hesablanır.

Ümumilikdə, Gəncə-Daşkəsən bölgəsində heç bir klaster təşkilatı mövcud deyildir. Bu baxımdan da, bu bölgədə klasterlərin mövcud ola biləcəyi sektorlar müəyyənləşdirilmişdir. Bu araşdırmada, 2021-ci il

Gəncə-Daşkəsən bölgəsinin iqtisadi göstəricilərinin istifadə edilərək lokallaşma əmsalı hesablanmış və aşağıdakı nəticələr əldə edilmişdir:

- Tikinti sektorunun iş yeri sayı və əldə edilən gəlirlər baxımından Gəncə-Daşkəsən bölgəsində böyük üstünlüyə malik olduğunu görmək mümkündür. Lokallaşma əmsalının 1-dən böyük olduğu bu sektorda klasterlərin yaradılması üçün uyğun şərtlərin olduğunu söyləmək mümkündür;
- Sənaye sektoru əsasında müəyyənləşdirilmiş lokallaşma əmsalının 1-dən böyük olması bu sektorun Gəncə-Daşkəsən bölgəsində önə çıxan sektor olduğunu söyləməyə imkan verir. Sektorun daha ətraflı tədqiqatı üçün sənayenin alt sektoru olan mədənçıxarma və emal sənayeləri də, nəzərdən keçirilmişdir.

  Mədənçıxarma sənayesi üzrə əldə edilən lokallaşma əmsalı Gəncə-Daşkəsən bölgəsində bu sahənin intensiv fəaliyyət göstərdiyini və ölkə iqtisadiyyatında xüsusi paya sahib olduğunu göstərir. Dövlətin bu sahəyə dəstəyi, qayğısı və mədənçıxarma fəaliyyəti göstərən firmaların klaster məlumatlılığının olması kimi məsələlər diqqətə alınarsa bu sahə üzrə klasterlərin yaradılması üçün münbit zəmin mövcuddur.

  Emal sənayesi üzrə hesablanmış lokallaşma əmsalı isə 1-dən kiçikdir. Əldə edilən bu əmsal emal sənayesinin bölgədaxili çəkisinin az olduğunu və həmin sahədə klasterlərin yaradılmasının indiki və yaxın gələcəkdə mümkün olmadığını ortaya çıxarır;
- Xüsusi qayğı göstərilən, inkişafı üçün bir çox qanun layihələrinin hazırlandığı sektor olan kənd təsərrüfatı sektorunda klasterlərin yaradılmasının mümkünlüyü aşkarlanmağa çalışılmışdır. Kənd təsərrüfatı sektoru üzrə lokallaşma əmsalı bitkiçilik və heyvandarlıq sahələri üzrə ayrı-ayrılıqda hesablanmışdır.

  Bitkiçilik məhsullarının növlər üzrə istehsalı, bütün təsərrüfat kateqoriyaları üzrə əldə edilən gəlirlər əsasında hesablanmış lokallaşma əmsalının hədd əmsalından kiçik olması, bu sahə üzrə klasterlərin yaradılması üzrə əlverişli şəraitin olmadığını göstərir.

  Əsas heyvandarlıq məhsullarının istehsalından əldə edilən gəlirlər üzərində də, lokallaşma əmsalı hesablanmış və həmin sahədə yaxın gələcək üçün klasterlərin yaradılmasının mümkün olmadığını söyləmək mümkündür;
- Son olaraq isə, turizm sektoru da, araşdırma obyektinə çevrilmişdir. 2021-ci ilə dair turizm sektoru üzrə iş yeri sayı və əldə edilən göstəricilər əsasında lokallaşma əmsalı hesablanmış və bu əmsalın 1-dən kiçik olması həmin sahədə klasterlərin yaradılmasının mümkün olmadığı ortaya çıxarılmışdır.

Bölgələrdəki davamlı iqtisadi inkişafın təmin edilməsi üçün hər bir bögənin təbii quruluşuna, yeraltı sərvətlərinə, əhalisinin savadlılıq səviyyəsinə, iqtisadi təcrübələrinə və adət-ənənələrinə uyğun şəkildə inkişaf strategiyasının tərtib edilməsi vacibdir. Ölkənin inkişafına yalnız bir ya bir neçə sahənin bütün bölgələr üzrə inkişafının təmin edilməsi ilə deyil, hər bölgəyə xas sahələrin inkişafının təmin edilməsi ilə nail olmaq mümkündür. Aparılan bu tədqiqat Gəncə-Daşkəsən bölgəsində xüsusi çəkiyə malik olan sahələrin müəyyənləşdirilməsi və bu sahələrin daha da, inkişafında xüsusi əhəmiyyətə malik olacaq potensial klaster sahələrinin müıyyənləşdirilməsinə xidmət göstərir. Dövlətin Gəncə-Daşkəsən bölgəsində xüsusilə tikinti sektoru və sənaye sektoruna qayğısı nəticəsində klasterlərin yaradılması və bölgənin daha da, inkişafına nail olmaq olar.

**Ədəbiyyatlar**


1. Porter, M.(2003).The Economic Performance of Regions, Regional Studies, 37 (6-7): 549-578.
2. EPI. (2008). Evaluation and Policy Paper on the Current State of Research-Commerce Interfaces and Clusters in Serbia. Belgrade, Serbia: EPI.
3. European Commission. (2008). The Concept of Clustrs and Cluster Policies and Their Role for Competitiveness iand Innovation: Main Statistical Results and Lessons Learned.
4. Rosenfeld, S. A. (2002). Creating Smart Systems: A Guide To Cluster Strategies In Less Favoured Regions. Brüksel: The Directorate General for Regional Policy and Cohesion of the European Commission.
5. Türkiye'de Kümelenme Politikasının Geliştirilmesi Projesi. (2009). Küme Haritalama, Analiz ve Kümelenme Yol Haritaları - Sentez Raporu.
6. Vezir Danışmanlık. (2007). Ostim Organize Sanayi Bölgesi'nde Faaliyet Gösteren Sektörlerin
7. Uluslararası Rekabetçilik Düzeylerinin Analizi. Ankara: Ostim.
8. Seki, İ. ve Arslan, M. (2018). TRC2 Diyarbakır–Şanlıurfa Bölgesi Kümelenme Potansiyeli Analizi. AlFarabi Uluslararası Sosyal Bilimler Dergisi, 2(1), 32-53.
9. Kargı, N.(2009).Bölgesel Kalkınma Yaklaşımlardaki ve AB Perspektifi Altında Türkiye'nin Bölgesel Kalınma Analizi. Uluslararası İktisadi Ve İdari İncelemeler Dergisi, Cilt: 1,Sayı: 3, 1307-9832.
10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/

# DAMAGE AS A RESULT OF ILLEGAL ISE OF NATURAL RESOURCES IN THE RELEASED REGİONS AND METHODOLOGY OF ITS CALCULATİON

**Assoc. Prof. Mahmudova Ilhama Mahammadnabi**

**Azerbaijan State University of Economics**

**a_murad97@mail.ru**

**Agalarova Nargiz Akif**

**Azerbaijan State University of Economics**

**a.nergiz@mail.ru**

**Summary**

The main purpose of the articleto create an accurate methodological basis for calculating the material damage to the country as a result of illegal use of natural resources in the liberated territories. The article studies in detail the natural resource potential of the liberated territories, identifies the level of environmental disasters caused by the brutal exploitation of natural resources, and forms methods for calculating the damage to the country as a result of illegal use of natural resources in the liberated territories of Azerbaijan. According to the study, the damage caused by the illegal use of natural resources in the country as a result of the occupation should be studied in depth in a comprehensive study. From this point of view, the development or attempt to develop appropriate damage assessment methods can be considered an innovation in itself.There is always a need for methods to assess the damage caused by conflicts, wars, and natural disasters. Due to the lack of uniform calculation methods at the international level, work has been done in this area, especially in recent years, and new methods are being developed. Various methodological approaches are used in the literature on the assessment of economic damage caused by natural disasters and military operations.

**Keywords:** natural resources, region, war, economy, loss

## Analysis of natural resource assessment methods

The national wealth includes:

1. Market methods.

2. non-market direct methods.

3. non-market indirect methods.

4. Expert evaluation.

Recently, approaches have been intensively developed to take into account the indirect cost of using natural resources, ie to determine the impact of biodiversity conservation, “indirect use costs”, including the impact of deforestation and vegetation protection. Let's take a closer look at the main approaches to the economic assessment of natural resources. Market methods for economic assessment of natural resources and environmental conditions are based on market data, ie sales prices, tariffs and fees, etc. based on the use of. The main methods related to market methods are:

1. Rental approach

2. Valuation through substitute products

3. Cost approach

4. Effective approach

The essence of the lease approach to the economic valuation of natural resources is that the value of the valuation is formed by the number of differential rents brought by this resource. In turn, the differential rent is more favorable natural features of the assessed resource, ie the best quality, ease of placement, etc. reflects the economic efficiency of the national economy. The methodology of formation of national economic effect from the use of natural resources, as well as the theoretical and methodological approach to the rental price of these resources were laid in the scientific works of well-known local economists L.V.Kantorovich, V.S.Nemchinov, N.P.Fedorenko, T.S.Khachaturov, K.G.Hoffman and others. In general, the cost of a natural resource depends on its exploitation, for example, is estimated by determining the amount of income (or rent) earned during the year. This indicator is calculated by the formula:

$Vt = NVt * Qt$

where $W_t$ is the income from resource exploitation during year t; $Q_t$ - volume of resource production for year t; $NV_t$ is the net value of resource units in year t. $NV_t$ is calculated by the following formula:

$NVt = Pt - Ct$

Here Pt, t is the selling price of resources in the period; Ct is the value of the resource unit output in period t.

The cost of rent with the cost of closing environmental resources is determined as follows:

$R = (Zn - Zi) * Qi$or $R = (P - Z\ i) * Qi$

Where R is the differential resource lease;

*Zn* -the cost of extracting the resource from the source with the lowest resource quality (closing costs);

*Zt* -individual actual costs of resource extraction;

*Qi* -actual volume of resource extraction;

*P*- is the price of purchased products.

Market valuation of non-renewable resources is based on determining the value of existing reserves, taking into account the depletion of natural resources. Estimates of available mineral resources are as follows:

$Vt = NVt * Qt$

Here, Wt is the income from resource exploitation during year t;

*Qt* - *t*volume of resource production for the year;

*NVt, t*is the net value of resource units per year.

$PV = \frac{Vt}{s}$

Here, PV is the value of resource resources;

*Vt* - *t*net income from resource exploitation during the year;

*s*- discount rate.

$PV = \frac{Vt}{(1+s)^{2}}$

Here PV is the value of resource resources;

*T*- estimated life of the resource;

*t*- is the accounting year in which the variable components of price P and cost C are valid.

*User cost method.*The method is used to determine the value of an indicator of the depletion of non-renewable natural resources obtained from an exploited field in the structure of the natural capital of any area. The method is based on the assumption that the current rent level will remain unchanged until the resource is completely depleted. The value of the indicator is determined by the following formulas:

$$\mathbf{U} = \frac{R}{(1+s)^{\ t}}$$

**(1 + s F**(9)

Here U is the value of the total depletion of non-renewable resources during the year;

*R*- economic rent for the resource;

*s*- discount rate;

*t*- is the accounting year in which the variable components of price P and cost C are valid.

*R = G - (0 + r * K)*

Here R is the economic rent for the resource;

*G*- annual income from resource use;

*O*- current costs of resource extraction;

*r*- expected rate of return on resource exploitation;

*K*- total attracted capital;

The way to calculate the damage inflicted on the forest fund of the regions occupied by the enemy, we must first pay attention to the forest fund of these regions. I would like to note that the forest fund of these regions is more than 262,000 hectares.

The market value of forest areas is studied by the following formula:

$$\boldsymbol{V_f} = {}^{\boldsymbol{R_f}}/_{\boldsymbol{e}} \text{(1.1)}$$

In this formula, e - discount rate, Vf - market value of forest areas,

Rf - indicates the rental value of forest areas;

$$\boldsymbol{R_f} = (\boldsymbol{P} - \boldsymbol{C}) \times \boldsymbol{Q} \text{(1,2)}$$

In this formula, C - the rate of return on invested capital, P - the selling price of forest trees, Q - the total volume of firewood.

GThe valuation formulas I have developed should be used to assess arable lands (J.Kerimov, A.Orujov, H.Israfilov., 2007):

$$\boldsymbol{V} = {}^{\boldsymbol{R}}/_{\boldsymbol{e}} \text{(1,3)}$$

In the formula, R is the rental value of the land, net income calculated from the cultivation of grain, e is the discount rate or rate of return on capital,
V is the value of arable land.

**Rf = (PC) x Q**(1.4)
Q- productivity of grain field, P- selling price of grain, C- cost of grain and return on invested capital.

Using the above formulas, the market value of arable land was found to be “3846” manat / hectare. If we multiply the price we get by the lands useful for the occupied crops - we will get 704748732 AZN / year. If we multiply the number we find by the period of occupation, we will find the damage to those lands during the invasion.

In order to reduce losses on arable lands, the first pre-market value (average annual rental price - 300 manat / ha is found using the market value of perennial arable lands) must be determined.

As a result, the amount of land reclamation during the occupation is shown in the following calculation.

Other damaged natural resources are water sources. It is difficult to calculate the economic damage to water resources. When calculating the damage to water sources, rivers, lakes and reservoirs flowing from the occupied territories should take into account the volume of groundwater, the volume of products from these lands to be supplied with water, as well as the hydropower potential of rivers, as well as aquatic life. need to calculate future revenues.

An example of this is the Sarsang Reservoir. A two-pronged approach can be used to calculate the damage caused by our inability to use the Sarsang Reservoir during the occupation: energy production and irrigation.

Approach in terms of energy production - In the years before the occupation, Sarsang HPP produced 125 million kWh per year. Until 2016, in accordance with the decision of the Tariff Council of the Republic of Azerbaijan, the retail price of 1 kWh of electricity was 0.06 manat, and after 2016, this price was 0.07 manat. Damage in this respect;

125 mln kvt.hour/il x 0.06 man = 7.5 mln manat/il

will form.

Damage during the occupation (until 2016) will be: 7.5 million manat / year x 22 years = 165 million manat.Considering that the price of 1 kWh of electricity is 0.07 manat, the damage is:

125 mln kvt.hour/il x 0.07 man = 8.75 mln manat/il

8.75 million manat / year x 3 years = 26.25 million manat.

As a result, the total amount of damage in terms of energy production in 25 years:

165 million manat + 26.25 million manat = 191.25 million manat.

An approach in terms of irrigating these lands - the Sarsang Reservoir is designed to irrigate 120,000 hectares of arable land. Therefore, the damage:

120 thousand hectares of sown area x 220 kg / ha

product / year x 0.25 manat.kg = 6.6 million manat / year

6,6 mln manat/il x 25 il = 165mln manat

they are.

The total damage for 25 years because we could not use the Sarsang reservoir:

165 million manat + 191.25 million manat = 356.25 million manat

it happened. Next par.

In general, according to the profitability approach, damage to water resources can be indirectly attributed. Therefore, we must use the following formula (1.6):

**Zd = ΔGx / (Rf-İ)**(1.5)

Water from the rivers of the occupied territories is used to irrigate 350 million m3 / year. According to the decision of the Tariff Council of the Republic of Azerbaijan dated 2007, the price was set at 0.5 manat per thousand m3 of water used for irrigation. By this calculation

ΔGx- net income lost as a result of natural resources - 350 000000 m3 / year x 0.5 manat = 175 000000 manat / year, Rf - risk-free interest rate - 6%, I-long-term average inflation - 3.06%. amount of damage:

Zd= ΔGx/(Rf-İ)=175 mln manat/il /(6%-3.06%)= 59.5 mln manat/il

59,5 mln manat/il x 25 il = 1487.5 mln manat

During the occupation and occupation of the territories of the Republic of Azerbaijan, Armenia caused AZN 8,2006.8 million in damage to Azerbaijan's economy in terms of minerals, AZN 651.9 million in terms of forest resources, AZN 19,763.82 million in terms of land resources and AZN 1,843.75 million in terms of water resources.

**Demand for compensation for illegal use of natural resources as a result of occupation: world experience**

In different states, the specific rights of indigenous peoples to certain lands or territories may be governed by different legal regimes. In addition, international instruments on the rights of indigenous peoples use different languages to refer to lands or territories that are related to indigenous peoples and have different rights and protected status in relation to them.

Armed conflict can make the affected areas more vulnerable to environmental damage or create new types of environmental damage in those areas, thus affecting the survival and well-being of the peoples associated with them. In the event of an armed conflict, states must take appropriate measures to maintain the connection of indigenous peoples to their ancestral lands. In particular, appropriate protective measures may be taken before or during an armed conflict.

American Declaration on the Rights of Indigenous Peoples, para. 3 and 4, item. XXX states: “3. Indigenous peoples have the right to defense and security in situations or periods of internal or international armed conflict in accordance with the rules of international humanitarian law. 4. In accordance with international treaties to which they are parties, in particular international humanitarian law and international human rights law, including the Geneva Convention for the Protection of Civilian Persons in Time of War and Protocol II to its defense, States Parties to Non-International Armed Conflict, take adequate measures to protect the human rights, institutions, lands, territories and resources of indigenous peoples and their communities ”

The terminology used to refer to the misappropriation of property, including natural resources, in situations of armed conflict is inconsistent. The International Court of Justice's decision on armed action refers to "looting, robbery and exploitation", the Charter of the International Criminal Tribunal for the Former Yugoslavia refers to "looting", and the African Charter uses the term "seizure of property". However, research shows that the terms "looting", "robbery", "seizure" and "robbery" have a common legal meaning and are used interchangeably by international courts and tribunals. Thus, in the Nuremberg Trials, the terms "looting" and "robbery" were used as synonyms. Although the term "seizure of property" was preferred in jurisprudence in the post-World War II period, Subsequently, Law No. 10 of the Supervisory Board confirmed that it was synonymous with the term “looting”. The jurisprudence of modern international criminal courts and tribunals also confirms that all three terms - "looting",

"robbery" and "robbery" - refer to the misappropriation of public or private property during an armed conflict.(Alex Tamba Brima et al., 2007: 751)

The terms "looting" / "robbery" are used in the Hague Rules and the Fourth Geneva Convention, Additional Protocol II and the Roman Statute. The term "robbery" is used in the Statute of the Nuremberg Tribunal. The looting was identified in the ICRC's comments on the Geneva Conventions and Additional Protocol II, as well as in the jurisdiction of international criminal tribunals. The use of the term "looting" in the current draft UN Principle 18 was considered expedient.

International law states that any military occupation is temporary and does not provide for the occupying country to gain sovereignty over the occupied territory, respectively, the legal status of this territory does not change due to the fact of occupation.

The occupying state has no freedom of movement to change the legal, social and economic structure of the territory, as any form of annexation is prohibited. The annexation resulting from military aggression cannot be recognized.

The aggressor must not use his power to secure his own interests or the interests of his people. Exploitation of natural resources or other resources of local residents, the territory under its control for their own interests is not allowed.

These issues are reflected in the 17 UN Principles for Sustainable Development.

In particular, Principle 6 deals with the need for efficient use of water resources and access to water supply, sewerage and hygiene, Principle 13 deals with the fight against climate change, Principle 15 deals with the need for protection and restoration, land ecosystems, sustainable forest management, combating desertification and stopping land degradation. describes.

In world practice, it would be expedient to look at the facts of Israel's policy of aggression.

Israel has implemented military decisions and discriminatory laws that affect Palestine's natural resources and economic development. By seizing the wealth of its state, Israel established full control over Palestinian trade and ensured that its economy was almost completely subordinated to Israel. Israel has also withdrawn 14.5 percent of the Palestinian World Trade Organization's (WTO) benefits for low-income countries on transport, transit and transportation fees.

Although the United Nations has adopted resolutions recognizing Israel as an occupying power in the Palestinian territories, it has stated that the state does not believe in these resolutions, as if they are above the law. He said the international boycott of Israeli settlements and companies was a procedure in accordance with those resolutions and that the international community should end its relations with Israeli settlements built in the occupied Palestinian territories.

Speaking on behalf of the Organization of Islamic Cooperation (OIC), the Qatari representative said that recent reports showed a systematic and growing number of violations of human rights and international law due to Israel's illegal, repressive and destructive policies. He said that despite calls from the international community to stop these activities, Israel continues to settle in the occupied Palestinian territories, including East Jerusalem. Israel must be forced to respect international law, and the Palestinian people cannot fail to fulfill their obligation to protect civilians from atrocities.

Speaking on behalf of the League of Arab States, the representative of Yemen said that Israel's occupation of Palestinian territory and the Syrian Golan has limited economic and social development and prevented the Palestinians from freely and directly using their natural resources. The Israelis have imposed permanent military blockades in the Gaza Strip, which has worsened living conditions there.

Drawing attention between the poverty of Palestinians and Israel's aggression, he said that Israel's daily activities are the main reason why many Palestinians live below the poverty line. As for the occupied Syrian Golan, the Syrian envoy said that Israel "clearly violated" Security Council Resolution 497 (1981) and continues to deprive Syrians of their lands. Israeli and foreign companies water,

Mohamed Ali Alhakim, Deputy Secretary General and Executive Secretary of the West Asian Economic and Social Commission (ESCWA), presented a note from the Secretary General on the economic and social impact of the Israeli occupation on the living conditions of the Palestinian people. Occupied Palestinian territory, including East Jerusalem, and the Arab population in the occupied Golan Heights (document IS / 72/90-E / 2017/71) are suffering. He said there were serious concerns about the use of force by Israeli security forces. Between April 1, 2016 and March 31, 2017, 63 Palestinians, including 19 children, were killed by the Israeli army and security forces in the West Bank, including East Jerusalem and the Gaza Strip. According to the document, at least 37 of the dead Palestinians are suspected of carrying out or committing attacks on Israelis.

Palestinians continue to suffer from Israeli violence and persecution, and there have been 39 incidents of civilian violence in the West Bank, including East Jerusalem, resulting in the loss of Palestinians. In addition, the Israeli government has continued to delay the return of the bodies of Palestinians who have carried out or are alleged to have carried out the attacks. According to the report, this practice contradicts the Geneva Convention for the Protection of Civilian Persons in Time of War. According to reports of detention and ill-treatment, 6,500 Palestinians are being held in Israeli jails, while another 536 are in administrative detention. According to the report, more than 1,000 complaints of torture or ill-treatment have not been prosecuted since 2001. Israel has destroyed 726 Palestinian structures in the West Bank, including East Jerusalem. In addition, the population of the West Bank, including East Jerusalem, has more than doubled since the signing of the Oslo Accords to more than 594,000.

5. F. Ismailzade and B. Babayev, The Economic Importance of the South Caucasus Zangazur Corridor, Compass Policy Brief, the University of Kent and University of Cambridge, 25 May (2021). Available at: https://www.researchgate.net/publication/351905333_COMPASS_Policy_Brief_THE_ECONOMIC_IMPORTANCE_OF_THE_SOUTH_CAUCASUS%27_ZANGAZUR_CORRIDOR
6. MENAFN, Paving of highways to liberated Azerbaijani Sugovushan, Talysh villages continue, 2020, Available at: https://menafn.com/1101258796/Paving-of-highways-to-liberated-Azerbaijani-SugovushanTalysh-villages-continues
7. Orkhan Baghirov, Karabakh: An Emerging Regional Transport Hub, Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 87, (2020). Available at: https://jamestown.org/program/karabakh-an-emerging-regional-transport-hub/
8. Paul Goble, A 'Railway War' Is About to Break out in the South Caucasus, Publication: Eurasia Daily Monitor Volume: 17 Issue: 172, (2020). Available at https://jamestown.org/program/a-railway-war-is-about-to-break-out-in-the-south-caucasus/
9. Paul Goble, Growing Azerbaijani–Central Asian Ties Likely to Trigger Conflicts With Russia and Iran, Publication: Eurasia Daily Monitor Volume: 18 Issue: 28, (2020). Available at https://jamestown.org/program/growing-azerbaijani-central-asian-ties-likely-to-trigger-conflicts-with-russia-and-iran/
10. Air center. Zangazur corridor will stimulate regional cooperation, (2021). Available at: https://aircenter.az/en/post/zangazur-corridor-will-stimulate-regional-cooperation-652
11. APA, Construction of stations starts on Barda-Aghdam railway, (2022). Available at: https://apa.az/en/social/construction-of-stations-starts-on-barda-aghdam-railway-video-367367
12. BBC, Armenia, Azerbaijan, and Russia sign Nagorno-Karabakh peace deal, (2020) Available at: https://www.bbc.com/news/world-europe-54882564

13. Caucasus Watch, Azerbaijan reveals the current state of ongoing road infrastructure projects in Karabakh, (2020). Available at: https://caucasuswatch.de/news/4502.html
14. Stratfor. The Caucasus' Zangezur Corridor. (2012), Available at: https://worldview.stratfor.com/article/caucasus-zangezur-corridor
15. Vasif Huseynov, Zangazur Corridor is the Cornerstone of the Post-War Regional Cooperation Projects in the South Caucasus, Valdai Discussion Group, (2022). Available at: https://valdaiclub.com/a/highlights/zangazur-corridor-is-the-cornerstone-of-the-post/
16. Пашинян Считает Открытие Коммуникаций Региона Полезным для Армении и Азербайджана (Pashinyan Schitayet Otkrytiye Kommunikatsiy Regiona Poleznym dlya Armenii I Azerbaydzhana), (2020). Armen Press, Available at: https://armenpress.am/rus/news/1046669.html

# KORONAVİRUS PANDEMİYASI ŞƏRAİTİNDƏ MALİYYƏ SEKTORUNUN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ VƏ YENİ ÇAĞIRIŞLAR

**Məhəmməd Yusifov**

**Azərbaycan Dövlət İqtisad Univertsiteti**

**mahammadyusufov@gmail.com**

## Xülasə

Koronavirus böhranı, digər iqtisadi böhranlar kimi, gözlənilməz və heç bir maliyyə və ya makroiqtisadi göstərici ilə proqnozlaşdırıla bilinməyən böhrandır. Böhranın başlanğıcını təxmin etmək mümkün olmadığı kimi, prosesin davam etdiyi müddətdə onun ölkələrə və qlobal miqyasda təsirini proqnozlaşdırmaq mümkün deyil. Bununla belə, maliyyə sektorunda böhranın bəzi təsirlərini və böhrandan sonrakı prosesin perspektivini mövcud vəziyyəti dəyərləndirməklə, tam olmasa da, böyük ölçüdə proqnozlaşdırma etməsi tədqiqatın aktuallığının göstəricisidir. Məqalənin əsas məqsədini koronavirus pandemiyası şəraitində maliyyə sektorunun fəaliyyət xüsusiyyətlərinin öyrənilməsi, bu sahə üzrə yeni çağırışların araşdırılması və yeni şəraitdə maliyyə sektorunun fəaliyyətinin təkmilləşdirilməsi üzrə müvafiq təklif, tövsiyyələrin hazırlanması təşkil edir. Aparılan tədqiqat işinin obyektini Azərbaycanın maliyyə sektoru təşkil edir. Tədqiqatın predmetini isə pandemiya şəraitində maliyyə sektorunun fəaliyyəti zamanı yaranan iqtisadi münasibətlər təşkil edir. Məqalənin son nəticələri Azərbaycan Respublikasının maliyyə sektoruyla bağlı siyasətlərin işlənib hazırlanmasında istifadə edilə bilər. Eyni zamanda da, Azərbaycanda maliyyə sektorunda koronavirus pandemiyası dövründə əldə olunan nəticələr müvafiq icraedici orqanlara təqdim edilə və bu sahədə öz tədqiqini tapa bilər.

**Açar sözlər:** bank sektoru, maliyyə, əmanət, pandemiya, nəzarət.

## Summary

Like other economic crises, the coronavirus crisis is unpredictable and unpredictable with no financial or macroeconomic indicators. Just as it is impossible to predict the onset of the crisis, it is impossible to predict its impact on countries. However, an assessment of some of the effects of the crisis in the financial sector and the prospects for the post-crisis process, albeit incomplete, indicates the relevance of the study. The article's primary purpose is to study the characteristics of the financial sector in the context of the coronavirus pandemic, explore new challenges in this area, and recommendations to improve the financial sector's performance in the new environment. The object of the research is the financial sector of Azerbaijan. The subject of the study is the economic relations that arise during the financial sector's activities in a pandemic. The final results of the article can be used in the development of policies related to the financial sector of Azerbaijan. The results obtained during the coronavirus pandemic in the financial sector in Azerbaijan can be submitted to the relevant executive bodies and find their research in this area.

**Keywords:** banking sector, finance, savings, pandemic, control.

## Giriş

Koronavirus pandemiyası böhranının təsirlərini anlamaq üçün pandemiyadan əvvəlki iqtisadi proqnozu analiz etmək son dərəcə vacibdir. Xüsusilə iqtisadi artım, ixrac və məşğulluqla bağlı məlumatlar böhran dövründə və böhrandan sonrakı dövrdə nələrin baş verəcəyini proqnozlaşdırmaq üçün iqtisadi struktura kömək edir. Qlobal iqtisadiyyat baxımından məlumatlar koronavirus pandemiya prosesi ilə yenidən nəzərdən keçirilərkən, edilən xərclər, epidemiya üçün ayrılan büdcə, Azərbaycan iqtisadiyyatının perspektivləri nəzərə alınmaqla maliyyə sektorundakı dalğalanmalar, qlobal böhranın təsirlərinin Azərbaycan üçün hansı istiqamətdə və dərinlikdə olacağı suallarını gündəmə gətirir.

Azərbaycan üçün pandemiyanın təsirini və maliyyə sektorunda bu təsiri dəqiq proqnozlaşdırmaq hazırkı vəziyyət üçün çətindir. İqtisadi fəaliyyətin tam dayanmaması ölkə iqtisadiyyatı üçün üstünlük olsa da, ümumi daxili məhsulun qismən ləngiməsi nöqteyi-nəzərindən baxdıqda müvafiq dövr üçün müəyyən azalmanın qaçınılmaz olduğunu məlumdur. Xüsusilə istehsal prosesinin davamlılığını təmin etmək üçün

atılan addımlar və istehsalçıya dəstək üçün verilən qərarlar bu nöqtədə əhəmiyyətlidir. Bundan əlavə, bu böhranın geniş və dərin struktura gəlib çatmaması digər böhranlarda olduğu kimi təkcə maliyyə-iqtisadi strukturdan asılı deyil. İstehsal sistemlərini rəqəmsallaşdıra və iş mexanizmlərini fiziki mühitdən çıxara bilən ölkələr iqtisadi cəhətdən daha az təsirlənəcək, çünki onlar istehsal və işçi qüvvəsi itkisinə daha az məruz qalacaqlar.

Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi üçün məqalə aşağıdakı vəzifələrin həllərini tələb edir:

1. Maliyyə sektorunun iqtisadi məzmunu və onun məqsədinin öyrənilməsi;

2. Koronavirus pandemiyası şəraitində maliyyə sektorunun fəaliyyətində yaranan problemlərin araşdırılması;

3. Pandemiya şəraitində maliyyə sektorunun əsas istiqamətləri və maliyyə nəticələrinin iqtisadi təhlili;

4. Maliyyə sektorunun böhran zamanı ölkə iqtisasdiyyatına təsirləri araşdırılması;

5. Pandemiya şəraitində sağlam və dinamik qurumlardan ibarət maliyyə sisteminin formalaşdırılmasının öyrənilməsi.

Tədqiqatın bir sıra elmi yenilikləri vardır ki, bunlarda birincisi, maliyyə sektoru üzrə tədbirlərin tətbiqinə töhfə verəcəkdir. Bundan başqa, bu araşdırma mövzusu dövrümüz üçün aktual mövzu hesab olunur. Üçüncü olaraq, bu araşdırma yeni məlumatlar əsasında hazırlanacaqdır, bu səbəbdən də bu mövzuyla bağlı bənzər işlər yoxdur. Bu tədqiqat yalnız maliyyə sektorunun üzləşdiyi risklərin effektiv şəkildə azaldılmasına yönəlmişdir. Koronavirus pandemiyası kontekstində maliyyə sektorunun fəaliyyət xüsusiyyətlərini və yeni çağırışları təhlil ediləcəkdir. Tədqiqat hal-hazırda da davam edən bu pandemiya ilə bağlı tam analiz oluna bilmir, bu sahəni geniş miqyaslı araşdırmağa və proqnozlaşdırmağa ehtiyac vardır. Respublikanın cari vəziyyətlə təcrübənin olmaması məhdudiyyəti yaradan səbəblərdən sayılmaqdadır. Azərbaycan Respublikasının koronavirus pandemiyası şəraitində maliyyə sektorunun fəaliyyət xüsusiyyətlərini təşkil edəcəkdir. Pandemiya zamanı bankların, bizneslərin və maliyyə sahəsi ilə bağlı qurumların fəaliyyətlərinə də nəzər yetiriləcək və bu sahədə atılan addımlar müzakirə olunacaqdır.

**Maliyyə sektorunun fəaliyyətinin nəzəri əsasları**

Maliyyə sektorunda broker təşkilatlarının konsepsiyası kreditlər və hesablar vasitəsilə həyata keçirilir, dövlət tərəfindən tutulan əsas pul axınını təmin edir, kommersiya məqsədləri üçün iştirak və fərdi pul axınını təmin edir, borc və alınmış xidmətləri təqdim edir, bankdan kənarda vasitəçi və arayış xidmətləri kimi çıxış edir, zəmanətlər və broker xidmətləri göstərir, maliyyəçi və yönəldilmiş, tənzimləyici və müsbət rəy təsisatları kimi çıxış edir, investisiya maliyyə təhlili və sənədlərə uyğun olaraq dekalizasiya həyata keçirir (Hacıbəyova, 2020).

Maliyyə sektorunun inkişafı, iqtisadi qloballaşma və institusional keyfiyyət dünyanın inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrində iqtisadi inkişafa təsir edən əsas amillərdir. Həqiqətən də, qloballaşmanın dərəcəsi, maliyyə sektorunun inkişaf dərinliyi və institusional keyfiyyətdəki fərqlər inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin fərqləndirilməsində də mühüm rol oynayır (Qurbanlı, 2021).

Ölkələr arasında sosial və insan kapitalının artırılması, maliyyə və texnoloji infrastrukturların inkişafı və birbaşa xarici investisiya axınına kömək etməklə iqtisadi artımın gücləndirilməsində güclü vasitələrdən biri kimi rolu əvəzsizdir. Qloballaşmanın inkişafı ilə birlikdə son illərdə inkişaf etməkdə

olan və inkişaf etmiş ölkələrdə maliyyə sektorunun inkişafının və institusional keyfiyyətin iqtisadi artıma təsiri artmışdır (Əliyev, 2020). Qloballaşma, maliyyə sektoru və institusional səmərəlilik arasında qarşılıqlı müstəsnalığın mövcud olması səbəbindən iqtisadi artımın stimullaşdırılmasına kömək edir (İsmayılova, 2021). Daha dəqiq desək, o, qloballaşmanın yerli bank sektorlarını xarici maliyyə bazarlarına açmaqla maliyyə institutlarının fəaliyyətini yaxşılaşdırdığını və nəticədə bürokratiyanın keyfiyyətinin, mülkiyyət hüquqlarının, idarəçiliyin və ölkənin siyasi sabitliyinin yüksələcəyini müdafiə olunur. Nəticədə, bu institusional şəraitin yaxşılaşdırılması ilə əlaqədar olaraq, yerli maliyyə kapitalının dəyəri yerli istehlakçılara və biznes firmalarına bank və fond bazarlarından kapital əldə etməyə imkan verəcək vahid qiymət qanununu təklif edən investisiyanın xarici rəqabətli dəyəri ilə uyğunlaşacaqdır.

Maliyyə sektorunun təqdim etdiyi maliyyə xidmətlərinin müxtəlifliyi səbəbdən onun inkişafının ölçülməsi üçün əsas dəyişənlərin seçilməsi çətin məsələdir. Bundan əlavə, müxtəlif təşkilatlar və agentlər maliyyə vasitəçiliyi fəaliyyətlərində iştirak edirlər. Maliyyə inkişafının səviyyəsini ən yaxşı şəkildə əməliyyat xərclərinin səviyyəsi, maliyyə vasitəçilərinin daxili əmanətləri səfərbər etmək, riskləri idarə etmək və əməliyyatları asanlaşdırmaq yolu ilə ölçmək olar.

Bankların likvidlik çatışmazlığı digər səbəblərdən də yarana bilər. Bankların verdiyi kreditlərin ödəmə müddətləri topladıqları əmanətlərin müddətindən uzun olur. Bu müddət uyğunsuzluğu bankların likvidlik probleminə düşməsinə səbəb ola bilər. Bank böhranlarında hökumətlər bankları xilas etmək və ya zəifləmiş bankların kapital strukturlarını gücləndirmək üçün əhəmiyyətli məbləğlərlə müdaxilə edə bilərlər. Bəzən banklardakı nəzarəti ələ keçirirlər (Allahverdiyev, 2020).

Dünyada bankçılıqda yaşanan böhranlara nəzər saldıqda bir çox ölkədə ciddi itkilərin yaşandığı görünür. Bank böhranları iqtisadi aktivliyin qəfil azalmasına səbəb olur. Böhrana girmiş banklar maliyyə sektorundakı bu vəziyyəti yaxşılaşdırmaq üçün müştərilərdən debitor borclarını yığır və yeni kreditlər vermirlər. Xüsusən də bankçılığın əhəmiyyətli maliyyə təmin etdiyi ölkələrdə bu, iqtisadi durğunluğa səbəb olur və bu durğunluq devalvasiya böhranına səbəb ola bilər. Böhranla birlikdə faiz dərəcələri yüksəlir və investisiya xərcləri artır. Bu dövrdə yüksək faizli riskli qurumlar borc almağa gedir, lakin əmanətlərini məhsuldar investisiyalarda istifadə edən investorlar faizlə borc götürmək istəmir və investisiyalarını təxirə salırlar. Bu vəziyyət məşğulluq problemi yaradır və milli gəlirə zərər vermiş olur.

Qloballaşma və maliyyə bazarlarının inteqrasiyası nəticəsində risk həcmləri xeyli artmış, bir çox mürəkkəb məhsullar meydana çıxmış, riskin alqı-satqısının aparıldığı bazarlar sürətlə inkişaf etmişdir (İsmayılova, 2021). Nəticədə 30 il ərzində dünyada 150-dən çox böhran yaşanıb. Biz görürük ki, inkişaf etmiş və bir çox inkişaf etməkdə olan ölkələrin maliyyə sektorlarının dəqiq strukturlaşdırılması ehtiyacı ötən illərdə yaşanan qeyri-sabitlikdən irəli gəlir.

### Koronavirus pandemiyası şəraitində maliyyə sektorunun fəaliyyətinin təhlili

Hökumət antiböhran proqramını hazırlayarkən bir sıra məsələləri nəzərə alıb. İlk növbədə, ölkə iqtisadiyyatı pandemiyadan sonrakı dövrdə sağlam və rəqabətqabiliyyətli olmalıdır. Bundan başqa, fəaliyyətini şəffaf formada quran, vergilərini vaxtı vaxtında ödəyən, əmək müqaviləsi ilə işçi götürən müəssisələr hər zaman dövlət dəstəyinə arxalana bilərlər. Üçüncüsü isə, çətin anlarda ölkəni dəstəkləyən, onun çətinliklərinə cavab verən, yüksək sosial məsuliyyət şüuruna malik, işini saxlayan sahibkarlardan ibarət iqtisadiyyat yaratmağa çalışacaq.

Qlobal bazarda neftin qiymətinin düşməsi və yerli valyutalara təzyiqin artması ilə mart ayında ABŞ dollarına tələb artıb. Mərkəzi Bankın məlumatına görə, mart ayında bankın nağd dollar satışı 1163,4

milyon dollar olub. Bu, fevral ayı satışlarından 4,4 dəfə, yanvar və fevral aylarında isə ümumi satışlardan 2,7 dəfə çoxdur (Qrafik 1):

**Qrafik 1: 2020-ci ilin I yarsında banklar tərəfindən dolların nağd satışının dinamikası (mln. dollar)**




**Mənbə:** https://www.cbar.az - Azərbaycan Respublikasının Mərkəzi Bankı məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Regionda COVID-19-un ilk günlərindən banklar beynəlxalq təcrübədə atılan bir çox addımları araşdırmağa və mümkün həll yollarını axtarmağa başlayıb. Bu dövrdə bir çox bank borcun restrukturizasiyası ilə bağlı danışıqlar aparmaq üçün pandemiyadan təsirlənən müştərilərlə görüşlər aparılmaqdadır (İbrahimov, 2021). Bu proses banklar üçün baha başa gəlir, çünki restrukturizasiya zamanı kredit keyfiyyəti pisləşir və ehtiyatlar yaradılmasına ehtiyac duyulur. Bu pandemiya dövrünün tələbi ilə bu addımlar atılıb. Eyni zamanda, həmin prosesin uzaqdan həyata keçirilməsi üçün mümkün tədbirlər görülüb (Məmmədli, 2020). Yalnız bank filiallarında həyata keçirilə bilən əməliyyatların təhlükəsizliyini təmin etmək üçün bankdaxili prosedurlar da işlənib hazırlanmış və tətbiq edilmişdir.

Mərkəzi Bankların nağd valyuta satışı rejimlərinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi inzibati tədbirlər nəticəsində ölkədə aprel ayında bankların nağd pul satışı kəskin şəkildə aşağı düşüb. Apreldə nağd satışlar mart ayı ilə müqayisədə 3,8 dəfə azalıb. Ümumilikdə, 2020-ci ilin yanvar-iyun aylarında banklar 2,32 milyard dollar satılmışdır ki, bunun demək olar ki yarısı 2020-ci ilin mart ayının payına düşür. Martda dollar satılıb və demək olar ki, yarısı ucuzlaşıb. Müqayisə üçün qeyd etmək olar ki, banklar 2020-ci ilin mart ayında 2019-cu ilin ilk altı ayı ilə müqayisədə çox ABŞ dolları satıblar (Həsənoğlu, 2019).

DSK-nın məlumatlarına əsasən əhalinin banklarda əmanətlərinin əvvəlki il üzrə dəyişimində pandemiyadan sonra aşağı 8.4% endiyini görə bilərik. Ən çox əmanətlərin azaldığı dövr 2016-cı ildə olmuşdur ki, bu da pandemiyadakı dövrlə müqayisədə 2019-cu ildə əmanətlər 16.1% çox olmuşdur. Pandemiyanın ilkin illərində azalma olmasına baxmayaraq, növbəti dövr ərzində 18.3% artım olaraq ümumi 113.0% dəyişim göstərmişdir. 2021-ci ilin göstəriciləri pandemiyanın ölkəmizdəki təsirlərində olan əmanətlərlə müqayisədə 2,2% artım olduğunu, yəni banklar üzrə olan tədbirlərin uğurla aparıldığının göstəricisidir (Qrafik 2).

**Qrafik 2: Banklarda əhalinin əmanətlərinin faizlə dəyişimi**




**Mənbə:** https://www.stat.gov.az - Dövlət Statistika Komitəsinin məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Nağd əməliyyatlarla yanaşı, ölkədə 2020-ci ilin birinci rübündə nağdsız valyuta bazarında əməliyyatların həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 26,1 faiz artaraq 7,7 milyarda çatıb. ABŞ dollarında ekvivalentində idi (Həsənoğlu, 2021). Nağdsız valyuta mübadiləsi əməliyyatlarının 87,7 faizi ABŞ dolları, 12,3 faizi həcmində isə digər valyutalar üzrə aparılmışdır. Azərbaycanda valyuta əməliyyatlarının 43,1 faizi Banklararası Valyuta Bazarında (BVB), 56,9 faiz hissəsi isə Bankdaxili Valyuta Bazarında (BDVB) həyata keçirilib.

Mərkəzi Bankın məlumatına görə, 2020-ci ilin ilk altı aylarında Dövlət Neft Fondunun da iştirakı ilə keçirilmiş 50 valyuta hərracında ümumi 4,0 milyard ABŞ dolları həcmində satış olub. Bunun 2,8 milyard dolları birinci rüb üzrə, 1,2 mlrd dolları ikinci rübdə satılmışdır. Nəticədə Mərkəzi Bank manatın məzənnəsini ümumi olaraq sabit saxlaya bildi (Qrafik 3).

**Qrafik 3: 2020-ci ilin I yarsında manatın xarici valyutalara nəzərən məzənnəsi**




**Mənbə:** https://www.cbar.az - Azərbaycan Respublikasının Mərkəzi Bankı məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hazırda Azərbaycanın korporativ, dövlət və əhalinin xarici valyutada borcu həm məbləğ, həm də risk baxımından çox da yüksək deyil. Bununla belə, bank sektorunun əhaliyə və iqtisadiyyata borcunun dollarlaşma dərəcəsi yüksək (60%) olaraq qalır. Bu baxımdan devalvasiyanım 2015-ci il səviyyəsində olmasa belə müəyyən problemlər yarada bilər. Digər tərəfdən də idxaldan çox asılılıq mövcuddur. Hesablamalara görə, istehlak bazarımızın ən azı 60 %-i xarici mallardan ibarətdir. Belə olan halda devalvasiya çox ciddi olaraq inflyasiya riski yaradır.

Bununla belə, devalvasiyanın investorlara, o cümlədən, bütövlükdə cəmiyyətə psixoloji təsiri, iqtisadiyyata qısamüddətli və uzunmüddətli itkilər böyük ola bilər. Xüsusilə, bu, bərpa olunmayan milli valyutaya (manat) xalqın inamının daha da itirilməsi ilə nəticələnə bilər. Ona görə də dövlət məzənnə sabitliyini qorumaqda maraqlıdır (Məmmədli, 2020).

Koronovirus pandemiyasının bank sektoruna təsirlərini qəbul etməmək də mümkünsüzdür. Bunun səbəbi, bankların hesabatları və rəsmi statistik məlumatlar devalvasiyanın fəsadlarından yeni qurtulmuş bank sektorunun yeni-yeni çətinliklərlə üzləşməsini daha dəqiq bizlərə göstərir. Xüsusilə 2018-2019-cü illərdə ölkənin bank sektorunda müşahidə olunan müsbət tendensiyanın nəticəsində 2020-ci ildə təkrar mənfiyə keçməsi nəticəsində bu hipotez daha da gücləndirdi.

2015-ci ildə devalvasiyadan yenicə çıxmış bankların hər biri 2018-ci ildən kreditləşmə fəaliyyətlərini artırıb və həmçinin, 2018-2019-cu illər ərzində də ümumi kreditləri 36,4% artırmasına səbəb olublar. Növbəti il isə kredit üzrə böhran yenidən özünü göstərməyə başlamışdı. Bu zaman Mərkəzi Bankın məlumatına görə, 2020-ci ildə ölkədə bankların xalis kreditləri 3,5% azalıb, yəni 13,7 milyard AZN-dən 13,3 milyard AZN-ə düşübdür. Amma qiymətli kağızlara olan investisiyalarda müsbət artım tendensiyasını qorumuşdur. Maliyyə sektorunda 2016-2020-ci illər aralığında banklar üzrə xalis kredit qoyuluşu ilə qiymətli kağızlara yatırım göstəricisi Qrafik 4-də göstərilmişdir:

**Qrafik 4: Maliyyə sektorunda 2016-2020-ci illərdə banklar üzrə xalis kredit qoyuluşu ilə qiymətli kağızlara yatırım göstəricisi**




**Mənbə:** https://www.cbar.az - Azərbaycan Respublikasının Mərkəzi Bankı məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

2020-ci ildə mart ayı üzrə dünya bazarlarında neftin qiymətinin kəskin formada ucuzlaşması fonunda Azərbaycan manatının devalvasiya ehtimalının artması bəzi şəxsləri banklardan vəsaiti çıxarmağa, bəzilərini isə dollara konvertasiya etməyə sövq etmişdir. Aprel ayında dörd bankın bağlanması qərarı isə depozit bazarını ikinci dəfə silkələmişdi. Bütün bu silkələnmə fonunda 2019-cu il depozitlərin azalması cəmi 3,2%-ni təşkil edirdı.Maliyyə sektorunda 2016-2020-ci illər ərzində bank sistemində depozit portfelinin dəyişməsi Qrafik 5-də öz əksini tapmışdır:

**Qrafik 5: Maliyyə sektorunda 2016-2020-ci illər ərzində bank sistemində depozit portfelinin dəyişməsi göstəricisi**




**Mənbə:** https://www.cbar.az - Azərbaycan Respublikasının Mərkəzi Bankı məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır

Dövlət proqramlarının vacib tərkib hissələrindən biri bank sektoru ilə bağlıdır. Həmin sahədə iki əsas 1,5 milyard manat həcmində maliyyə yükü olan sabitləşdirmə proqramı qəbul olunub (Cəfərova, 2020). Bank sektorunun sağlamlaşdırılması və bütövlükdə real iqtisadiyyatın maliyyələşdirilməsi istiqamətində addımlar atıldı və hökumətlə bu məsələ ilə bağlı bir neçə dəfə danışıqlar aparıldı. Hökumət vaxtı keçmiş kreditlərlə bağlı da humanist mövqe nümayiş etdirib. Bütün bunlar vətəndaşların rifahının pisləşməməsi üçün atılan bir neçə addımlardır. İndi pandemiya nəticəsində gəlirlərini itirən, istehlak kreditlərinə üz tutan və əlavə borclanma şəraiti yaradan müəyyən qrup insanlar var. Bütün bunlar bank sektorunun indiki şəraitində qəbuledilməzdir. Əlavə borc yükünün yığılması ilə gələcəkdə sadəcə mənfi nəticələrə - ödəniş qabiliyyətsizliyi probleminə səbəb ola bilər.

## Maliyyə sektorunun inkişaf istiqamətləri

Çinin Uhan şəhərində ortaya çıxan və daha sonra bütün dünyaya yayılan və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya olaraq təyin olunan Covid-19 ölkəmizdə bir çox sektora mənfi təsir göstərib. Pandemiya iqtisadi, sosial və mədəni sahələrə təsir edərək yayılıb. Qısa müddətdə ölkəmizi və bütün dünyanı əhatə edən, sağlamlıqla bağlı ciddi risklər yaradan pandemiya bank sektorunu da təsirsiz hala salıb. Maliyyə sisteminin sağlam işləməsində mühüm qurumlardan biri olan Azərbaycan bank sektoru bu pandemiyanın mənfi təsirlərindən qorunmaq və bank funksiyalarını təhlükəsiz şəkildə yerinə yetirmək üçün ən qısa zamanda lazımi tədbirləri görüb. Bundan əlavə, bu çətin dövrdə Azərbaycan bank sistemi, vaxt itirmədən daha güclü və davamlı bir quruluşa sahib olacaq texniki infrastrukturu sürətlə yaratdı (Məmmədli, 2020).

Pandemiya ilə mübarizə və onun iqtisadiyyata mənfi təsirlərini azaltmaq üçün ölkələr sürətlə fiskal siyasətə müraciət etmiş və bir sıra fiskal ehtiyat paketləri tətbiq etmişlər (Cəfərova, 2020). Pandemiya ilə mübarizə prosesində kreditlərin və borcların restrukturizasiyası, bazara likvidlik dəstəyinin göstərilməsi, aşağı faizli kredit opsiyaları və siyasət faiz dərəcələrində dəyişikliklər kimi pul siyasətləri də daxil olmaqla bəzi pul siyasətləri sürətlə qüvvəyə minmişdir (Neymətli, 2019). Bundan əlavə, Beynəlxalq Valyuta Fondu, Avropa Mərkəzi Bankı və Dünya Bankı kimi maliyyə qurumları sürətlə

kredit dəstəyi paketləri təqdim edirlər. Texnoloji inkişaf və qloballaşma prosesi dünya iqtisadiyyatlarını daha da asılı vəziyyətə salmışdır.

Koronavirus pandemiyası şəraitində likvidlik və kapitala qoyulan məhdudiyyətləri yumşaltmaq üçün təxirəsalınmaz tədbirlərdən görülmüşdür. Tənzimləyicilər tərəfindən tətbiq edilən dəstək tədbirləri, şübhəsiz ki, banklara bu rolu yerinə yetirməyə kömək etsə də, bu pandemiyanın uzunluğu və şiddəti qeyri-müəyyən olaraq qaldığından, onlar hələ də kapital və likvidlik mövqeyində bəzi təcili təzyiqlərlə üzləşirlər. Bunlara aşağıdakı amillər daxildir:

1) Müştərilər tərəfindən kredit imkanlarının azaldılması

Banklar öz likvidlik mövqelərini təhlükə altına atmadan fiziki şəxsləri və müəssisələri dəstəkləmək üçün kifayət qədər vəsaitin mövcudluğunu təmin etmək üçün mühüm rol oynayırlar. Nəticə etibarilə, kredit imkanlarının əhəmiyyətli dərəcədə azaldılması tələb olunarsa, banklar kifayət qədər kapitalı təmin etmək üçün mövcud likvidlik stressi modellərini yenidən yoxlamalı olacaqlar.

2) Kredit itkiləri üzrə ehtiyat təxminlərinə yenidən baxılması

İqtisadi mənzərə yüksək dəyişkən olaraq qaldığından, pandemiyanın qeyri-müəyyənliyini və miqyasını nəzərə almaq üçün əvvəllər hesablanmış gözlənilən kredit itkilərinə yenidən baxılmalıdır. Banklar, ehtimal ki, gözlənilən kredit itkisi ehtiyatında artımın şahidi olacaqlar.

3) Kapital adekvatlığı əmsalını saxlamaq üçün əlavə kapital tələbləri

İqtisadi tənəzzül, çox güman ki, problemli kreditlərin artmasına səbəb olacaq. Banklar kredit riskində hər hansı bir artımı nəzərə almaq və daha yüksək kredit riskini aradan qaldırmaq üçün daha çox kapital ayırmaq üçün mövcud kredit portfelində yenidən qiymətləndirmə aparmalı ola bilər.

4) Sıxılmış xalis faiz gəlir marjası

Maliyyələşdirmə xərcləri daha az olsa da, bankların aktivlərinin gəlirliliyi də əsasən ipoteka kreditlərində rəqabətin artması və investisiya səviyyəli aktivlərə təhlükəsizliyə keçid səbəbindən azala bilər. Təsir bankların xalis faiz marjasını və gəlirliliyini daha da sıxışdıracaq (Karimov, 2017).

Məsələnin mahiyyəti ondan ibarətdir ki, böhranın uzunluğu və şiddətinin dərinliyi həm yerli, həm də qlobal səviyyədə hələ də məlum edilməyib. Tənzimləyicilər tərəfindən görülən tədbirlər müvəqqəti asanlaşdırıcı tədbirlərdir. Tənzimləyicilər maliyyə sabitliyi ilə bağlı öz yanaşmalarını və tələblərini dəqiq tənzimlədikcə, banklar böhrandan sonra müəyyən miqdarda düzəliş gözləyə bilərlər.

**Nəticə**

Tədqiqat zamanı Koronavirus pandemiyası şəraitində maliyyə sektorunun mövcud vəziyyəti, əsas istiqamətləri və dövlət tənzimləmə məsələləri təhlil edildi. Maliyyə sektoru geniş anlayış olduğundan, dissettasiyada əsas tədqiqat obyekti bank sektoru olmuşdur. Nəzarətçilər və tənzimləyicilər bankları iqtisadiyyata kredit axınını saxlamağa və bank sisteminə maliyyə risklərini azaltmağa təşviq etmək üçün müəyyən tədbirlər görməlidir. Belə ki, tənzimləyici və nəzarət tədbirləri bank sisteminə inamı qoruyub saxlamaqla, maliyyə risklərini azaltmaqla və təşkilatların səmərəli fəaliyyət göstərməsini təmin etməklə yanaşı, kreditin verilməsini dəstəkləmək məqsədi daşımalıdır. Qısamüddətli qeyri-müəyyənliyi və koronavirusun iqtisadi fəaliyyətə potensial kəskin təsirini nəzərə alaraq, nəzarət mexanizlərini aşağıdakı qaydalarda təkmilləşdirilməsini təklif etmək olar:

1. Bankları kreditlərin restrukturizasiyasına təşviq etməlidirlər. Güzəşt müddəti təqdim etməklə və ya müqavilə şərtlərinə düzəliş etməklə banklar borcalanlara virusun onların bizneslərinə müvəqqəti təsirini

idarə etməyə və öz itkilərini minimuma endirməyə kömək edə bilər. Əgər müqavilələrin xalis cari dəyəri əhəmiyyətli dərəcədə azalmazsa, mütləq icra olunmayan risklər kimi təsnif edilə bilməz.

2. Kapitalın və likvidlik buferlərinin istifadəyə yararlılığını vurğulayan ictimai bəyanatlar verilməlidir. Bazel III çərçivəsi mənfi şoklar halında (bir çox ölkələrdə tətbiq edilmişdir) kapital buferləri (məsələn, kapitalın qorunması buferi; kontr-tsiklik kapital; CCyB və D SIB buferi) və likvidlik buferləri (məsələn, likvidliyin əhatəlilik nisbəti) yaratmışdır. Bəzi yurisdiksiyalarda əlavə kapital buferləri də var. Nəzarət mexanizmləri bu buferlərin xarakterini və onların böhran dövründə istifadə oluna biləcəyini əks etdirən ictimai bəyanatların verilməsini nəzərdən keçirməlidirlər. Eyni xətt üzrə, CCyB-ni sıfırdan yuxarı qoyan yurisdiksiyalar onun buraxılmasını, eləcə də həmin tədbirlərin məqsədlərindən və ölkəyə xas şəraitdən (sistemik risk buferləri, sektoral kapital tələbləri) asılı olaraq digər makroprudensial tədbirlərin yumşaldılmasını nəzərə almalıdırlar.

3. Nəzarət prioritetləri nəzərdən keçirilməlidir. Nəzarət mexanizmləri prioritetlərini yenidən cəmləməli və bankların likvidlik profili, həssas sektorlara kredit riskinə məruz qalmaları və əməliyyat dayanıqlığı da daxil olmaqla, böhrandan daha çox təsirlənən riskləri və sahələri vurğulamalıdırlar. Bu müddət ərzində nəzarət orqanları öz gözləntiləri ilə bağlı daha çox təlimat verməli və aktivlərin keyfiyyəti, maliyyələşdirmə/likvidlik, kapital və s. daxil olmaqla, müvafiq risklər və prioritetlər üzrə monitorinqi və banklarla əlaqəni artırmalıdır.

Son olaraq qeyd etmək istərdim ki, məlumatların şəffaflığı və dəqiqliyi bank sektoruna inamı qorumaq üçün vacibdir. Keçmiş böhran təcrübəsi göstərir ki, şəffaflıq sistemə inamı qorumaq üçün ilkin şərtdir. Dəqiq və etibarlı məlumat (qeyri-müəyyən kreditlərin məbləği, potensial itkilər, kapital çatışmazlığı) qısa və uzun müddət ərzində balans hesabatında risklərin idarə edilməsi və dövlət orqanlarının ən uyğun siyasət cavablarını formalaşdırmaq üçün vacibdir. Səlahiyyətli orqanlar mövcud monitorinq alətlərinə etibar edə bilməlidirlər, çünki zəif bankları müəyyən etmək və itkilərin kəmiyyətini müəyyən etmək üçün çoxlu sayda institutlarda aktivlərin keyfiyyətinə dair dərin təhlillər aparmaq üçün onların kifayət qədər vaxtı və ya əməliyyat imkanları olmaya bilər.

**Ədəbiyyatlar**


1. Allahverdiyev A., "Bankların və real sektorun kredit aktivliyinə təsir edən amillər", Kooperasiya elmi-praktiki jurnalı, 2020, №3, səh.160-165.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/.
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı https://www.cbar.az/.
4. Cəfərova K., "Bank fəaliyyətinin tənzimlənməsinin dövlətin gələcək inkişaf modellərində yeri" , Kooperasiya elmi-praktiki jurnal, 2020. №1, səh.75-81.
5. Əliyev A., "Bank fəaliyyətində marketinq idarəetmə sistemi", Kooperasiya elmi-praktiki jurnal, 2020, №1, səh.82-87.
6. Hacıbəyova S., "Maliyyə nəticələrinin iqtisadi mahiyyəti və müəyyən olunması metodları", Kooperasiya elmi-praktiki jurnal, 2020, №1, səh.95-100.
7. Həsənoğlu Ə., (2019). "Azərbaycanın maliyyə sektoru bu gün", Unikal, 17 səh.
8. İbrahimov E.Y., "Regional iqtisadiyyat: sosial-iqtisadi siyasətin səmərəli icra olunmasında maliyyə və bank sisteminin rolu (Naxçıvan Muxtar Respublikasının materialları əsasında)", Bakı, Ləman NP MMC, 2021, №1, 225 səh.
9. İsmayılova F.E., (2021). "Qlobal maliyyə böhranları şəraitində Azərbaycan pul-bank sisteminin tənzimlənməsi" Bakı, "Elm", 32 səh.

10. Karimov A., “The Role Of Effective Financial And Risk Management In Increasing Stability Of Banking System Of Azerbaijan”. Ipek Yolu, 2017, №2, p.80-88.
11. Qurbanlı A.R., (2021). “Bank və maliyyə sahəsində informasiya təhlükəsizliyi”. XX Республиканская Научная Конференция Магистрантов, səh.182-183.
12. Məmmədli E., “Dövlət maliyyə nəzarəti və onun təkmilləşdirilməsi”, Kooperasiya elmi-praktiki jurnalı, 2020, №1, səh. 88-93.
13. Məmmədli R., (22 Fevral, 2020). “Maliyyə-bank sektorunda inkişaf potensiallı sistem formalaşır”.Azərbaycan qəzeti, səh.11
14. Neymətli A., “Antiböhran tənzimləmədə bank sisteminin fəaliyyət istiqamətləri”, Elmi əsərlər "Naxçıvan" universiteti, 2019, № 2, səh.38-42.

# 2024 MALİYYƏ BÖHRANINA DOĞRU

**Muxtarov Məhəmməd**

**Azərbaycan Dövlət İqtisad Universiteti (Zaqatala Filialı)**

**Muxtarov.mehemmed93@gmail.com**

## Xülasə

Son illərdə dünya iqtisadiyyatında xüsusəndə Amerika Birləşmiş Ştatları (ABŞ) iqtisadiyyatında ciddi dəyişikliklər baş verməkdədir. Ölkələrin həyata keçirdiyi maliyyə siyasətləri ölkə iqtisadiyyatının inkişafına və maliyyə sabitliyinə ciddi təsir göstərməkdədir. 2008-ci ildə baş verən dünya maliyyə böhranı, bir çox ölkələrdə xüsusəndə ABŞ-da maliyyə siyasətlərinin idarə olunmasında vacib dəyişikliklərin yaranmasına səbəb oldu. 2008-ci ildən həyata keçirilməyə başlayan genişləndirici maliyyə siyasəti artıq daraldıcı maliyyə siyasəti ilə əvəz olunmağa başlayır.

Bu tədqiqatın məqsədi, son illərdə ABŞ və eləcədə dünya iqtisadiyyatında baş verən dəyişiklikləri analiz etməkdir. Məqalədə ABŞ-ın son zamanlarda yüksək məbləğdə emissiya etdiyi dolların iqtisadiyyatda nə kimi dəyişiklərə yol açacağı, Federal Ehtiyatlar Sisteminin (FES) aldığı qərarların nəticələrinin nə şəkildə iqtisadiyyata təsir edəcəyi analiz ediləcəkdir. Eyni zamanda tədqiqatın bir digər məqsədi olaraq, qlobal böhranların baş verməsində faiz artımlarının rolu müəyyən olunacaq və maliyyə sektorunun ABŞ iqtisadiyyatında payı göstəriləcəkdir. Son olaraq isə Dünya Qida Sektorunda baş verən dəyişikliklərə yer veriləcəkdir.

**Açar sözlər**: ABŞ, Böhran, Pul emissiyası, Faiz, Dünya Qida İndeksi

## Abstract

In recent years, in the world economy, especially in economy of the United States, happen significant changes. The financial policies realized by the countries have a serious impact on the development of the country's economy and financial stability. The global financial crisis of 2008 led to significant changes in the management of financial policy in many countries, especially in the United States. The quantitative easing, which began in 2008, is already being replaced by a quantitative tightening.

The purpose of this study is to analyze the changes that have taken place in the US and the world economy in recent years. The article analyzes how the recent high dollar emissions of the United States will lead to changes in the economy, and how the consequences of the decisions of the Federal Reserve System (FES) will influence the economy. At the same time, another goal of the study will be to determine the role of interest rates in the global crisis and will indicate the share of the financial sector in the US economy. Finally, changes in the World Food Sector will be noted

**Keywords**: USA, Crisis, Issuance of money, Interest, World Food Index

## Giriş

Hər bir ölkənin iqtisadiyyatının idarə olunmasında Mərkəzi bankın aldığı qərarların müstəsna rolu vardır. Bildiyimiz kimi ölkələrin mərkəzi bankları iqtisadi vəziyyəti tənzimləmək məqsədi ilə daraldıcı və ya genişləndirici monetar siyasətlərdən istifadə etməkdədirlər. 2008-ci ildə meydana gələn global iqtisadi böhran, II Dünya müharibəsindən sonra meydana gələn ən böyük böhranlardan biri idi. Bu iqtisadi böhranın aradan qaldırılması üçün ölkələr müxtəlif maliyyə siyasətləri həyata keçirmişdilər. 2008 maliyyə böhranının ortadan qaldırılmasında ən çox istifadə olunan siyasətlərdən biri genişləndirici monetar siyasət (quantitative easing) idi. Genişləndirici monetar siyasətdə əsas məqsəd mərkəzi banklar tərəfindən dövlət qiymətli kağızların alınması və beləliklə bazardakı pul kütləsini artırmaqla faizlərin düşməsinə səbəb olmaqdır. Bazarda yaranan yüksək likvidliyi azaltmaq məqsədi ilə mərkəzi banklar tərəfindən həyata keçirilən, qiymətli kağızların alınması yolu ilə pul təklifinin azaldılması prosesinə

daraldıcı monetar siyasət (quantitative tightening) adı verilir. Hər iki siyasət ölkə iqtisadiyyatına və xüsusəndə maliyyə bazarlarındakı likvidlik dərəcəsinə ciddi təsir göstərir.

Chen, Filardo, He və Zhu, öz tədqiqatlarında inkişaf etmiş ölkələrin genişləndirici monetar siyasətinin inkişaf etməkdə olan ölkələrin maliyyə bazarlarına təsirini analiz etmişlər. Tədqiqatın nəticəsində genişləndirici monetar siyasət inkişaf etməkdə olan ölkələrdə birjaların kapitallaşma dəyərinin artmasına, valyutaların dəyər qazanmasına və risk payını azaldaraq maliyyə sektorunun canlanmasına səbəb olduğu aşkara çıxmışdır. (Chen, Filardo, He və Zhu, 2012)

Glick və Leduc, öz tədqiqatlarında ABŞ-da həyata keçirilən genişləndirici monetar siyasət nəticəsinə ABŞ dollarının dəyər itkisinə məruz qaldığını müdafiə etmişlər. (Glick və Leduc, 2013)

Georgidas və Grab, Avropa Mərkəz Bankının həyata keçiriyi monetar siyasətin təsirlərini analiz etmişdir. Tətqiqat nəticəsində meydana çıxmışdırki genişləndirici monetar siyasət, qlobal birjaların dəyərinin artmasına, avro-nun isə dəyərinin isə azalmasına səbəb olur. (Georgidas və Grab, 2016)

Riley öz tədqiqatında ABŞ-da daraldıcı monetar siyasətlərin başlaması ilə birlikdə ABŞ-ın büdcəsində 2022-ci ildə 775 milyard dollar, 2023-cü ildə 1 trilyon dollar və 2024-cü ildə 840 milyard dollar azalmanın meydana gələcəyini bildirmişdir. (Riley, 2022)

Maria və Marple tədqiqatlarında iqtisadiyyatda baş verən yüksək inflyasiyanın önünə keçməkdə daraldıcı monetar siyasətin vacibliyinə vurğu edirdilər. Eyni zamanda daraldıcı monetar siyasət nəticəsində pul kütləsinin daralması maliyyə sektorunda problemlərə səbəb olmaqla real iqtisadiyyata ciddi təsir göstərməkdədir. (Maria və Marple, 2022)

ABŞ Mərkəzi bankı 2008-ci il maliyyə böhranına qədər, daha dəqiq desək 7 yanvar 2008-ci ilə qədər toplam olaraq bazara 878 milyard ABŞ dolları emissiya etmişdi. 2008-ci ildə baş verən maliyyə böhranı nəticəsində isə heç bir əsasa söykənmədən bazara yüksək məbləğdə pul emissiya etməyə davam etdi. 2014-cü ilin ilk aylarında isə ABŞ mərkəzi bankının toplam emissiya etdiyi valyuta məbləği 2008-ci il maliyyə böhranından təxminən 4,5 qat çox idi. (Neely, 2007). 2020-ci il böhranında isə bu rəqəm həddindən artıq artaraq 7 trilyon ABŞ dollarına çatdı. Qrafik 1-dən görüldüyü kimi 6 Aprel 2022-ci ildə isə bu rəqəm 9 trilyon dollar ABŞ dollarını keçdi.

**Qrafik 1. ABŞ Mərkəz Bankının Toplam Emissiyası**




**Mənbə**: Economic Research Federal Reserve Bank Of ST.Louis, https://tr.tradingview.com/chart/Vbadcpva/?symbol=FRED%3AWALCL (05.22.2022)

Qrafik 1-dən görüldüyü kimi FES 2016-cı ildə pul emissiyasını dayandırdı. 2017-ci ildə isə ABŞ, tarixində ilk dəfə daraldıcı monetar siyasəti (quantitative tightening) həyata keçirmək qərarı aldı. (www.cnbc.com) Belə bir iqtisadi qərarın alınması isə yerli və beynəlxalq bazarlara öz mənfi təsirini göstərdi. İlk növbədə ABŞ-ın büdcəsində daralmalar yaşanmağa başladı. Eyni zamanda ən vacib birjalardan olan "Wilshire 5000" indeksi daraldıcı valyuta siyasəti ilə eyni trend xəttini izləyirdi. Beləki, FES-in bazara valyuta emissiya etməsi nəticəsində artan "Wilshire 5000" indeksi, bu prosesin tam tərsi olan daraldıcı monetar siyasətdən mənfi təsirlənir və birjada kəskin enmələr yaşanırdı. (Berry, Nikolov, Robson and Young, 2009)

**Qrafik 2. ABŞ-ın pul emissiyası ilə "Wilshire 5000" indeksi arasındakı əlaqə**




Mənbə: Economic Research Federal Reserve Bank Of ST.Louis, https://fred.stlouisfed.org/series/WALCL#0 (05.22.2022)

6 Aprel 2022-ci ildə FES-nin yeni aldığı qərara əsasən daraldıcı monetar siyasət həyata keçiriləcək. Və buna uyğun olaraq FES-i hər ay bazardan təxminən 95 milyard ABŞ dollarını geri çəkəcək. Bu rəqəm isə 2017-ci ildə alınan qərardan təxminən 2 dəfə çoxdur. Bunun nəticəsi olaraq "Wilshire 5000" birjasında, eyni zamanda digər bütün birjalarda kəskin dalğalanmalar meydana gələcək. Belə bir iqtisadi qərarın alınması təbii olaraq qızıla, gümüşə və kriptovalyutalar sisteminə öz mənfi təsirini göstərəcək.

**Qrafik 3. Faizlərin artması ilə iqtisadi böhranlar arasındakı əlaqə**



Mənbə: Economic Research Federal Reserve Bank Of ST.Louis, https://www.tradingview.com/chart/Vbadcpva/?symbol=TVC%3ATNX (05.22.2022)

Qrafik 3-dən görüldüyü kimi ABŞ hələ daraldıcı monetar siyasəti həyata keçirməyə başlamadan faizlər artmağa başlayıb. 1986-cı ildən 2022-ci ilə qədər faizlər hər zaman aşağı yönümlü bir trend xəttində olub. (www.macrotrends.net) Bu illər arası faiz artımları trend xəttinin üst nöktəsinə yaxınlaşdığı anda hər zaman dünya iqtisadiyyatında böhranlar meydana gəlib. Qrafikdən görüldüyü kimi Qara Bazarertəsi, Asiya Böhranı, Texnologiya Böhranı, Daşınmaz Əmlak Böhranı, və 2020-ci il Səhm Bazarı Böhranı kimi iqtisadi böhranlar hər zaman faiz artımları yaşandığında meydana gəlib. Hal hazırkı vəziyyətə isə qrafikdən görüldüyü kimi Amerikadakı faiz dərəcələri bu trend xəttini yuxarı doğru qırıb və artmaqda davam edir. ABŞ-ın daraldıcı monetar siyasəti başlamadan faizlərin bu qədər artması yeni bir qlobal iqtisadi böhranın xəbərcisi ola bilər.

Digər bir tərəfdən isə Amerkidakı özəl sektor həddindən artıq şişmiş bir vəziyyətdədi. Qrafik 4-də Amerikadakı özəl sektorun maliyyə aktivlərinin ÜDM içərisindəki payı və Amerikanın genişləndirici monetar siyasətin həyata keçirilmə tarixləri göstərilib. Qrafikdən görüldüyü kimi Amerikada həyata keçirilən genişləndirici monetar siyasətlər ÜDM içərisində özəl sektorun payını artırmaqdadır. 2020-ci ildə həyata keçirilən valyuta emissiyası nəticəsində bu rəqəm 6.4-ə qədər yüksəlib (Dedola, Georgios, Johannes and Arnaud, 2020). Bu kimi böyük artımlar hər zaman, qrafikdən görüldüyü kimi gələcəkdə böyük enmələrə səbəb olub. Özəl sektorun payının bu ölçüdə artması, alınan qərar əsasında həyata keçiriləcək daraldıcı monetar siyasət ilə ciddi bir tənəzzül yaşayacaq.

**Qrafik 4. ABŞ iqtisadiyyatında özəl sektorun ÜDM-dakı payı**




Source: BofA Global Investment Strategy, Bloomberg

Mənbə: Bank Of Amerika, https://www.bankofamerica.com/ (05.22.2022)

**Qrafik 5. Dünya Qida Sektoru İndeksi**




Mənbə: Economic Research Federal Reserve Bank Of ST.Louis, https://fred.stlouisfed.org/series/PFOODINDEXM#0 (05.22.2022)

Dünya Qida indeksi, beynəlxalq bazarlarda ən çox istifadə olunan məhsulların qiymətlərindəki aylıq dalğalanmaları göstərən bir indeksdir. Qrafik 5-də Dünya Qida Sektoru indeksinin artım trendi qeyd olunub. 2008-ci il dünya maliyyə böhranı zamanı bu indeks 124.85 olmuşdur. 2011-ci ildə baş verən və iqtisadi tarixdə "Ərəb baharı" olaraq bilinən böhran zamanı isə bu dəyər 132.80 olmuşdur. Hal hazırda bu rəqəm hər iki göstəricini keçərək 2022-ci ilinin mart ayında 159.7 olaraq yeni bir rekorda imza atdı. Belə bir iqtisadi vəziyyətin yaranması və əsas qida məhsullarının qiymətlərindəki artımların hər gün daha da artması iqtisadi böhranı yaradan əsas faktorlardan biridir. Təbii ki, dünya qida sektorundakı bu kimi artımların yaşanmasında Rusiya-Ukrayna müharibəsinin müstəsna rolu vardır (Liadze, Macchiarelli, Mortimer-Lee and Sanhcez, 2022). Bu mürahibənin davam etməsi bu göstəricinin daha da artmasına səbəb olacaqdır.

**Qrafik 6. ABŞ-ın maliyyə sektorunun (maliyyə, siğorta, daşınmaz əmlak, icarə və lizinq) ÜDM içərisindəki payı.**



Mənbə: Economic Research Federal Reserve Bank Of ST.Louis, https://tradingeconomics.com/united-states/value-added-by-private-industries-finance-insurance-real-estate-rental-and-leasing-as-a-percentage-of-gdp-fed-data.html (05.22.2022)

Digər bir tərəfdən ABŞ-da maliyyə sektorunun (maliyyə, siğorta, daşınmaz əmlak, icarə və lizinq) ÜDM içərisinəki payı 2021-ci il oktyabr ayı üçün 20.9% təşkil etmişdir. 2008 maliyyə böhranı zamanı isə bu dəyər 18.2% olmuşdur. Qrafik 6-dan görüldüyü kimi 2008-ci ildən etibarən ABŞ-ın bazara valyuta emissiya etməsi ilə birlikdə maliyyə sektorunun ÜDM içərisindəki payı artım trendinə girmiş və 2020-ci ildə 23.10% olmuşdur (Chen və Yeh, 2021). Daraldıcı valyuta siyasətinin həyata keçirilməsi ilə birlikdə ABŞ-ın büdcəsində daralmaların meydana gəlməsi proqnozlaşdırılır və maliyyə sektoru bu kimi iqtisadi dəyişiklikdən mənfi şəkildə təsirlənəcəkdir.

**Nəticə**

FES-nin 6 Aprel 2022-ci ildə aldığı qərara əsasən daraldıcı valyuta siyasətinin həyata keçirməsi və bu qərar əsasında təxminən hər ay 95 milyard dolları bazardan çəkməsi dünya iqtisadiyyatında geniş dəyişiklərə səbəb olacaq. Beləki bu qərardan bazarda böyük paya sahib olan birjalar, kriptovalyutalar, qızıl və gümüş mənfi təsirlərini alacaq.

Digər bir tərəfdən ABŞ-ın faiz artımları həyata keçirməsi və son 37 il ərzində hər zaman aşağı yönümlü trend xəttinə malik faiz dərəcələrinin tərsinə dönməsi ciddi iqtisadi problemləri bərabərində gətirəcək.

ABŞ-da genişlədici valyuta siyasəti nəticəsində bazara pul emissiyasının həyata keçirilməsi nəticəsində özəl sektorun ÜDM içərisindəki payının sürətli şəkildə artması alınan qərar nəticəsində kəskin şəkildə enmə ilə əvəz olunacaq.

Dünya Qida sektorundakı artımların 2008 dünya maliyyə böhranı və 2010-cu ilin sonlarına doğru baş verən "Ərəb baharı" böhranlarınından belə daha yüksək səviyyədə olması yeni bir qlobal iqtisadi böhranın xəbərcisi ola bilər.

Eyni zamanda ABŞ-ın ÜDM-da maliyyə sektorunun payının yüksək olması, həyata keçiriləcək daraldıcı valyuta siyasətinin bu sektora daha çox mənfi təsir edəcəyini göstərir.

Son olaraq dünya iqtisadiyyatında və xüsusəndə ABŞ iqtisadiyyatında baş verən iqtisadi dəyişikliklər və bu dəyişikliklər nəticəsində həyata keçirdiyimiz analizlər 2024-cü ilə qədər qlobal bir iqtisadi böhranın yaşanacağı barəsində bizə vacib siqnallar verməkdədir.

**Ədəbiyyat siyahısı**


1. Benford, J., Berry, S., Nikolov, K., Robson, M., & Young, C. (2009). Quantitative easing. Quaretrly Bulletin // Bank of England, 49(2), pp. 90-99.
2. Chen, Q., Filardo, A. J., He, D., ve Zhu, F. (2012). International Spillovers of Central Bank Balance Sheet Policies, BIS Papers, No.66, 230-74.
3. Christopher J. Neely, What to Expect from Quantitative Tightening, Economic Synopses, number 8, 2019, pp. 1-2
4. David Riley, US Federal Reserve: Quantitative Tightening and İts implacations, Global Asset Managment, January 2022,
5. Georgiadis, G., ve Grab, J. (2016). Global Financial Market Impact of the Announcement of the ECB's Extended Asset Purchase Programme, Journal of Financial Stability, 26, 257-265.
6. Glick, R., ve Leduc, S. (2013). The Effects of Unconventional and Conventional US Monetary Policy on the Dollar, Federal Reserve Bank of San Francisco Working Paper, No. 2013-11
7. Hsuan-Chi Chen, Chia-Wei Yeh, Global financial crisis and COVID-19: Industrial reactions, Finance Research Letters, vol 42, 2021, pp. 1-12

8. Iana Liadze, Corrado Macchiarelli, Paul Mortimer-Lee, Patricia Sanchez Juanino, The Economic Costs of the RussiaUkraine Conflict, National Institute of Economic and Social Research Policy Paper no. 32, 2022, pp.1-10
9. Luca Dedola, Georgios Georgiadis, Johannes Gräb and Arnaud Mehl, "Does a big bazooka matter? Quantitative easing policies and exchange rates" European Central Bank, Research Bulletin, No.76, 2020, pp.1-6
10. Maria Solovieva and James Martple, Quantitative Tightening Will Slow Deposit Growth, Put Modest Upward Pressure on Yields, TD Economics, pp1-8, February 2022
11. (https://www.cnbc.com/2022/04/06/fed-minutes-march-2022-meetings-.html)
12. https://www.macrotrends.net/2016/10-year-treasury-bond-rate-yield-chart

# HELAL TEDARİK ZİNCİRİ YÖNETİMİ VE TÜRKİYE'DE HELAL BELGELENDİRME SÜRECİ

**Ali İmran Tatlıbadem**

**Gaziantep Üniversitesi, Sosyal Bilimler Enstitüsü**

**aliimran@gantep.edu.tr**

**Öğr. Gör. Mehmet Ali Orhan**

**Kahramanmaraş Sütçü İmam Üniversitesi, Sosyal Bilimler Meslek Yüksekokulu**

**mehmetaliorhan@ksu.edu.tr**

**Prof. Dr. Hanifi Murat Mutlu**

**Gaziantep Üniversitesi, İ.İ.B.F. Uluslararası Ticaret ve Lojistik, mmutlu@gantep.edu.tr**

## Özet

İşletmeler varlıklarını devam ettirebilmek, büyümelerini ve pazar paylarını genişletebilmeleri için kendilerine yeni pazarlar bulmalarını gerektirmektedir. Bu sebepten dolayı işletmeler, uluslararası pazarlara katılmak isterler. İç ve dış pazarlardaki rekabet avantajının formülü kalite, maliyet ve hız üçgeninde yatmaktadır. Bu formülü oluşturan üçgen elemanlarının üstünlüğünü sağlayabilen işletmeler, lojistik yönetimini de kullanarak rakiplerine göre daha başarılı bir konumda bulunabilmektedir. Dünya genelinde her geçen gün artmakta olan Müslüman nüfusun artışının beraberinde getirdiği hususlardan birisi olan helal algısı gün geçtikçe artmaktadır.

Ürünlerin helal etiketlerinin bulunması temiz, sağlıklı ve güvenli olarak kabul edilmesi Müslüman olmayanlarında helal ürünleri tanıması neticesinde, helal tüketimi küresel ölçüde tutulur hale gelmiştir. Helal tedarik zincirinde hammaddeden ürüne kadar olan zincir süresince her şeyin helal kaliteyi göz önünde bulundurması ve tüketim anındaki tüketicideki çekinceleri önlemek için helal bütünlüğün oluşturulmasının sağlanmasıdır. Helal ürün lojistiği, işletmelerin uluslararası pazarlara açılması imkânını sunabilecek çok önemli bir strateji olmaktadır. Bu durumdan dolayı uluslararası pazarlara açılmak ve buralarda sürekli olmak isteyen işletmelerin lojistik faaliyetlerine ilaveten helal lojistiği de eklemeleri önemli bir konudur. Bu çalışmadaki amaç tedarik zinciri yönetimine "helal" olgusunun işlenmesini araştırmak ve helal tedarik zincirinin işleyiş sürecini açıklamaya çalışmaktır.

**Anahtar Kelimeler:** Helal Lojistik, Helal Tedarik Zinciri, Tedarik Zinciri

**Abstract**

Businesses need to find new markets in order to continue their existence, grow and expand their market shares. For this reason, businesses want to participate in international markets. The formula of competitive advantage in domestic and foreign markets lies in the triangle of quality, cost and speed. Businesses that can provide the superiority of the triangle elements that make up this formula can be in a more successful position compared to their competitors by using logistics management. The perception of halal, which is one of the issues brought about by the increase in the Muslim population, which is increasing day by day around the world, is increasing day by day.

Halal consumption has become globally popular as a result of the halal labels of the products, the acceptance of them as clean, healthy and safe, and the recognition of halal products by non-Muslims. In the halal supply chain, everything from the raw material to the product should consider halal quality and to ensure halal integrity to prevent reservations in the consumer at the time of consumption. Halal product logistics is a very important strategy that can offer businesses the opportunity to open up to international markets. Due to this situation, it is an important issue for businesses that want to open up to international markets and to be permanent there, to add halal logistics in addition to their logistics activities. The aim of this study is to investigate the processing of the "halal" phenomenon in supply chain management and to try to explain the functioning process of the halal supply chain.

**Keywords:** Halal Logistics, Halal Supply Chain, Supply Chain

## Giriş

Vəhşicəsinə istismar, yararsız hala salınmış və minalanmış məhsuldar torpaqlar, qırılıb məhv edilmiş meşə massivləri, infrastruktur, yaşayış məntəqələri, xüsusi qorunan təbiət əraziləri, işğaldan azad olunmuş Qarabağ Regionu ərazilərindən Azərbaycan Respublikasına miras qalmış "iqtisadi potensial"ın bərpası isə, xüsusi reabilitasiya proqramlarının həyata keçirilməsini, xüsusi strateji istiqamətin qəbul olunmasını və milyard manatlarla əlavə kapital qoyuluşu xərcləri tələb edir.

Bununla belə rayonun işğal altında olmayan torparları üzrə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müəyyən işlər görülmüşdür. Bu ərazilər üzrə işğal dövründə həyata keçirilən işlərin davam etdirilməsi və inkişafı istiqamətində addımlar atılır

(http://www.yap.org.az/az/view/interview/1048/torpaqlarimizin-ishgaldan-azad-olunmasi-aqrar-sahenin-inkishafini-daha-da-suretlendirecek#).

**Nəticə**

Hazırda regionda həyatın və iqtisadiyyatın bütün istiqamətlərində tarixi və strateji vəzifələrin reallaşdırılması prosesləri gedir. Məqsəd böyük Qarabağ qələbəsindən sonra Füzuli rayonu da daxil olmaqla işğaldan azad olunmuş şəhər və rayonlarda sosial-iqtisadi inkişafın sürətlə təmin olunması, iqtisadiyyatiyyatın aparıcı sahələrinin bərpa olunması və böyük "Böyük qayıdış" proqramına nail olmaqdır. Artıq bu istiqamətlərdə bir sıra konseptual yanaşmalar hazırlanmış və mühüm fəaliyyət istiqamətləri müəyyənləşdirilməkdədir. Bu baxımdan, Qarabağ regionunun hazırda aparıcı bölgəsi hesab edilən Füzuli rayonunda hər bir iqtisadiyyat sahəsinin inkişaf xüsusiyyətləri və ənənələrinə, eləcə də müasir dövrün tələblərinə uyğun təşkil olunması mühüm şərtlərdəndir. Təbii ki, buna nail olmaq üçün əhəmiyyətli məbləğdə kapital qoyuluşu, maliyyə vəsaitləri və davamlı sərmayə axınları tələb olunur (http://www.yap.org.az/az/view/interview/1048/torpaqlarimizin-ishgaldan-azad-olunmasi-aqrar-sahenin-inkishafini-daha-da-suretlendirecek#).

Füzuli rayonunun kənd təsərrüfatının inkişafı istiqamətində aşağıdakı amillərin nəzərə alınması vacibdir:

- rayonda bitkiçilik ilə heyvandarlıq sahələrinin optimal əlaqələndirilməsi və buna müvafiq olaraq yardımçı təsərrüfatların inkişaf etdirilməsi vacibdir.
- aqrar sahələrin inkişafı zamanı həyata keçirilən tədbirlərdə konkret ərazilərdə spesifik şəraitlər nəzərə alınmalıdır.
- təhlillər göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasının ən səmərəli yolu intensiv inkişaf yoludur. Kənd təsərrüfatının kimyəviləşdirilməsində torpağa müxtəlif mineral gübrələrin verilməsi əsas rol oynayır. Bu istiqamətdə regionda infrastrukturun qurulması vacibdir.
- yerli xammal və mənbələrdən istifadə etməklə kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı, habelə kənd və meşə təsərrüfatına xidmət göstərən sahələrin və fəaliyyətlərin prioritet inkişaf etdirilməsi tələb olunur.
- bərpa olunan təbii ehtiyatların balanslaşdırılmış şəkildə artırılması və istifadəsi, habelə bərpa olunmayan təbii ehtiyatlardan səmərəli istifadə üçün şəraitin yaradılması vacibdir.
- kənd təsərrüfatı məhsullarını istehsal edən kiçik və orta sahibkarlığın inkişafını təmin etmək, investisiya mühitini yaratmaq və istehsalçıların iqtisadi risklərini azaltmaq istiqamətində təminatlı sığorta sistemini təmin etmək.

Füzuli rayonunda aqrar sahənin istehsal potensialı ilə yanaşı, rayonda taxılın, südün, gön-dərinin, barama və ipəyin emalı üçün müəssisələrin qurulmasına da ehtiyac olacaq. Region üçün trend hesab edilən tərəvəzçilik sektoru üzrə emal müəssisələrinin yaradılması, arıçılıq məhsullarının istehsalı imkanları da hesablanarsa, burada aqrosənayenin təmərküzləşmiş və klasterial inkişafından iqtisadiyyata töhfənin sovet dövründəki potensialdan daha artıq olacağını demək olar (https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721).

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Füzuli rayonunda aqrar səhmdar cəmiyyətlərinin təşkilinə üstünlük verilməsi fikirləri üstünlük təşkil edir və Qarabağ regionunda ekoloji təmiz, ətraf mühitə zərər vurmayan və "yaşıl iqtisadiyyat" meyarlarına cavab verən aqroparkların və yüksək, həmçinin də "ağıllı" texnologiyalar əsaslı aqrosənaye parklarının yaradılması prioritetlik təşkil edəcəkdir, bunlar isə yüksək maliyyə-investisiya tutumlu layihələrin həyata keçirilməsini şərtləndirir. Aqrar-sənaye kompleksinin inkişaf proseslərinin intensiv təşkili isə təkmilləşdirilmiş maliyyə-kredit mexanizmlərinin hazırlanması və tətbiqindən bilavasitə asılıdır. Regionun dayanıqlı və sürətli inkişafında aqrar-sənaye kompleksinin aparıcı rolu olacaqdır, belə ki, rayonda kənd təsərrüfatı sahələrinin, həm bitkiçilik, həmçinin də heyvandarlığın inkişafi üçün güclü potensial və resurslar vardır

(https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721).

**Ədəbiyyatlar**


1. Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Monoqrafiya. Bakı 2012, 423 s.
2. Aqrar Tədqiqatlar Mərkəzi, elmi-praktiki jurnal, 2020, № 4 (34), səh. 32
3. Salahov S.V. Aqrar sahənin innovasiyayönümlü inkişaf strategiyasının prioritetləri. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi // Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri. Elmi-nəzəri jurnal-1, Bakı-2018, s. 34-41
4. Mahmudov M., Mahmudova M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi. Bakı, İqtisad Universitetinin nəşriyyatı, 2011, 370 s
5. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: 2009, 546 s.
6. Abdullayev K.N. Müasir iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas istiqamətləri // İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmi-praktiki konfransın materialları. Sumqayıt: SDU nəşr., 8-9 iyul, 2020, s.455-459
7. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı, 2016, 655 s.
8. Əliqızı Ş. İşğaldan azad olunmuş ərazilərin böyük iqtisadi potensialı var. 6 dekabr 2020. https://ikisahil.az/post/ishgaldan-azad-olunmush-erazilerin-boyuk-iqtisadi-potensiali-var.
9. Dadaşov Ə.Ə. İşğaldan azad olunmuş Füzulinin aqrar potensialı. 2020. URL: https://azertag.az/xeber/Isgaldan_azad_olunmus_Fuzuli_rayonunun_aqrar_poteensiali
10. İşğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişaf perspektivləri mövzusunda elmi-praktik konfrans. ADAU 26.11.2020. http://adau.edu.az/az/news/939/isaldan-azad-olunmuserazilerde-aqrar-sahenin-inkisaf-perspektivleri-mvzusunda-elmi-praktik-konfrans/.
11. Kənd təsərrüfatı və aqrar emal sənayesinin inkişafi üçün Füzulinin böyük potensialı var. 14 fevral 2021. https://www.azerbaijan-news.az/posts/detail/kend-teserrufati-ve-aqrar-emal-senayesinin-inkisafi-ucun-fuzulinin-boyuk-potensiali-var-1613248721
12. Musayev A., Zeynalov A. Qarabağın bərpası və inkişafi prosesində xarici dəstək vacib olan amildir. 27.01.2021. http://www.science.gov.az/news/open/15789.
13. Qarabağda aqrar sahədə inkişaf edəcək.12 Noyabr 2020.http://sosium.az/39900-2/.
14. Qarabağın iqtisadi inkişafi bu cür aparılacaq: Sənaye şəhərcikləri və aqro strukturlaryaratmaqla.18 Noyabr 2020. https://publika.az/news/qarabag/336138.html.
15. Torpaqlarımızın işğaldan azad olunması aqrar sahənin inkişafını daha da sürətləndirəcək. 06 Noyabr 2020. http://www.yap.org.az/az/view/interview/1048/torpaqlarimizin-ishgaldan-azad-olunmasi-aqrar-sahenin-inkishafini-daha-da-suretlendirecek#.
16. Qasımlı V. Qarabağın böyük iqtisadi potensialı var. 21.10.2020. http://www.azerbaijan-news.az/view-201766/vusal-qasimli-qarabagin-boyuk-iqtisadi-potensiali-var.
17. Aqrar tədqiqatlar Mərkəzinin internet saytı: https://atm.gov.az/

# QARABAĞDA EV TƏSƏRRÜFATI MALİYYƏSİNİN FORMALAŞMASININ ƏSASLARI

**Məmmədyarov Nicat**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
nijatmammadyarov@gmail.com
**Məmmədova Gültəkin**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
gultakin.memmedova@mail.ru

## Xülasə

Məqalə Qarabağda ev təsərrüfatı maliyyəsinin formalaşmasının əsaslarının tədqiqinə həsr edilmişdir. Qarabağ regionunun işğalı və işğaldan sonrakı inkişafı timsalında milli iqtisadi sistemi sabitləşdirmək üçün ev təsərrüfatlarının növləri, maliyyə resurslarının formalaşdırılmasına aid ədəbiyyat məlumatları demək olar ki, yox səviyyəsindədir. Məqalədə qoyulan problem ətrafında şəxsi fikirlər təqdim edilib. Qarabağ regionunun işğalı dövründə və işğaldan sonrakı inkişafı timsalında milli iqtisadi sistemi sabitləşdirmək üçün ev təsərrüfatlarının maliyyə resurslarının formalaşdırılması və istifadəsinin forma və üsullarına dair nəzəri yanaşmalar, tövsiyələr verilib. Tədqiqatda ev təsərrüfatlarının maliyyəsi kateqoriyasının əsas xüsusiyyətlərinin və onların formalaşmasına, milli iqtisadiyyat sistemində istifadəsinə təsir edən amillərin şərhinə aparıcı yerli və xarici alimlərin konseptual yanaşmalarını ümumiləşdirərək təhlillər vermək cəhdi edilib. İşdə milli təkrar istehsal sistemində ev təsərrüfatlarının maliyyə resurslarının reallaşdırılmasının əsas formalarını müəyyən etmək, iqtisadi artım və Qarabağ iqtisadi rayonun iqtisadiyyatının kredit, bank və real sektorları ilə qarşılıqlı əlaqədə onların təzahürünün xüsusiyyətlərinin əsaslarını analiz etməyə çalışılıb. Ev təsərrüfatlarının gəlirlərinin formalaşması və istifadəsi sahəsində dövlət siyasətinin antiböhran tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsinə yanaşmalar hazırlamaq və maliyyə axınlarının, investisiyaların işğaldan azad olan dövr üçün sağlamlaşdırılmasının əsas şərti kimi onlara inamın bərpası mexanizmini və dövlət tənzimlənməsinin adekvat tədbirlərinin, əhalinin dövlət dəstəyi alətlərinin metodoloji əsaslandırılması məsələlərinin təhlilləri verilib.

**Açar sözlər:** Qarabağ iqtisadi rayonu, maliyyə davranışları, ev təsərrüfatları, növləri, gəlir.

## Giriş.

Əsrin əvvəllərində Azərbaycanda maliyyə münasibətləri sistemi kəskin şəkildə dəyişdi. Ölkənin maliyyə sistemi qlobal maliyyə axınları sisteminə inteqrasiyaya açıq olan bazar yönümlü sistem xüsusiyyətlərini qazanmağa başladı. Bu, obyektiv olaraq, onun iştirakçılarının qarşılıqlı fəaliyyəti nəticəsində bazarın inkişafı proseslərinin nəzərdən keçirilməsinə vahid metodoloji yanaşma çərçivəsində maliyyə münasibətlərinin səmərəli idarə edilməsi problemlərinin yaranmasına səbəb oldu. Ev təsərrüfatlarının digər təsərrüfat subyektləri ilə qarşılıqlı əlaqəsinin milli iqtisadiyyat çərçivəsində tədqiqi maliyyə sferasının fəaliyyətinin ənənəvi iqtisadi təhlil çərçivəsindən kənara çıxan bir çox aspektlərini, xüsusən də indiki qlobal iqtisadi vəziyyət kontekstində izah etməyə imkan verir.

Ev təsərrüfatlarının iqtisadi vəziyyəti ölkənin maliyyə sisteminin vəziyyətinə, investisiya proseslərinin kəmiyyət və keyfiyyət parametrlərinə, habelə mal və xidmətlər bazarının dinamikasına həlledici təsir göstərir. Bu onunla əlaqədardır ki, milli gəlirin əsas payının ev təsərrüfatlarının əlində cəmlənməsi şərti ilə onların sərəncamında olan gəlirlərin strukturunun istehlak və qənaət edilmiş hissələrə bölünməsi istənilən iqtisadi sahədə həm sadə, həm də geniş təkrar istehsalı maliyyələşdirməyə imkan verir. Dövlətin adekvat maliyyə siyasəti ilə əhali həm bank sistemində kredit resursları, həm də birjalarda öz kapitalı şəklində maliyyə resurslarının fasiləsiz hərəkəti üçün maddi bazanı səmərəli şəkildə təmin edə bilir (Friedman M. 2002.).

Əldə edilən qələbə nəticəsində Qarabağ iqtisadi rayonunda maliyyə qeyri-sabitliyi amillərinin yetkinləşməsi şərtlərinin adekvat başa düşülməsinə obyektiv ehtiyac nümayiş etdirdi, bunlar arasında ev təsərrüfatlarının davranış aspektləri, onların iqtisadi seçiminə təsir edən sosial normalar və dəyərlər

əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycanda mövcud maliyyə böhranının mahiyyəti getdikcə daha çox inam böhranı yəni, maliyyə münasibətlərinin iştirakçıları arasında münasibətlərin sosial sferasına çevrilməsi ilə əlaqələndirilir. Həqiqətən də maliyyə sferasına nüfuz edərək, ev təsərrüfatlarının maliyyə vasitəçilərinə inamı maliyyə strukturlarının əslində, onun əsas kapitalının imicinin tərkib elementinə çevrilir. İstehlakçılar maliyyə xidmətlərini ardıcıllıq, sabitlik və proqnozlaşdırıla biləcəл qədər almır, gələcək dəyişikliklərin qeyri-müəyyənliyi qorxusundan xilas olmağa çalışırlar.

Qarabağda ev təsərrüfatlarının ən mühüm iştirakçılarına çevrildiyi yeni maliyyə münasibətlərinin formalaşması prosesləri mərkəzləşdirilmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidin xüsusiyyətləri, iqtisadi qərarlar tam qeyri-müəyyənlik şəraitində, onun nəticələrinə görə bütün məsuliyyət yükü öz üzərinə qoyulduqda fərdi sahibkarlığın uyğunlaşmasının çətinliyi səbəbindən əhali üçün ağrılıdır (Олейник А. 2006.156).

Bütün bu hallar ondan ibarətdir ki, müasir maliyyə sistemi, xüsusən də müasir böhran kontekstində öz inkişafında elə bir keyfiyyətə çatmışdır ki, onun yalnız maliyyə axınlarının klassik modelləri əsasında şərhi və təsviri praktiki olaraq qeyri-mümkün olur. Təsadüfi deyil ki, Qərb maliyyəçiləri geniş miqyasda müasir iqtisadi nəzəriyyənin sona çatdığını və ev təsərrüfatlarının mövcud olduğu makroiqtisadi dinamikanın ən yeni tsiklinin mexanizmini başa düşməyə imkan verən ən son fundamental nəzəri inkişaflara ehtiyac olduğunu dərk etdilər.

Bu şəraitdə maliyyə aktivlərini formalaşdırmaq, Qarabağ iqtisadi rayonunun təsərrüfatlarının maliyyə vəziyyətini gücləndirmək və resurs artırmaq üçün ev təsərrüfatlarının əmanətlərinin investisiya prosesinə cəlb edilməsi üçün böhran əleyhinə hüquqi, təşkilati, maliyyə, məlumat mexanizmlərinin hazırlanması və həyata keçirilməsinə obyektiv ehtiyac var. Bu zaman iqtisadi qeyri-müəyyənlik şəraitində maliyyə bazarının bazası artır. Bu və digər hallar makroiqtisadi dinamikanın müxtəlif mərhələlərində milli təsərrüfat sistemlərində ev təsərrüfatlarının maliyyə resurslarının formalaşması və istifadəsinin nəzəri və praktiki aspektlərinə həsr olunmuş elmi tədqiqatların aktuallığını müəyyən edir.

Məqalədə əsas məqsəd Qarabağ regionunun işğalı dövründə və işğaldan sonrakı inkişafı timsalında milli iqtisadi sistemi sabitləşdirmək üçün ev təsərrüfatlarının maliyyə resurslarının formalaşdırılması və istifadəsinin forma və üsullarına dair nəzəri yanaşmalar, tövsiyələr təqdim etməkdir. Tədqiqatda ev təsərrüfatlarının maliyyəsi kateqoriyasının əsas xüsusiyyətlərinin və onların formalaşmasına, milli iqtisadiyyat sistemində istifadəsinə təsir edən amillərin şərhinə aparıcı yerli və xarici alimlərin konseptual yanaşmalarını ümumiləşdirərək təhlillər vermək cəhdi edilib. Milli təkrar istehsal sistemində ev təsərrüfatlarının maliyyə resurslarının reallaşdırılmasının əsas formalarını müəyyən etmək, iqtisadi artım və Qarabağ iqtisadi rayonun iqtisadiyyatının kredit, bank və real sektorları ilə qarşılıqlı əlaqədə onların təzahürünün xüsusiyyətlərinin əsaslarını analiz etməyə çalışılıb. Qarabağ iqtisadi rayonu timsalında ev təsərrüfatlarının maliyyə resurslarının milli iqtisadiyyatda formalaşması və istifadəsi sisteminin xüsusiyyətlərini, habelə regionda maliyyə qeyri-sabitliyinin əsas səbəbləri kimi risklərin artmasının iqtisadi əhəmiyyəti nəzərə alınmaqla əhalinin sərəncamında olan gəlirlərin regional səviyyədə bölüşdürülməsi və yenidən bölüşdürülməsinin əsas problemləri, iqtisadi qeyri-müəyyənlik şəraitində maliyyə axınlarının xüsusiyyətlərini nəzərə almaqla əhalinin əmanətlərinin formalaşmasının xüsusiyyətlərini, strukturuna təsir edən amilləri müəyyən etmək, habelə regionda genişləndirilmiş təkrar istehsalın maliyyələşdirilməsi baxımından onların investisiya potensialının qiymətləndirilməsinin əsaslarını müəyyənləşdirmək günün əsas məsələlərindəndir.

Ev təsərrüfatlarının gəlirlərinin formalaşması və istifadəsi sahəsində dövlət siyasətinin antiböhran tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsinə yanaşmalar hazırlamaq və maliyyə axınlarının və investisiyaların işğaldan sonrakı sağlamlaşdırılmasının əsas şərti kimi onlara inamın bərpası mexanizmini və dövlət tənzimlənməsinin adekvat tədbirlərinin, əhalinin dövlət dəstəyi alətlərinin metodoloji əsaslandırılmasını müəyyən etmək labüddür.

Bütün adı çəkilən məsələlərin formalaşması üçün region üçün ev təsərrüfatlarının maliyyə mənbələri müəyyən edilməlidir. Məlumdur ki, Azərbaycan iqtisadi sisteminin davam edən islahatlarının təsiri altında transformasiyası ev təsərrüfatlarının iqtisadi subyekt kimi rolunu artırıb. Bu

təsir, ölçüsü və strukturu son istehlakçının gəlirindən birbaşa asılı olan ev təsərrüfatlarının səmərəli tələbinə əsaslanır. İqtisadi sahədə bazar mexanizmlərinin həyata keçirilməsi bu gəlirlərin adekvat ölçülməsini tələb edir. Təkcə bazar iqtisadiyyatına deyil, bütün ictimai-iqtisadi formasiyalara xas olan əmtəə-pul münasibətləri şəraitində təsərrüfat fəaliyyətinin nəticələri gəlir şəklində ifadə olunur. Cəmiyyətin hər bir üzvü müəyyən ev təsərrüfatının üzvü olduğundan şəxsi tələbatların ödənilməsinə ailə gəlirlərinin formalaşması vasitəçilik edir. "Əhalinin gəlirlərinin statistikası" adlı monoqrafiyasında A.E. Surinov qeyd edir: "Gəliri öyrənərkən təkrar istehsal prosesinin təhsil, ilkin bölgü, yenidən bölüşdürülməsi, yekun (birdəfəlik) gəlirin formalaşması, onların son istehlakın və yığımların maliyyələşdirilməsi üçün istifadəsi kimi mərhələlərini ayırmaq məntiqlidir. Bu mərhələləri cəmiyyətin ilkin istehlakçısı və mülkiyyət elementi kimi ev təsərrüfatları səviyyəsində araşdırmaq olar. Onda hər mərhələdə ailə gəlirin həcmi və strukturu ev təsərrüfatlarının iqtisadi davranışının müxtəlif aspektlərini səciyyələndirəcək" (Лучкина Л. 2004. с.47).

**Ev təsərrüfatı gəlirləri makroiqtisadi göstəricilərdən biri kimi**.

Hesab edirik ki, ev təsərrüfatlarının gəlirlərinin iqtisadi mahiyyətini açıqlayarkən və ev təsərrüfatlarının gəlirlərinin makroiqtisadi göstəricilər sistemində mövqeyini əks etdirən zaman 1993-cü ildə BMT-nin Beynəlxalq Milli Hesablar Sisteminə əsaslanmaq lazımdır. Məşhur ingilis iqtisadçısı D. Hiks tərəfindən gəlir hazırlanmış konsepsiyaya görə, gəlir onun sahibinin özünü yoxsullaşdırmadan mal və xidmətlərin alınmasına xərcləyə biləcəyi və topladıqları sərvətləri azaltmadan və heç bir maliyyə öhdəliyi götürmədən maksimum pul məbləğidir. Beləliklə, D. Hiksin anlayışında əldə olunan gəlir heç də pulun istənilən məbləği deyil, yalnız bu və ya digər şəxsin sərəncamında olan və son istehlaka xərclənə bilən, özünü yoxsul saymayan pul vəsaitinin bir hissəsidir. Milli Hesablar Sistemi bütün təsərrüfat subyektlərinin institusional sektorlar üzrə qruplaşdırılmasından irəli gəlir (Олейник А. 2001.с.98).

Ev təsərrüfatlarının gəlirləri haqqında məlumat makro və mikro səviyyədə formalaşır. Balansın gəlir hissəsi müxtəlif mənbələrdən daxilolmalardan, məxaric hissəsi isə əhaliyə ödənilən transfertlərdən, mal və xidmətlərin alınmasına çəkilən xərclərdən və əhalinin əmanətlərində və qiymətli kağızlarda əmanətlərinin artması hesabına formalaşır. Bütün bu əməliyyatlar haqqında məlumat statistik və maliyyə hesabatlarından istifadə etməklə, seçmə sorğular vasitəsilə, eləcə də digər üsullardan istifadə etməklə müəyyən edilə bilər (Кашин Ю. 2005. с.43). Ümumi gəlir ailə büdcəsinə pul və təbii şəkildə daxil olan bütün daxilolmaları ümumiləşdirən mühüm inteqral göstəricidir, lakin o, əhalinin şəxsi ehtiyaclarını və əmanətlərini ödəmək imkanlarını tam əks etdirmir. Yekun gəlir formalaşmalıdır (Жеребин В.М., Романов А.Н. 2010. с.128). və bu ailə üzvlərinin son istehlakı və ümumi kapitalın formalaşması üçün istifadə olunur.

Məişət sektorunun rolunu səciyyələndirən makroiqtisadi göstəricilərin dəyişmə meyllərini təhlil etdikdə onun ölkə iqtisadiyyatının inkişafına təsir miqyası danılmazdır. Amma biz dövlətin ev təsərrüfatlarının gəlirlərinin artırılmasına şərait yaradılmasına və onların əmanətlərinin investisiyaya çevrilməsi üçün səmərəli institusional mühitin təşkilinə yönəlmiş siyasətini müşahidə etmirik (Məmmədov R.Ş. 2000.s.123).

Apqrdığımız araşdırmalara əsasən düşünürük ki, A. Oleinik tərəfindən təklif olunan təsnifat bu gün ölkəmizin ev təsərrüfatlarının vəziyyətini ən tam şəkildə əks etdirir.

- komanda təsərrüfatında fəaliyyət göstərən ev təsərrüfatı;
- bazar mühitində fəaliyyət göstərən ev təsərrüfatı;
- komanda iqtisadiyyatından bazar iqtisadiyyatına keçid şəraitində fəaliyyət göstərən ev təsərrüfatı.

Komanda iqtisadiyyatı çərçivəsində şəxsi həyatın dövlət tərəfindən qorunan sferasının

mövcudluğundan danışmaq çətindir. Bu, ailənin və "ev təsərrüfatının" genişlənməsinə xüsusilə güclü ehtiyacın səbəbidir: fərdin şəxsi məkanını yalnız bu təşkilatlar qoruya bilər. Kəsirli iqtisadiyyatda "ev təsərrüfatının" formalaşmasının iqtisadi əsası onun əsasında qıt mallara, resurslara və qarşılıqlı xidmətlərin göstərilməsi prinsipi əsasında fəaliyyət göstərən "əlaqələrin" yaradılması proseslərinə çıxış imkanlarını genişləndirməkdir (Чобану К.Г. 2007.с.69).

"Ev təsərrüfatının" əsas gəlir mənbələri bazarın müəyyən etdiyi sahəyə keçir və bu da ev təsərrüfatının dövlətdən minimum asılılığına səbəb olur. Dövlətin fəaliyyəti yalnız o dərəcədə maraq doğurur ki, dövlət əmək bazarında (əmək məcəlləsi vasitəsilə) və onun gəlirlərinin bir hissəsini tələb etdiyi halda əməliyyatların təminatçısı kimi çıxış etsin. Keçid iqtisadiyyatında "ev təsərrüfatlarının" məqsədinin sağ qalmaq,"ev təsərrüfatının" qoruyucu funksiyalarını qorumaq istəyi kimi tərif verilib (Friedman M. 2002.p.79).

Ev təsərrüfatlarının sosial təkrar istehsal sistemində artan rolu kontekstində onun vahidlərinin nəzərdən keçirilməsi üçün müxtəlif yanaşmalara ehtiyac var: ev təsərrüfatlarının iqtisadi sistemin ayrı-ayrı vahidləri kimi öyrənilməsini nəzərdə tutan mikro və makrosəviyyədə xalq təsərrüfatının sektoru kimi məcmusunu öyrənməyə imkan verir. Mikroiqtisadi təhlil ev təsərrüfatlarının funksiyalarını, onların iqtisadi davranışlarını ətraflı öyrənməyə imkan verir. Bu səviyyədə ev təsərrüfatlarının iqtisadi vəziyyəti və potensialı, onların gəlirləri, xərcləri, yığımları araşdırılır və qiymətləndirilir (Məmmədov R.Ş. 2000.s.153).

Ev təsərrüfatlarının "özünü təmin etmə qabiliyyətinin" artması, resursların aktiv mübadiləsindən imtinası maddi vəziyyətin pisləşməsi və pul gəlirlərinin olmaması deməkdir. Bu baxımdan, nağd gəlirlərin müvafiq artımı ilə ev təsərrüfatlarının "təbiiləşməsi"nin azalması ev təsərrüfatlarının bazar statusunun formalaşması və onların iqtisadiyyatın digər sahələri ilə münasibətlərinin inkişaf etdirilməsi amillərindən biri kimi qiymətləndirilə bilər.

İqtisadiyyatda, xüsusən onun transformasiyası dövründə iqtisadi subyektlər arasında yeni münasibətlər yaranır. Fikrimizcə, Azərbaycan iqtisadiyyatının transformasiyası prosesində həm də diqqətəlayiq proseslər gedir və mühüm tendensiya tədqiqatımızın sahəsini müəyyən edən tendensiyadır: ev təsərrüfatlarının maliyyəsinin dövlət maliyyəsi və müəssisə maliyyəsi ilə eyni səviyyədə meydana çıxmasıdır.

Maliyyə axınları müəssisələr, təşkilatlar, şirkətlər olan ev təsərrüfatlarından yaranır. Onlardan mal və xidmətlər alan ev təsərrüfatları onlara əldə etdikləri faydaların dəyərini qaytarır. Eyni zamanda hüquqi şəxslər ev təsərrüfatlarını kredit resursları ilə yanaşı, mənfəət, dividend, faiz, icarə haqqı ilə də təmin edə bilərlər (Pigou A. 2005.p.95). Müasir şəraitdə ev təsərrüfatları təkcə cəmiyyətin istehlakçı vahidi kimi deyil, həm də ən mühüm sosial-iqtisadi funksiyaları yerinə yetirilməsi, onların gəlirlərinin istifadəsi ilə bağlı qərarların iqtisadi deyil, sosial məqsədlər əsasında qəbul edilməsini şərtləndirir. İqtisadi məqsədlərə nail olmaq çox vaxt sosial məqsədlərin daha dolğun həyata keçirilməsinə yönəldilir: qocalığın təmin edilməsi, gələcək nəsillər üçün daha yaxşı başlanğıc şəraitinin yaradılmasıdır.

Bazar iqtisadiyyatı özünəməxsus təsisat və mexanizmləri yaradır ki, bu da təsərrüfatların əmanətlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi yolu ilə ev təsərrüfatlarının məqsədlərinə çatmasına şərait yaradır. A.Marşallın qeyd etdiyi kimi, o, bizneslə məşğul olmaq imkanı olmayan insanlara öz əmanətlərindən tam şəkildə bəhrələnməyə imkan verirdi (Гетьмана В.Т. 2010.с.187).

Eyni zamanda, ev təsərrüfatlarının əmanətlərinin investisiyaya çevrilməsi mexanizmi mübahisəlidir. Əmanət və investisiya arasında bərabərlik yalnız makroiqtisadi tarazlıq şəraitində əldə edilir.

Müasir bazar iqtisadiyyatında əmanətlərin investisiyalara avtomatik çevrilməsinin olmaması

ideyası əmanətlərə və investisiyalara müxtəlif amillərin təsir etdiyinə inanan C.Keyns tərəfindən müdafiə edilmişdir. Likvidliyə üstünlük verilməsinə və nəticədə mütəşəkkil olmayan ev təsərrüfatlarının əmanətlərinin həcminə təsir edən amillərə:

- gəlirin məbləği və onun alınması ilə xərclənməsi arasındakı fasilənin müddəti;
- nağd pul əmanətləri
- gələcək faiz dərəcəsi ilə bağlı risk və qeyri-müəyyənlik

aid etmək olar (Шахова Г.Я. 2003.c.114).

Ev təsərrüfatları üçün yığımlar gələcəkdə ehtiyacların ödənilməsi və istehlakın artırılması üçün məhdud gəlirləri aradan qaldırmaq vasitəsi olmaqla yanaşı, həm də ev təsərrüfatlarını qoruyan bir növ "stabilizator" rolunu oynayır.

Beləliklə, belə nəticəyə gəlirik ki, ev təsərrüfatlarının gəlirləri müəyyənedici makroiqtisadi göstəricilərdən biridir.

**Qarabag iqtisadi rayonunda ev təsərrüfatının maliyyəsinin formalaşması məsələləri.**

44 günlük müharibədə qələbəmiz azad olunan ərazilərin səmərəli istifadə planlarının da qurulmasını zəruri edir. Qarabağ itisadi rayonu üçün perspektivli sahələrdən biri də turizm sahəsidir. Qarabağ iqtisadi rayonu Kiçik Qafqaz dağlarının şərq və cənub-şərq hissəsində dağlıq və dağ ətəyi, habelə düzən ərazilərdə yerləşir. Qarabağ iqtisadi rayonunun tərkibinə daxildir: Ağdam-Tərtər, Xocavənd və Xocalı, Şuşa, Cəbrayıl, habelə Füzuli rayonları və Xankəndi şəhərləridir. Əvvəlki təsərrüfat sahələrinin yenidən bərpası və inkişaf etdirilməsi iqtisadiyyat və aqrar turizmin qurulmasına böyük töhfə verəcəkdir.

**Cədvəl 1: Qarabağ iqtisadi rayonun emoqrafik göstəriciləri (2010-2019-cu illər)**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Nəfər** | | | | | | |
| Əhalinin sayı (ilin sonuna, min nəfər) | 624.1 | 662.1 | 669.8 | 675.9 | 682.0 | 687.7 |
| Təbii artım | 6934 | 6993 | 6508 | 5147 | 5028 | 5214 |
| Doğulanlar | 9778 | 10059 | 9567 | 8403 | 8301 | 8367 |
| Ölənlər | 2844 | 3066 | 3059 | 3256 | 3273 | 3153 |
| *o cümlədən:* | | | | | | |
| 1 yaşadək ölən uşaqlar | 65 | 52 | 72 | 64 | 71 | 51 |
| Nikahlar | 4326 | 3824 | 3398 | 3542 | 3571 | 3754 |
| Boşanmalar | 671 | 916 | 858 | 994 | 1015 | 1163 |
| **Əhalinin hər 1000 nəfərinə** | | | | | | |
| Təbii artım | 11.2 | 12.8 | 11.7 | 9.1 | 8.8 | 9.1 |
| Doğulanlar | 15.8 | 18.4 | 17.2 | 14.9 | 14.6 | 14.6 |
| Ölənlər | 4.6 | 5.6 | 5.5 | 5.8 | 5.8 | 5.5 |
| *o cümlədən:* | | | | | | |
| 1 yaşadək ölən uşaqlar[1)] | 6.6 | 5.4 | 6.3 | 7.6 | 8.6 | 6.1 |
| Nikahlar | 7.0 | 7.0 | 6.1 | 6.3 | 6.3 | 6.5 |
| Boşanmalar | 1.1 | 1.7 | 1.5 | 1.8 | 1.8 | 2.0 |

**Mənbə:** https://www.stat.gov.az/source/budget_households/, məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Cədvəl 2: Qarabağda əhalinin gəlirləri (2015-2019)**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı (min nəfər) | 299.2 | 305.1 | 308.5 | 310.6 | 312.9 |
| Məşğul əhalinin sayı, min nəfər | 283.4 | 288.7 | 292.3 | 294.1 | 296.5 |
| İqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər | 44.2 | 43.1 | 41.1 | 40.8 | 42.6 |
| Orta aylıq nominal əmək haqqı, manat | 240.7 | 238.1 | 241.7 | 294.7 | 351.7 |
| Dövlət məşğulluq agentliyinin yerli qurumlarında işsiz statusu verilən şəxslər ( nəfər) | 1544 | 1553 | 1563 | 1186 | 4432 |
| işsizliyə görə müavinət alanlar ( nəfər) | 58 | 113 | 226 | 21 | 16 |

**Mənbə:** https://www.stat.gov.az/source/budget_households/,, məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qarabağın cədvəl 2-də göstərilən statistik təhlilində əhalinin pul gəlirlərinin, xərclərinin və əmanətlərinin həcmini və strukturunu xarakterizə edən əsas məlumat mənbələrindən biri əhalinin pul gəlirləri və xərclərinin balansıdır, bunun üçün dövlət statistikası, maliyyə hesabatları məlumatlarından və bankların və büdcədənkənar sosial fondların vəsaitlərindən istifadə olunur. Balans ümumi regional məhsulun pul gəlirləri şəklində əhalinin sərəncamına düşən hissəsini əks etdirir. Təhlil olunan dövr ərzində Qarabağda ev təsərrüfatlarının nominal pul gəlirlərində artım tendensiyası müşahidə olunur.

Əhalinin sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, əmək haqqı əsas pul gəliri olaraq qalır. Nominal ifadədə əmək haqqı gəlirləri 2015-ci ildən bəri müəyyən dərəcədə artmışdır. 2020-ci ildə ev təsərrüfatlarının sərəncamında olan real gəlir 2015-ci ilin səviyyəsi ilə müqayisədə artmışdır. 2015-ci ildən bəri müsbət dinamikanın şahidi olduq ki, bu: yeni gəlir növlərinin yaranması və onların gəlirlərin ümumi strukturunda xüsusi çəkisinin artması; dövlət sektorunda çalışan işçilərin əmək haqlarının indeksləşdirilməsi; kommersiya müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması, onların işçilərinin əmək haqlarının artmasına təsir göstərmişdir; pensiyaçılar üçün pensiyaların indeksləşdirilməsi; əmək haqqı və pensiya borclarının azaldılması ilə müəyyən olunur.

Maliyyə böhranının ev təsərrüfatlarına təsirini görmək üçün 2015-ci ildə və 2020-cu ilə qədər Qarabagda ev təsərrüfatlarının pul gəlirlərini daha ətraflı nəzərdən keçirək.

**Cədvəl 3. 2015-2020-ci illərdə ev təsərrüfatlarında ay ərzində adambaşına düşən gəlirlər (manatla)**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Gəlirlər - cəmi** | **241.5** | **256.8** | **267.4** | **276.1** | **2923.6** | **292.4** |
| Muzdlu işlə əlaqəli əldə olunan gəlirlər | 77.2 | 87.3 | 88.5 | 93.4 | 98.3 | 105.1 |
| Özünüməşğulluqdan gəlirlər | 96.1 | 101.6 | 103.5 | 105.2 | 107.1 | 98.9 |
| kənd təsərrüfatı məhsulları istehsalı zamanı alınan gəlirlər | 32.2 | 33.8 | 34.9 | 36.1 | 36.4 | 34.6 |
| Mülkiyyətdən alınan gəlirlər | 2.3 | 2.4 | 2.5 | 2.6 | 2.6 | 1.7 |
| əmlakın icarəyə verilməsi zamanı gəlirlər | 1.7 | 1.8 | 1.8 | 1.9 | 1.9 | 1.2 |
| Alınmış cari transfertlər | 38.2 | 40.8 | 41.9 | 44.4 | 49.4 | 57.9 |
| pensiyalardan | 32.3 | 34.8 | 35.8 | 37.8 | 41.5 | 48.4 |
| müavinət və sosial yardımlardan | 3.8 | 4.2 | 5.2 | 6.1 | 7.6 | 9.1 |
| Natura şəklində daxilolmaların pul ifadəsində dəyəri | 2.1 | 2.2 | 0.9 | 0.7 | 0.5 | 0.3 |
| Digər gəlirlər | 26.1 | 27.8 | 30.3 | 30.7 | 34.6 | 29.8 |
| ölkə daxilində digər ailələrdən alınan vəsaitlər | 19.6 | 21.2 | 23.2 | 23.6 | 27.2 | 24.2 |
| ölkə xaricindən alınan vəsaitlər | 6.4 | 6.7 | 7.2 | 7.2 | 7.5 | 5.77 |

**Mənbə:** https://www.stat.gov.az/source/budget_households/, məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əhalinin pul gəlirləri əhalinin həyat səviyyəsinin əsas göstəricilərindən biridir. Ev təsərrüfatlarının xərclərinin müəyyən edilməsinə yanaşmalar məzmunca bir-birinə olduqca oxşardır. Ev təsərrüfatlarının kassa xərcləri bölünür: 1.-İstehlak xərcləri (mal və xidmətlərin alınması). Xidmətlərə görə ödəniş və digər xərclər daxildir (icarə və kommunal ödənişlər; məişət xidmətləri üçün ödəniş; uşaq bağçalarına töhfələr; sanatoriya və istirahət evlərinə göndərişlərin, pullu klinikalarda müalicənin xərcləri).2.-İcbari ödənişlər və könüllü töhfələr, o cümlədən vergilər və rüsumlar, sığorta ödənişləri, dövlət və kooperativ təşkilatlarına ayırmalar, mənzil-tikinti kooperativlərinə töhfələr, mənzillərin alınması, kreditlərin ödənilməsi, əmtəə krediti üzrə faizlər, icbari sığorta haqları, Pensiya Fondu və s. 3.Pul qənaəti. Bura əhalinin kommersiya və mərkəzi banklarda əmanət qoyması, istiqrazların alınmas kimi xərclər daxildir.

**Cədvəl 4: Azərbaycanda sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü (2019-cu il)**

| Göstəricilər | Cəmi | Mikro | Kiçik | Orta |
|---|---|---|---|---|
| Respublika üzrə | 271304 | 262622 | 5956 | 2726 |
| Bakı ş. | 129989 | 124317 | 4026 | 1646 |
| Abşeron iqtisadi rayonu | 22786 | 22236 | 365 | 185 |
| Gəncə-Qazax iqtisadi rayonu | 24825 | 24374 | 290 | 161 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 13327 | 13055 | 164 | 108 |
| Lənkəran iqtisadi rayonu | 13653 | 13421 | 151 | 81 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 11270 | 11047 | 140 | 83 |
| Aran iqtisadi rayonu | 37403 | 36664 | 480 | 259 |
| Yuxari Qarabağ iqtisadi rayonu | 4287 | 4178 | 73 | 36 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 381 | 350 | 24 | 7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 5937 | 5822 | 75 | 40 |
| Naxçıvan Muxtar Respublikası | 7446 | 7158 | 168 | 120 |

Qarabağ ərazisində iqtisadiyyatın əsasını işğal olunan zamanadək kənd təsərrüfatı təşkil edirdi. Kənd təsərrüfatının başlıca sahələri üzümçülük, pambıqçılıq, tütünçülük, habelə meyvəçilik təşkil edirdi. Regionda həmçinin meyvə, kartof və bostan məhsulları da becərilirdi. Rayonda barama saxlanması üçün də geniş sahələr üzrə tut bağları salınmışdı. Qarabağda heyvandarlıq inkişaf etmişdir. İqtisadi rayonun sənayesi də yerli kənd təsərrüfatı xammalı emalı üzrə əsaslanırdı.

Bilirik ki, ən mühüm təsərrüfat subyektlərindən biri kimi ev təsərrüfatları əhəmiyyətli maliyyə resurslarına malikdir. Eyni zamanda, əhalinin maliyyə resursları ölkə iqtisadiyyatında investisiya prosesinin zəruri mənbəyi və genişləndirilmiş təkrar istehsalın şərtidir.

Ev təsərrüfatlarının əmanətlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi və investisiyaya çevrilməsi müəyyən şəraitin yaradılmasını tələb edir ki, onlar müxtəlif alətlərdən istifadə etməklə əmanətçilər və təsərrüfat subyektləri öz məqsədlərinə nail ola bilsinlər. Ev təsərrüfatlarının əmanətləri makroiqtisadi təkrar istehsal prosesinin mühüm tərkib hissəsidir. Bununla əlaqədar olaraq, ev təsərrüfatlarının əmanətlərinin investisiyalara çevrilməsi üçün ümumi şərtləri ayırd edə bilərik. Bu şərtlərə sahibkarlıq subyektlərindən investisiya tələbini göstərmək olar. Təcrübə göstərir ki, yığılan gəlirin heç də hamısı daxili investisiyalara çevrilmək iqtidarında deyil: onun bir hissəsi tezavrasiyaya (o cümlədən nağd şəkildə) yönəldilir, bir hissəsi xaricə yerləşdirilir. Beləliklə, əmanətlərin iqtisadiyyata cəlb edilməsi onların ölkə daxilində təşkilini nəzərdə tutur. Mütəşəkkil əmanətlərin həcminin maksimuma çatdırılması əmanət prosesinin tənzimlənməsinin son məqsədi və əmanətlərin investisiyaya çevrilməsinin ilkin şərtidir. Burada əsas rol maliyyə bazarına və maliyyə-kredit təşkilatlarına verilir. Maliyyə vasitəçiliyi üçün inkişaf etmiş institusional çərçivə və hazırlanmış alətlərin mövcudluğu əmanətlərin investisiyalara çevrilməsi üçün ən mühüm şərtlərdir. Həmçinin bu şərtlərin davamı kimi qeyd etməliyik ki, iqtisadiyyatı maliyyələşdirmək üçün ev təsərrüfatlarının əmanətlərinin səfərbər edilməsi maliyyə institutlarına və bütövlükdə maliyyə bazarına inam olmadan mümkün deyil

**Cədvəl 5: Qarabagda kənd təsərrüfatı sahəsi (2010-2019-cu illər)**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi (bütün təsərrüfat kateqoriyaları üzrə), ha** | | | | | | |
| Dənlilər və dənli paxlalılar | 97750 | 76809 | 79737 | 68898 | 79480 | 79989 |
| o cümlədən buğda | 81251 | 53575 | 58238 | 50804 | 61836 | 62671 |
| Pambıq | 1472 | 597 | 1964 | 8178 | 8500 | 6828 |
| Şəkər çuğunduru | 987 | 1612 | 2019 | 3067 | 1841 | 1541 |
| Dən üçün günəbaxan | 572 | 1015 | 978 | 1678 | 1487 | 2534 |
| Kartof | 1192 | 1370 | 1326 | 1157 | 1156 | 1073 |
| Tərəvəz | 4158 | 4501 | 4496 | 5523 | 6372 | 6438 |
| Bostan bitkiləri | 976 | 839 | 955 | 502 | 557 | 575 |
| Meyvə və giləmeyvə | 2255 | 2777 | 2838 | 2878 | 3121 | 3308 |
| Üzüm | 121 | 171 | 171 | 171 | 172 | 193 |
| **Əsas bitkiçilik məhsullarının istehsalı (bütün təsərrüfat kateqoriyaları üzrə), ton** | | | | | | |
| Dənlilər və dənli paxlalılar | 183156 | 250986 | 260058 | 206481 | 244862 | 256179 |
| o cümlədən buğda | 146856 | 176144 | 189864 | 154947 | 192706 | 202313 |
| Pambıq | 2084 | 969 | 3747 | 16730 | 16236 | 20881 |
| Şəkər çuğunduru | 33081 | 59674 | 82300 | 126611 | 65452 | 48416 |
| Dən üçün günəbaxan | 1212 | 2363 | 2292 | 3935 | 3796 | 6708 |
| Kartof | 15212 | 17572 | 17225 | 14887 | 16006 | 14752 |
| Tərəvəz | 60719 | 71948 | 72220 | 98285 | 127374 | 131779 |
| Bostan məhsulları | 11567 | 11468 | 12670 | 6604 | 7433 | 7886 |
| Meyvə və giləmeyvə | 11949 | 14027 | 14610 | 16202 | 18346 | 18543 |
| Üzüm | 1290 | 2262 | 1707 | 3045 | 2506 | 2589 |
| **Məhsuldarlıq (bütün təsərrüfat kateqoriyaları üzrə), sentner/ha** | | | | | | |
| Taxıl | 18.7 | 32.6 | 32.6 | 29.9 | 30.8 | 32.0 |
| o cümlədən buğda | 18.1 | 32.9 | 32.6 | 30.5 | 31.2 | 32.3 |
| Pambıq | 14.2 | 16.2 | 19.1 | 20.5 | 19.1 | 30.6 |
| Şəkər çuğunduru | 341 | 370 | 453 | 437 | 380 | 342 |
| Dən üçün günəbaxan | 21.2 | 23.3 | 23.4 | 23.4 | 25.3 | 26.0 |
| Kartof | 128 | 128 | 130 | 129 | 138 | 137 |
| Tərəvəz | 146 | 156 | 157 | 174 | 192 | 200 |
| Bostan bitkiləri | 119 | 137 | 133 | 132 | 134 | 139 |

**Mənbə:** https://economy.gov.az/media/pdf/yuxari-qarabag-2019.pdf, məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Beləliklə, milli maliyyə sisteminin dayanıqlı fəaliyyət göstərməsi üçün həm cari istehlakı saxlamaq, həm də genişlənmiş təkrar istehsalı saxlaya bilmək üçün yığımları formalaşdırmaq lazımdır. Biz ev təsərrüfatlarının maliyyəsinin rolunun artması qanunauyğunluqlarını müəyyən etdik və göstərdik ki, etimad böhranı şəraitində milli iqtisadi sistemin sabitləşməsinin amillərindən biri də ev təsərrüfatları, yəni onların mütəşəkkil formada əmanətləri ola bilər (Ev təsərrüfatlarının tədqiqatı statistikasina dair keyfiyyət məruzəsi 2016: s.58).

Hər hansı bir iqtisadi sistemdə olduğu kimi, Qarabağda da yığım prosesinin obyektiv amilləri subyektiv amillərlə tamamlanır ki, bu da çox vaxt əmanət predmetinə məhdudlaşdırıcı təsir göstərir. Əmanət prosesini və şəxsi büdcə planlaşdırmasının üfüqü kimi daxili amili zəiflədir. Zəruri qənaətin miqdarı subyektiv və obyektiv amillərin əks təsiri nəticəsində müəyyən edilir: bir tərəfdən mümkün qədər qənaət etmək istəyi, digər tərəfdən- əmanət etmək üçün qeyri-kafi cari gəlir.

Azərbaycan iqtisadiyyatında ev təsərrüfatlarının gəlirlərinin differensiallaşdırılması kimi makroiqtisadi amil də qənaət prosesinə böyük təsir göstərir. Hər il imkanlı ev təsərrüfatlarının sayı artır, lakin onlar öz gəlirlərinin əhəmiyyətli bir hissəsini saxlamırlar, əksinə inkişaf etmiş ölkələrdə öz statuslarına və ya istehlak standartlarına uyğun həyat səviyyəsini saxlamağa sərf edirlər.

Əhalinin əmanətləri iqtisadi proseslər sistemində xüsusi yer tutur, çünki onlar bir çox təsərrüfat

subyektlərinin: ev təsərrüfatlarının özünün, kredit-bank sisteminin, müəssisələrin və dövlətin maraqlarına toxunur. Əmanətlər bir tərəfdən əhalinin həyat səviyyəsinin mühüm göstəricisi, digər tərəfdən isə investisiya mənbələrindən biridir.

Müasir Azərbaycan iqtisadiyyatında, uzunmüddətli inkişaf konsepsiyasına uyğun olaraq, ilk yerlərdən biri dayanıqlı iqtisadi artımın təmin edilməsi problemidir, bunun həlli üçün dünya təcrübəsinin göstərdiyi kimi, müstəqil investisiya resurslarını cəlb etmək lazımdır. Bu tələblər daxili investisiya hesabına ödənilir ki, bunun da əsas mənbələrindən biri məişət sektorunun yığımlarıdır. Bundan əlavə, əhalinin əmanətlərinin iqtisadi dövriyyəyə cəlb edilməsi onların daxili iqtisadiyyatın sosial-iqtisadi inkişafı proseslərində iştirakını artırır ki, bu da ev təsərrüfatlarının qənaət davranışı amillərinin öyrənilməsini aktual edir (Sadıqov M.M. 2001.s.97).

**Cədvəl 6: Ev təsərrüfatlarının qənaət davranışını müəyyən edən amillərin təsnifatı**

| **Təsnifat meyarı** | **Qənaət davranış faktorları** |
|---|---|
| Faktorun formalaşma səviyyəsi | Makroiqtisadi sistemlər (bölüşdürmə münasibətləri sistemi, dövlət qiymət və gəlir siyasəti, ölkədəki demokratik, siyasi və sosial-iqtisadi vəziyyəti)<br>Mikroiqtisadi (əhalinin gəlirləri, ehtiyacları, əmanətlərin təşkili formalarının və əhalinin kreditləşdirilməsi sisteminin inkişafı) |
| Faktorun xarakteri | Iqtisadi (iqtisadi inkişaf səviyyəsi)<br>Qanuni (əhalinin qaninvericiliklə müdafiə sistemi)<br>Siyasi (iqtisadi və siyasi sabitlik kursları)<br>Sosial-mədəni (ənənələrin, təcrübənin, biliyin olması və ya olmaması) |
| Fakorun formalaşması üçün şərait | Obyektən və subyektdən kənar (əhalinin real pul gəlirləri, faiz dərəcələri, valyuta məzənnəsi, maliyyə institutlarının inkişaf meyilləri, iqtisadi dövr mərhələsi, əhaliyə kredit verilməsinin inkişaf dərəcəsi) |
| Qənaət mövzusuna təsiri haqqında | Məhdudlaşdıran<br>Stimullaşdırıcı<br>Neytral |
| Amillərin əhəmiyyəti baxımından | əsas (gəlir)<br>İkinci dərəcəli (kret-bank sektorunun inkişafı) |
| Əmanət subyektlərinin əhatə dairəsi üzrə | Yerli<br>Milli |

**Mənbə:** Чобану К.Г. 2007: məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əhalinin yüksək gəlirli qrupunun öz gəlirlərini şaxələndirməyə çalışan həmin hissəsi, sərfəli yerləşdirmə və mühafizə məqsədi ilə onları xaricdə saxlayır və ya xaricdə daşınmaz əmlak alır.

Daxili iqtisadiyyatda həm ayrı-ayrı təsərrüfat subyektlərinin, həm də bütövlükdə dövlətin davranış normaları və maraqlarında uyğunsuzluq yaranır, nəticədə ümumi iqtisadi potensialın daralması baş verir. Bu, təkcə yüksək gəlirli təsərrüfatların vətəndaşlıq məsuliyyətinin aşağı olması ilə deyil, həm də onların bir hissəsinin mütəşəkkil əmanət formalarına keçirilməsi imkanlarını məhdudlaşdıran qeyri-qanuni gəlir mənbəyi ilə izah oluna bilər.

Beləliklə, sığorta və kommersiya motivləri ev təsərrüfatlarının yüksək gəlirli qrupunda qənaətin əsas motivləridir. Bu qrupda gəlirlərin xərclərdən əhəmiyyətli dərəcədə artıq olması nəticəsində motivsiz

qənaətlər də mümkündür. Qarabağ iqtisadiyyatında qənaət prosesinə yaranan institusional informasiya boşluqları mane olur. Bir tərəfdən, əhalinin informasiya ilə işləmək bacarığı və istəyi yoxdur, digər tərəfdən, informasiya çatışmazlığıdır. Qarabağ iqtisadiyyatının maliyyə qeyri-şəffaflığı informasiyanın asimmetriyasını artırır və bazarların qeyri-kamilliyini əvvəlcədən müəyyənləşdirir.

Ev təsərrüfatlarının əldə etdiyi uğursuz təcrübə, qısamüddətli məqsədlərə nail olmaq üçün nəzərdə tutulan əmanət modelinin formalaşmasına kömək edir. Eyni zamanda, yeni nəsil bunu əsas kimi qəbul edir, bu da ölkənin uzunmüddətli inkişaf strategiyası ilə əhalinin davranışının qısamüddətli modeli arasında uyğunsuzluqla bağlı institusional tələ yaradır. Bir qayda olaraq, qısamüddətli əmanətlər təxirə salınmış tələblə bağlı formalaşır və qeyri-mütəşəkkil formaya malikdir.

Ev təsərrüfatlarının əhatə dairəsi baxımından həm obyektiv, həm də subyektiv amilləri özündə birləşdirən mühüm yerli amil  Qarabağ rayonun sosial-iqtisadi inkişaf səviyyəsidir.

Aztəminatlı qruplar üçün bu motivlər gözlənilən xərclərin maliyyələşdirilməsi və qocalığın təmin edilməsi zərurəti ilə yaranan əməliyyat motivləri ilə, yüksək gəlirli qruplar üçün isə rahatlıq motivi, istehlakın mövcud səviyyəsi və strukturu, habelə spekulyativ motiv, yəni əmanəti saxlamaq üçün qənaət etmək motivi ilə tamamlanır. Sonuncu aztəminatlı ailələr üçün ən az əhəmiyyət kəsb edir. Əmanət amili kimi spekulyativ motivin ikinci dərəcəli xarakteri lazımi məlumatların olmaması və bazarın "düşüncə tərzinin" inkişaf etməməsi ilə izah olunur.

Azərbaycanda əmanət bazarının dövlət tərəfindən tənzimlənməsinə ehtiyac  aydın görünür. Müzakirə hökumətin təsirinin formaları, metodları və miqyası, habelə hökumət və bazar mexanizmlərinin birləşdirilməsi variantları ilə bağlı məsələlər ətrafında gedir (Abbasov A. 2003. s.77).

Əhalidən vəsaitlərin bank depozitlərinə tənzimlənməsi və cəlb edilməsi üçün istifadə edilən ənənəvi rıçaq əmanətlər üzrə faiz dərəcələridir. Bununla belə, təcrübədən göründüyü kimi, əmanətlər üzrə faiz dərəcələrinin dəyərləri ilə bank depozitlərinin mütləq artımı arasında əlaqə çox əhəmiyyətsizdir. Fakt budur ki, kütləvi investor sərbəst vəsait yerləşdirərkən bu alətin gəlirliliyini praktiki olaraq nəzərə almırdı. Bu fakt əhalinin iqtisadi savadsızlığına dəlalət etmir, lakin Azərbaycanda bank əmanətlərinin əsasən texniki xarakter daşıdığını, bank depozitlərinin isə sonradan daha sərfəli alətlərdə yerləşdirilməsi ilə əmanətlərin yığılmasının müvəqqəti yolu olduğunu göstərir.

Qarabağda iqtisadi islahatların gedişi ilə ev təsərrüfatlarının yeni investisiya strategiyaları ortaya çıxdı, onların seçiminə aşağıdakılar təsir göstərir: ailənin maddi vəziyyəti (cari gəlir səviyyəsi, əmanətlərin miqdarı və ölkədə uzunmüddətli malların mövcudluğu), ölkədəki vəziyyət (investisiya mühiti), dövlətə və müxtəlif maliyyə institutlarına inam səviyyəsi, keçmişdə maliyyə davranışı təcrübəsi (səhmlərin, qiymətli kağızların alınması) və onun subyektiv qiymətləndirilməsi, ölkədəki mövcud vəziyyət (əmanət etmək üçün əlverişliliyi) və onun gələcəkdə mümkün dəyişiklikləri haqqında fikirlər (nikbinlik / bədbinlik ), fərdin riskə meylliliyi, əsas maliyyə alətləri haqqında biliklər, investisiya imkanları haqqında məlumat, vəsaitlərin qoyuluşu barədə qərar qəbul edilərkən istifadə olunan məlumat mənbələri daxildir.

İnvestisiya şirkətlərində təcrübəsi olmayan ev təsərrüfatları yaxşı reklam, şöhrət və maliyyə şirkətinin adı kimi "imic" xüsusiyyətlərinə böyük əhəmiyyət verirlər.

Hər hansı bir investisiya təcrübəsi olan ev təsərrüfatları üçün şirkətin fəaliyyətinin maliyyə təşkili ilə əlaqəli xüsusiyyətləri mənfəətin artım templəri, fəaliyyətin açıqlığı, aylıq mənfəət əldə etmək imkanı, pul yatırma şərtlərinin aydınlığı, pulun və ya hesabdan bütün məbləğin bir hissəsini geri götürmək imkanı vacibdir (Ev təsərrüfatlarının tədqiqatı statistikasina dair keyfiyyət məruzəsi 2016.s.58).

Ötən dövr ərzində ilkin maliyyələşdirmə sisteminin başa çatdırılması, sistemin inkişafı sahəsində aparılan islahatlar maliyyə sisteminin inkişafında yeni mərhələyə keçidə səbəb olmuşdur. 2020-ci ilə qədər olan dövrdə maliyyə institutlarının, xüsusilə də bankların fəaliyyəti bərpa olundu, maliyyə institutlarının likvidlik və kapitallaşma problemləri həll olundu, qeyri-işlək aktivlərin restrukturizasiyası

həyata keçirildi. Emitentlərin və investorların qiymətli kağızlar bazarında iştirakı üçün lazımi şərait yaradıldı, infrastruktur genişləndirildi, stimullaşdırıcı tədbirlər müəyyən edildi. Kredit büroları kimi yeni infrastruktur elementləri yaradıldı və maliyyə institutlarının səmərəli fəaliyyəti üçün normativ-hüquqi baza təkmilləşdirildi.

Maliyyə sistemi daha mütərəqqi risklərin idarə edilməsi proseslərini rəhbər tutur, maliyyə xidmətlərinin şəffaflığı və hesabatlılığı artırır, rəqəmsallaşmanın dəstəklənməsi üçün müştəriyə uyğun xidmət və nəzarət mexanizmi formalaşdırır. Eyni zamanda, təhsil xidmətlərində maarifləndirmə səviyyəsi, istehlakçıların maliyyə savadlılığı və istehlakçıların hüquqlarının müdafiəsi mexanizmləri təkmilləşdirilmə yolunda davam edir (Abbasov A. 2003.s.98).

2025-ci ilə qədər maliyyə xidmətlərinin uzunmüddətli baxışı sadələşdirilmiş tənzimləyici baza ilə dəstəklənən geniş maliyyə xidmətləri ilə bütün müştəri qruplarını dəstəkləyən möhkəm, etibarlı və balanslaşdırılmış maliyyə sistemi yaratmaqdır.

2016-2020-ci illərdə likvidlik və kapitallaşma problemlərinin həlli, normativ-hüquqi bazanın təkmilləşdirilməsi 2025-ci ilə qədər maliyyə sisteminin inkişafı üçün yeni hədəflərin müəyyənləşdirilməsinə şərait yaradacaq. Bu müddət ərzində sağlam banklar, tam fəaliyyət göstərən maliyyə bazarları, Basel III standartlarına əsaslanan risklərin idarə edilməsi, daha səmərəli və rəqəmsal proseslər və yüksək keyfiyyətli kadrlarla maliyyə sisteminin qurulması nəzərdə tutulur.

2025-ci ilə qədər maliyyə xidmətləri sektoru davamlı artım və gəlirlilik nümayiş etdirən güclü və şaxələndirilmiş maliyyə institutlarına əsaslanacaqdır. Eyni zamanda, bank sektorunda konsolidasiya prosesinin sürətlənməsi və bankın maliyyə nəticələrinin aşağı düşməsi müşahidə olunur. Nəticədə banklar böyüyəcək, xidmət portfeli şaxələndiriləcək, yeni bank olmayan maliyyə institutları yaradılacaqdır. Yeni qeyri-bank maliyyə qurumları tərəfindən təqdim olunacaq əlavə kredit məhsulları istehlak kreditlərinə alternativ imkan yaradacaq və bu sektorda rəqabəti artırılması gözlənilir. Bu zaman korporativ müştərilərə də yeni kredit növləri təklif olunacaqdır.

**Nəticə**

Beləliklə, araşdırmalar əsasında aşağıdakı nəticələrə gəlirik:

- Milli təsərrüfat sisteminin sabitləşdirilməsi məqsədilə ev təsərrüfatlarının maliyyə resurslarının rasional formalaşdırılması və istifadəsi üçün bütün bazar iştirakçılarının maliyyə münasibətlərinin dövlət və bazar tənzimlənməsində dəyişikliklər tələb olunur.
- Ev təsərrüfatlarının maliyyə resurslarının formalaşması və istifadəsi probleminin milli təsərrüfat sistemində həllində uğur qazanmağın ən mühüm ilkin şərti ev təsərrüfatlarının əsas gəlirlərinin dəqiq strukturlaşdırılması, əmanətlərin strukturunda dəyişikliklərin xüsusiyyətlərinin müəyyən edilməsi, əmanətlərin əsas gəlirlərinin müəyyən edilməsi, əmanətlərin maliyyə ehtiyatlarının, habelə onların təşkili formalarına təsir edən amillərin formalaşması və istifadə edilməsidir.
- Makroiqtisadi dinamikanın müxtəlif mərhələlərində ev təsərrüfatlarının maliyyə davranışında ev təsərrüfatlarının əmanətlərinin strukturunda mühüm dəyişikliklər baş verir ki, burada əsas müəyyənedici amil ev təsərrüfatlarının digər bazar iştirakçılarına, yəni dövlətə və maliyyə orqanlarına inam mənbəyidir.
- Qarabağ iqtisadi rayonunda əhalinin əmanətləri (həm mütəşəkkil, həm də qeyri-mütəşəkkil) çox əhəmiyyətlidir və mövcud şəraitdə kənardan maliyyələşmə olmadığı halda kredit resurslarının əsas daxili mənbəyi kimi istifadə oluna bilər.

Tədqiqatın nəticəsinə əsasən aşağıdakı təklifləri verə bilərik:

- Əmanətlərin strukturunun təhlili göstərir ki, indiki mərhələdə Qarabağ iqtisadi rayonunda ev

təsərrüfatları üçün gözlənilən yüksək gəlir onların investisiya seçimlərində həlledici rol oynamır, çünki bu, yüksək risk və qeyri-müəyyənliklə bağlıdır. Buna görə də qeyri-mütəşəkkil əmanətlərin payı çox yüksəkdir və yalnız hökumətlə maliyyə sektorunun birgə razılaşdırılmış hərəkətləri məişət inamını bərpa etməyə kömək edə bilər.

- Böyük investisiya potensialına malik olan və həm regional büdcələrin, həm də kommersiya banklarının resurs bazasını gücləndirməyə qadir olan ev təsərrüfatlarının real gəlirlərinin dəstəklənməsi və onların əmanətlərinin artımının stimullaşdırılması üçün dövlət tərəfindən hazırlanmış tədbirlər sistemi böyük effekt verəcəkdir.
- Xarici ölkələrin müasir təcrübəsi əhalinin əmanətlərinin tam təminatı sistemində müsbət effekt verir ki, bu da ev təsərrüfatlarının maliyyə strukturlarına itirilmiş inamını bərpa etməyə kömək edəcək. Bu sistemdən regionlarda da fiziki şəxslərdən kommersiya banklarına vəsait axınının bərpası üçün istifadə oluna bilər.

**Ədəbiyyat**


1. Abbasov A. (2003), "Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri", Bakı, Qanun, 227 s.
2. Ev təsərrüfatlarının tədqiqatı statistikasina dair keyfiyyət məruzəsi, Bakı, ADSK, 2016, 58s.
3. Məmmədov R.Ş. (2000), "Ev təsərrüfatları büdcələrinin tədqiqatı statistikası", Dərs vəsaiti, Bakı, Qanun, 369 s.
4. Sadıqov M.M. (2001), "Azərbaycan Respublikasının maliyyə potensialının formalaşdırılması problemləri", Bakı, Elm, 354 s.,s.91
5. Friedman M. (2002), "A Theory of the Consumption Function", Princeton, 398 p.
6. Pigou A. (2005), "The Classical Stationary State Economic Journal", №53, 156 p.
7. Гетьмана В.Т. под ред. (2010), «Финансовый учет», М., 264 стр.
8. Жеребин В.М., Романов А.Н. (2010), «Экономика домашних хозяйств», М., ЮНИТИ, 369 с.
9. Кашин Ю.( 2005), «Финансовые активы населения (сбережения): подход к оценке уровня жизни», Вопросы статистики, № 5, с.43-51.
10. Лучкина Л. (2004), «Потребление в домашних хозяйствах России и постсоциалистических странах Европы», МЭиМО, №11, 96 с.
11. Олейник А. (2001), «Домашнее хозяйство и его типы», А. Олейник. Вопросы экономики, , №12, 196 с.
12. Олейник А. (2006), «Домохозяйства в переходной экономике: типы и особенности поведения на рынке», А. Олейник. Вопросы экономики, №12, 156 с.
13. Чобану К.Г. (2007), «Финансы домохозяйств в системе национальных счетов», Вопросы статистики, № 9, 129 с.
14. Шахова Г.Я. (2003), «Макроэкономическое планирование и стабилизация финансов», Финансы, № 6, 198 с.

# ВЛИЯНИЕ РАЗВИТИЯ ЭКОНОМИКИ КАРАБАХА И ВОСТОЧНОГО ЗАНГЕЗУРА НА АСИММЕТРИЮ В ЭКОНОМИЧЕСКОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНА

**Нубар Ибадова**

**Азербайджанский Государственный Экономический Университет**

**nubar_95@mail.ru**

## Аннотация

В настоящей статье рассмотрены теоретические аспекты асимметрии: определения и классификация. Приведены статистические данные состояний, оккупированных территорий до войны. В статье указаны экономические районы Азербайджанской Республики до и после войны, иначе говоря, экономические районы Азербайджана были изменены для составления стратегического развития регионов, в основном делая акцент на освобождённые от оккупации территории Азербайджана до и после войны, определены основные направления развития этих районов. В данной работе особое внимание уделяется Карабаху и Восточному Зангезуру, где определены основные направления развития этих районов. В этих регионах ожидается переход новой модели экономического развития, в связи с тем, что эти территории не находились в наших распоряжениях в результате агрессии со стороны Армении, но на данный момент эти территории освобождены. На этих территориях ожидается создание новых инфраструктур, иначе говоря, «строительный бум». Концепция создания «Умного» города и села являются одним из приоритетных направлений, в результате создания чего может возникнуть сильная асимметрия между остальными экономическими районами, что является немаловажной проблемой экономической системы страны.

**Ключевые слова:** асимметрия, Карабах, Восточный Зангезур, «умный город», «умное село»

## Abstract

This article discusses the theoretical aspects of asymmetry: definitions and classification. Statistical data of states, occupied territories before the war are given. The article indicates the economic regions of the Republic of Azerbaijan before and after the war, in other words, the economic regions of Azerbaijan were changed to compose the strategic development of the regions, mainly focusing on the territories of Azerbaijan liberated from occupation before and after the war, the main directions for the development of these regions were determined. In this paper, special attention is paid to Karabakh and Eastern Zangezur, where the main directions for the development of these regions are identified. In these regions, the transition of a new model of economic development is expected, because these territories were not at our disposal, as a result of aggression from Armenia, but at the moment these territories have been liberated. In these territories, the creation of new infrastructures is expected, in other words, a “construction boom”. The concept of creating a "Smart" city and village is one of the priority areas, as a result of which a strong asymmetry between the rest of the economic regions may arise, which is an important problem for the country's economic system.

**Key words:** asymmetry, Karabakh, East Zangezur, "smart city", "smart village"

## Введение

В современном мире, где происходит ряд исторических событий, которые приводят к глубоки и глобальным изменениям, в эту сферу входят также конфликты, необоснованные территориальные претензии, захватническая политика и, наконец, война и военное положение между странами. Около 30 лет Карабахский регион Азербайджана страдал от захватнического действия Армении, и регион был лишён интенсификации интеграционных процессов. В результате героических действий Азербайджанской армии и в тесном взаимодействии народа в 2020 году был положен конец захвату, который открывает мощный потенциал начала возрождения освобождённых земель от оккупаций, преобразование в регион в центр интеграционных процессов и экономического развития (Гусейнова, Яхьяева и Алиев, 2021). В результате чего перед Азербайджаном встает вопрос о дальнейшем развитии этих территорий, что и подтверждает актуальность темы.

Основная цель исследования заключается в рассмотрении асимметрии как феномена в экономике, может усилиться в последствии целенаправленного акцента на развитие экономики Карабаха и Восточного Зангезура.

Основными задачами исследования являются:

1 раскрытие содержания и структуры категории "асимметрия экономической системы";
2 определение роли государственного регулирования в разрешении противоречий асимметрии развития экономической системы;
3 установление индикаторов асимметрии в Азербайджане;
4 формирование стратегии и дальнейшего эффективного развития Карабаха с учетом асимметрии;
5 обосновать необходимость развития Карабаха;
6 разработать меры по минимизации асимметрии экономики в Азербайджане.

На данный момент внимание всех экономистов, государственных деятелей, частного сектора и иностранных инвесторов обострено только на эти территории. Большинство считает, что создание на этих территориях высокотехнологических объектов, которые скорее в Азербайджане только сконцентрированы в центре страны, должны помочь достичь устойчивого и инклюзивного экономического роста. При этом абсолютно верно, что использование экономического потенциала Карабаха и Восточного Зангезура дало бы возможность значительно повысить уровень вышеуказанных показателей по республике, но такое глобальное и сверх технологическое развитие приведет к сильной асимметрии между остальными регионами, отсюда следует, что возникнет разрыв в экономических состояниях регионов, в следствие чего перед государством встанет вопрос о том, как поднять остальные территории до уровня Зангезурского и Карабахского районов.

Применены следующие методы исследования: синтез, системный подход, статистический анализ.

## Экономические Районы Азербайджана До И После Войны

Азербайджан до освобождения оккупированных территорий, имел следующие экономические районы:

- Апшеронский;
- Гянджа-Газахский;
- Шеки-Загатальский;
- Ленкоранский;
- Губа-Хачмазский;
- Аранский;
- Верхне-Карабахский;
- Кельбаджар-Лачинский;
- Горно-Ширванский;
- Нахичеванский.

Как известно, согласно указу президента, имеется новое деление экономических районов, а именно:

- Бакинский;

- ❖ Нахчыванский;
- ❖ Абшерон-Хызынский;
- ❖ Горный Ширван;
- ❖ Гянджа-Дашкесан;
- ❖ Карабахский;
- ❖ Газах-Товузский;
- ❖ Губа-Хачмазский;
- ❖ Ленкорань-Астаринский;
- ❖ Центральный Аран;
- ❖ Миль-Муганьский;
- ❖ Шеки-Загатальский;
- ❖ Восточный Зангезур;
- ❖ Ширван-Сальянский.

Необходимость в новом подразделении экономических районов обусловлена тем, что после войны, освобожденные территории нуждаются в восстановлении и реконструкции, в результате чего самое главное внимание будет Карабахскому (включает город Ханкенди, а также Агджабединский, Агдамский, Бардинский, Физулинский, Ходжалинский, Ходжавендский, Шушинский и Тертерский районы) и Восточному Зангезурскому (Джабраильский, Кельбаджарский, Лачинский, Губадлинский и Зангиланский районы) экономическим районам (Классификация административно-территориального деления Азербайджана, 2020).

## Основные Направления Развития На Освобожденных Территориях

Азербайджан освободил свои территории и сейчас идет полное восстановление Карабаха и Восточного Зангезура. Отметим тот факт, что все достопримечательности, памятники культурного и религиозного наследия, принадлежащие Азербайджану, были сровнены с землей, в связи с чем нам приходится с нуля строить новые города и села (таблица 1). В таблице 1 приведем сведения о разрушениях и причинённом вреде после военной агрессии со стороны Армении.

**Таблица 1:** Разрушения и причиненный вред впоследствии военной агрессии Армении против Азербайджанской Республики за 1988-1993 годы

| Наименование | Количество |
|---|---|
| **Населенные пункты** | 900 |
| **Сельскохозяйственные земли** | 1 000 000 га |
| **Ирригационные системы** | 1 200 км |
| **Дома** | 150 000 |
| **Общественные сооружения** | 7 000 |
| **Школы** | 693 |
| **Детские сады** | 855 |
| **Медицинские учреждения** | 695 |
| **Библиотеки** | 927 |
| **Храмы** | 44 |

| | |
|---|---|
| **Мечети** | 9 |
| **Исторические памятники, дворцы и музеи** | 473 |
| **Музейные экспонаты** | 40 000 |
| **Промышленные и сельскохозяйственные предприятия** | 6000 |
| **Автомобильные дороги** | 2 670 км |
| **Мосты** | 160 |
| **Водные коммуникации** | 2 300 км |
| **Газовые коммуникации** | 2 000 км |
| **Линии электропередач** | 15 000 км |
| **Леса** | 280 000 га |

**Источник :** https://m.mia.gov.az/ru/content/29863 (01.02.2021)

Стоит отметить, что до оккупации Карабах обеспечивал до 15% общего уровня пшеницы Азербайджана, удельный вес продукции виноградарства на этих территориях достиг 32%. Карабах и Восточный Зангезур давали до 15% всей мясной продукции, более 17% молока, 20% шерсти, 4,0% яиц по Азербайджану, более 15% крупного и 19% мелкого рогатого скота приходилось на долю этих районов (https://azertag.az/ru/xeber/franca-24, 2021) .

В Лачинском, Агдамском, Физулинском, Джебраильском и Кельбеджарском районах животноводство играло доминирующую роль в сельском хозяйстве и формировало значительную часть местного бюджета.

Естественно, использование экономического потенциала Карабаха и Восточного Зангезура дало бы возможность значительно повысить уровень ВВП, индекса человеческого капитала, и других показателей по республике (Алиев, 2021).

Незамедлительно после войны сразу были начаты широкомасштабные работы по реконструкции и уже есть результаты, проведенных работ. Приведем некоторые их них (рисунок 1). В качестве примера приведём Физулинский международный аэропорт на строительство, которого потребовалось всего восемь месяцев. Также отметим, что наряду с Физулинским аэропортом дорога «Победа» стали самыми первыми грандиозными проектами этих регионов (Алиев, 2021).

Аэропорты Зангиланского, Лачинского и Кельбеджарского регионов находтся на стадии строительства и проектирования. Завершается строительство железной дороги Барда-Агдам, при этом планируется строительство Горадиз-Агбенд-Нахичевань-Ильдыр, а также новую железную дорогу Горадиз-Физули-Шуша (https://interfax.az./view/845775, 2021).

**Рисунок 1. Сеть новых транспортных коммуникаций в Карабахе и Восточном Зангезуре**




**Источник:** Составлено автором на основе данных https://1ntws.az>news>20210902/20353252

В рамках развития инфраструктуры и восстановления экономики в Карабахе и Восточном Зангезуре весьма важное место занимает строительство энергообъектов. За истекший год в регионе построено и сдано в эксплуатацию одна электростанция и пять подстанций, а также осуществлена прокладка высоковольтной линии электропередачи. Восстановлена работа ГЭС «Гюлябирд», «Суговушан-1» и «Суговушан-2», сданы в эксплуатацию подстанции в г.Шуша, Физули, Джебраил и Кельбеджар. Постепенно восстанавливается ГЭС в Зангиланском, Лачинском и Кельбеджарском районах ( https://interfax.az./view/845775, 2021)

## Эра Высоких Технологий, На Освобождённых Территориях

На освобожденных от оккупации территории есть потенциал развивать горнодобывающую промышленность, металлургию, пищевую промышленность, перерабатывающую промышленность, туризм и отдых, креативную индустрию, фармацевтику, зерноводство, овощеводство, виноградарство, хлопководство, плодоводство, животноводство, птицеводство, пчеловодство, производство строительных материалов.

На освобожденных от оккупаций территориях находится более 40% запасов минеральных вод Азербайджана. В целом, в регионе имеется около 150 месторождений минеральных вод (https://report.az>bescenniye_mineralniye_vody_KarabahaV1, 2022).

По данным Министерства Экологии и Природных ресурсов Азербайджанской Республики в указанных экономических регионах имеется 167 месторождений полезных ископаемых. В этих регионах имеются запасы извести в объеме 140 млн. тон; глины 90 млн.тон, известняка для производства соды – 130 млн. куб.м, цементного сырья – 140,1 млн. тон; пемзы – 2,1 млн. куб.м, золота – более 132 тон, свинца – более 37 тыс.тон, огромное количество запаса строительных и облицовочных камней, цветные камни, глина, песочно-гравийная порода, песок и гравий, гипс и другие (https://interfax.az/print/817974/ru, 2021)

В соответствии с этим на уровне плана государственного развития считаются следующие направления приоритетными (рисунок 2).

**Рисунок 2: Приоритетные направления развития экономики Карабаха и Восточного Зангезурского экономических районов**




**Источник:** Составлено автором

Осведомлённость тем фактом, что, в первую очередь, планируется в Восточном Зангезурском районе полное соответствие концепции «Умный город», «Умное село», «Зеленая энергия».

Отличие «Умного города» от обычных городов заключается в электронизации всей инфраструктуры и создании большой базы данных. На основе этой совокупности информации эффективность расходов и качество жизни населения повышается по всему городу.

Концепция «Умное село» будет осуществляться в комплексном наборе, а именно учет специфики местности, менталитета народа является главным фактором.

Впервые в мире о концепции «умного города» заговорили в конце 90-х годов, когда развитие ИТ-технологий стало главным фактором развития. На данном этапе «Умный город» это уже глобальный тренд, к которому стремятся все страны, хотя изначально роль «Умного города» заключалась в защите окружающей среды. По статистике, самыми умными городами мира в 2021- м году по экономическим и технологическим показателям являются следующие страны: Сингапур, Цюрих, Осло, Тайбэй, Лозанна, Хельсинки, Копенгаген, Женева, Окленд, Бильбао (https://34travel.me/post/smart-city , 2021).

## Теоретические Аспекты Асимметрии В Экономике

Асимметрия, как термин используется во всех сферах жизни человечества, и трактуется, как мера несимметричности распределения, введенная в оборот К. Пирсоном. (Коуз Р, 2015). В экономике асимметрия в основном помогает описать экономическую систему, процессы и явления, происходящие в стране.

Асимметрия выражается как асимметрия информации, а именно как неравномерное распределение информации о товарах, услугах, индивидах, рынках между экономическими субъектами. Другими словами, отметим тот факт, что возникает ситуация, при которой один экономический агент имеет преимущество перед другим субъектом, о котором другой субъект не знает. Такая ситуация, а именно выраженная асимметрия, вызывает между экономическими субъектами противоречия

Если говорить в целом, то асимметрия представляется как обстановка неравного распределения определенными ресурсами между участниками экономических отношений, что приводит к ограниченным возможностям субъектов. Представим некоторые виды асимметрий как неопределенностей в экономической деятельности (рис.3).

**Рисунок 3: Виды асимметрий**




**Источник:** Составлено автором

Конъюнктурная неопределенность обусловлена изменениями объекта на национальном и глобальном уровнях хозяйствования, распространяющимися на уровень регионов и отдельных хозяйственных субъектов.

Институциональная асимметрия порождается несовпадением, запаздыванием или опережением формальных и неформальных ограничений и стимулов и механизмов как объектов регулирования.

Временная предполагает влияние ретроспективных, текущих и перспективных изменений на состояние объекта.

Ресурсная связана с нерациональным распределением и изменением потребностей под влиянием технологической неопределенности.

Политическая связана с изменением политических установок, определяющих функционирование хозяйственных субъектов (Антипина, 2003).

**Влияние Концепции «Умного Города» И «Умного Села» На Асимметрию В Экономической Системе**

Осуществление постконфликтной реконструкции имеет достаточно положительный результат как для страны, так и для экономической системы в общем. Но недостаток все-таки присутствует. Рассмотрим подробнее факт, который приведет к большому разрыву.

Все подготовленные концепции приводят нас к таким ожиданиям, что будет достигнуто устойчивое экономическое и человеческое развитие. При этом вложения в эти районы и реконструкции должны ускорить рост ВВП в Азербайджане.

Необходимо учитывать, что нацеленное развитие, только освобождённых территорий приведет к асимметрии в других районах.

Рассмотрим процесс, если во внимании будут только новые экономические районы. Создание «умных» городов и сел станет последствием того, что Карабахский и Зангезурские экономические районы, станут самыми развитыми, при этом другие экономические будут стоять на месте, вследствие чего возникнет асимметрия между экономическими районами Азербайджана. На данный момент Концепция «умное село» (smart village) успешно реализуется в трех селах (Агалы-1, Агалы- 2, Агалы-3) в Зангиланском районе и готовы к завершению. Этот проект состоит из пяти основных компонентов:

- 200 жилых домов;
- Производства;
- социальные службы;
- коммунальное хозяйство (широкая сеть технологий ИКТ);
- альтернативная энергетика (https://interfax,az/view/83989, 2021)

Кроме всего этого в селах также построены современные школы, поликлиники, детские сады, центры электронного управления и создана туристическая инфраструктура. Все эти объекты в селах будут обеспечены электроэнергией за счет альтернативных источников энергии. В реализации этого уникального проекта принимают участие турецкие, итальянские и китайские компании.

Очередной проект «умное село» будет реализован в селе Довлетъярлы Физулинского района.. Согласно проекту «умное село», будут применяться зеленая и альтернативная энергия, а также система «умное управление». На начальном этапе предусмотрено построить 450 трех, четырех и пятикомнатных жилых домов. Здесь будет построена школа, детский сад и рынок. Вокруг этого села будут расположены участки «умное сельское хозяйство». В селе будут реализованы бизнес-проекты в области картофелеводства (по цепочке добавленной стоимости), где будет создана 10 постоянных и 300 созданных рабочих мест. В селе также предусмотрено создание экспортно-ориентированного рыболовного хозяйства за счет применения «умных аквакультурных систем», а также птицеводческое хозяйство, где будут созданы 85 рабочих мест. На основе «умных» туристических решений формируются инфраструктуры сельского туризма и создание отельной сети.

Иными словами, в селах этих районов будут такие условия, которых нет почти ни в одних других селах Азербайджанской Республики и настает тот момент, когда возникнет большая разница, которая приведет к серьезным асимметрическим проявлениям.

Тогда перед Азербайджаном встает вопрос о том, как быть с другими экономическими районами? Дальше есть два пути: начать все с нуля в других районах, либо поднимать постепенно другие районы. На это вопрос конечно, пока, что очень сложно ответить, но факт, того, что если не принять решения относительно других районов, то, во-первых, возникнет возрастающая асимметрия между отдельными регионами страны, во-вторых, такой разрыв приведет к неполноценному балансу в экономике в целом. И так скажем, тогда Азербайджан превратится в страну, в которой будут создаваться ощущения в одной части античности, в другой части страны современности и новых информационных технологий.

Конечно, необходимо учитывать, что освобожденные территории стали привлекательными для иностранных инвесторов, благодаря чему возникает положительная тенденция, иначе говоря мы осознаем, что наша страна рассчитывает только на свои финансовые ресурсы, но поддержка иностранных компаний будет кстати.

**Заключение и рекомендации**

Факт того, что эти территории будут новым драйвером экономического роста остается без сомнения на первом месте. При этом при реализации всех вышеперечисленных реконструкций

На всех этих этапах важно использовать опыт международных структур, играющих значимую роль в построении модели постконфликтного восстановления. Для осуществления эффективной постконфликтной модели значимыми факторами считаются высококачественный институциональный климат, доступные источники финансирования и поэтапное исполнение реформ.

Что мы достигнем, если будем следовать плану:

- ↔ Совместное решение проблем и интересов в рамках устойчивой конкурентоспособности;
- ↔ Расширение роли муниципалитетов в сферах производства и услуг;
- ↔ Создание благоприятных условий для внедрения новой техники, технологии и ИКТ;
- ↔ Совместная реализация целевых инновационных проектов;
- ↔ Минимизация производственных, энергетических и транспортных расходов;
- ↔ Применение принципа экономичности в процессе производства и логистики;
- ↔ Расширение финансовых возможностей и экспортного потенциала;
- ↔ Возможности организации в регионах иностранных и совместных предприятий, территориального кластера, региональных бизнес ассоциаций, финансово-промышленных групп, бизнес-инкубаторов, стартапов и других, а также развитие женского предпринимательства, расширение производства бренда-продукции широкого ассортимента и некоммерческое сотрудничество

А теперь опишем недостаток, который возникнет в результате ускоренного развития этих регионов. Под негативным моментом мы здесь принимаем проявление асимметрии, где результатом является искажение отношений между субъектами хозяйствования, что способно привести к возникновению противоречий, проявлению оппортунизма одного региона по отношению к другому, неверному отражению реальности, к отклонению фактических результатов от желаемых.

На данном этапе внедрение «умных сел и городов» на территориях Карабаха и Восточного Зангезура создаст инновационный разрыв, который приведет к диспропорции в развитии, что является очередной причиной асимметричной трансформации экономики знаний (Гулиева, 2016).

Асимметрия информации побуждает думать, анализировать, защищаться, создавать и развивать финансовые институты и инструменты.

Проявление асимметрии в экономической системе абсолютно неизбежно, но для снижения асимметрии следует вести постоянный контроль и мониторинг информации, осуществлять работу по созданию новых сведений, формулирующих новое общественное мнение, иначе говоря, необходимо придерживаться соответствию качественным характеристикам асимметрии информации (объективность, полнота, достоверность, точность, актуальность, ценность и полезность).

Как уже отмечали в статье, то для снижения асимметрии в других регионах по отношению к Карабаху и Восточному Зангезуру, Азербайджан должен предпринять такую стратегию развития, который не приведет к сильному технологическому разрыву.

**Список использованной литературы**


1 Гулиева А.А., Рзаева У.Ш. Асимметричные трансформации экономики знаний // Креативная экономика. — 2016. — Т. 10. — № 5. — С. 461–474.

2 Гулиева, А.; Бритченко, Я; Рзаева, У. 2018. Глобальная безопасность и экономическая асимметрия: сравнение развитых и развивающихся стран, Журнал вопросов безопасности и устойчивого развития 7 (4): 707-717.

3 Гусейнова, Н., Яхьяева, А., & Алиев, Ш. (2021). Проблемы повышения инвестиционной привлекательности Карабахского региона Азербайджана и пути их решения. InterConf, (55), 13-19. https://doi.org/10.51582/interconf.7-8.05.2021.002.

4 Алиев, Ш.Т. Азербайджан превратился в ведущий центр регионального развития в Южном Кавказе. Sumqayıtxeber.com saytı. 2021, May 26.

5 Классификация административно-территориального деления Азербайджана 2020, AZS 882: 2020, Баку, «ЦСУ», 2020, 121 с.

6 Регионы Азербайджана. Статистический сборник, Баку, «ЦСУ», 2020,825 с.

7 https://interfax.az./view/845775

8 https://interfax.az/view/812589

9 https://interfax.az/view/813504 23.

10 https://interfax,az/view/83989

11 https://interfax.az/view850075

12 https://m.mia.gov.az/ru/content/29863

13 https://report.az>bescenniye_mineralniye_vody_KarabahaV1

# SƏNAYE PARKLARININ AZƏRBAYCAN MODELİNİN FORMALAŞDIRILMASI: REALLIQLAR VƏ PROBLEMLƏR

**Abbasova-Zeynalova Nuranə**

**Mingəçevir Dövlət Universiteti**

**a.z.nurana@mail.ru**

## Xülasə

Son zamanlarda müstəqil Azərbaycanın inkişafı ilə bağlı qarşıya qoyulmuş məqsədlərdən ən başlıcası modern sənayeləşmədir. Sənaye parkları və onların ərazisindəki infrastruktur obyektlərinin qurulması və istehsalat binalarının tikintisi dövlət vəsaiti hesabına həyata keçirilir. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, sənaye parkları sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq imkanına sahibdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirməkdə maraqlı olan, ölkə iqtisadiyyatının tarazlı inkişafına nail olmaq istəyən dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına, inkişafına böyük yer verirlər.

Dünyada yüksək texnologiyaların istehsalının və tətbiqinin təsiri ilə baş verən sürətli dəyişikliklər bütün sahələrdə yeni yanaşmaları ortaya çıxarır. Baş verən proseslər innovasiya, texnopark, sənaye parkları, elm parkları, ağıllı zonalar, azad iqtisadi zonalar, innovasiya sahibkarlığı, startap kimi anlayışların aktuallığının artmasına səbəb olur. Hadisələrin sürətlə dəyişməsi, həmçinin yeni yanaşmaların təsiri ilə tələb və təklifin müəyyənləşməsi yeni metodların tətbiqinin əhəmiyyətini ortaya qoyur.

Texnoparkların yaradılması və inkişafı problemləri müasir dövrdə bütün ölkələrin iqtisadi maraqlarının bir hissəsini təşkil etdiyi kimi innovasiya biznesinin təşkilinin tipik mexanizmlərinin öyrənilməsi və yeni yanaşmaların hazırlanmasının zəruriliyi bu kimi məsələləri yerli va xarici iqtisadçı - alimlərin elmi –tədqiqat işlərinin obyektinə çevirmişdir.

**Açar sözlər:** sənaye parkları, texnoparklar, innovasiya, sənaye məhəllələri

## Summary

One of the most important goals of the development of the independent Azerbaijan is recently modern industrialization. Construction of industrial parks and infrastructure facilities in their territory and construction of industrial buildings are carried out at the expense of state funds. Based on the experience of other countries, we can say that industrial parks have the potential to support entrepreneurship, ensure the sustainable development of the non-oil sector and increase employment in manufacturing. Therefore, countries which are interested in the development of various industries and want to achieve balanced development of the country's economy, pay great attention to the creation and development of industrial parks in their economic policies.

The rapid changes taking place in the world under the influence of the production and application of high technologies are revealing new approaches in all areas. The processes which occur under this influence increase the relevance of such concepts as innovation, technopark, industrial parks, science parks, smart zones, free economic zones, innovative entrepreneurship, startups. The rapid change of events, as well as the determination of supply and demand under the influence of new approaches, underscores the importance of applying new methods.

As the problems of creation and development of technology parks are a part of the economic interests of all countries in modern times, the need to study typical mechanisms of innovation business and develop new approaches has made such issues the object of research of local and foreign economists.

## Giriş

Texnopark – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir (A.Nəcimov, 2015).

Bu gün texnoparkların müvəffəqiyyətliliyi və rəqabətqabiliyyətliliyi onların səmərəli peşəkar cəmiyyətlər formalaşdırmaq imkanlarını, yeni texnologiyalar bazarında onların mövqeyini (yeni bazarların inkişafına istiqamətlənmə; ekologiya, enerji qənaəti, biotexnologiya və. s), texnoparkların qlobal tədqiqat cəmiyyətləri ilə əlaqələrinin sıxlığını müəyyən edir ki, bu da öz növbəsində sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasını, onların istehsal etdikləri məhsulların xarici bazarlara

ixracının dəstəklənməsini, investisiya qoyuluşlarının həcminin innovativ müəssisələr üzrə yüksəldilməsini və müasir innovasiya siyasətinin iqtisadi sahələr üzrə davam etdirilməsinin zəruriliyini isbat edir.

İşinin məqsədi ölkənin davamlı iqtisadi potensial imkanlarından daha səmərəli istifadə, regional və qlobal iqtisadi mövqelərin təmin etdiyi əlverişli strateji imkanların maksimum dəyərləndirilməsi, həmçinin intellektual yanaşmanın inkişafı və tətbiqi ilə mümkün olacaqdır. Ona görə də sənaye parklarının, texnoparkların daha geniş öyrənilməsi, o cümlədən bu prosesin təməl anlayışlarını doğru dərk edərək, tətbiqi yollarının kompleks qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Mövzunun işlənilməsi ilə əlaqədar müəyyən edilmiş məsələlərin tədqiqi üçün zəruri olan ststistik məlumatların əldə edilməsi üçün ADSK-nın rəsmi saytı, mövzu ilə əlaqədar internet resurslar, yerli və xarici iqtisadçı-alimlərin elmi əsərlərinə müraciət edilmişdir.

## İnkişaf Etmiş Ölkələrdə Texnoparkların Yaradılması Və Tətbiqi Təcrübəsi

Texniki sənaye parkının yaradılmasında məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır (A.Nəcimov, 2015).

Texnoparkların əsası ilk dəfə XX əsrin 50-ci illərində Kaliforniya ştatının Stenford universitetinə məxsus istifadəsiz ərazinin icarəyə verilməsi ilə qoyulmuşdur. Universitet öz ərazisində olan istifadəsiz torpaq sahəsini texnopark formalaşdırılması məqsədilə icarəyə vermişdir. 80-ci illərdən başlayaraq ABŞ-da bir-birinin ardınca yeni texnoparklar meydana gəlməyə başladı. Hal-hazırda ABŞ-da 160-dan çox texnopark fəaliyyət göstəriri ki, bu da dünyada olan texnoparkların 30 faizindən çoxunu təşkil edir.

Avropada texnoparklar keçən əsrin 70-ci illərinin əvvəllərindən yaranmağa başlamışdır. Bunlara Edinburqun Harriot-Uatt universitetindəki tədqiqat parkını, Kembricdəki Triniti kollecinin elmi parkını, Belçikada Leven-la-Nev, Nitsada Sofia-Antipolis və Qrenoblda elmi-texniki yeniliklər və istehsal zonasını misal göstərmək olar. Sadalanan bu texnoparklar əsasən ABŞ texnoparklarının modelini təkrarlamışlar: bir təsisçinin olması, yeni yaradılmaqda olan çoxsaylı kiçik innovasiya firmalarının yaradılması üçün xüsusi biznes sahibinə torpaq sahəsinin icarəyə verilməsi.

İnkubatorlar prespektivli sahibkarlara istehsal sahələrini verməklə onları xidmət toplumu ilə təmin edirlər, yerli universitet, elmi mərkəz və maliyyə dairələri ilə əlaqə yaradırlar (Qasımov İ., Cəbiyev.F., Bakı-2017).

ABŞ və Avropada texnoparklar keçən əsrin 80-ci illərindən geniş inkişaf etməyə başlamışdır.

Texnoparkın müasir Avropa modeli aşağıdakı xüsusiyyətlərə malikdir:

- onlarla kiçik firmanın yerləşdirilməsi üçün binanın olması;

- bir neçə təsisçinin olması (belə idarəetmə mexanizmi bir təsisçi olan mexanizmdən nə qədər mürəkkəb olsa da maliyyələşmə baxımından daha səmərəlidir).

Texnoparklar 80-ci illərdə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə geniş tətbiq tapmağa başlamışdır. Texnoparklar ilk olaraq Kanada, Sinqapur, Avstraliya, Braziliya, Hindistan, Malayziya, Çin və Yaponiyada yaradılmağa başladı

**Texnoparkın Azərbaycan Modelinin Formalaşdırılması**

Müasir dövrdə Azərbaycan Respublikasının dövlət siyasətinin vacib prioritetlərindən biri iqtisadiyyatın yeni inkişaf yoluna - innovasiya iqtisadiyyatına keçiddir. Azərbaycanda innovasiya sistemi yeni formalaşmaqdadır. İnnovasiya sisteminin inkişafı üçün innovasiya potensialının formalaşması və idarə edilməsi prosesinin maksimal səmərəliliyini təmin etmək üçün innovasiya fəaliyyətinin idarə edilməsinin mütərəqqi üsul və mexanizmlər sisteminin yaradılması vacibdir. Belə sistemlərdən biri kimi ölkədə yaradılan texnoparklar çıxış edir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, sənaye parklarında aşağıdakı stimullaşdırıcı tədbirlər tətbiq olunur:

1. vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər;
2. sənaye parkının infrastrukturla təmin edilməsi;
3. torpaq sahəsinin icarə haqqının aşağı həddində müəyyən edilməsi;
4. güzəştli kreditlərin verilməsi;
5. inzibati prosedurların sadələşdirilməsi;
6. sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili;
7. istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"da ölkəmizdə biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması üçün elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin, təhsilin və istehsalatın inteqrasiyasının təmin edilməsi, innovasiya siyasətinin səmərəsinin artırılması mühüm fəaliyyət istiqamətləri hesab olunmuş, innovasiya fəaliyyətiin ifrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparkların, texnoloji mərkəzlərin, biznes inkubatorlarının şəbəkəsinin genişləndirilməsi bir vəzifə olaraq qarşıya qoyulmuşdur (Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya).

Xarici təcrübələrə əsaslanaraq Azərbaycanda sənayenin inkişafı ilə əlaqədar texnoparkların yaradılmasına 2011-ci ildən başlanmışdır. 15 may 2014-cü ildə isə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə təsdiq edilmişdir.

Hal-hazırda ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi ilə Azərbaycanda 5 sənaye parkı (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı), bir Yüksək Texnologiyalar parkı və 5 sənaye məhəlləsi (Neftçala, Masallı, Hacıqabul, Sabirabad, Şərur) fəaliyyət göstərir (Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Prezidentinin 15 may 2014-cu il tarixli Fərmanı).

Azərbaycan Respublikası Prezidentinin "Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında" 2011-ci il 21 dekabr tarixli 548 nömrəli Fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Parkın yaradılmasında başlıca məqsəd sənaye istehsalının, xüsusilə kimya sənayesinin inkişafına müsbət təsir göstərməkdir.

Sumqayıt Kimya Sənaye Parkı neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların istehsalı və emalı müəssisələrinin fəaliyyəti üçün nəzərdə tutulub. Bu Sənaye Parkının 508 hektarlıq ümumi ərazisinin 450 hektarı sənaye zonasıdır. Artıq burada 75 faiz məskunlaşma qeydə alınıb. Hazırda parkın ərazisində 13 zavod fəaliyyət göstərir və əlavə 7 zavodun fəaliyyətə başlayacağı gözlənilir. Burada 16 mərtəbəli inzibati bina, Peşə Təhsil Mərkəzi, Sərgi-Konfrans Kompleksi, Sağlamlıq Mərkəzi, Laboratoriya binası, emalatxanalar, idman meydançaları, Yataqxana Kompleksi, həmçinin rezidentlər və işçilərə xidmət edəcək digər obyektlər fəaliyyət göstərir.

Sumqayıt Kimya Sənaye Parkının hazırda "Azertexnolayn" MMC, "SOCAR Polymer" MMC, "Azer Float" QSC, "Azerbaijan Fibro Cement" MMC, "SİKA" MMC, "Azərxalça" ASC, SOCAR Karbamid zavodu, "Nexus Labs" MMC və s. kimi 18 rezidenti var. Qoyulmuş sərmayə milyardlarla dollar səviyyəsindədir. Burada Almaniya, Türkiyə, Çin texnologiyaları əsasında müxtəlif diametrli polad borular, yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqlar, xüsusi təyinatlı müxtəlif diametrli polietilen borular, Kanada, Avstriya texnologiyalarından istifadə edilməklə ildə 184 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen, İtaliya texnologiyası əsasında ferrosilisium və ferrosilikomanqan, İsveçrə texnologiyası əsasında müxtəlif növ tikinti məhsulları, Almaniya və İtaliya texnologiyası əsasında müxtəlif çeşiddə sürtkü yağları, Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında beynəlxalq standartlara cavab verən ağır, yüngül və daha yüngül dərəcəli olmaqla üç növdə filterli siqaretlər və s. istehsal edilir.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC 2017-ci ili 17 milyon 880 min manat zərər ilə başa vurub. MMC 2016-cı ili 19 milyon 743 min manat zərər ilə bağlamışdı. 2016-cı ildə Parkın gəlirləri 391 min 612 manat ikən, 2017-ci ildə 445 min 915 manata qalxıb (Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2011-ci il tarixli Fərmanı).

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə ikinci sənaye parkı - Bakı şəhərində Balaxanı Sənaye Parkı yaradılmışdır. Parkının ərazisi 7 ha təşkil edir. Balaxanı Sənaye Parkının idarəedici təşkilatı "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətidir.

Təkrar istehsal sahəsinə maraq göstərən sahibkarlara münbit işgüzar mühitin yaradıldığı Balaxanı Sənaye Parkında işlənmiş mühərrik yağlarının, tullantı plastik butulka və materialların, kağız-karton məmulatların, süngər tullantılarının təkrar emalı və s. sahələri üzrə 14 rezident fəaliyyət göstərir. Daha 9 rezident 11 istehsalat sahəsi üzrə yaxın vaxtlarda fəaliyyətə başlayacaqdır.

Parkın yaradılması ölkəmizdə yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının genişləndirilməsi, qeyri-neft sektorunun və "yaşıl iqtisadiyyat"ın inkişafı, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədinə xidmət edir.

Balaxanı Sənaye Parkında fəaliyyət göstərən rezidentlərin layihələrinim ümumi investisiya dəyəri 42,3 mln manat təşkil edir. Bu günədək sənaye parkına qoyulmuş investisiya 41,95 mln manat həcmindədir. Eyni zamanda Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı və əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına əlverişli şərait yaradır.

Ümumiyyətlə, parkın coğrafi mövqeyi, nəqliyyat qovşağına yaxın məsafədə yerləşməsi, daxili və xarici bazarlara yaxınlığı əldə olunmuş məhsulların asanlıqla son istifadəçiyə çatdırılmasına imkan verir. Müəssisənin məhsulları yerli bazarda satılmaqla yanaşı, Gürcüstan, Rusiya, Hollandiya, İsveçrə, Belarusiya, Ukrayna və Qazaxıstana ixrac olunur və artıq ABŞ-a da məhsul ixracına başlanıb. İlkin olaraq ABŞ-a 3000 mebel ixrac edilib.

Balaxanı sənaye Parkının fəaliyyəti zamanı dövlət dəstəyi məqsədi ilə dövlət tərəfindən müəyyən vergi və gömrük güzəştləri tətbiq olunmuşdur. Bu güzəştlərin 2020-ci ilin sonunadək ümumi həcmi 2,62 mln manat təşkil etmişdir. Bundan əlavə Tullantıların yandırılması prosesi nəticəsində zavod il ərzində 231,5 mln. KVt/saat elektrik enerjisi hasil etmək gücünə malikdir. Bununla belə, zavod tikilərkən gələcək perspektivlər nəzərə alınaraq 3-cü xəttin quraşdırılması üçün şərait yaradılıb. Beləliklə, gələcəkdə zəruriyyət yaranarsa, daha 250 min ton tullantını utilizə etmək mümkündür. Nəticədə, zavodun illik yandırma gücü 750 min tona qədər çatdırıla bilər (Balaxanı Sənaye Parkı haqqında. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Sərəncamı).

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli Sərəncamı ilə Mingəçevir Sənaye Parkı yaradılmışdır. Mingəçevir Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Müasir texnologiyalar əsasında yaradılmış iki iplik fabriki Almaniya, İsveçrə, Türkiyə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərinin avadanlıqları ilə təchiz edilmişdir. Fabriklərdə pambıq mahlıcından “Ring” üsulu və “Open End” üsulu ilə müxtəlif cür iplik (sintetik-qarışıq və 100% pambıq iplik) istehsalı həyata keçirilir. “Ring” üsulu ilə iplik daha zərif, yumşaq və istehsal prosesində uzun lifli pambıqdan istifadə olunduğu üçün bu iplik əsasən köynək istehsalında istifadə olunur. “Open End” üsulu ilə isə iplik daha qaba olduğundan əsasən cins və digər geyim istehsalında istifadə olunur.
Gələcəkdə MSP Azərbaycanın və Zaqafqaziyanın ən nəhəng sənaye parkı olacaq. Sənaye Parkının nəzdində 9 fabrik - pambıq iplik, akril iplik, yun iplik, corab məhsulları, ayaqqabı istehsalı, toxuma, parça boyama, tikiş və tibbi kosmetika fabrikləri inşa edilib istifadəyə veriləcək. Bu məqsədlə 150-200 milyon ABŞ dolları həcmində investisiya qoyulacağı, 5.500-dən çox yeni iş yerinin açılacağı nəzərdə tutulub.

Mingəçevir Sənaye Parkı nəzdində fəaliyyət göstərən Pambıq İplik Fabrikində ilkin mərhələdə illik 10 min ton, növbəti mərhələdə isə 20 min ton pambıq iplik istehsalı nəzərdə tutulur. Hazırda Azərbaycanda ildə 17 min ton pambıq iplik istehsal olunur. Bu Parkın nəzdində açılacaq yeni iplik fabriki Azərbaycanda pambıq iplik üzrə istehsalı 115 faiz artırmaqla yanaşı, idxaldan asılılığı tam aradan qaldıracaq və böyük ixrac imkanları yaradacağı nəzərdə tutulur (Mingəçevir Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 26 fevral 2015-ci il il tarixli Sərəncamı).

Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2015-ci il tarixli 1255 nömrəli Sərəncamı ilə yaradılmış Qaradağ Sənaye Parkı 72 hektar ərazidə gəmiqayırma fəaliyyəti ilə məşğul olur. Qaradağ Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lazımı infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi edilməsi ilə rəqabətqabiliyyətli gəmiqayırma və digər sənaye istehsalı sahələrinin təşkili, eyni zamanda xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına əlverişli şərait yaradan müəssisədir. Bakı şəhərinin Qaradağ rayonu ərazisində yerləşən Qaradağ Sənaye Parkının ərazisi 72 ha torpaq sahəsində inşa edilmişdir (Qaradağ Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2015-ci il Sərəncamı).

Pirallahı Sənaye Parkı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə yaradılmışdır. Pirallahı Sənaye Parkının ərazisi 30 hektar təşkil edir. Onun fəaliyyətinin əsasını müasir texnologiyaların tətbiqi yolu ilə sənaye, o cümlədən əczaçılıq sənayesi üzrə rəqabət qabiliyyətli məhsul istehsalı və xidmət təşkil edir. Sənaye Parkının hazırda 4 rezidenti var

(Pirallahı Sənaye Parkı haqqında. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2016-cı il tarixli Sərəncamı).

Azərbaycan Prezidenti İlham Əliyev 28 may 2021-ci il tarixində Ağdam Sənaye Parkının təməlqoyma mərasimində iştirak edib. Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.

Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Beləliklə, yeni yaradılan sənaye zonaları, həmçinin Ağdam Sənaye Parkında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək (Ağdam Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli Fərmanı).

Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı (bundan sonra – Sənaye Parkı) sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, logistika işinin təşkili, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli çalışmasına və inkişafına kömək edən ərazidir (Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli Fərmanı).

Qeyd etmək lazımdır ki, ölkədə texniki sənaye parkları ilə yanaşı aqrar sektorda da sənaye parklarının yaradılması istiqamətində işlər gedir. 2019-cu ildə Azərbaycan İnvestisiya Şirkəti ölkədə müştərək aqrar-sənaye parkının yaradılması barədə Çinin CAMCE şirkəti ilə memorandum imzalayıb. Bu layihə çərçivəsində traktor istehsalı zavodu, suvarma avadanlığı istehsalı və bir sıra kənd təsərrəfatı məhsullarının emalı zavodlarının tikilməsi nəzərdə tutulub.

Bərdə rayonunda yaradılmış tərkibində 5 min tonluq logistik mərkəz, 4200 başlıq ətlik və südlük istiqamətli heyvandarlıq kompleksləri, illik 5,4 min ton istehsal gücünə malik ət kəsimi və emalı fabriki, saatda 10 ton yem istehsal edən zavodu olan Qarabağ Aqrar Sənaye Parkının ümumi dəyəri 32 milyon manatdır. Burada 300 nəfər daimi iş yeri ilə təmin olunub.

"Aqrolizinq" ASC vasitəsilə Avropadan gətirilmiş xüsusi cinslərdən olan ətlik-südlük inəklər bəslənilir. Gətirilən heyvanlar artıq yerli iqlimə tam olaraq uyğunlaşıb. Hələlik gündəlik 32 ton yüksək keyfiyyətli süd istehsal olunur və emal müəssisələrinə təhvil verilir. İlin sonunadək heyvanların sayı artırılacaq və süd istehsalı 60 tona çatdırılacaq. Qarabağ Aqrar Sənaye Parkında 300 nəfər daimi iş yeri ilə təmin olunub.Güzəştli kreditlərdən yararlanmaqla Bərdədə yaradılmış digər heyvandarlıq müəssisəsi rayonun Türkmən kəndi ərazisində inşa edilmiş 500 başlıq südlük cins heyvandarlıq kompleksidir. Ümumi dəyəri 4,2 milyon manat olan kompleks sağmal inəklər üçün fermalar, sağımxana, yem anbarı sahələrindən ibarətdir. Bu layihənin də həyata keçirilməsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2,5 milyon manat güzəştli kredit verilib. Ən müasir avadanlıqlarla təchiz olunmuş kompleksdə "Aqrolizinq" ASC

vasitəsilə ilkin olaraq Avropadan 325 baş cins inək gətirilib. Layihənin icrası nəticəsində 50 nəfər yeni iş yeri ilə təmin olunub.

İqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli Fərmanı ilə Bakı şəhərinin Pirallahı rayonunda Yüksək Texnologiyalar Parkı yaradılıb. Pirallahı Yüksək Texnologiyalar Parkının fəaliyyətinin təşkilini, idarə olunmasını və inkişaf etdirilməsini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində Yüksək Texnologiyalar Parkı - "YT Park" MMC həyata keçirir.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli Fərmanı ilə Mingəçevir Yüksək Texnologiyalar Parkı yaradılıb.

Azərbaycan Milli Elmlər Akademiyası Yüksək Texnologiyalar Parkı Prezident İlham Əliyevin 8 noyabr 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. AMEA YTP-nin yaradılmasında məqsəd iqtisadiyyatın davamlı inkişafı, rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya, yüksək texnologiya sahələrinin genişləndirilməsidir. AMEA YTP-nın əsas fəaliyyət istiqamətlərindən biri elektronika, avtomatika, proqram təminatı, müdafiə və mülki təyinatlı aparatlar, dronlar və digər elektron cihazların istehsalıdır. AMEA YTP-nın rezidentlərindən biri olan ”Elm və Texnologiya Parkı” MMC-nin istehsal etdiyi dronlar AMEA-nın institutları tərəfindən elmi-tədqiqat işlərinin aparılması üçün istifadə edilir.

**Sənaye məhəlləsi – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidməti göstərilməsi üçün istifadə edilən ərazidir.** Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin “Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 8 oktyabr 2014-cü il tarixli Fərmanı ilə müəyyən edilib (Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2014-cü il tarixli Fərmanı).

Sənaye məhəlləsinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. 2014-cü ilin oktyabr ayından etibarən ölkədə sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC-yə həvalə edilib.

Sənaye məhəllələrinin yaradılması, idarə edilməsi və burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2015-ci il tarixli Qərarı ilə “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə” təsdiq edilib. Nümunəvi Əsasnaməyə uyğun olaraq, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə sənaye məhəllələrində aşağıdakı stimullaşdırıcı tədbirlər tətbiq olunur:

a. “Torpaq icarəsi haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 5-ci hissəsinə və “İcarə haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 1-ci

hissəsinin ikinci abzasına əsasən torpaq sahəsinin və tikililərin icarə haqqının aşağı həddə müəyyən edilməsi;

b. güzəştli kreditlərin verilməsi;
c. inzibati prosedurların sadələşdirilməsi;
d. sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili.

Hazırda Azərbaycanda aşağıdakı sənaye məhəllələri fəaliyyət göstərir:

1. Neftçala Sənaye Məhəlləsi "Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 fevral tarixli Sərəncamı ilə yaradılmışdır. Neftçala Sənaye Məhəlləsinin ərazisi 10 hektar təşkil edir. Perspektivə balıq yemi, avtomobil, kənd təsərrüfatı məhsulları üçün polietilen taralar, balıq konservlərinin "Made in Azerbaijan" brendi altında xarici bazarlara çıxarılması nəzərdə tutulur.

2. Masallı Sənaye Məhəlləsi "Masallı Sənaye Məhəlləsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-ci il 13 iyun tarixli 2115 nömrəli Sərəncamı ilə yaradılmışdır. İlk mərhələdə mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı və məmulatları istehsalı, taxta evlərin hazırlanması ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən 5 milyon 230 min manat dəyərində 10 layihə təqdim edilib. Artıq reallaşdırılan bu layihələr çərçivəsində 200 yeni iş yeri yaradılıb.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli Sərəncamı ilə yaradılmış **Hacıqabul Sənaye Məhəlləsi**ndə tikinti işləri başa çatdırılıb. Hazırda 10 müəssisə iştirakçı kimi qeydiyyatdan keçmiş və bunlardan 4 müəssisə artıq fəaliyyətə başlamışdır.

4. Sabirabad Sənaye Məhəlləsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 noyabr 2017-ci il tarixli Sərəncamı ilə yaradılmışdır. 28 dekabr 2017-ci il tarixində Dövlət başçısının iştirakı ilə Sabirabad Sənaye Məhəlləsinin təməlqoyma mərasimi olmuşdur. Yaradılacaq məhəllədə yun tədarükü, pambıq təmizləmə, taxta və plastik məmulatlar, tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı sahələrində layihələr həyata keçiriləcək, Logistika Mərkəzi yaradılacaq.

5. Bundan əlavə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli 831 nömrəli Fərmanına əsasən **Şərur Sənaye Məhəlləsi** yaradılmışdır. Hazırda Sənaye Məhəlləsində tikinti işləri aparılır.

## Texnoparklarin Azərbaycanda Inkişaf Istiqamətləri Və Qarşıda Duran Problemlər

Azərbaycan Respublikasında innovasiya infrastrukturunun müxtəlif istehsal və texnoloji elementlərinin təkmilləşdirilməsi üzrə texnoparkların yaradılması və fəaliyyətinin genişləndirilməsi ilə bağlı kifayət qədər həm nəzəri, həm də praktiki təcrübə toplanmışdır (Abdullayev K.N., Bakı-2020).

Qarabağ torpaqları düşmən işğalından azad edildikdən dərhal sonra ölkə prezidentinin göstərişi ilə regionda abadlıq işlərinin aparılmasına start verildi. Qarabağın yeni tarixi yazılarkən onu regionda həm də yüksək texnologiyalar və innovasiyalar məkanına çevirmək dövlətimizin iqtisadiyyatı və gələcək tərəqqisi üçün vacibdir.

Bu məqsədlə Qarabağda texnologiya parklarının, innovasiya mərkəzlərinin açılması planlaşdırılır. İnnovasiyalar Agentliyi bu yolda ilk addımını Türkiyənin ən böyük sənaye bölgələrindən birində yerləşən 130 texnologiya şirkətinə dəstək göstərən "GOSB" texnoparkı ilə memorandum imzalayaraq atıb. İstanbul Texnoparkı ilə Azərbaycan İnnovasiyalar Agentliyi arasında "Yüksək texnologiyalar sahəsində əməkdaşlıq haqqında" saziş imzalanıb. Azərbaycanın Qarabağ bölgəsinin yüksək

texnologiyalar mərkəzinə çevrilməsi regionda texnoloji biliklərin səviyyəsinin artırılması və gənc mütəxəssislərin yetişdirilməsi məqsədilə inkubasiya, akselerasiya və texnologiya transferi proqramları üzrə bilik və təcrübənin paylaşılması məqsədilə müqavilə imzalanıb. İstanbul Texnoparkının bəyanatına görə memoranduma tərəflərin gələcək birgə fəaliyyətini əks etdirən maddələr daxildir, eyni zamanda birgə yüksək texnologiyalar parklarının yaradılması planlaşdırılır.

Eyni zamanda yaxın vaxtlarda Texnopark İstanbul və Azərbaycan İnnovasiyalar Agentliyi arasında yüksək səviyyəli görüşlərin keçirilməsi planlaşdırılır. Bu görüşlər razılığa gəlmək və atılacaq addımları aydınlaşdırmaq məqsədi daşıyır. İstanbul Teknoparkının baş direktoru Bilal Topçu öz çıxışında "Türkiyədə yüksək texnologiya və xüsusilə də sahibkarlıq sahəsində əldə etdiyimiz təcrübələri Azərbaycana köçürəcəyik. Yeni texnologiya parklarında yüksək texnologiyalı məhsulların inkişafına dəstək verəcəyik. Türkiyədə olduğu kimi Azərbaycanda da elmi biliklər sənaye ilə paylaşılacaq. İnanırıq ki, gənc mühəndisləri bir araya gətirmək, gənc mühəndisləri işə götürmək və gənc sahibkarlara ideyalarını çatdırmaqda mühüm töhfələr verəcəyik" deyə qeyd etmişdir.

Bundan əlavə bu sahədə Azərbaycan-Türkiyə birgə Araşdırma və İnkişaf Mərkəzi yaradılması nəzərdə tutulur. Bu məsələ çərçivəsində Dövlət Agentliyi sədrinin müavini Ceyhun Salmanov "Baykar" şirkətinin rəhbəri və "Türkiyə Texnoloji Takımı Fondu"nun (T3) həmtəsisçisi Haluk Bayraktar və "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarla görüş keçirilib. Görüş zamanı Azərbaycanda innovasiya ekosisteminin inkişafının sürətləndirilməsi və innovativ həllərin hazırlanması istiqamətində müzakirələr aparılıb, birgə Texnoparkın eyni zamanda Araşdırma və İnkişaf Mərkəzinin yaradılması ilə bağlı məsələlər müzakirə edilib.

Türkiyədə milli texnoloji inkişafa töfhə verməyi qarşısına əsas məqsəd qoyan "Bilişim vadisi" texnoloji inkişaf mərkəzi də səfər çərçivəsində ziyarət edilib. Özündə texnoloji transfer mərkəzini, prototip və test mərkəzini, inkubasiya mərkəzi və rəqəmsal animasiyanı, həmçinin oyun mərkəzini, ümumilikdə 200-dən çox layihəni birləşdirən və 210-dan çox şirkətin cəmləşdiyi "Bilişim vadisi" ilə perspektiv ortaq layihələr barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda hal-hazırda iqtisadi-sosial vəziyyət texnoparkların sayının artırılması məsələsini daha da aktual edir. Belə ki, bunun aşağıdakı göstərilən bir sıra səbəbləri vardır:

- ✓ Koronavirus pandemiyası ilə əlaqədar olaraq dünyanın digər ölkələri kimi iqtisadiyyatda yaranan problemlərin mövcud olması;
- ✓ Neftin qiymətinin son illər kəskin aşağı düşməsi ilə əlaqədar qeyri-neft sektorunun ixraca meyilliyinə ehtiyacın artması;
- ✓ Ali baş komandanın rəhbərliyilə müzəffər ordumuzun əzəli torpaqlarımızı mənfur düşməndən azad etməsi ilə böyük qayıdışın başlanması;
- ✓ Əmək, iqtisadi və sosial vəziyyətin bunu şərtləndirməsi (Qasımov İ.,Cəbiyev.F., Bakı-2017).

Sənaye parklarının yaradılması ideyasının reallaşdırılması ilə iki mürəkkəb problemin həllinə nail olmaq mümkündür. Birinci problem kiçik istehsal biznesinin inkişafının stimullaşdırılması, ikinci problem isə ölkə iqtisadiyyatının innovativ inkişaf yolunun axtarılması.

Texnoparkların əlverişli yaradılması və inkişafına nail olmaq üçün dövlət dəstəyinin verilməsi üçün bir neçə mühüm məsələlərin həlli zəruridir:

-ölkənin elmi-təhsil və innovasiya kompleksində texoparkların rolunun hüquqi baxımdan konkretləşdirilməsi;

-texnoparkların fəaliyyətini tənzimləyən qanun və qanunvericilik aktlarının işləkliyinin təmin edilməsi;

- maliyyə- iqtisadi dəstək tədbirləri ;

-inkişafın idarəetmə prinsiplərinə riayət etmək;

-onları səmərəliliyinin qiymətləndirməsinin metodiki bazasının təkmilləşdirilməsi;

-texnoparkların yaradılması üçün təşkilat-iqtisadi şərtlərin yumşaldılması;

-inkişafın qanunverici və normativ bazasının təkmilləşdirilməsi;

-texnoparkda fundamnetal və tətbiqi tədqiqatların prioritet maliyyələşdirilməsi;

-əməliyyat güzəştli rejimin yaradılması.

Texnoparkların yaradılması və fəaliyyətinin təkmilləşdirilməsi sahəsində digər inkişaf etmiş ölkələrin müxtəlif çoxcəhətli və zəngin təcrübələrini öyrənərək, innovativ bir iqtisadiyyatın formalaşdırılması və texnoparkların fəaliyyətinin yaxşılaşdırılması üçün dövlətin innovasiya siyasəti ilk növbədə uğurla həyata keçirilməlidir (Nəcimov A., Bakı-2015).

Ölkəmizdə texnoparkların yaradılması üzrə mövcud təcrübəni və perspektivləri nəzərə alaraq qarşıya bir sıra problemlər çıxır və bu problemləri həll etmək üçün aşağıdakı tədbirlərin görməsi bu sahədə inkişafı stimullaşdırmış olacaqdır:

✓ Azərbaycan universitetlərində texnoparkların iqtisadiyyatın inkişafı üçün ən təsirli mexanizm olduğunu nəzərə alıb, struktur vahidləri ilə universitet çərçivəsində yeni innovativ müəssisələrin yaradılması;
✓ Yüksək texnoloji iş üçün kadr hazırlığının təmin edilməsi;
✓ İri innovativ layihələrin praktik icrasını idarə etmək üçün təsirli bir mexanizmin yaradılması və ən əsası burada dövlət dəstəyi olmasının təmin edilməsi.
✓ İqtisadi və sosial problemlərin həlli üçün yeni formalara keçid, idarəetmə orqanları tərəfindən innovativ fəaliyyətin idarə olunmasına yönəlmiş uyğun həllərin hazırlanması;
✓ Ölkəmizin yalnız böyük sənaye şəhərlərində deyil, respublikanın ucqar bölgələrində də müxtəlif növ innovativ infrastrukturların yaradılması təcrübəsinin genişləndirilməsi.

Beləliklə, texnoparkların yaradılması və inkişafı ölkədə mürəkkəb bir iqtisadi prosesdir və o, mövcud daxili və qlobal vəziyyətdən birbaşa asılıdır. İstənilən növ iqtisadi böhrandan çıxış yollarından biri olan elmin və istehsalın genişləndirilməsi texnoloji parkların rolunu və onlara qoyulan tələbləri ön plana çıxarmış olur.

Təhlillər göstərir ki, innovasiya strukturlarının ən əsas nümunələrindən biri kimi texnoparkların 72%-i üçün yeni iş yerlərinin yaradılması onların fəaliyyətinin ən əsas məqsədidir.

Əminliklə qeyd etmək olar ki, gələcəkdə texnoparkların müvəffəqiyyətliliyi və rəqabətqabiliyyətliliyi onların səmərəli peşəkar cəmiyyətlər formalaşdırmaq imkanlarını, yeni texnologiyalar bazarında onların mövqeyini texnoparkların qlobal tədqiqat cəmiyyətləri ilə əlaqələrinin sıx əməkdaşlığı müəyyən edəcək.

**Nəticə**

Araşdırmalardan çıxan nəticəyə görə Azərbaycanda texniki sənaye parklarının yaradılması istiqamətində görülən işlər davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından mühüm önəm kəsb edir. Belə ki, həm Azərbaycan, həm də xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parkları sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq imkanına sahibdir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə

iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına xüsusi önəm verir. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya ölkələrinin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin idxalını əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan ölkəmizdə qeyd edilən istiqamətdə atılan addımları, həyata keçirilən məqsədyönlü fəaliyyəti məqbul qiymətləndirmək olar.

Texnoparkların və yüksək texnologiya paklarının uğurlu fəaliyyəti üçün innovasiya infrastrukturunun bütün obyektlərinin yaşadıqları problemləri – xüsusilə ilkin mərhələdə onların fəaliyyətinin maliyyə təminatının səmərəli mexanizmlərinin olmaması, innovasiya infrastrukturunun qüvvədə olan subyektləri arasında hamar qarşılıqlı təsir sisteminin olmaması, kadr resursları ilə kifayət qədər qeyri -təminat, elmi təşkilatların kifayət qədər fəal olmaması, sənaye müəssisələrinin innovasiya fəaliyyətinin aşağı olması kimi məsələləri həll etmək lazımdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya. Azərbaycan Respublikası Prezidentinin 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq edilmişdir.
3. Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
4. Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə. Azərbaycan Prezidentinin 15 may 2014-cu il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
5. Sumqayıt Kimya Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2011-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.
6. Balaxanı Sənaye Parkı haqqında. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
7. Mingəçevir Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 26 fevral 2015-ci il il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
8. Qaradağ Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2015-ci il Sərəncamı ilə təsdiq edilmişdir.
9. Pirallahı Sənaye Parkı haqqında. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
10. Ağdam Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli Fərmanı təsdiq edilmişdir.
11. Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 2021-ci il tarixli Fərmanı təsdiq edilmişdir.
12. Abdullayev K.N. (2020) Milli iqtisadiyyatın innovasiyalı inkişafının əsas xüsusiyyətləri, Azərbaycan Memarlıq və İnşaat Universiteti.
13. Qasımov İ.,Cəbiyev.F. (2017) İnnovasiya sahibkarlığı və texnoparklar, Bakı-
14. Şəkərəliyev A.S. (2011) Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi.
15. Tağıyev A.H., Aslanzadə İ.A.. (2017) İnnovasiya menecmenti. Dərs vəsaiti. I-II hissə.
16. Nəcimov A. (2015) Texnoparklar: Kiçik sahibkarlar üçün bələdçi.

www. stat.gov.az
www. president.az
www. nk.gov.az
https://mydocx.ru
http://www.tpark.ru

# PANDEMİYA DÖVRÜNDƏ MALİYƏ SEKTORUNUN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xələfli Nurlan**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**n.khalafli@unec.edu.az**

## Xülasə

2019-cu ilin sonu, 2020-ci ilin əvvəlindən başlayaraq dünya ölkələri üzrə tüğyan etməyə başlayan və iqtisadiyyatın istənilən sektoruna təsirsiz ötüşməyən COVİD-19 pandemiyası bank sektoruna da öz təsirini göstərmişdir. Təbii olaraq ilk öncə biz bu məqalə mövzusunda bu pandemiyanın necə yarandığını, digər sahələrlə yanaşı bank sektoruna hansı aspektlərdə necə təsir etdiyini, bank sektorunun həyatımızdakı rolunu, dünya ölkələrində bu pandemiyaya qarşı dayanıqlı mübarizənin praktikasını və Azərbaycanda pandemiyanın banklara olan təsirini öyrənməyə çalışacağıq.

Bank sisteminin təşkili makroiqtisadi sabitliyin təmin edilməsində, iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının, habelə bazar infrastrukturunun inkişafında mühüm rol oynayır. Bank sisteminin inkişafı ənənəvi və alternativ maliyyə vasitələrindən istifadə etməklə daxili yığımın mexanizmini fəallaşdırmağa imkan verir. Bazar münasibətlərinə keçid bank sektoru tərəfindən ölkədə investisiya prosesini fəallaşdırmağa, əhalinin əmanətlərinin iqtisadiyyatın real sektorlarına transformasiyasına real zəmin yaratmaqdadır. Ölkədə iqtisadiyyatın real sektorunun normal fəaliyyət göstərməsi üçün onun əsasını təşkil edən bütün zəruri ünsürlərin, xüsusilə bank münasibətlərinin formalaşdırılması və inkişafı zəruridir. Bununla yanaşı bank sektorunun digitallaşmağa getməsinin vacib olduğu haqqındakı məsələlər qeyd edilmişdir.

**Açar sözlər:** Covid-19, pandemiya, maliyyə, iqtisadiyyat

## Summary

The COVID-19 pandemic, which began to rage around the world in late 2019 and early 2020 and did not pass unnoticed in any sector of the economy, also affected the banking sector. Naturally, first of all, we will try to study how this pandemic arose, how it affected the banking sector, among other areas, the role of the banking sector in our lives, the practice of sustainable fight against this pandemic in the world and the impact of the pandemic on banks in Azerbaijan.

The organization of the banking system plays an important role in ensuring macroeconomic stability, the development of the economy and its individual sectors, as well as market infrastructure. The development of the banking system allows activating the mechanism of internal savings using traditional and alternative financial instruments. The transition to market relations creates a real basis for the banking sector to intensify the investment process in the country, the transformation of deposits into real sectors of the economy. For the normal functioning of the real sector of the economy in the country, it is necessary to form and develop all the necessary elements that form its basis, especially banking relations. At the same time, the importance of the digitilization of the banking sector was noted.

**Keywords:** Covid-19, pandemic, finance, economy

## Giriş

Pandemiya dövrünün başlaması 2019-cu ilin sonuna 2020-ci ilin əvvəllərinə təsadüf edir və Çindən başlayaraq demək olarki dünyanın hər bir yerinə yayılaraq iqtisadiyyatı iflic vəziyyətinə qoyduğunu desək yanılmarıq. Baş vermiş və həll olunmuş və yaxud günümüzdə hələ də aktual qalan mövzular vardırki, pandemiya dövründən qismən çıxmağımıza baxmayaraq, həmin məsələlərin prioritet həll yolunu tapmaq vacibdir. Məqalə işinin yazılması dönəmində qeyd olunan problemlərin bəziləri vaxt keçdikcə, sərt karantin rejiminin yumşaldılması, iş yerlərinin yenidən fəaliyyətə başlaması iqtisadi rifah halının əvvəlki dövrə nisbətən düzəlməsi bank sektorunda müəyyən canlanmaya gətirib çıxarmışdır. Tədqiqat işinin aparılmasında əsas məqsəd burada çağdaş dövrümüzdə baş verən qlobal problemə nəzər salmaq və baş verən hadisələrə olan reaksiyaları önə çıxarmaqdır. Tədqiqat işinin vəzifəsi müəyyən dövrlər üçün irəli sürülən həll yollarını araşdırmaq, dünya təcrübəsinə baxmaq, və uyğun gələn göstəriciləri nəticə kimi davam etdirmək, bank sektorunun yeni bir dövrə qədəm qoyduğunu nəzərə çatdırmaqdır. Tədqiqat işinin aparılması müşahidə, müqayisə, analiz kimi metodlardan istifadə edilmişdir. Tədqiqat işinin əsas məhdudiyyətləri ilkin zamanlarda karantin rejiminin mövcudluğu, informasiya baxımdan qeyd olunan mövzunun daha az təmin edilməsi, ölkəmizdəki onlayn sistemə

birbaşa keçid və gözlənilməz şəkildə böhran vəziyyətinin yaranması ilə bağlı mövzunun tədqiq edilməsi və müəəyyən nəticələrin iqtisadçılar tərəfindən irəli sürülməsi müəyyən zaman almışdır. Tədqiqatın aparılmasında əsasən bank işi və maliyə ilə bağlı dərsliklərdən, Mərkəzi Bankın, Statistika komitəsinin göstəricilərindən, internet resurlarından istifadə edilmişdir.

2020-ci ilin aprel ayından başlayaraq " sms icazə" xidməti vasitəsilə insanların yaşayış yerindən kənarlaşmağa icazəsinin olması, və Nazirlər Kabinetinin qərarı ilə iş yerlərində işçi sayının 50%-ə dək azaldılması olmuşdur. 2020-ci ildə baş verən koronavirus COVID-19 pandemiyası müxtəlif bank şirkətlərini iş sistemlərində düzəlişlər və dəyişikliklər etməyə məcbur etdi. Çevik iş sistemi ən çox istifadə edilən sistemlərdən biridir və xüsusilə bu pandemiya şəraitində işçilərə təsir göstərir.Bu kimi problemlərlə yanaşı bankların onlayn şəkildə fəaliyyət göstərmək funksionallılığının az olması da digər problemlərdən biri idi. Xarici təcrübəyə baxsaq ora da cavan, orta yaşlı və qismən yaşlı nəsildən də müasir texnologiyadan istifadə imkanlarından yararlana bildiyini görə bilərik. Məsələn, fərz etsəkki pandemiyaya qədərki dövrdə ölkəmizdə olan bankların müəyyən bir qismində limitli şəkildə də olsa hər hansısa bir əməliyyatı onlayn şəkildə yerinə yetirmək mümkün idisə bəs bundan istifadə edən və ya istifadə etmək istəyənlərin say faizi nə qədər idi? Təbii olaraq pandemiya başlayan dövrdən indiki dövrümüzə qədər olan say ilə əvvəlki say arasında kəskin faiz fərqinin olduğunu gündəlik müşahidələrimizdən görmək mümkündür. Əgər əvvəllər hər hansısa xidmət göstərilməsini istəyən müştəri onlayn növbəyə yazılmayıb adi qayda da filiallara yaxınlaşırdısa, yuxarıda sadaladığımız çətinliklərə görə xidmət göstərilməsində yaranan çətinlik onlara online xidmətdən istifadə etməyə, xidmət sektoruna xüsusilə isə bank sektoruna online xidməti təklif etməyə sövq etdi.

**Pandemiya**

Çindən başlayaraq digər ölkərə sürətlə yayılmağa başlayan, həyatımıza bir çox yeniliklərin gətirilməsinə bais olan bu xəstəlik növünün hər hansısa bir sahəyə pis və ya yaxşı təsir etmədiyi desək yanılmış olarıq. İstər tibb, istər təhsil, istər idman, istərsə də iqtisadiyyat sahəsi olsun demək olarki pis və ya yaxşı hər bir sahəyə öz gücünü göstərmişdir. İnflyasiyanın artması, qiymətlərin bahalaşması, iş yerlərinin bağlanması, dövlətlərin əhalinin sosial rifahını təmin etmək məqsədilə tədbirlər planı hazırlaması geridə qoyduğumuz 2 il ərzində gündəlik müşahidə etdiyimiz məsələlər olmuşdur. Ölkəmizdə əsas yaranan problemlərdən biri işsizliyin artması məsələsi olmuşdur. Statistik məlumatlara nəzər yetirək: Ölkəmizdə 2020-ci ildə yeni yaranan 129 min iş yerinə ölkədə yeni açılmış iş yerlərinin 6,2 %-i yeni yaradılmış müəssisə və təşkilatla, 0,3 %-i fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 74,8 %-i mövcud müəssisə və təşkilatlar, 18,7 %-i digər tədbirlər üzrə yaranmış iş yerləri aiddir. Qeyd olunur ki, yeni iş yerlərinin 69,3%-i Bakı şəhərinin, 0,7%-i Naxçıvan Muxtar Respublikasının, 30%-i digər regionların, o cümlədən 8,4%-i Aran, 6,6%-i Lənkəran, 6%-i Gəncə-Qazax, 2,4%-i Abşeron, 2%-i Dağlıq Şirvan, 1,5%-i Şəki-Zaqatala, 1,5%-i iqtisadi rayonlarının payına düşüb (https://apa.az/az/sahibkarliq/Azrbaycanda-otn-il-129-min-yeni-is-yeri-acilib-629854).

Neft qiymətlərinin kəskin enməsi fonunda yaranan volatillik səbəbindən 2020-ci ilin əvvəlində əmanətlərin dollarlaşmasında artım müşahidə edilməyə başlanmışdır. Lakin sonra bu tendensiya dayandı və əksinə çevrildi. Nəticədə bu əmsal 2019-cu ilin sonu göstəricisindən də aşağı endi: 50,8 % (2019-cu ilin sonunda 52,2 %, 2020-ci ilin mart ayında 55,1%). Mövcud çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, sektor aktiv fəaliyyət göstərmiş və banklar yeni filialların açılması, bankomatların quraşdırılması, yeni işçilərin işə qəbulu prosesini davam etdirib. Qeyd etmək lazımdır ki, 2020-ci ilin iyun-dekabr ayrları ərzində ümumi statistikaya nəzər yetirsək 16 yeni filial və 163 yeni bankomat müştərilərin istifadəsinə verildi. Həmçinin 300-dən çox yeni əməkdaş işə qəbul edilmişdir ki, bu da

olduqca vacib olan məşğulluğun təmini prosesinə və həmçinin artan iş yükünün bərabərləşdirilməsində vacib rol oynamışdır (https://ddd.az/axtar%C4%B1%C5%9Fn%C9%99tic%C9%99l%C9%99ri/m%C9%99lumat/az%C9%99rbaycan1l/iqtisadiyyat25/aba2021ciilinaz%C9%99rbaqycanbanksektoru%C3%BC%C3%A7%C3%BCn-u%C4%9Furlu-olaca%C4%9F%C4%B1n%C4%B1-g%C3%B6zl%C9%99yirik-672.html).

Koronavirus böhranı MDB məkanına və Azərbaycan iqtisadiyyatına da birbaşa və dolayı təsir etmişdir. İzolyasiya tədbirləri çox insanların həyatını xilas etdi, çünki izolyasiyaya və qapanmaya getmə olmasaydı artıq xəstəxanalarda boş yer qalmayaqcaqdı, ambulator şəraitdə də müalicə ala bilməyənlərin sayı çoxalacaq və insan tələfatına yol açmış olacaqdır. Lakin digər tərəfdən qapanmanın olması iqtisadiyyata da böyük zərbə vurmuşdur. Antiböhran tədbirləri pandemiyanın qarşısını almasa da neqativ təsirləri minimallaşdırmağa yol açmışdır.

**Şəkil 1: Əmək haqqı qrafiki**




**Mənbə:** Nazirlər Kabinetinin 2019-cu il icmal hesabatı (https://nk.gov.az/media/files/b7d91bdbad8f2ea926c72f8adda753ee.pdf) (25.10.2021).

## COVİD-19 və İKT

Pandemiyanın başlaması dövründən indiki dövrümüzə qədər iqtisadiyyatın, maliyə sektorunun-bankların necə zərər çəkdiyini dəqiq bilməsəkdə az-çox təxmin edə bilərik. Azərbaycanda da bankların bir çoxsu həmin ərəfədə ləğv olunma prosesinə getməli oldu. Onsuzda zəifləməyə başlamış banklar pandemiya dövrünün başlaması ilə iflasa uğramaları daha da sürətləndi. Digər banklarında artıq köhnə metodlarla deyil, yenilik gətirərək elektron şəkildə xidmət göstərmək cəhdləri və bu cəhdlər üzrə müəyyən uğur əldə etdiklərini desək yanılmarıq. Artıq burada İKT işə düşür. İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı biznesin aparılması tərzini dəyişdirdi. Texnologiya informasiya və biznes proseslərində körpü rolunu oynayır. Digər biznes subyektləri ilə yanaşı, banklar da uzun müddətdir ki, İKT-dən yararlanırlar. İndiki vaxtda hesab sahibləri həmişə rəqəmsal bankçılığa üstünlük verirlər. Son pandemiya (COVID-19) həm müştərilərə, həm işçilərə və həm də geniş ictimaiyyətə biznes modellərindəki dəyişikliklərdən xəbərdar olmağa kömək edən qeyri-müəyyənliklərdən biri olmuşdur. Banklar pandemiya zamanı istehlakçıların rəqəmsal və ya e-bankçılığa keçidini müşahidə ediblər. Nağd pul əskinaslarından virusun yayılması ilə bağlı şayiələr yayıldı ki, bu da insanları elektron bankçılığa yönəltmək üçün mühüm səbəb oldu (Haq, 2020).

Bank xidmətlərinin əsas məqsədi banklar və istehlakçılar arasında etimad faktoru ilə daha aşağı əməliyyat xərcləri ilə keyfiyyətli xidmətlər göstərməkdir. Elektron mühitdə inam (güvən) və sədaqət böyük əhəmiyyət kəsb edir. Pandemiya şəraitində bu əhəmiyyət kəskin şəkildə artır, çünki İKT təkcə yeni inkişaflara deyil, həm də müştərilərin saxlanmasına yönəlmişdir. Bu, xüsusilə az inkişaf etmiş ölkələrdə bank sektoru üçün də problemə çevrilmiş və kommersiya banklarında biliklərin idarə edilməsinin rolu artmışdır ki, bu da çox mühüm hesab olunur. Eynilə, xidmətlərin keyfiyyəti təkcə bank işində deyil, həm də digər sahələrdə, məsələn, restoranlarda, təhsildə, tikintidə mühüm əhəmiyyət kəsb edirdi (Malik, 2020).

COVID-19 insanların yaşam tərzini, qarşılıqlı əlaqəsini və satınalma qərarlarını dəyişdirdi. COVID-19 qorxusu bütün dünyada insanların həyatı üçün təhlükə yaradır. Xüsusilə, tələbələrin bu günlərdə onlayn dərs keçməsi məhdudlaşdırılıb, müəllimlər və məmurlar onlayn görüşlər keçirməlidirlər, alıcılar və satıcılar da elektron vasitələrə diqqət yetirirlər. Bank sektorunda rəqəmsal vasitələrin populyarlaşması tamamilə eynidir, çünki hesab sahibləri artıq onlayn bankçılığa daha çox meyllidirlər. Gözlənilməz şəkildə, COVID-19-un dünya üzrə biznesini dayandırdığı və çoxlu sayda insanı yoxsulluq həddinin altına saldığı yerdə informasiya texnologiyaları müəssisələri, telesəhiyyə və təhlükəsizlik firmaları üçün geniş imkanlar yaradılır. COVID-19 dövründə ənənəvi bankçılıq tənəzzülə uğrayıb və nəticədə elektron bankçılıq platformalarında artım müşahidə olunur. Beləliklə, davranış dəyişikliklərini başa düşmək üçün bank xidmətlərini qiymətləndirmək üçün empirik potensial lazımdır. Azərbaycanda da pandemiya dövründə elektron bankçılıq təcrübələrində nəzərəçarpacaq artım müşahidə olunub. Elektron bankçılıq birləşdirilmiş daha çox təhlükəsizlik xüsusiyyətləri ilə azaldılmış əməliyyat və sabit xərclərlə təmin edilən səmərəli xidmət axını qurdu. Azərbaycanda insanlar ağır karantin günlərində bank filiallarına getməyə icazə verilmədiyindən bank ehtiyaclarını onlayn vasitələrlə həll etməyə daha çox meyl edirdilər. Cari fəslin müzakirəsi, əsasən xidmət keyfiyyətinin və onun ölçülərinin bank sisteminin elektron məmnunluğu və e-loyallığı ilə necə əlaqəli olduğu və elektron məmnunluğun xidmət keyfiyyəti və sədaqət əlaqəsinə necə vasitəçilik etdiyi ilə bağlı tədqiqat suallarının həlli yolları ətrafında gedir.

Müştəri seqmentinə toxunduqda bank sektoru üçün 2 -cür müştəri çeşidinin olduğunu qeyd etsək heçdə yanılmarıq. Bunlardan biri hüquqi şəxslər digəri isə fiziki şəxslərdir. Hər 2 seqment üçün müştəri məmnuniyyətinin qorunması banklar üçün labüd idi. Məsələn təcrübəyə baxsaq Kapital Bankın təklif etdiyi “ Birbank” mobil tətbiqi hələ Covid-19 virusunun yayılmağa və pandemiya halını almağa başlamadığı dövrlərdən müştərilərin istifadəsinə verilmişdir. Təbiiki özünün ən yaxşı səviyyəsinə və lazım olan əlavələrin nədən ibarət olması burada marketinq işçiləri ilə yanaşı müştərilərin tələb və təkliflərində özünü göstərmişdir. Bu mobil tətbiqin rahat və müştərilər üçün əlverişli olmasının timsalında digər bankların da öz mobil tətbiqlərini istifadəyə verdiyini görmək mümkündür. Əsasən müştərilərin tətbiq vasitəsilə istifadə etdiyi özəlliklər kart balansını yoxlanılması, köçürmələrin edilməsi, bundan əlavə olaraq “ ƏDV geri al” funksionallıqları daha çox müşahidə olunanlar siyahısındadır. Əgər müştərilər əvvəllər filiala yaxınlaşaraq kartı sifariş verib, daha sonra təhvil almaq üçün yenidən filiala yaxınlaşmağa məcbur idilərsə, artıq bu çətinlik də geridə qalıb. Onların istədikləri kartı onlayn şəkildə, yəni ya bankların tətbiqi və ya rəsmi sayt üzərindən sifariş verib kartın hazır olub göndərilәsi filialı seçib daha sonra onlayn növbə və ya adi qayda da yaxınlaşıb götürmək imkanları vardır.

Burada müəyyən nəzəriyyələr irəli sürmək olar:

1) Elektron bankçılıq xidmətlərində etibarlılıq e-bankçılıq loyallığına müsbət təsir göstərir.

2) Elektron bankçılıq xidmətlərində məxfilik və təhlükəsizlik e-bankçılıq loyallığına müsbət təsir göstərir.

3) Elektron bankçılıq xidmətlərində veb-saytların dizaynı e-bankçılıq loyallığına müsbət təsir göstərir.

4) Müştəri xidməti və e-bank xidmətlərində dəstək e-banking loyallığına müsbət təsir göstərir.

5) E-xidmətlərin müştəri ilə təmasda olmadan məsafədən təşkili bank əməkdaşlarının motivasiyasını artırır.

EBSQ (Elektron bankçılıq xidmətinin keyfiyyəti) və məmnunluq əlaqəsi böyük bir akademik müzakirə olaraq qalır. Tədqiqatçıların ziddiyyətli tapıntıları və fikirləri qeyd oluna bilər, çünki bəziləri EBSQ-ni e-bankinq müştəri məmnuniyyətinin bir öncülü kimi müdafiə edirdilər (Shankar, 2019).

Müştərinin ABŞ banklarının xidmət keyfiyyəti ilə bağlı qavrayışının empirik təhlili EBSQ-nin daha yüksək keyfiyyətinin məmnuniyyətə səbəb olduğunu bildirir. Veb sayt atributları, şübhəsiz ki, müştəri məmnuniyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır, lakin müxtəlif atributlar istehlakçıların şüurunda fərqli təəssüratlara malikdir. Bu, veb-sayt dizaynı ilə elektron bankçılıq müştəri məmnuniyyəti arasındakı əlaqəni parlaq şəkildə nümayiş etdirdi. Elektron bankçılıq zamanı göstərilən dəstək xidmətləri daha az texniki olmalıdır, çünki istifadəçilər arasında məmnunluq xidmətlərin texniki xüsusiyyətlərinə görə dəyişir. Beləliklə, daha yüksək məmnuniyyət əldə etmək üçün müştəri xidməti və dəstəyi hamar və əlverişli olmalıdır (Shankar, 2019).

Məmnuniyyət əldə etmək və daha çox müştəri loyallığı üçün məxfilik və naviqasiya interfeysi diqqət mərkəzində olmalıdır. Xüsusilə e-bankinqdə xidmət təminatçılarına yüksək səviyyəli təhlükəsiz məlumat, məxfilik və əməliyyatların məxfiliyinə diqqət yetirmələri ciddi şəkildə tövsiyə olunur. EBSQ-nin ebankçılıqda müştəri məmnuniyyətinə əhəmiyyətli təsiri də bu kontekstdə bildirilir.

Bank koronavirus və ya COVID-19-un yayılmasının qarşısını almaq məqsədilə iş sistemində düzəlişlər həyata keçirir. Bu tədbir işçilərin, onların ailə üzvlərinin və hətta müştərilərin hazırda qlobal pandemiyaya çevrilmiş COVID-19-a məruz qalma ehtimalından maksimum müdafiəni təmin etmək üçün Bank tərəfindən atılan addımdır. Bank üç iş sistemi düzəlişləri təyin etmişdir, yəni Split Əməliyyat, Növbəli Əməliyyatlar və Evdən İş. Split və Shift Əməliyyatları əsas əməliyyatlar və bank xidmətləri ilə bağlı funksiyalara tətbiq edilir. Bu arada, digər vəzifələr evdən iş sistemi və ya evdən işləmək üçün müraciət edir. Zamanla yanaşı, bir ölkənin iqtisadi inkişafında bank dünyasının rolu çox böyük olmuşdur. Bankların sayının artması bank sektorunu daha rəqabətqabiliyyətli olmağa, bank fəaliyyətinin səmərəliliyini və sağlamlığını yaxşılaşdırmağa təşviq etmək potensialına malikdir (Rumiyati, 2021).

Rəqabətdə qalib gəlmək üçün ən vacib amillərdən biri istehlakçı güvənidir. Mövcud milli iqtisadi artım hər bir təşkilatın və ya xidmət təminatçısının işini təkmilləşdirməyə və inkişaf etdirməyə həvəsləndirir. Rəqabətdə qalib gəlmək üçün hər bir təşkilat və ya xidmət təminatçısı istehlakçıların və ya müştərilərin ehtiyac və istəklərinə diqqət yetirməli və onların gözləntilərini qarşılamağa, müştəri məmnuniyyətini təmin etməyə çalışmalıdır. Bu anlayış maksimum müştəri məmnuniyyətini təmin etmək məqsədi daşıyır.

Rəqabət qabiliyyətini artırmaq üçün bank üstün və ya əla xidmətə (xidmət mükəmməlliyi) çevrilmək üçün xidmətlərini inkişaf etdirməli və təkmilləşdirməlidir. Bank dünyasında sözügedən müştəri müştəridir. Müştəri məmnuniyyəti, kiminsə bir məhsul və ya xidmətdə hiss etdiyi və gözlədiyi dəyərin təmin edilməsində və ya optimallaşdırılmasında kiminsə ifadəsidir. Bu şəraitdə bank fəaliyyətində internet informasiya texnologiyalarının sürətli inkişafı - hərəkətverici qüvvə kimi müxtəlif şəraitlərdə insanlara xidmət üçün bir "xilaskar" rolunu oynayır. Bank işləri üçün istisna yoxdur. Görüşlərin məhdudlaşdırılması tələb olunduqda, bank müştərisini ruhdan salmaq lazım deyil. Artıq bir çox Bank proqramları və ya saytları var ki, onlara smartfondan asanlıqla daxil olaraq bu prosesi həyata keçirmək mümkündür.

Banklardan misal olaraq Kapital Bankın təcrübəsindən bəhs edəcəyik. Kapital Bankda hələ pandemiyadan əvvəl 2019-cu ilin payız aylarında rəqəmsal satış kanalları formalaşmağa başlamışdır. İndikilərdən fərqli olaraq, müştəri onlayn şəkildə təhlil edilsə də, son qərar, sənədləşmə və prosesin tamamlanması yenə də fiziki olaraq filialda baş verirdi. Pandemiya vəziyyət yarandıqdan az sonra bank əməkdaşları və xüsusən də menecerlər bu layihəni inkişaf etdirməyə və təkmilləşdirməyə start verdilər.

Onlayn şəkildə həyata keçirilən əməliyyatların sayı isə hər dəfə mobil tətbiqlərə yenilənmə gəldikcə artır və ya daha da təkmilləşir. Onlayn şəkildə təklif olunan xismətlərdən ən çox istifadə edilənlərdən biri də kredit rəsmiləşdirilməsi prosedurudur. Burada pandemiya dövründə müştərilərə ya məsafədən yadaki yerindəcə xidməti misal göstərmək olar. Buna misal olaraq Kapital Bankın satışların idarəedilməsi departamentinin baş direktoru Ramil İmanovun sözlərinə görə keçən dövr ərzində artıq rəsmiləşdirilən kreditlərin 25%-i müştərilərin filiala yaxınlaşmadan məsafədən- onlayn şəkildə həyata keçirilmişdir. Burada əsas üstünlük müştərilərin vaxt itirmədən, növbə gözləmədən və sənədlərin artıq kağız üzərində deyil onlayn şəkildə həyata keçirilməsidir. Bankın Visa Platinum, Visa İnfinite və Mastercard World Elite kart sahibləri gün ərzində dünyanın istənilən nöqtəsindən Konserj-çatbot xidmətindən istifadə edə bilərlər. Bundan əlavə olaraq burada müştəri məmnuniyyətinin qorunması ilə bağlı müəyyən dərəcədə struktur dəyişikliyə də gedilmişdir. Artıq işçilər universal layihəyə keçid almış və işçilərin hər biri müştərilər üçün lazım olan xidməti həyata keçirməyə qadirdilər. Bu təcrübə ilə digər banklarında xidmət sferasına nəzər yetirsək demək olarki ölkəmizdəki bir çox bankların artıq mobil tətbiqi mövcuddur. Bu mobil tətbiqlərin hər biri eyni dərəcədə funksionallığa malik olmasa da müştərilər üçün lazım olan minimum məlumatlar burada öz əksini tapmaqdadır. Hüquqi şəxs kimi fəaliyyət göstərən müştərilərin məmnuniyyətini təmin etmək məqsədilə Kapital Bankın təklif etdiyi Müştəri Bank sistemini göstərmək olar. Birbank ilə 2 milyon istifadəçi sayına çatan bank bu onlayn platformada da öz hədəflərinin olduğunu göstərmişdir. Bildiyimiz kimi bu müştərilərin banklarda konvertasiya əməliyyatları, əmək haqqı köçürmələri, xaricə köçürmə, əmək haqqı kart sifarişləri, onların təhvil alınması, hesabdan məxaric və digər bu kimi əməliyyatları həyata keçirirlər. Bu onlayn platforma vasitəsilə kart təhvil alınması və hesabdan məxaric əməliyyatları istisna olmaqla sahibkarlar ölkənin istənilən yerində həmçinin ölkə xaricində də digər sadalanan əməliyyatları rahat şəkildə həyata keçirə bilərlər.

İlkin mərhələdə bankın birbaşa satış aparmaq üçün müxtəlif şirkətlərdə canlı görüşlər keçirən əməkdaşları cəlb olunmuşdur, belə ki, şirkətlərin əksəriyyəti bağlandığı və ezamiyyələrin, ofislərə kənar şəxslərin baş çəkməsinin qadağan olunmasına görə onların işi demək olar dayanmışdır. Əvəzində onlara alternativ olaraq müvəqqəti bir növ kuryer-kredit mütəxəssisliyi təklif edilmişdir. Proses bu şəkildə aparılırdı

**Cədvəl 1: Kapital Bankda pandemiyanın ilk dövrlərində kredit, kredit kartı rəsmiləşdirilmə mərhələləri (rəqəmsal kanalları vasitəsilə, onlayn şəkildə)**

| № | **Mərhələlər** |
|---|---|
| **1.** | Müştəri onlayn (rəqəmsal) kanallar və ya 196-ya zəng (həmçinin 8196-ya SMS) vasitəsilə kredit müraciətini formalaşdıraraq ünvanlayır. |
| **2.** | Müvafiq müraciət pandemiya vəziyyətindən sonra aktuallaşan telemarketinq bölməsinin əməkdaşlarına yönləndirilir. |
| **3.** | Müvafiq telesatış əməkdaşı müştəri ilə əlaqə saxlayır və razılığını alıb bütün məlumatları izah etdikdən sonra sifarişi təsdiqləyir. |
| **4.** | Artıq müştərinin iki seçimi var:<br>1. Filiala yaxınlaşıb növbədə gözləmədən cəmi 10 dəqiqə ərzində sənədlərə qol çəkərək prosesi təsdiqlədirlər, və ya<br>2. Yuxarıda qeyd olunan “Birbaşa Satış” bölməsinin əməkdaşları müştərinin ev və ya iş ünvanına yaxınlaşaraq, sosial məsafə və maska qaydalarını qorumaq şərtilə identifikasiya prosesini aparır və müvafiq sənədləri imzalatdırır. Əgər rəsmiləşdirilən məhsul kartdırsa və ya kartın iştirakı ilə aparılırsa kart fiziki olaraq müştəriyə təqdim olunur. |
| **5.** | Birbaşa Satışlar bölməsinin əməkdaşları filiala sənədi gətirərək filial əməkdaşı və müdirə təsdiqlətdirir |

| | |
|---|---|
| **6.** | Sonuncu mərhələdə məbləğ müştərinin kartına və ya ona təqdim olunmuş karta mədaxil olunur və kart aktivləşdirilir. |

**Mənbə:** Şəxsi müşahidə.

Bundan əlavə müştərilərin rahatlığını təmin etmək məqsədilə ABB bank 2020-ci il aprel ayında iki ay müddətində ərzində bu bankın təqaüd kartlarından digər bankın bankomatları vasitəsilə məxaric edərkən komissiya tutulmayacağını bildirdi.

Hər bir bank müştəri məmnuniyyətini təmin etmək məqsədilə innovativ addımlar atmaqla yanaşı təkcə onlayn xidmətlərdə deyil mövcud məhsullarda da müəyyən yeni kompaniyalar keçirməklə müştəri cəlbini daha da artırmışlar. Məsələn depozit ilə bağlı verilmiş qərara əsasən qoyulan əmanətlərin 100000 AZN məbləğinə qədər və maksimum 12%- qədər rəsmiləşdirilmiş, dollar valyutası ilə isə maksimum 2.5%-ə qədər rəsmiləşdirilmiş əmanətlər Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalandığı üçün banklar öz depozit məhsulunu müxtəlif faizlərlə təklif edə bilirlər.

**Qrafik 1: 2016-2020-ci illərdə bank sektorunun depozit portfelinin dəyişməsi**




**Mənbə:** Azərbaycan Respublikası MB-ın 2010-2020-ci il üçün Pul Siyasətinin Əsas İstiqamətləri barədə bəyanatı (https://www.cbar.az/) (21.10.2021)

**Cədvəl 2: Rezident fiziki şəxslərin milli və xarici valyutada əmanətləri, mln AZN-lə**

| **Tarix** | ***Cəmi*** | ***ondan*** | | **Rezidentlər** | ***ondan*** | |
|---|---|---|---|---|---|---|
| | | ***milli valyuta ilə*** | ***xarici valyuta ilə*** | | ***milli valyuta ilə*** | ***xarici valyuta ilə*** |
| **2020** | | | | | | |
| **01** | 8588 | 4200 | 4389 | 8165 | 4079 | 4086 |
| **02** | 8694 | 4123 | 4572 | 8073 | 3997 | 4076 |
| **04** | 7758.0* | 3481 | 4277 | 7386 | 3380 | 4007 |
| **06** | 7706 | 3545 | 4161 | 7351 | 3443 | 3909 |
| **08** | 7874 | 3579 | 4295 | 7587 | 3475 | 4112 |
| **10** | 7870 | 3697 | 4173 | 7589 | 3595 | 3994 |
| **12** | 8178 | 4027 | 4151 | 7897 | 3912 | 3985 |
| **2021** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **01** | 8203 | 4048 | 4155 | 7917 | 3931 | 3986 |
| **02** | 8380 | 4180 | 4200 | 8098 | 4066 | 4032 |
| **03** | 8147 | 4046 | 4102 | 7868 | 3931 | 3937 |
| **06** | 8435 | 4582 | 3854 | 8140 | 4449 | 3691 |
| **07** | 8606 | 4761 | 3845 | 8321 | 4629 | 3692 |
| **08** | 8559 | 4731 | 3828 | 8261 | 4597 | 3664 |
| **11** | 9052 | 5255 | 3797 | 8757 | 5121 | 3637 |
| **12** | 9241 | 5452 | 3789 | 8940 | 5313 | 3627 |
| **2022** | | | | | | |
| **01** | 9636 | 5849 | 3787 | 9342 | 5715 | 3626 |
| **02** | 10037 | 5983 | 4054 | 9485 | 5848 | 3637 |

**Mənbə:** AMB-nin depozitlərə dair statistikası (https://uploads.cbar.az/assets/c13d86361a678db299e802a0d.xlsx) (28.03.2022).

## Cədvəl 3: Qeyri-rezident fiziki şəxslərin banklarda əmanətlərinin həcmi, mln AZN-lə

| **Tarix** | ***Cəmi*** | ***ondan*** | | **Qeyri-rezidentlər** | ***ondan*** | |
|---|---|---|---|---|---|---|
| | | ***milli valyuta ilə*** | ***xarici valyuta ilə*** | | ***milli valyuta ilə*** | ***xarici valyuta ilə*** |
| **2019** | | | | | | |
| **8** | 8562 | 3766 | 4796 | 483 | 107 | 377 |
| **9** | 8605 | 3810 | 4795 | 476 | 110 | 366 |
| **10** | 8811 | 3927 | 4884 | 642 | 112 | 530 |
| **11** | 8682 | 3988 | 4693 | 512 | 115 | 396 |
| **12** | 8638 | 4133 | 4505 | 434 | 122 | 312 |
| **2020** | | | | | | |
| **01** | 8588 | 4200 | 4389 | 423 | 121 | 302 |
| **02** | 8694 | 4123 | 4572 | 621 | 125 | 496 |
| **03** | 8252 | 3702 | 4550 | 457 | 112 | 345 |
| **04** | 7758.0* | 3481 | 4277 | 372 | 101 | 270 |
| **05** | 7661.3* | 3528 | 4133 | 358 | 99 | 260 |
| **06** | 7706 | 3545 | 4161 | 355 | 102 | 253 |
| **07** | 7774 | 3685 | 4089 | 315 | 104 | 210 |
| **08** | 7874 | 3579 | 4295 | 288 | 104 | 183 |
| **09** | 7834 | 3614 | 4221 | 281 | 103 | 178 |
| **10** | 7870 | 3697 | 4173 | 282 | 102 | 180 |
| **11** | 7908 | 3742 | 4166 | 275 | 104 | 171 |
| **12** | 8178 | 4027 | 4151 | 281 | 115 | 166 |
| **2021** | | | | | | |
| **01** | 8203 | 4048 | 4155 | 286 | 116 | 170 |
| **02** | 8380 | 4180 | 4200 | 282 | 114 | 168 |
| **03** | 8147 | 4046 | 4102 | 279 | 115 | 164 |
| **04** | 8353 | 4285 | 4068 | 278 | 118 | 160 |
| **05** | 8635 | 4742 | 3894 | 279 | 120 | 159 |
| **06** | 8435 | 4582 | 3854 | 295 | 133 | 163 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **07** | 8606 | 4761 | 3845 | 285 | 132 | 153 |
| **08** | 8559 | 4731 | 3828 | 298 | 134 | 164 |
| **09** | 8838 | 4985 | 3853 | 321 | 137 | 184 |
| **10** | 8887 | 5043 | 3844 | 300 | 136 | 163 |
| **11** | 9052 | 5255 | 3797 | 294 | 134 | 160 |
| **12** | 9241 | 5452 | 3789 | 301 | 139 | 162 |
| **2022** | | | | | | |
| **01** | 9636 | 5849 | 3787 | 294 | 133 | 161 |
| **02** | 10037 | 5983 | 4054 | 552 | 134 | 417 |

**Mənbə:** AMB-nin qeyri-rezident əmanətlərinə dair statistikası (https://uploads.cbar.az/assets/c13d86361a678db299e802a0d.xlsx) (02.04.2022).

Digər bir misalı kredit məhsuluna da aid edə bilərik. Pandemiya dövründə əhalinin böyük qismi kredit götürmək üçün banklara müraciət etmişdir.Və kreditlərin faiz dərəcəsində də rəqabətin yarandığını görə bilərik. Məsələn bankların bəziləri sığorta və nağdlaşdırma komissiyası tutmadan məhsulunu təklif edir, bəziləri komissiya olsa belə daha aşağı faizlə məhsulunu bazara təqdim edir, bir qisim bank onlayn müraciət vasitəsilə kredit götürmək istəyən müştərilərə həm aşağı faiz həm də komisiyasın kredit təklif etməkdədir. Bütün bu proseslərə baxsaq deyə bilərikki pandemiyanın göstərdiki əks təsirlərlə yanaşı onun banklar arasında rəqabətartırma qabiliyyətini də ön plana çəkməliyik. Bunlarla yanaşı qeyd etmək lazımdır ki, ölkədaxili əməliyyatlarda 2020-ci ilin ortalarına qədər nağdsız dövriyyədə üstünülük kredit kartlarında olmasına baxmayaraq, onlayn xidmətlərin artırılması, onlayn ödənişlərin, pos terminalların quraşdırılması bir növ debet kartlar vasitəsilə edilən dövriyyəni də kredit kartlarında ilə eyni olmuş hətta zaman keçdikcə onu üstələməyi də bacarır. Günümüzün standartlarına və qloballaşan dünyaya baxsaq, yerli banklar üçün ümumi bir məsələni qeyd etmək lazımdır ki, digitallaşmayan banklar itirir.

Müştəri məmnuniyyətinin xidmət sektorunda xüsusilə bank sektorundakı əhəmiyyətindən və son 2 il ərzində baş verən proseslərə nəzər yetirdik. Lakin bir məsələni də diqqətdə saxlmaq lazımdır ki, müştəri məmnuniyyətinin təminatçısı təşkilat, məhsul və daimə müştərilərlə ünsiyyətdə olan işçilərdir. Məlumdur ki, bank sektorunda çalışan hər bir işçi gün ərzində müəyyəndə dərəcədə çətin müştəri ilə qarşılaşa və ya göstərdiyi xidmət nə dərəcədə yaxşı olsa da bu xidmətdən razı və ya narazı qalanlar həmişə olmuşdur. Bu məqamda işçinin motivasiyasının qorunub saxlanması vacib məqamlardan biridir. Motivasiya dedikdə bir növ bunu həvəsləndirmə kimi də qəbul edirlər. Motivasiyanın 2 növü - maddi və mənəvi motivasiyaya ayrılır. Bəzi işçilərin maddi digərlərin isə mənəvi şəkildə motiv ediməsinə ehtiyac vardırsa, qeyd etdiyimiz dövr elə bir dövr idiki demək olarki işçiləri hər 2 növlə motivləşdirmək lüzum idi.Çünki müştərinin axının çoxalması, az işçi sayı və  işin çoxalması ilə əlaqədar işçilərin həm mükafata həm maddi cəhətdən təltif edilməyə ehtiyacları vardır. Bundan başqa qeyd etmək lazımdırki, banklar öz işçiləri üçün ixtisasartırmanı da həyata keçirməli idi. Əvvəl də qeyd olunan Kapital Bank-ın həyata keçirdiyi universal işçi layihəsi əslində pandemiya dövrü üçün uğurlu bir addım idi. Çünki, işçi sayının azalmasına baxmayaraq, işçilər eyni qaydada müştərilərin istənilən suallarının cavablandırmağa qadir olmuşlar.

## Enerji

Pandemiya səbəbindən qlobal enerji tələbatı 2020-ci ilin birinci rübündə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,8% azalıb. İqtisadiyyatın bərpası V formalı olarsa və virusun yayılması azalarsa və iqtisadi aktivlik təmin olunarsa, sözügedən daralma ən yaxşı halda 4% məhdudlaşdırılacaq. IEA məlumatlarına görə, 2020-ci ilin birinci rübündə qlobal kömür tələbatı əvvəlki illə müqayisədə 8% azalıb. Təbii qazın qiymətinin çox ucuz olması, elektrik enerjisi istehsalının 2,5% azalması və qışın mülayim hava şəraiti nəticəsində kömürə tələbat azalıb. Oxşar azalma neftə tələbatda -5%, təbii qazda isə -2% müşahidə

olunub. 2020-ci ilin birinci rübündə yalnız bərpa olunan enerjiyə tələbat artdı . İqtisadi məhdudiyyətlərin enerji tələbatına təsiri də coğrafi bölgələrə və məhdudiyyətlərin tətbiqi üsuluna görə fərqlənirdi. BEA-nın hesablamalarına görə, Yaponiya və Cənubi Koreyaya nisbət də Çinə diqqət etsək əvvəlki 2 sadalanan ölkələedə iqtisadi məhdudiyyətlər sonuncudan daha az olduğu üçün onlar enerjiyə tələbat 10% dən daha az, Çində isə 15% azalmışdır. Avropada isə məhdudiyyətlər əvvəlcə qismən və mərhələli xarakter daşıdığından, enerjiyə tələbatın azalması 17%-lə məhdudlaşdırılıb. Lakin sonradan Avropada tətbiq edilən ölkə miqyasında məhdudiyyətlər həftəlik enerji tələbatını 25-30% daraltdı. Avropada enerji tələbatının 25%-dən çox azalması xidmət sektorunun yüksək paya malik olduğu iqtisadiyyatlarda yaranıb. Tam məhdudiyyətlər tətbiq edən Hindistanda həftəlik enerji tələbatının azalması təxminən 30% təşkil edib. Bu, illik 0,6 faiz nisbətinə uyğundur. Dünya enerji bazarında böyük pay sahibi olan ölkələrə diqqət yetirsək, misal olaraq Rusiyada neftdən gələn gəlirin 6.6% Səudiyyə Ərəbistanında 6.8%, Nigeriyada 5.4% azaldığı bu dövrlər ərzində proqnoqnoz edilmişdir. Azərbaycandakı göstəricilərə baxsaq, neft hasilatını Opec üzvlüyündə verilmiş qərar üzrə azaldılmış 34.5 milyon ton, qaz hasilatı isə əvvəlki illə nisbətdə 16% artırılaraq 13.4 milyard kub metrə çatmışdır (https://socar.az/socar/az/news-and-media/news-archives/news-archives/id/11523).

03 dekabr 2020-ci il tarixində Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin 12-ci iclasında gündəlik xam neft hasilatının 2021-ci ilin yanvar ayı üçün 7,2 mln. barrel azaldılması və "OPEC plus" nazirlərinin hər ay keçiriləcək görüşləri vasitəsi ilə gündəlik hasilatda artımın 0.5 mln. barreldən çox olmaması şərti ilə aylıq tənzimləməsi barədə qərar qəbul edilib. Qərarı Azərbaycan da dəstəkləyib. Beləliklə, 2021-ci ilin yanvar ayında gündəlik xam neft hasilatını OPEC ölkələri 4,564 mln. barrel, qeyri-OPEC ölkələri 2,636 mln. barrel azaldacaqlar. Yeni "Əməkdaşlıq Bəyannaməsi"nə uyğun olaraq, 2021-ci ilin yanvar ayında Azərbaycanın öhdəliyi 123 min barrel olacaq, yəni Azərbaycan gündəlik xam neft hasilatını 8 min barrel artıraraq istehsalı 595 min barrel səviyyəsində saxlamalıdır

(https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/neft-ixrac-eden-olkeler-teskilati-opec-ile-emekdasliq).

Qlobal iqtisadiyyat sahəsində aparılan araşdırmalar Covid-19-un iqtisadi təsirinin nə ola biləcəyini ortaya çıxarıb. Aparılan araşdırmalara görə, dünya əmtəə ticarətinin 9,2% azalacaq. Rüblük bazda 14,3% ilə tarixin ən böyük enişini qeydə alan əmtəə ticarətinin hökumətlərin gördüyü tədbirlər sayəsində artacağı gözlənilir. Ticarət həcmində 4,5%, idxalda 4.4% azalma əldə edilib (https://www.imf.org/en/Publications/WEO/Issues/2020/06/24/WEOUpdateJune2020).

Qiymətli kağızlar bazarının, o cümlədən onun vacib komponenti hesab edilən törəmə maliyyə alətləri bazarının inkişafı uzun müddət ərzində tədqiqatçıların, elm adamlarının, habelə siyasi qərar qəbul edənlərin və maliyyə vasitəçilərinin maraq dairəsində olmuş və bu istiqamətdə çoxsaylı tədqiqatlar aparılmışdır. Qeyd edilməlidir ki, törəmə maliyyə alətləri maliyyə sisteminin və ümumiyyətlə iqtisadi inkişafın əldə edilməsində vacib rol oynayır.

Belə ki, iqtisadi kateqoriya olaraq qəbul edilən maliyyənin iqtisadiyyatın əsas hissəsini təşkil etdiyini nəzərə alaraq onun tərifinə iqtisadi kateqoriya aspektindən baxsaq; Maliyyə - ümumi daxili məhsulun dəyərinin, xarici iqtisadi fəaliyyətdən gələn gəlirlərin və milli sərvətin bir hissəsinin bölgüsü üzrə pul münasibətlərinin məcmusudur ki, bunun da nəticəsində gələcəkdə təsərrüfatçılığın ayrı-ayrı subyektlərində, habelə dövlətdə iqtisadi və sosial məsələləri icrası məqsədilə pul gəlirləri, daxilolmalar və yığımlar formalaşır (Ataşov et al, 2014). Eyni zamanda, maliyyənin inkişafına təsir edən amillərə fikir versək qeyd etmək lazımdır ki, ötən dövrlər ilə müqayisədə maliyyə sisteminin dayanıqlılığının təmin edilməsində qiymətli kağızlar bazarının inkişaf etməsi və əsas maliyyə alətləri ilə yanaşı törəmə

maliyyə alətlərinin bu istiqamətdə rolunun nəinki inkişaf etmiş ölkələrdə, o cümlədən inkişafda olan ölkələrin iqtisadiyyatlarında mühüm olduğunu qeyd edə bilərik.

Eyni zamanda bildiririk ki, istənilən elmi tədqiqatın planlanmasının kökündə mövcud elmi metodlar durur. Elmi metod – yeni biliklərin əldə olunmasının əsas üsullarının, həmçinin istənilən elm çərçivəsində məsələlərin həlləri üsullarının toplumudur. Elm fəlsəfəsində empirik və nəzəri dərketmə anlayışları səciyyələndirilir. Buna uyğun olaraq qeyd etmək olar ki, tədqiqatı həm sınaq yolu ilə (empirik), həm də mürəkkəb məntiqi əməliyyatlar yeni, nəzəri yolla əldə edilə bilir (Əliyev, 2016). Adıçəkilən məqalənin tədqiq edilməsində nəzəri metoda üstünlük verildiyindən qeyd edilən tədqiqat işinin əsas vəzifəsi qiymətli kağızlar bazarı və həmçinin onun əsas komponenti olan törəmə maliyyə alətlərinə dair nəzəri metodoloji məlumatların təqdim edilməsi, habelə adıçəkilən istiqamətlərdə ölkəmiz tərəfindən həyata keçirilmiş və gələcəkdə həyata keçiriləcək dövlət proqram və strategiyaların tədqiq edilməsi və təkliflərin verilməsi təşkil edəcəkdir.

**Qiymətli Kağızlar Bazarının tədqiqatına dair müxtəlif yanaşmalar.**

Qloballaşan dünyada cəmiyyətin həyatında maliyyə termini, o cümlədən, dövlət maliyyəsi, maliyyə bazarı, maliyyə resursları, maliyyə aktivləri, törəmə maliyyə alətləri, qiymətli kağızlar bazarı, maliyyə menecementi, və s. tez-tez istifadə olunur.

İqtisadi ədəbiyyatlarda həm maliyyə termini, həm də bu iqtisadi kateqoriyanın meydana gəlməsi haqqında müxtəlif nöqteyi nəzərlər və təsəvürlər mövcuddur. Bir qrup tədqiqatçılar qeyd edirlər ki, bu termin 13-14-cü əsrlərdə İtaliyanın ticarət şəhərlərində meydana gəlmiş və əvvəlcə hər hansı pul ödənişlərini ifadə etmişdir. Sonralar bu anlayış beynəlxalq status almış və əhali ilə dövlət arasında pul münasibətləri sistemi ilə əlaqədar anlayış kimi istifadə edilmişdir **(**Александровна, 2000**).**

Qeyd edilməlidir ki, törəmə maliyyə alətləri hər hansı baza aktivini (valyutalar, qiymətli kağızlar, əmtəə və bu kimi digər maliyyə alətləri) əvvəlcədən müəyyənləşdirilmiş şərtlərlə almaq, satmaq və ya dəyişdirmək hüququnu təsbit edən müqavilədir. Bununla əlaqədar olaraq, törəmə maliyyə alətini almış investor onun əvvəlcədən müəyyənləşdirilmiş şərtlərlə alır. Eyni zamanda, törəmə maliyyə alətləri investorlara müxtəlif riskləri (valyuta, faiz dərəcəsi, bazar və defolt risklərini) ayırmağa və yenidən bölüşdürməyə imkan verir və beləliklə transsərhəd kapital axınını asanlaşdırır və portfelin diversifikasiyası üçün daha çox imkanlar yaradır.

Bundan əlavə qeyd etmək mümkündür ki, törəmə maliyyə alətləri qiymətləri aşkar etməyə imkan verməklə bərabər təmsil etdikləri əsas aktivin likvidliyini artırır və risklərdən qorunmaq üçün effektiv alətlər kimi maliyyə bazarlarında vacib rol oynayır. Həmçinin, törəmə maliyyə alətləri öz dəyərini əsas aktivlərdən əldə edən maliyyə aləti kimi xarakterizə edilir.

İlkin olaraq törəmə maliyyə alətləri qiymətlərin dəyişkən olduğu müddətdə effektiv mexanizm tədbiq etməklə əmtəə bazarında qiymət risklərinin azaldılması istiqamətində məhsulun istehsalı ilə məşğul olan istehsalçılara kömək edir. Həmçinin, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kapital axınlarının artması nəticəsində risklərin azaldılması və eyni zamanda onların idarə edilməsində vacib rol oynayır. İkincisi, maliyyə bazarı sferasında geniş qəbul edilmiş anlayışa görə, törəmə maliyyə alətləri bazarı risklərin azaldılması və yenidən bölüşdürülməsi vasitəsilə yeni qiymətlərin meydana çıxmasına səbəb olur.

Eyni zamanda, törəmə maliyyə alətlərinin tərifinə müxtəlif beynəlxalq təşkilatlar tərəfindən fikir bildirilmiş, belə ki, Beynəlxalq Mühasibat Standartları Komitəsi tərəfindən təqdim edilən açıqlamaya əsasən: törəmə maliyyə alətlərinin dəyəri “faiz dərəcələri, maliyyə alətləri qiymətləri, əmtəə qiymətləri, xarici valyutanın məzənnəsi, qiymətlərin və faizlərin dərəcələri, kredit reytinqi və yaxud kredit

indeksinin dəyişməsi”nə cavab olaraq dəyişir deyə qeyd edilir (Beynəlxalq Mühasibat Standartları Komitəsi rəsmi internet səhifəsi (İASB), 2022). Eyni zamanda müxtəlif elm adamları tərəfindən bu istiqamətdə aparılmış araşdırmalara əsasən qeyd edə bilərik ki, müasir dünyada şirkətlərin risk hedcinqinə, qarşı tərəflərlə çevik hesablaşma şərtlərinə, qoyulmuş vəsaitlərin minimum gəlir səviyyəsinə zəmanətin verilməsinə ehtiyacı vardır. Bütün bunlar törəmə maliyyə alətlərinin köməyi ilə edilə bilər. Törəmə maliyyə alətləri dövriyyə iştirakçılarına fəaliyyətləri çərçivəsində yaranan kredit, faiz, pul, valyuta risklərinə nəzarət etməyə kömək edir (Paşa Bank rəsmi internet səhifəsi, 2022). Kredit riski dedikdə borcalanın alınmış borcun əsas hissəsini qaytarmaması və ya borc vəsaitindən istifadəyə görə faizin ödənilməməsi başa düşülür.

Törəmə maliyyə alətlər bazarı maliyyə bazarında qiymətlər haqqında məlumatların alınması üçün mühüm maliyyə mənbəyi rolunu oynayır. Buna uyğun olaraq, “futures” və “forwards” kimi törəmə maliyyə alətləri bazarın gələcək qiymətlərinin nə olacağını müəyyən etmək üçündür. Əksər hallarda adıçəkilən bazardan alınan məlumatlar dəqiq və etibarlı hesab edilməklə törəmə maliyyə alətinin aid olduğu əmtəənin qiymətinin müəyyən edilməsində faydalı rol oynayır. Maliyyə institutları, o cümlədən banklar əsasən faiz dərəcələrinin və valyuta dəyərlərinin hərəkətindən irəli gələn risklərdən sığorta olunmaq üçün törəmə maliyyə alətləri müqavilələrindən istifadə edirlər. Bununda məntiqi nəticəsi olaraq, törəmə maliyyə alətlərinin inkişaf etməsi ilə maliyyənin qan-damar sistemi hesab edilən banklar vasitəsilə yeni yaranan sənaye sahələrinə verilən kreditlərin həcmində əhəmiyyətli artımların müşahidə olunması ilə nəticələnir (Sertifikatlaşdırılmış Maliyyə Analisti İnstitutunun (CFA) rəsmi internet səhifəsi, 2022).

Eyni zamanda bildirilməlidir ki, törəmə maliyyə alətlərinin inkişafı nəticəsində maliyyə bazarlarında məlumat axınlarının artması müşahidə edilir. Həmçinin, maliyyə bazarlarında gələcəkdə tələbə uyğun olaraq qiymətlər barədə məlumat verməklə istehsal və saxlama qərarlarına təsir edir və nəticədə ilkin alış və satış (spot) qiymətlərinin dəyişkənliyini azaldır (Lien, Donald, Zhang, 2008). Həm nəzəri, həm də təcrübi cəhətdən aparılan çoxlu araşdırmalar nəticəsində törəmə maliyyə alətləri bazarının maliyyə sistemində oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, törəmə maliyyə alətlər bazarının inkişafının iqtisadi artıma təsiri barədə bir neçə tədqiqatlar aparılmışdır (Haiss, Peter, Sammer, 2010). Belə ki, bəzi müasir dövrdə aparılmış araşdırmalarda risk və iqtisadi artım arasında əlaqənin olduğunu və dolayısı ilə törəmə maliyyə alətlər bazarının bu istiqamətdə vacib rol oynadığını bildirilmişdir.

Törəmə maliyyə alətlər bazarının inkişafının maliyyə sistemlərinin müxtəlif aspektlərinə mühüm təsirinin tədqiqində böyük səylər göstərilməkdədir. Belə ki, aşağıda qeyd edilən üsullar vasitəsilə maliyyə və iqtisadi artım arasındakı əlaqədə törəmə maliyyə alətlərinin rolu “həcm”, “səmərəlilik” və “risk” aspektində vurğulanmışdır: Belə ki, ilkin olaraq, həcm nöqteyi nəzərindən yanaşsaq, törəmə maliyyə alətləri bazarının inkişafı maliyyə bazarlarına və iqtisadi inkişafa təsir göstərməsi kapitalın yığılmasında artımlar müşahidə edilməsi ilə nəticələnəcək. Belə ki, resursların bölüşdürülməsinin investisiya fəaliyyətlərinə yüksək dərəcə gəlir gətirməsini və yüksək potensiallı investisiyaların riskli layihələrdə rolunu artıracaqdır. İkincisi, törəmə maliyyə alətləri bazarında səmərəliliyin artırılması bir neçə əhəmiyyətli funksiyaların cəmidir və buna uyğun olaraq qeyd etmək olar ki, bazarda nağd ticarəti əvəz etməklə, resursların vaxta və məkana görə hərəkət etməsi ilə, və riskləri idarə edənlər, habelə qiymət strategiyası baxımından məlumatların təqdim edilməsi baxımından səmərəlidir. Üçüncüsü, risk kanalı iqtisadi inkişafda və maliyyə bazarlarında törəmə maliyyə alətlərinin mənfi təsirlərinin azaldılmasında mühüm rol oynayır. Bunun nəticəsində mümkündür ki, törəmə maliyyə aləti əmtəənin arxasında dayanan əmtəələr barədə spekulasiyanın artırmasına və bununda nəticəsində maliyyə bazarlarının daha həssas olmasına və iqtisadiyyatda daha çox qeyri-müəyyənliyin olmasına gətirib

çıxarır. Ancaq risklərin azaldılması çərçivəsində törəmə maliyyə alətlərindən istifadə firmalar və maliyyə vasitəçiləri üçün mənfəətli hesab edilir (Allayannis, George, Ofek, 2001).

**Azərbaycan təcrübəsi.**

Qiymətli kağızlar bazarının, o cümlədən törəmə maliyyə alətləri bazarının inkişafı hər zaman Azərbaycan dövlətinin nəzarətində olmuş, o cümlədən qəbul edilmiş strategiya və dövlət proqramlarında bu istiqamətdə uğurlu addımlar atılmışdır.

Belə ki, 90-ci illərdə yenicə müstəqillik əldə etmiş ölkəmizdə 1990-1995-ci illərdə ÜDM-in həcmi hər il orta hesabla 15 faiz azalırdı. İqtisadi artım tempinin aşağı düşməsi inflyasiya ilə müşayiət edildiyinə görə ölkədə 1990-cı illərin əvvəllərində staqflyasiya müşahidə edilirdi. Azərbaycanda 1991-ci ildən başlayan iqtisadi tənəzzülün qarşısı yalnız makroiqtisadi sabitləşdirmə proqramlarının həyata keçirilməsindən sonra – 1996-cı ildə alındı.

1990-cı illərin əvvəllərində ölkədə qiymət artımı hiperinflyasiya həddinə çatmışdır. Belə ki, inflyasiyanın səviyyəsi 1992-ci ildə 1174 faiz, 1993-cü ildə 1081 faiz təşkil etmişdir. "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli Fərmanın icrasından sonra inflyasiyanı 1995-ci ildə 85 faizə, 1996-cı ildə isə 2,5 faizə endirmək mümkün olmuşdur. Sərt pul-kredit və maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutan bu Fərmanla ölkədə ardıcıl antiinflyasiya tədbirlərinə başlanıldı. Əhalinin sosial müdafiəsi hər şeydən əvvəl maliyyə sabitliyinin təmin olunmasını tələb edirdi. Yüksək inflyasiya şəraitində isə həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyildi. Yalnız 1996-cı ildən etibarən inflyasiyanın cilovlanması əhalinin həyat səviyyəsinin pisləşməsinin qarşısını aldı (Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu rəsmi internet səhifəsi, 2022).

Bakı-Tiflis-Ceyhan neft boru kəmərinin uğurlu icrası nəticəsində neft və neft məhsullarının ixracı nəticəsində ölkəyə geri ödənilən gəlirlərin qeyri neft sektorunun inkişafına yönləndirilməsindəki çətinlik ölkəmizdə maliyyə sisteminin, həmçinin onun vacib hissəsi hesab edilən qiymətli kağızlar bazarının inkişafına zəmin yaratmışdır. Maliyyə sistemində dayanıqlılığın yaradılması isə iqtisadi sfreada həyata keçirlmiş iqtisadi və hüquqi islahatlarla bilavasitə əlaqəlidir. Belə ki, liberal iqtisadiyyatda yaradılan bazar infrastrukturunun əhəmiyyətli seqmentlərindən biri şübhəsiz ki qiymətli kağızlar bazarıdır. Ölkədə iqtisadi inkişafın təmin edilməsində dövlət büdcəsi və banklar vasitəsilə ödənilən vəsaitlər ilə yanaşı, həmçinin qiymətli kağızlar bazarıda vacib əhəmiyyət kəsb edir. Belə ki, adıçəkilən bazar vasitəsilə kapitalın səfərbər edilməsi ilə mövcud maliyyə resurslarını iqtisadiyyatın müxtəlif sferaları arasında səmərəli, həmçinin rentabelli şəkildə paylanmasını təmin edir**.**

Bazar iqtisadiyyatının inkişaf etdirilməsi azad sahibkarlığa əsaslanır. Bu istiqamətdə uğura nail olmanın əsas səbəblərindən biri məhz inkişaf etmiş ölkələrin təcrübəsinə da baxsaq qeyd edə bilərik ki, dövlət əmlakının özəllləşdirilməsindən ibarətdir. Məhz, bu çərçivədə həyata keçirilmiş ən vacib siyasət nəticəsində müstəqillik əldə etdikdən sonra 1993-cü il 7 yanvar tarixində özəlləşdirmənin normativ-hüquqi bazasını təmin etmək məqsədilə "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilməsi oldu. Həyata keçirilmiş siyasətin davamlılığına nail olmaq məqsədilə 1995-ci il 29 sentyabr tarixində 1995-98 illərdə Azərbaycanda dövlət mülkiyyətinin özəlləşdirilməsinin yeni Respublika Proqramı qəbul edildi. Məhz bu proqramın qəbulu ilə özəlləşdirmə kimi mühüm problemin həllində fond bazarının iştirak etməsi zəruriliyi meydana çıxdı. Həmin proqramda özəlləşdirmənin müddəti və mərhələləri, məqsədləri, özəlləşdirilən müəssisələrin təsnifatı, onların səhmdar cəmiyyətə çevrilməsi, səhmləşdirmənin konkret variantları, özəlləşdirmə çeklərinin

verilmə şərtləri, miqdarı və onlardan istifadə qaydaları öz əksini tapmışdır. Görülmüş işlərin məntiqi davamı olaraq 1994-cü il 12 iyun tarixində "Səhmdar Cəmiyyəti haqqında" qanun və 1996-cı il 29 noyabr tarixində "Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi qaydaları haqqında Əsasnamə"nin və 1997-ci il 14 may tarixində "Dövlət özəlləşdirmə opsionları", "İxtisaslaşdırılmış Çek İnvestisiya Fondları (ÇİF) haqqında", "Milli Depozit Sistemi", "Dövlət müəssisələrinin özəlləşdirilməsi zamanı yaradılmış Səhmdar Cəmiyyətlərinin və Çek İnvestisiya Fondlarının səhmdarlarının reyestrlərinin aparılması qaydaları haqqında Əsasnamə"lərin təsdiq edilməsi qiyməti kağızlar bazarının inkişafına mühüm töhfə verdi (UNEC rəsmi internet səhifəsi, 2022).

Eyni zamanda vurğulanmalıdır ki, ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində 2004-2008-ci illəri əhatə edən Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edildi. Bu proqramda dövlət müəssisələrinin fəaliyyətinin bərpa edilməsi, yeni iş yerlərinin açılması məqsədilə özəlləşdirmə prosesinin sürətləndirilməsi, kiçik, orta və böyük müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi məqsədilə prosesin icrasının sürətləndirilməsi, həmçinin onların səhmlərinin satışına dair müvafiq bənd nəzərdə tutulmuşdur ki bunuda nəticəsində qiymətli kağızlar bazarının vacibliyini qeyd edə bilərik.

Qeyd edilməlidir ki, ölkəmizdə maliyyə və makroiqtisadi sferada atılmış addımlarda maliyyə dayanıqlılığının təmin edilməsində Mərkəzi Bank, o cümlədən digər dövlət qurumları tərəfindən qəbul edilmiş, habelə icra edilən strategiya və dövlət proqramlarında da bu istiqamətdə addımlar atılır. Belə ki, Mərkəzi Bank tərəfindən aparılan pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızların siyahısı aşağıda qeyd edilmişdir:

- Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən manatla buraxılan dövlət istiqrazları;
- Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılan istiqrazlar (notlar);
- Dövlət zəmanətli manatla buraxılan istiqrazlar;
- "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" tərəfindən manatla buraxılan ipoteka istiqrazları;
- Aşağıdakı beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən manatla buraxılan istiqrazlar: - Asiya İnkişaf Bankı; - Avropa Yenidənqurma və İnkişaf Bankı; - Beynəlxalq Maliyyə Korporasiyası; - Qara Dəniz Ticarət və İnkişaf Bankı;
- Rezident emitentlər tərəfindən manatla buraxılan və beynəlxalq kredit reytinqi agentlikləri («Standard&Poor's», «Fitch» və ya «Moody's») tərəfindən müəyyən edilmiş reytinqi Azərbaycan Respublikasının dövlət reytinqindən az olmayan korporativ istiqrazlar (Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsi, 2022).

Bu istiqamətdə, ölkə başçısının müvafiq sərəncamına uyğun olaraq, maliyyə sisteminin, o cümlədən onun tərkib hissəsi olaraq törəmə maliyyə alətlərinin inkişafı baxımından vacib rol oynayan Bakı Fond Brijası Səhmdar Cəmiyyətinin 1997-ci il 27 avqust tarixində əsası qoyulmuşdur. Bunun ardınca, 1999-cu il 25 oktyabr tarixində birja Bakı Fond Brijası Qapalı Səhmdar Cəmiyyəti olaraq yenidən formalaşmışdır.

Fond birjası - fond birjası fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti tənzimlənən bazarların təşkili və idarə edilməsi olan, səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxsdir. Fond birjası dövlət qiymətli kağızları bazarının, korporativ qiymətli kağızlar bazarının və törəmə maliyyə alətləri bazarının ticarətini təşkil edir.

Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarət yalnız qiymətli kağızların və törəmə maliyyə alətlərinin fond birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir. Kütləvi ticarət qiymətli kağızlar və ya törəmə maliyyə alətlərinin qeyri-məhdud sayda alıcılara ilkin və ya təkrar təklifi nəticəsində bağlanan əqdlərdir. Kütləvi ticarətə qəbul olunmuş qiymətli

kağızlar və törəmə maliyyə alətləri tənzimlənən bazarda yalnız investisiya şirkətlərinin vasitəçiliyi ilə alınıb-satılır.

Fond birjasının vəzifələri aşağıdakılardır:

- təşkil etdiyi ticarətin ədalətliliyinin və şəffaflığının təmin edilməsi;
- öz daxili qaydaları ilə üzvlərinin ticarətdə birbaşa və (və ya) məsafədən qoşulmaqla iştirakının təmin edilməsi;
- qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə ticarətin təşkili və keçirilməsi;
- ticarət sistemlərinin istismarı və dəstəklənməsi;
- qiymətli kağızların kütləvi təklifinin və yerləşdirilməsinin təşkili;
- fond birjasında ticarətə qəbul edilən törəmə maliyyə alətlərinə, qiymətli kağızlara və onların emitentlərinə tələblərin müəyyən edilməsi;
- öz üzvlərinə fond birjasında ticarət aparmaq üçün ticarət sistemlərinə çıxış verilməsi;
- ticarət sistemində bağlanmış əqdlərin monitorinqinin aparılması;
- öz üzvlərinin fond birjasında fəaliyyəti ilə bağlı maliyyə vəziyyətinin monitorinqinin aparılması (Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsi, 2022).

Birjanın yaradılması anından etibarən Bakı Fond Birjası Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır. Belə ki, bu gün Bakı Fond Birjası illik dövriyyəsi 15 milyard manatdan artıq olan, unikal tarixə, fond bazarının peşəkar iştirakçıları ilə möhkəm münasibətlərə və xarici ölkələrin bir çox fond birjaları ilə tərəfdaşlıq münasibətlərinə malik olan birjadır (Bakı Fond Birjası rəsmi internet səhifəsi, 2022). Qiymətli kağızlar bazarının funksiyalarına gəlincə aşağıdakılara əsasən qeyd edə bilərik ki:

- İqtisadiyyatın makroiqtisadi tənzimlənməsində iştirak etmək;
- Mülkiyyətin yenidən bölüşdürülməsi;
- Əmanətlərin investisiyaya transformasiyası;
- İqtisadiyyatın pul vəsaiti qıtlığı keçirən sahələrinin pul ilə təmin edilməsi;
- Əhalinin və müəssisələrin müvəqqəti azad pul vəsaitlərinin cəlb edilməsi və yenidən bölgüsü təşkil edir.

**Sxem.1.Qiymətli Kağızlar Bazarının Təsnifatı.**



**Nəticə və Təkliflər/Çatışmazlıqlar.**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanına uyğun olaraq təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə bazarları, o cümlədən törəmə maliyyə alətləri bazarlarında müşahidə edilən çatışmazlıqlar və onların növbəti periodlarda həlli imkanları müəyyən edilmişdir.

Belə ki, qeyd edilən yol xəritəsində əks olunan 2-ci Strateji hədəfdə qeyd edildiyi kimi maliyyə bazarlarında investor və emitentlərin aktivliyi məhduddur. Potensial investorların və emitentlərin kapital bazarı və törəmə maliyyə alətləri haqqında məlumatlarının az olması, informasiya asimmetriyası və ənənəvi təksahiblik düşüncə tərzi kimi amillər qiymətli kağızlar bazarının inkişafını məhdudlaşdırır, iqtisadiyyatda maliyyə resurslarının qeyri-səmərəli bölüşdürülməsinə səbəb olur. Məhdudlaşdırıcı amillərin aradan qaldırılması məqsədilə kapital və pul bazarının inkişafı, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması istiqamətində strateji hədəflər müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, "2011–2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramı çərçivəsində həyata keçirilmiş tədbirlər sayəsində müəyyən irəliləyişə nail olunsa da, bu sahədə təkmilləşdirmə işlərinin davam etdirilməsi vacibdir. Belə ki, potensial investorların kapital bazarı və maliyyə alətləri haqqında məlumatlarının az olması, korporativ rəhbərliyin qiymətli kağızları qeydiyyata almaq üçün şəffaf hesabatlılığa həvəs göstərməməsi və təksahiblik düşüncə tərzi kimi amillər qiymətli kağızlar bazarının, o cümlədən törəmə maliyyə alətləri bazarının inkişafına mənfi təsir göstərir (Azərbaycan Dövlət İnformasiya Agentliyi, 2022).

Eyni zamanda, ölkə iqtisadiyyatının bütün sahələrində strateji hədəfləri, həmin hədəflərə çatmaq üçün həyata keçiriləcək əsas islahatları və tədbirləri ehtiva edən 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasının layihəsi hazırlanmışdır. Bunun icrası nəticəsində ölkə iqtisadiyyatını dərindən şaxələndirməyə və onun beynəlxalq rəqabət qabiliyyətini artırmaqla neftdən asılılığı minimuma endirməyə, iqtisadi artımın sürətini, o cümlədən onun maliyyə dayanıqlılığını gücləndirməyə imkan verəcək.

Qeyd edilməlidir ki, adıçəkilən strategiyanın icrası nəticəsində də ölkəmizin maliyyə dayanıqlılığının, o cümlədən qiymətli kağızlar bazarının inkişafı istiqamətində qeyd edilmiş dövr ərzində mütərəqqi addımların atılması nəzərdə tutulmuşdur. Buna uyğun olaraq qeyd edilən dövr ərzində strategiyanın icrası nəticəsində aşağıdakılara nail olunacaqdır:

- İnflyasiya hədəflənməsi rejiminə mərhələli keçidin baza şərtlərinin formalaşdırılması;
- Maliyyə sabitliyi çərçivəsinin beynəlxalq standartlara uyğunlaşdırılması;
- Sığorta sektorunda tənzimləmə və nəzarət çərçivəsinin beynəlxalq prinsiplərə və qabaqcıl standartlara uyğunlaşdırılması;
- İnvestisiya şirkətlərində prudensial tənzimləmə və korporativ idarəetməyə dair tələblərin beynəlxalq standartlara uyğunlaşdırılması;
- "Fintex"-lərin ödəniş bazarına cəlb edilməsi və innovativ ödəniş həllərinin təqdim edilməsi;
- Bank sektoru üzrə təklifin təşviq olunması;
- Mikro-maliyyələşmə və alternativ maliyyələşmə imkanlarının genişləndirilməsi hesabına maliyyə inklüzivliyinin genişləndirilməsi;
- Sığorta sektorunun nüfuzetmə səviyyəsinin yüksəldilməsi (tələb yönlü tədbirlər) ;
- Sığorta xidmətlərinin müasirləşdirilməsi (təklif yönlü tədbirlər) ;
- Kapital bazarının dərinliyinin artırılması;
- Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi həyata keçiriləcəkdir.

Dövlətin, həmçinin iqtisadi siyasətin ayrılmaz tərkib hissəsi kimi müxtəlif sferalarda alternativ maliyyələşmə mənbəyi kimi qiymətli kağızlar bazarı vacib rol oynayır. Qiymətli kağızlar bazarı iqtisadiyyatda rolunu nəzərə alaraq qeyd edə bilərik ki, bu bazar vasitəsilə cəlb edilən resursların əldə olunması daha ucuz başa gəlir, ikinci növbədə iqtisadiyyatda dövr etməyən pul vəsaitlərinin dövr edən vəsaitlərə transformasiya asanlaşır (UNEC rəsmi internet səhifəsi, 2022).

Sonda qiymətli kağızlar bazarının inkişafı baxımından aşağıdakı təkliflərin nəzərə alınması məqsədəmüvafiq hesab edilə bilər:

- Qiymətli kağızlar bazarınının inkişafı baxımından həyata keçiriləcək tədbirlərdə ölkəmizdə fəaliyyət göstərən fond bazarının dünyanın maliyyə bazarları sisteminə inteqrasiyası prosesinin sürətləndirilməsi;
- Ölkədə fəaliyyət göstərən fond bazarının dövlətlə yanaşı bu sahədə aktiv və peşəkar olan bazar iştirakçıları tərəfindən tənzimlənməsi məqsədəmüvafiq hesab edilir;
- Qiymətli kağızlar bazarının alqı-satqısı ilə məşğul olan investorlar tərəfindən bazara qoyulan investisiyaların risklilik və gəlirliliyi baxımından onlar arasında məlumat axınlarının dəqiq və qərəzsiz çatdırılması;
- Beynəlxalq praktikaya əsasən qiymətli kağızlar bazarında vergitutma sahəsi üzrə məsul olan qurumlar tərəfindən vergi güzəştlərin tədbiq edilməsi və bu sahədə investisiyaların artırılması məqsədilə səmərəli dəstək tədbirlərinin həyata keçirilməsi;
- Mərkəzi bank tərəfindən digər kommersiya banklarına maliyyələşmə istiqamətində əhəmiyyətli rola malik törəmə maliyyə alətlərinin tədiyyə vasitəsi kimi , həmçinin nağdsız əməliyyatlarda fəaliyyətinin artırılması istiqamətində ilkin olaraq təbliğat və təşviqat fəaliyyətlərinin icra edilməsi;
- Ölkəmizə xarici birbaşa investisiyaların cəlb edilməsi, dövlət büdcəsindən dövlət üçün vacib olan infrastruktur layihələrinə maliyyə vəsaitlərinin cəlbi məqsədilə istiqrazların buraxılması, həmçinin bu istiqamətdə olan istiqrazların dünyaca inkişaf etmiş fond bazarlarına çıxışı istiqamətində mühüm addımların atılması;
- Mərkəzi bank tərəfindən fərqli xüsusiyyətlərdə olan investorlar üçün dövlət əsaslı qiymətli kağızların tədavülə buraxılması və həmçinin mərkəzi bankın beynəlxalq təcrübəyə əsasən bu istiqamətdə rolunun artırılması;
- Pensiya sistemində çevik islahatların aparılması, eyni zamanda beynəlxalq səviyyəli investorların qimyətli kağızlar bazarında aktiv iştirakının təmin edilməsi məqsədilə effektiv tədbirlərin icra edilməsi nəticəsində qiymətli kağızlar bazarı inkişaf edəcək və ölkənin maliyyə sisteminin dayanıqlılığı baxımından əhəmiyyətli rol oynayacaqdır.

**Ədəbiyyat.**


1. Allayannis, George, and Eli Ofek. 2001. Exchange rate exposure, hedging, and the use of foreign currency derivatives. Journal of International Money and Finance 20: 273–96. [CrossRef]
2. Bəyalı Ataşov, Nurpaşa Novruzov, Elşən İbrahimov. Maliyyə Nəzəriyyəsi (Bakı 2014). “Kooperasiya Nəşriyyatı”, Bakı – 2014
3. CFA Institute. Equity and Fixed Income. 2012
4. Əliyev, R. Elmi işlərin yerinə yetirilməsi metodikası. Elmi layihələrin, diplom və dissertasiya işlərinin uğurlu hazırlanmasına dair vəsait. Bakı: “Alatoran yayınları” nəşriyyatı, 2016
5. Lien, Donald, and Mei Zhang. 2008. A survey of emerging derivatives markets. Emerging Markets Finance and Trade 44: 39–69.

6. Haiss, Peter, and Bernhard Sammer. 2010. The Impact of Derivatives Markets on Financial Integration, Risk, and Economic Growth. Available online: http://dx.doi.org/10.2139/ssrn.1720586 (accessed on 4 October 2018).
7. Финансы. Денежное обращение. Кредит, Людмила Александровна Дробозина, 2000
8. https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
9. https://www.bfb.az/az
10. https://www.cbar.az/page-198/stock-exchange
11. http://economics.com.az/index.php/kitabxana/bizim-s-rl-r/meqaleler/item/1285-prezident-ilham-aeliyevin-izhtisadi-inkishaf-stratezhiyas-n-n-aesas-istizhamaetlaeri.html
12. https://unec.edu.az/application/uploads/2015/05/bagirli_xazar.pdf
13. https://www.pashabank.az/investment_products_financial_consultancy,481/print_preview/lang,az
14. https://uploads.cbar.az/assets/6579d810bda6fbbdde8d4ba36.pdf
15. https://www.iasplus.com/en/meeting-notes/iasb/2007/agenda_0702/agenda798

# QARABAĞIN ERMƏNİ SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL OLUNMASI NƏTİCƏSİNDƏ AZƏRBAYCANA VURULAN MADDİ ZƏRƏRLƏRİN TƏDQİQİ

**Orxan Əzimov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**orxan.azimov1999@gmail.com**

## Xülasə

Kür və Araz çayları arasında, Azərbaycan Respublikasının cənub-qərbində yerləşən, zəngin tarixə və mədəni irsə malik, xalqımızın ən qədim yaşayış məskənlərindən biri və Azərbaycanın ayrılmaz hissəsi olan olan Qarabağ regionu Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Bu region zəngin təbii resurslara, yüksək iqtisadi potensiala sahibdir. Yerləşdiyi coğrafi mövqeyi, zəngin təbii resursları, münbit torpaqları filiz faydalı qazıntıları ilə ölkəmizdə özünəməxsus yer tutur. Əfsuslar olsun ki, bəzi bölgələrimiz kimi Qarabağa da ermənilər tərəfindən torpaq iddiası edilmiş və 80-ci illərin sonlarından başlayan münaqişələr və hərbi təcavüzün nəticəsində torpaqlarımızın iyirmi faizini təşkil edən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafındakı yeddi rayon erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Bu işğalın nəticəsində 30 ilə yaxın müddətdə ölkəmiz buradakı iqtisadi resusurslardan məhrum olmuş, iqtisadiyyatımıza, o cümlədən onun kənd təsərrüfatı, sənaye, turizm və digər sahələrinə böyük həcmdə zərər dəymiş, yeraltı və yerüstü sərvətlərimiz talan edilmişdir. Tədqiqatda işğal səbəbindən büdcə daxilolmalarında baş verən itkilər, işğal edilmiş ərazilərimizdə istehsal edilə biləcək ümumi daxili məhsul itkisi, ekologiya və təbii sərvətlərimizə vurulan zərərlər və 1-ci Qarabağ müharibəsində ölkəmizə dəymiş maddi zərərlərin 2022-ci ilin qiymətlərilə məbləği tədqiq edilmişdir.

**Açar sözlər:** Qarabağ, Şərqi Zəngəzur, işğal, zərər, büdcə daxilolmaları itkiləri

## Summary

The Karabakh region, located in the south-west of Republic of Azerbaijan between the Kura and Araz rivers, with a rich history and cultural heritage, one of the oldest settlements of our people and an integral part of Azerbaijan, is of special importance for Azerbaijan. This region has rich natural resources and high economic potential. It occupies a special place in our country due to its geographical location, rich natural resources, fertile lands and ore minerals. Unfortunately, Karabakh like some of our regions, was claimed by Armenians and was occupied by the Armenian armed forces of the former Nagorno-Karabakh Autonomous Region and seven surrounding regions, which accounted for twenty percent of our lands due to military aggression and  conflicts since the late 1980s. As a result of this occupation, our country has been deprived of economic resources fot about 30 years, our economy, including its agriculture, industry, tourism and other economic areas, has been severely damaged, and our undeground and surface resources have been looted. The study examines the losses in budget revenues due to the occupation, the loss of gross domestic product that can be produced in our occupied territories, the amount of damage to our environment and natural resources and the amount of material damage inflicted on our country in the 1st Karabakh war at 2022 prices.

**Keywords:** Karabakh, East Zangazur, occupation, damage, losses of budget revenues

## Giriş

İqtisadi potensialı yüksək olan bölgələr dövlətlər üçün daim xüsusi əhəmiyyət daşıdığı kimi, özünün geniş iqtisadi imkan və perspektivlərə malik olması səbəbindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da ölkəmiz üçün özünəməxsus və böyük əhəmiyyəti vardır. Zəngin təbii resurslara sahib olan bu regionda dağ-mədən, metallurgiya sənayelərinin inkişafı üçün filiz faydalı qazıntılar, tikinti sektorunun inkişafı üçün qeyri-filiz faydalı qazıntılar, aqrar sektorun inkişafı üçün münbit torpaqlar və su ehtiyatları, turizm sahəsinin inkişafı üçün cəlbedici təbiət, müalicəvi sular və tarixi-mədəni abidələr, habelə energetika, xidmət, logistika və s. sektorların ikişafı üçün əlverişli imkanlar mövcuddur. Regionun bu və digər sahələrinə yatırıla biləcək investisiyalar ölkə iqtisadiyyatında böyük iqtisadi artım yaratmaq potensialındadır. Təəssüf ki, 80-ci illərin sonlarından başlayan münaqişələrdən sonra torpaqlarımızın iyirmi faizini təşkil edən, 17 min km$^2$-dən artıq ərazini əhatə edən Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmiş, bu sərvətlər əlimizdən çıxmış və ermənilər tərəfindən istismar edilmişdir. Nəhayət 2020-ci il sentyabrın 27-də ordumuzun başlatdığı əks-hücum əməliyyatları nəticəsində iyirmi yeddi illik həsrətə son qoyuldu və

torpaqlarımız həqiqi sahiblərinə geri qaytarıldı. Bu ərazilərimizin 30 ilə yaxın işğalı dönəmində ölkə iqtisadiyyatına və dövlət büdcəsinə külli miqdarda ziyan dəymişdir. Bu zərərlərin tədqiqi və qiymətləndirilməsi bizim üçün zəruridir. Çünki, iqtisadiyyatımıza dəyən maddi zərərlərin, o cümlədən büdcədə baş vermiş itkilərin doğru və dəqiq qiymətləndirilməsi zərərləri mümkün olduğu qədər qısa müddət ərzində kompensasiya etmək, düzgün iqtisadi siyasət və strategiya seçmək üçün qarşımızda duran mühüm məsələlərdən biridir. Eyni zamanda vurduqları ziyanın qarşılığında Ermənistandan beynəlxalq hüquq normaları çərçivəsində təzminat tələb etmək üçün dəymiş ziyan düzgün şəkildə tədqiq edilməli və qiymətləndirilməlidir. Tədqiqatda işğal olunmuş ərazilərimizin iqtisadi potensialı təhlil edilərək, işğal dönəmində Azərbaycan Respublikasına vurulan maddi zərərlər tədqiq olunur. Tədqiqatın məqsədlərinə çatmaq üçün qarşımızda Qarabağın Azərbaycan iqtisadiyyatındakı əhəmiyyətini və iqtisadi potensialını təhlil etmək, regionun işğaldan əvvəlki dönəmlərdəki iqtisadiyyatını tədqiq etmək, işğaldan indiyə qədər olan dövr ərzində digər regionların inkişaf dinamikasına nəzər salıb müqayisə etmək kimi vəzifələr durur.

Tədqiqatda istifadə ediləcək metodlardan biri analiz və ikincil məlumatların təhlili metodlarıdır. Analiz metodu əsasında ümumi olaraq regiona və ölkəmizə dəymiş zərərlər haqqında danışılacaq. Daha sonra müharibənin ölkəmizə vurduğu birbaşa zərərlər tədqiq ediləcək. Buna görə də bəzi məlumatları əldə etmək üçün ikincil məlumatların təhlili metodundan istifadə ediləcək. İstifadə olunacaq metodlardan biri də analoq metodudur. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatları əsasında ölkə üzrə hər il istehsal edilən ÜDM-nin həcmi göstəriləcək və bu rəqəmlər toplanacaq. Sonra isə Azərbaycanın müxtəlif iqtisadi rayonlarının illər üzrə ÜDM istehsalındakı xüsusi çəkisi göstəriləcək və Azərbaycanın 20 %-ini təşkil edən azad edilmiş ərazilərimizin ÜDM istehsalındakı mümkün çəkisi qiymətləndiriləcək. Bu bizə işğal səbəbindən itirdiyimiz ÜDM istehsalının həcmini hesablamağa imkan verəcək. İşğal nəticəsində itirilmiş büdcə daxilolmalarını qiymətləndirmək üçün isə analiz metodu ilə ARDSK-nın məlumatları əsasında illər üzrə vergilərin ÜDM-də xüsusi çəkisi təhlil edilərək, həmin ərazilərimizin orta vergü yükü qiymətləndiriləcək. Daha sonra isə vergi yükü əsasında, korrelyasyon metodla işğal dövrü ərzində itirdiyimiz gəlirlər hesablanacaq. Müqayisə metoduna da tədqiqatda yer veriləcək ki, bu da illər ərzində baş verən dəyişiklərə nəzərən itkilərin daha dəqiq təsbit edilməsinə yönəlib.

Seçdiyimiz tədqiqat metodlarını tətbiq etmək üçün əsasən Qarabağın işğal edilməsi nəticəsində ölkənin müxtəlif iqtisadi sektorlarına dəymiş zərərləri tədqiq edən və açıqlayan ədəbiyyatlardan və Dövlət Statistika Komitəsinin rəsmi saytının məlumatlarından istifadə edilmişdir. Bundan başqa, hökumət təşkilatlarının və beynəlxalq təşkilatların rəsmi saytları kimi internet resurslarından istifadə edilmişdir.

Tədqiqatın başlıca məhdudiyyəti mövzunun müəyyən bir regiona aid olması səbəbindən bu barədə lazımi qədər elmi tədqiqatların olmaması, beynəlxalq ədəbiyyatda məqalə və jurnalların az olmasıdır. Digər tərəfdən mövzu işğalların başlandığı zamandan hazırki dövrə kimi büdcəyə dəymiş zərərləri əhatə etdiyinə görə işğal edilmiş regionların 30-40 il əvvəlki ÜDM, büdcə gəlirləri kimi iqtisadi məlumatlarına nəzər salmaq lazımdır. Bu rəqəmləri əldə etmək isə tədqiqatçıya xeyli çətinlik yaradır.

## Erməni hərbi birləşmələrinin hərbi təcavüzü nəticəsində ölkəmizə vurulan birbaşa maddi zərərlər

Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağımızın işğalı ilə ölkəmizin iqtisadiyyatının müxtəlif sahələrinə ciddi ziyan dəymişdir. İşğal təkcə ölkəmizin deyil, ümumilikdə Cənubi Qafqaz regionunun iqtisadiyyatına zərər vurdu və bölgənin iqtisadi inkişafı üçün maneələr yaratdı. Bu işğal işğalçı dövlət Ermənistanın özü üçün də ciddi iqtisadi itkilərə başa gəldi. Belə ki, bu ölkə işğalçı və təcvüzkar siyasətilə

Qarabağı işğal etməsindən sonra bölgədəki bir çox böyük iqtisadi layihələrdən məhrum oldu. Bunlara Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış Bakı-Tiblisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi enerji layihələrini və s. misal göstərə bilərik. Doğrudur, Ermənistan torpaqlarımızın işğalı ilə təbii resurslarla zəngin yeni ərazilərə sahib olmuşdu, amma yetəri qədər maliyyə vəsaitlərinin və insan resurslarının olmaması səbəbindən həmin bölgələrdə iqtisadiyyatın müxtəlif sahələrinə lazımi qədər investisiya yatırımları edə bilmədi və bu səbəbdən bu ərazilərdən lazımi dərəcədə gəlir əldə edə bilmədi. Hesablamalara görə işğalın Azərbaycan iqtisadiyyatına vurduğu maddi zərərin məbləği yüz milyardlarla ABŞ dolları dəyərindədir. Emənistanın Qarabağı işğal etməsi bu bölgənin infrastrukturuna ciddi zərər vurmuşdur. Bunun üçün təkcə Qarabağın ən yüksək sənaye, aqrar və ticarət potensialının olduğu inzibati rayonlarından biri olan Ağdam rayonunun necə dağıdılmasına diqqət yetirmək kifayət edər. Rayonun istehsal sahələri, infrastruktur obyektləri dağıdılmış, işğaldan əvvəl şəhərdə yerləşən demək olar ki, heç bir tikilidən əsər-əlamət qalmamış, hətta yaşayış evləri həyətlərinin hasarlarına qədər düşmən tərəfindən uçurulmuşdur. Eyni və bənzər vəziyyəti digər bölgələrimizdə də görmək mümkündür. Ermənistanın içğalçılıq siyasəti başladığı zamandan indiyə qədər Azərbaycanın keçmiş cəbhəyanı, eyni zamanda Ermənistanla sərhəd rayonlarına külli miqdarda ziyan dəymişdir. İşğalın nəticəsi olaraq əhali öz dədə-baba torpaqlarını tərk etmək məcburiyyətində qalmış, bu ərazilərdə yerləşən yaşayış məntəqələri, ev təsərüfatları dağıdılmış, sənaye, kənd təsərüfatı obyektləri, eləcə də, sosial-iqtisadi və mədəniyyət müəssisələri məhv edilmişdir. Hətta din və mədəniyyət abidələri belə Azərbaycan xalqına qarşı nifrətin qurbanı olmuşdur. Ermənistanın işğalçı siyasəti nəticəsində keçmiş cəbhəyanı rayonlarımız olan Ağcəbədi, Ağstafa, Beyləqan, Tərtər, Goranboy, eləcə də Naxçıvan Muxtar Respublikası, Gəncə, Tovuz, Qazax, Bərdə və digər bölgələrimizə böyük həcmdə ziyan dəymişdir. Erməni təcavüzünün acı nəticələrindən biri də Naxçıvanın ölkəmizin əsas hissəsi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrinin kəsilməsi və blokadaya düşməsi idi. Blokada nəticəsində Muxtar Respublikada enerji, yanacaq təminatı problemləri və bir sıra iqtisadi çətinliklər meydana gəlmişdir. Bununla yanaşı Naxçıvan MR ərazisinə də bu illər ərzində hücumlar edilmiş və bəzi kəndləri işğal edilmişdi. Beləliklə, müharibə və atəşkəs dönəmlərində Naxçıvan MR-ə də xeyli maddi zərər dəymiş və böyük iqtisadi çətinliklərlə üzləmişdir. Ümumi olaraq Ermənistan Silahlı Qüvvələrinin torpaqlarımızı işğal etməsi nəticəsində işğal edilən ərazilərdə 900-dən çox yaşayış yeri (şəhər, qəsəbə, kənd və s.), 2389 sənaye və kənd təsərrüfatı obyekti, 4366 sosial-mədəni təyinat obyekti, 598 rabitə obyekti , 798 səhiyyə müəssisəsi (bunun 695-ini xəstəxanalar təşkil edirdi), 4 müalicəvi sanatoriya kompleksi, ümumi sahəsi 9,1 mln $m^2$ olan 150 minə yaxın yaşayış evi və mənzil, 7000 ictimai bina, 1025 məktəb, həmçinin, 927 kitabxana, 855 uşaq bağçası, 1510 mədəniyyət müəssisəsi dağıdılmışdır. Eyni zamanda, 224 su anbarı, 286 km dəmir yolu xətti, 2000 km qaz kəməri xətti, 76940 km elektrik xətti, 7568 km su xətti, 348 körpü, 5198 km avtomobil yolu, 116 dəmir yolu körpüsü, 240 km. uzunluğa malik kanalizasiya xətti və 35 min saylıq telefon stansiyası məhv edilmişdir. Əlavə olaraq, Bakı-Xankəndi-Naxçıvan qaz kəməri, Bakı-Ağdam və Horadiz-Ordubad dəmiryolu xətləri və s. işğal altında qalmışdır (Süleymanov və Süleymanov, 2012). Bunlarla yanaşı işğal nəticəsində həmin ərazilərdə 9 su anbarı, 7 su tutarı düşmənin əlinə keçmişdi. Bu su anbarları 100 minlərlə ha ərazinin suvarılması, meliroasiyası, eyni zamanda içməli su ehtiyatları yaratmaqla yanaşı, həm də ölkənin energetika sektoru üçün yüksək potensiala malikdir. Bundan əvvəl qeyd etdiyimiz kimi, Qarabağ zonası zəngin su ehtiyatlarına sahibdir. Bu ərazilər 12 əsas çay olmaqla geniş çay şəbəkəsinə malikdir. Bunlardan bəzisinin illik su axınını qeyd etmək yerinə düşər. Üzərində Suqovuşan və Sərsəng su anbarlarının yerləşdiyi, 4 rayon ərazisindən keçən Tərtərçayın illik su axınının həcmi 577 milyon $m^3$, Laçın, Qubadlı və Zəngilan ərazisindən keçən Həkəri çayının 341 milyon $m^3$, Quruçayın və Qarqarçayın hər birinin 54 milyon $m^3$, Xaçınçayın 40 milyon $m^3$, Köndələnçayın illik su axını isə 22 milyon $m^3$ təşkil edir. Erməni təcavüzü nəticəsində bu çaylar, üzərində tikilmiş su anbarları, 6426 km uzunluğuna malik suvarma şəbəkəsi, 330 km uzunluğunda kollektor-renaj şəbəkəsi, 2

hidroqovşaq, 8003 ədəd hidrotexniki qurğu, 1429 subartezian quyusu, 88 nasos stansiyası işğal altındakı ərazilərdə qalmışdı (http://mst.gov.az/az/news/210).

Qarabağ işğal altında olduğu dövr ərzində bu regionun iqtisadiyyatının müxtəlif sahələrinə, sənaye, aqrar, ev təsərrüfatı, turizm, logistika və s. sahələrinə böyük maddi zərər dəymişdir. Bu torpaqlardan əldə edilən gəlir və mənfəət isə ermənilər tərəfindən qəsb olunmuşdur. 26 oktyabr 1996-cı il tarixində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin BMT-nin Baş Katibinə yolladığı məktubda Ermənistanın ərazilərimizə silahlı hücumları və ərazilərimizin işğal edilməsi nəticəsində Azərbaycana dəymiş maddi və mənəvi zərərin ümumi miqdarının on milyardlarla ABŞ dolları təşkil etdiyi bildirilirdi. Bu məbləğ tam müəyyən edilə bilməyən məlumatlar əsasında təyin edilən məbləğ idi. Bəzi beynəlxalq təşkilatlara görə isə bu zərər 60 milyard ABŞ dollarını ötmüşdü (Qarayev, 2012). Nümunə olaraq, 2008-ci il 13 və 14 mart tarixlərində Seneqalın paytaxtı Dekar şəhərində təşkil edilən İslam Zirvə Konfransının 11-ci Sessiyasında (İslam Ümmətinin 21-ci əsrdəki iclası) qəbul edilmiş 2/11-E(IS) nömrəli "Üzv olan ölkələrə, İKT-yə (indiki İslam Əməkdaşlıq Təşkilatı) üzv olmayan ölkələrə  və müsəlman icmalarına iqtisadi dəstək göstərilməsinə dair fəaliyyətlər haqqında" adlı qətnaməsini göstərə bilərik ki, bu qətnamənin "B"  bəndində Ermənistan dövləti tərəfindən zəbt olunmuş ərazilərdə Azərbaycana dəyən iqtisadi zərərin məbləğinin 60 milyard ABŞ dollarını  ötdüyü bildirilirdi (OIC, 2008).

Atəşkəsin imzalandığı 1994-cü ilə qədər müddətdə müharibənin vurmuş olduğu maddi zərərlərə ayrı-ayrılıqda nəzər salaq. 1994-cu il üzrə qiymətlərlə Azərbaycan iqtisadiyyatına dəymiş, təxminən 60 milyard dollar məbləğində olan birbaşa zərərin yarıdan bir qədər çoxu keçmiş DQMV ərazisinin işğalı səbəbindən yaranan zərərlərdir. Təqribi hesablamalar göstərir ki, təkcə keçmiş DQMV ərazisində yerləşən, tarixi şəhərimiz olan Şuşanın zəbt olunması ilə Azərbaycana 4.257.474.000 ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur. (Süleymanov və Süleymanov, 2012).

İşğal edilmiş DQMV ətrafında yerləşən digər yeddi rayona gəldikdə isə, bu rayonların işğalı ilə ölkəmizə birbaşa vurulan zərər 28 milyard ABŞ dollarını ötür. Bu zərərlər hər bir rayon üzrə aşağıdakı kimidir:

- Laçın rayonu – 7.099.526.500 (yeddi milyard doxsan doqquz milyon beş yüz iyirmi altı min beş yüz) ABŞ dolları
- Ağdam rayonu – 6.100.107.000 (altı milyard yüz milyon yüz yeddi min) ABŞ dolları
- Füzuli rayonu – 4.742.936.050 (dörd milyard yeddi yüz qırx iki milyon doqquz yüz otuz altı min əlli) ABŞ dolları
- Cəbrayıl rayonu – 3.450.000.000 (üç milyard dörd yüz əlli milyon) ABŞ dolları
- Zəngilan rayonu – 3.414.170.000 (üç milyard dörd yüz on dörd milyon yüz yetmiş min) ABŞ dolları
- Kəlbəcər rayonu – 1.774.000.000 (bir milyard yeddi yüz yetmiş dörd milyon) ABŞ dolları
- Qubadlı rayonu – 1.485.627.000 (bir milyard dörd yüz səksən beş milyon altı yüz iyirmi yeddi min) ABŞ dolları (Süleymanov və Süleymanov, 2012).

Ermənistanın birinci Qarabağ müharibəsi illərində vurduğu zərərlər yalnız bu rayonlara vurulmuş zərərlərlə yekunlaşmır, bu rayonlardan başqa digər cəbhəyanı və sərhəd rayonlarına da böyük zərər dəymişdir. Bu rayonlara Tərtər, Ağcəbədi, Beyləqan, Qazax və digər rayonları misal göstərmək olar. Ümumilikdə bu rayonlara 1.389.233.284 ABŞ dolları həcmində maddi zərər dəymişdir. Həmin rəqəmlərə nəzər salaq:

- Tərtər və Ağdərə rayonları 799.295.100 (yeddi yüz doxsan doqquz milyon iki yüz doxsan beş min yüz) ABŞ dolları;

- Qazax rayonu – 327.529.464 (üç yüz iyirmi yeddi milyon beş yüz iyirmi doqquz min dörd yüz altmış dörd) ABŞ dolları;

- Tovuz rayonu – 189.873.420 (yüz səksən doqquz milyon səkkiz yüz yetmiş üç min dörd yüz iyirmi) ABŞ dolları;

- Gədəbəy rayonu – 44.303.800 (qırx dörd milyon üç yüz üç min səkkiz yüz) ABŞ dolları;

- Ağcabədi rayonu – 22.420.050 (iyirmi iki milyon dörd yüz iyirmi min əlli) ABŞ dolları;

- Beyləqan rayonu – 3.812.500 (üç milyon səkkiz yüz on iki min beş yüz) ABŞ dolları;

- Ağstafa rayonu – 1.998.950 (bir milyon doqquz yüz doxsan səkkiz min doqquz yüz əlli) ABŞ dolları (Süleymanov və Süleymanov, 2012).

Göründüyü kimi təkcə 1-ci Qarabağ müharibəsi başladığı zamandan atəşkəsin imzalandığı zamana qədər olan müddət ərzində müharibə nəticəsində Azərbaycana 60 milyard ABŞ dollarından çox məbləğdə maddi zərər dəymişdir. Nəzərə almaq lazımdır ki, bu məbləğ 1994-cü ildə ABŞ dollarının dünya bazarındakı alıcılıq qiymətinə əsasən 60 milyard dollar təşkil edir və 2022-ci ilə qədərki 28 il ərzində dollar inflyasiyaya məruz qalmış, alıcılıq qiyməti 2 dəfə aşağı düşmüşdür. Belə ki, rəsmi məlumatlara əsasən, 1994-cü ilin yanvar ayından 2022-ci ilin aprel ayına qədər olan zaman kəsimində ABŞ dolları 98 faiz inflyasiyaya məruz qalmışdır ki, bu da ABŞ dollarının alıcılıq qabiliyyətinin bu illər ərzində 1,98 dəfə aşağı düşməsi deməkdir (https://data.bls.gov/cgi-bin/cpicalc.pl?cost1=1.00&year1=199401&year2=202204). Buna əsasən, 60 milyardla 1,98-in hasilini taparaq, Qarabağın işğalı və müharibə nəticəsində ölkə iqtisadiyyatına dəyən birbaşa zərərin 2022-ci il nominal qiymətləri üzrə neçə ABŞ dolları təşkil etdiyini hesablaya bilərik. Beləliklə, təkcə 1-ci Qarabağ müharibəsi illəri ərzində Ermənistan Silahlı Qüvvələrinin hücumları və torpaqlarımızın işğalı nəticəsində Azərbaycan iqtisadiyyatına dəymiş birbaşa zərərin təqribən 118.800.000.000 (yüz on səkkiz milyard səkkiz yüz milyon) ABŞ dolları həcmində olduğunu görürük.

### İşğal nəticəsində Qarabağda itirdiyimiz ÜDM istehsalı həcmi

Təbii ki, ölkəmizin iqtisadiyyatına dəymiş zərərlər qeyd olunanlarla yekunlaşmır. İllər ərzində torpaqlarımızın işğal altında qalması səbəbindən bu ərazilərdən büdcəmizə gəlirlər daxil olmamışdır ki, bu da respublikamızın ərazisinin iyirmi faizindən, yəni 1/5 hissəsindən, dövlət büdcəsinə daxilolmaların itirilməsi deməkdir. Müharibənin vurduğu birbaşa zərərlərdən başqa, işğaldan əvvəlki illərin statistikasını nəzərə aldıqda, torpaqlarımızın işğal olunması səbəbindən ölkəmiz hər il ümumi daxili məhsulunun təxminən xeyli hissəsini itirmişdir. Belə ki, işğaldan əvvəlki illərdə Azərbaycanın ÜDM-sinin təqribən 15 %-i keçmiş DQMV ərazisində, 10%-i isə işğal edilən digər rayonlarımızın ərazisində istehsal olunurdu (Süleymanov və Süleymanov, 2012). Bu göstərici bölgə üçün kifayət qədər yüksək göstəricidir. Bu torpaqlarda istehsal edilən ÜDM-nin Azərbaycanın ÜDM-sinin ümumi həcminin ¼ hissəsini təkil etməsi bölgənin Azərbaycan üçün çox əhəmiyyətli, iqtisadi potensialı güclü olan, yükək məhsuldarlığı ilə seçilən bölgə oluğu aşkar olur. Yuxarıdakı rəqəmlərə və bir sıra başqa statistik göstəricilərə əsasən torpaqlarımızın işğalından hazırki dövrə qədər olan müddət ərzində bu ərazilərdə istehsal edə biləcəyimiz ÜDM-nin təqribi həcmini hesablaya bilərik. Bunun üçün Dövlət Statistika Komitəsinin məlumatlarına nəzər salmaq lazımdır. Dövlət Statistika komitəsinin məlumatlarına əsasən, Azərbaycan Respublikasının 1994-cü ildən 2021-ci ilə qədər toplam ÜDM istehsalının həcmi 875.998.300.000 ABŞ dolları məbləğində olmuşdur (https://www.stat.gov.az/source/system_nat_accounts/). Qeyd etdik ki, işğaldan öncəki illər ərzində Qarabağın işğal olunmuş ərazilərinin Azərbaycanın ÜDM istehsalındakı payı 25% idi. Lakin, nəzərə almaq lazımdır ki, müstəqillik illərində ölkəmizin ÜDM-sinin strukturunda böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın neft-qaz sahəsində böyük layihələrə imza atması ilə ölkəmizin ÜDM-sinin

həcmi çox sürətlə böyüməyə və gəlirlərinin həcmi artmağa başladı. Bununla da neft-qaz sektoru ÜDM-də çox böyük paya sahib oldu və iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışında Bakı iqtisadi rayonunun payı 70-75 % təşkil etməyə başladı (https://www.stat.gov.az/source/system_nat_accounts/). Həmçinin Bakının paytaxt şəhəri olması, bu şəhərdə əhalinin demoqrafik təmərküzləşməsi kimi amillər Bakı iqtisadi rayonunun ölkənin ümumi daxili məhsulunun istehsalındakı payının çox yüksək olmasına və digər iqtisadi rayonların isə ÜDM-dəki payının azalmasına yol açmışdır. Bakıdan sonra isə ÜDM istehsalı həcmindəki xüsusi çəkisi daha yüksək olan iqtisadi rayonlar Naxçıvan MR və Abşeron- Xızı iqtisadi rayonlarıdır. Bu iqtisadi rayonların son on il ərzində iqtisadiyyatın əsas sahələri üzrə ümumi məhsul buraxılışındakı payları ortalama olaraq Naxçıvan MR üzrə təxminən 4,5 %, Abşeron-Xızı iqtisadi rayonu üzrə isə 3,8 % təşkil etmişdir (https://www.stat.gov.az/source/system_nat_accounts/).

**Cədvəl 1: Azərbaycanın iqtisadi rayonlarında iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışında xüsusi çəkisi**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Bakı** | 72,8 | 72,9 | 70,2 | 71,7 | 71,4 | 72,3 | 68,4 | 64,7 | 68,8 |
| **Naxçıvan MR** | 4,6 | 4,7 | 5,3 | 5,0 | 4,4 | 4,1 | 4,1 | 4,6 | 3,7 |
| **Abşeron-Xızı** | 2,2 | 2,5 | 2,7 | 2,9 | 2,9 | 3,5 | 6,0 | 7,0 | 6,0 |
| **Mərkəzi Aran** | 2,9 | 3,1 | 3,3 | 2,6 | 2,8 | 2,5 | 2,8 | 3,0 | 2,4 |
| **Gəncə-Daşkəsən** | 2,1 | 2,2 | 2,5 | 2,4 | 2,4 | 2,1 | 2,1 | 2,6 | 2,2 |
| **Tovuz-Qazax** | 2,3 | 2,2 | 2,3 | 2,2 | 2,3 | 2,2 | 2,6 | 3,0 | 2,3 |
| **Mil-Muğan** | 1,8 | 1,8 | 2,0 | 2,1 | 1,9 | 1,8 | 2,0 | 2,1 | 1,9 |
| **Lənkəran-Astara** | 2,0 | 2,2 | 2,5 | 2,5 | 2,4 | 2,2 | 2,0 | 2,2 | 1,9 |
| **Şirvan-Salyan** | 2,2 | 2,1 | 2,2 | 2,1 | 2,4 | 2,5 | 2,6 | 2,6 | 2,1 |
| **Quba-Xaçmaz** | 2,1 | 2,0 | 2,1 | 2,0 | 2,1 | 2,0 | 2,4 | 2,5 | 2,1 |
| **Şəki-Zaqatala** | *2,3* | *1,7* | *2,0* | *1,9* | *2,0* | *1,9* | *2,1* | *2,5* | *1,8* |
| **Dağlıq Şirvan** | 0,9 | 0,9 | 1 | 1 | 1 | 1 | 1,2 | 1,1 | 0,9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/source/system_nat_accounts/)

İşğaldan azad edilmiş ərazilərimizin ölkəmizin 20 faizini təşkil etdiyini, 2 iqtisadi rayonun, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının ərazisində yerləşdiyini, bu ərazilərdə sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və başqa iqtisadi sahələrin inkişaf potensialını və bu torpaqların iqtisadi cəhətdən məhsuldarlığını, həmçinin işğalın ölkəmizin iqtisadi-siyasi vəziyyətinə böyük mənfi təsir etdiyini nəzərə aldıqda, işğaldan azad edilmiş ərazilərimizin ölkəmizin ümumi daxili məhsul istehsalındakı xüsusi çəkisinin illər ərzində ortalama 12% təşkil edə biləcəyini qəbul etməyimiz kifayət qədər rasionaldır. Qeyd etdik ki, təkcə 1994-cü ildən 2021-ci ilə qədər dövr ərzində Azərbaycan Respublikasında ümumi daxili məhsul istehsalı 875.998.300.000 ABŞ dolları (hər il üzrə nominal qiymətlərin cəmi əsasında

hesablanmışdır) təşkil etmişdir. Bu statistika əsasında biz həmin ildən cari dövrə qədər işğaldan azad etdiyimiz ərazilərimizdə ÜDM istehsalının təxmini həcmini hesablaya bilərik. Bunun üçün bu illər ərzində Azərbaycanda istehsal olunan ÜDM-nin həcmini 88% qəbul etməliyik. Çünki, işğal dövrü ərzində işğal altında qalan torpaqlarımızda istehsal oluna biləcək ÜDM həcminin bu dövrdə Azərbaycanda istehsal oluna biləcək toplam ÜDM həcminin 12%-ini təşkil edə biləcəyini qəbul etdik. Beləliklə, ilk öncə işğaldan azad edilmiş ərazilərimizlə birlikdə Azərbaycan Respublikasında 1994-2021-ci illər ərzində istehsal edilə biləcək toplam ÜDM-nin (yəni 100%) həcmini tapmalıyıq. Sonra isə istehsal edilə biləcək toplam ÜDM-dən digər ərazilərimizdə bu illər ərzində istehsal olunmuş ÜDM-ni çıxaraq, illər boyu işğal altında qalan torpaqlarımızda istehsal oluna biləcək ÜDM-ni tapmaq lazımdır. Toplam ÜDM-ni "$T_{üdm}$", işğal illəri ərzində Azərbaycanın digər ərazilərində istesal olunmuş ÜDM-ni "$İ_{üdm}$", işğal altında qalmış ərazilərimizdə itirdiyimiz ÜDM-ni isə "$X_{üdm}$" kimi işarələyərib, bəsit riyazi üsulla, tənasüblə hesasblama aparaq:

$İ_{üdm}$ - *88%*

$T_{üdm}$ - *100%*

$İ_{üdm} = 875.998.300.000$

$T_{üdm} = 875.998.300.000x100/88$

$T_{üdm} = 995.452.613.636,36$

Gördüyümüz kimi hesablamanın nəticəsinə əsasən, torpaqlarımız işğal altında qalmasaydı 1994-2021-ci illər ərzində Azərbaycanda təxminən toplam 995.452.613.636 ABŞ dolları həcmində ÜDM istehsal edilə bilərdi. İstehsal edilə biləcək toplam ÜDM-nin həcmi bizə bəlli olduqdan sonra bu illər ərzində işğal altında qalmış torpaqlarda istehsal edilə biləcək ÜDM-nin ($X_{üdm}$) həcmini hesablamaq üçün bütün ölkə üzrə istehsal oluna biləcək toplam ÜDM-dən ($T_{üdm}$), işğal altında olmayan ərazilərimizdə istehsal olunmuş, təxminən 876 milyard dəyərindəki ÜDM-ni çıxaq:

$X_{üdm}=T_{üdm} - İ_{üdm}= 995.452.613.636 – 875.998.300.000= 119.454.313.636$

Bununla da məlum olur ki, işğaldan azad edilmiş ərazilərimizdə 1994-cü ildən 2021-ci ilə qədər 119.454.313.636 ABŞ dolları həcmində ÜDM istehsal edilə bilərdi (hər il üzrə itkilərin nominal qiymətlərinin cəmi əsasında hesablanmışdır).

**İşğal dövrü ərzində dövlət büdcəsi daxilolmalarında baş vermiş itkilərin qiymətləndirilməsi**

İqtisadiyyatımızın itirmiş olduğu ümumi daxili məhsulun həcmini hesabladıqdan sonra işğal olunmuş ərazilərimizdən Azərbaycan Respublikasının Dövlət büdcəsinə daxil olan gəlirlərin itkisinin təxminən nə qədər olduğunu hesablaya bilərik. Bunun üçün ilk öncə işğal dövrü ərzində itirilmiş ərazilərimizdə orta vergi yükünü müəyyən etmək lazımdır. Dövlət Statistika Komitəsinin məlumatları əsasında işğal müddəti ərzində dövlət büdcəsinə daxil olan vergi daxilolmaları və bu vergilərin ÜDM istehsalının həcminə nisbəti əsasında apardığımız təhlil və qiymətləndirmə əsasında bu ərazilərin orta vergi yükünün ÜDM-dəki xüsusi çəkisini təxminən 16% olaraq qiymətləndirdik. Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1994-ci ildən 2021-ci ilə kimi ÜDM-də vergi daxilolmalarının çəkisi ortalama olaraq 14% faiz təşkil edir (Cəvdəl 2).

**Cədvəl 2: Azərbaycanın Respublikasında illər üzrə ÜDM istehsalında vergi daxilolmalarının xüsusi çəkisi (milyon manatla)**

| | ÜDM istehsalı | Vergi daxilolmaları | Vergilərin ÜDM-də xüsusi çəkisi (%) |
|---|---|---|---|
| **1994** | 374,7 | 53,9 | 14,4 |
| **1995** | 2133,8 | 230,9 | 10,8 |
| **1996** | 2732,6 | 371,5 | 13,6 |
| **1997** | 3158,3 | 465,4 | 14,7 |
| **1998** | 3440,6 | 421,6 | 12,3 |
| **1999** | 3775,1 | 467,7 | 12,4 |
| **2000** | 4718,1 | 574,4 | 12,2 |
| **2001** | 5315,6 | 714,0 | 13,4 |
| **2002** | 6062,5 | 835,5 | 13,8 |
| **2003** | 7146,5 | 1005,5 | 14,1 |
| **2004** | 8530,2 | 1232,2 | 14,4 |
| **2005** | 12522,5 | 1756,2 | 14,0 |
| **2006** | 18746,2 | 3047,7 | 16,3 |
| **2007** | 28360,5 | 5212,8 | 18,4 |
| **2008** | 40137,2 | 6724,9 | 16,8 |
| **2009** | 35601,5 | 5128,2 | 14,4 |
| **2010** | 42465,0 | 5266,8 | 12,4 |
| **2011** | 52082,0 | 6395,3 | 12,3 |
| **2012** | 54743,7 | 6975,0 | 12,7 |
| **2013** | 58182,0 | 7654,2 | 13,2 |
| **2014** | 59014,1 | 8370,2 | 14,2 |
| **2015** | 54380,0 | 8791,3 | 16,2 |
| **2016** | 60425,2 | 9031,0 | 14,9 |
| **2017** | 70337,8 | 9356,2 | 13,3 |
| **2018** | 80092,0 | 10587,3 | 13,2 |
| **2019** | 81896,2 | 11755,1 | 14,4 |
| **2020** | 72432,2 | 11151,4 | 15,4 |
| **2021** | 92857,7 | 12647,5 | 13,6 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (https://www.stat.gov.az/)

Respublikamızda iqtisadiyyatın bəzi sahələrinin vergilərdən azad edildiyini və bu kimi vergi güzəştlərinin həmin rəqəmlərdə öz əksini tapmadığını nəzərə alsaq, orta vergi yükünü 16 % olaraq qəbul etmək daha doğru olar. Bu əsasla apardığımız qiymətləndirməyə əsasən, 1991-ci ildən indiyə kimi işğal səbəbindən büdcədaxilolmalarındakı itkiləri hesablayaq. Aşkar etdik ki, 1994-cü ildən cari dövrə qədər Qarabağda istehsal oluna biləcək ÜDM təqribən 119.454.313.636 ABŞ dolları həcmində ola bilərdi. Beləliklə, biz illər ərzində Qarabağda istehsal oluna biləcək ÜDM-nin 16 %-ini hesablayaraq, işğaldan azad edilmiş ərazilərimizdən büdcəyə daxil ola biləcək gəlirlərin həcminin nə qədər olduğunu qiymətləndirə bilərik. Bu nisbətlə əldə etdiyimiz nəticəyə əsasən, Qarabağın erməni hərbi birləşmələri tərəfindən işğal edilməsi nəticəsində işğal edilmiş ərazilərimizdən 1994-2021-ci illər ərzində Azərbaycan Respublikasının Dövlət büdcəsinə daxilolmaların itkisi 19.112.690.182 (on doqquz milyard yüz on iki milyon altı yüz doxsan min yüz səksən iki) ABŞ dolları həcmindədir. Əlbəttə, dəymiş zərəri tam dəqiqliklə hesablamaq və qiymətləndirmək mümkün deyil. Hesabladığımız 20 milyarda ABŞ dollarına yaxın olan büdcə daxilolmaları itkiləri 1994-cü ildən cari dövrə qədər olan müddət ərzindəki statistik göstəricilər əsasında aparılsa da, düşünürük ki, Azərbaycan Respublikasının iqtisadi imkanlarını nəzərə aldıqda itkilərin miqdarı bizim hesablamalarımızla əldə etdiyimiz məbləğdən daha çox ola bilər.

Ölkəmizə və onun büdcəsinə vurulan zərələr bununla yekunlaşmır. Ermənilərin hərbi təcavüzü və müharibə ölkədə ciddi sosial problemlər yaratmışdır. İşğal səbəbindən yüz minlərlə Azərbaycan vətəndaşı öz doğma dədə-baba torpaqlarından didərgin düşməklə məcburi köçkünə çevrilərək hüquq və azadlıqlarından məhrum edilmiş, 18 mindən artıq vətəndaşımız şəhid olmuş (Vətən müharibəsi şəhidlərini də nəzərə aldıqda 21 min), 50 min vətəndaşımız müxtəlif dərəcəli əlilə çevrilmiş, 5 mindən çox vətəndaşımız isə itkin düşmüşdür. Bu səbəblərdən ölkədə humanitar vəziyyət yaranmışdır (Vəliyev, 2020). Ümumilikdə işğal səbəbindən 660 mindən çox azərbaycanlı məcbur köçkünə çevrilərək, digər rayon və şəhərlərə üz tutmuşdur. Bu məcburi köçkünlərin 146 min nəfəri Füzulidən, 165 min nəfəri Ağdamdan, 74 min nəfəri Kəlbəcərdən, 71 min nəfəri Laçından, 39 min 500 nəfəri Zəngilandan, 66 min nəfəri Cəbrayıldan, 37 min 900 nəfəri isə Qubadlı köçmüşdür. Bununla yanaşı, 100 mindən çox əhali isə cəbhəyanı ərazilərdən köç edərək, digər yerlərə sığınmışdır (Süleymanov və Süleymanov, 2012). Bu statistikanın üzərinə 1988-ci ildə Qərbi Azərbaycandan köçmüş qaçqınların sayını əlavə etdikdə bu rəqəm təxminən 1 milyona çatmış olur. Təbii ki, həmin dövrdən indiyə qədər bu say eyni qalmamış, təbii atrım səbəbindən daha da artmışdır. Keçmiş Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri hələ 2013-cü ildə bu barədə bildirmişdi ki, "Bir ilə 10 min artmaqla bu rəqəm 1 milyon 200 minə çatıb. 9 milyondan çox əhalinin 1 milyon 200 mini qaçqın və məcburi köçkündür. Yəni, dünyada hər 135 nəfərdən biri qaçqın olduğu halda, Azərbaycanda hər səkkiz nəfərdən bir qaçqındır. Bizim çox ağır problemimiz var" (https://azertag.az/xeber/Ali_Hesenov_Azerbaycanin_hemise_vurgulandigi_kimi_1_milyon_deyil_1_milyon_200_min_qachqin_ve_mecburi_kockunu_vardir-217774). Bildiyimiz kimi, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində, SSRİ-nin dağılması dövründə Azərbaycanda siyasi atmosfer mürəkkəbləşmişdi. Yeni yaranmış, müstəqil Azərbaycan Respublikasında siyasi vəziyyətin mürəkkəbləşməsi, ölkənin iqtisadi həyatına ciddi dərəcədə mənfi təsir etmiş, ölkə iqtisadiyyatında böhranlı vəziyyətin yaranmasına gətirib çıxarmışdı. Bu böhranlı vəziyyətdə Azərbaycan əhalisinin 1 milyona yaxın hissəsinin qaçqın və məcburi köçkünə çevrilməsi sosial vəziyyəti kəskin şəkildə pisləşdirmişdi. Belə bir vəziyyətdə dövlət büdəsindən məcburi köçkünlərin sosial ehtiyacları və problemlərinin aradan qaldırılması üçün dövlət tərəfindən hər il xeyli miqdarda vəsait ayrılması zərurəti yaranmışdır. Ümumilikdə 1993-2019-cu illər ərzində məcburi köçkünlərinin problemlərinin həlli istiqamətində təxminən 7,7 milyard manat vəsait xərclənmişdir. Bu xərclərin 3,8 milyard manat təşkil edən əsas hissəsi dövlət büdcəsindən maliyyələşdirilmişdir. Yerdə qalan vəsaitin 2,5 milyard manatı Dövlət Neft Fondu, 1,4 milyard manatı isə beynəlxalq maliyyə qurumları, humanitar və s. təşkilatların tərəfindən təmin edilmişdir (http://idp.gov.az/az/law/126/parent/15). Həmçinin Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2020 və 2021-ci illər ərzində görülmüş işlər üzrə hesabatlarına əsasən dövlət büdcəsindən məcburi köçkün ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, komunal xərclərinin qarşılanması və məcburi köçkünlərə vahid aylıq müavinətlərin verilməsi məqsədilə təxminən 750 milyon manata yaxın vəsait xərclənmişdir (http://idp.gov.az/az/law/cat/7/parent/15). Beləliklə, ermənilərin etnik düşmənçilik və işğal siyasəti nəticəsində öz yurdlarından didərgin düşmüş məcburi köçkünlərin qarşılaşdığı sosial problemlərin həlli istiqamətində 1993-2021-ci illər ərzində Azərbaycan Respublikasının dövlət büdcəsindən təqribən 7,08 milyard manat, ARDNF-dan isə 2,5 milyard manat vəsait ayrılmışdır.

**İşğalın ölkəmizə vurduğu ekoloji zərərlər və təbii sərvətlərimizin talan edilməsi**

Qarabağın yüksək maliyyə və iqtisadi perspektivə sahib olmasının səbəblərindən biri onun zəngin faydalı qazıntılara sahib olmasıdır. Bu resurslardan istifadə edilməsi Azərbaycanda metallurgiya və dağ-mədən sənayelərinin yüksəlişində böyük rol oyanaya bilər. Bu qiymətli torpaqlarda ümumilikdə 155 növ

faydalı qazıntı yataqları mövcuddur. İşğaldan əvvəlki, Sovet Azərbaycanı dövründə bu yataqlar ölkə iqtisadiyyatında böyük əhəmiyyətə malik idi. Qeyri-filiz faydalı qazıntılardan 5 tikinti qumu, 10 mişar daşı, 19 üzlük daşı, 10 gil, 4 sement xammalı, 9 gips, anhidrid və gəc, 9 qum-çınqıl, eləcə də 13 fərqli növdan olan tikinti daşları və digər qeyri-filiz faydalı qazıntı yataqlarını misal göstərə bilərik. Bu qeyri-filiz faydalı qazıntılar tikintidə və inşaat işlərində zəruri olan materiallardır. Həmçinin filiz faydalı qazıntılarla zəngin olan Kiçik Qafqaz dağ silsiləsin Qarabağa aid hissəsində də çox qiymətli filiz faydalı qazıntıları mövcuddur. Bunlara 5 qızıl, 2 mis, 6 civə, 1 qurğuşun və sink yataqları nümunə göstərə bilərik (http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf). İşğal dövrü ərzində ölkəmizə vurulan ən böyük zərərlərdən biri bu təbii sərvətlərimizin istismar edilməsi və bölgənin ekologiyasına vurulan zərərlərdir. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri və "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu" tərəfindən hələ 2014-2016-cı illər arasında erməni işğalı səbəbindən ekologiya və təbii sərvətlərimizə dəymiş zərərlərin həcminin qiymətləndirilməsi üçün araşdırma aparılmışdır. Bu hesabatda Azərbaycanın talan edilmiş faydalı qazıntıları, məhv edilmiş ekosistemi və ölkə əhalisinə vurulan mənəvi-ekoloji zərər tədqiq edilmişdir. Hesabatın nəticələrinə əsasən, dəymiş zərərlərin ümumi miqdarı 265.281.198.203 ABŞ dolları həcmindədir (http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574). İşğaldan sonra bölgənin ekosisteminə vurulan zərərin həcminin nə qədər böyük olduğunu anlamaq üçün meşələrin qırılma həcminə diqqət yetirmək kifayətdir. Bildiyimiz kimi, bu ərazilərdə zəngin meşə landşaftı mövcuddur. Həmin meşələr bu ərazilərin ümumi sahəsinin 14 faizini təşkil edir. Kəlbəcər və Laçının meşə örtüyü digər rayonlara nisbətdə daha çoxdur. Təəssüf ki, işğal nəticəsində meşələr də zərər görmüşdür. Demək olar ki, işğal edilmiş torpaqlarımızda qızıldan sonra ən çox talana məruz qalmış təbii sərvətimiz meşələrimizdir. Belə ki, torpaqlarımız işğal edilərkən bu ərazilərin 231 min hektarı meşəliklərlə örtülmüşdü (FAO 2020). Lakin təəssüf hissi ilə bildiririk ki, işğaldan azad edilərkən isə bu ərazilərdə cəmi 174 min ha meşə qalmışdır (https://president.az/az/articles/view/49933). Bu isə işğal müddəti ərzində 57 min ha meşə sahəsinin məhv edilməsi deməkdir.

## Nəticə

Gördüyünüz kimi, erməni işğalının dövlətimizə və xalqımıza vurduğu maddi zərərin miqdarı yüz milyardlarla ABŞ dolları dəyərindədir. Tədqiqatın sonunda rəqəmlərə ayrı-ayrılıqda bir daha nəzər salaq:

- 1994-cü ilin qiymətlərilə ümumilikdə işğal edilmiş rayonlarımıza, eləcə də cəbhəyanı və sərhədyanı rayonlarımıza hərbi təcavüz və müharibə nəticəsində təxminən 60 milyard ABŞ dolları həcmində zərər vurulmuşdur. Lakin, 1994-cü ildən cari dövrə kimi ABŞ dollarının 1,98 dəfə inflyasiyaya məruz qaldığını və alıcılıq qabiliyyətinin aşağı düşdüyünü nəzərə aldıqda, bu rəqəm daha da böyüyür. Beləliklə, 60 milyardı 1,98-ə vurduqda, 1-ci Qarabağ müharibəsi zamanı Azərbaycana vurulan birbaşa zərərin həcminin hazırki qiymətlərlə 118.800.000.000 ABŞ dolları təşkil etdiyi görürük.
- Müharibədən cari dövrə qədər olan zaman kəsimində yüksək iqtisadi potensiala malik olan bu ərazilərimizdə təxminən bir trilyon, daha dəqiq desək 995.452.613.636 ABŞ dolları dəyərində ÜDM istehsal edilə bilərdi. Azərbaycanda 1994-2021-ci illər üzrə vergi daxilolmalarının toplam ÜDM istehsalındakı xüsusi çəkisinin 14% təşkil etdiyini və vergi güzəştləri kimi bir sıra amilləri nəzərə alaraq işğal edilmiş ərazilərin ortalama vergi yükünü 16% olduğunu qəbul edə bilərik. Analoji olaraq işğal səbəbindən azad edilmiş ərazilərimizdə itirdiyimiz büdcədaxilolmalarının həcminin 19.112.690.182 ABŞ dolları aşkar olur.
- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri və "Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu" 2014-2016-cı illərdə

işğal nəticəsində ətraf mühitə və təbii sərvətlərimizə vurulan zərər haqqında birlikdə hesabat hazırlamışdılar. Bu hesabata əsasən, təkcə 2016-cı ilə qədər bu zərərin məbləği 265.281.198.203 ABŞ dolları həcmindədir.

- İşğal nəticəsində öz yurdlarından didərgin düşmüş məcburi köçkünlərin sosial ehtiyaclarını təmin etmək üçün 2021-ci ilə qədər Azərbaycan Respublikasının dövlət büdcəsindən təqribən 7,08 milyard manat, Dövlət Neft Fondundan isə 2,5 milyard manat vəsait ayrılmışdır.

Bu zərərləri topladıqda, erməni silahlı qüvvələrinin ölkəmizə ümumilikdə 412.773.888.385 ABŞ dollarından çox zərər vurduğu aydın olur. Lakin dəymiş zərərlər qeyd olunanlarla yekunlaşmır. Vurulan maddi zərərlərlə yanaşı, işğal nəticəsində Azərbaycan xalqına böyük mənəvi də zərər vurulmuşdur ki, bu zərərin hesablanması üçün mütəxəssislər xüsusi qiymətləndirmə meyarları əsasında tədqiqat aparmalıdırlar.

BMT-nin 1974-cü il 14 dekabrda qəbul etdiyi 3314 saylı və 2001-ci il 12 dekabrda qəbul etdiyi 56/83 saylı qətnamələrinə əsasən, Ermənistan vurduğu zərərlərə görə məsuliyyət daşıyır və təzminat ödəməyə borcludur. Buna əsasən, təzminatın ödənilməsi üçün Ermənistana hər il müəyyən məbləğ təyin edilə və hər il Azərbaycana həmin məbləğdə kompensasiya ödənilməsi tələb oluna bilər. Lakin illik 2-3 milyard ABŞ dolları büdcəsi və illik gəliri olan və hər ilin sonunu büdcə defisiti ilə başa vuran bir dövlətin 400 milyard dollardan artıq olan kompensasiyanı ödəməsi mümkün deyil. Buna görə də təzminatı ödənilməsi üçün Ermənistana müəyyən şərtlərin qoyulması məqsədəuyğundur. Belə ki, bunun üçün Ermənistandan ordu xərclərini ciddi şəkildə azaltması və ya sıfıra endirməsi və ordu sayının Azərbaycanın icazə verdiyi qədər saxlanılması tələb edilə bilər. Yalnız bu yolla Ermənistanın illik büdcə gəlirləri büdcə xərclərini üstələyə və həmin gəlirlərdən Azərbaycana kompensasiya ödəmə imkanı əldə edə bilər. Amma düşünürük ki, bu yol da kifayət qədər uğurlu yol deyil. Çünki bu üsulla Ermənistan Azərbaycana ən yaxşı halda 250-300 il təzminat ödəməlidir ki, vurulan zərəri kompensasiya edə bilsin. Bu halda vurulmuş zərəri kompensasiya etmək üçün ən münasib yol Sovet imperiyasının Ermənistana SSR-ə bağışladığı, 1918-1920-ci ildə beynəlxalq müstəvidə Azərbaycan Xalq Cümhuriyyətinin əraziləri kimi tanınan və tarixi torpaqlarımız olan Zəngəzur, Dərələyəz və Göyçə mahallarının təzminat olaraq Azərbaycana geri qaytarılmasıdır.

**Ədəbiyyatlar**


1. FAO (2020). Global Forest Resources Assessment 2020 Azerbaijan.
2. Qarayev R.M. (2012). Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasinda beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq.
3. Süleymanov E.S. və Süleymanov V.E (2012). Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri.
4. OIC (2008). Resolutions on economic affairs adopted by the eleventh session of the Islamic Summit Conference//Resolution.
5. UN (2007). Yearbook of International Law Commission 2001 vol. II, part 2.
6. Vəliyev A.H. 2020. İşğal altında olmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarının potensialının dəyərləndirilməsi. “Kənd təsərrüfatı iqtisadiyyatı” elmi-praktiki jurnal №3 (33) səh. 60-69.
7. Ekologiya və Təbii sərvətlər Nazirliyi. İşğal olunmuş Azərbaycan ərazilərində ətraf mühitə və təbii sərvətlərə dəymiş ziyan. http://eco.gov.az/frq-content/plugins/pages_v1/entry/20190823174831_88765600.pdf
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/
9. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, http://idp.gov.az/

10. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, http://mst.gov.az/az/news/210
11. Ekologiya və Təbii sərvətlər Nazirliyi, http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574
12. https://azertag.az/xeber/Ali_Hesenov_Azerbaycanin_hemise_vurgulandigi_kimi_1_milyon_deyil_1_milyon_200_min_qachqin_ve_mecburi_kockunu_vardir-217774
13. https://president.az/az/articles/view/49933
14. U.S. Bureau Labour Statistics. https://data.bls.gov/cgi-bin/cpicalc.pl?cost1=1.00&year1=199401&year2=202204

# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN YÜKSƏLDİLMƏSİNİN TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİ

**Allahverdiyeva Pərvanə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**allahverdiyevapervane43@gmail.com**

## Xülasə

Tədqiqatın aktuallığı: İnvestisiya fəaliyyətinin həyata keçirilməsində əhəmiyyət müxtəlif amillərin nəticəsi ola bilər, lakin, bir qayda olaraq, onların arasında ən vacibi böyümə istəyidir. Yəni investisiya qoyuluşunun əsas məqsədi müəssisənin iqtisadi imkanlarının genişləndirilməsinə yönəlmiş kapital qoyuluşunun ən səmərəli formalarının həyata keçirilməsini təmin etməkdir. İnvestisiya qərarlarının qəbul edilməsi təklif olunan investisiya obyektlərinin investisiya keyfiyyətlərinin qiymətləndirilməsinə əsaslanır ki, bu da müasir investisiya təhlili metodologiyasına uyğun olaraq müəyyən meyarlar üzrə fəaliyyət göstəriciləri toplusuna uyğun olaraq həyata keçirilir. İnvestisiya səmərəliliyi göstəricilərinin dəyərlərinin müəyyən edilməsi nəzərdə tutulan investisiya obyektini onun gələcək həyata keçirilməsi üçün məqbulluq nöqteyi-nəzərindən qiymətləndirməyə imkan verir. İnvestisiyaların effektivliyinin qiymətləndirilməsi investisiya qərarının qəbul edilməsində ən vacib addımdır, onun nəticələri əsasən investisiya məqsədinin həyata keçirilmə dərəcəsini müəyyən edir.
Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud investisiya layihəsinin yaradılması, investisiya layihələrinin reallaşdırılması zamanı risklərin uçotunun və qiymətləndirilməsinin təşkil məsələlərinin araşdırılmasıdır.
İstifadə olunmuş tədqiqat metodları: statistik-iqtisadi, balanslı, sadə və güzəştli tədqiqat, BERİ (Business Environment. Risk Index)
Tədqiqatın informasiya bazası: Əmək bazarının formalaşması ilə yerli və xarici kitablar, məqalələr, internet resursları tədqiqat işlərinin məlumat bazası kimi çıxış edir.
Tədqiqatın məhdudiyyətləri: Tədqiqatın əsas məhdudiyyəti bu sahədə statistik informasiyaların olmamasıdır.
Tədqiqatın elmi yeniliyi və praktik nəticələri: Qarabağ iqtisadi zonasının investisiya mühitini BERİ metodu əsasında qiymətləndirmək, investisiyaların cəlbi və onun yüksəldilməsi yolların öyrənilmişdir.
Nəticələrin istifadə oluna bilməsi üçün sahələr: Qarabağ iqtisadi rayonunda iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanmasına dair məlumatlar regional tədbirlər planın hazırlanmasında olduqca əhəmiyyətlidir.
**Açar sözlər:** Qarabağ, investitisiya, risk, layihə

## Summary

Relevance of the research: Importance in the implementation of investment activities may be the result of various factors, but, as a rule, the most important among them is the desire to grow. That is, the main purpose of investment is to ensure the implementation of the most effective forms of capital investment aimed at expanding the economic potential of the enterprise. Investment decision-making is based on an assessment of the investment quality of the proposed investment objects, which is carried out in accordance with a set of performance indicators on certain criteria in accordance with modern investment analysis methodology. Assessing the effectiveness of investments is the most important step in making an investment decision, the results of which largely determine the degree to which the investment goal is achieved.
The purpose of the study: The motivation behind the review is to concentrate on the issues of making a current venture project in the emptied regions, the association of chance bookkeeping and appraisal during the execution of speculation projects.
Research methods used: statistical-economic, balanced, simple and preferential research, BERI (Business Environment. Risk Index)
Research database: Local and foreign books, articles, internet and internet resources with the formation of the labor market act as the database of research work.
Limitations of the study: The fundamental restriction of the review is the absence of measurable information around here.
Scientific novelty and practical results of the research: Assessment of the investment climate of the Karabakh economic zone on the basis of the BERI method, ways to attract investment and increase it were studied.
Areas to be used: Information on accelerating economic recovery and increasing investment attractiveness in the Karabakh economic region, modern and efficient production, application of innovative technologies, realization of industrial potential, development of optimal incentives and incentives are very important in developing a regional action plan.
**Keywords:** Karabakh, investment, risk, project

**Giriş**

Ölkəmizdə həyata keçirilən iqtisadi layihələr təkcə Qarabağın deyil, bütün Azərbaycanın sürətli inkişafını təmin edir.İşğaldan azad edilmiş rayonun təbii-coğrafi mövqeyi, yeraltı və yerüstü sərvətləri bir sıra genişmiqyaslı yenidənqurma və bərpa işlərinin aparılmasına imkan verəcək. Yeni iş yerlərinin yaradılması orada yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcəkdir.

İnfrastrukturun bərpası, sosial layihələrin həyata keçirilməsi, kommunikasiyaların təmin edilməsi, əhalinin köçürülməsi prosesi müəyyən vaxt və kifayət qədər vəsait tələb edir. Sabit iqtisadiyyatımız və düşünülmüş iqtisadi layihələrimiz sayəsində biz bu vəzifənin öhdəsindən layiqincə gələ biləcəyik.

Qarabağ müharibəsinin Azərbaycanın şanlı qələbəsi ilə başa çatması xarici investisiya mühiti üçün əlverişli şərait yaratdı. Mövcud siyasi sabitlik, müharibədən sonrakı təhlükəsizlik, münaqişə ocağının aradan qaldırılması respublikamızı xarici sərmayədarların diqqət mərkəzində saxlamışdır. Bütün tərəfdaş ölkələr regionda asayişi qoruyub saxlamaqla sərmayə qoymaqda maraqlıdırlar. Bu, yaxın gələcəkdə rayonda layihələrin həyata keçirilməsi üçün münbit zəmin yaradır (Quliyev İ.Q, 2020: s.154).

Qarabağ işğaldan azad edildi. Artıq dövlətimiz bərpa işlərinə səfərbər olunub. Rayonun abadlaşdırılmasına yollardan başlanılıb, çünki bu ərazi xüsusi əhəmiyyət kəsb edir. Bu yollar insanların təhlükəsizliyini və rahatlığını təmin etmək baxımından həm iqtisadi, həm də sosialdır. Yol infrastrukturun inkişafını təmin edəcək və məcburi köçkünlərin intensiv şəkildə məskunlaşmasına şərait yaradacaq.

Nəqliyyat sisteminin yenidən qurulması dövlətin məqsədyönlü siyasətinin tərkib hissəsidir. Görülən tədbirlər sayəsində regional nəqliyyat layihələri beynəlxalq əhəmiyyət kəsb edəcək.

İstər ölkə daxilində, istərsə də xarici dövlətlərlə əlaqələrin genişləndirilməsində, regionun sürətli və dinamik inkişafının təmin edilməsində mühüm rol oynayan mülki aviasiyanın əhatə dairəsinin genişləndirilməsi vacibdir. İşğaldan azad edilən rayonlarda tikilən hava limanları Qarabağın bərpasına, yüklərin daşınmasına, yerli əhalinin rahatlığına, turizmin inkişafına xidmət edəcək. Hazırda Füzulidə hava limanının tikintisinə başlanılıb. Hava limanlarının tikintisi təkcə Füzulidə deyil, Laçın və Zəngilan rayonlarında da başa çatdırılacaq.Aeroportların tikintisi və yeni logistik mərkəzlərin istifadəyə verilməsi Azərbaycanın mühüm regional logistika və ticarət mərkəzi olmaq potensialını gücləndirəcək, bu da regional logistikanı artıracaq.

Qarabağ ərazisi həmişə yüksək kənd təsərrüfatı göstəriciləri ilə seçilib. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı ilə məşğul olmaq üçün zəngin imkanlar var. Hazırda aidiyyatı idarələr sistemli şəkildə rayonu aqrar sahədə əvvəlki şöhrətinə qaytarmağa hazırlaşır.

Azərbaycan bərpa olunan enerji mənbələrindən istifadə potensialı yüksək olan ölkələrdən biridir. Bu sahə hər zaman diqqət mərkəzindədir. Qarabağın əsas məqsədlərindən biri regionda bərpa olunan enerji mənbələrindən istifadəni artırmaqdır. Xüsusilə, günəş və elektrik stansiyalarına investisiyaların artırılması yolu ilə bərpa olunan enerji mənbələrinin şaxələndirilməsi yaşıl iqtisadiyyatın inkişafında mühüm rol oynayacaqdır.

Qarabağın dirçəlişi istiqamətində aparılan məqsədyönlü işlər təkcə Azərbaycan vətəndaşlarının deyil, dünya xalqlarının, ölkə rəhbərliyinin şüurlu şəkildə həyata keçirdiyi layihələrin bilavasitə şahididir. Görünən odur ki, hər bir layihə insanların inkişafına, rifahına xidmət edir. Onun müsbət nəticələrini gündəlik həyatımızda zaman-zaman yaşayacağıq.

**Qarabağ iqtisadi rayonunda həyata keçiriləcək invetisiya layihələrinin analizi**

Qarabağ iqtisadi rayonunun investisiya layihələrinin reallaşdırılması zamanı risklərin qiymətləndirilməsi üçün biz BERİ metodundan istifadə edəcəyik. Öncəliklə qeyd etmək istərdim ki, bu qiymətləndirmə mənim müxtəlif informasiya mənbələrinə, hesabatlara, KİV-ə istinadım nəticəsində

formalaşdırdığım fikirlər əsasında yaranmışdır və bu qiymətləndirmə mənim subyektiv fikrim olduğu üçün, investisiya mühitinin qiymətləndirilməsinin həqiqi nəticələrini özündə ehtiva etməyə bilər. BERİ metodundan istifadə zamanı biz 15 faktor sadalayacağıq və bu 15 faktor üzərindən təhlillər aparacağıq. Bu 15 faktorun da özlərinə aid balları mövcuddur. İndi isə adından bəhs etdiyimiz bu 15 faktorla Qarabağ iqtisadi rayonunun investisiya mühitini qiymətləndirək.

1. Siyasi stabillik- Siyasi stabillik bildiyimiz kimi iqtisadi inkişafın təməl faktorlarından biridir. Ölkə daxilində siyasi stabillik olduğu zaman həmin ölkəyə əksər hallarda xarici investorlar tərəfindən müxtəlif sektorlara yatırımlar edilir. Siyasi stabillik bir sıra məqamlarla təhlil edilə bilər, bunlara misal kimi terorizmlə mübarizəni, ölkə daxilində olan müxalifət partiyaların çəkişmələrini, ölkədə nümayişlərin olma sıxlığını, ölkədə baş verən cinayətkarlıq əməllərinin sayını və s. aid etmək olar. Sevindirici haldır ki, bu məqamlardan heçbiri Azərbaycan respublikasının ərazisində o cümlədən Qarabağ iqtisadi rayonun tərkibində yox dərəcəsindədir.

Qarabağ iqtisadi rayonunun bəzi ərazilərinin 30 illik işğal sonrasında 2020-ci ildə Azərbaycan respublikasının prezidenti ali baş komandan cənab İlham Əliyevin başçılığı altında qəhrəman Azərbaycan ordusunun silahlı qüvvələri tərəfindən azad edilməsi bu ərazinin yenidən canlanması və regionun siyasi stabilliyinin bərpasında misilsiz rol oynadı. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərin digər regionlara sürətli inteqrasiyası və intensiv bərpası xarici investorları bölgəyə cəlb etmək üçün zəmin yaratmışdır. Füzuli rayonunda 7 ay ərzində tikilən beynəlxalq hava limanı, minlərlə hektar ərazinin minadan təmizlənməsi və nəqliyyat infrastrukturunun sürətli bərpası dünya mətbuatında geniş yer almış və regionun siyasi stabilliyinin sürətli bərpa edildiyini bütün dünyaya göstərmişdir. Qeyd edək ki, Qarabağ iqtisadi rayonunun bərpası və görülən işlər barədə növbəti planlarda ətraflı məlumat veriləcəkdir. Siyasi stabillik faktoru üzrə qiymətləndirməm 3 baldır.

2. Xarici investisiyalara münasibət və mənfəətin transferti- Azərbaycan qanunvericiliyinə əsasən, xarici sərmayələr tam və qeyd-şərtsiz hüquqi müdafiədən istifadə edir və xüsusi hallar istisna olmaqla, mənimsənilməklə milliləşdirilə bilməz.

Son bir neçə ildə Azərbaycan respublikası xarici sərmayələri cəlb etmək üçün fəal şəkildə çalışır. Azərbaycana birbaşa xarici sərmayə axını son illər, ilk növbədə, enerji sektoruna davamlı olaraq artıb.

Xarici investisiyalar, "Xarici İnvestisiyaların Mühafizəsi" haqqında, "İnvestisiya fəaliyyəti" haqqında, qanunlara uyğun olaraq tam və qeyd-şərtsiz hüquqi müdafiədən və beynəlxalq müqavilə və müqavilələrdə əks olunan təminatlardan istifadə edirlər.

Əcnəbilərə tam mülkiyyətində olan törəmə müəssisə açmaq, mövcud şirkətin səhmlərini almaq və ya yerli tərəfdaşla birgə müəssisə yaratmaqla sahibkarlıq subyektlərini qeydiyyata almağa icazə verilir. Xarici şirkətlərə həmçinin vergi orqanlarında nümayəndəliyini və ya filialını qeydiyyata almaqla yerli hüquqi şəxs yaratmadan Azərbaycanda fəaliyyət göstərməyə icazə verilir.

Əcnəbilərə Azərbaycanda torpaq sahibi olmaq icazəsi verilmir, lakin icarəyə torpaq və daşınmaz əmlaka sahib olmaq icazəsi verilir.

Azərbaycanın iqtisadi azadlıq balı 61,6 olmaqla, iqtisadiyyatı 2022-ci il İndeksində ən azad 75-ci yerdədir. Azərbaycan Avropa regionunun 45 ölkəsi arasında 37-ci yerdədir və onun ümumi balı regional orta göstəricidən aşağı, lakin dünya ortalamasından yüksəkdir. Azərbaycanın iqtisadi artımı 2017-ci ildən 2019-cu ilə qədər sürətləndi, 2020-ci ildə mənfi oldu və 2021-ci ildə isə yenidən yüksəldi.

**Diaqram 1: Azərbaycanda 2020-2021-ci illər üçün İqtisadi azadlıq indeksi göstəriciləri**




**Mənbə:** Heritage Foundation: https://www.heritage.org/index/explore?view=by-region-country-year

İqtisadi azadlıq hər bir insanın öz əməyinə və əmlakına nəzarət etmək üçün əsas hüququdur. İqtisadi cəhətdən azad cəmiyyətdə fərdlər istədikləri şəkildə işləmək, istehsal etmək, istehlak etmək və sərmayə qoymaqda azaddırlar. İqtisadi cəhətdən azad cəmiyyətlərdə hökumətlər əməyin, kapitalın və malların sərbəst hərəkət etməsinə icazə verir və azadlığın özünü qorumaq və saxlamaq üçün zəruri olan həddən artıq azadlığa məcbur etmək və ya məhdudlaşdırmaqdan çəkinir. İqtisadi azadlıq daha böyük rifah gətirir. Azərbaycanda iqtisadi azadlıq qənaətbəxş səviyyədədir. Bu faktoru 1.6 balla qiymətləndirirəm.

3.Milliləşdirməyə meyl- Qarabağ İqtisadi rayonunun bəzi ərazilərinin yaxın keçmişdə azad olması, həmin ərazilərin bərpası üçün müəyyən qədər vəsait tələb edir. Bu səbəbdən, ölkəmizin hazırki prioritet siyasətlərindən biri sözü gedən bölgəyə xarici investisiya cəlb etmək olmalıdır. Bunun nəticəsi olaraq, Qarabağ iqtisadi rayonunda milliləşdirməyə meyli aşağı səviyyədə saxlamaq məqsədə uyğun görsənir. İlk əvvəl onu qeyd etmək lazımdır ki, Qarabağ iqtisadi rayonunun sözü gedən əraziləri işğaldan yeni azad olduğu üçün orada özəl mülklər yox dərəcəsindədir. Qarabağda mövcud olan təbii sərvətlər, turizm və hasilat sənayesi də dövlətimizə məxsusdur. Bu faktor üzrə qiymətləndirməm 1.4 baldır.

4.İnflyasiya- İnflyasiya mərkəzi banklar, hökumət siyasətçiləri, istehsalçılar və ya istehlakçılardan asılı olmayaraq bütün iqtisadiyyat iştirakçılarının hərəkətlərinə təsir edən kritik və dövri makro göstəricidir. Ən əsas fundamental səviyyədə, inflyasiya investorun etdiyi sərmayələrdən əldə etdiyi gəlirlərə də təsir edir. Təbii haldır ki, hər bir investor inflyasiya dərəcəsi aşağı hədlərdə olan ölkələrə yatırım etməyə üstünlük verir. Azərbaycanda 2016-2017-ci illərdə 12 faizlərə çıxan inflyasiya dərəcəsi, artıq 2018-ci ildə 2.27 % faizə düşmüşdür. Diaqram 3-də 2007-2020-ci il intervalında Azərbaycanda olan inflyasiya dərəcələri təqdim edilmişdir.

**Diaqram 2: Azərbaycanda inflyasiya dərəcəsi dəyişimi 2007-2020-ci illər**




**Mənbə:**Macrotrends: https://www.macrotrends.net/countries/AZE/azerbaijan/inflation-rate-cpi

Bu faktor üzrə qiymətləndirməm 1.2 baldır.

5. İqtisadi artım- Çox insana aydındır ki, bir ölkədə iqtisadi artımı sürətləndirən ən vacib amillərdən biri ölkənin faydalı qazıntılarının olmasıdır. Sevindirici haldır ki, ölkəmiz faydalı qazıntılarla kifayət qədər zəngin ölkədir. Qarabağ iqtisadi rayonunda da geniş miqyasda faydalı qazıntılara rast gələ bilərik. Bu da öz-özlüyündə bölgəyə xarici investisiyanın cəlbi imkanlarını artırır. Cəlb edilən investisiyalar Qarabağ iqtisadi rayonunun erməni işğalçılarından təmizlənmiş bölgələrin bərpasında da böyük rol oynayacaqdır. Nəticə etibari ilə həm regionun, həm də ölkəmizin iqtisadi artımında müsbət dəyişikliklər olacaqdır.

2021-ci ildə iqtisadiyyatın bərpası qeyri-neft və qaz sektorları hesabına baş verir. Üçqat şokdan - Covid-19 pandemiyasından, neft qiymətlərindəki enişdən və Dağlıq Qarabağ münaqişəsinin alovlanmasından sonra Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) 2020-ci ildə 4,3 faiz azalıb.Bu faktor üzrə qiymətləndirməm 2.6 baldır (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf).

6. Əmək haqqı məsrəfləri və yaxud iş qüvvəsinə məsrəflər- 2021-ci il dekabrın 1-inə olan məlumata görə, ölkədə muzdla fəaliyyət göstərən işçilərin sayı, 2020-ci ilin dekabrın 1-i ilə müqayisədə 20 min nəfər artaraq 1704,9 min nəfərə çatmış, onlardan 905,7 min qədəri dövlət sektorunda, 799,2 min nəfər isə qeyri-dövlət sektorunda işləmişdir (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf)

**Cədvəl 1: Orta aylıq əmək haqlarının müqayisəsi. 2020 – ci il**

| Ölkələr | Orta aylıq əmək haqqı.dollarla |
|---|---|
| Avstraliya | 4600 |
| Avstriya | 4428 |
| ABŞ | 5783 |
| Almaniya | 4479 |
| Polşa | 1271 |
| Macarıstan | 2117 |
| Litva | 2651 |
| Çexiya | 2490 |
| İƏYT bütövlükdə | 4097 |
| Azərbaycan | 414 |

**Mənbə:** https://data.oecd.org/ məlumatları əsasında müəllifin hesablamaları hazırlanıb.

Hər ölkədə əmək haqqı müxtəlif strukturlar tərəfindən müəyyən edilir. Bir qismində icra hakimiyyəti, digərində qanunverici orqanlar, bir digərində isə müxtəlif təşkilatlar tərəfindən müəyyən edilir. İndiki

vəziyyətdə, Bakıda ortalama aylıq əmək məsrəfi 1000 (588 USD) manat qədər olsa da, ölkənin əksər regionlarında bu rəqəm Bakıdakı mövcud göstəricidən təqribən 2 dəfə aşağıdır. Bunu göz önünə qoysaq, respublikamızın digər şəhərlərində və digər rayonlarında fərqli minimum əmək haqqı müşahidə edə bilərik. 2022-ci il 1 yanvardan sonrakı dövrdə aylıq minimum əməkhaqqı 300 AZN (176 USD) olaraq müəyyənləşdirilmişdir. Xatırladaq ki, bu göstərici 2019-cu ildən 2022-ci ilə kimi 250 AZN (147 USD) olaraq müəyyən edilmişdir. Aşağıdakı cədvəl 1-də bir sıra Avropa və digər ölkələrin orta aylıq əmək haqqısının müqayisəsini görə bilərik.

Nəticə olaraq belə qənaətə gələ bilərik ki, ölkəmizin əməkhaqqı məsrəfləri ilə bağlı irəli sürdüyü siyasət qənaətbəxşdir, lakin Bakı şəhərindən başqa digər regionların da işçi qüvvəsinin potensialını artırmaq üçün müəyyən tədbirlər görülməli, işçilərin öz bilik və bacarıqlarını inkişaf etdirmələri üçün sahələri üzrə müvafiq təlimlərə yönləndirilməlidir.Bütün bunlar işçi qüvvəsinin mövcud bazar şəraitinin tələblərinə cavab vermələri üçün və işsiz statusunda olan potensial işçi qüvvəsinin əmək bazarlarına cəlbi üçün görülməsi zəruri olan tədbirlər sırasındadır. İşçi qüvvəsi əmək bazarının müvafiq tələblərinə cavab verdikdən sonra işçinin potensialına və gördüyü işə uyğun olaraq əməkhaqqının artırılması üçün müvafiq tədbirlər görülməlidir. Hal-hazırki inflyasiya vəziyyətini nəzərə alaraq əməkhaqqının artırılması istiqamətində tədbirlər görülməsini zəruri hal olaraq dəyərləndirirəm. Bu faktor üzrə qiymətləndirməm 1.5 baldır.

7.Tədiyə balansının vəziyyəti – Qarabağ iqtisadi rayonunda hələ ki, ixrac potensialı elə də yüksək olmadığı və daha çox üstünlüyün idxala verildiyi üçün tədiyə balansının bu region üçün qənaətbəxş səviyyədə olmamasını qeyd etmək doğru olardı. Buna səbəb kimi yeni azad olmuş ərazilərin yenidən bərpası üçün ölkə xaricindən də tikinti materiallarının və s. şeylərin idxalının yüksək səviyyədə olmasını qeyd etmək olar. Ümumilikdə sözü gedən regionda ixracı artırmaq istiqamətində tədbirlər görülməlidir. Sənaye və kənd təsərrüfatı məhsullarının istehsalını və ixracını artırmağın özü belə tədiyə balansına öz müsbət təsirlərini göstərəcəkdir. Bildiyimiz kimi, ixrac idxaldan nə qədər çox olarsa tədiyə balansıda özündə bir o qədər müsbət göstəricilər əks etdirəcəkdir. Bütün bu proseslər Qarabağın bərpa işləri bitdikdə və bu regionun digər ərazilərimizə inteqrasiyasın-dan sonra öz həlli yolunu tapacaqdır.

Ümumilikdə, ölkəmizdə torpağlarımızın azad edildiyi ildə (2020) tədiyə balansının əsas göstəricilərindən biri kimi hesab edilən Cari Əməliyyatlar balansı tarazlığa yaxın bir vəziyyətdə yer almışdır. Əsasən bu dövrdə qeyri-neft sektorunun yaxşılaşması CƏB-ə öz müsbət təsirini göstərmişdi. 2020-ci ildə mövcud Pandemiya vəziyyəti səbəbindən qeyri-neft sektorunda idxalın azalması tədiyə balansının tarazlaşmasında əsas rollardan birini oynamışdır. 2020-ci il üzrə ümumi saldo isə -1987.7 təşkil edirdi. Müqayisə məqsədli, Azərbaycanda 2010-2020-ci illər intervalı üçün Tədiyə balansı saldosunun illər üzrə dəyişməsi Diaqram 3-də təsvir edilmişdir (https://uploads.cbar.az/assets/97aa174a150aff7358f5aedbc.pdf).

**Diaqram 3: 2010-2021 Azərbaycanda Tədiyə balansı**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı: https://www.cbar.az/page-43/external-sector-statistics

Bu faktor üzrə qiymətləndirmənin 1.5 olduğu qənaətindəyəm.

8.Valyuta konvertasiya oluna bilməsi- Valyutanın konvertasiyası ölkənin ümumi iqtisadi vəziyyətindən aslıdır. İnflyasiya səviyyəsinində burda rolu böyükdür. Son illərdə ölkəmizdə (2020-ci ilə qədər) inflyasiya dərəcəsi sabit vəziyyətdə saxlan-mışdır. Bu və iqtisadi sabitliyin qənaətbəxş səviyyədə saxlanılması ölkəmizin valyutasının konvertasiyasında hər hansı problemin yaranmasının qarşısını almışdır. Ölkəmizə yatırımlar edən xarici investorlar konvertasiyada problemlə üzləşmirlər. Bu da öz növbəsində investisiya mühitinə öz müsbət təsirin göstərir. Bu faktor üzrə qiymətləndirməni 2.5 bal olaraq dəyərləndirirəm.

9. Bürokratik əngəllər- Ölkəmizdə bu əngəllərin daha intensiv olduğu vaxtlar Pandemiya dövründə yaşanmışdır. Belə ki, bu dövrdə karantin rejiminin mövcud olması bir sıra sahələrə öz mənfi təsirin göstərmişdir. Bunlardan ən əsası da investisiya mühiti olmuşdur. Həm ölkəmizdə ki, həm də xarici sahibkarların tətbiq edilən bir sıra məhdudiyyətlərə görə ölkəmizdəki hər hansı bir sahəyə investisiya yatırmaları mümkün hal kimi görsənmirdi. Buna səbəb kimi, bu dövrdə insanların gəlirlərinin əl-əxsus alıcılıq qabiliyyətlərinin aşağı olmasını, açılan obyektlərin karantinin yaratdığı məhdudiyyətlərə görə tez-tez qapanmasını və obyektlərin normal iş fəaliyyətinin mövcud olmamasını nümunə göstərmək mümkündür. Obyektlərin uzun müddət iş fəaliyyəti ilə məşğul ola bilməməsi iqtisadi mühitin problemli olması fikrini yaradırdı. Həmçinin, bayaq qeyd etdiyimiz kimi, orta əmək haqqı səviyyəsi də aşağı olduğu üçün obyektlər işləsə belə satış fəaliyyət-lərində ciddi problemlərlə üzləşəcəkdilər. Ölkəmiz bütün bu problemlərə həll çarəsi kimi bir sıra dəstək proqramları irəli sürmüşdür. Buna vergilərin azaldılmasını, nəticədə sahibkarların vəziyyətinin yaxşılaşdırılmasını, birdəfəlik sosial yardımların göstərilməsini, istehlakçılara dəstək məqsədli olan ƏDV geri al layihəsinin irəli sürülməsini və s. yardımları və dəstək paketlərini misal göstərə bilərik.

Ölkəmizin investisiya mühitinin inkişaf etdirilməsi üçün ilk növbədə özəlləşdirilmələrin sayın artırmaq lazımdır. Zənnimcə, ölkəmizdəki bürokratik əngəllərdən biri də bu sayıla bilər. Özəlləşdirilmə nə qədər geniş sahə və sektorları əhatə edərsə, ölkəmizə bir o qədər xarici sahibkar cəlb edə bilərik.

Fikrimcə, ölkəmizdə əngəldən çox, xarici investorların cəlb edilməsi üçün bir sıra tədbirlər görülüb və görülməkdə davam etdirilir. Qarabağ iqtisadi zonasında bir sıra yeni nəqliyyat infrastrukturunun yaradılması, Füzulidə olan aeroportun istifadəyə verilməsi, Şuşa şəhərində , o

cümlədən regionun digər şəhər və rayonlarında bərpa işləri görülməsi, bu zonada investisiya mühitinin inkişafı və dirçəlməsi üçün atılan ən vacib addımlardan biri kimi hesab edilir. Bu faktor üzrə qiymətləndirməm 1.2 baldır

10. İşgüzar müqavilələr əldə olunması və onların reallaşma imkanı – Azərbaycanda işgüzar və ya digər müqavilələrin tənzimlənməsi qaydaları, habelə tərəflərin öhdəlikləri, müqavilənin həyata keçirilməsi və s. qaydalar Mülki Məcəlləyə əsasən tənzimlənir. Bu cür müqavilələrin ölkəmizdə reallaşma səviyyəsi yüksək səviyyə-dədir və reallaşmasına təsir edəcək heç bir əngəl yoxdur. Ölkəmiz daxilində müqavilə azadlığı mövcuddur. Bu faktor üzrə dəyərləndirməm 1.5 baldır.

11. Xidmətlərin keyfiyyəti və işgüzar tərəfdaşların etibarlılığı- Xidmətlərin keyfiyyəti bir sıra sektorlar üzrə ölçülə bilən bir dəyərdir. Ölkəmizdə xidmətlərin keyfiyyəti nisbi qənaətbəxşdir. Bu faktor üzrə qiymətlədirmənin 0.5 bal olduğunu düşünürəm.

12. Yerli menecmentin keyfiyyəti- Korporativ idarəetmə standartları ölkəmizdə tam formalaşmayıb bu baxımdan yerli menecmentin keyfiyyətini yüksək hesab etmək olmaz. Bu faktorun çəkisini 2 bal ilə qiymətləndirirəm.

13. Nəqliyyat şəbəkəsi- Qarabağ zonasında nəqliyyat şəbəkəsi üzrə bir çox layihələr həyata keçirilib və keçirilməyə davam edəcəkdir. Bu layihələrdən biri də Horadiz və Ağbənd rayonlarını birləşdirən dəmir yolu layihəsidir ki, 2021-ci il fevralın 14-ü tarixində bu layihənin təməli qoyulmuşdur.Bu məqamda bunu qeyd etmək olar ki, Horadiz-Ağbənd dəmir yolu layihəsi Naxçıvan dəhlizinin mühüm hissəsini təşkil edir. 10 noyabr 2020-ci ildə zəfər sonrası imzalanan bəyannaməyə görə Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanla Naxçıvan arasında olan blokada aradan qaldırılır və Naxçıvanla yenidən kommunikasiya xətləri bərpa edilir. Zəngəzur dəhlizinin yaradılması həm Ermənistan, həm Azərbaycan, həm də regionun digər dövlətləri üçün geniş imkanlar yaradacaq. Bu, Azərbaycanın mövqeyini mərkəzləşdirəcək və onun regionda geosiyasi əhəmiyyətini artıracaq, çünki bu dəhlizin yenidən açılması geostrateji əhəmiyyət kəsb edir. Bundan başqa, bayaqda qeyd etdiyimiz kimi, tarixi Zəngəzur torpaqlarından keçən bu marşrutla Naxçıvanla Azərbaycan arasında birbaşa əlaqə yaranacaq. Hansı ki, 1990-cı illərdə başlayan Qarabağ müharibəsindən sonra Naxçıvanla Zəngəzur arasında avtomobil yolu kəsilib və bu rayon Azərbaycandan təcrid olunmuşdu. Bundan başqa Füzuli və Şuşa arasında çəkilən avtomobil yolundan da danışa bilərik. Bu yol başqa adı ilə Zəfər yolu kimi də adlandırılır. Bu yolun təməli 2020-ci ilin noyabrının 16-da qoyulmuşdur və uzunluğu təxminən 101.5 km təşkil edir. Bu qeyd edilənlərlə yanaşı, tikilən tunelləri də qeyd etmək yerinə düşərdi. Belə ki, Kəlbəcər yolu üzərində Murovdağ tuneli, Laçın-Kəlbəcər tuneli, Zəngilan ərazisində tikiləcək tuneli nümunə göstərə bilərik. Qeyd edək ki, Murovdağ tuneli 11600 metrlə Azərbaycan ərazisində ən böyük tuneldir. Ölkəmizin bu qısa zaman ərzində azad edilən torpaqlarda nəqliyyat şəbəkəsini yenidən inşa etməsi Qarabağın investisiya mühitinə də öz müsbət təsirin göstərəcək. Bu faktorun çəkisini 2 bal olaraq dəyərləndirirəm.

Yerli bazarlarda qısamüddətli kredit əldə etmək imkanı- Kredit təşkilatlarının 2020-ci ildə qısa-müddətli dövrdə milli valyutada kredit qoyuluşları 1754,2 mln. manat idisə, 2021-ci ildə isə bu göstərici 2246 mln. manata qədər qalxmışdır.2020-ci il üzrə kredit qoyuluşlarının bəzi sahələr üzrə paylanmasını aşağıdakı diaqram 3.3-də görə bilərik. Göstəricilər milyon manat üzərindən hesablanmışdır (https://www.cbar.az/page-42/monetary-indicators#page-2 ).

**Diaqram 4: 2020-ci il sahələr üzrə kredit qoyuluşu**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı: https://www.cbar.az/page-42/monetary-indicators#page-2

Diaqramdan göründüyü kimi kredit qoyuluşu daha çox Ticarət və xidmət sektorunu əhatə etmişdir. Daha az kredit qoyuluşu isə Büdcə təşkilatları və dövlət fondlarının payına düşüb. Ölkəmizdə qısa-müddətli kredit imkanları zəifdir. KOB-un sahibkarlara güzəştli kreditlər verməsinə baxmayaraq, bu yetərli olmur. Nisbi faiz dərəcəsi yuxarı olduğuna görə güzəştlər edilsə belə bu miqdar kifayət etmir. Bu səbəbdən, bu faktor üzrə qiymətləndirməm 1.8 bal olacaqdır.

15. Uzunmüddətli kredit əldə etmək fürsəti- Kredit təşkilatlarının 2020-ci ildə uzun-müddətli dövrdə milli valyutada kredit qoyuluşları 8449,8 mln. manat idisə, 2021-ci ildə isə bu göstərici 10450.5 mln. manata qədər qalxmışdır.Uzunmüddətli kreditlər üçündə eyni sözlər keçərlidir, faiz dərəcəsi yuxarı olduğu üçün uzunmüddətli kredit imkanları zəifdir. Bu faktor üzrə qiymətləndirməm 2 baldır.

**İşğaldan azad olunmuş rayonlarda reallaşdırılacaq yeni investisiya layihələrinin səciyyələndirilməsi**

Azərbaycanın 30 illik bir zaman kəsiyində davam etməkdə olan münaqişəyə son qoyması onun qarşıda duran məqsədlərinin əhəmiyyətli dərəcədə başqa istiqamətlərə doğru dəyişməsində dönüş nöqtəsi oldu. İşğaldan azad olunan torpaqların bu işğala son qoyulduqdan sonrakı mənzərəsi ürək dağlayan halda idi. Düşmən yenə də öz xain planlarının həyata keçirərək bütün məqsədlərini dünya qarşısında bəyan etməyə layiqincə nail olmuşdu.

Dünyanın gözü qarşısında edilən vəhşiliklərin sübutları dayansa da hələ də mənfur düşmənə haqq qazandırmaqda davam edən bəzi dövlətlərin mövcudluğu məyusedici haldır. 2020-ci ildə başlayan hərbi əməliyyatla 30 ilə yaxındır işğal altında olan torpaqlarını işğaldan azad edən Azərbaycanı qarşıdakı illərdə yeni qəsəbələrin salınacağı, infrastruktur və üst quruluş layihələrinin reallaşacağı bir dövr gözləyir.

Azərbaycanın prioriteti Ermənistan ordusunun geri çəkilərkən qoyduğu minaları təmizləyərək regionu təhlükəsiz etməkdir. Bununla belə, bölgədə eyni zamanda planlaşdırma və layihə araşdırmaları aparılır. Zərərlərin qiymətləndirilməsi üzrə tədqiqatlar Azərbaycanın digər prioritet məsələlərindəndir.

Prezident İlham Əliyev rayonda tarixi və orijinal fakturasının qorunub saxlanılacağı, müasir şəhərsalma prinsiplərinin mütləq yer alacağı qəsəbələrin salınmasını planlaşdırır. Yenidən salınacaq qəsəbələrdə "ağıllı şəhər" və "ağıllı kənd" anlayışları əsas götürüləcək. Dağlıq Qarabağın zəngin su ehtiyatlarından, günəş və külək enerjisindən də istifadə olunacaq və işğaldan azad edilmiş torpaqlar "yaşıl enerji" zonasına çevriləcək.

Bölgədə ilk layihə Füzulidən Şuşaya çəkilən yeni yoldan başlayıb. Daha sonra Füzulidə beynəlxalq hava limanının təməli qoyulub.

Yeni nəqliyyat xətlərinin açılması, dağıdılmış şəhərlərin bərpası, tarixi abidələrin bərpası ilə işğaldan azad edilən rayonların iqtisadiyyat və turizm baxımından təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın da yeni cazibə mərkəzinə çevrilməsi nəzərdə tutulur.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə tikinti təcrübəsi yeni deyil. 2016-cı ilin aprelində baş verən toqquşmalarda Azərbaycan ordusunun nəzarəti bərpa etdiyi Cocuq Mercanlı şəhəri də xarabalığa çevrilmişdi. Amma bu ərazi Azərbaycan hökuməti tərəfindən qısa müddətdə yenidən quruldu. "Böyük Qayıdış"ın başlanğıcı olaraq xarakterizə edilən Cocuq Mercanlının inkişafına Türkiyə də töhfə verdi.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi Cocuq Mercanlıya qayıdan kəndlilər üçün istixana və arı təsərrüfatları, türk iş adamları isə uşaqlar üçün oyun meydançası yaradıb.

Azərbaycanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin nümayəndələri Prezidentin müşaviri Hikmət Hacıyevlə bölgəyə son səfəri zamanı həm Azərbaycanın saldığı Cocuq Mərcanlı kəndini, həm də Ermənistanın Ermənistan tərəfindən həyata keçirdiyi dağıdıcılığı öz gözləri ilə görüblər.

Azərbaycan prezidentinin müşaviri Hikmət Hacıyev “Anadolu” agentliyinə bildirib ki, işğaldan azad edilmiş rayonlarda müasir urbanizmin prinsip və parametrləri nəzərə alınmaqla yeni mənzərənin yaradılmasını nəzərdə tutan inkişaf siyasətini planlaşdırırlar.

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ramal1rza@gmail.com**

**i.ü.f.d., dos. Raqif Qasımov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**raqif.qasimov@unec.edu.az**

## Xülasə

Məqalənin məqsədi məsafədən/evdən iş rejiminin işçilərin performansına müsbət istiqamətdə təsirində iş motivasiyasının vasitəçi dəyişən olub-olmadığını tədqiq etməkdir. Bu məqsədi reallaşdırmaq üçün əvvəlcədən müxtəlif dörd iş rejimini (məsafədən/evdən, hibrid, növbəli və qısa iş həftəsi) əhatə edən anket forması hazırlanmış və Bakıda fəaliyyət göstərən dövlət və özəl müəssisələrdə 482 işçinin məlumatları analiz edilmişdir. Bu tədqiqatda yalnız məsafədən-evdən iş rejimini seçən 122 respondentin məlumatları analiz edilmişdir.. Suallar və hipotezlər İndoneziyada araşdırma aparmış Donny Susilonun “Revealing the Effect of Work-From-Home on Job Performance during the Covid-19 Crisis: Empirical Evidence from Indonesia (2020)” məqaləsindən götürülmüşdür. Həmçinin Türkiyədə Dilşad G. və Güzin A. , “Covid-19 Döneminde Uzaktan Çalışma Sisteminde İş Performansını Etkileyen Faktörler: Banka Çalışanları Üzerine Bir Uygulama (2021)” məqaləsində də istifadə olunub. Azərbaycanda ilk dəfə tətbiq olunur. Anket nəticəsində əldə olunan məlumatlarla IBM SPSS 25 proqramı əsasında iş rejimi, iş performansı və iş motivasiyası arasındakı əlaqələrin müəyyən edilməsi üçün Korellyasiya analiz aparılmışdır. Reqrasiya analizləri COVID-19 pandemiyası dövründə yuxarıda qeyd olunan iş rejimlərinin işçilərin performans və motivasiyasına təsirini ölçmək məqsədilə həyata keçirilmişdir. Daha sonra IBM AMOS V24 proqramında modellər yaradılaraq iş motivasiyasının vasitəçi dəyişən olub-olmadığı tədqiqa edilmişdir. Tədqiqatın əldə olunmuş nəticəsi isə məsafədən/evdən iş rejiminin işçilərin performansına müsbət istiqamətdə təsirində iş motivasiyası qismən vasitəçi dəyişəndir.

**Açar sözlər:** covid-19, evdən işləmək, məsafədən iş, performans, motivasiya

## Summary

The purpose of this article is to examine whether work motivation is a mediating variable in the positive impact of distance/home work regime on employee performance. To achieve this goal, a questionnaire covering four different work modes (remote / home, hybrid, shift and short work week) was prepared in advance and the data of 482 employees of public and private enterprises operating in Baku were analyzed. In this study, the data of 122 respondents who chose the remote-home mode only were analyzed. The questions and hypotheses are taken from Donny Susilo's research in Indonesia. It is applied for the first time in Azerbaijan. A correlation analysis was performed to determine the relationship between the data obtained from the questionnaire and the IBM SPSS 25 program to determine the mode of work, work performance and work motivation. Regression analyzes were performed during the COVID-19 pandemic to measure the impact of the above work regimes on employee performance and motivation. Then, models were created in the AMOS V24 program to study whether the work motivation was a mediating variable. The results of the study show that work motivation is partly mediated by the positive impact of distance/home work schedule on employee performance.

**Keywords:** covid-19, work from home, work remotely, performance, motivation

## Giriş

**Mövzunun aktuallığı:** İnsanların koronavirusu olan ağır kəskin respirator sindromlu koronavirus 2020-ci ilin yanvarında Çinin Hubey əyalətinin Wuhan şəhərində aşkar edilmişdir (Zhou P vd., 2020;Wu F vd, 2020). O vaxtdan bəri virus bütün dünyaya yayılıb və 20 may 2020-ci il tarixinə 4.806.299 nəfərə yoluxub

və 318.599 nəfərin ölümünə səbəb olub (WHO, 2020). ÜST-nin 23 may 2022-ci il saat 20:11-ə olan məlumatına görə, bütün dünya üzrə 522 783 196 təsdiqlənmiş COVID-19 yoluxma halı, o cümlədən 6 276 210 ölüm halı qeydə alınıb (https://covid19.who.int/). Bu uzun  müddət ərzində dövlətlər ÜST-in və BƏT-in verdiyi qərarları nəzərə alaraq bir sıra qapanmalara və tənzimləmələrə getməli oldu. Çünki koronavirusun sosial və iqtisadi təsirləri kəskin idi. İqtisadçılar ABŞ və Avropadakı durğunluğu vurğulayaraq, koronavirusun bir sıra sahəvi və iqtisadi təsirlərinin Böyük Böhrandan (1929) daha çox olduğunu qeyd edirlər (Yetgin, 2021). Pandemiya səbəbi ilə sektorların çatdırılma və tələb nöqtəsindəki gözləntiləri ödəyə bilmədiyi və bağlanmağa başladığı üçün qısa müddətli iş yerləri yaratmaq təcrübələrinin artıq faydalı olmadığı müşahidə edildi (Yetgin, 2021). Dorn və başqalarının araşdırmasına əsasən, Almaniyada müəssisələrin bir həftəlik bağlanması 25-27 milyard avro dəyərində bir itkiyə gətirib çıxarır. Bu da ÜDM-in böyümə nisbətini yüzdə 0.7-1.6 xal azaldır. Bir aylıq qapanma isə 255-495 milyard avro dəyərində itkiyə səbəb olur. ÜDM-in böyümə nisbətinin bu müddət ərzində yüzdə 7.2-14.0 xal itirəcəyi proqnazlaşdırılır (Yetgin, 2021).

COVID-19 pandemiyasının başladığı və karantin tədbirləri səbəbindən qapanmaların artması ilə işsizliyin artmasına necə təsir etdiyini araşdırmadan ümumi mənzərə ilə tanış olaq. 2020-ci ildə yenə də 2009-cu il böhranında olduğu kimi Afrika dövlətlərində işsizlik zirvədədir. Belə ki, CAR-da ümumi əmək qabiliyyətli əhalinin 28,74%-i işsiz idi. Bu, hətta qlobal maliyyə böhranından da yüksək idi. Namibia ikinci yerdə gələrək 20,35% təşkil edirdi. Liviya, Misir, Qabon və digər Cənubi Amerika dövlətləri də pandemiya dövründə yüksək işsizliklə qarşılaşan dövlətlərdəndir. Xüsusilə, Kolumbiya 15,44%-lə regiona liderlik edir. Qərbi Avropada ən çox işsizlik səviyyəsi yenə 10 il fasilə ilə İspaniyada müşahidə edilir (15,67%). Şərqi avropada isə Yunanıstan və Monteneqro yüksək işsizliyi ilə seçilir. Nəhəng dövlət olan Amerika qlobal böhranda (2009) 8.34% idisə, pandemiya dövründə bu rəqəm çox da dəyişməyib (8.31%). Kanada da isə bu pandemiya dövründə işsizlik səviyyəsi kifayət qədər artıb (8.34%-dən 9.48%-ə). Regiona baxdıqda isə Rusiyada 5,73% (2009-ci illə müqayisədə azalıb), Ermənistanda 20,21% (artıb), Gürcüstanda 12,05% (kifayət qədər azalıb), Türkiyədə 13,92% (azalıb), İranda 10,96% (azalıb) və Azərbaycanda 6,27% artıb. Bütün bu məlumatların müqayisəsi ümumiləşdirsək, qeyd edə bilərik ki, 2009-cu il böhranı ilə müqayisədə 2020-ci ildə ölkələrin əksəriyyətində demək olar ki, eyni, bəzilərində isə yüksək işsizlik səviyyəsi müşahidə edilib. Ancaq bunu da qeyd etməliyik ki, bu 10 il ərizində edilən bir müqayisədir və dövlətlərin hansı siyasəti və strategiyaları seçərək bu nəticələri əldə etməsi açıqlanmayıb. Bu, sadəcə statistik məlumatların müqayisə edilərək təsirin necə dəyişdiyini göstərmək üçün edilmişdir. Növbəti mərhələdə isə biz pandemiyadan bir il əvvəl və pandemiya dövrünü müqayisə edəcəyik. Yalnız bundan sonra dövlətlərin işsizliklə hansı üsullarla mübarizə apardığını və seçdikləri siyasəti təhlil edəcəyik (World Bank & ILO, 2009;2020).

2019-cu ilə nəzər saldıqda görürük ki, bəzi dövlətlərdə işsizlik səviyyəsi çox böyük yüksəliş göstərib. Pandemiyanın təsiri ilə ölkələrdə işsizlik səviyyəsi kifayət qədər artıb. Yenə misallar üzərindən bunu araşdırmağa çalışaq. Məsələn, Kanadada 5,66%-dən 9,48%-ə yüksəlib. ABŞ-də 2019-cu ildə 3,67% idisə, 2020-ci ildə 8,31%-ə yüksəlib. Rusiyada müvafiq olaraq 4,6%-dən 5,73%-ə, Namibiada 19,75%-dən 20,35%-ə, Azərbaycanda isə 4,84%-dən 6,27%-ə artıb. Digər dövlətlərdə, ümumi olaraq işsizlik səviyyəsində artım baş verib. Bütün bu olanlar, pandemiyanın ən az qlobal iqtisadi böhran qədər və ya ondan artıq səviyyədə işsizliyin artmasına təsir göstəriyini və hələ də davam etdiyini göstərir. Müəssisələrin qapanması və bəzi şirkətlərin xərcləri qarşılamaq üçün bəzi işçilərini çıxartmalı olduğu bu müddətdə işsizlik səviyyəsinin yüksəldiyini düşünmək olar (World Bank & ILO, 2019;2020).

Sosial və iqtisadi problemlər fonunda, COVID-19 pandemiyası dövründə, qapanmalar zamanı müəssisələrin çıxış yolu müxtəlif iş rejimlərini tətbiq etmək oldu. Bu rejimlərdən biri olan WFH (evdən işləmək) və ya məsafədən/evdən işləmək onların seçimlərindən biri idi.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi dövrümüzün aktual mövzusu olan COVID-19 pandemiyasında müəssisələrin tətbiq etdiyi iş rejimlərindən biri olan məsafədən/evdən iş rejimi ilə iş performansı arasındakı əlaqəyə üçüncü təsir faktoru kimi iş motivasiyasının təsirini ölçməkdir. Həmçinin bu mövzu haqqında tədqiqatçıların fikirləri də təhlil və müqayisə edilmiş və ümumi nəticə çıxarılmışdır.
**Qoyulan problem və onun öyrənilmə səviyyəsi:** Pandemiya dövründə müəssisələrin çıxılmaz vəziyyətdə olduğu dövrdə demək olar ki, müəssisələrin necə davrandığını bilmək aktual məsələlərdən biridir. Çünki "sağ qalmaq" naminə atılan addımlar təcrübədə başqa şirkətlər üçün də çıxış yolu ola bilər. Bunun üçün ilk növbədə tənqidi ədəbiyyat incələməsi edərək tədqiqatçıların araşdırdıqları məqalələr üzərindən dünya üzrə vəziyyətin və statistikanın necə olduğunu araşdırdıq. Daha sonra Azərbaycan COVID-19 pandemiyası dövründə müxtəlif iş rejimləri ilə iş performansı arasındakı əlaqələri müəyyən etmək üçün anket vasitəsi ilə sorğu təşkil etdik. Tədqiqatın bu hissəsində Məsafədən/evdən iş rejimi seçən 482 respondentdən 122 nəfərin məlumatları təhlil edildi. Biz burada pandemiya dövründə Azərbaycanda məsafədən/evdən iş rejimini seçənlərin iş rejimindən asılı olaraq dəyişən performansına motivasiyanın vasitəçi təsirinin olub-olmadığını araşdırmaq istədik. Əldə etdiyimiz nəticələrə əsasən iş motivasiyası iş performansına vasitəçi təsirə malikdir.
**Tədqiqatın metodologiyası:** Araşdırmada iqtisadi-statistik, müqayisəli iqtisadi təhlil metodlarından istifadə edilmişdir. Aparılan anket araşdırmasında təsadüfi olamayan seçmə metodundan Qartopu seçmə metodu tətbiq edilmişdir.
**Tədqiqatın nəzəri-metodoloji əsasları:** Koronavirus (Covid-19) pandemiyası dövründə şirkətlərin pandemiyanın çətinliklərinə müqaviməti və iş rejimində fərqli modellərin müqayisəsi yerli və xarici yazarların, alimlərin yazdıqları ikinci dərəcəli mənbələr üzərindən teorik olaraq araşdırılmışdır. Həmçinin tədqiqata WHO, ILO kimi beynəlxalq təşkilatların hesabatları, dövlət orqanlarının qanun, qərar və sərəncamlarından məlumatlar da daxildir. Məlumatların əksəriyyəti Scopus, Web of Science kimi platformalarda indekslənən, mövzuya uyğun və yeni jurnal məqalələrindən toplanılmışdır.
**Tədqiqatın məhdudiyyətləri:** Bu tədqiqatda yalnız məsafədən/evdən iş rejimi sorğusunun məlumatlarından istifadə edilmişdir. Həmçinin pandemiya dövründə hesablanmış bu nəticələr uzunmüddətli dövrdə fərqli ola bilər. Buna görə də bu tədqiqatın nəticələri yalnız əhatə etdiyi dövrə aiddir.

**COVID-19 Pandemiyası Evdən İşləmək (WFH) Rejimi İlə İşçi Performansı Arasındakı Əlaqə**

WFH Avropa İttifaqı (Aİ) və dünyada milyonlarla işçi üçün yeni iş üsuluna çevirdi. Pandemiya səbəbindən bir çox işçi və işəgötürən ilk dəfə və heç bir hazırlıq olmadan birdən-birə uzaqdan işə keçməli oldu. Eurofound1-in ilkin hesablamalarına görə, fövqəladə vəziyyətdən əvvəlki 12% ilə müqayisədə avropalıların təxminən 50%-i pandemiya səbəbindən evdən işləyir. Hazırda bu rəqəmlər təxminən eynidir və bir çox işçi və təşkilat pandemiyadan sonra da yəqin ki, WFH-ni seçəcək (Teresa vd., 2021).
İşçilərin məhsuldarlığı fərdlərin öz tapşırıqlarını və vəzifə öhdəliklərini yerinə yetirmələrində səmərəliliyi və effektivliyi kimi müəyyən edilir. Effektivlik işçinin əvvəlcədən müəyyən edilmiş müddət ərzində öz öhdəliklərini yerinə yetirə bilmə dərəcəsinə aiddir. Səmərəlilik isə bir insanın heç bir resurs sərf etmədən öz vəzifə və öhdəliklərini yerinə yetirə bilmə dərəcəsini ifadə edir. Bir sıra tədqiqatlar göstərmişdir ki, WFH-nin tətbiqi məhsuldarlığa müsbət təsir göstərir. IBM işçilərinin araşdırmasına əsasən, işçilərin 87%-i WFH modeli ilə məhsuldarlığının artdığını hiss edib (Tri vd., 2021).
İndoneziyada Tri W. A. və digərləri universitet işçi heyətinin arasında iş rejimi və işçi performansı arasında əlaqəni dəyərləndirmək üçün bir araşdırma aparmışdır. 15 fakültədən ümumilikdə 267 sorğu anketi toplanıb. Təəccüblü deyil ki, bütün iştirakçıların magistr və ya doktorluq dərəcəsi var və respondentlərin təxminən yarısı 10 ilə qədər iş stajına malikdir.

Təşkilati amillər (yəni, IT Təlimi; Rəqəmsal İnfrastruktur və İdarəetmə Dəstəyi) rəqəmsal bacarıqlara əhəmiyyətli təsir göstərməmişdir. Digər tərəfdən, ədədi oriyentasiyanın ədədi qabiliyyətə təsiri əhəmiyyətli olmuşdur. Eynilə, rəqəmsal qabiliyyətin işçilərin məhsuldarlığına əhəmiyyətli təsir göstərdiyi aşkar edildi. Digər tərəfdən, rəqəmsal istedadın rəqəmsal oriyentasiya və işçilərin məhsuldarlığı arasındakı əlaqəyə əhəmiyyətli vasitəçi təsiri olduğu aşkar edilmişdir (Tri vd., 2021).

COVID-19 pandemiyası dövrü fərdi müəllimləri evdən işləməyə, onlayn tədris və tədqiqatla bağlı fəaliyyətləri həyata keçirmək üçün rəqəmsal texnologiyaya etibar etməyə məcbur edir. İştirakçıların universitetin institusional dəstəyi və ya dəstəyi olmadan öz işlərini yerinə yetirmək üçün öz rəqəmsal bacarıqlarını inkişaf etdirməkdən başqa seçimləri yox idi. Pandemiya akademik heyəti öz işlərini və davamlı məşğulluğu dəstəkləmək üçün rəqəmsal texnologiyada ixtisaslaşmağa məcbur etdi. Həmçinin, respondentlərin yaşına nəzərə alsaq, respondentlərin əksəriyyəti 30-35 yaş arasındadır ki, bu da Y nəsli kateqoriyasına aiddir (Tri vd., 2021).

Kapur və Solomona görə, bu nəsil texnologiya sahəsindəki təcrübələrində unikaldır. Y nəsli texnologiyaya təsirlərinə çox məruz qaldı, onun ətrafında böyüdülər və onlayn, evdən işləməyə keçid onlar üçün böyük problem deyildi. Bu tədqiqatın nəticələri göstərir ki, institusional amillər (IT təlimi, rəqəmsal infrastruktur və təşkilat tərəfindən təmin edilən idarəetmə dəstəyi) deyil, iştirakçının rəqəmsal oriyentasiyası onların rəqəmsal qabiliyyətlərinə təsir göstərir, xüsusən də, COVID-19 pandemiyasında demək olar ki, bütün şəxslər WFH-da məcburi iştirak etdi. Təəccüblüdür ki, IT təlimi, rəqəmsal infrastruktur və idarəetmə dəstəyi vasitəsilə korporativ dəstəyin WFH-da məhsuldarlığa heç bir təsiri olmayıb. Bu, korporativ dəstək proseslərinin səmərəsiz olduğunu və WFH-a qoşulduqda işçilərin məhsuldarlığına dəstəyin yaxşılaşdırılması üçün əlavə inkişaf tələb etdiyini nümayiş etdirir (Tri vd., 2021).

Bu tədqiqat İndoneziyada COVID-19 epidemiyası zamanı WFH modelində işçilərin məhsuldarlığına təsir edən rəqəmsal texnologiya ilə əlaqəli determinantları araşdıran ilk tədqiqatlardan biridir. Bu araşdırmanın nəticələri iş yerindəki problemlərin öhdəsindən gəlmək üçün işçinin güclü rəqəmsal oriyentasiyaya malik olmasının vacibliyini vurğulayır; bunlardan biri WFH qaydalarına effektiv şəkildə uyğunlaşmaq üçün biznesin bəzi aspektlərinə uyğun rəqəmsal texnologiyanın optimallaşdırılması ehtiyacıdır. Nəticələr göstərir ki, əgər təşkilatlar texnoloji vasitəçiliyə malik WFH modelində işləməyi düşünürsə, işçilərinin güclü rəqəmsal oriyentasiyaya və adekvat rəqəmsal və istedada malik olmasını təmin etməlidirlər. Bu, düzgün işçiləri başlanğıcdan əldə etmək üçün optimal işə qəbul və seçim prosesləri ilə edilə bilər. Təşkilati proqramların hər hansı təsirinin olmaması proqramların səmərəsiz olduğunu və onların effektivliyini artırmaq üçün Universitet tərəfindən daha çox araşdırmaya ehtiyac olduğunu göstərir. Təşkilati amillərin işçilərin məhsuldarlığını artıra biləcək işçinin rəqəmsal potensialının inkişafına əhəmiyyətli təsir göstərdiyi aşkar edilməsə də, təşkilat hələ də mövcud işçilərinin rəqəmsal oriyentasiyasını saxlaya və hətta artıra bilən müvafiq proqramlar və ya siyasətlər tapmalıdır.

**Pandemiya dövründə tibb müəssisələrində evdən işləməyin səmərəliliyinin Susceptible-Latent-Infected-Work (SLIW) və Susceptible-Latent-Infected-Recovered-Work (SLIRW) modellərinin performansına təsiri:** Daniel S. və digərlərinin araşdırmasına əsasən, virusa yoluxmuş işçilər tərəfindən görülən işi (W) nəzərə almaq üçün dəyişən əlavə edildi və adi diferensial tənliklər (ODE) ilə təsvir edilən COVID-19 üçün riyazi modellər quruldu. Modellər Həssas-Gizli-İnfeksiyalı-Bərpa olunan-Həssas-İş (SLIRSW) sözlərinin baş hərfləri ilə işarələnir. S, pandemiya dövründə yoluxmuşları, L, yoluxma əlamətlərini, I sağaldıqdan sonra müvəqqəti olaraq yeni infeksiyalara qarşı immuniteti, R - sağalmış işçilər immunitetlərini itirir və yenidən həssas olur. Bundan əlavə, modellər yoluxmuş işçilər tərəfindən görülən işin (W) hesablanması üçün uyğunlaşdırılıb. Xüsusi maraq doğuran iki məhdudlaşdırıcı hal var: sağalanlar immunitet qazanmadıqda (SLIW) və immunitet daimi olduqda (SLIRW), (Sánchez vd., 2021).

Daniel S. və digərlərinin araşdırmasına əsasən SLIW və SLIRW modelləri müqayisə edildi. Bu məqsədlə iR infeksiya dərəcəsi kimi təyin edildi və ¼ 0:1iR və b = 0:001iR seçərək yoluxma dərəcəsinin müxtəlif dəyərləri üçün evdən işləməyin səmərəliliyinin funksiyası kimi W ilə hesablandı (Şəkil 1). Tədqiqata əsasən SLIW modeli SLIRW modelindən daha aşağı evdən işləmə səmərəliliyi tələb edir (Şəkil 1 A,B). Sonra, sinxronizasiya strategiyasından istifadə edərək, iş itkisinin qarşısını almaq üçün tələb olunan minimum evdən işləmə səmərəliliyi hesablandı (Şəkil 1C). Qeyd edək ki, SLIW və SLIRW modelini müqayisə etmək üçün a=b nisbətini təyin edildi. Burdan alınan nəticəyə əsasən, fərqli bir dəyər Şəkil 1-də müşahidə etdiyimizin kəmiyyət davranışını dəyişə bilər. Bununla belə, bu seçim keyfiyyət dinamikasının təmsilçi dəyəridir. Bu, ekstremal hallar arasındakı fərqin başa düşülməsini təmin edir (Sánchez vd., 2021).

Teresa G., və digərlərinin tədqiqatı pandemiya zamanı WFH modeli tətbiq edildikdə işçilərin rifahını və məhsuldarlığını araşdırdı. JD-R (Job Demand, Job Resource) modelindən (Teresa vd., 2021) çərçivə kimi istifadə edərək və xüsusi WFH biznes tələblərinin və resurslarının WFH nəticələrinə təsirini tədqiq edərək bu problem araşdırıldı.

Ailə-iş münaqişəsinin, sosial təcridin və iş tələbləri arasında diqqəti yayındıran mühitin təsirləri araşdırıldı. İşin muxtariyyəti iş resursu, özünə rəhbərlik isə şəxsi resurs kimi qiymətləndirilib. JD-R modeli həm də praktiki təsirlərə malikdir, çünki o, təkcə biznes risklərinin qarşısının alınması strategiyalarına (iş tələblərini azaltmaqla) deyil, həm də faydaların təşviqinə (biznes və mümkün olduqda şəxsi resursları artırmaqla) diqqət yetirməyə imkan verir. İşçilərin WFH modelinə tez uyğunlaşmalı olduğu bir vaxtda rifah və iş performansı üçün maneələri müəyyən etmək bir çox təşkilatlar üçün prioritet məsələdir və bu tədqiqat bu məqsədə öz töhfəsini verir. Ümumilikdə, bu tədqiqatda müşahidə edilən tapıntılar JD-R modelinin nəzəri çərçivəsinə əsasən hazırlanmış fərziyyələrə uyğundur və həmçinin uzaqdan iş üzrə ədəbiyyata uyğundur. Sosial təcrid və ailə-iş münaqişəsi bizim nəzərdə tutduğumuz istiqamətdə sınaqdan keçirilmiş hər üç nəticə ilə əlaqələndirildi və beləliklə sübut etdi ki, məsafədən iş bir tərəfdən məhsuldarlığı və məşğulluğu əhəmiyyətli dərəcədə azalda, digər tərəfdən isə iş stresini artıra bilən tələblərə malikdir. Bu nəticələr əvvəlki tədqiqatlara uyğundur və həmçinin WFH zamanı yaşanan məhsuldarlıq, iştirak və stresslə bağlı mövcud bilikləri təkmilləşdirir.

**Şəkil 1: Müxtəlif infeksiya dərəcələri üçün evdən işləməyin səmərəliliyinin funksiyası kimi simulyasiyanın sonunda W dəyəri (görülən iş)**




**Mənbə:** Daniel Sánchez-Taltavu etc. "Modelling strategies to organize healthcare workforce during pandemics: Application to COVID-19", Journal of Theoretical Biology, 2021, p.1-12;

**Şərh:** Burada ¼ 0:1iR; aH = 0:01iR və b = 0:001iR. Kəsik hədd 1 qrup strategiyası ilə məhsuldarlıqdır. (A) SLIW modeli. (B) SLIRW modeli. (C) Ev ofisinin səmərəliliyinin dəyəri infeksiya nisbətlərinin funksiyası olaraq normal strategiya qədər məhsuldar olmalı idi.

Nəticələr göstərir ki, təşkilatlar və işçilər bu amilləri nəzərə almalı və məsafədən iş modelindən gözlənilən müsbət nəticələrini müşahidə etmək, onları daha yaxşı idarə etmək üçün təlimatlar hazırlamalıdırlar. Xüsusilə, həmkarları və rəhbərləri ilə ünsiyyət imkanlarının artırılması təşkilatlar, HR və işçilər üçün ilk strategiyadır, çünki ünsiyyət sosial təcrid hissini azalda bilər. Mövcud texnoloji resurslar bu istiqamətdə çox şey edə bilər: e-poçt kimi sadə kommunikasiyalar çox vaxt biznes üçün funksional olan məlumat mübadiləsinə imkan versə də, insanlar arasında sosial mübadilə qarşılıqlı əlaqənin "zəngin" formaları vasitəsilə baş verir, onların arasında üz-üzə qarşılıqlı əlaqə "qızıl standart"ı təmsil edir. Bir çox şirkətlər insanlar arasında üz-üzə və ya qrupla qarşılıqlı əlaqəni təqlid edən interaktiv təcrübələri təmin edən texnologiyaların və proqram təminatının əldə edilməsini və istifadəsini sürətləndirib. Ancaq məsələnin digər tərəfi rəqəmsal məxfiliyin müdafiəsi və texnologiyaların kütləvi istifadəsinin arta biləcəyi rəqəmsal nəzarət

qorxusu ilə bağlıdır (Teresa vd., 2021). Eyni zamanda, menecerlər və HR-lar işçilərin həddindən artıq yorulması və diqqətinin yayınma riskinin qarşısını almaq üçün bu cür kommunikativ mübadilələrin tezliyi, vaxtı və xarakteri haqqında səmərəli düşünməlidirlər. Diqqətin yayınması mövzusu əslində WFH ilə bağlı başqa bir əsas problemdir. Bu tədqiqatın nəticələri ailə-iş münaqişəsi və vizual-akustik yayındırma və məxfiliyin olmaması ilə səciyyələnən xaotik mühitin WFH nəticələrində oynadığı zərərli rolu ortaya qoyur. Diqqəti yayındıran mühit xoşbəxtlikdən məhsuldarlığın azalmasının və artan stressin göstəriciləri olmadığını sübut etsə də, insanların motivasiyana mənfi təsir göstərir. Onların iş mühitində diqqəti yayındıqda, iş motivasiyası zəifləyərək, öhdəliklərini azalda bilər. Bunun əvəzinə, ailə-iş münaqişəsi bu tədqiqatın hər bir asılı dəyişəninə əhəmiyyətli və mənfi təsir göstərdi.

Şəxsi biznesin idarə edilməsi bacarıqlarının əhəmiyyəti bu araşdırmada sınaqdan keçirilmişdir. Nəticələr göstərir ki, muxtariyyət və özünüidarəetmə məhsuldarlıq və işə qoşulma ilə müsbət əlaqələndirilir. Beləliklə, onlar COVID-19 pandemiyası zamanı WFH məhsuldarlığını və məşğulluğunu artıra bilən və eyni zamanda təşkilatlar və işçilər üçün potensial olaraq müsbət nəticələr gətirə bilən iki müvafiq resursu təmsil edə bilər. Praktik baxımdan, muxtariyyətin və özünüidarəçiliyin təşviqi məsafədən iş proqramlarının effektivliyini və WFH modelinin iştirakı baxımından əlaqədar təsirləri artırmaq üçün həll yolu ola bilər. WFH işçilərinə öz-özünə nəzarət strategiyalarını inkişaf etdirmək və işlə bağlı məqsədə əsaslanan son tarixlər və prioritetlər təqvimini təşviq etmək üçün təlimlər təşkil edilə bilər. Bundan əlavə, bu tapıntılar fərdlərin iş muxtariyyətini dəstəkləyən, xüsusi bacarıqlarından istifadə edən və yeni onlayn iş kontekstində biznesin idarə edilməsi üçün funksional alətlər təmin edən yeni biznes proseslərini vurğulayır. Bu istiqamət inkişaf etdikcə rəhbərlik tərəfindən idarə olunmanın daha az və bunun əvəzinə işçilərin bu prosesdə daha çox iştirak etdiyi biznes baxışları ilə tam uyğunlaşır.

Pandemiyadan sonrakı dövrdə bizneslər də hibrid iş rejiminə keçməkdə maraqlı olacaqlar. Çünki pandemiya dövründə əməkdaşlar lazımi proqram və avadanlıqlarla təchiz olunduqda öz vəzifələrini daha səmərəli yerinə yetirə biləcəklərini düşünürlər. Çingiz İbrahim Azərbaycanda işçilərin iş rejimi onların məhsuldarlığına necə təsir etdiyini respondentlərin cavabı əsasında tədqiq etmişdir. Belə ki, iştirakçıların 54%-i distant işləyərkən məhsuldarlığının artdığını bildirib. Digər iş rejimlərinin statistik məlumatları da Şəkil 2-də verilib (Ibrahim, 2021).

Natsu S. və digərlərinin Yaponiyada müxtəlif sektorlardan 1448 nəfər arasında aparılan araşdırmasına əsasən, ilkin gözləntilərin əksinə olaraq, COVID-19-a reaksiya üçün iş yerində görülən tədbirlərin sayı qlobal COVID-19 qorxusu ilə müsbət əlaqələndirildi. Həyata keçirilən iş yerində tədbirlərin növü ilə bağlı COVID-19 riski barədə məlumatlılığın artırılması işçilərin virusla bağlı qorxu və narahatlığını da artıra bilər. Bununla belə, əldə edilən nəticələr göstərir ki, iş yerindəki ehtiyat tədbirlərinin sayı işçilərin psixoloji sıxıntısına mənfi, onların fəaliyyətinə müsbət təsir göstərir. Onlar, iddia edir ki, COVID-19-a cavab olaraq iş yerində tədbirlərin daha intensiv həyata keçirilməsi işçilərin psixoloji sıxıntılarını azaldır və onların iş performansını qoruyur. Hər bir ölçü kateqoriyası üçün yalnız evdə qalma meyarları və klinik əlaqə və prosedur tədbirlər yüksək iş performansına əhəmiyyətli təsir göstərmişdir. Həssas işçilərin diqqətli qiymətləndirilməsi bütün işçilər üçün faydalı ola bilər. COVID-19-a cavab verən iş yeri tədbirləri COVID-19 pandemiyası zamanı işçilərin psixi sağlamlığını və iş performansını dəstəkləyə və motivasiya edə bilər (Sasaki vd., 2021).

Songül Şenelin Türkiyədəki araşdırmasına əsasən, sorğuda iştirak edən 253 respondentin 90,1%-i məsafədən iş modelində tapşırıqları vaxtında yerinə yetirib, 86,5%-i biznes məqsədlərini, 583-ü təklif etdikləri xidmət keyfiyyətində standartları üstələyib, 91,7%-i problem yarandıqda mümkün qədər tez cavab verib. Ümumi mənada; İşçilərin 87,8 faizi müsbət, 3,5 faizi mənfi, 8,7 faizi isə qərarsız olduğunu bildirib (Şenel, 2021).

Məsafədən işləmə modelinin “İş həyatının keyfiyyəti və səmərəliliyi”, “Status itkisi və ətraf mühitə təsir”, “Karyera inkişafı”, “Şəxsi həyat” kimi ölçüləri ölçüləri iş performansına təsir göstərir (Şenel, 2021).

**Şəkil 2. COVID-19-dan əvvəlki dövrlə müqayisədə uzaqdan işləyərkən məhsuldarlığınız necə dəyişdi?**




**Mənbə:** Chingiz Ibrahim “Changes In The Application Areas Of Ict In Human Resource Management In Azerbaijan During The Pandemic“, Economic and Social Development, 2021, p.941-949;

**Qeyd:** Sorğunun sualı - Pandemiya bitdikdən sonra işinizin müəssisə tərəfindən hansı rejimdə həyata keçirilməsini istəyirsiniz?

## COVID-19 Pandemiyası Dövründə Məsafədən/Evdən İş Rejimi, İş Performansı Və İş Motivasiyası Arasındakı Əlaqə

**Tədqiqatın məqsədi:** Tədqiqatın məqsədi məsafədən/evdən, hibrid, növbəli, qısa iş həftəsi kimi iş rejimlərinin işçilərin performanslarına təsirlərinin ölçülməsidir. Bu məqsədi reallaşdırmaq üçün hər dörd iş rejimini əhatə edən anket forması hazırlanmış və Bakıda fəaliyyət göstərən dövlət və özəl müəssisələrdə 482 işçinin məlumatları analiz edilmişdir. Suallar və hipotezlər İndoneziyada araşdırma aparmış Donny Susilonun *"Revealing the Effect of Work-From-Home on Job Performance during the COVID-19 Crisis: Empirical Evidence from Indonesia (2020)"* adlı məqaləsindən (Susilo, 2020) götürülmüşdür. Həmçinnn Türkiyədə Dilşad G. və Güzin A. – nın *"Factors Affecting Job Performance in the Remote Working System in the COVID-19 Era: An Application to Bank Employees (2021)"* adlı məqaləsində də istifadə olunub (Dilşad və Güzin, 2021) Azərbaycanda ilk dəfə tətbiq olunur. Anket nəticəsində əldə olunan məlumatlar əsasında performans və iş məmnuniyyəti, iş motivasiyası və iş məkanı arasındakı əlaqələrin müəyyən edilməsi üçün Korellyasiya analiz aparılmışdır. Reqrasiya analizləri COVID-19 pandemiyası dövründə yuxarıda qeyd olunan iş rejimlərinin işçilərin performanslarına və motivasiyasına təsirini ölçmək məqsədilə həyata keçirilmişdir.

Suallar Likert tipli olmaqla “1-Tamamilə razıyam, 2-Razıyam, 3-Qərarsızam, 4-Razı deyiləm, 5-Tamamilə razı deyiləm” dərəcələri ilə ölçülür. Tədqiqatın məqsədi Azərbaycanda (Bakı) müəssisələrində tətbiq olunan müxtəlif iş rejimlərinin işçilərin performansına necə təsir etdiyini ölçməkdir. Bundan əvvəl Azərbaycanda Chingiz Ibrahim 105 iştirakçı arasında pandemiya dövründə işçilərin hansı iş rejimində

işlədiyinə dair frekans analizi verilmişdir. Bu araşdırmada isə həm iştirakçı sayı kifayət qədər çox olması, həm də müxtəlif analizlərin tətbiq edilməsi ilə iş rejimlərinin ölkəmizdə necə tətbiq edildiyi, hansı iş rejimlərində iş performansı, motivasiyası və məmnuniyyətinin necə dəyişildiyi müxtəlif hipotezlərlə ölçülmüşdür.

Sorğuda 4 müxtəlif iş rejimində (1) Məsafədən/evdən; 2) Növbəli; 3) Qısa iş həftəsi; 4) Hibrit iş rejimləri performans dəyərləndirilməsi əsasında aparılmışdır. Məsafədən/evdən və hibrit iş rejimlərinin sual və hipotezləri İndoneziyada araşdırma aparmış Donny Susilo məqaləsindən götürülmüşdür.

Əldə olunan məlumatlar başqa bir məqalədə müxtəlif hipotezlərin yoxlanılması üçün IBM SPSS 25 proqramında təhlil edilib. Hal-hazırda isə IBM AMOS 24 proqramında məsafədən/evdən iş rejiminin iş performansının artmasına müsbət təsir göstərdiyini (H2) və korrelyasiya əlaqəsində təsdiq olunduqdan sonra iş permansı ilə iş motivasiyası arasındakı anlamlı əlaqəni nəzərə alaraq yeni model formalaşdırılmışdır.

H1: COVID-19 pandemiyası dövründə Məsafədən/evdən işin iş performasına təsirində iş motivasiyası qismən vasitəçi dəyişən kimi iştirak edir.

Tədqiqatın məqsədi qoyulmuş hipotezin (H1) doğru olub-olmadığını AMOS 24 proqramında struktur bərabərlik modelləşdirilməsi üsuli ilə yoxlamaqdır.

**Tədqiqatın metodologiyası**: Sorğu n=482 respondentin məlumatları əsasında aparılmışdır. Müqayisəli təhlil metodundan istifadə edilərək anket vasitəsi ilə əldə olunan məlumatlar müxtəlif iş rejimləri üzrə təhlil edilmişdir. Ancaq bu məqalənin tədqiqatında biz yalnız məsadəfədən/ evdən iş rejiminin məlumatlarından istifadə edəcəyik (n=122). Burada AMOS 24 proqramı vastəsi ilə iki model yaradılmış və müqayisə edilmişdir.

**Tədqiqatın əhatə dairəsi və seçmə metodu:** Tədqiqatın əhatə dairəsi, Bakı şəhərində işləyən istehsal və xidmət sektorlarında, dövlət və özəl müəssisələrdə çalışan müxtəlif demoqrafik göstəricilərə sahib olan 482 işçini əhatə edir. Nümunə hər yaş, təhsil və ailə vəziyyəti üzrə istifadəçiləri əhatə etməkdədir. Dolayısı ilə nümunə böyüklüyü p və q dəyərləri 0.05 hesablanaraq, %5-lik xəta payı düşünələrək α= 0,05 , 482 olaraq hesablanmışdır. Bu səbəbdən 482 istifadəçiyə anket tətbiq olunmuşdur. Araşdırma üçün tədqiqatın aparılmasına kifayət qədər böyük rəqəmdir. Ancaq bu seçilmiş tədqiqat sahəsinin bir hissəsidir, yəni, kiçik bir modelidir. Burada araşdırılan tədqiqatın əhatə dairəsi tamamilə bütün sahəni əhatə etmir, sadəcə spesifik bir hissəsini açıqlayır. O cümlədən, indiki araşdırmamızda əvvəlcədən aparılmış sorğunun məsafədən/evdən iş rejimi hissəsini əhatə edir.

Məlumatlar təsadüfi olmayan seçmə metodunun alt qrupu olan Qartopu toplama metodu ilə toplanılmışdır.

**Məlumat toplama metodu**: Sorğu 07.02.2022 tarixində Google Form platformasından istifadə edilərək onlayn anket kimi yaradılmışdır. İlk növbədə, sınaq modeli tətbiq edilmiş və sorğunun məlumatları yoxlanılmışdır. Daha sonra doldurulması üçün Facebook, İnstagram, LinkedIn, Gmail və s. kimi sosial şəbəkələrdə mövzu ilə əlaqəli qruplarda paylaşılmışdır. Sorğunun link https://forms.gle/wFMxcuijyGCRCsWh6 formasında istifadəçilərə təqdim edilmişdir. Araşdırma 17.04.22 tarixində sonlandırılmış və analiz edilməsi üçün SPSS 25 proqramına daxil edilmişdir. Ümumi 2 ay 10 günlük bir müddətdə istədiyimiz sayda respondenti internet üzərindən apardığımız sorğudan toplaya bildik.

**Ölçmələr**: Məlumatların toplanması və analiz edilməsi üçün müxtəlif dəyişənlər (indekslər) əlavə edilmişdir. 4 iş rejiminin ayrı-ayrı suallardan ibarət anket formasının mövcud olduğunu nəzərə alsaq, hər biri üçün ayrıca dəyişənlər daxil edilmişdir. Məsafədən-evdən iş rejimini ölçmək üçün 17 sualla ölçülmüşdür. Hər bir sual ayrıca faktorlarda qruplaşdırılmış və bunun üçün faktor analizi edilmişdir. Məsafədən iş rejimi üçün *mei_indeks*, qalan indekslərdə isə performans, motivasiya, məmnuniyyət və məkanı ölçdüyünə görə müvafiq olaraq *ip_indeks*, *imo_indeks*, *ime_indeks və im_indeks* şəklində analizlərə

daxil edilmişdir. Buradakı indekslər hər bir faktor üzrə formalaşmış sualların nəticələrinin ortalamasıdır və bütün indekslər etibarlılıq göstəricilərinə görə yüksəkdir.

**Toplanılan məlumatların analizi:** Yuxarıda qeyd etdiyimiz kimi Məsafədən/evdən iş rejimində n=122 respondent iştirak etmişdir. Bu sorğuda iştirak edənlərin 65 nəfəri (53.3%) qadın, 57 nəfəri isə kişidir (46,7%). Yaş ortalamasına baxdıqda 18-26 (46 nəfər) və 27-35 (46 nəfər) yaş aralığını seçənlərin əksəriyyət təşkil etdiyini nəzərə alaraq qeyd edə bilərik ki, sorğuda əsasən gənclər iştirak edib. Respondentlərin 60,7%-i subay, 39,3%-i isə evlidir. Təhsil səviyyəsinin ortamalasına baxdıqca ən çox Ali təhsil pilləsi seçilmişdir (96 nəfər). "Hansı sektorda işləyirsiniz?" sualına cavab olaraq iştirakçıların 54,1 faizi istehsal, 45,9 faizi isə xidmət sektorunu seçib. Dövlət müəssisəsində fəaliyyət göstərənlərin sayı 56, özəl müəssisədə işləyənlərin sayı isə 66-dır. Son olaraq iş "neçə illik iş təcrübəniz var" sualına cavab olaraq ən çox 0-5 və 6-10 il cavabları seçilmişdir (47 nəfər). Yuxarıda qeyd olunanlar SPSS 25 proqramında frekans analizinin nəticələridir.

Daha sonra yeni eyni proqramda Məsafədən/evdən iş rejimində **, Cronbach Alpha dəyəri ümumi olaraq** $\alpha = 0.810$, standartlaşdırılmış olaraq isə $\alpha = 0.811$ hesablanmışdır. Alpha dəyəri $\alpha > 0.700$ olarsa, normal, $\alpha > 800$ isə güclü etibarlılıq olduğunu göstərir (**Büyüköztürk, 2011). Normallıq və faktor analizlərindən sonra dəyişənlərin bir-birilə necə korrelyasiya əlaqəsi yaratdığı ölçülmüşdür. Məsafədən/evdən iş rejimində iş permansı ilə iş motasiyası arasında güclü əlaqə vardır** ($r$= .447$^{**}$, $p$ < 0.001). O cümlədən məsafədən/evdən iş rejimi indeksi ilə iş performansı və iş motivasiyası arasında da güclü bir əlaqə vardır ($r$= .447$^{**}$8 $p$ < 0.001, $r$= .253$^{**}$, $p$ < 0.005).

Bundan sonra reqresiya modeli formalaşdırılmış və məsafədən/evdən iş rejiminin iş performansına müsbət bir təsiri var (H2) hipotezi yoxlanılmışdır. Əldə olunan nəticələrə əsasən, Reqresiyya analizi edərkən kolleniarlıq statistikalarının analizini də tələb etmişdik. Burada cədvəldə göstərilən VIF dəyərlərinin müxtəlif mənbələrdə müxtəlif cür qəbul edildiyini görə bilərik. Alisonun tədqiqatına əsasən daxil etdiyimiz hər bir müstəqil dəyişəndə bu dəyərlər məqbuldur (VIF ≤ 2.5; Allison, 1999).

Reqresiyya analizimizə əsasən məsafədən/evdən iş rejimi iş performansı, motivasiyası və məmnuniyyətinə müsbət təsir göstərir.

- ✓ Məsafədən/evdən iş performansı = 1.157 + 0.548$x_1$
- ✓ Məsafədən/evdən iş motivasiyası = 1.910 + 0.244$x_1$
- ✓ Məsafədən/evdən iş məmnuniyyəti = 1.727 + 0.322$x_1$

Yuxarıda qeyd edilənləri nəzərə alaraq artıq AMOS 24 proqramında yeni modellərimizi tətbiq edə bilərik. Onu qeyd edək ki, Bu model Hayesin yaratdığı Process ilə ölçülə bilərdi. Ancaq təcrübə göstərir ki, dəyişənləri ölçən likert suallar çox olduğu təqdirdə AMOS 24 proqramında tətbiq olması daha məqsədəuyğundur. Modellər aşağıdakı kimidir:

**Model 1: Məsafədən/evdən iş rejimində mei_indeks ip_indeksə müsbət və anlamlı təsir göstərir**




**Mənbə:** Müəllif tərəfindən daxil edilmişdir

**Model 2: Məsafədən/evdən iş rejimində imo_indeksinin mei_indeks və ip_indeksinin arasındakı əlaqəyə vasitəçi təsiri var**




**Mənbə:** Müəllif tərəfindən daxil edilmişdir

Əldə olunan məlumat bazası AMOS 25 proqramına daxil edildi və hər bir ortalama indeks sualları ilə birgə təhlil edildi. Nəticələr aşağıdakı kimidir:

Təhlilə keçməmişdən qabaq istinad edəcəyimiz mənbələri sıralamaq üçün Cədvəl 1 verilmişdir. Burada analizin nəticələrini şərh etmək üçün yüksək və məqbul sayılan müxtəlif dəyərlər göstərilmişdir. Biz hər iki modeli müqayisəli təhlil edəcəyimiz və H1 hipotezinin doğru-olub olmadığını yoxlayacağımız üçün ilk növbədə vasitəçi olmayan Model 1 analiz edilmidir. Cədvəl 1-də həmçinin Model-in faktiki dəyərləri göstərilmişdir (bax: Cədvəl 1).

**Cədvəl 1. Ölçmə modelinin uyğun dəyərləri (vasitəçi dəyişən olmadan)**

| İndeks | Yüksək dəyər | Məqbul sayılan dəyər | Ölçmə modelinin faktiki dəyərləri |
|---|---|---|---|
| $X^2$/df | $X^2/df \leq 3$ | $4 \leq X^2/df \leq 5$ | 1.367 |
| GFI | GFI ≥ 0,90 | 0,85 ≤ GFI ≤ 0,89 | 0.912 |
| CFI | CFI ≥ 0,97 | 0,95 ≤ CFI | 0.949 |
| RMSEA | RMSEA ≤ 0,05 | 0.06 ≤ RMSEA ≤ 0,08 | 0.055 |

**Mənbə:** Bentler,1990; Başalp, Varinli və Yaraş, 2009; Kline, 2005

**Cədvəl 2. Vasitəçi dəyişənin təsiri haqqında hesabat (vasitəçi dəyişən olmadan)**

| | | | Estimate | β | S.E. | C.R | p | $R^2$ |
|---|---|---|---|---|---|---|---|---|
| ip | <--- | mei | 0.762 | 0.76 | 0.145 | 5.242 | *** | 24.602 |

**Mənbə:** Müəllif tərəfindən AMOS 24 proqramında aparılmış analiz

İlk addım olaraq dəyişənlərin ölçmə modelləri qiymətləndirilmişdir. Model 1-də uyğunluq dəyərləri istənilən hədlər daxilindədir. Faktiki dəyərlər Chi-Square=24,602 , df-18 kimi qeydə alınmışdır. CMIN/DF dəyəri 1.367 kimi hesablanmış və bu dəyər cədvəl 1-də qeyd etdiyimiz kimi $X^2/df \leq 3$ olduğu üçün yüksək anlamlılığa sahibdir (Kline, 2005). Müvafiq olaraq GFI 0.912, CFI 0.949 və RMSEA dəyəri isə 0.055 kimi formalaşmışdır. Varinli; Yaraş ve Başalp (2009) və Bentler (1990)-ə istinad edərək qeyd edə bilərik ki, bu dəyərlər məqbul hesab edilə bilər.

Nəzəri məlumatların təhlilindən sonra Cədvəl 2 və Şəkil 3-də Model 1-in necə təsirinin olduğu araşdırılır. Burada β= 0.76 qiyməti alınmışdır, yəni Məsafədən iş rejimində mei_indeksinin ip_indeksinə təsiri müsbətdir və ona 76 faiz qədər müsbət təsir göstərir. P= *** dəyişənlər arasında yüksək əlaqənin olduğunu göstərir.

Biz burada güclü və müsbət təsirin olduğuna əmin olduqdan sonra vasitəçi dəyişənin təsirini ölçmək üçün Model 2-dən istifadə edəcəyik. Aydındır ki, korrelyasiya əlaqəsinin müsbət və anlamlı çıxmasını nəzərə alaraq bu modeli formalaşdırdıq. İndi isə H1 hipotezinin həqiqətən doğru olub-olmadığını yoxlayaq

**Şəkil 3: Məsafədən/evdən iş rejiminin iş perfomasına birbaşa təsiri (vasitəçi dəyişən olmadan, Model_1)**




**Mənbə:** Müəllif tərəfindən AMOS 24 proqramında aparılmış struktur tənliyin modelləşdirilməsi analizi

**Cədvəl 3. Ölçmə modelinin uyğun dəyərləri (vasitəçi dəyişən ilə)**

| İndeks | Yüksək dəyər | Məqbul sayılan dəyər | Ölçmə modelinin faktiki dəyərləri |
|---|---|---|---|
| $X^2/df$ | $X^2/df \leq 3$ | $4 \leq X^2/df \leq 5$ | 1.806 |
| GFI | GFI ≥ 0,90 | 0,85 ≤ GFI ≤ 0,89 | 0.862 |
| CFI | CFI ≥ 0,97 | 0,95 ≤ CFI | 0.841 |
| RMSEA | RMSEA ≤ 0,05 | 0.06 ≤ RMSEA ≤ 0,08 | 0.073 |

**Mənbə:** Bentler,1990; Başalp, Varinli və Yaraş, 2009; Kline, 2005

Faktiki dəyərlər Chi-Square=68,645 , df-38 kimi qeydə alınmışdır. CMIN/DF dəyəri 1.806 kimi hesablanmış və bu dəyər cədvəl 3-də qeyd etdiyimiz kimi $X^2/df \leq 3$ olduğu üçün yüksək anlamlılığa sahibdir (Kline, 2005). Müvafiq olaraq GFI 0.862, CFI 0.841 və RMSEA dəyəri isə 0.073 kimi formalaşmışdır. Varinli; Yaraş ve Başalp (2009) və Bentler (1990)-ə istinad edərək qeyd edə bilərik ki, bu dəyərlər məqbul hesab edilə bilər.

Bundan sonra Cədvəl 4-də Vasitəçi dəyişənin təsiri haqqında məlumatlar verilmişdir. Belə ki, Məsafədən/evdən iş indeksinin(mei) iş motivasiyası indeksinə (imo) təsiri (β=0.57, p=***),

məsafədən/evdən iş indeksinin(mei) iş performansı indeksinə(ip) təsiri (β=0.47, p=0.012 ≤ 0.05), iş motivasiyası indeksinin(imo) iş performası indeksinə(ip) təsiri (β=0.51, p=0.017 ≤ 0.05) statistik cəhətdən anlamlıdır.

**Cədvəl 4: Vasitəçi dəyişənin təsiri haqqında hesabat**

| | | | Estimate | β | S.E. | C.R | p | $R^2$ |
|---|---|---|---|---|---|---|---|---|
| imo | <--- | mei | 0.573 | 0.57 | 0.167 | 3.439 | *** | 68.645 |
| ip | <--- | mei | 0.475 | 0.47 | 0.190 | 2.498 | 0.012 | |
| ip | <--- | imo | 0.513 | 0.51 | 0.216 | 2.376 | 0.017 | |

**Mənbə:** Müəllif tərəfindən AMOS 24 proqramında aparılmış analiz

**Şəkil 4: Məsafədən/evdən iş rejiminin iş perfomasına vasitəçi dəyişən iş motivasiyası ilə təsiri**




**Mənbə: :** Müəllif tərəfindən AMOS 24 proqramında aparılmış struktur tənliyin modelləşdirilməsi analizi

Model 1 və Model 2-ni şəkil 2 və şəkil 3 ilə müqayisə etdikdə görə bilərik ki, Məsafədən/evdən iş rejimi indeksinin iş performansına birbaşa təsiri daha yüksəkdir (β=0.76, p=***). Ancaq burada diqqət yetirməli olduğumuz məsələ ondan ibarətdir ki, bu prosesə motivasiya daxil olduğu təqdirdə birbaşa təsir azalır. Sözsüz ki, proqramın hesablamasına müəyyən əlavə faktorlar təsir edir. Ancaq bunu nəzərə almaq lazımdır ki, Model 2-də aldığımız nəticə əslində Hipotez 1-in nəzəri olaraq təsdiqlənməsidir. Şəkil 4-ə baxdıqda birbaşa təsirin β=0.47 olduğunu görürük. Ancaq dolayı təsir edən vasitəçi dəyişən iş motivasiyası sonda təsiri müəyyən qədər olsa da, artırır.

Son olaraq total effect (c) = direct effect + indirect effect düsturundan istifadə edərək Model 2-də ümumi təsiri hesablayaq *(Burger etc., 2013). Burada Direct effect mei və ip arasında olan β=0.47 dəyəridir. İndirect effect isə mei və imo, imo və ip dəyişənləri arasında olan β dəyərlərinin hasilidir.*

*C = 0.47 + 0.57 x 0.51 (C=0.76)*

*Əslində, sonda aldığımız bu rəqəm elə birbaşa təsiri ifadə edir. Yəni COVID-19 pandemiya dövründə Məsafədən-evdən iş rejiminin iş performansına birbaşa təsiri və vasitəçi dəyişən olan iş motivasiyasının ümumi təsiri ilə eynidir və fərqlənmir.*

**Nəticə və təkliflər**

COVID-19 pandemiyası dövründə aparılmış bu tədqiqatda ilk növbədə dünyanın müxtəlif yerlərində məsafədən-evdən iş rejimini araşdırmış tədqiqatçıların məqalələri təhlil edilmiş və aktual mövzu olan pandemiya dövründə məsafədən/evdən işləməyin ədəbiyyat incələməsi aparılmışdır. Məlumatlar ikinci dərəcəli ədəbiyyatlar üzərindən aparılmışdır. Əldə olunan nəticələr müxtəlif. Belə ki, pandemiya dövründə məsafədən/evdən iş rejimində iş performası və iş motivasiya arasında anlamlı bir əlaqə var. O cümlədən, məsafədən/evdən iş rejimi işçilərin performansına müsbət təsir göstərir. Sözsüz ki, Azərbaycand aparılmış bu araşdırma bütün ölkəni əhatə etmir. Ancaq pandemiyanın çətinliklərini və ilk dövrlərdə sərt karantin qaydalarını nəzərə alaraq qeyd edə bilərik ki, müəssisələrin bu və bundan sonrakı pandemiya və ya fors-major hallarda çıxış yolu kimi müxtəlif iş rejimlərini tətbiq edə bilər. Evdən işləməyin öz çətinlik və üstünlükləri var və bu ayrıca bir tədqiqat mövzusudur. Təklif edə biləcəyimiz əsas məqam ondan ibarətdir ki, müəssisələrin Azərbaycanda məsafədən/evdən iş rejimini öz işçiləri üzərində pilot model kimi tətbiq edərək bu kimi fors-major hallarda uğur qazanması, hətta aldığımız nəticəyə istinad edərək performansın artırılmasında birbaşa iştiranı təmin etməsi ehtimalı var. Son olaraq tədiqatın tapmaq istədiyi hipotez təsdiqləndi (*H1: COVID-19 pandemiyası dövründə Məsafədən/evdən işin iş performasına təsirində iş motivasiyası qismən vasitəçi dəyişən kimi iştirak edir). Ancaq apardığımız tədqiqatın əhatə dairəsində bu təsir birbaşa təsirdən ümumi olaraq fərqlənmədi.*

**Ədəbiyyat**


1. Allison, P. D. (1999). Multiple regression: A primer. Pine Forge Press.
2. Bentler, P. M. (1990). Comparative fit indexes in structural models. Psychological Bulletin, 107, 238–246. – RMSEA
3. Burger, Birgitta & Polet, Juho & Luck, G. & Thompson, Marc & Saarikallio, Suvi & Toiviainen, Petri. (2013). Investigating relationships between music, emotions, personality, and music-induced movement.
4. Chingiz Ibrahim “Changes In The Application Areas Of Ict In Human Resource Management In Azerbaijan During The Pandemic “, Economic and Social Development, 2021, p.941-949;
5. Daniel Sánchez-Taltavu etc. “Modelling strategies to organize healthcare workforce during pandemics: Application to COVID-19”, Journal of Theoretical Biology, 2021, p.1-12;
6. Dilşad G. Ve Güzin A. “Covid-19 döneminde uzaktan çalışma sisteminde iş performansını etkileyen faktörler: banka çalışanları üzerine bir uygulama”, Ardahan Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2021, Vol.3, No.2, s.128-133;
7. Donny Susilo “Revealing the Effect of Work-From-Home on Job Performance during the Covid-19 Crisis: Empirical Evidence from Indonesia”, The Journal of Contemporary Issues in Business and Government, 2020 Vol.26, No.1, p.23 - 40;

**8.** Hair, J. F., Black, W. C., Babin, B. J., Anderson, R. E., & Tatham, R. L. (2013). Multivariate Data Analysis: Pearson Education Limited.
**9.** Kline, R. B. 2005. Principles and practice of structrual equation modeling, New York: Guilford Press.
**10.** Natsu Sasaki etc. "Workplace responses to COVID-19 associated with mental health and work performance of employees in Japan", Journal of Occupational Health, 2020, Vol.62, p.1-6;
**11.** Songül Şenel, 2021, "COVID-19 Salgini Sürecinde Yayginlaşan Uzaktan Çalişma Modelinin Performansa Etkisinde COVID-19'a Yakalanma Korkusunun Ara Değişken Rolü", İstinye Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul, s.1-109;
**12.** Tabachnick and Fidell, 2013 B.G. Tabachnick, L.S. Fidell Using Multivariate Statistics (sixth ed.)Pearson, Boston (2013)
**13.** Teresa Galanti etc. "Work From Home During the COVID-19 Outbreak", JOEM, 2021, Vol.63, No.7, p.426-432;
**14.** Tri Wulida Afrianty etc. "Working from home effectiveness during Covid-19: Evidence from university staff in Indonesia", Asia Pacific Management Review, 2021, p.1-8;
**15.** Varinli, İ, Yaraş, E. ve Başalp, A. 2009. Duygusal zekanın müşteri odaklılık ve satış performansı üzerine etkisini belirlemeye yönelik bir araştırma. Ege Akademik Bakış, 9(1), 113-130
**16.** World Development Indicators - World Bank, International Labour Organization http://data.worldbank.org/data-catalog/world-development-indicators
**17.** World Health Organization Coronavirus Disease 2019 (COVID-19) Situation Report-97. Available from
**18.** Wu F, Zhao S, Yu B, et al. A new coronavirus associated with human respiratory disease in China. Nature. 2020; s.265–269.
**19.** Yetgin, M ., Pandeminin Almanya'daki Bilgi Teknolojileri Şirketlerine Etkisine Yönelik Bir Araştırma, İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi , Vol.10, No.1, 2021, p. 754-774
**20.** Zhou P, Yang XL, Wang XG, et al. A pneumonia outbreak associated with a new coronavirus of probable bat origin. Nature. 2020; s.270–273.
**21.** https://covid19.who.int/

# РАЗВИТИЯ СЕМЕЙНОГО БИЗНЕСА В ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА

**Керимли Рамиз**

**Азербайджанский Государственный Экономический Университет**

**ramiz.kerimli.78@mail.ru**

## Резюме

В недалеком прошлом семейные предприятия были единственной и основной формой хозяйственной деятельности. В доиндустриальную и на начальной стадии индустриальной эпохи семья была важным институтом, регулирующим не только межличностные, но и хозяйственные отношения. Затем в авангарде экономического развития стали корпоративные предприятия, однако в мире и по настоящее время семейные предприятия составляют основу экономики. В настоящее время во всем мире семейные предприятия вынуждены пересматривать и совершенствовать свою структуру и стратегию, овладевать новыми компетенциями и утверждать свою индивидуальность на региональных и международных рынках. Это происходит в результате того, что научно-технический прогресс набирает все большие и большие темпы, снижается роль материального производства, развивается сектор услуг и информации, изменяются мотивы и характер человеческой деятельности в целом, появляются производственные ресурсы нового типа, происходит существенная модификация всей социальной структуры. На семейный бизнес влияют не только перечисленные внешние факторы, но и многочисленные внутренние факторы, обусловленные спецификой семейного бизнеса и внутренней логикой его развития. В частности, в большинстве стран растет продолжительность жизни, коренным образом меняется модель семейного поведения, смешиваются культурные, религиозные и социальные нормы. В этих условиях успех семейного бизнеса зависит от ориентации его лидеров на укрепление внутрисемейных отношений и деловых связей.

**Ключевые слова:** поддержка, развитие, государство, регулирование, расширение.

## Summary

In the recent past, family businesses were the only and main form of economic activity. In the pre-industrial and at the initial stage of the industrial era, the family was an important institution that regulated not only interpersonal, but also economic relations. Then corporate enterprises became the forefront of economic development, but in the world and to this day, family enterprises form the basis of the economy. Nowadays, family businesses all over the world are forced to review and improve their structure and strategy, acquire new competencies and assert their individuality in regional and international markets. This happens as a result of the fact that scientific and technological progress is gaining more and more pace, the motives and nature of human activity as a whole are changing and a significant modification of the entire social structure is taking place. The family business is influenced not only by the listed external factors, but also by numerous internal factors due to the specifics of the family business and the internal logic of its development. In particular, in most countries, life expectancy is growing, family behavior is fundamentally changing, cultural, religious and social norms are mixing.

**Key words:** support, development, state, regulation, expansion.

## Введение

Развитие семейного бизнеса на освобождённых от оккупации территориях нашей страны сегодня может являться именно тем факторам, который может помочь отечественной экономике пережить кризисные явления, вследствие нестабильности, наблюдающиеся в мировой экономике по причине вводимых ограничений. Такого рода бизнес обычно создается близкими родственниками, людьми, которые имеют более тесные дружественные отношения, близко знакомы, путем владения данным видом бизнеса на равноправных правах. Но надо отметить, что в нашей стране семейный бизнес в основном построен на родственных отношениях, которые позволяют осуществлять более полный контроль и быстрее реагировать на изменение на рынках. При создании семейных предприятиях, его учредители обычно используют свой собственный капитал, которые предпочитают оставлять в последствии только в руках семьи и передавать его следующим поколениям. Также надо отметить, что семейный бизнес в нашей стране по своей структуре построения, по распределению капитала,

по системе управления бизнесом, а также с учетом размеров семейного предприятия можно классифицировать по двум группам (Bağırzadə, 2019):
К первой группе семейного бизнеса традиционно относят предприятия, состоящие из членов одной семьи и ближайших родственников, штат, которого не превышает 10-15 сотрудников.
К следующей подгруппе можно отнести семейные предприятия, где главным является глава семьи, а остальные члены выполняет такие функции, как продавец, бухгалтер, логистика, транспортировка. Обычно к такому виду деятельности относят небольшие фирмы, как небольшие магазины, предприятия, работающие в сфере услуг, хотя также следует отметить, что между участниками данной подгруппы не существует четких должностных ограничений.

Надо отметить, что семейный бизнес в нашей стране приводит к более лучшим результатам, т.к. имеет больше преимуществ, чем обычные виды бизнеса, за счет:

1. Ценностей собственников, тогда как в прочих видах бизнеса ценности имеют более формальный характер, прописанный в миссии компании формальными утверждениями, которые управленцы могут не разделять;
2. Ориентации на долгосрочное развитие, тогда как в прочих видах бизнеса горизонт планирования носит долгосрочный характер, а в семейных – поколение, потому что его владельцы мечтают передать бизнес своим детям.
3. Неизменный состав сотрудников, когда в семейной форме бизнеса работают люди, которым близки ценности владельцев, поэтому они более лояльны компании.
4. Верность собственной политике собственников, когда ценности членов семьи совпадают с интересами компании, в вопросах распределения прибыли для обеспечения его роста в долгосрочной перспективе.
5. Передача знаний и опыта, поскольку в семейном бизнесе состав управления постоянен, сохраняются традиции, признаются заслуги и достижения (Əbdurrəhmanov, 2006).

Сохранение имиджа компании, потому что репутация семейных компаний ассоциируются с их продуктами и услугами, стремлением улучшать качество продукции, сохранение и расширение взаимоотношения со своими торговыми партнерами (Cavadov, 2017).

**Анализ современного развития семейного бизнеса в Азербайджане**

Сегодня в нашей стране семейный бизнес объединяет в себе предпринимательскую деятельность, связанную как с домашними делами, так и с производственной деятельностью трудовых ресурсов, которые мало используются прочими категориями работодателей: детей, пожилых членов семьи, инвалидов. В результате которого образуется экономические узы семей, способствующие укреплению связей с целью обеспечения увеличения семейных доходов (Əbdurrəhmanov, 2006).

Несмотря на возросший интерес к исследованиям в сфере семейного бизнеса в нашей стране в результате освобождения от оккупации территорий нашей страны, пока нет четкого понимания как развивать семейный бизнес в данном регионе, поэтому исследования в данной области проводимые различными учеными, пока позволяют утверждать, что понимание что такое семейный бизнес и сегодня не получили должной классификации в данном контексте.

Важно также отметить, что развитие семейного бизнеса на освобождённых от оккупации территориях нашей страны обладает прекрасными возможностями и сегодня руководство страны расширяет возможности развития семейного бизнеса, путем принятия соответствующей нормативно-правовой базы (Cavadov, 2017).

Так, на первоначальном этапе развития семейного бизнеса указом главы государства был подписан нормативный документ «О дополнительных мерах в сфере обеспечения самозанятости населения». В рамках данной программы были предусмотрены поэтапное изменения социальной адресной помощи на непосредственное создание рабочих мест в сфере развития различных видов бизнеса, в том числе и в сфере семейного предпринимательства. Хотя несмотря на то, что данная сфера деятельности является очень емкой и для выполнения которой требуется определенное время, обычно от 3 до 7 лет, важно отметить, что в рамках данной программы было предусмотрено выделять каждому самозанятому до пяти тысяч манат, на его индивидуальную предпринимательскую деятельность, но последующие исследования в данной сфере показали, что в будущем для более успешного и рентабельного построения СБ требуется сумма в два-три раза большее ранее предусмотренной (Əhmədov və Hüseynov, 2019).

Так, в рамках развития семейного бизнеса на освобождённых от оккупации территориях нашей страны в рамках помощи со стороны руководства нашей страны за последние несколько лет выделены финансовые средства для следующих направлений развития данного вида предпринимательства:

1. тренинги и обучение членов семьи и наемных работников;
2. развитие цифровых услуг только предприятий семейного типа;
3. навыки развития электронной торговли;
4. семейный бизнес в сфере услуг (Əhmədov, 2009).

Одной из важных задач, требуемых для развития семейного бизнеса на освобождённых от оккупации территориях нашей страны, является активизация инвестиционной деятельности семейных предприятий и расширение возможностей для привлечения финансовых ресурсов в этот сектор (Cavadov, 2017).

Основным источником финансирования для семейного бизнеса является государственный бюджет, кредитные ресурсы коммерческих банков, кредитные линии, органов отвечающих за развитие различных форм предпринимательской деятельности. В Азербайджане созданы два механизма государственной финансовой помощи бизнесу. Первым механизмом является предоставление ссуд фермерам в форме субсидий. Второй механизм - инвестирование в семейное предпринимательство. На эти цели из государственного бюджета выделяются средства. Эти средства ориентированы на инвестиционные проекты в приоритетных областях предпринимательства в виде льготного долгосрочного кредита. Однако трудности в вопросе предпринимательской деятельности в стране в сфере кредитования производства не позволяют семейным предпринимателям в полной мере использовать эти источники финансирования (Əhmədov, 2009).

В последнее время в нашей стране все чаще говорят о необходимости развития малого и среднего предпринимательства, и прекрасной возможностью для этого могла бы стать поддержка семейного бизнеса. Именно по этой причине в Азербайджане в последние годы активно развивается данный вид бизнеса, и он поддерживается со стороны государства (Əbdurrəhmanov, 2006).

Важной вехой на этом пути стали разработка и утверждение президентом Азербайджана программы развития семейного бизнеса. Благодаря ее реализации получило развитие правовая база этого бизнеса, существенно изменилось регулирование предпринимательства. Стали активнее работать структуры, оказывающие образовательные, информационные и консультационные услуги. Приняты

меры по защите прав и законных интересов предпринимателей (https://www.trend.az/business/economy/3183656.html).

Параллельное развитие субъектов семейного, малого, среднего и крупного бизнеса важно для достижения макроэкономических целей в то время, когда происходиткомбинация экономических областей. При таких обстоятельствах можно производить конкурентоспособную продукцию на рынке, обеспечивать потребителей товарами и услугами, пропорционально распределять экономические ресурсы и пропагандировать специфическую роль различных типов субъектов рынка. В последние годы также наблюдается беспрецедентный рост числа частных и малых предприятий в мире в тех областях, где не требуется большое количество капитала, технического оборудования и большого количества работников. Это также проявляется в более сложных областях и в производстве потребительских товаров. Индивидуальное предпринимательство является основной движущей силой развития личного предпринимательства. Хотя этот тип бизнеса является видом семейного бизнеса, в целом его вес в экономике всегда рассматривается отдельно. Индивидуальное предпринимательство также включает самостоятельную экономическую деятельность (Ларри, 2015).

Для пресечения незаконных вмешательств в их деятельность и устранения необоснованных проверок началось применение контрольных книг. Расширились деятельность региональных структур семейного бизнеса и связи с национальными организациями иностранных государств в сфере развития семейного бизнеса. Такая реформа, направленная на развитие частных видов коммерческой деятельности, способствовали росту доли негосударственного сектора в общем объеме ВВП до 78% в 2019 г. по сравнению с 49% в 2015 г.; в промышленности эта доля увеличилась до 64% (против 32,1 % в 2015 г.), сельском хозяйстве – 98% (соответственно 67%), инвестициях - 52 (39%), на пассажирском транспорте – 85,6 (64,3%), в торговле – 98 (83%), образовании - 20, здравоохранении – 38% и 79% – на предприятиях коммунального обслуживания. (https://www.stat.gov.az/source/entrepreneurship/)

Хотелось бы также отметить, в 2020 году вновь созданные семейные предприятия, действующие на территории нашей страны, были в основном зарегистрированы на территории Баку и апшеронского

луострова (15,3%), а также в Гянджа-Дашкесанком экономическом районе (4,5%) что наглядно показано на рисунке 1.

Рисунок 1: Региональное распределение вновь созданных семейных предприятий в АР




**Источник:** Государственный Комитет Статистики Азербайджанской Республики, www.stat.gov.az (29.05.2022)

Так в рамках расширения развития семейного бизнеса указом Президента Азербайджанской Республики от 23 сентября 2016-го было создано публичное юридическое лицо «ABAD» при Государственном Агентстве по оказанию услуг и социальных инновация населению «ASAN», с целью активного участия населения в социально-экономическом развитии страны (https://www.trend.az).

Так, по данным Государственного Комитета Статистики АР, сегодня в нашей стране среднее количество людей, занятых в семейном бизнесе составляет около шести человек, что по сравнению с 2016 годом, в два раза больше. За тот же период доход на душу населения в семейном бизнесе составил 322,5 манат и по сравнению с 2016 годом данный показатель увеличился в 4 раза. Целью создания «ABAD» является повсеместная поддержка семейных хозяйств, начиная с этапа составления бизнес-плана и заканчивая реализацией продукции. Нужно также отметить, отметить, что публичное юридическое лицо «ABAD» за 5 с лишним лет деятельности помогла создать более 500 гражданам свой семейным бизнес, что является не плохим началом в сфере развития СБ при поддержке государства (https://www.trend.az).

**Выводы**

Анализ показывает, что условия, созданные для семейного бизнеса на освобождённых от оккупации территориях нашей страны благодаря политической и макроэкономической стабильности для ускоренного развития, использованы не полностью, и число занимающихся предпринимательской деятельностью ниже имеющихся возможностей. В этом секторе пока слабо развиваются важные со стратегической точки зрения направления, обладающие потенциалом формирования структур.

Недостаточно влияние семейного бизнеса на развитие экспортного потенциала и структуры экспорта. Не соответствует возможностям и региональное развитие семейного бизнеса, более половины предприятий этого сектора сконцентрированы в Баку и его окрестностях. Поэтому для того чтобы улучшить положение в данной сфере развития бизнеса, требуется более широкая поддержка посредством привлечения как внутренних, так и внешних инвестиций, расширение просветительской работы в данной сфере и т.п.

**Источники литературы**


1. Bağırzadə E.A. (2019), Azərbaycan iqtisadiyyatının inkişaf prespektivləri. Bakı, Qanun, 344 səh.
2. Cavadov A.İ. (2017), İqtisadi inkişaf sisteminde ailə biznesinin rolu. Bakı, Qanun, 452 səh.
3. Əhmədov M.A., Hüseynov A.C. (2019), Ailə biznesi və onun idarə edilməsi. Bakı, Şərq və Qərq, 312 səh.
4. Hüseynova X.M. (2018), Azərbaycanda ailə biznesinin qurulmasında mövcud problemlər. Bakı, Azərnəşr, 388 səh.
5. Əhmədov S.A. (2016), Ailə biznesinin qurulmasında dünya təcrübəsi. Bakı, 247 səh.
6. Əbdurrəhmanov S.Ə. (2006), "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın maliyyə mənbələrindən istifadə imkanlarının gücləndirilməsi" EA xəbərləri, "Iqtisadiyyat" seriyası, Bakı, 124 səh.
7. İbrahimov İ.X., (2014) Sahibkarlıq fəaliyyətinin iqtisadi və hüquqimexanizmi, Bakı, Elm, 237 səh.
8. Ларри К. (2015), Семейный бизнес. От конфликтов к успеху. Практическое руководство по управлению семейным предприятием, Москва, Манн, Иванов и Фербер, 315 стр
9. https://stat.gov.az/ - Официальный сайт Государственного Статистического Комитета АР
10. www.trend.az - новостной информационный портал

# MÜƏSSİSƏLƏRDƏ MƏNFƏƏTİN BÖLÜŞDÜRÜLMƏSİ ÜZRƏ MÜASİR KONSEPSİYALARIN TƏTBİQİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Rauf Allahyarov**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),**

**allahyarovrauf50@gmail.com**

## Xülasə

Müxtəlif müəssisələr ümumi missiyalarında mənfəətin yerini fərqli şəkildə ifadə edirlər. Hazırki dövrdə müəssisələrin fəaliyyətində mənfəətin bölüşdürülməsi üzrə müasir konsepsiyaların tətbiqi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi vacibdir. Baxmayaraq ki, iqtisadçılar tez-tez müəssisənin bazara daxil olub-olmaması barədə qərar vermək üçün uzunmüddətli iqtisadi mənfəəti nəzərə alırlar lakin mühasibat uçotunda mənfəətin bölüşdürülməsi və onun prinsipləri arasımdakı fərqləri araşdırmaq əhəmiyyətlidir. Bundan əlavə məqalədə müəssisənin balans mənfəətinin (zərəri) bölüşdürülməsi prosesi, mənfəət və zərər (M&Z) hesabatı və bu hesabatın növü olan nağd pul metodu və hesablama metodunun tətbiqi xüsusiyyətləri nəzərdən keçirilmişdir. Mənfəətin məqsədinin aydınlaşdırmaq üçün onun hədəf dərəcəsinin müəyyən edilməsi zamanı istifadə olunan əsas meyarlar təhlil edilmişdir. Məlumdur ki, müəssisələr mənfəətin bölüşdürülməsi zamanı səhmlər, dividendlər, istiqraz və veksel kimi maliyyə vasitələrindən və qiymətli kağızlardan istifadə edirlər. Bu baxımdan, səhm kapitalının bölüşdürülməsi yolları, səhmlərin və dividendlərin növləri, istiqraz və veksel bölüşdürülməsi üzrə meydana çıxan fərqli cəhətlər araşdırılmışdır. İstiqrazların emitent və gəlirliyə görə növlərinin bölüşdürülməsi və onun müəssisələrdə tətbiqi istiqamətləri təhlil edilmişdir.
**Açar sözlər:** mənfəətin bölüşdürülməsi, mühasibat uçotu, maliyyə hesabatı, büdcə vəsaiti, rəqabətqabiliyyətlilik

# DİRECTİONS FOR THE APPLİCATİON AND IMPROVEMENT OF MODERN CONCEPTS OF PROFİT DİSTRİBUTİON İN ENTERPRİSES

## Abstract

Different companies place the profit in their general missions differently. At present, it is significant to identify areas for the application and improvement of modern concepts of profit distribution in the activities of enterprises. Although economists often consider long-term economic benefits to decide whether an enterprise should enter the market, it is important to examine the differences between the distribution of profits and its principles in accounting. In addition, the article discusses the process of distributing the balance sheet profit (loss) of the enterprise, the profit and loss (P&L) statement, and the features of the cash method and the calculation method, which is a type of this statement. The main criteria used in determining the target rate of profit are analyzed to clarify the purpose of the profit. It is well-known that enterprises use financial instruments and securities such as stocks, dividends, bonds, and promissory notes when distributing profits. In this regard, the ways of distribution of share capital, types of shares and dividends, differences in the distribution of bonds, and promissory notes have been studied. Bonds distribution according to the types of issuer and profitability and the directions of its application in enterprises have been analyzed.
**Keywords:** profit distribution, accounting, financial reporting, budget, competitiveness

## Giriş

Tədqiqatın məqsədi müəssisələrdə mənfəətin bölüşdürülməsi üzrə müasir konsepsiyaların tətbiqini nəzərdən keçirərək, mövcud konspesiyaların elmi-metodoloji cəhətdən dəyərləndirmək və təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməkdir. Mənfəət əsasən biznes fəaliyyətindən əldə edilən gəlirdir hansı ki, sözügedən fəaliyyətin davam etdirilməsi ilə bağlı xərclər, məsrəflər və vergilərdən artıq olduqda həyata keçirilən maliyyə səmərəsini təsvir edir. Mənfəət əldə etmək hər bir müəssisə üçün vacibdir, çünki gəlirlilik müəssisənin bankdan maliyyə təmin edib-etməməsinə, öz əməliyyatlarını maliyyələşdirmək və biznesini inkişaf etdirmək üçün investorları cəlb edib-etməməsinə təsir göstərir. Mənfəətlə yanaşı, biznes sahibinin kredit hesabının idarəsi və kredit üçün girov vermə qərarlarında müəyyənedici amillərdir. Mənfəət əldə edə bilməyən bir müəssisə adətən borc verən tərəfindən defolt riski vəziyyətində olduğu qəbul edilir.

Tədqiqatın vəzifəsi müəssisələr üçün ən səmərəli mənfəətin bölüşdürülməsi konsepsiyalarının həmin müəssisələrin həyata keçirdiyi fəaliyyətlərə uyğunluğunu müəyyən etməkdir.
Tədqiqatın metodologiyasını iqtisadi təhlil təşkil edir hansı ki, əsasən xərclərin və mənfəətin qiymətləndirilməsini nəzərdə tutur. O, resursların daha yaxşı bölüşdürülməsinə kömək etmək üçün iqtisadi səmərəliliyə əsaslanaraq sıralamaqla başlayır. Tədqiqatda tətbiq olunan digər müqayisəli statistik təhlil metodu nümunələri və meylləri aşkar etmək üçün məlumatların toplanması və şərh edilməsidir. O, məlumat analitikasının tərkib hissəsidir. Bu baxımdan, müəsissənin fəaliyyətinin səmərəliliyini, onun rəqabət qabiliyyətini və davamlılıq imkanlarını obyektiv qiymətləndirmək üçün gəlirlilik əmsallarının hesablanması və qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, maliyyə ilinin gəlirlilik əmsalları ilə əvvəlki maliyyə illərinin, digər oxşar müəssisələrin gəlirlilik əmsalları və sənaye sahələrinin orta gəlirlilik göstəriciləri müqayisə edilərkən istənilən nəticə əldə edilir.
Bu məqsədə nail olmaq üçün nəzəri-təsviri metodologiyadan istifadə edərək, ilk növbədə, son dövrlərdən bu günə qədər bu sahədə müvafiq ədəbiyyatda tətbiq edilmiş mənfəət və ya zərərlə bağlı müxtəlif yanaşmalar və ya nəzəriyyələr nəzərdən keçirilmişdir. Bəzi analitiklər yüksək mənfəətin, digərləri isə vergilərdən və digər xərclərdən əvvəlki mənfəətin araşdırılmasına üstünlük verirlər. Digərləri isə yalnız bütün xərclər ödənildikdən sonra müəssisəyə qalan mənfəətin araşdırılması ilə məşğul olurlar.
Bəzi iqtisadçılar mənfəəti funksional mükafat hesab edirlər. Onların fikrincə, mənfəət sahibkar üçün sahibkarlıq funksiyalarına görə əldə edilən maliyyə vəsaitidir. Lakin bir sıra iqtsadçılar bu fikirlə razı deyillər onlar istehsal amillərinin təşkili və əlaqələndirilməsini sahibkarın əsas funksiyası hesab edirlər.
Tədqiqatın elmi yeniliyi və aktuallığı müəsisələrdə mənfəətin bölüşdürülməsi siyasətinin təkmilləşdirilməsi və əsaslı islahatlar aparmaqla onun maliyyə hesabatlarının beynəlxalq standartların tələblərinə uyğunlaşdırılmasıdır.
Tədqiqatın məhdudiyyəti mövcud statistik məlumatların əldə edilməsi zamanı qarşıya çıxan resursların kifayət etməməsi kimi çətinliklər və fərqli dövlətlərin müəssisələrinin təhlili zamanı yaranan dövlət statistik mənbələrinə giriş imkanının kifayət qədər geniş olmamasıdır.

**Mənfəətin İqtisadi Cəhətdən Təhlili**
Cəfərlinin (2009, s.164) izahına əsasən iqtisadi mənada mənfəət, iqtisadiyyatda qeyri-müəyyənliklərlə üzləşən fərdlərin ehtiyaclarına xidmət etmək üçün bütün istehsal amillərini birləşdirərək sahibkar tərəfindən əldə edilən gəlir kimi müəyyən edilir. İqtisadi mənfəət ümumi pul gəliri ilə ümumi məsrəflər arasındakı fərqdir, lakin ümumi məsrəflərə həm açıq, həm də gizli xərclər daxildir. İqtisadi mənfəət mühasibat mənfəətindən daha uzun müddətə hesablanır. İqtisadçılar tez-tez müəssisənin bazara daxil olub-olmaması barədə qərar vermək üçün uzunmüddətli iqtisadi mənfəəti nəzərə alırlar.
Mühasibat uçotunda mənfəət bütün ödənilən gəlirdən artıq qalan hissə deməkdir. Mühasibat mənfəəti təşkilatın vergi tutulan gəlirini müəyyən etmək və maliyyə sabitliyini qiymətləndirmək üçün istifadə olunur. Mühasibat mənfəəti ümumi pul gəliri ilə ümumi pul xərcləri arasındakı fərqdir və ümumi qəbul edilmiş mühasibat uçotu prinsiplərindən (ÜMUP) istifadə etməklə hesablanır (Abbasov, 2015, s.79-80). Başqa sözlə, mühasibat mənfəəti mühasibat xərcləri ilə eyni prinsip üzrə faəliyyət göstərir və müəssisənin balansındakı kredit və debetlərdən ibarətdir.
Balagir və Kastellanonun (2012, s.30-36) tədqiqatında qeyd edildiyi kimi, iqtisadi mənfəət ümumi gəlirdən açıq və gizli xərcləri çıxılmaqla alınan nəticəyə bərabərdir. Bunun əksinə olaraq, mühasibat mənfəəti ümumi gəlirlə açıq xərclər arasındakı fərqdir. İqtisadi mənfəət müsbət, sıfır və ya mənfi ola bilər. İqtisadi mənfəət müsbət olarsa, digər müəssisələr bazara daxil olmaqda maraqlıdırlar. Mənfəət sıfırdırsa, digər müəssisələrin daxil olmaq və ya çıxmaq üçün heç bir marağı yoxdur. İqtisadi mənfəət sıfır olduqda,

müəssisə öz resurslarını növbəti ən yaxşı alternativdə istifadə olunması istiqamətində çalışır. İqtisadi mənfəət mənfi olarsa, müəssisələr bazarı tərk etmək istiqamətindədirlər. Müəssisənin əldə etdiyi iqtisadi mənfəətin miqdarı əsasən bazar rəqabətinin dərəcəsindən və nəzərdən keçirilən vaxtdan asılıdır.
Çox müəssisənin olduğu və heç bir müəssisənin əmtəə və ya xidmətin qiymətinə təsir göstərə bilmədiyi rəqabətli bazarlarda iqtisadi mənfəət qısa və uzunmüddətli dövrdə fərqlənə bilər. Qısa müddətdə müəssisə iqtisadi mənfəət əldə edə bilər. Bununla belə, iqtisadi mənfəət varsa, digər müəssisələrdə bazara daxil olmaq istəyəcəklər. Bazarda giriş üçün heç bir maneə yoxdursa, yeni müəssisələr daxil olacaq, bu isə əmtəə təklifini artıracaq və qiyməti aşağı salacaqdır. Qiymətin bu formada azalması müəssisənin gəlirinin azalmasına da səbəb olur, buna görə də uzunmüddətli dövrdə iqtisadi mənfəət sıfıra bərabərdir (Fernando, 2022).

**Müəssisənin Balans Mənfəətinin (Zərəri) Bölüşdürülməsi Prosesi**

Müəssisənin balans mənfəəti (zərəri) mühasibat uçotu əsasında təsərrüfat əməliyyatlarının qiymətləndirilməsinin sonuncu maliyyə nəticəsi kimi məhsulların əsas vəsaitlərin və başqa əmlakların, satışından olan mənfəəti (zərəri), həmçinin qeyri-satış əməliyyatlarından əldə edilən gəlirləri özündə cəmləşdirir (Ataşov, Novruzov, İbrahimov, 2009, s.123-128).
Zeynalovun (2010, s.156-161) qeyd etdiyi kimi, hesabat ili ərzində müəssisənin mənfəəti toplanır və onun bölüşdürülməsi ilin sonunda icra olunur. Hesab dövrünün balans mənfəəti (zərəri) və onun istifadə olunması balansda ayrıca əks etdirilir. Balansın passivində maliyyə – təsərrüfat fəaliyyətindən əldə olunan mənfəət və onun avans olaraq istifadəsi, bölüşdürülməmiş mənfəət, aktivində isə faktiki alınmış zərər göstərilir. Balansın yekununa hesabat ilinin və keçmiş illərin ödənilməmiş zərəri və ya bölüşdürülməmiş mənfəəti daxil edilir. Müəssisənin hesabat ili ərzində əldə etdiyi mənfəət toplanan bölüşdürülməmiş mənfəət kimi artan yekunla balansda əks olunur. Onun bölüşdürülməsi ancaq ilin sonunda balans tərtib olunarkən yerinə yetirilir. Lakin, il ərzində alınmış mənfəətdən vergi kimi büdcəyə ödənişlər və xüsusi təyinatlı fondlara ayrımalar aparılır. Mənfəətin bölüşdürülməsi mövcüd olan normativ qanunverici aktlar və təsis sənədlər əsasında tənzimlənir.

Ə.Sadıqovun (2010, s.95-100) izahına əsasən mənfəətin bölüşdürülməsi və uçotu faydasını hər bir müəssisənin özü sərbəst müəyyən edir. Ümumiyyətlə, kiçik müəssisələrdə xüsusi fondların yaradılması tələb olunmadığından bu bir o qədər də vacib sayılmır. Belə halda müəssisənin bölüşdürülməmiş mənfəəti nizamnamə kapitalından sonra müəssisənin xüsusi kapitalı hesab olunur. Hesabat ilinin sonunda "Mənfəət və zərər" hesabında aşkar edilmiş xalis mənfəət bu hesabın debetində və "Bölüşdürülməmiş mənfəət" (ödənilməmiş ziyan) hesabının kreditində əks etdirilir:
Dt- "Mənfəət və zərər"
Kt- "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş ziyan)
Müəssisənin mənfəət və zərərləri ortaqlar arasında razılaşdırılmış nisbətdə bölüşdürülür. Bununla belə, ortaqlıq sənədi stabil olarsa, ortaqlıq müəsissəsinin qazanc və itkiləri bütün tərəfdaşlar tərəfindən bərabər şəkildə bölüşdürülməlidir.
Mənfəət və Zərər (M&Z) Hesabatı
Marilena və Tintanın (2012, s.384-386) təhlilində mənfəət və zərər (M&Z) hesabatı termini müəyyən bir dövr ərzində, adətən rüb və ya maliyyə ili ərzində çəkilmiş gəlirləri, xərcləri və onları ümumiləşdirən maliyyə hesabatını əhatə edir. Bu qeydlər müəssisənin gəlirini artırmaq, xərclərini azaltmaq və ya hər

ikisinin həyata keçirilməsi ilə mənfəət əldə etmək qabiliyyəti və ya qeyri-mümkünlüyü haqqında məlumat verir.

Mənfəət və Zərər (M&Z) hesabatlarının növləri M&Z bəyanatında qeyd olunduğu kimi iki üsuldan biri ilə hazırlana bilər. Bunlar nağd pul və hesablama metodudur.

- Nağd pul metodu

Pul vəsaitlərinin uçotu metodu da adlandırılan nağd pul metodu yalnız nağd pulun müəssisəyə daxil olub-olmaması zamanı istifadə olunur. Bu, yalnız alınan və ya ödənilən nağd pulu hesaba alan çox sadə üsuldur. Müəssisə nağd pul alındıqda əməliyyatları gəlir kimi, nağd pul hər hansı veksellərin və ya istiqrazların ödənilməsi üçün istifadə edildikdə isə öhdəlik kimi qeyd edir. Bu üsuldan adətən kiçik sahibkarlar, öz şəxsi şirkətlərinin maliyyələrini idarə etmək üçün istifadə edirlər (Reyder və Heyler 2003, s.151-152).

Nağd pul metoduna əsasən, gəlir faktiki ödəniş alınana qədər, xərclər isə faktiki ödənilənə qədər hesablanmır. Nağd pul metodu kiçik müəssisələr tərəfindən daha çox istifadə edilən uçot metodudur. Nağd pul metodu nağd pulun qəbulu və ya ödənilməsi zamanı gəlir və xərcləri tanıyan əsas mühasibat metoduna istinad edir. Bu, gəlirin əldə edildiyi anda gəliri tanıyan və nağd pulun nə vaxt qəbul edildiyi və ya ödənilməsindən asılı olmayaraq öhdəliklər yarandıqda xərcləri qeyd edən hesablama uçotu ilə ziddiyyət təşkil edir.

Gibson (2009, s.33-34) öz araşdırmasında vurğulayır ki, əməliyyatlar nağd qaydada qeydə alındıqda, mübadilə zamanı şirkətin kitablarına təsir göstərir; buna görə də, nağd vəsaitləri əsasında uçot qısa müddətdə aparıldığı üçün hesablama uçotundan daha az dəqiqdir. Beynəlxaq səviyyədə 1986-ci il Vergi İslahatı Aktı nağd əsaslı uçot metodunun C korporasiyaları, bir sıra vergi hesablama müəssisələri və C Korporasiyasının tərəfdaşları olan tərəfdaşlıqlar üçün istifadə edilməsini qadağan edir.

- Hesablama metodu

Cəfərovun (2010, s.113-116) təhlilinə görə hesablama uçotu metodu gəliri əldə edildiyi kimi qeyd edir. Bu o deməkdir ki, hesablama metodundan istifadə edən müəssisə gələcəkdə almağı gözlədiyi pulu uçota alır. Məsələn, müştərisinə məhsul və ya xidmət təqdim edən müəssisə, hələ ödəniş almamış olsa da, gəliri öz M&Z hesabatında qeyd edir. Eynilə, öhdəliklər müəssisənin hələ heç bir xərci olmadığı halda da uçota alınır.

Hesablama mühasibat uçotu, müəssisəyə satılan mal və ya xidmətlər üçün ödəniş almadan və ya xərclər müəssisə onların haqqını ödəməzdən əvvəl çəkilmiş kimi qeydə alınmazdan əvvəl gəlirləri qeyd etməyə imkan verən maliyyə uçotu üsuludur (Özbek və Badem, 2020, s.282-283). Başqa sözlə, nağd əməliyyatların nə vaxt baş verməsindən asılı olmayaraq, əldə edilmiş gəlir şirkətin mühasibat uçotu kitablarında tanınır. Hesablama uçotunun ümumi konsepsiyası ondan ibarətdir ki, iqtisadi hadisələr ödəniş edildiyi və ya alındığı zaman deyil, əməliyyatın baş verdiyi vaxtda gəlirlərin xərclərə uyğunlaşdırılması (uyğunluq prinsipi) ilə tanınır. Bu üsul, müəssisənin cari maliyyə vəziyyəti haqqında daha dəqiq təsəvvür yaratmaq üçün cari pul vəsaitlərinin daxilolmaları və ya xaric edilməsini gələcək gözlənilən pul vəsaitlərinin daxilolmaları və ya xaricləri ilə birləşdirməyə imkan verir (Teraxova, 2008, s.127-129).

Hesablama uçotu çox kiçik müəssisələr və fiziki şəxslər istisna olmaqla, əksər müəssisələr üçün standart mühasibat təcrübəsi hesab olunur. Buna baxmayaraq, Daxili Gəlir Xidməti (DGX) kiçik bizneslərə üstünlük verdiyi metodu seçməyə imkan verir.

Mənfəət Siyasətinin Məqsədləri

Mənfəət əldə etmək, şübhəsiz ki, zəruridir. Adekvat mənfəətlə yanaşı, müəssisə çoxsaylı və hətta ziddiyyətli məqsədlər güdür. Əgər müəssisə kifayət qədər mənfəət əldə edərsə, yüksək dividendlər və cəlbedici maaşlar

verə bilər və s. Müəsisə investisiya kimi mənfəət üçün hədəf dərəcəsi təyin edə bilər. Hornqren (2006, s.41-43) mənfəətin hədəf dərəcəsinin müəyyən edilməsində əsas meyarları qeyd etmişdir:

- ✓ Rəqabətli mənfəət dərəcəsi
- ✓ Tarixi mənfəət dərəcəsi
- ✓ Kapitalı qorumaq üçün kifayət qədər mənfəət dərəcəsi
- ✓ Mənfəət nisbətinin geri qaytarılması

Rəqabətli mənfəət dərəcəsi eyni sənayedəki digər müəssisələr və ya oxşar şərtlərdə işləyən digər sənayelərdə seçilmiş müəssisələr tərəfindən qazanılan nisbətdir. Digər müəssisələrin mənfəət nisbətindən bir qədər fərqli ola bilər.

Mənfəətin tarixi dərəcəsi normal dövrlərdə keçmiş qazancların əsası kimi müəyyən edilən mənfəət dərəcəsidir. Məzənnələr kapitalı cəlb etmək üçün kifayət qədər olmalıdır, səhmdarlara adekvat dividend təmin etməli və çox rəqabəti təşviq etməməlidir. Ənənəvi mühasibat uçotu gözlənilən mənfəətdən daha çox tarixi mənfəətlə bağlıdır. İqtisadçılar ənənəvi üsullarla razılaşmırlar və şərtlərini funksional olaraq müəyyən edirlər. İdarəetmə nöqteyi-nəzərindən iqtisadi mənfəət biznesin rentabelliyini daha yaxşı əks etdirir. İqtisadçılar çox vaxt əsasən mənfəətin nəzəri təhlili ilə maraqlanırlar (Kaplinska və Tvaronavicin, 2020, s. 2542-2543).

Kapitalı qorumaq üçün kifayət qədər mənfəət dərəcəsi kapitalı cəlb etmək üçün kifayət qədər olan nisbətdir və bu halda sərmayənin gəlirliliyi mövcud səhmdarların maraqlarını qorumalıdır. Mənfəəti gecikdirmək mənfəət nisbətinin geri qaytarılması zamanı yaranan çətinlikdir. Hansı ki, sənayenin daha da inkişafını maliyyələşdirmək üçün dividendləri ödədikdən sonra qalan mənfəətin düzgün bölüşdürülməsini təmin etməlidir (Andon, Fatacen, Mintean, Petrik, 2017, s. 555-557).

Tamuleviçiyen və Makevicis (2019, s.1341-1344) əsas mənfəətin bölüşdürülməsi zamanı operativ təşkilati məqsədləri təmsil edən üç məqsədə diqqət yetirib.

- ❖ İstehsal məqsədi- istehsal üzrə mənfəətin bölüçdürülməsi;
- ❖ İnventar məqsədi-alınan və satılan məhsulların qeydiyyatı;
- ❖ Satış məqsədi-istehsaldan sonrakı satışdan əldə edilən mənfəətin bölüşdürülməsi.

Mənfəət üzrə Dividendlərin Bölüşdürülməsi

Akdoğan və Sultanoğlu (2018, s.642-644) qedy edir ki, səhmdar cəmiyyətlərində və MMC-də səhmdarlara və təsisçilərə mülkiyyətdən gəlir dividendlər şəklində ödənilir. Dividend səhmdar cəmiyyətinin xalis mənfəətinin bir hissəsi olub səhmlər əsasında və yaxud nizamnamə kapitalındakı paya əsasən proporsional qaydada səhmdarlar və təsisçilər arasında bölüşdürülür. Dividendin həcmi səhmin nominal dəyərinə münasibətdə faizlə müəyyən edilir və birbaşa müəssisənin aid olduğu ölkənin valyutasına əsasən elan olunur. Təsisçilərin illik gəlirlərinin (adi səhmlər üzrə dividendlər) həcmi təsisçilərin (səhmdarların) yığıncağı vasitəsilə müəyyənləşdirilir.

Dividend pul vəsaitlərinin və ya səhmlərin bir müəssisədə səhmdarlar sinfinə paylanmasıdır. Tipik olaraq, dividendlər müəssisələrin bölüşdürülməmiş mənfəətindən götürülür; lakin mənfi bölüşdürülməmiş gəlirlə dividendlərin verilməsi hələ də mümkündür. Dividendlər müəssisənin sabit pul vəsaitlərinin hərəkətinə malikdir və mənfəət əldə etmək vasitəsi kimi investorları təkrarlanan gəlirlər də təmin edə bilər.

Dividendlərin ödənilməsi də müəssisənin daxili dəyəri haqqında məlumat verməyə kömək edə bilər (Gibson, 2009, s.73).

Sxem 1: Dividend növləri




**Mənbə:** Müəllif tərəfindən Karlson (2010) . "Böyük Dividendlər" kitabı əsasında tərtib edilib.

Karlson (2010, s.25-37) araşdırmasına əsasən aşağıdakı dividend növləri və onların elmi izahı verilmişdir:

- ✓ *Nağd dividendlər.* Ən çox yayılmış dividend növüdür. Müəssisələr ümumiyyətlə, dividendin bu formasını nağd şəkildə birbaşa səhmdarın broker hesabına ödəyir. Nağd dividend müəssisə tərəfindən öz qazancından investorlara nağd pul (çek və ya elektron köçürmə) şəklində edilən ödənişdir. Bu, məbləğ əməliyyatlar üçün istifadə edilmək əvəzinə müəssisədən səhmdarlara iqtisadi dəyər formasında köçürülür. Bununla belə, bu vəziyyət müəssisənin səhm qiymətinin təqribən dividendlə eyni məbləğdə düşməsinə səbəb olur.
- ✓ *Səhm dividendləri.* Müəssisələr tərəfindən sərvətlərini səhmdarlar arasında bölüşdürmək üçün istifadə edilən üsul, nağd pul formasında olmayan, səhmlər şəklində həyata keçirilən dividend ödənişidir. Səhm dividendləri, ilk növbədə, müəssisənin əlində likvid nağd pul az olduqda nağd dividendlər əvəzinə verilir. Müəssisələr nağd pul ödəmək əvəzinə investorlara əlavə səhm payları ilə də ödəniş edə bilərlər. Direktorlar şurası (səhm) dividendinin nə vaxt elan ediləcəyinə və dividendlərin hansı formada ödəniləcəyinə qərar verir.

✓ *Dividendlərin yenidən investisiya proqramları (DYİP).* DYİP-lərə sərmayəçilər əldə etdikləri dividendləri çox vaxt endirimlə müəssisənin səhmlərinə yenidən investisiya edə bilərlər. Dividendlərin təkrar investisiya planı (DYİP) investorlara bir sıra üstünlüklər təklif edir. İnvestor sadəcə olaraq cari səhm sahiblərinə dividend ödənişlərindən hər hansı əlavə vəsait əlavə etməyə üstünlük verirsə, dividendlərin yenidən investisiyası bu prosesi asanlaşdırır (dividend ödənişini nağd şəkildə almaq və sonra əlavə səhmlərin alınması üçün nağd puldan istifadə etməkdən fərqli olaraq). Müəssisə tərəfindən idarə olunan DYİP-lər adətən komissiyasızdır, çünki onlar brokerdən istifadə edirlər (Piri, Qarqaz, Mirfendreski, Alizade, 2014).

✓ *Xüsusi dividendlər.* Əlavə dividend kimi də adlandırılan xüsusi dividend, müəssisə tərəfindən öz səhmdarlarına paylanan, təkrar olunmayan, "birdəfəlik" dividenddir. O, dividendlərin müntəzəm dövriyyəsindən ayrıdır və adətən müəssisənin tipik dividend ödəyicilərindən kifayət qədər çoxdur. Bu dividendlər müəssisənin adi səhmlərinin bütün səhmləri üzrə ödənilir, lakin müntəzəm dividendlər kimi təkrarlanmır. Müəssisə tez-tez bir neçə il ərzində toplanmış və dərhal ehtiyacı olmayan mənfəəti bölüşdürmək üçün xüsusi dividendlər buraxır.

✓ *Üstünlük verilən dividendlər*. İmtiyazlı səhm sahiblərinə verilən ödəniş növüdür. Üstünlüklü səhm, səhm kimi daha az, daha çox istiqraz kimi fəaliyyət göstərən səhm növüdür. Dividendlər adətən rüblük ödənilir, lakin adi səhm üzrə dividendlərdən fərqli olaraq, imtiyazlı səhmlər üzrə dividendlər ümumiyyətlə sabit olur. Müəssisə istənilən vaxt dividend ödəyir, imtiyazlı səhmdarlar adi səhmdarlar üzərində üstünlük təşkil edirlər, yəni dividendlər adi səhmdarlara ödənilməzdən əvvəl həmişə imtiyazlı səhmdarlara ödənilməlidir. Əgər müəssisə bütün dividendləri ödəyə bilmirsə, imtiyazlı dividendlərə dair iddialar adi səhmlər üzrə dividendlərə dair iddialardan üstün olacaqdır.

**Səhm Kapitalı və Onun Bölüşdürülməsi**

Olson və Ayerin (2007, s.14-16) bildirdiyi kimi, səhm kapitalı müəssisənin imtiyazlı və ya adi səhmlərin buraxılmasından əldə etdiyi puldur. Bir müəssisədə nizamnamə kapitalı və ya kapital maliyyələşdirməsi zamanla dəyişə bilər. Bir müəssisə daha çox kapital artırmaq istədikdə, mövcud və ya yeni səhmdarlara yeni səhmlər buraxmaq üçün icazə ala bilər. Bu, nizamnamə kapitalının artması ilə nəticələnir.

Abbasovun (2015, s.84) izahına əsasən müəssisənin səhmdarları tərəfindən toplanan pul məbləği nizamnamə kapitalı adlanır. Mühasibat uçotunda müəssisənin dövriyyədə olan səhmlərinin ümumi sayının nominal dəyərini əks etdirir. Müəssisələr nizamnamə kapitalının çoxsaylı müxtəlif növlərini açıqlaya bilər. Səlahiyyətli, buraxılmış, çağırılmış, ödənilmiş kapital və s. bu şərtlərə misal ola bilər. Müəssisələr ilkin səhmdarların sahiblik payını azaltmaqla vəsait toplamaq üçün səhmlər buraxırlar. Bir səhmin qiyməti zaman-zaman dəyişə bilər.

Səhm müəssisədə kapital mülkiyyətinin vahidini təmsil edir. Sadə sözlə desək, əgər hər hansı bir şəxs müəssisədə səhmdardırsa, o zaman aldığı səhmlərə nisbətdə emitent müəssisənin sahiblik faizinin də sahibidir. Səhmləri daha iki növə bölmək olar: İmtiyazlı səhmlər və əsas səhmlər(Ataşov, 2016, s.266).

**Sxem 2: İmtiyazlı səhmlərin növlər üzrə təsnifi**

| | |
|---|---|
| **Konvertasiya olunmayan imtiyazlı səhmlər** | • Bunlar kapital səhmlərinə çevrilə bilməyən səhmlərdir. |
| **Konvertasiya edilə bilən imtiyazlı səhmlər** | • Bunlar asanlıqla imtiyazlı səhmlərə çevrilə bilən səhmlərdir. |
| **Alınan imtiyazlı səhmlər** | • Emitent şirkət tərəfindən müəyyən edilmiş məzənnə və tarixlə geri alına bilən səhmlərdir. |
| **Geri alınmayan imtiyazlı səhmlər** | • Emitent şirkət tərəfindən müəyyən bir tarixdə geri alına bilməyən səhmlərdir. |
| **İştirakçı imtiyazlı səhmlər** | • Şirkətin ləğvi zamanı şirkətin əlavə mənfəətinin bir hissəsini tələb etməyə kömək edən səhmlərdir. |
| **İştirak etməyən imtiyazlı səhmlər** | • Səhmdarlara şirkətin əldə etdiyi izafi mənfəətdən dividend əldə etmək üçün əlavə seçim imkanı vermir, lakin onlar şirkət tərəfindən təklif olunan sabit dividendləri alırlar. |
| **Kumulyativ imtiyazlı səhmlər** | • Səhmdarlara heç bir mənfəət əldə etməsələr belə, müəssisə tərəfindən məcmu dividend ödəmək hüququ verən səhm növüdür. |
| **Qeyri-kumulyativ imtiyazlı səhmlər** | • Bu səhmlərə münasibətdə dividendlərin ödənilməsi şirkətin cari ildə əldə etdiyi mənfəətdən həyata keçirilir. |
| **Tənzimlənən imtiyazlı səhmlər** | • Dividend dərəcəsi sabit deyil və cari bazar dərəcələrindən təsirlənən səhm növüdür. |

**Mənbə:** Müəllif tərəfindən Sadıqov,M.M.(2007). Qiymətli Kağızlar Bazarı kitabı əsasında tərtib edilib.

Həmçinin M. Sadıqov (2007, s.14) qeyd edir ki, əsas səhmlər-bunlar adi səhmlər kimi də tanınır və müəyyən bir şirkət tərəfindən buraxılan səhmlərin böyük hissəsini təşkil edir. Səhmlər köçürülə və fond bazarlarında investorlar tərəfindən aktiv şəkildə satıla bilər. Bu zaman səhmdar təkcə şirkət məsələləri üzrə səsvermə hüququ ilə yanaşı, həm də dividend almaq hüququna sahib olur.

Ümumi imtiyazlı səhmlər kimi tanınan imtiyazlı səhmlər, səhmdarlara səhm almadan əvvəl müəssisə tərəfindən elan edilmiş dividendləri almağa imkan verir. Əgər müəssisə öz dividendlərini investorlara ödəməyə qərar veribsə, imtiyazlı səhmdarlar müəssisədən ilk olaraq ödəniş alırlar. İmtiyazlı səhmlər, imtiyazlı səhm kapitalı kimi tanınan müəssisə üçün kapital artırmaq məqsədilə buraxılır. Əgər müəssisə itki ilə üzləşirsə və ləğv edilirsə, son ödənişlər bütün səhmdarlara ödəniş etməzdən əvvəl imtiyazlı səhmdarlara ediləcəkdir (Mühasibat wordpress, 2022).

Adi səhmlər bərabər nominal dəyərlə bölünən və digər səhmlərlə eyni öhdəlik və hüquqlara malik olan ən əsas səhm növləridir. Əsas imtiyazlara dividendlər almaq hüququ və səhmdarların illik ümumi yığıncağında səs verməklə müəssisənin idarə olunmasının bir hissəsi olmaq hüquqları daxildir. Adi səhmdarların dividend almaq hüquqları adətən imtiyazlı səhmdarların və istiqraz sahiblərinin hüquqlarına tabedir. Bir sözlə, bu səhmlərin sahibləri aşağıdakı hüquqlara malikdirlər:

- bərabər dividendlər almaq;
- hər səhmə bir səs vermək;
- müəssisə ləğv edildikdə, gözlənilən borc ödənildikdən sonra qalan aktivləri səhmdarlar arasında bölüşdürülməsi(Ataşov, 2016, s.255-266).

Bakı Fond Birjasının (2022) verdiyi məlumata əsasən səhm kapitalı bölüşdürülməmiş mənfəəti daxil etmədiyi üçün səhmdarların kapitalından fərqlənir: O, yalnız səhm sahiblərinin səhmlərini almaqla müəssisəyə yatırımlarından ibarətdir. Səhm kapitalına müəssisənin adi və ya imtiyazlı səhmlərinin payları müqabilində cəlb etdiyi bütün vəsaitlər daxildir. Bir müəssisənin sahib olduğu nizamnamə kapitalının və ya kapital maliyyələşdirməsinin miqdarı zamanla dəyişə bilər. Daha çox kapital cəlb etmək istəyən müəssisə əlavə səhmlər buraxmaq və satmaq üçün icazə ala bilər və bununla da nizamnamə kapitalını artıra bilər. Səhm buraxmaqla kapitalı artırmaq üçün müəssisəyə səhmləri satmaq icazəsi lazımdır. Müəssisə artırmağı planlaşdırdığı kapitalın miqdarını və səhmlərin nominal dəyərini müəyyən edir. Bir müəssisənin cəlb etməsinə icazə verilən və səhmdarların artıma səs verməsi olmayan pul nizamnamə kapitalını təşkil edir. Bu, müəssisənin səhmlərin sayını deyil, səhmlərin satışı ilə əldə edə biləcəyi pul məbləğini məhdudlaşdırır.

**İstiqraz və Veksel üzrə Mənfəətin Bölüşdürülməsi**

Altay (2018, s.67) elmi araşdırmasında qeyd etdiyi kimi həm istiqrazlar, həm də veksellər maliyyə alətləridir. Bu alətlər pul yığmaq və ya maliyyə vəziyyətinin müəyyən aspektinə nəzarət etmək istəyən təşkilatlar tərəfindən buraxılır. Onlar səhmlərdən daha etibarlı gələcək gəlir mənbəyi ilə maraqlanan və təşkilata borc verməyə hazır olan investorlar tərəfindən alınır.

Bununla birlikdə, Konsler, Lepak və Havranek (2011, s.483-484) veksel və istiqrazlar arasında fərqlərin mövcudluğundan bəhs etmişdir. İstər istiqrazlar, istərsə də veksellər emitentlər tərəfindən qeyri-kapital maliyyələşdirməni artırmaq üçün istifadə olunan borc növləridir. Bu o deməkdir ki, istiqraz və ya veksel sahibi investisiyasını müəyyən şərtlər toplusunda və razılaşdırılmış fasilələrlə ödənilən faizləri geri qaytarmaq hüququna malikdir, lakin istiqraz və ya veksel buraxan borcalan üzərində mülkiyyət iddiası yoxdur.

**Cədvəl 1: İstiqraz və veksel üzrə fərqləndirici amillər**

| İstiqraz | Veksel |
| --- | --- |
| ✓ **Ödəmə müddətləri daha uzun olur (5 ildən çox)**<br>✓ **Rəsmi, möhürlənmiş və təsdiq edilmiş seriyada buraxılır.**<br>✓ **Böyük şirkətlər və korporasiyalar tərəfindən verilir.**<br>✓ **Hökumət istiqrazlar buraxmağa dada çox meyllidir.** | ✓ Ödəmə müddəti qısa olur (5idən azdır)<br>✓ Fərdi qaydada tərtib edilir.<br>✓ Veksellər demək olar ki, həmişə kiçik şirkətlər və təşkilatlar tərəfindən verilir. |

**Mənbə:** UpCouncel. (2022). S Korporasiyalarında Mənfəət Bölüşdürmə, www.upcounsel.com (11.05.2022).

Azərbaycan Respublikası Mərkəzi Bankı (2016) istiqrazların emitent və gəlirliyə görə növlərini qeyd etmişdir. Emitent üzrə növləri: Dövlət, Bələdiyyə, Korporativ və Birja.

- *Dövlət istiqrazı*- razılaşdırılmış faiz dərəcəsi müqabilində hökumətə borc verdiyiniz borc əsaslı investisiya növüdür. Hökumətlər onlardan yeni layihələrə və ya infrastruktura xərclənə biləcək vəsait toplamaq üçün istifadə edir. İnvestorlar isə onlardan müntəzəm olaraq müəyyən edilmiş gəlir əldə etmək üçün istifadə edə bilərlər.
- *Bələdiyyə istiqrazları*-gündəlik öhdəlikləri məsələn məktəblər, magistral yollar və ya kanalizasiya sistemlərinin tikintisi kimi əsaslı layihələri maliyyələşdirmək üçün şəhərlər, regionlar və digər dövlət qurumları tərəfindən buraxılan borc qiymətli kağızlarıdır.
- *Korporativ istiqrazlar*-müxtəlif növ şirkətlər tərəfindən buraxılır. Onlar dövlət tərəfindən dəstəklənən istiqrazlardan daha risklidirlər, ona görə də daha yüksək gəlir dərəcələri təklif edirlər. Onlar nümayəndə bank tərəfindən satılır.
- *Birja istiqrazı*- Bu növ istiqrazlar yalnız birjalar tərəfindən buraxıla bilər və qısa müddət üçün nəzərdə tutulur.

Markzon (2022) istiqrazların gəlirliliyə görə bir sıra diskont, sabit faiz dərəcəli və üzən faiz dərəcəsi növlərinin fəaliyyət prinsiplərini aydınlaşdırmışdır.

- Diskont istiqrazı nominal və ya nominal dəyərindən aşağı qiymətə buraxılan istiqrazdır. Bura həmçinin, kupon dərəcələri bazar faiz dərəcəsindən az olan və buna görə də təkrar bazarda nominal dəyərindən aşağı olan istiqrazlar aiddir.
- Sabit faizli istiqraz bütün müddət ərzində eyni faiz dərəcəsini ödəyən istiqrazdır. İstiqrazın müddəti başa çatdıqdan sonra sahiblər ödənilmiş faizdən əlavə ilkin əsas məbləği geri ala bilirlər.Tipik olaraq, uzunmüddətli sabit faizli istiqrazlar qısamüddətli olanlardan daha yüksək faiz dərəcələri ödəyir. Sabit faiz dərəcəsi emissiya zamanı etibarnamədə göstərilir və istiqrazın müddəti başa çatana qədər müəyyən tarixlərdə ödənilir.
- Üzən faizli istiqrazlar, bazar faiz dərəcəsinə uyğun olaraq dəyişən kupon dərəcəsi ilə müəyyən edilən dəyişkən faizlər verir və investorlara potensial qazanclar təqdim edir. Bir çox üzən faizli istiqrazların rüblük kuponları var, yəni onlar ildə dörd dəfə faiz ödəyir, lakin bəziləri aylıq, yarımillik və ya illik ödəyir.

**Nəticə**

Müəssisələrin mənfəəti sahibkarlar tərəfindən risklərin və qeyri-müəyyənliklərin uğurlu idarə olunmasından asılıdır. Bu risklər əmək haqqı dərəcələrində, bazar qiymətlərində və texnoloji dəyişikliklərdə müşahidə olunur və digər bazar riskləri ilə bağlı xərc risklərində də bunun nəticəsi əks olunur. Müəssisənin əsas məqsədi mənfəətin maksimuma çatdırılması və səmərəli istifadəsinin təşkilidir. Bu zaman həm iqtisadi, həm də mühasibat mənfəəti müəssisənin əldə edə bildiyi gəlirdən xammal, əmək haqqı, inventar, kommunal xidmətlər, marketinq və nəqliyyat xərclərini çıxmaqla qiymətləndirilir. Müəssisələr müxtəlif variantlardan əldə edə biləcəkləri gəlirləri müqayisə etmək istədikdə iqtisadi mənfəətdən istifadə edirlər. İqtisadi mənfəət nəzəri cəhətdən başa düşmək və tətbiq etmək asandır və o, strategiya seçimləri ilə maliyyə göstəriciləri arasında güclü əlaqəni təmin edir.

Əgər müəssisə qazancının böyük hissəsini məhdud sayda müştəri hesablarından, məhsullarından və ya çatdırılma kanallarından əldə edirsə, onlardan yalnız bir neçəsini itirmək onun qazancını itirməsinə səbəb olacaqdır. Bu, müəssisənin xalis gəlir dəyişkənliyini artıracaq və onu mənfəət riski səviyyəsinə salacaq ki, onun xalis gəlirini saxlamağa imkan verməyəcək. Müəssisələrin mənfəət riskini idarə etməyə çalışmasının bir yolu, investorun portfelinin müxtəlifliyini artırmağa cəhd etməklə diversifikasiya strategiyasının tətbiqidir.

Mənfəətin bölüşdürülməsi zamanı dividend ödəməyən müəssisələr bunun əvəzinə bu pulu yeni layihəyə başlamaq, yeni aktivlər əldə etmək, səhmlərinin bir hissəsini geri almaq və ya hətta başqa bir müəssisəni satın almaq üçün istifadə edə bilər. Daha böyük müəssisələr üçün ya səhmlərin geri alınması və ya nağd pulun bölüşdürülməsi yolu ilə mənfəətin bölüşdürülməsi investorları həmin müəssisənin daha çox səhmlərini almağa təşviq edə bilər. Bazar həmçinin dividendlərin ödənilməsini müəssisənin müsbət inkişafının əlaməti kimi qiymətləndirir və investorların inamını artırır.

Mənfəət itkisi dəyərləri ən azı müəssisə daxilindəki hər bir bölmə üçün hazırlanmalı və əsas obyektlərə bölünməlidir. Dəyişən olmayan xərcləri (sabit və davamlı) inkişaf etdirmək nisbətən asandır. Bu dəyərlər oxşar obyektlərə və təlimatlara qarşı birgə işlənə bilər. Mənfəət riskini hesablamaq üçün banklar ümumi məbləği ilk on faizinin əldə etdiyi mənfəəti götürə və onu maliyyə institutunun ümumi xalis gəlirinə bölə bilər. Bu proses zamanı mənfəətin çox kiçik bir faizi bankın gəlirliliyini təmin etdikdə, mənfəət riski davamlı qazanc artımı üçün qeyri-stabil hesab edilir.

**Ədəbiyyatlar**


1. Abbasov, Q.Ə. (2015). Mühasibat uçotu. Dərslik. Bakı: İqtisad Universiteti nəşriyyatı.
2. Akdoğan, N. və Sultanoğlu, B. (2018). Kar Tanımının muhasebe kuramındaki gelişimi ve günümüzde finansal raporlardaki sunumunun karşılaştırmalı olarak incelenmesi. Muhasebe Bilim Dünyası Dergisi, 20, 641-677. https://dergipark.org.tr/tr/download/article-file/635112
3. Altay,E.(2018). Yatırım Teorisi. İstanbul Universitesi: Açık Ve Uzaktan Eğitim Fakültesi. http://auzefkitap.istanbul.edu.tr/
4. Andone, D., Fatacean, G., Minteuan, P., Petric, N. (2017). Financial Equilibrium In The Energy Industry, Annals of Faculty of Economics, University of Oradea, Faculty of Economics, 1(1), 555-562.
5. Ataşov, B. (2016). Maliyyə Bazarlar. Dərslik. Kooperasiya nəşriyyatı.
6. Ataşov, B., Novruzov, N., İbrahimov, E. (2009).Müəssisələrin Maliyyəsi.Dərslik. Bakı:Kooperasiya nəşriyyatı.

7. Azərbaycan Respublikası Mərkəzi Bankı. (2016). Dövlət və bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü Qaydaları. https://www.cbar.az/.
8. Bakı Fond Birjası. (2022). Səhm Bazarı. https://www.bfb.az/az/sehm-bazari.
9. Balaguer, J.İ.G.və C, Castellano, J.P. (2012).The Different Conception of Economic Profit in Cooperatives. Journal of Co-Operative Accounting and Reporting, 1(1), 29-52. https://www.smu.ca/webfiles/2012-1-2-p2.pdf
10. Carlson, B.C. (2010).Big Dividends: Guaranteed Returns. John Willey and Sons Inc.
11. Caplinska, A. and Tvaronaviciene, M. (2020). Creditworthiness place in Credit Theory and methods of its evaluation. Entrepreneurship and Sustainability Issues, 7(3), 2542-2555. DOI: 10.9770/jesi.2020.7.3(72)
12. Cəfərov, A. (2010). Mühasibat uçotu (Köhnə və yeni hesabların müqayisəli təhlili). Bakı: İqtisad Universiteti nəşriyyatı.
13. Cəfərli, H.A. (2009). İqtisadi təhlil. Bakı: Elm və təhsil nəşriyyatı.
14. Consler, J., Lepak, G.M., Havranek, S.F.(2011). Earnings per share versus cash flow per share as predictor of dividends per share.Managerial Finance, 37(5), 482-485. Doi: 10.1108/03074351111126960.
15. Fernando, J. (2022). Profit and Loss Statement. https://www.investopedia.com.
16. Gibson, H.C. (2009), Financial Reporting and Analysis: Using Financial Accounting Information.11th ed. USA: South-Western Cengage Learning.
17. Horngren, C.T.*et al*., (2006). Costs accounting a managerial perspective. Arc Publishing, Craiova.
18. Marilena, Z., Tinta, A. (2012). The profit and loss account-major tool for the analysis of the company's performance. Social and Behavioral Sciences 6 (2), 382-387. https://www.researchgate.net/
19. Muhasibat Wordpress. (2022). Mənfəətin bölüşdürülməsi və istifadə olunmasının uçotu. https://muhasibat.wordpress.com.
20. Ohlson, A.J., Aier, K.J. (2007). On the Analysis of Firms' Cash Flows. New York: CEASA.
21. Özbek, C. Y. ve Badem, A. C. (2020). Muhasebe sistemi uygulama genel tebliği ile finansal raporlama standartlarına uygun hesap planı taslağının kâr veya zarar tablosu hesapları açısından karşılaştırmalı değerlendirilmesi. Muhasebe Bilim Dünyası Dergisi, 22 (Özel Sayı), 271-291. http://dx.doi.org/10.31460/mbdd.646556
22. Piri, P., Gargaz, M., Mirfendresky, T.M., Aalizadeh, A. (2014). The effect of independent auditor's report on profit distribution policy: Evidence from Tehran Stock Exchange. Management Science Letters, 4(1). 1507–1510. http://www.growingscience.com/.
23. Markzone. (2022). İstiqraz (Bond) nədir və xüsusiyyətləri nələrdir. https://markzone.az/
24. Reider, R., Heiler. P.B. (2003). Managing Cash Flow. New Jersey: John Willey&Sons.
25. Sadıqov, Ə, A. (2010). Mühasibat uçotu. Dərslik. Bakı: Təhsil EİM.
26. Sadıqov, M.M. (2007). Qiymətli Kağızlar Bazarı. Bakı:İqtisad Universitetinin Nəşriyyatı.
27. Sadıqov, M.M., Məmmədov.S, M. (2010).Maliyyə. Dərslik. İkinci nəşr.Gəncə: ADAU Nəşriyyat.
28. Tamuleviciene, D. and Mackevicius, J. (2019). Methodology of complex analysis of tangible fixed assets. Journal of Entrepreneurship and Sustainability Issues, 7(2), p.1341-1352. 10.9770/jesi.2019.7.2(38)
29. Terexova, V.A. (2008). Maliyyə uçotu (rus dilindən tərcümə). Bakı: İqtisad Universiteti nəşriyyatı.
| **Kəlbəcər** | - | - | 660 | 6 | - | - | 666 |
| **Qubadlı** | 3,401 | - | 589 | 88 | 91 | 997 | 5,166 |
| **Laçın** | 3,852 | - | 83 | 63 | 175 | - | 4,173 |
| **Zəngilan** | 1,929 | - | 359 | 61 | 57 | 2,391 | 4,797 |
| **Cəmi sahə** | 76,827 | 8,165 | 1,889 | 2139 | 2,435 | 48,359 | 139,814 |
| **Ölkə üzrə cəmi sahəyə nisbəti, %** | 14.3 | 2.7 | 11.6 | 10.9 | 1.8 | 24.7 | 7.7 |

**Mənbə:** https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend teserrufa/ (03.11.2021)

Dövlət Statistika Komissiyasının rəsmi məlumatlarına görə, 1980-ci illərdə ərazidə 139,8 min hektar sahədə əkin aparılıb. Məhsulun strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edirdi. Əkin sahəsinin 55 faizi dənli bitkilərin, 35 faizi isə üzüm bağlarının payına düşüb (https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

Qarabağ mədən sənayesi, metalurgiya, qida sənayesi, turizm, emal sənayesi, kənd təsərrüfatı, yaşıl enerji, yaradıcı sənaye sahələrində ölçüyəgəlməz inkişaf potensialına malikdir. Bölgənin sənaye potensialına aid keçmiş statistik məlumatlara diqqət yetirdikdə görmək olar ki, Dağlıq Qarabağla Azərbaycanın iqtisadi rayonları arasında sıx iqtisadi əlaqələr mövcud olmuşdur. Bir neçə istiqamətdə fəaliyyət göstərən yol-nəqliyyat infrastrukturu bölgənin Azərbaycanla iqtisadi əlaqələrində əhəmiyyətli yer tutmuşdur. Məhz bu yollarla gətirilən xammal, yanacaq və digər zəruri vasitələr hesabına Dağlıq Qarabağda mövcud olan sənaye müəssisələri işləyir və yaxud Azərbaycanın digər iqtisadi rayonlarındakı iri müəssisələrin filialı kimi fəaliyyət göstərirdilər.

Hesablamalara görə, Azərbaycanın ümumi geoloji mineral su ehtiyatlarının 39,6%-i işğal olunmuş ərazilərin payına düşür.

İşğal olunmuş ərazilərdə böyük tibbi əhəmiyyət kəsb edən müxtəlif tərkibli 120-yə yaxın faydalı qazıntı yatağı mövcuddur. Digər ölçülərdə bu, 7805 $m^3$/gün mineral su ehtiyatı deməkdir. İşğaldan azad edilən ərazilərdə 120-ə yaxın mineral su yataqları mövcuddur.

**Cədvəl 2: İşğaldan azad edilən ərazilərdə mineral su yataqları**

| | |
|---|---|
| **Kəlbəcər rayonu** | Yuxarı İstisu, Aşağı İstisu, Keştək, Bağırsaq |
| **Şuşa rayonu** | Turşsu, Şırlan |
| **Laçın rayonu** | İlıqsu, Minkənd |

**Mənbə:** Rəşid L., 09.12.2020, s.9

Kəlbəcər rayonu ərazisində yerləşən İstisunun mineral suları əlverişli qaz-kimyəvi tərkibi, yüksək temperaturu və böyük təbii sərvətləri ilə seçilir. 1980-ci illərdə İstisu bulağında böyük kurort və mineral su qablaşdırma zavodu tikilib. Zavod gündə 800 min litr su istehsal edirdi. Turşu mineral bulaq Azərbaycanın Şuşa şəhərindən 17 km aralıda yerləşir. Müxtəlif daxili xəstəliklər turşu ilə müalicə olunurdu, su kəməri ilə Şuşaya verilirdi.

Keçmişdə mövcud olmuş yol-nəqliyyat infrastrukturu və kommunikasiya əlaqələrinin bərpa edilməsi və mövcud iqtisadi siyasətə əsasən yenilərinin qurulması bölgənin Azərbaycanın başlıca iqtisadi rayonları ilə əlaqələrinin yenidən bərpası və sənaye potensialının dirçəldilməsi üçün ən birinci görülməli olan işlərdən biridir. Hazırda erməni işğalı nəticəsində dağıdılmış və məhv edilmiş avtomobil və dəmir yollarının yenidən qurulması istiqamətində Azərbaycan hökuməti tərəfindən həyata keçirilən intensiv işlər gələcək iqtisadi layihələr və xarici investisiya üçün çox mühüm əhəmiyyətə malik olacaqdır. Bakı ilə Xankəndi arasında mövcud olmuş şosse və dəmir yolu infrastrukturunun və digər kommunikasiyaların yenidən qurulması Qarabağın dağlıq hissəsi ilə paytaxt arasında birbaşa iqtisadi əlaqələrdə diqqət yetirilməsi mühüm məsələlərdən digəridir.

İnşaası başa çatmış 101 kilometrlik "Zəfər yolu" bölgənin yol-nəqliyyat infrastrukturunda strateji və mənəvi əhəmiyyətinə görə seçilir. Uzunluğu 124 kilometr olacaq Zəngilan-Horadiz avtomobil yolunun tikintisi isə hazırda davam etməkdədir. İşğaldan azad edilmiş ərazilərdə icrası davam etdirilən digər əhəmiyyətli infrastruktur layihələri Bərdə-Ağdam, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır (Azərtac, https://azertag.az/xeber/Qarabag_ve_Serqi_Zengezurda_yol_infrastrukturu_ile_bagli_gorulen_isler_achiqlanib-1936060, 2021).

Qarabağ iqtisadi rayonunun gələcək inkişafı, yük və sərnişin daşımaları üçün dəmir yolları kritik əhəmiyyətə malik olacaqdır. Bu istiqamətdə sovet döründə mövcud olmuş dəmir yolu infrastrukturunun bərpa edilməsi və yenidən inşası istiqamətində həyata keçirilən layihələrdən ən önəmlisi uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttidir. Bu layihə Azərbaycanın Naxçıvanla dəmir yolu əlaqəsini Zəngəzur dəhlizi vasitəsilə bərpa edəcəkdir. Həyata keçirilən digər layihə isə Bərdə-Ağdam dəmir yolunun bərpasıdır.

Azərbaycanın öz ərazilərini işğaldan azad etməsi regional ticari və iqtisadi əlaqələrin canlanmasına, nəqliyyat və kommunikasiya xətlərinin inkişafına da zəmin yaradacaqdır. Cənubi Qafqaz ölkələri ilə yanaşı, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat korridorlarında maraqlı olan bütün kənar dövlətlər də regional əlaqələrin canlanmasından fayda qazanacaqdır.

Ermənistanla Azərbaycan arasında imzalanmış sazişə əsasən Ermənistanın öz ərazisindən Azərbaycanın Naxçıvan bölgəsinə korridor verməsi, müvafiq istiqamətdə dəmiryolu və şosse yolu infrastrukturunun qurulması

Naxçıvanın izolyasiyasına son qoyacaq, həmçinin yük və ticarət daşımaları üçün yeni imkanlar açaraq regional əlaqələri gücləndirəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə iqtisadi quruculuq üçün vacib olan məsələlərdən biri də bölgənin potensial müqayisəli üstünlük sahələrinin müəyyən edilməsidir. Məhz buna görə də bölgənin bütün resurs və iqtisadi potensialı sovet dövründə mövcud olmuş məlumatlarla müqayisə əsasında yenidən qiymətləndirilir, habelə müvafiq istiqamətlərdə dövlət siyasəti hazırlanır, ixtisaslı qurum və şəxslər tərəfindən yol xəritələri və planlar müəyyən edilir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin gəldiyi qənaətə görə, Qarabağda iqtisadiyyatı əsasən 6 istiqamət üzrə qurulacaqdır. Bunlar - aqrar biznes, ərzaq sənayesi, dağ-mədən sənayesi, yaşıl enerji, nəqliyyat-logistika və turizmdir. 200 mindən çox torpaq sahəsinin kənd təsərrüfatı üçün istifadə edilməsi növbəti on illiklərdə Azərbaycan iqtisadiyyatına 10 faizdən çox gəlir gətirəcəkdir. 160-dan çox faydalı qazıntı yatağının istismarı ölkənin müvafiq sənayesinə 5 faizdən çox əlavə fayda verə bilər. Qarabağ bölgəsinin ölkəmizdə mədənçıxarma sənayesinə təsiri 5,3 faiz, emal sənayesinə isə 4,3 faiz ola bilər. Qarabağ regionunun Azərbaycanın nəqliyyat xidmətlərinə əlavə qatacağı dəyər 5 faiz civarında, bütövlükdə qeyri-neft ÜDM-in formalaşmasında 5,1 faiz müsbət təsirə malik olacaqdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin digər bir qənaəti ondan ibarətdir ki, 2030-cu ilə qədər Qarabağ iqtisadi rayonu Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata malik ola bilər (İnterfax, http://interfax.az/view/837086/az, 2021).

Kənd təsərrüfatı baxımından mühüm potensiala malik ərazilərin inkişafı Azərbaycanın regionda iqtisadi baxımdan daha da güclənməsində və iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayacaqdır. Ermənistanın işğalı nəticəsində Azərbaycanın təxminən 1.7 milyon hektar ərazisi uzun illər səmərəsiz şəkildə istismar edilmiş, yaxud da istismar üçün yararsız vəziyyətə salınmışdır. Nəzərə alsaq ki, bu torpaqların böyük bir hissəsi, xüsusilə də Qarabağın aran əraziləri kənd təsərrüfatı və əkinçilik üçün yararlıdır, işğaldan əvvəlki dövürdə becərilmiş müxtəlif növ məhsulların yenidən becərilməsi və emalı ölkənin kənd təsərrüfatı məhsuldarlığına mühüm fayda verəcəkdir. Məlumat üçün qeyd edək ki, Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1980-ci illərdə bölgədə 139.8 min hektar əkilmiş sahə mövcud olmuşdur. Əkinlərin strukturunda taxıl sahələri və üzümlüklər üstünlük təşkil edib: əkilmiş sahənin 55%-i taxıl məhsullarının, 35%-i üzümlüklərin payına düşüb. Bu məlumatları nəzərə alaraq, işğaldan azad edilmiş ərazilərin gələcək əkinçilik strukturunda taxıl və üzümçülük məhsullarının üstünlük təşkil edəcəyini söyləmək mümkündür. Lakin Azərbaycan hökümətinin kənd təsərrüfatı strategiyasına müvafiq olaraq, bölgənin xüsusiyyətləri də nəzərə alınmaqla əkinçilik üçün seçilən yeni prioritet sahələrin (tütünçülük, pambıqçılıq və s.) inkişaf etdirilməsi də mümkündür. Hal-hazırda ölkədə taxılçılıq və üzümçülüyün faktiki inkişaf dinamikası da nəzərə alınmaqla, taxıl və üzüm istehsalında bu bölgənin payının təqribən eyni səviyyədə olması gözlənilir. Bundan başqa ənənəvi olaraq Qubadlı, Zəngilan və Kəlbəcər rayonlarında tütünçülüyün, Ağdam və Füzuli rayonlarında pambıqçılığın, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Ağdərə bölgələrində üzümçülük sahələrinin bərpa edilməsi nəzərdə tutulur (Fikrətzadə, F., https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/, 2020).

Hazırda aparılan hesablamalara əsasən işğaldan azad edilmiş ərazilərdə həyata keçirəlcək bərpa işlərindən sonra 200 min hektardan çox ərazi əkinçilik üçün yararlı olacaqdır. Bu, eyni zamanda bölgənin özünü yeyinti məhsulları ilə təchizatında və ümumilikdə Azərbaycanın qida təhlükəsizliyində əhəmiyyətli amillərdən biridir. Qarabağda kənd təsərrüfatının inkişafının sistemli xarakter daşıması, hökümətin inkişaf prioritetləri seçməsi və qida təhlükəsizliyi məsələsi ölkə başçısının bu istiqamətdəki çıxışlarında dəfələrlə vurğulanan başlıca məsələlərdən biridir.

Respublikamızın müstəqilliyinin daha da yüksəldilməsi onun iqtisadi təhlükəsizliyinin daxili hissəsi kimi ərzaq təhlükəsizliyinin təminatından birbaşa asılıdır. Bundan əlavə, təhlükəsizliyin təminatı beynəlxalq bazarlardan asılılığın minimuma salınması və əhalinin vacib ərzaq məhsullarına olan tələbatının böyük hissəsinin – 80 faizin yerli istehsalın hesabına ödənilməsi deməkdir. Şübhəsiz ki, işğaldan azad olunmuş ərazilərin kənd təsərrüfatın yararlı torpaqları Respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaq.

**Qrafik 1: İşğaldan azad edilmiş ərazilərdə əsas növ ərzaq məhsullarının ehtiyatlarında idxalın payı, %**




**Mənbə:** Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/trade/ (14.02.2022).

Qeyd etmək vacibdir ki, işğalçı ölkənin kənd təsərrüfatı nazirinin sözlərinə görə, Azərbaycanın işğal olunmuş ərazilərində istehsal olunan və işğalçı ölkəyə ixrac edilən taxılın miqdarı ildə təxminən 150-200 min ton olub. Bu qədər taxılın Ermənistana daşınması bu ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Torpaqlarımızın işğaldan azad olunması ölkəmizdə taxılın ən azı bu qədər artması deməkdir. Bu, Azərbaycana taxıl idxalının hər il 10%-dən çox azalması, eləcə də idxal qiymətlərinin hazırkı səviyyəsində taxılın alınmasına 32 milyon dollar xərclənməsi ilə bağlıdır. Bu, 1 milyard dollardan çox qənaətlə nəticələnəcək və ölkəmizdə ərzaq təhlükəsizliyini yaxşılaşdıracaq (https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

İşğaldan azad edilmiş torpaqlardan səmərəli istifadə təkcə taxılçılığı deyil, həm də heyvandarlığı inkişaf etdirməyə imkan verəcək. Hazırda ölkənin ərzaq bazarının heyvandarlıq məhsulları seqmentinin tutumu daha böyükdür və əhalinin bu məhsullara tələbatının ödənilməsində müəyyən çətinliklər mövcuddur. Qarabağda heyvandarlığın inkişafı yerli istehsalçılara bazara heyvandarlıq məhsullarının tədarükünü artırmağa, bu məhsulların bazar qiymətlərini aşağı salmağa və əhalinin müxtəlif təbəqələrinin daha yaxşı qidalanmasını təmin etməyə imkan verəcək.

İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan əhalinin iri və xırdabuynuzlu heyvanlarla təmin olunması, arıçılıq təsərrüfatlarının yaradılması, rayonlara görə ixtisaslaşmanın yenidən dəqiqləşdirilməsi aqrar sahənin inkişafı baxımından atılacaq addımlardır. Aparılan ilkin qiymətləndirilmələrə əsasən həmin ərazilərdə kənd təsərrüfatının inkişafı, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyinin, məşğulluğun təminatına töhfə verəcək, yeni investisiyaların cəlb edilməsinə və su ehtiyatlarının səmərəli istifadəsinə imkan yaradacaq. Bu proses qeyri-neft məhsullarının ixracının artmasına səbəb olacaq, əkin dövriyyəsi, qida təchizatı artacaq, əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunmasını yaxşılaşdıracaqdır (Qarabağın biomüxtəlifliyi mövzusunda onlayn konfrans başlayıb, https://science.gov.az/az/news/open/16972, 2021).

İşğaldan azad edilmiş ərazilər kənd təsərrüfatı və sənaye inkişafı potensialı ilə yanaşı, faydalı qazıntı ehtiyatları ilə də zəngindir. Artıq qeyd edildiyi kimi, bu faydalı qazıntı yataqları Ermənistanın təcavüzü nəticəsində uzun illər qeyri-leqal yollarla və vəhşicəsinə istismar və talan olunmuşdur. Lakin erməni işğalına son qoyulması ilə bölgədəki faydalı qazıntı yataqlarının Azərbaycan tərəfindən istismarına və bu sahəyə xarici investisiyalarına cəlbinə start verilmişdir. Həmçinin bölgənin faydalı qazıntı yataqlarının yenidən geologiyası, qiymətləndirilməsi və hazırkı potensialının üzə çıxarılması onların faydalı şəkildə istifadəsi və iqtisadiyyata yeni investisiyaların cəlb edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

**Cədvəl 3: İşğaldan azad edilən ərazilərdə faydalı qazıntıların siyahısı**

| | |
|---|---|
| Qızıl | Ağdərə, Kəlbəcər, Zəngilan |
| Qurğuşun | Ağdərə |
| Mis | Ağdərə |
| Mişar daşı | Ağdərə, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam |
| Civə | Kəlbəcər, Laçın |
| Mineral sular | Kəlbəcər, Laçın, Şuşa |
| Gil | Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Şuşa, Xocalı, Kəlbəcər, Ağdam |
| Əqiq | Laçın |
| Qum | Cəbrayıl, Zəngilan |
| Əlvan daşlar | Cəbrayıl, Kəlbəcər, Qubadlı |
| Şirin yeraltı sular | Ağdərə, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Cəbrayıl, Füzuli, Ağdam |
| Sink | Ağdərə |
| Üzlük daşı | Şuşa, Xocalı, Xocavənd, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Ağdam |
| Perlit | Kəlbəcər |
| Tikinti daşı | Şuşa, Xocavənd, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl |
| Qum-çınqıl | Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Xocalı |
| Sement xammalı | Ağdam, Cəbrayıl |
| Gəc | Cəbrayıl, Ağdərə |
| Perlit | Kəlbəcər |
| Əhəng | Ağdam |

**Mənbə:** https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193 (05.04.2022)

İşğal olunmuş ərazilər Azərbaycanın sənayesində və tikintisində böyük əhəmiyyət kəsb edən müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatı Ağdam rayonunda yerləşən Çobandağ (əhəng ehtiyatı 140 milyon ton və gil ehtiyatı 20 milyon ton), Şahbulaq (25 milyon ton gil), Boyəhmədli (45 milyon ton gil) və digər yataqlarda mövcuddur. Həmçinin Xankəndində iri tikinti daşı, Xarovda isə mərmər yataqları var (https://www.stat.gov.az/source/regions/).

Cədvəl 3-də qeyd olunduğu kimi daha çox əhəng və gil ehtiyatının toplandığı rayon Ağdam rayonudur. Ağdam rayonunun Çobandağ yatağında əhəng 140 milyon ton, gil isə 20 milyon ton təşkil edir. Ağdamın Şahbulağ yatağında 25 milyon ton gil, Bəyəhmədli yatağında 45 milyon ton gil vardır.

Təbii ki, yuxarıda sadalanan faydalı qazıntılar haqqında məlumatlar müəyyən mənada şərtidir və növbəti addım bütün yataqların qiymətləndirilməsi, sovet dövrünə aid rəqəmlərin dəqiqləşdirilməsi olacaq. Qeyd edək ki, son 30 ildə ərazilər talan edilib. Bundan əlavə, yeni qiymətləndirmə üsulları yaranıb və regionun mineral ehtiyatlarının yeni geoloji xəritəsinin hazırlanmasına ehtiyac var.

Qarabağın yenidən inşasına dövlət və özəl investisiyaları cəlb etmək bölgədə dayanıqlı iqtisadi inkişafın təməlini təşkil edəcəkdir. Qarabağa dövlət sərmayesi özəl sektor və xarici investisiyaya da zəmin yaradacaqdır. Qarabağın bərpası və yenidən qurulması üçün artıq Türkiyə, İtaliya, İngiltərə, Pakistan, İsrail və s. dövlətlərlə əməkdaşlıq müqavilələri bağlanaraq, müvafiq sahələrə sərmayelər cəlb edilməkdədir.

Həm sovet dövründə, həm də müstəqillik dövründə bölgənin su resursları Azərbaycanın kənd təsərrüfatı üçün həyatı əhəmiyyətli olmuşdur. Hazırda davam edən və getdikcə artan qlobal iqlim böhranını və növbəti on illiklərdə suya olan tələbatın getdikcə yüksələcəyini nəzərə aldıqda, işğaldan azad edilmiş ərazilərdə mövcud olan su ehtiyatlarının Azərbaycan iqtisadiyyatı üçün nə qədər kritik önəm daşıdığı məlum olur. Su ehtiyatlarından səmərəli şəkildə istifadə edilməsi və gələcəkdəki su qıtlığının diqqətdə saxlanılması Azərbaycan hökümətinin bu istiqamətdəki fəaliyyətində mühüm yer tutur (http://interfax.az/view/837086/az).

Qarabağ su potensialı və ehtiyatları ilə zəngin bir bölgədir. Azərbaycanın su resurslarının 25 faizi Qarabağda yerləşir. Bölgənin başlıca çayları Tərtərçay, Bazarçay, Həkəri və digər kiçik çaylar su enerjisi üçün çox böyük potensiala malikdir. Qarabağın günəş enerjisi potensialının 3-4 min meqavat, külək enerji potensialının 3-5 yüz meqvat olduğu təxmin edilməkdədir. İran ilə ortaq layihə əsasında inşa ediləcək Xudafərin və Qızqalası hidroelektrik stansiyaları 280 meqavat enerji istehsal edəcək, Kəlbəcər və Laçın ərazisində qurulması planlaşdırılan su elektrik stansiyaları isə 120 meqavat enerji istehsal edəcəkdir. Bütün bu istehsal gücünün bölgənin elektrik enerjisinə olan ehtiyaclarını təmin edəcəyi təxmin edilməkdədir.

Bundan əlavə, Kəlbəcər rayonunda 3093 $m^3$/gün, Şuşada isə 412 $m^3$/gün termal su resursları yaşıl enerjinin inkişafı üçün böyük potensiala malikdir. Burada əsas məsələlərdən biri sadəcə yaşıl enerji qaynaqlarından enerji hasil etmək deyil, eyni zamanda enerjinin ötürülməsi, paylaşımı və səmərəli və smart sistemlərdən istifadədir (https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/).

Bu kontekstdə azad olunan ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. 1976-cı ildə Tərtərçayın üzərində inşa edilmiş Sərsəng su anbarının ümumi sututumu 560 milyon $m^3$-dir. Gələcəkdə Sərsəng su istifadə respublikanın 6 rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaradacaqdır. Qeyd etmək lazımdır ki, işğal zonasında Sərsəng su anbarından başqa ümumi tutumu

80 mln. m³ olan digər su anbarları da qalmışdır. Onların da ölkə təsərrüfatına qatılması əlavə 15 min hektar torpaq sahəsinin suvarılmasına şərait yarada bilər.
Bölgənin əkinçilik üçün yararlı torpaqlarının su ilə təchizat probleminin həllində ötən il Azərbaycanın nəzarətinə keçən Suqovuşan su anbarının da rolu olacaqdır. Xüsusilə, Tərtər rayonunda suvarma probleminin həllində Suqovuşan anbarına böyük ümidlər var.
Digər əhəmiyyətli bir su rezervi isə Xudafərin su anbarıdır. İşğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonları ərazisində yerləşən Xudafərin su anbarı əkinçilik üçün yararlı 75 min hektar ərazinin suvarılmasında faydalı olacaqdır. Su anbarının həcmi hesablamalara əsasən təxminən 1.6 mlrd. kubmetrdir. Suvarma probleminin həllində Qarabağ iqtisadi rayonundakı yeraltı şirin su rezervləri də diqqətə alınmalıdır. Bölgədə 11 yeraltı şirin su ehtiyatı vardır ki, bu da 1 milyon 968 min m³/gün
yeraltı şirin su təchizatı deməkdir (http://interfax.az/view/837086/az).
Azərbaycanın mineral su rezervlərinin təxminən 40 faizi işğal altında olan torpaqlarda yerləşirdi. Regionun işğaldan azad edilməsi ilə bu rezervlərdən səmərəli şəkildə istifadə edilmə imkanları yaranmış, turizm-rekreasiya sənayesinin daha da genişlənərək ölkə iqtisadiyyatına töfhə verilməsi diqqət mərkəzinə gəlmişdir.
Mövcud su potensialı elektrik enerjisinin istehsalında və bölgənin elektrik enerjisi ilə təmin edilməsində də kritik əhəmiyyətə malikdir. Belə ki, Sərsəng SES hazırda fəaliyyət göstərmək üçün yararsız halda olsa da, gələcəkdə onun bərpa edilməsi, isthesal gücünün artırılması həm Qarabağ iqtisadi rayonunun elektrik enerjisinə olan tələbatının təmin edilməsində, həm də Azərbaycanın qonşu ölkələrdən elektrik enerji asılılığının aradan qaldırılmasında mühüm rol oynaya bilər. 2016-cı ildə İran hökuməti ilə Azərbaycan hökuməti arasında bağlanmış Sazişə əsasən hazırda inşa edilən Xudafərin SES ilə Araz çayı üzərindəki su elektrik stansiyalarının gücü 280 meqavata qədər yüksələ bilər. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər (Trend, https://az.trend.az/business/3320233.html, 2020).

**Nəticə**

Vətən müharibəsində şanlı qələbə qazanan Azərbaycan öz ərazilərinin uzun illər qeyri-qanuni istismara məruz qalmış aqrar-sənaye, ekoloji və hidroloji potensialını bərpa edə bildi. Münaqişənin uğurla həlli Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin daha da artmasına, eləcə də sosial infrastruktur layihələrinə daha çox vəsaitin ayrılmasına, xalqın rifahının yaxşılaşmasına səbəb olacaq. Müharibənin başa çatması və regionda davamlı sülhün əldə olunması Azərbaycana, xüsusən də işğaldan azad edilmiş ərazilərə xarici investisiya axınını daha da artıracaq və bu, əlverişli biznes imkanları açacaq.

Hazırki Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları tarixən Azərbaycanın iqtisadi inkişafında mühüm yer tutmuşdur. Son 30 illik erməni işğalı bölgənin sənaye, kənd təsərrüfatı və sosial infrastrukturunu tamamilə məhv edilməsinə və ya dağıdılmasına gətirib çıxarmışdır. Bölgənin 2020-ci ildə Azərbaycan silahlı qüvvələri tərəfindən işğaldan azad edilməsi onun iqtisadi inkişaf potensialının yenidən dəyərləndirilməsi və ölkə iqtisadiyyatına reinteqrasiyası üçün yeni imkanlar açmışdır. Bu kontekstdə Azərbaycan dövlətinin Böyük Qayıdış planı ilk növbədə regionun zəruri sosial infrastrukturunun bərpa edilməsi və öz yaşayış yerlərindən didərgin düşmüş sakinlərin geri qaytarılmasına istiqamətlənmişdir.

Keçmişdə mövcud olmuş yol-nəqliyyat infrastrukturu və kommunikasiya əlaqələrinin bərpa edilməsi və mövcud iqtisadi siyasətə əsasən yenilərinin qurulması bölgənin Azərbaycanın başlıca iqtisadi rayonları ilə əlaqələrinin yenidən bərpası və sənaye potensialının dirçəldilməsi üçün ən mühüm amillərdir.

İşğaldan azad edilmiş ərazilərin iqtisadiyyatı əsasən 6 istiqamət üzrə qurula bilər. Bunlar - aqrar biznes, ərzaq sənayesi, dağ-mədən sənayesi, bərpaedilən enerji, nəqliyyat-kommunikasiya və turizm

sahələridir. Hər bir sahə üzrə mövcud iqtisadi və sənaye potensialının qiymətləndirilməsi və ölkənin sosial-iqtisadi siyasətinə uyğun olaraq yenidən qurulması orta və uzun vədədə Azərbaycan iqtisadiyyatına böyük töhfələr verəcək, neft-qaz sektorlarından iqtisadi asılılığın azadılmasında mühüm amil olacaqdır.

**Ədəbiyyat Siyahisi**


1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2021, https://azertag.az/xeber/Azerbaycan_Respublikasinda_iqtisadi_rayonlarin_yeni_bolgusu_haqqinda__Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1825345 (25.11.2021).
2. Azərbaycan Milli Elmlər Akademiyası, "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda onlayn konfrans öz işinə başlayıb, https://science.gov.az/az/news/open/16972 (02.12.2021).
3. Azərtac, Qarabağ və Şərqi Zəngəzurda yol infrastrukturu ilə bağlı görülən işlər açıqlanıb, 2021, https://azertag.az/xeber/Qarabag_ve_Serqi_Zengezurda_yol_infrastrukturu_ile_bagli_gorulen_isler_achiqlanib-1936060 (25.11.2021).
4. Fikrətzadə F., Aqrar tədqiqatlar Mərkəzi, İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması, 2020,
5. https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/ (27.11.2021).
6. İnterfax, 2030-cu ilə qədər Qarabağ Azərbaycanın qeyri-neft sektorunda 10%-dək paya malik olacaq, 2021, http://interfax.az/view/837086/az) (26.11.2021).
7. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan iqtisadiyyatına nə vəd edir? 2020, https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193 (02.12.2021).
8. Trend, "Xudafərin" hidroqovşağı üzrə tikinti xərclərinin və dəymiş ziyanın hesablanması məsələlərinə baxılır, 2020, https://az.trend.az/business/3320233.html (02.12.2021).
9. Yadigarov T.A., "Azerbaycan'ın işğalden kurtarılmış toprakları ile diğer bölgeler arasındaki ekonomik ilişkilerin geliştirilmesi için beklentiler", 20.01.2021, https://yesiligdir.com/haber/detay/27788
10. Leyla Rəşid, (09.12.2020), "İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri". Xalq Qəzeti, Səh. 9
11. https://ereforms.gov.az/az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193 (05.04.2022)
12. https://www.stat.gov.az/source/trade/

# MILLI İQTISADIYYATIN EMAL YÖNÜMLÜ ŞAXƏLƏNDIRILMƏSI MÜASIR ÇAĞIRIŞLAR KONTEKSTINDƏ

**Rüxsarə Seyfullalı**

rukhsara.seyfullali@aztu.edu.az

## Xülasə

Qloballaşan dünyada özünün müqayisəli üstünlüklərini tapmaq və bu üstünlüyü olan sahələrdə ixtisaslaşmaq inkişaf etməkdə olan ölkələr üçün arzu edilən vəziyyətdir. Bəs bu səviyyəyə necə çatmaq olar? Bu sualın cavabı milli iqtisadiyyatı karbohidrogen hasilatından asılı vəziyyətdə olan Azərbaycan üçün xüsusi aktuallığı ilə seçilir. Məqalənin məqsədi dövlətin sənaye siyasəti vasitəsilə milli iqtisadiyyatın iqtisadi şaxələndirilməsinin həyata keçirilməsi prosesinin nəzəri əsaslarını ümumiləşdirməkdən ibarətdir. Tədqiqatda məntiqi ümumiləşdirmə və tarixi müqayisə üsullarından istifadə edilmişdir. Dövlətin iqtisadi proseslərə müdaxiləsi ilə bağlı aparılmış tədqiqatlar tədqiqatın informasiya bazasını təşkil edir. Tədqiqat nəticəsində dövlətin sənaye siyasətinin əsas prinsipləri ümumiləşdirilmiş və onların əhəmiyyəti qeyd edilmiş, inkişaf etməkdə olan ölkələrdə emal sektorunun inkişafının dövlətin müdaxiləsi olmadan qeyri-mümkünlüyü əsaslandırılmış, eləcə də dövlətin fiaskosu hallarının təsirinin azaldılması istiqamətində irəli sürülən tövsiyələr ümumiləşdirilmişdir. Tədqiqatın nəticələri Azərbaycanda emal sənayesinin inkişafına yönələn dövlət dəstəyinin təkmilləşdirilməsində elmi mənbə kimi istifadə edilə bilər.

**Açar sözlər:** dövlət tənzimlənməsi, dövlətin sənaye siyasəti, bazarın və dövlətin uğursuzluqları

## Abstract

Finding one's comparative advantages and specializing in those advantages is the desired level for developing countries in a globalized world. How can you reach such a level? The answer to this question is especially relevant for Azerbaijan, whose economy depends on the production of hydrocarbons. The purpose of the study is to generalize the theoretical foundations of the process of diversifying the economy with the help of the state industrial policy. Logical generalization and historical comparison is adopted as a research method. Economic studies devoted to the study of state intervention in market processes were used as the information base of the article. As a result, the study summarized the main principles for the development of state industrial policy and explained their significance. It was revealed that without state intervention the development of the manufacturing industry in the country is not possible, and recommendations are generalized to eliminate the failures of state regulation. The results of the study may be useful for improving the state policy aimed at the development of the manufacturing industry.

**Key words:** state regulation, state industrial policy, fiasco of the market and the state.

## Giriş

İqtisad elmində həm bazarın, həm də dövlətin tənzimləyici mexanizmlər olaraq uğursuzluqarına dair çoxsaylı nümunələr, nəzəri və praktiki sübutlar mövcuddur. Bu məsələ inkişaf etməkdə olan və yoxsulluq problemini azaltmaq istəyən üçüncü dünya ölkələri üçün xüsusi önəm daşıyır. Dünyanın inkişaf templərindən geri qalmamaq, eləcə də ölkələr, regionlar və insanlar arası bərabərsizliklərin azaldılması üçün iqtisadi tənzimləmədə hansı mexanizmə üstünlük verilməlidir? Bu sualın cavabını mürəkkəbləşdirən iki amil xüsusilə qeyd edilməlidir:

- iqtisad elmində bazar və dövlət tənzimlənməsinin bir-birini tamamlaması və təkmilləşdirilməsi üçün yekdil nəzəriyyənin hələ də formalaşmaması;
- müasir qloballaşma prosesləri nəticəsində iqtisadiyyatın dövlət tənzimlənməsi qarşısında keyfiyyət və mürəkkəblik dərəcəsinə görə tamamilə yeni tələblərin meydana çıxması.

Dövlətin cəmiyyətdə, onun inkişafında rolu barədə suallar alimləri Aristotel və Platonun dövründən başlayaraq bu günə qədər düşündürür. Bu sual iqtisad elmində də onun formalaşmağa başadığı XVI əsrdən indiyədək aktuallığını saxlayır. Son yüz ildə K.Polani, J.Stiqlits, D.Rodrik, D.Acemoğlu, R.Hausmann kimi iqtisadçıların əsərlərində qeyd edilən sualın cavabı üçün kifayət qədər sanballı və elmi əsaslandırılmış arqumentlər tapmaq olar (D.Acemoğlu, 2019; D.Rodrik, 2004, 2005; J.Stiqlits 1999; K.Polani, 2002;

R.Hausmann, 2014). Lakin hər bir ölkənin özünəməxsus xüsusiyyətləri, inkişafın müxtəlif səviyyələrində olmaları, resurs təminatı və institusional fərqləri bu məsələnin həllinə ümumi yanaşmanı mümkünsüz edir. Buna görə də, eyni yanaşmanın bir ölkədə möhtəşəm uğura, digərində isə fiaskoya gətirməsinə dair çoxsaylı nümunələri görmək mümkündür.

Sənaye iqtisadiyyatın əlavə dəyəri yaradan əsas sahələrindən biri olmaqla yanaşı, həm də elm, təhsil, İKT və digər sektorlar üçün kəmiyyət və keyfiyyət baxımından daha böyük tələbatın yaradıcısı funksiyasını daşıyır. Bu kontekstdə, dövlətin sənaye siyasətinin uğurlu olması üçün zəruri olan şərtlərin ümumiləşdirilməsi tədqiqatın əsas məqsədi kimi qəbul edimişdir. Aparacağımız tədqiqatın nəticələri Azərbaycanın emal sənayesinin inkişafına yönəln dövlət siyasətinin səmərəliliyinin və nəticəliliyinin yüksəldilməsi üçün faydalı ola bilər.

**Emal Sektorunu Dəstəkləyən Dövlət Siyasət**i

Milli iqtisadiyyatın emal sektorunun gücləndirilməsi ilə təmin ediləcək restrukturizasiyası qarşısında dayanan bir neçə problemi qeyd edək.

Birinci problem həm dövlət orqanlarında, həm də özəl sektorda fərdi və ictimai baxımdan faydalı ola biləcək qərarların qəbuluna mane olan informasiya assimmetriyası ilə bağlıdır. Emal sektorunun inkişafı istiqamətində mövcud olan əsas maneələrin müəyyən edilməsi və aradan qaldırılması üçün özəl sektorla dövlət arasında strateji əməkdaşlığın yaradılması mühim əhəmiyyət kəsb edir. Buna görə də, Rodrik təklif edir ki, dövlətin sənaye siyasətinin təhlili təkcə onun əvvəlcədən məlum olmayan nəticələri üzərində deyil, bu siyasi prosesin düzgün qurulması istiqmətində də aparılmalıdır (Rodrik 2004, 2005). Özəl sektorun real tələbatlarının və problemlərinin, eləcə də dövlətin dəstək imkanları və məhdudiyyətlərinin qarşılıqlı surətdə öyrənilməsi daha vacib məsələdir. Bu məsələ "dövlətin tənzimləyici alətlərindən hansı sənaye siyasətində daha səmərəlidir" sualından da əhəmiyyətlidir. Tənzimləmə alətlərindən olan məqsədli kreditləşdirmə yaxşı nəticə verir, yoxsa elmi tədqiqatların maliyyələşdirilməsi? Hətta tənzimləmə üçün prioritet sahələrin (hansının dəstəklənməsi milli iqtisadiyyat daha böyük inkişaf impulsu verə bilər - maşınqayırma sənayesi, yoxsa İKT sektoru?) müəyyən ediməsi məsələsi də qeyd etdiyimiz proseslə müqayisədə ikinci dərəcəli hesab oluna bilər.

Əgər ölkədə özəl sektor və dövlət biri-birilərinin imkan və məhdudiyyətləri barədə aydın təsəvvürə malik olaraq bu istiqamətdə aparılmalı olan srtateji koordinasiyada birgə iştirak edərsə, onda qeyd etdiyimiz sualların cavabları üçün çox aydın və dəqiq arqumentlər meydana gələ bilər. Qərarların qəbulunda informasiya assimmetriyası həm dövlət orqanlarında, həm də özəl sektorda mövcud olur. Özəl sektor-dövlət tərəfdaşlığı məhz qeyd etdiyimiz informasiya assimmetriyasının azaldılması və daha yaxşı qərarların qəbulu üçün zəruri şərt hesab oluna bilər (Hausman, 2014; Laffont, 2005; Montmartin and Herrera, 2015 və b.,).

İqtisadiyyatın restukturizasiyası qarşısında dayanan ikinci maneə özəl sektor tərəfindən innovasiyalara tələbatın azlığıdır (Falk, 2007; Hausmann, 2014; Rodrik, 2004; və b.,). Milli iqtisadiyyatın şaxələnməsi və istehsal amillərinin məhsuldarlığının artması yalnız innovasiyalar nəticəsində mümkündür. Texnologiyaların geniş yayıldığı müasir dünyada innovasiyaların yaradılması və istehsalı o qədər də çətin deyil. Tədqiqatçı alimlərin və mühəndislərin çatışmazlığı, mülkiyyət hüquqlarının yaxşı qorunmaması kimi amillər innovasiyaların sahibkarlar üçün cəlbediciliyi və yaxud özəl sektorun innovasiyalara tələbatının məhdudluğu ilə müqayisədə daha asan həll olunan problemlərdir. Sahibkarların innovasiyalara tələbatının azlığı isə iki səbəblə izah oluna bilər: ökədə daha asan, riskləri və resurs tutumu daha az, amma xalis gətirilmiş dəyəri daha yüksək olan ənənəvi fəaliyyət növlərinin (ticarət, tikinti, xidmət və s.) mövcudluğu; emal sektorunda innovasiyaların rentabelliyinin aşağı olması.

Özəl sektorun innovasiyalara tələbatının azlığı keyfiyyətli təhsilə və elmi-tədqiqatlara da tələbatı məhdudlaşdırmaqla dövlətin bu istiqamətdə həyata keçirdiyi tənzimləyici tədbirlərin iqtisadi səmərəliliyini azaldır.

**Milli iqtisadiyyatın restrukturizasiyasında sənaye siyasəti nə üçün əhəmiyyətlidir?**

Bir çox ölkələrdə iqtisadiyyatın şaxələnməsi və təmərküzləşməsi proseslərinin tədqiqi göstərmişdir ki, kasıb ölkə varlandıqca (adambaşına gəlir artdıqca) istehsalın sahə quruluşunun və məşğulluğun təmərküzləşməsi azalır, iqtisadiyyatın şaxələnməsi isə artır. Gəlirlərin səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşdıqdan sonra isə əks proseslər - ölkənin bir neçə sahə üzrə ixtisaslaşması və iqtisadiyyatın həmin sahələr üzrə təmərküzləşməsi baş verir (Imbs and Wacziarg, 2003).

Bu nəticələr bizə istehsal amillərinin aqrar sektordan emal və xidmət sektorlarına doğru axınının gəlirlərin artımı ilə güclənməsini göstərir (sektorun ümumi iqtisadiyyatda payının işçilərin ümumi məşğulluqda və yaxud əlavə edimiş dəyərdə payı ilə ifadə ediməsindən asılı olmayaraq). Ölkənin ixtisaslaşma səviyyəsinin yüksəlməsi isə adambaşına gəlirin kifayət qədər yüksək səviyyəyə çatdığı halda güclənməyə başlayır (Doner and Schneider, 2016). Buradan belə nəticə çıxır ki, emal sektorunun müəyyən sahələri üzrə ixtisaslaşma yalnız yüksək gəlirli ölkələrin imkanı daxilindədir. Az gəlirli ölkələrin bu istiqamətdə uğur qazanması isə yalnız adambaşına gəlirin artımı nəticəsində mümkündür. Əlbəttə, burada adambaşına gəlirin artımı ilə emal sahələri üzrə ixtisaslaşma səviyyəsi arasında səbəb-nəticə əlaqələrinin təbiəti, bu əlaqələrin istiqaməti barədə çoxlu suallar meydana çıxa bilər. Gəlirlərin bölgüsündə bərabərsizliyin qeyd edilən əlaqələrin təbiətinə necə təsir etməsi də mühim suallardan hesab oluna bilər.

Klinqer və Ledermanın hesablamaları göstərir ki, ixrac edilən yeni məhsul növlərinin sayı da çevrilmiş U tipli gəlir əyrisinə uyğun gəlir (Klinqer və Lederman, 2004).

Nə üçün bəzi ölkələr öz iqtisadiyyatlarını asanlıqla şaxələndirə və ənənəvi iqtisadiyyatdan qeyri-ənənəvi iqtisadiyyata keçə bilir, digərləri isə bu məsələdə uğur qazana bilmir? Və yaxud sualı belə də qoymaq olar: Şaxələnmə niyə təbii proses deyil və ona necə asanlıqla nail olmaq olar?

Gəlin elə bir ölkəni təsəvvür edək ki, orada korrupsiya yox səviyyəsindədir, hökumətdə peşəkar mütəxəssislər çalışır, makroiqtisadi sabitlik tam təmin edilib, ticarət məhdudiyyətləri və dövlətin müdaxiləsi çox zəifdir, mülkiyyət hüquqları qorunur, müqavilələrin icrası təmin edilir. Qeyd edilənlər dövlətin fiaskosu hallarını aradan qaldırmaq üçün zəruri şərtlərdir (Acemoglu və Robinson, 2019; Shleifer və Vishny, 2002; Stiglitz, 1998). Bu halda qeyri-ənənəvi iqtisadiyyatın inkişafını təmin edəcək sahibkarlıq fəaliyyəti lazımi səviyyədə olacaqmı? Bu sualın “yox” cavabı üçün ciddi arqumentlər var.

Bazar qiymətləri resursların baş verməmiş bölgüsünün mənfəətliliyini müəyyən edə bilməz. Hələ 100 il bundan əvvəl Şumpeter innovasiyaların yarandığı ilk dövrlərdə bazar qüvvələrinin sahibkarı dəstəkləmədiyini, əksinə ona əks istiqamətdə təsir göstərdiyini qeyd edirdi. Yalnız hakimiyyətə, rəqabətdə uğura və yaradıcılıq sevincinə çox güclü tələbatı olan sahibkarlar bu qüvvələrin əksinə getməyə cəsarət tapır. Belə sahibkarların əksəriyyəti isə bazar qüvvələri ilə mübarizədə məğlub olur, çox az qismi isə bazar tərəfindən qəbul olunduqdan sonra sürətli artım mərhələsinə daxil ola bilir. Buna görə də, qeyri-ənənəvi sahələrə investisiyaların taleyi çox dumanlı və riskli xarakter daşıyır. Bu problem sahibkarlığın “informasiya” və “koordinasiya” xarakterli təsirlərdən yaranır. Hər iki təsirin bazar mexanizmi tərəfindən aradan qaldırılması sadəcə mümkün deyil. Deməli iqtisadiyyatın şaxələnməsi və ölkədə emal sektorunun təşəkkülü dövətin müdaxiləsi olmadan çətin ki alınsın.

**Dövlətin sənaye siyasətinin əsas prinsipləri**

Qeyd etdiyimiz kimi, hər ölkənin özünəməxsusluğu qeyri-ənənəvi iqtisadiyyata keçid üçün vahid resseptin olmadığını əsaslandırmaq üçün çox güclü arqumentdir. Amma iqtisadi ədəbiyyatda sənaye siyasətinin hazırlanması üçün ümumi prinsiplər təklif edilmişdir (Rodrik, 2004):

1. Yalnız yeni fəaliyyət növlərini dəstəkləmək lazımdır. Sənaye siyasətinin əsas məqsədi iqtisadiyyatın şaxələnməsinə və yeni müqayisəli üstünlüklərin qazanılmasıdır. Buna görə də dəstəkləmə tədbirləri daxili bazar üçün yeni olan emal sahələri (yeni məhsul, yeni texnologiya və s.) üçün həyata keçirilsə yaxşı olar. Qeyd edilməlidir ki, bu siyasət kiçik və orta müəssisələrin dəstəklənməsi siyasətindən fərqlənir. KOB-ların dəstəklənməsi siyasəti ölçü meyarı üzərində qurulur, lakin belə müəssisələrin iqtisadiyyatın strukturunu dəyişəcək fəaliyyətdə növlərini inkişaf etdirəcəyi məlum deyil.
2. Uğurun və uğursuzluğun dəqiq meyarları müəyyən edilməlidir. Sənaye siyasəti eksperiment xarakteri daşımalıdır. Sahibkarlıq fəaliyyətinin təbiəti elədir ki, yeni sahələrə investisiyaların hamısı uğurlu ola bilməz. Lakin uğurun nə olduğunu anlamadan, bu siyasətin nəticələrinin qiymətləndirilməsi də mümkün olmaz, dövlət dəstəyi alanlar uğursuz nəticələrə baxmayaraq bu dəstəyi almaqda, məmurlar isə özlərinə sərf edən proqramları davam etdirə bilərlər. Məhsuldarlığın müəyyən səviyyəsi, onun müəyyən artım tempi, ixracın həcmi və artım tempi yaxşı uğur meyarları olaraq qəbul edilə bilər.
3. Dövlət dəstəyinin qüvvədə olma müddətinin əvvəlcədən müəyyən ediməsi. Dövlət resurslarının səmərəli olmayan sahədə qalmasının qarşısını almaq üçün dəstəyin mərhələli şəkildə dayandırılmasıdır.
4. Dövlət dəstəyi hər-hansı sektora deyil, fəaliyyət növünə yönəlməlidir. Dəstəyin sektora yönəlməsi ünvanlılığı azaldır və bazar uğursuzluqlarının təsirlərini azaltmaqda səmərəsiz olur. Dövlət dəstəyi, xarici texnologiyaların yerli şəraitə uyğunlaşdırılması, risk və vençur kapitalı, infrastruktur investisyaları kimi fəaliyyətlərə yönəlməsi daha yaxşı nəticələr verə bilər. Belə proqramların üstün cəhəti ondadır ki, onlar bir neçə sektoru əhat edir və bazar uğursuzluqlarını hamarlamağa yönəlir.
5. Dəstəklənən fəaliyyət nümayiş edilmə və yanaşı effektlərinə malik olmalıdır. İqtisadi inkişafın zəncirvari reaksiyasının baş verməsi üçün dəstəklənən fəaliyyət digər fəaliyyət növlərinin inkişafı üçün də stimullar və üstünlüklər yaratmalıdır.
6. Sənaye siyasətinin aparılması səlahiyyəti peşəkar heyəti olan (bu peşəkarlıq səviyyəsinin nümayiş etdirilməsi mümkün olmalıdır) dövlət qurumlarına verilməlidir. Nümunə üçün, əgər bank sektorunda yaxşı peşəkarlar çalışırlarsa və vergi orqanında isə peşəkarlıq səviyyəsi arzu edilən səviyyədə deyilsə, onda fəaliyyətin dəstəklənməsi üçün kredit alətləri daha yaxşı nəticə verər, nəinki vergi güzəştləri.
7. Dövət dəstəyini icra edən qurumlar siyasi hakimiyyətin ən yüksək səviyyəsində təmsil olunan və nəticələrdə maraqlı olan prinsipialn ciddi nəzarəti altında fəaliyyət göstərməlidir. Hesabatlılıq və şəffaflıq dövlət qurumlarını şəxsi manafelərinə və özəl sektorun maraqlarına xidmət etməkdən yayındırmağa kömək edir.
8. Dövlət dəstəyini həyata keçirən qurum özə sektorla daim əlaqədə olmalı və real vəziyyət barədə obyektiv informasiyaya malik olmalıdır.
9. Dəstəkləmə prosesində səhvlər, sapmalar da olacaq. Dəstəyin məqsədi belə uğursuzluqların minimuma endirilməsi deyil. Burada səhvlərlə bağlı xərclərin və əlavə səylərin azaldılması daha prioritet xarakter daşıyır. Əgər hökumət səhv etmirsə, deməli o kifayət qədər çalışmır.
10. Dəstək tədbirləri daim yenilənmə imkanlarına malik olmalıdır. Sürətlə dəyişən dünyada dəstək proqramlarının çevikliyi və uyğunlaşma qabiliyyəti müstəsna əhəmiyyət kəsb edir.

**Nəticə**

Bazar uğursuzluqlarının əksəriyyəti obyektiv xarakter daşıyır və dövlət müdaxiləsindən asılı olmayaraq baş verir. İnkişaf etməkdə olan və dövət müstəqilliyini yaxın tarixdə qazanan (nümunə üçün keçmiş Sovet respublikaları) ölkələrdə özəlləşdirmə və liberallaşdırma prosesləri əsaslı uğurları təmin edə bilmədi.

Dövətin sənaye siyasətinin əleyhinə kifayt qədər arqumentlər var:

- Dövət bazarın qaliblərini müyyən edə bilmir;
- Peşəkar məmurlar ordusunun azlığı səmərəli sənaye siyasətinin aparılmasına mane olur;
- Sənaye sahələrinə dəstəkdə korrupsiya üçün mühit mövcud olur.
- Sənaye siyasətinin uğurlu nümunələri azdır;
- Sənaye siyasətinin əvəzinə intellektual mülkiyyətin qorunması və elmi-tədqiqatlara dəstəyin gücləndirilməsi daha yaxşı nəticələr verə bilər.

Bu arqumentlər nə qədər əsaslı olsalar da, onların inkar edilməsi üçün də ciddi fikirlər var:

- Səhvlərin edilməsi (düzgün sahələrin və yaxud düzgün alətlərin seçilməməsi) yaxşı siyasətin atributlarından biridir (səhvlərin yaratdığı xərcərin müəyyən edilməsi mənasında);
- Peşəkar məmurların olduğu qurumlar sənaye siyasətini uğurla apara bilərlər;
- Dövlət siyasəti olmadan sənaye uğurlarını qazanmış ölkəni tapmaq mümkün deyil;
- İqtisadi ədəbiyyatda nə qədər inkar edilsə də, ölkələrdə aparılan sənaye siyasəti zəifləmir.

**İstifadə Edilmiş Mənbələr**


1. Acemoglu D., Robinson J. A. (2019). The narrow corridor: States, societies, and the fate of liberty. New York: Penguin Press.
2. Doner R. F., Schneider B. R. (2016). The middle-income trap: More politics than economics. World Politics, Vol. 68, No. 4, pp. 608—644. https://doi.org/10.1017/S0043887116000095
3. Faccio M. (2006). Politically connected firms. American Economic Review, Vol. 96, No. 1, pp. 369—386. https://doi.org/10.1257/000282806776157704
4. Falk R. (2007). Measuring the effects of public support schemes on firms innovation activities. Research Policy, Vol. 36, No. 5, pp. 665—679. https://doi.org/10.1016/j.respol.2007.01.005
5. Hausmann R., Hidalgo C. A., Bustos S., Coscia M., Chung S., Jimenez J., Simoes A., Yildirim M. A. (2014). The atlas of economic complexity: Mapping paths to prosperity. MIT Press.
6. Hausmann, Ricardo and Dani Rodrik, "Economic Development as Self-Discovery", Journal of Development Economics, vol. 72, December 2003.
7. Imbs, Jean, and Romain Wacziarg, "Stages of Diversification," American Economic Review, 93(1), March 2003, 63-86.
8. Klinger, Bailey, and Daniel Lederman, (2004). "Discovery and Development: An Empirical Exploration of 'New' Products," World Bank, August.
9. Laffont J-J (2005) *Regulation and Development*, Cambridge: Cambridge University Press
10. Montmartin B., Herrera M. (2015). Internal and external effects of R&D subsidies and fiscal incentives: Empirical evidence using spatial dynamic panel models. Research Policy, Vol. 44, No. 5, pp. 1065—1079. https://doi.org/10.1016/j.respol.2014.11.013
11. Newbery, D. (1999). Privatization, Restructuring and Regulation of Network Industries, Cambridge, Mass.: MIT Press.
12. Rodrik D. (2004). Industrial policy for the twenty-first century. KSG Working Paper, No. RWP04-047.

13. Rodrik D. (2005). Growth strategies. In: P. Aghion, S. N. Durlauf (eds.). Handbook of economic growth, Vol. Part A. Elsevier, pp. 967—1014. https://doi.org/10.1016/S1574-0684(05)01014-2
14. Shleifer A., Vishny R. W. (2002). The grabbing hand: Government pathologies and their cures. Harvard University Press.
15. Stiglitz, J. (1998). 'Private Uses of Public Interests: Incentives and Institutions', Journal of Economic Perspectives, 12(2): 3-22.
16. Поланьи, Карл, Великая трансформация. Политические и экономические истоки нашего времени. Пер.с англ.А.А.Василева, С.Е.Федорова и А.П.Шурбелева под.обш.ред. С.Е.Федорова. СПб.: Алтейя, 2002 – 320 с. (Pax Britanica).
17. Гоббс Т. (2017). Левиафан. М.: Рипол-Классик.

# TURİZMİN İQTİSADİYYATIN YAŞILLAŞDIRILMASINDAKİ ROLU

**Yusifzadə Sadiq**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**jo.sadig437@gmail.com**

## Xülasə

Ərazidə turizm fəaliyyətinin davamlı olması üçün atılan addımları əhatə edərək, turizm resurslarında hərtərəfli və məqsədyönlü şəkildə istifadəni stimullaşdırır. Dayanıqlı turizmin əsasında turizm resurslarından maksimum səmərəli istifadə dayanır. Buna görə də dayanıqlı turizm həm də davamlı turizm adlanır. Müasir dövrdə bir çox ölkələr təbiət, cəmiyyət, iqtisadi inkişaf və ekoloji vəziyyət arasında dayanıqlı əlaqələr yaratmağa çalışır. Planetdə insan sayının və mədəni tələbatların artması ilə bərabər, eyni zamanda ehtiyatların məhdudluğu da turizmdə dayanıqlı inkişafın təkcə bir region üçün deyil, bütün dünya üçün vacib olduğunu ortaya qoyur.

Turizmin dayanıqlığının təmin olunması turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və s. fəaliyyətləri nəzərdə tutur.

Dayanıqlı turizmin həll etmək istədiyi ən vacib problem turizm resurslarından səmərəli istifadə etməklə yanaşı, bu resursları gələcək nəsillər üçün qoruyub saxlamaqdır. Bundan başqa, dayanıqlı turizm seçilmiş ərazidə turizm fəaliyyətinin mövsümi deyil, daimi səciyyə daşımasını hədəfləyir.

Dünya üzrə neft sənayesinin zəifləməsi ölkəmizi yeni gəlir mənbələrinə yönəlməyə məcbur edir. Qeyd etmək lazımdır ki, turizm neft və maşınqayırmadan sonra dünya üzrə ən gəlirli 3-cü sahədir.

**Açar sözlər:** dayanıqlılıq, yaşıl iqtisadiyyat, yaşıl turizm, qlobal iqtisadiyyat, ekoloji vəziyyət

## Abstract

Encourages the comprehensive and purposeful use of tourism resources, covering the steps taken to sustain tourism activities in the area. Sustainable tourism is based on the maximum efficient use of tourism resources. Therefore, sustainable tourism is also called sustainable tourism. In modern times, many countries are trying to establish a stable relationship between nature, society, economic development and the environmental situation. Along with the increase in the number of people and cultural needs on the planet, the limited resources also show that sustainable development of tourism is important not only for one region, but for the whole world.

Ensuring the sustainability of tourism includes the study and expansion of tourism resources, the organization of services necessary to meet the needs of tourists and their adaptation to modern standards, expanding the capacity of sanatoriums, increasing the number of hotels and other tourism facilities, increasing tourist routes, etc. involves activities.

The most important problem that sustainable tourism wants to solve is the efficient use of tourism resources, as well as the preservation of these resources for future generations. In addition, sustainable tourism aims to make tourism activities in the selected area permanent, not seasonal.

**Keywords:** sustainability, green economy, green tourism, global economy, environmental situation

## Giriş

Sivilizasiyanın indiki mərhələsində dünyanın müxtəlif ölkələrinin vətəndaşları arasında istehlak səviyyələrində kəskin fərqlər mövcuddur. İstehlakda belə kəskin fərqlər ölkə daxilində vətəndaşlar arasında da müşahidə oluna bilər. Beynəlxalq təşkilatların fikrincə, bir ölkədə vətəndaşların rifah və istehlak səviyyələrinin yüzlərlə dəfə fərqlənməsi də mümkündür. Müasir cəmiyyətin üzləşdiyi iqtisadi və sosial problemlərə cavab tapmaq baxımından ekologiyanın üzərinə düşən və üzərinə götürməli olduğu bir çox vəzifələr vardır. Problemlər aydın görünəndə, bu, alternativ həll yollarını araşdırmaq və tapmaq üçün yaxşı bir yol ola bilər. Məhdud resurslardan optimal istifadə etməklə yanaşı, ətraf mühitə mənfi təsirləri azaltmaqla əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq mümkündür. Çoxdan deyirlər ki, təbii ehtiyatların qıtlığı ilə mübarizə real işdir.

Yerli insanlara iqtisadi və sosial faydalar vermək, ətraf mühiti qorumaq baxımından turizmin çox xüsusi yeri var. Turizmdə iqtisadi inkişaf və ətraf mühitin mühafizəsi ziddiyyətli məqsədlər kimi qəbul edilməməlidir. Yaşıl iqtisadiyyat və turizm arasındakı əlaqə nəticəsində bu iki ifadə bir-birini gücləndirəcək və dayanıqlı turizm anlayışı ortaya çıxacaqdır.

Turizmin inkişafı təbii sərvətlərin mövcudluğundan və insanların diqqətini cəlb edən ekoloji fakturadan asılı olduğundan bu sərvətlərin qorunması və ekoloji fakturanın qorunub saxlanması turizmin dayanıqlılığı üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Dayanıqlı turizm gələcək üçün imkanları qoruyaraq və genişləndirməklə yanaşı, turistlərin və ev sahibi regionların ehtiyaclarını qarşılayan turizm yanaşmasıdır (Mercan və Özkök, 2013). Bu tərifdə qeyd olunan gələcək üçün imkanların qorunması və inkişafı yaşıl iqtisadiyyatla mümkün olacaq. Siyasətlər və fəaliyyətlər turizm sektorunun faydalarını artıracaq və xərclərini azaldacaq şəkildə formalaşdırıldığında dayanıqlı turizm əldə ediləcəkdir(Akar S., 2019).

In Table 9 we examine the surviving ratio by sector. Only the more populated sectors were presented (populated means that the number of social cooperatives belonged to the particular sector is more or equal with 30).

**Table 8 The most populous sectors ordered by the survivor ratio**

| Name | Active | Tax evasion | Erased from registry | Under liquidation | Non-active | Total | Surviving ratio |
|---|---|---|---|---|---|---|---|
| Education | 33 | 1 | 78 | 19 | 98 | 131 | 25,19% |
| Wholesale | 18 | 0 | 40 | 11 | 51 | 69 | 26,09% |
| Waste management | 15 | 0 | 34 | 1 | 35 | 50 | 30,00% |
| Clothing | 10 | 0 | 20 | 2 | 22 | 32 | 31,25% |
| Agriculture | 135 | 3 | 251 | 31 | 285 | 420 | 32,14% |
| Job placement | 41 | 0 | 67 | 8 | 75 | 116 | 35,34% |
| Beauty industry | 26 | 0 | 38 | 8 | 46 | 72 | 36,11% |
| Communal activity | 96 | 3 | 138 | 26 | 167 | 263 | 36,50% |
| Retail trade | 119 | 1 | 175 | 23 | 199 | 318 | 37,42% |
| Vehicle maintenance | 12 | 0 | 16 | 2 | 18 | 30 | 40,00% |
| Sport activity | 26 | 0 | 33 | 5 | 38 | 64 | 40,63% |
| Forestry | 15 | 0 | 20 | 2 | 22 | 37 | 40,54% |
| Horticulture | 57 | 3 | 68 | 11 | 82 | 139 | 41,01% |
| Timber | 32 | 2 | 36 | 5 | 43 | 75 | 42,67% |
| Social care | 22 | 0 | 26 | 3 | 29 | 51 | 43,14% |
| Real estate management | 13 | 1 | 14 | 2 | 17 | 30 | 43,33% |
| Packaging | 51 | 3 | 51 | 9 | 63 | 114 | 44,74% |
| Food industry | 114 | 2 | 107 | 27 | 136 | 250 | 45,60% |
| Accomodation | 48 | 1 | 51 | 4 | 56 | 104 | 46,15% |
| Restorant service | 51 | 0 | 50 | 9 | 59 | 110 | 46,36% |
| Management advice | 43 | 2 | 40 | 6 | 48 | 91 | 47,25% |
| Building industry | 64 | 2 | 53 | 7 | 62 | 126 | 50,79% |
| Toy manufacturing | 17 | 0 | 15 | 1 | 16 | 33 | 51,52% |
| Electrical installation, roofing | 52 | 0 | 42 | 3 | 45 | 97 | 53,61% |
| Building materials manufacturing | 21 | 0 | 16 | 1 | 17 | 38 | 55,26% |
| Metallurgy | 20 | 0 | 13 | 0 | 13 | 33 | 60,61% |
| **Total** | **598** | **11** | **1069** | **155** | **1235** | **1833** | **32,62%** |

Source: CREFO database, own work

The sectors are ranked in an ascending order by the surviving ratio (top – least survive, bottom – most survive). The columns represent the legal status of the companies.

Considering those sectors where the surviving ratio is more than 50%, all of them commit to different kind of industrial activities (Metallurgy, Building materials manufacturing, Roofing, Toy manufacturing, Building industry). The next segment is significantly more successful than the average (i.e. 40% but less successful than 50%). Service sector enterprises (like accommodation, restaurant, social care, packaging) and rural industries (like forestry, horticulture, timber) can be found here. Around the average (from 30% and 40%) you can find the most populated sectors (agriculture, retail trade, communal activities).

**Determining The Best Measure Of Surviving**

In the methodology part several ratios were introduced which can highlight the sources of surviving. Now the explanation power of these ratio was examined by the method of discriminant analysis. This method is generally used to find predictive variables for a binary variable. Here the binary variable was if the social cooperative is still active or suspend/cancel its operation. The predictive variables were the indicators introduces in the methodology part of this paper, namely the Operational sustainability (own invention), EBITDA margin, Capital Levarage and Current Ratio. In addition to the length of the operation were used. The statistics were made by the SPSS version 25.0. The steps were the following.

1. The total number of cases was 11742 from the financial report of 2961 social enterprises. Because the length of operation was different in case of these enterprises, also not every financial report was available, the sample was queried. The last available report was taken and neglected those records were the sum of Net Sales and Other Revenues was equal to 0. The query command looked like this:

filter_$=(Net_Sales + Other_Rev>=0 AND Last_report=XDATE.YEAR(Date))

2. The sample size is reduced to 1874. This sample represents 973 non-active, and 901 active enterprises. The correlation matrix of the predictive variable shows that they are linearly independent from each other. The maximum value was 0,123 (between the age and operational sustainability) without the diagonal values.

**Table 9 Group statistics**

| Activity | Predictive variables | Mean | Std. Deviation | Valid N (listwise) |
|---|---|---|---|---|
| Non-active | Operational sustainability | 0,267 | 0,424 | 973 |
| | Equity/Total_Assets | -9,773 | 145,418 | 973 |
| | Age | 3,393 | 1,796 | 973 |
| | EBITDA/Sales | -1,029 | 16,357 | 973 |
| | Current Assets/Current Liabilities | 2,986 | 16,974 | 973 |
| Active | Operational sustainability | 0,541 | 0,425 | 901 |
| | Equity/Total_Assets | -1,546 | 12,058 | 901 |
| | Age | 4,992 | 2,262 | 901 |
| | EBITDA/Sales | -0,984 | 8,612 | 901 |
| | Current Assets/Current Liabilities | 10,391 | 175,219 | 901 |
| Total | Operational sustainability | 0,399 | 0,446 | 1 874 |
| | Equity/Total_Assets | -5,817 | 105,170 | 1 874 |
| | Age | 4,162 | 2,184 | 1 874 |
| | EBITDA/Sales | -1,008 | 13,209 | 1 874 |
| | Current Assets/Current Liabilities | 6,546 | 122,130 | 1 874 |

Source: own-work

The EBITDA/Sales does not seem a good separator, since the mean is almost the same in the non-active and the active part of the sample. The difference in Current Assets/Current Liabilities and in Equity/Total Assets are much bigger but the standard deviation inside of the two groups is very high. The Age difference is less than one year but the internal standard deviation is relatively small. The most promising variable could be the Operational sustainability where the mean difference seems to be high compared the internal standard deviation.

**Table 10 Test of Equality of Group Means**

| Pedictive variables | Wilks' Lambda | F | df1 | df2 | Sig. |
|---|---|---|---|---|---|
| **Operational sustainability** | 0,906 | 194,993 | 1 | 1 872 | 0,000 |
| **Equity/Total_Assets** | 0,998 | 2,865 | 1 | 1 872 | 0,091 |
| **Age** | 0,866 | 289,554 | 1 | 1 872 | 0,000 |
| **EBITDA/Sales** | 1,000 | 0,005 | 1 | 1 872 | 0,941 |
| **Current Assets/Current Liabilities** | 0,999 | 1,720 | 1 | 1 872 | 0,190 |

Source: own-work

The Operational sustainability, the Age are significantly different at 95% level, the EBITDA/Sales is the least significant variable.
The significance of Box's M test was less than 0,001 which indicates that the result of the discriminant analysis should treat with care.
However, the canonical correlation of our model 0,436 which indicates that the predictive variables has got a 66% explanation power (square of 0,436).
The structure matrix indicates that the age and the Operational sustainability help to separate the active and the non-active groups, the three other ratios has got much smaller importance.

**Table 11 The structure matrix**

| Predictive variables | Function |
|---|---|
| **Age** | 0,812 |
| **Operational sustainability** | 0,666 |
| **Equity/Total_Assets** | 0,081 |
| **Current Assets/Current Liabilities** | 0,063 |
| **EBITDA/Sales** | 0,004 |

Source:own-work

Finally the classification matrix shows the real validity of our discriminant model. Our modell predicted the proper legal status in 1302 cases fsrom 1874 which is 69,4%. The modell predicted the non active cases better than the active ones 73.1% compared to 65.6%. 262 cases were predicted to active, but they were non-active and 310 cases were indicated to non-active but the legal status was active.

**Table 12 Classification matrix**

| Activity | | Predicted Group Membership | | Total |
|---|---|---|---|---|
| | | Non-active | Active | |
| Count | Non-active | 711 | 262 | 973 |
| | Active | 310 | 591 | 901 |
| % | Non-active | 73,1 | 26,9 | 100 |
| | Active | 34,4 | 65,6 | 100 |

Source:own-work

This method was simply used to choose the best predictive ratio of sustainability. This discriminant analysis showed that the operational sustainability ratio is the far better indicator than the rest ones (the age is not a predictive variable, the reason to use was to clear our model from the length of operation)

## Conclusion

The results of the papers are the following:

1 Three major subsidisation programmes were launched in the last decade to promote the operation of social cooperatives - The Kooperáció, the GINOP and the Focus programme respectively. The effectiveness of the programmes proved better during the time, however the effectiveness inside the framework of the unique programmes decreased, which indicated a serious dilution of the late applicants. Also, the annual fluctuation of the available subsidies could threat the effectiveness of these programmes.

2 Considering the sectorial distribution of the surviving social cooperatives, we stated, that some industrial sectors like Metallurgy, Building materials manufacturing, Roofing, Toy manufacturing, Building industry are most successful than the average, while the most populated sectors like agriculture, retail trade, communal activities are more likely ceased to exist after the maturity of the applications.

3 Several ratios were tested to predict the sustainability of a social cooperative, namely the Operational Sustainability, the EBITDA margin, the Capital Adequacy and the Current Ratio. A discriminant analysis was used to highlight the importance of these ratio. The result of the analysis was that the Operational Sustainability has got far better predictive nature than the rest ones.

## References


1. Act on Accounting, 2000 *Magyar Közlöny* 21st of September. 2000
2. Act on Cooperatives, 2006 *Magyar Közlöny* 4th of January. 2006
3. Borzaga C. – Galera G., 2009 Social Enterprise: An International Overview of its Conceptual Evolution and Legal Implementation November *Social Enterprise Journal* 5(3):210-228 DOI: 10.1108/17508610911004313
4. Borzaga, C. and Ianes, A., 2006, *L'Economia della Solidarieta`. Storia e Prospettive della Cooperazione Sociale*, Donzelli Editore, Roma.
5. Castel R., 1998 *A szociális kérdés alakváltozásai*. Max Weber Alapítvány – Wesley Zsuzsanna Alapítvány – Kávé Kiadó. Budapest
6. Csoba J., 2007 *A szociális gazdaságot életre hívó folyamatok* In: Frey Mária: Szociális gazdasági kézikönyv. Pátria Nyomda. Budapest

7. Emmerij L., 1994 The employment problem and the international economy. *International Labour Review*. 144/4, 449-466.
8. Fenyves, V. – Bács, Z. – Zéman, Z. − Böcskei E. − Tarnóczi, T., 2018 The Role of the Notes to the financial statements in corporate decision-making. *Corporate ownership and controls* 15:4 pp. 138-148.
9. Fókuszban, 2006 In focus – the social cooperatives with local government membership *OFA Subsidiary call*
10. Frey M., 2007 *Szociális gazdasági kézikönyv*. Pátria Nyomda. Budapest
11. Government Decree on Social Cooperatives, 2006 *Magyar Közlöny* 29th of June. 2006
12. Government Decree on the Aim of Public Work Programme 2016 *Magyar Közlöny* 11th of February. 2016
13. Katonáné Kovács. J.. Varga. E.. & Nemes. G., 2017 In focus the process of social innovation in the Hungarian countryside *Észak-magyarországi Stratégiai Füzetek*. 14(1). 6–19.
14. Nyssens, M., 2006 *Social Enterprise*, Routledge, London
15. OFA, 2020 *Methodological Manual II - From founding a social cooperative to the sustainable operation* OFA ISBN 978-963-806283-7-1
16. Piactárs, *2017 How can the public sector cooperate with social enterprises?* Methodological Manual for Public Organisations OFA ISBN 978-615-80260-9
17. Simkó J. – Tarjányi O., 2011 *The social cooperatives and the analysis of programmes aiming their support* OFA
18. Social economy and social entrepreneurship Social Europe guide Volume 4, 2013 Luxembourg: *Publications Office of the European Union*, 2013 ISBN: 978-92-79-26866-3 doi: 10.2767/79109 European Union
19. Süveges G., 2019 The relationship between aims, methods and their financial aspects in the case of social innovations in the field of district heating. *Oradea Journal of Business and Economics IV. Special Issue* (29-38) ISSN: 2501-1596 2501-3599
20. Számadó R., 2011 *Methodological Manual - From founding a social cooperative to the sustainable operation* OFA ISBN 978-963-88223-6-9
21. Szövetkezz, 2007 *Let's co-operate. Application for founding social cooperatives*. [online] Available at: https://palyazatok.org/palyazat-a-szocialis-szovetkezetek-fejlesztesere-es-bovitesere-szovetkezz2007/
22. Zeli, A., 2014 The financial distress indicators trend in Italy:an analysis of medium-size enterprises. *Eurasian Economic Review*, 4, pp. 199–221.
23. NACE, 2008 *Statistical classification of economic activities in the European Community* ISBN 978-92-79-04741-1
24. OPTEN, 2020 "Hullanak a szociális szövetkezetek" *Opten Közlemények* 06/07/2020 [online] Available at: https://www.opten.hu/kozlemenyek/hullanak-a-szocialis-szovetkezetek.
25. https://www.aki.gov.hu/2021/09/29/a-szocialis-szovetkezetek-szerepe-a-helyi-fejlesztesben/

## AZƏRBAYCANININ COĞRAFİ ÜSTÜNLÜKLƏRİNİN NƏQLİYYAT SİSTEMİNİN İNKİŞAFINA TƏSİRİ

**Veysəl Əyyubov**

**Mingəçevir Dövlət Universiteti**

**eyyubovveysel@yahoo.com**

**Saqib Məmmədov**

**Mingəçevir Dövlət Universiteti**

**mammadovsaqib@gmail.com**

**Xülasə**
Müstəqilliyini bərpasından sonra enerji sektorunun inkişaf etdirilməsi Azərbaycan üçün mühüm əhəmiyyət kəsb etmişdir. Enerji sektorunun rolunun artması ölkənin geosiyasi və geoiqtisadi məsələlərdə iştirakına həlledici təsir göstərdi. Enerji sektoru üzrə infrastrukturun yaradılması davamlı prosesdir və iqtisadi artıma təsir edən əsas faktorlardan sayılır. Lakin məhdud sayda sektorlardan asılı olmaq riskini nəzərə alaraq, milli iqtisadiyyatın şaxələndirilməsinə ehtiyac var. Azərbaycanın gələcək davamlı inkişafını dəstəkləmək üçün bir sıra istiqamətlər müəyyən edilib ki, əlverişli yerləşməsinə görə inkişaf üçün nəzərdə tutulan sahələrdən biri də nəqliyyatdır. Azərbaycan əsas dünya bazarlarına maneəsiz çıxış imkanı verəcək alternativ dayanıqlı tranzit marşrutlarının inkişafını təklif edir. Bu proses logistik infrastrukturun formalaşdırılması, transsərhəd transferlərin əlaqələndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, üçüncü dövlətlərlə daşımalarda rəqabətədavamlı nəqliyyat infrastrukturunun inkişafını nəzərdə tutur. Bu məqalə Azərbaycanın əlverişli goeostrateji mövqeyindən daha geniş istifadə və bu əsasda tranzit potensialının reallaşdırılması imkanlarından bəhs edir. Dünyada və regionda cərəyan edən yeni reallıqlar fonunda ölkəmizin iqtisadi təhkükəsizliyinin təmin edilməsində nəqliyyat sisteminin rolu və əhəmiyyəti yüksək sürətlə artmaqdadır. Əlverişli coğrafi üstünlüklərdən üstünlüklərdən istifadə edərək yeni çağırışlara cavab verə bilən nəqliyyat infrastrukturun formalaşdırılması və inkişaf etdirilməsi günümüz əsas tələblərindən sayılır.
**Açar sözlər:** nəqliyyat sistemi, dəniz limanları, logsitika

**Abstract**
After regaining its independence, the development of the energy sector has become important for Azerbaijan. The growing role of the energy sector has had a decisive impact on the country's participation in geopolitical and geoeconomic issues. The creation of infrastructure in the energy sector is an ongoing process and is one of the key factors influencing economic growth. However, given the risk of dependence on a limited number of sectors, there is a need to diversify the national economy. To support the future sustainable development of Azerbaijan, a number of areas have been identified, one of which is transport, due to its convenient location. Azerbaijan offers the development of alternative sustainable transit routes that will provide unimpeded access to major world markets. This process envisages the formation of logistics infrastructure, coordination of cross-border transfers, improvement of the legal framework, development of competitive transport infrastructure for transportation with third countries. This article discusses the wider use of Azerbaijan's favorable geostrategic position and the possibility of realizing its transit potential on this basis. Against the background of new realities in the world and in the region, the role and importance of the transport system in ensuring the economic security of our country is growing rapidly. One of the main requirements of today is the formation and development of transport infrastructure that can meet new challenges, taking advantage of favorable geographical advantages.
**Key words:** transport system, seaports, logistics

## Giriş

Mövzuda nəqliyyatın  bəşər cəmiyyətinin inkişaf tarixində mühüm rol oynayan faktorlardan biri kimi qiymətləndirilmişdir. Nəqliyyatın inkişafı cəmiyyətin inkişafı ilə əlaqəli olmuş, istehsal sahələrinin inkişafında və məhsuldar qüvvələrin formalaşmasında təsir edici amillərdən biri olmuş, daim təkmilləşmiş

və formalaşmışdır. Nəqliyyatın yalnız yük və sərnişin daşınma əməliyyatlarını yerinə yetirməməsi, eyni zamanda təbii və əmək resurslarının istehsal dövriyyəsinə cəlb olunmasında, məhsuldar qüvvələrin inkişafında, istehsal sahələrinin ərazi üzrə səmərəli təşkilində, əhalinin məskunlaşmasında, şəhər və kəndlərin əmələ gəlməsində əsas faktor rolunu oynaması əsaslandırılmışdır.
BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə dair Gündəliyində nəqliyyat əlaqəsi və dayanıqlı nəqliyyat infrastrukturu dayanıqlı inkişafa doğru sürətlənmiş tərəqqiyə nail olmaq üçün həyati əhəmiyyət kəsb edən amil kimi qiymətləndirilməsi nəzərə alınaraq ölkənin inkişafında rolu qiymətləndirilmişdir. Səmərəli nəqliyyat əlaqəsi və dayanıqlı nəqliyyat infrastrukturu dənizə çıxışı olmayan ölkələrin məhsuldar potensialını artıra, birbaşa xarici sərmayələr də daxil olmaqla investisiyaları cəlb edə, beynəlxalq bazarlarda rəqabət apara və sosial inkişafa və iqlim fəaliyyətinə dəstək verə biləcək mühüm vasitədir. Məhz bu əsasda dənizə çıxışı olmayan ölkələrin əksəriyyəti infrastrukturların yaradılmasına investisiyaları artırmağa və digər qonşu və ya digər tranzit ölkələrlə əlaqə yaratmaq üçün dəmir yolu və yol layihələri həyata keçirməyə çalışmalarının vacibliyi nəzər çatıdırılmış, bu məqsədlə müqayisəli təhlil metodundan istifadə edilmişdir.

**Nəqliyyat Və Logistika Siteminin Əhəmiyyəti**

Bazar iqtisadiyyatı şəraitində istehsalın çoxsahəli inkişafında, məhsuldar qüvvələrin ərazi təşkilində, daxili və xarici iqtisadi əlaqələrin formalaşmasında nəqliyyat mühüm əhəmiyyət kəsb etməklə yanaşı, öz aktuallığı ilə daim diqqət mərkəzində olmuşdur. Təsərrüfatın ərazi təşkilində, məhsuldar qüvvələrin yerləşdirilməsində nəqliyyat özünün çevikliyinə görə əsas apancı sahələrdən hesab edilir Nəqliyyat və kommunikasiya yollarının bərpa edilməsi və yeni tranzit imkanlarının formalaşdırılması müasir dövrdə dövlətlərin qarşısında duran strateji vəzifələrdəndir. Məşhur qərb politoloqu Zbiqnev Bjezinskinin tərəfindən "Böyük şahmat lövhəsi" adlandırılan Avrasiya materikində ölkələrarası siyasi-iqtisadi əlaqələrin inkişaf etdirilməsi baxımından mövcüd yol-nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi strateji əhəmiyyət kəsb edir. Cənubi Qafqaz regionunun aparıcı ölkəsi olan Azərbaycan Respublikası öz əlverişli mövqeyindən maksimum istifadə edərək, beynəlxalq səviyyədə nəqliyyat-kommunikasiya əlaqələrinin təşəkkül tapmasında fəal rol oynayır. Həmçinin, ölkəmiz yeni infrastruktur layihələrinin təşkilində fəal iştirak etməklə, potensial nəqliyyat dəhlizlərinin də reallığa çevrilməsinə təkan verir. (Məmmədov, 2021)
Azərbaycanın geostrateji mövqeyi ticarət gəlirlərinin artırılmasına imkan verir. Ölkəmizin logistika sahəsində əldə etdiyi inkişaf templəri onun regional əhəmiyyətli və beynəlxalq səviyyədə ticarət qovşağı rolunun artmasına təkan verəcək amillərdəndir. Nəzərə alsaq ki, Şərq-Qərb dəhlizi və Şimal-Cənub nəqliyyat yolları ölkəmizdən keçir, bunun sayəsində ölkəmiz həm tranzit ticarətində, həm də idxal-ixrac əməliyyatlarından faydalanmaq imkanlarına malikdir. Liman və dəmir yolları ilə bağlı bir sıra mühüm infrastruktur layihələri artıq yekunlaşmışdır. (Strateji yol xəritəsi, 2016)
Bu nəhəng infrastruktur lahiyələrindən biri Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Liman Bakı şəhərindən 70 kilometr cənubda, Azərbaycanın mühüm dəmir yolu və avtomobil yollarının qovuşduğu Ələt qəsəbəsində yerləşir. Limanın imkanlarından istifadə etməklə Asiya qitəsindən gələn yüklər birbaşa olaraq Bakı-Tbilisi-Qars (BTQ) dəmir yoluna qoşulmaq bir həftədən də qısa müddətə Avropaya çata bilir. Yerləşdiyi ərazinin əsas üstünlükləri sayəsində Beynəlxalq liman Xəzər dənizi hövzəsində ən nəhəng nəqliyyat və logistika qovşağına çevrilməkdədir. Nəticədə, liman Xəzəryanı dövlətlərin əməkdaşlıq formatının genişləndirilməsi üçün əvəolunmaz töhfə verən, həmçinin Şimal-Cənub və Şərq-Qərb istiqamətində nəqliyyat əlaqələrinin genişlənməsinə şərait yaradan bir infrastruktur rolundadır.
Bütün Xəzər dənizi hövzəsi ölkələrinin yeni nəqliyyat limanlarının yaradılması, yenidən təşkili və inkişafı üzrə səyləri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu və Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhlizi kimi tranzit əhəmiyyətli layihələrinin artan əhəmiyyəti ilə bağlıdır. Nəqliyyət qovşaqlarında yerləşən

ölkələr öz nəqliyyat sistemlərini inkişaf etdirərək, əsas iqtisadi güc mərkəzləri olan Avropa və Asiya qitələri arasında yüklərin tranzitində əsas oyunçu olmağa çalışırlar. Hər bir region ölkəsinin vacib nəqliyyat və tranzit mərkəzinə çevrilmək istəyi Xəzər dənizində rəqabət mühitinin yaranmasına səbəb olur. (Məmmədov 2021)

Ancaq Xəzər dənizi hövzəsində yerləşən ölkələr arasında rəqabətdə Azərbaycan Respublikasının bir sıra üstünlükləri vardır. Birincisi, ölkəmiz, artıq dəmir yolları, avtomobil yolları və limanın özü kimi bütün lazımi infrastrukturu yaradıb. Azərbaycan Bakı Limanı və Bakı Tbilisi Qars dəmiryolu vasitəsilə Çin Xalq Respublikasından gələn yüklərin Avropaya 12 gün ərzində çatmasına imkan yaradan müvafiq istiqamətdə ən qısa nəqliyyat marşrutu yaradıb. Beynəlxalq Şimal-Cənub Nəqliyyat Dəhliz çərçivəsində Azərbaycan Respublikası İranla da yaxından əməkdaşlıq edir.

Həmçinin, Azərbaycanın coğrafi imkanları həm şimal-cənub, həm də şərq-qərb nəqliyyat dəhlizlərində iştirak etməyə imkan verən coğrafi mövqeyinə görə üstünlüyə malikdir. Mərkəzi Asiya ölkələri, o cümlədən Qazaxıstan və Türkmənistanın yerləşdiyi ərazi yalnız şərq-qərb tranzit imkanlarından istifadə üçün əlverişlidir və həmin ölkələrin limanları yalnız həmin marşrut üzrə yüklərin hərəkəti və daşınması üçün istifadəyə imkan verir.

Bundan başqa, Bakı Beynəlxalq Limanının əsas rəqibi ola biləcək Rusiya Federasiyasının Laqan Limanının gələcəyi sual altındadır. Belə ki, böyük maliyyə resursları (1,6 milyard ABŞ dolları) tələb edəcək və tikintisinə uzun vaxt sərf olunacaq. Hazırda Rusiya Federasiyasının və İranın adı çəkilən limanın tikintisinə böyük maraq göstərmələrinə baxmayaraq, Laqan limanının tikinintisini başa çatdırmaq üçün kifayət qədər maliyyə vəsaitinə malik deyillər. Halbuki, layihənin tikintisinə səy göstərən və digər potensial maliyyə mənbəyi olan Çin Xalq Respublikası Laqan limanına investisiya qoymaqdan və onun tamamlanmasını gözləməkdənsə, Azərbaycanda mövcud infrastrukturdan istifadə etməyi əlverişli hesab edir. Bu səbəblərə görə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bütün regional nəqliyyat imkanlarını cəmləşdirmək və yük dövriyyəsi baxımından yaxın gələcəkdə Xəzər dənizində ən əhəmiyyətli liman olaraq qalacaq. Ələt limanının inkişafı Azərbaycanın regionda və beynəlxalq miqyasda mövqeyini möhkəmləndirməsi, nəqliyyat sektorunda yükdaşımaların artırılamsı üçün fürsət yaradacaqdır. (İbrahimov, 2016)

**Cədvəl 1. MDB Ölkələri Üzrə Nəqliyyat Sektorunda Yük Daşınması, Milyon Ton**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 210,9 | 217,9 | 222,0 | 222,4 | 222,5 | 226,4 | 230,1 | 235,3 | 188,6 |
| Belarus | 484,4 | 471,2 | 467,5 | 447,2 | 417,6 | 439,5 | 455,5 | 427,8 | 398,7 |
| Ermənistan | 11,2 | 12,3 | 9,2 | 9,3 | 18,6 | 25,5 | 26,3 | 11,2 | 11,5 |
| Qazaxıstan | 3.231,8 | 3.508,0 | 3.749,8 | 3733,8 | 631,5 | 737,4 | 813,7 | 838,6 | 829,0 |
| Qırğızıstan | 26,9 | 27,9 | 28,9 | 29,7 | 31,2 | 31,9 | 33,0 | 34,2 | 26,8 |
| Moldova | 27,9 | 30,8 | 32,9 | 30,6 | 32,2 | 37,8 | 38,2 | 33,1 | 18,3 |
| Özbəkistan | 1.329,3 | 1.387,1 | 1.458,9 | 1527,0 | 1132,5 | 1146,2 | 1243,0 | 1319,8 | 1.378,80 |
| Rusiya | 4.382,6 | 4.320,0 | 4.203,8 | 4083,5 | 4133,9 | 4282,4 | 4351,1 | 4211,6 | 3.872,70 |
| Tacikistan | 52 | 52,2 | 54,4 | 53,9 | 55,5 | 54,9 | 54,4 | 53,2 | 59,1 |
| Türkmənistan | … | … | … | … | … | … | … | … | … |
| Ukrayna | 771,9 | 759,4 | 672,1 | 601,8 | 624,6 | 636,8 | 624,6 | 674,5 | 600,0 |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi, www.stat.gov.az

**Azərbaycanın Liman İnfrastrukturu**

Müasir dəniz ticarət limanı dəniz nəqliyyatının digər nəqliyyat növləri ilə qarşılıqlı əlaqədə olduğu böyük bir nəqliyyat qovşağıdır. Dəniz yolları ilə daşınan yüklərin 90%-ə qədəri qarışıq dəmiryolu-su nəqliyyatları

vasitəsilə reallaşdırılır və limanlar müxtəlif nəqliyyat növləri vasitəsilə həyata keçirilən daşınma prosesinin fasiləsizliyini təmin edən bir infrastrukturdur. (Məmmədov, 2002)

Bu əsasda Xəzər danizi sahlində yerləşən Zığ Quru Yük Dəniz Limanı xüsusi əhəmiyyət malikdir. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti nəzdində fəaliyyət göstərən Limanın ASCO-ya məxsus quru yük limanının fəaliyyətinin təşkili, istismarı və idarə olunması, ticarət gəmiçiliyi məqsədi ilə istifadə olunan gəmilərə və sərnişinlərə xidmət göstərilməsi, yük ilə əməliyyatların aparılması və digər müvafiq liman xidmətlərinin göstərilməsindən ibarətdir. Liman ərazisinin sahəsi 10 hektar, Yük terminalının illik yükötürmə qabiliyyəti 1.150 min tondur. Limanın əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- yedək əməliyyatlarının aparılması işlərini təşkil edir;
- ASCO-ya məxsus müvafiq gəmilərlə daşınan nəqliyyat vasitələri və sərnişinlər üçün biletlərin satışını həyata keçirir;
- ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün profilaktik tədbirlər görür və fəaliyyətində mütərəqqi iş üsullarını tətbiq edir və s.

Yük dövriyyəsi həcminə görə ökləmizin ikinci limanı sayılan Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı 1956-cı ildən fəaliyyət göstərir. Limanın sahəsi 14 hektara yaxındır. Yük terminalının illik yükötürmə qabiliyyəti 8.602.8 min tondur. Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı il ərzində 11000 konteyner boşaldıb, yükləyib və saxlaya bilir.

Beynəlxalq miqyasda ən mühüm iqtisadi məsələlərdən biri olan tarixi İpək Yolunun yenidən bərpası istiqamətində aparılan intensiv fəaliyyət və ölkəmizin Şimal-Cənub və Şərq-Qərb kimi iki böyük nəqliyyat dəhlizinin qovşağında yerləşməsi dəniz nəqliyyatının inkişafını şərtləndirən əsas amildir. Transxəzər maşrutu Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizinin ən böyük marşrutlarından biridir. Məhz bu nəqliyyat marşrutunun əsas hissəsini dəniz nəqliyyatı sistemi təşkil edir. (Azərbaycan Dövlət Dəniz Agentliyi, 2021)

Bu səbəbdən 6 mart 2016-cı il tarixdə Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" üzrə 1897 №-li Sərəncamına əsasən beynəlxalq ticarətin həcminin artırılması və tranzit ticarətindən əldə olunan gəlirin yüksəldilməsi məqsədi ilə qarşıya strateji hədəflər qoyulmuşdur. Logistika mərkəzləri və nəqliyyat qovşaqlarının formalaşdırılması strateji hədəf kimi müəyyənləşdirilmişdir. Potensial logistika mərkəzləri içərisində Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət limanı daha böyük əhəmiyyətə malikdir. 2025-ci llədək Orta Asiya-Çin, Şimali Afrika-Qara Dəniz ticarət marşrutu üzrə güclü platformaya çeviriləcək Bakı limanının regional ticarət qovşağı kimi əhəmiyyəti getdikcə artmaqdadır. (Yadigarov, 2018)

Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin qovuşmasında yerləşən Bakı Limanı Ələtdə (Bakıdan 70 km cənubda yerləşən qəsəbə) yaradılmışdır. Liman Cənubi Qafqazın Mərkəzi Asiya ölkələri ilə əlaqələndirilməsində mühüm rol oynamaqdadır. Yeni liman Bakının mərkəzində müasir tələblərə cavab verməyən köhnə limanı əvəz edərək, ümumi yüklərə, eləcə də sərnişin terminallarına xidmət göstərir. O, həm neft, həm də qeyri-neft yüklərini qəbul edə bilir. 2007-ci ildə Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə başlanılmış və tikinti işləri 2018-ci ildə yekunlaşmışdır. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də (Bakı Limanı) cari ilin birinci rübündə əsas xidmətlər üzrə nəzərə çarpacaq artım qeydə alınmışdır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm hissəsi olan limanda, 2021-ci ilin ilk üç ayı ərzində ümumi yükaşırmanın həcmi 1.4 milyon tondan artıq olubdur ki, bu da keçən ilin müvafiq göstəricisindən 16.7% çoxdur. 2021-ci ilin ilk rübündə tranzit yüklərin payı

ümumi yükaşırmanın 93%-ni təşkil etmişdir.  Bu göstərici ilə  ötən ilin eyni dövrü ilə müqayisədə 22%- lik artım qeydə alınmışdır. (Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, 2021)

2021-ci il iyulun 1-də paytaxt Bakıdan 40 mil cənubda, Beynəlxalq Dəniz Ticarət Limanının yanında yerləşən Ələt azad iqtisadi zonasının (AİZ) təməlqoyma mərasimi keçirilib. 850 hektar ərazini əhatə edən zona Azərbaycanın inkişafına xidmət edəcək. Xarici investorların və yeni texnologiyaların cəlb edilməsi yolu ilə qeyri-neft sektorunun ixracı əsas hədəf sayılır. AİZ dövlət tərəfindən təsdiq edilmiş unikal qanunvericiliyə malikdir ki, bu da ona ölkənin heç bir yerində mövcud olmayan bir sıra təşviq mexanizmləri, o cümlədən vergilərdən və gömrük rüsumlarından azadolmalar mövcuddur.  Hökumət həmçinin yeni Ələt azad iqtisadi zona səlahiyyətli qurumunu təsis etdi və o, təşviqat, təsdiqlər, lisenziyalaşdırma və müştərilərin inkişafının bütün aspektlərinə cavabdehdir.

Dəmir Yolu İnfrastrukturunun İnkişafı Meylləri

Dəmir yolunun inkişafı yalnız ölkə daxilində yük və sərnişin daşıma əməliyyatlarını yerinə yetirməkdən ibarət olmayıb, ərazinin sosial-iqtisadi inkişafında, təbii resursların mənimsənilməsində böyük rol oynamışdır. Dəmir yolunun mühüm göstəricilərindən biri əraziyə və əhaliyə görə təmin olunmasıdır. Təcrübə göstərir ki, tarixən əraziyə görə dəmir yolu ilə yüksək təmin olunmuş ölkələrin ərazisində istehsalın və iqtisadi-sosial sferaların maksimum səviyyədə inkişafına zəmin yaradılmışdır. Yük və sərnişin daşınmaya görə dəmir yolunun öz xüsusiyyəti vardır. Birincisi digər nəqliyyat növlərinə nisbətən dəmir yolu hava şəraitindən asılı olmayaraq ilin bütün fəsillərində işləyir. Digər tərəfdən dəmir yolu ilə yük daşınma başqa nəqliyyat sahələrindən fərqli olaraq uzaq məsafələrə daşındıqca nəqliyyat xərcləri aşağı düşür. (Məmmədov, 2002)

Cədvəl 2. Dəmir Yolları İlə Yük Daşımalarının Ümumi Həcmi (ton)

| | **2018-ci il** | **2019-cu il** | **2020-ci il** | **2021-ci il** | **2022-ci il** |
|---|---|---|---|---|---|
| I rüb | 3 263 107 | 3 540 815 | 3 521 614 | 3 769 592 | 3 810 144 |
| II rüb | 3 512 010 | 3 440 833 | 3 673 624 | 3 454 083 | |
| III rüb | 3 566 727 | 4 020 004 | 3 618 186 | 3 746 001 | |
| IV rüb | 3 612 163 | 4 220 254 | 3 818 091 | 4 087 974 | |
| **Cəmi** | **13 954 007** | **15 221 906** | **14 631 515** | **15 057 650** | |

Mənbə: “Azərbaycan Dəmir Yolları” QSC, www.ady.az

2020-ci ildə Dəmir yol xətlərinin istismar uzunluğu 2139 km, elektrikləşdirilmiş dəmiryolu xətlərinin uzunluğu isə 1169 km olmuşdur. 2020-ci ildə daşımalardan ələ oluna gəlir 274827 min manat, daşımalar çəkilən xərclər isə 399041 min manat olmuşdur. Daşımalarda yük daşımalarına çəkilən xərclər 273927 min manat,  sərnişin daşımalarına çəkilən xərclər isə 125114 min manat olmuşdurş 2020-ci ildə dəmir yolu nəqliyyatı vasitəsilə 2124 min sərnişin daşınmışdır. 2020-ci ildə dəmir yolu nəqliyyatında  yük vaqonlarının sayı 5669 ədəd, sərnişin vaqonlarının sayı 218 ədəd, konteynerlərin sayı 367 ədəd olmuşdur. (DSK, 2021)

**Cədvəl 3. Bakı-Tbilisi-Qars Dəmir Yolu Xətti İlə Yük Daşımalarının Həcmi**

| | **2018-ci il** | **2019-cu il** | **2020-ci il** | **2021-ci il** | **2022-ci il** |
|---|---|---|---|---|---|
| I rüb | 6 527 | 21 469 | 62 083 | 92 095 | 94 682 |
| II rüb | 21 281 | 16 321 | 95 472 | 145 501 | |
| III rüb | 22 776 | 23 237 | 32 441 | 137 189 | |
| IV rüb | 16 809 | 49 147 | 34 948 | 102 100 | |
| **Cəmi** | **67 393** | **110 174** | **224 944** | **476 885** | |

Azərbaycan Dəmir Yolları" QSC, www.ady.az

**Zəngəzur Dəhlizinin İqtisadi Əhəmiyyəti**

Ərazilərimizin işğaldan azad olunmasından sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında nəqliyyat infrastrukturunun formalaşdırılması istiqamətində geniş miqyaslı işlər aparılmaqdadır. 2020-ci il 10 noyabr bəyanatının 10-cu maddəsində qeyd edilmişdir ki, Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələri bərpa olunmalıdır. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycan Respublikasının qərb rayonlarını əlaqələndirən Bəyənnamədə yeni nəqliyyat kommunikasiyalarının və infrastruktur obyektlərinin inşası nəzərdə tutulmuşdu. Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Respublikası arasında quru yollarının bərpası ölkəmizin tranzit asılılığının əhəmiyyətli şəkildə azaldılması ilə yanaşı, həm də inteqrasiya prosesinin sürətlənməsinə imkan verəcəkdir.

Zəngəzur dəhlizi logistik və iqtisadi baxımdan mühüm infrastruktur lahiyəsi olmaqla yanaşı, Avropa-Qafqaz-Asiya nəqliyyat maşrutunun tərkib hissəsi hesab edilir. Naxçıvan Muxtar Republikası ilə Azərbaycanın əsas hissəsi araında 40 km məsafəni birləşdirəcək layihənin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına müstəsna təsiri olacaqdır. (Abdullayev, 2021)

**Nəticə**

Təyyarə, dəmir yolu vaqonları, lokomotivlər, nəqliyyat avadanlığı, tikinti avadanlığı və materialların tədarükçüləri və ya beynəlxalq daşıma şirkətləri nəqliyyat sektorunda imkanlar tapa bilər. o, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində avtomobil və dəmir yollarının beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb dənizinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində, eləcə də ölkənin tranzit potensialının daha da gücləndirilməsində mühüm rol oynaya biləcək amillərdir. Nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən və əlverişli geostrateji mövqeyə malik Azərbaycan xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizi Çin və Avropa arasında ən qısa marşrutdur və tranzit və yükdaşımaları baxımından səmərəlidir.

Azərbaycan Respublikasının qlobal iqtisadiyyata inteqrasiyası və xarici ticarətin şaxələndirilməsi Azərbaycanın tranzit ölkə kimi potensialını reallaşdırmaq üçün nəqliyyat infrastrukturunun və xidmətlərinin adekvat yenidən təşkilini tələb edir. Bu, milli daşıyıcıların rəqabət qabiliyyətinin artırılmasını və ixrac üçün nəqliyyat xidmətlərinin inkişafını tələb edir.

Geosiyasi vəziyyətin və Azərbaycan Respublikasının qlobal cəmiyyətdəki mövqeyinin dəyişməsi nəqliyyat növlərinin hər birində yeni təhlükəsizlik meyarlarının və standartlarının nəzərdən keçirilməsini və tətbiqini tələb edir. Sektorun struktur islahatlarını davam etdirmək, infrastrukturun saxlanması və inkişafının maliyyələşdirilməsinin yeni yollarını axtarmaq ən vacib məsələlərdəndir.

Dayanıqlı sosial inkişafı və milli əmək bazarını stimullaşdırmaq üçün regionlararası əlaqələrin inkişafını təmin etmək üçün avtomobil və dəmir yolu nəqliyyatına daha yaxşı əlçatanlığın təmin edilməsi vacibdir. Bu, etibarlılığın yaxşılaşdırılmasını tələb edir və uzun məsafəli sərnişin daşımaları üçün xidmətlərin mövcudluğu ehtiva edir. Avtomobil nəqliyyatının artması nəticəsində əhaliyə mənfi təsirlərin minimuma endirilməsinə, eyni zamanda, artan avtomobil nəqliyyatı sektorunun üstünlüklərindən maksimum istifadəyə yönəlmiş tədbirlərin həyata keçirilməsinə də ehtiyac var.

**Ədəbiyyatlar**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.
2. Məmmədov, Z.S. (2002). XXI əsr: İqtisadi inkişafın nəgliyyat faktoru. Bakı
3. Yadigarov, T.A (2018). Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Bakı
4. Abdullayev, K.M. Yeni regional tranzit xəttin yaranmasında Zəngəzur dəhlizinin rolunun qiymətləndirilməsi. "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda beynəlxalq elmi konfrans" materialları, Ningəçevir, 2021, 10 dekabr
5. Məmmədov S. Azərbaycanın tranzit potensialı yeni dəhlizlərin yaradılmasını zəruri edir. Xalq qəzeti, **2021,** 6 avqust
6. İbrahimov R. The Development of the Transport Sector in Azerbaijan: The Implementation and Challenges. Journal of Caucasus İnternational. 1, 2016
7. Azərbaycan Dəmir Yolları" QSC-nin rəsmi saytı, www.ady.az
8. "Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının rəsmi saytı, www.ardda.gov.az
9. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rəsmi saytı, www. portofbaku.com
10. Dövlət Statistika Komitəsinin rəsmi saytı, www.stat.gov.az

# PANDEMİYA DÖVRÜNDƏ APARILAN ANTİİNFLYASİYA YÖNÜMLÜ PUL-KREDİT SİYASƏTİNİN XÜSUSİYYƏTLƏRİ VƏ YENİ YANAŞMALAR

**Səbuhi Abbasov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**sebuhi.finance@gmail.com**

## Xülasə

Bu tədqiqatın əsas məqsədi COVİD-19 pandemiyası dövründə istər dünya dövlətlərinin, istərsə də Azərbaycan Respublikasının apardığı pul-kredit siyasətinin xüsusiyyətlərini müəyyən etmək, bu baxımdan ölkələr üzrə müqayisəli təhlil aparmaqdır. Coğrafi və iqtisadi şəraitindən aslı olaraq inkişaf etməkdə olan və inkişaf etmiş ölkələrin iqtisadi siyasəti hər zaman fərqliliklər göstərmişdir. 2020-ci ildən etibarən dünyanı əhatəsinə alan COVİD-19 pandemiyasının fəsadları ölkə iqtisadiyyatlarından da yan ötməmişdir. Bu çətin dövrdə iqtisadi sabitliyi təmin etmək, rifah səviyyəsini yüksək həddə qoruyub saxlamaq, eyni zamanda xəstəliklə mübarizə aparmaq baxımından ölkələr xeyli miqdarda vəsait xərcləmişdirlər. Dünya iqtisadiyyatı bu baxımdan pandemiya dövründə çətin bir sınaqdan keçmişdir. İqtisadi sabitliyin təmin edilməsi, milli valyutaların dayanıqlılığının bu dövrdə də qorunub saxlanılması, faiz dərəcələrinin əlverişli həddə saxlanılması və sair bu kimi iqtisadi amillər baxımından pul-kredit siyasəti yüksək əhəmiyyətə malik olmuşdur. Elmi iş hazırlanan zaman pandemiya dövründə dünya ölkələrinin pul-kredit siyasətlərində əvvəlki dövrlərlə müqayisədə hansı dəyişikliklər tədbiq edilmişdir, hansı yeni yanaşmalar meydana çıxmışdır kimi məsələlər tədqiq edilmişdir. Tədqiqat zamanı xüsusilə pandemiya dövründə qeydə alınmış inflyasiya dərəcələri müqayisəli şəkildə tədqiq edilmiş və antiinflyasiya yönümlü pul-kredit siyasətinin bu dövrdə nə dərəcədə effektiv aparılması məsələsinə baxılmışdır.

**Açar sözlər:** COVİD-19 pandemiyası, antiinflyasiya siyasəti, pul-kredit siyasəti, müasir iqtisadi yanaşmalar.

## Summary

Main purpose of this study is to determine the characteristics of the monetary policy pursued by both the countries of the world and the Republic of Azerbaijan during COVID-19 pandemic, and to conduct a comparative analysis of countries in this regard. Economic policies of developing and developed countries have always shown differences depending on geographical and economic conditions. The consequences of COVID-19 pandemic, which has swept the world since 2020, have not bypassed the country's economies. During this difficult period, countries have invested heavily in maintaining economic stability, maintaining a high level of prosperity and fighting disease. In this regard, the world economy has undergone a difficult test during pandemic. Monetary policy has been of great importance in terms of ensuring economic stability, maintaining the stability of national currencies in this period, keeping interest rates at a reasonable level and other economic factors. During the preparation of the scientific work, issues such as what changes were introduced in the monetary policies of the world countries during the pandemic period compared to the previous periods, what new approaches emerged. The study compares inflation rates, especially during the pandemic, and examines the effectiveness of anti-inflationary monetary policy during this period.

**Key words:** COVID-19 pandemic, anti-inflation policy, monetary policy, modern economic approaches.

## Giriş

COVİD-19 pandemiyası ortaya çıxdığı zamandan indiyə kimi istər insanların sağlamlığına, istərsə də ölkələrin iqtisadiyyatına əsaslı mənada ziyan vurmuş, qlobal mənada olduqca yüksək həddə zərərlə yadda qalmışdır. Hal-hazırda günümüzdə də davam edən pandemiya ilə mübarizə olduqca aktual bir məsələ kimi öz əhəmiyyətini qoruyub saxlamaqdadır. Odur ki, pandemiya dövründə ölkələrin pul-kredit siyasətinin xüsusiyyətlərini tədqiq edərək pandemik böhran dövründə iqtisadi siyasətlərin nə dərəcədə təsirli olub olmaması, hansı növ pul-kredit siyasətinin daha effektiv olması, bu dövrdə ölkələr tərəfindən hansı yeni yanaşmaların tədbiq olunması, inflyasiya dərəcələrinin optimal həddinin qorunub saxlanılması və milli

valyutaların sabitliliyinin təmin olunmasında hansı vasitələrin daha təsirli olması kimi məsələlərin müəyyənləşdirilməsi olduqca əhəmiyyətlidir.
Tədqiqatın əsas məqsədi ölkə iqtisadiyyatlarının müasir vəziyyətini gözlər önünə sərmək və gələcəkdə yarana biləcək alternativ böhran hallarına qarşı daha hazırlıqlı olmaq üçün yardımçı vasitə rolunu oynamaqdır. Elmi araşdırmanın qarşıya qoyduğu əsas vəzifə isə İEÖ-lər, İOÖ-lər və Azərbaycan Respublikası timsalında ölkələrin pandemiya dövründə apardıqları monetar siyasətləri əvvəlki dövrlərlə müqayisəli şəkildə təhlil etməkdir. Tədqiqat zamanı istifadə olunmuş iqtisadi göstəricilər ayrı-ayrı ölkələrin statistika qurumları tərəfindən təqdim edilmiş statistik informasiyalar əsasında formalaşdırılmışdır. Tədqiqatın üzləşdiyi ən əsas problem isə pandemiyanın yaxın tarixə aid olması və hələ də davam etməsi baxımından qeyd edilən sahəyə dair tamamlanmış akademik materialların kifayət qədər olmaması məsələsi olmuşdur.

**Pandemiyanın Dünya İqtisadiyyatına Təsiri**

COVİD-19 epidemiyası ilk dəfə 2019-cu ilin dekabr ayında Çində meydana gəlmişdir. Çinin Uhan şəhərində ortaya çıxan xəstəlik 2020-ci il etibarı ilə sürətlə dünyaya yayılmış, dünyanın 213 ölkəsində bu xəstəliyə yoluxmuş insanlar qeydə alınmağa başlamışdır. Və nəhayət 2020-ci ilin mart ayında ÜST (Ümumdünya Səhiyyə Təşkilatı) tərəfindən COVİD-19 virusunun pandemiya olması elan edilmişdir. Statistik məlumatlara görə hələ 2020-ci ilin may ayında dünya üzərində 5 milyon aktiv xəstənin mövcud olması, 330 min nəfərin isə həyatını itirməsi faktı qeydə alınmışdır (Worldometers,2020). COVİD-19 pandemiyası mütəxəsislər tərəfindən XX əsrin əvvəllərində qeydə alınmış İspan qripindən sonrakı ən ölümcül və ən təsirli epidemiya olaraq qiymətləndirilir. Qiymətləndirilmə zamanı pandemiyanın əhatəliliyi, ölüm sayı və neqativ iqtisadi təsirləri nəzərə alınmışdır (Ferguson, 2020).
COVİD-19 pandemiyasının nəticələrini iqtisadi cəhətdən qiymətləndirən zaman bir sıra amillərə diqqət yetirmək daha məqsədəuyğun olardı: Əvvəla qlobal xarakter daşıması baxımından pandemiyanın fəsadları iqtisadi olaraq bütün dünyanı əhatəsinə alır və birbaşa beynəlxalq münasibətlərdə özünü göstərir; Orta və aşağı səviyyə iqtisadiyyata malik ölkələrdə daha çox yayılır və təsirləri daha şiddətli şəkildə hiss olunur; Pandemiya 2020-ci ildə ortaya çıxmışdır, bu dövrə nəzər saldıqda faiz dərəcələrinin qlobal şəkildə ən aşağı səviyyədə olduğu dövrə təsadüf etdiyini rahatlıqla görə bilərik, faizlərin belə aşağı həddində ortaya çıxması pandemiyanın iqtisadiyyat üzərindəki təsirini bir qat daha artırmışdır; Müasir dünya iqtisadiyyatının ən səciyyəvi xüsusiyyətlərindən biri onun qlobal xarakterdə olmasıdır, odur ki günümüzdə ölkələr bir-biri ilə yüksək səviyyədə beynəlxalq münasibətlər qurmuş, iqtisadiyyatlarını bir-birinə inteqrasiya etdirmişdirlər. Belə bir şəraitdə qlobal pandemiyanın ortaya çıxması iqtisadi pisləşmənin zəncirvari şəkildə digər ölkələrin iqtisadiyyatına da təsir etməsi ilə nəticələnir. Yekunda isə ölkələr həm pandemiya ilə, həm də beynelxalq iqtisadi mühitdəki pisləşmələrlə mübarizə aparmalı olurlar; Bazar iqtisadiyyatı mühitində istər tələb, istərsə də təklif üzərində əsaslı mənada neqativ effekt formalaşmışdır, bu da ölkələrin rahat pul-kredit siyasəti yürütmələri qarşısında başlıca əngəllərdən biri olmuşdur (Fernandes,2020).
Pandemiya ortaya çıxdığı andan etibarən dünya dövlətləri ÜST-ün tövsiyyələri əsasında pandemiyanı nəzarət altına almaq məqsədi ilə bir sıra addımlar atmışdırlar. Bu addımlar əsasən insanların bir-birinə təmasını azaltmaq və bu yolla xəstəliyin yayılmasının qarşısını almaq istiqamətində aparılırdı. Bu baxımdan əvvəlcə ölkələr arasında quru və hava yolları ilə səyahət məhdudlaşdırıldı, bu da öz növbəsində turizm sektorunun zərbə alması, turizm sektorundan gələn iqtisadi daxilolmaların əsaslı şəkildə azalması ilə nəticələndi. İnsanların ünsiyyətini azaltmaq məqsədi ilə qapanmalar elan olundu və bu qapanmalar minlərlə müəssisənin işinə əngəl yaradaraq müflisləşib bağlanmasına səbəb oldu. İş yerlərinin bağlanması dünyada yüz minlərlə insanın işsiz qalmasına gətirib çıxardı. Xüsusilə qida və tibbi vasitələrə tələb olduqca yüksəldi,

bu hala öncədən hazırlıq olmadığından xüsusilə də tibbi vasitələr baxımından qıtlıq yarandı və tələb təklifi əsaslı mənada üstələdi. Çin kimi dünya üçün yüksək iqtisadi önəmə sahib ölkə pandemiya səbəbindən istehsalatda geriləmə yaşadı, bu geriləmə də Çindən xammal istehlak edən dövlətlər və şirkətlər üçün çətinlik yaratdı. Bu və bu kimi onlarla pandemiyanın dünya iqtisadiyyatı üzərindəki mənfi təsirlərini sadalaya bilərik. Nəticə etibarı ilə dünyanın hər bir yerində neqativ iqtisadi hallar ortaya çıxdı; iqtisadi proseslərdə əsaslı şəkildə yavaşlama və durğunluq müşahidə edildi.

Pandemiyanın meydana gəlməsindən sonra dövlətlər, iqtisadi təşkilatlar və beynəlxalq maliyyə qurumları vaxt itirmədən vəziyyətin daha da pisləşməsinin və iqtisadi durğunluğun qarşısının alınması istiqamətində işlər görməyə başlamışdırlar. Bu baxımdan bir sıra iqtisadi tədqiqatçılar mövcud statistik göstəricilərdən istifadə edərək vəziyyəti operativ bir şəkildə qiymətləndirmiş və gələcək dövr üçün proqnozlar hazırlamışdırlar. Sözügedən tədqiqatların bəzilərinə nəzər salaq:

1.ABŞ, Kanada, İngiltərə, Fransa, İtaliya, Almanya, İspaniya, Portuqaliya, Çin, Yaponiya və Brazilya kimi ölkələrin iqtisadiyyatları əsas götürülərək pandemiya dövründə ölkələrin vəziyyətləri əvvəlki dövrlərlə müqayisəli şəkildə təhlil olunmuşdur. Bu tədqiqatda əsasən, pandemiyanın səbəb olduğu 1-2 aylıq iqtisadi geriləmənin ölkələrin iqtisadi göstəricilərində necə əks olunacağı proqnozlaşdırılmağa çalışılmışdır. Tədqiqat işinin sonunda əldə edilən nəticələrə görə pandemiyanın yaratdığı iqtisadi geriləmə hər ay üçün 3-4 % təşkil etmişdir. Adı çəkilən ölkələrin hər ay üçün pandemiyaya öz ÜDM-larının həcminin 3-4 faizini qurban verəcəkləri proqnozlaşdırılmışdır. Digər bir nəticəyə görə isə Çin istisna edilməklə yuxarıda sadalanan ölkələrin hamısı 2020-ci ildə iqtisadi böyümədə 1-3 faiz həcmində durğunluq yaşayacaqdılar. İqtisadi geriləmənin 1-2 aylıq yox daha uzun müddətdə reallaşması halı üçün də praqnoz hazırlayan tədqiqatçılar bu durğunluğun 3 ay olması halında iqtisadiyyatın həcmində 2-6 faiz arası azalma, durğunluğun 4 ay olması halında isə iqtisadiyyatların həcmində 4-11 faiz azalma olacağını müəyyən etmişdirlər (Fernandes, 2020).

2.Digər bir tədqiqat 24 ölkənin statistik məlumatlarından istifadə edərək riyazi hesablamalar vasitəsilə mümkün 7 müxtəlif variant üzərindən hərəkət etmiş, hər bir variant üçün proqnoz verməyə çalışmışdır. Tədqiqatın əsas məqsədi hər bir versiyanın reallaşması halında bu 24 ölkənin ÜDM-nun həcminin necə dəyişəcəyini müəyyən etmək olmuşdur. Qeyd edilən versiyalardan üçü xəstəliyin ancaq Çində qalması, dünyaya sıçramaması halında Çin iqtisadiyyatı üzərindəki təsirlərini müəyyən etmək; digər dörd versiya isə xəstəliyin dünyaya sıçraması halında yarana biləcək problemləri ortaya çıxarmaq üçün təyin edilmişdir. Həmçinin yeddi versiyanın altısı xəstəliyin müvəqqəti, biri isə daimi olması halı üçün nəzərdə tutulmuşdu. Daha sonra xəstəlik dünya üzərində yayıldığından və günümüzdə də davam etdiyindən ilk altı versiya bu gün öz aktuallığını qoruyub saxlamır. Odur ki, yalnız son versiyanın nəticələrinə nəzər salmaq daha məqsədəuyğun olar. Tədqiqatın bu istiqamətdə əldə etdiyi nəticəyə görə dünyanın ÜDM-nun həcmində ilk əvvəl illik olaraq 9.1 trilyon dollar, daha sonrakı illərdə isə 2.2 trilyon dollar itki proqnozlaşdırılmışdır (McKibbin & Fernando, 2020).

3.Başqa bir tədqiqat işində COVİD-19 pandemiyasının dünya iqtisadiyyatına vurduğu zərərlər XX əsrin əvvəllərində ortaya çıxmış İspan qripi pandemiyasının vurduğu zərərlərlə müqayisəli şəkildə təhlil edilmişdir. Bu tədqiqat işinin nəticəsində COVİD-19 pandemiyasının daha zərərli olması müəyyən edilmişdir. Çünki təhlil əsasında müəyyən edilmişdir ki, hazırki pandemiya İspan qripinden 6 faiz daha çox ÜDM itkisinə səbəbiyyət vermiş, şəxsi istehlakın həcmində 8 faiz daha çox azalma ilə müşahidə edilmişdir (Weng, Ursua & Barro, 2020). Hal-hazırda pandemiyanın hələ də davam etməsini nəzərə alaraq bu fərqin daha da böyüdüyünü və gələcəkdə də böyüyəcəyini rahatlıqla deyə bilərik.

4.Pandemiya zamanı İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) kimi iqtisadi qurumlar da tədqiqatlar aparmış və müvafiq proqnozlar vermişdirlər. İƏİT-nın tədqiqatının nəticəsinə görə pandemiya zamanı

1990-cı illərin sonları isə Azərbaycan neft ehtiyatı ilə dünya dövlətlərinin xüsusi ilə də inkişaf etmiş dövlətlərinin, əsasən ABŞ və Qərbin diqqətini cəlb edirdi. Ölkəmizdəki neftin dəyərinin yüksəlməsi ölkəmizin regionda geosiyasi baxımdan nüfuzunun artmasına kömək oldu. Xüsusi ilə on bir ən böyük neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" bu prosesləri daha da inkişaf etdirdi. Ümumiyyətlə, dövlətimizin nüfuzunun yüksəlməsi Azərbaycan diasporunun aktivləşməsinə və diasporun lobbiçiliyə qoşulmasında vacib əhəmiyyət daşıdı. Türk, yəhudi lobbisinin isə zamanla dəstəklədiyi Azərbaycanın yeni-yeni yüksələn lobbisi bir sıra məqamlarda uğurlar qazananırdı. 17.03.2003-cü il tarixində Böyük Britaniyada fəaliyyətdə olan Azərbaycan lobbisinin Qarabağ münaqişəsi və Bakı-Tbilisi-Ceyhan dəhlizilə və digər məsələlərlə əlaqədar baş tutan tədbirlər yüksək və tarixi uğur olaraq nümunə göstərilə bilər. Bu hadisədən sonra Böyük Britaniya parlamentində "Xocalı soyqırımı" ilə bağlı sənədin təsdiqlənməsi ölkəmizin doğrularının beynəlxalq aləmə duyurulmasında vacib əhəmiyyətə sahib olmuşdur.

9-10 noyabr 2001-ci il tarixində tariximizin ən qürurlu günlərindən biri olmuşdur. Həmin gün dünyanın beş qitəsində yaşayan azərbaycanlıların iştirak etməsiylə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı baş tutmuşdur. Eyni zamanda, Azərbaycan Prezidentinin 05.07.2002-ci il tarixində 730 nömrəli fərmanına əsasən "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi" yaradılmışdı. Sonralarda isə buna daha böyük bir proses kimi yanaşaraq 21.02.2003-cü il tarixində "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiqləndi. Qeyd edilən bütün məsələlər dövlət və diaspor əlaqələrində yeni dövrün şəraitinə təkan verdi. Həmən proseslər Prezident İlham Əliyev vasitəsi ilə də davam etdirilir.

Hər kəsə məlumdur ki, beynəlxalq lobbizm dövlətin iqtisadi və siyasi strategiyasının bir hissəsini yüksəldən və bütünlüklə mədəni növüdür. Azərbaycana görə də lobbizmin olduqca vacib, eyni zamanda da aktualdır. Hal-hazırda xaricdə yaşayan Azərbaycan diasporu çox əhəmiyyətli gücə sahibdir. Bu kütlənin əsası Cənubi azərbaycanlılar və Türkiyə azərbaycanlılarıdır. Hər biri fərqli ictimai assosiasiyalarda, milli icmalarda olarsa, əlbəttə ki, bizim ölkənin siyasi və iqtisadi cəhətdən lobbiçilik fəaliyyətində vacib rola sahib ola bilərlər. Qeyd olunanları nəzərdə tutmaqla Azərbaycanda lobbizmi tənzimləyən qanun layihəsinin işlənib hazırlanması, dövlətə, parlamentə təqdim edilməsini fikrimcə mühimdir. Ümumiyyətlə lobbiçilik fəaliyyətinin necə keçirilməsi belə də qeyd oluna bilər ki, ilk növbədə Azərbaycanın davamlı olaraq bir lobbiçilik və reklam siyasətinin daha da inkişaf etdirilməsi yaxşı olar. Yəni lobbiçiliklə bağlı dərin siyasətin formalaşdırılmaması önəmli problem olaraq görünməkdədir. Bununla yanaşı bizim lobbiçilik anlayışımız ümumiyyətlə fərdi əsaslı səfərlər, sektoru təmsil edən və üzvü olan birliklərin və s. qurluşlarla əməkdaşlıq ilə hərəkət edilməsi və açıq hava görüşləri, sakit gəzintilər, mətbuat konfranslarından ibarətdir. Bu formada olan fəaliyyətlərin müasir texnologiya və kommunikasiya dövründə kifayət qədər təsir etməyəcəyinin fərqində olmağımız yaxşı olar. Bundan əlavə təşkil olunacaq hər hansı bir lobbiçilik fəaliyyətində təşkilatçının, təbliğatın bir qaydasınınn olması və doğru hədəflər seçilərək addım atılmasının vacibliyi çox büyükdür. Məqsəd ancaq xaricdəki Azərbaycan vətəndaşlarına varlığını hiss etdirmək ya da onları bir araya gətirməkdən daha çox xarici auditoriyaların hədəf seçilərək onlara təsir etmək məqsədi ilə hərəkət etmək

olması daha uyğun olar. Bir ölkədə fəaliyyət göstərən siyasi partiyalar, qruplar, yazarlar, rəssamlar və s. lobbiçilik səylərində hədəf seqment olmalıdır.

Beləliklə, sanki bu gün elə bir sahə yoxdur ki, orada təbliğat, lobbiçilikdən istifadə olunmasın. Dünyanın internet və kompüterin klaviaturası vasitəsilə insanın əlinə yerləşdiyi dövrdə təbliğatın varlığına məhəl qoymamaq və uyğun olduğu bir zamanda biganə olmaq mümkün deyildir. Çünki, bəşəriyyətin xidmətinə qoyulan hər bir yeni texnologiya, insanların rahatlığına üstünlük verməkdənsə, sui-istifadə üçün istifadə olunur. Təbliğat anlayışı "doğru" və ya "yanlış" kimi olmaqla qeyri-obyektiv dəyər mühakimələrindən ibarətdir və müstəqil şəkildə idarə olunmalıdır. Qarabağ münaqişəsinin idarə edilməsində də təbliğatın rolunun olduqca yüksəlməsi müasir qloballaşan dünyamızda təbliğatın əhatə dairəsinin, az bir müddətdə daha böyük kütləyə təsir etməyin yüksəlməsi ilə bağlıdır. Qarabağa aid təbliğat mahiyyəti yüksək olduğundan bu tədqiqat işində də daha çox təbliğat istiqaməti diqqət mərkəzindədir.

Mövzumuzun əsas istiqamətlərindən olan Qarabağın əsas iqtisadi göstəricilərinin təhlili blə qeyd oluna bilər ki, Qarabağ xanlığının iqtisadi sferasının bir neçə sahələri - ticarət, sənətkarlıq, pul dövriyyəsində az olmasına baxmayaraq salnamələrin bir neçəsində mövcud idi. Eyni zamanda, iqtisadiyyatında əkinçilik və maldarlıq sahələri vacib yer tuturdu. Qarabağ xanlığı Rusiya vasitəsi ilə istila olunduğu zamanda xanlığın kompleks torpaq ərazisi təxmini 1.354.000, əkinə lazım olan torpaq ərazisi isə 100.000 desyatin olmuşdur. Qarabağ xanlığının iqtisadi həyatında ipəkçilik təsərrüfatı da yüksək rol oynayırdı. (Hüseynov, 2012: s. 108)

Qarabağ tarix ərzində Azərbaycanla mənəvi, sosial, mədəni, iqtisadi əlaqələr vasitəsi ilə möhkəm bağlı olmuşdu və elə Azərbaycan Respublikasının səyi ilə bu torpaqlar iqtisadi-sosial və mədəni inkişaf etmişdir. Buna misal olaraq göstərilə bilər ki, Qarabağ ərazisinin Aran bölgəsində nəzərdə tutulmuş Toxuculuq Kombinasiyasının Xankəndində inşa edilməsi qərarı alınmışdı. 50-60-cı il tarixlərində ipəkçilik sahəsinin inkişaf etdirilməsi məqsədi ilə iki dəfə məbləği artırmışlar. DQMV-də olan ipək emalı obyektinin işini daha da yaxşı etmək məqsədi ilə 50-60-cı il tarixlərində barama istehsalı 70 faiz artmışdı. 1940-cı ildə 114 ton olmuşdusa, 1960-cı ildə isə 186 tona çatmışdı. Ancaq bu göstərici də Qarabağ İpək Kombinatının tələbatınına yetərli olmurdu. Azərbaycanın kənarındandan da barama və ipək əldə edilirdi.

Qarabağ İpək Emalı müəssisəsi 1950-1953-cü il tarixlərində inşa olunmuş və əhəmiyyətli fabrik olmuşdur. Həmin bu fabrikdə ipək sap, xam ipək, rənglədilmiş parça istehsal olunurdu. 1970-ci ildə isə DQMV-nin ipək emalı fabriklərində 3 min insandan çox işçi işləyirdi. Fabrikdə işləyən işçilərə çox yüksək maaş verilirdi. Az zaman ərzində Xankəndində 400 mənzil təşkil edən, yaşayış üçün 14 bina inşa edilib təqdim edilmişdi. Tək həmin fabrikdə 400 yerlik uşaqlar evi, xəstəxana, mədəniyyət mərkəzi, kitabxana, istirahət mərkəzləri, pioner obyekti var idi.

**Cədvəl 1: Məşğulluq və əmək haqqına dair bəzi statistik məlumatlar**

| | **1988** | **1989** | **1990** |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Məşğul əhalinin sayı*, min nəfər | 69,7 | 70,3 | 28,3 |
| Orta aylıq əməkhaqqı, rubl | 134,9 | | |

Məşğul əhaliyə kolxozçular, fəhlələr və qulluqçular daxildir (1988-1990-cı illər üzrə).

**Mənbə**: (Azərbaycan Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Cədvəldən də göründüyü kimi əhalinin rifahı il keçdikcə yaxşılaşdırılırdı o vaxta qədər ki, müharibə başlayan müddətə qədər. Əgər müharibə olmasaydı bu bölgəmizdə, öz əzəli torpaqlarımızda o zaman

iqtisadi, mədəni potensiyalı ilə indi yaxın bölgələrdən, ölkələrdən seçilən bir bölgə kimi inkişaf edərdi. Davamlı inkişafı, kəndlərin, şəhərlərin infrastrukturunun yüksəlməsi zaman keçdikcə artırdı. Ümumiyyətlə ölkəmizdəki faydalı qazıntıların 1/3 hissəsindən çoxu işğaldan azad edilmiş ərazilərdə yerləşir. Qarabağ regionu, ilk öncə, qızıl, kvars-qızıl, qurğuşun, mis-qızıl-kolcedan, sink, mineral və termal sular, növbənöv tikinti materialları ilə zəngin olmuşdur. Beləliklə bu bölgədə yaşayanların bir məşğuliyyəti də bundan ibarət idi. İndi də bu sahənin dərindən öyrənilməsi və potensialdan effektiv şəkildə istifadəsi daha məqsədəuyğun olar. Eyni zamanda bu sahə xarici investorların da diqqətin özünə çəkib bu regionu inkişaf etdirəcəkdir. Hər bir sahənin inkişaf etdirilməsindəki məqsəd Qarabağ regionunu onun yüksək imkanlarına uyğun olaraq hər cəhətdən inkişaf etdirmək, modernləşdirmək, ölkəmizin zəngin və iqtisadi cəhətdən ən güclü regionlarından birinə çevirmək daha məqsədə uyğun olardı.

Qarabağda yeyinti sənayeləri xüsusi ilə də şərabçılıq tüz bir zamanda inkişaf edirdi. Azərbaycan burda şərabçılığın sənaye istiqamətində inkişafını yüksəltmişdi. Şərabın birinci emalı müəssisələri Qarabağın hər sahəsində var idi. Qarabağ Şərab Tresti tək SSRİ-də yox, həm də bütün dünyada tanınırdı. Həmin trest ümumilikdə sənaye məhsulunun 34%-ni təqdim edirdi. Yağ-pendir müəssisəsi, Elektrozavod müəssisəsi, Xalçaçılıq fabriki (1929), yerli xammal olan tikinti vəsaitləri zavodları, meşə kombinatları, şəhər və kəndlərdə olan saysız şəkildə istehsalat müəssisələri SSRİ-də tanınırdı. 60-cı il əhatələrində Azərbaycanda sənaye istehsal olunması hasilatı 94 faiz artıb. 1960-cı illərdə burada investisiya qoyuluşu 20 dəfə çox artdı. (1 milyondan artaraq 20 milyona kimi)

**Cədvəl 2: Kənd təsərrüfatı üzrə statistik məlumatlar**

| | **1988** | **1989** | **1990** |
|---|---|---|---|
| Keçmiş DQMV | | | |
| Kolxozların sayı,vahid | 49 | 77 | 87 |
| Sovxozların sayı,vahid | 43 | 37 | 34 |
| Təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrinin sayı,vahid | 7 | 7 | 7 |
| Kənd təsərrüfatı müəssəsin sayı, vahid | 99 | 121 | 128 |

**Mənbə:** (Azərbaycan Dövlət Statistika Komitəsinin materiallar əsasında müəllif tərəfindən tərtibedilmişdir,https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Qarabağın kənd sahəsi də yaxın regionlardan yüksək inkişaf etmişdir. 1950-1960-cı illərdə Qarabağın kənd təsərrüfatının yüksəldilməsi məqsədi ilə uzun zamandan ibarət kreditlər verildi. Az müddət ərzində Dağlıq Qarabağın xalq təsərrüfatına altı dəfə 15 milyon 997 min manat yönəldilib. Bunu araşdırmaçı Nazim Məmmədov qeyd edir ki, 1969-cu il tarixində Azərbaycanda kənd təsərrüfatında çalışan bütün kolxozçunun aylıq gəliri orta hesabla 143 manat təşkil etmişdir.

Kənd təsərrüfatı sahəsindəki uğurları müqayisə etsək, Qarabağ Azərbaycanın digər bölgələrindən üstün idi. Ölkə əhalisinin 2 faizi yaşadığı bura məhsulun 5%-ni verirdi. 1986-cı ildə vilayət əhalisinin adambaşına düşən gəliri 1113,5 manatdan çox olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə 97,8 manat çoxdur, Naxçıvan MSSR-dən isə 170,4 manat artıqdır.

Dövlətimizin DQMV-də həyata keçirdiyi tikinti - abadlıq işləri də sakinlərin yaşayış yerinə malik tələbatını təmin edilməsində geniş rola sahib olmuşdu. 1969-cu ilin informasiyasına əsasən, Qarabağda hər bir şəxsə ortaq məxrəclə 7-8 kv. yaşayış ərazisi aid olurdu ki, o da respublika statistikalarından 2,5 dəfə çox idi. Eyni zamanda, DQMV XDS şəhərsalmaq, tikinti və arxitektura yönündə vəzifələrindən – arxitektura, şəhərsalmaq, ümumi tikinti layihələri, başqa yaşamaq üçün binaların, təzə tikintilərin inşası, həmçinin nəqliyyat, sənaye və başqa məntəqələri yenidən böyütmək, yenidən inşa edilməsi layihəsinə başçılıq edilməklə komleks formada DQMV sahəsində ermənilər olan ərazilər inkişaf etdirilir, bunun əksinə isə

azərbaycanlılar olan ərazilərdə isə sosial məntəqə inşa edilmirdi. Beləliklə, azərbaycanlı yaşayan ərazilər boşalıb məhv edilir və pis hala düşürdü. (Çaxmaqlı, 2009: s. 51)

**Cədvəl 3: Səhiyyə, təhsil və digər sosial sahələr üzrə bəzi statistik məlumatlar**

| | 1988 | 1989 | 1990 |
|---|---|---|---|
| **Keçmiş DQMV** | | | |
| Xəstəxanaların sayı, vahid | 32 | 32 | 32 |
| Əhaliyə ambulator-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı, vahid | 60 | 60 | 60 |
| Muzeylərin sayı, vahid | 7 | 3 | 3 |
| Klub müəssisələrinin sayı, vahid | 272 | 273 | 297 |
| Kütləvi kitabxanaların sayı, vahid | 235 | 240 | 272 |
| Teatrların sayı, vahid | 1 | 1 | 1 |
| Məktəbəqədər təhsil müəssisələrinin sayı | 98 | 97 | 97 |
| Məktəbəqədər təhsil müəssisələrində uşaqların sayı, nəfər | 8321 | 8604 | 8604 |
| Əyani ümumi təhsil müəssisələrinin sayı | 207 | 207 | 207 |
| Əyani ümumi təhsil müəssisələrində təhsilalanların sayı, nəfər | 34681 | 34681 | 34681 |

**Mənbə:** (Azərbaycan Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir, https://mail.google.com/mail/u/0/?tab=rm&ogbl#inbox/FMfcgzGllMLMCjhBpwTFjfnfjDsbhdNq)

Cədvəldən də göründüyü kimi Qarabağ zonasında xeyli sayda müəssisələr, kitabxanalar, xəstəxanalar mövcud olmuşdur. Bu o deməkdir ki, əhalinin yaşam rifahını yüksəldən xeyli sayda ictimai müəssisələr olmuşdur. Bu o deməkdir ki, əhalinin yaşam rifahını yüksəldən xeyli sayda ictimai müəssisələr olmuşdur. Bu göstəricilər zaman keçdikcə daha da sosial həyatın inkişaf etməsi demək idi.

Ümumiyyətlə, Qarabağ sevgisi, bağımlılığı hər azərbaycanlının mənəvi varlığının ayrılmaz bir parçasıdır. Qarabağ hər zaman Azərbaycan xalqı, dövləti üçün diqqət mərkəzində olmuşdur. İşğal altında olduğu 30 il ərzində də təbliğatı üçün dövlət tərəfindən müxtəlif tədbirlər keçirilərək təbliğatı aparılmışdır. İndi isə müzəffər ordumuzun döyüş əməliyyatları ilə işğaldan azad olmuş azad Qarabağ üçün dövlət səviyyəsində müxtəlif tədbirlər, layihələr hazırlanıb həyata keçirilir. İndi isə bu tədbirlərə diqqət edək.

10 dekabr, 2020-ci il tarixində Azadlıq meydanında, Vətən müharibəsində Qələbəmizə görə Zəfər paradı keçirilmişdir. Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev, Mehriban Əliyeva, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan ilə xanımı Əminə Ərdoğan da Zəfər paradında iştirak etmişdilər. Keçirilən Paradda 3000 insandan çox şəxsi heyətin, 150-ə qədər hərbi vasitənin, raket və hava hücumundan müdafiə qurğularının, artilleriya qurğularının, həmçinin də hərbi gəmi və katerlərin göstərişi olmuşdur. Baş tutan tədbirdə, eyni zamanda 44 günlük müharibə dövründə ordumuz tərəfindən məhv edilən Erməni ordusundan əldə etdiyi hərbi qənimətlərin biraz hissəsinin də göstərişi olmuşdur. 05.01.2022-ci il tarixində isə Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev Şuşa ili elan etmişdir. Bildiyimiz kimi Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərini Ermənistanın ordu dəstələri 08.05.1992-ci il tarixində işğal etmişlər. İşğalda olduğu dövrdə Şuşada xeyli sayda mədəniyyət və tarixi abidələr dağıdılmışdır. II Qarabağ müharibəsində isə igid Azərbaycan əsgərləri Şuşanı 08.11.2020-ci il tarixində işğaldan azad etdilər. Şuşa zəfərindən həmən sonra infrastrukturun qurulması ilə birgə, mədəniyyət və tarix abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinə yönəlmiş, Şuşa Şəhərinin Qoruğu İdarəsi yaradılmışdır. Ölkəmizin mədəniyyət paytaxtı olan Şuşada hal-hazırda şəhərin həqiqi tarixi əsasının bərpa edilməsi istiqamətində böyük tədbirlər, işlər həyata keçirilir. Az bir zamanda Şuşanın ana planının hazır edilməsi, görkəmli şair olan Molla Pənah Vaqifin muzey və məqbərə binasının və büstünün ilkin formasına salınması, Bülbülün ev muzeyinin və Üzeyir Hacıbəylinin heykəli açılışı, həmçinin də burdakı tarixi, memarlıq və dini abidələrinin

bərpası ölkəmizin mədəniyyət paytaxtındakı işlərin bir hissəsidir. Şuşa ili qərarı verilməklə yanaşı Azərbaycan Respublikasının Nazirlər Kabineti "Şuşa İli" ilə əlaqədar tədbirlər cədvəli hazırlayıb həyata keçirilməsi qərarı da verilmişdir. Daha sonra Nazirlər Kabineti "Şuşa İli" ilə əlaqədar olaraq Tədbirlər Planı"nı hazırlayıb təsdiq olunubdur. Həmin tədbirlər planı mədəni, idman tədbirləri, elm nəşrlərinin, çap vasitələrinin hazır edilməsi, "Şuşa İli"nin beynəlxalq aləmdə təbliğatı ilə bağlı layihələr, tarixi və mədəni abidələrin təmiri, turizm və ekologiya ilə bağlı layihələr, "Şuşa İli" ilə bağlı xatirə resurslarının və internet materiallarının hazır edilməsi kimi quruplara ayrılmışdır. Həmin tədbirlərin cədvəli, tarixi və icraçı orqanı aşağıdakı kimidir:

**Cədvəl 4:** Şuşa ili ilə əlaqədar tədbirlər planı

| **Tədbirin adı** | **İcra müddəti** | **İcraçı orqanlar** |
|---|---|---|
| "Xarıbülbül" beynəlxalq folklor tədbiri | 2022-ci il may | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Vaqif Poeziya Günləri" | 2022-ci il iyul | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Yazıçılar Birliyi |
| "Şuşanın 4 fəsli" adında beynəlxalq fotoqrafiya festivalının keçirdilməsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| "Şuşa-2022" beynəlxalq incəsənət festivalı | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu |
| "Şuşa yaradıcılıq emalatxanası" | 2022-ci il iyul | Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Televiziya Muğam Müsabiqəsi-2022"nin finalının Şuşa şəhərində olması | 2022-ci il iyul-avqust | Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi, "Azərbaycan Televizya və Radio Verlişləri" Qapalı Səhmdar Cəmiyyəti, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşada bir gün" Respublika fənn olimpiadaları qaliblərinin, ümumi təhsil müəssisələrinin təhsil alanların Şuşa şəhərinə ziyarətlərinin həyata keçirilməsi | 2022-ci il ərzində | Təhsil Nazirliyi |
| Şuşa beynəlxalq velosiped turniri | 2022-ci il may-oktyabr | Gənclər və İdman Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Velosiped İdmanı Federasiyası |
| Məktəblilər arasında "Könlüm keçir Qarabağdan" respublika incəsənət festival-müsabiqəsinin yekununun Şuşada olması | 2022-ci il iyun | Təhsil Nazirliyi |
| **Tədbirin adı** | **İcra müddəti** | **İcraçı orqanlar** |
| Yerli və xarici incəsənət və ədəbiyyat xadimlərinin, KİV nümayəndələrinin, təhsil müəssisələri işçilərinin, Azərbaycanda olacaq fərqli beynəlxalq tədbirlərin iştirakçılarının Şuşa şəhərinə ziyarətlərinin olması, Şuşada yay məktəbinin, gənclər və könüllülər düşərgələrinin olması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Turizm Agentliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Gənclər Fondu |
| Şuşaya həsr olunmuş ensiklopediyanın nəşrə hazır edilməsi və fərqli dillərə tərcümə olunması | 2022-2023-cü illər ərzində | Mədəniyyət Nazirliyi, Milli Elmlər Akademiyası |
| Yerli və xarici mütəxəssislərin iştirak etməsi ilə Şuşaya aid edilmiş elmi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, |

| | | |
|---|---|---|
| tədqiqat işlərinin həyata keçirilməsi, məqalə, elmi əsər, monoqrafiya, antologiyaların və s. nəşr edilməsi | | Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Gənclər Fondu |
| Azərbaycan Dövlət Film Fondunda olan Şuşa ilə əlaqədar film və çəkilişlərin bərpası, nümayiş olunması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Qoşulmama Hərəkatına üzv ölkə şəhərlərinin "Şuşa Assambleyası"nın olması | 2022-ci il iyul-noyabr | Xarici İşlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| Şuşa şəhərinin fəqli ölkələrin şəhərləri ilə qardaşlaşmış şəhər statusu əldə edilməsi ilə əlaqədar uyğun işlərin təşkil edilməsi | 2022-ci il ərzində | Xarici İşlər Nazirliyi |
| "Şuşa 270 il" adında filmin çəkilməsi | 2022-ci il ərzində | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| Şuşa şəhərinin investisiya potensialının tanıdılması siyasəti yerli və xarici investorların iştirak edilməsi tədbirlərin həyata keçirilməsi (Karabakh İnvestment Roadshow) | 2022-ci il ərzində | İqtisadiyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşa 270". Şuşanın və ətraf yerlərinə görə turizm məhsullarının yaradılması | 2022-ci il ərzində | Dövlət Turizm Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Şuşa 270 il" adında 3 markadan poçt markası blokunun və 3 növdə markalı poçt zərflərinin, həmçinin "Xurşidbanu Natəvan-190 il" adında poçt markasının dövriyyəyə buraxılması | 2022-ci il ərzində | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| "Azərbaycanın mədəniyyət paytaxtı-Şuşa" portalının olması | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| **Tədbirin adı** | **İcra müddəti** | **İcraçı orqanlar** |
| Azərbaycanda və xarici ölkələrdə, həmçinin beynəlxalq təşkilatların mənzil qərargahlarında "Şuşa İli"nə aid edilmiş tədbirlərin, elmi konfrans, simpoziumların olması və təbliğat yönlü işlərin edilməsi | 2022-ci il ərzində | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Milli Elmlər Akademiyası, Diasporla İş üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Gənclər Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

**Mənbə:**(Əsədov,2022,https://apa.az/az/sosial/susa-ili-ile-bagli-tedbirler-plani-tesdiq-edilib-689090 )

12 may, 2021-ci il tarixində Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhəri "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etmişdir. Qədim mədəniyyət beşiyi adlanan Şuşa şəhərimiz 29 ildən sonra yenidən dirçəlmiş, gözəl abu-hava yaranmışdır. Festivalda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Mehriban Əliyeva, onların qızları Arzu Əliyeva və Leyla Əliyeva Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" musiqi festivalında iştirak ediblər. Festivalda iştirak edən ifaçılar milli musiqilərimizi səsləndirməklə yanaşı milli geyimlərimizi də geyinərək milli abu-hava yaratmış, bütün dünyaya milli mədəniyyətimizi nümayiş etdirmişlər.

18 sentyabr, 2021-ci il tarixində ilk dəfə Şuşada Milli Musiqi günü keçirilib. Tədbirdəki insanlar Natəvan bulağını və xalq artisti Bülbülün evini ziyarət ediblər. Dahi Üzeyir Hacıbəylinin hər il ad günündə

keçirilən tədbir, bu dəfə isə onun heykəlinin ucaldığı parkda keçirilib. (Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, http://culture.gov.az/az/umumi-xeberler/13731 )

Bu tədbir milli musiqi sənətimizin necə əsrarəngiz nümunələri olduğunu və bütün bu musiqi mədəniyyətinin bizə məxsus olduğunu bütün dünyaya təbliğ edir.

20 mart, 2022-ci il tarixində Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Tərtər rayonunun Suqovuşan qəsəbəsində təşkil olunan ilk avarçəkmə təlim-məşq prosesinin rəsmi açılışı həyata keçirilib. İlham Əliyev və Mehriban Əliyeva tədbirdə olublar. İlham Əliyev təlim-məşq tədbirinin rəsmi açılışı olan düyməni basdıqdan sonra öndəki metal konstruksiyadan “QARABAĞ AZƏRBAYCANDIR!” yazısı yazılmış banner açılıb və səmaya Azərbaycan bayrağı rənglərində 7 min şar havaya açılıb və daha sonra idmançılar məşqə başlayıblar.

Xocalı işğal olunduqdan sonra necə ki hər il Xocalı soyqırımının anım gününə aid Bakıda ümumxalq yürüşü keçirilib indi də torpaqlarımızın azad olunmasından sonra da 26 fevral, 2022-ci il tarixində Xocalı soyqırımının ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib. Öncəki illər kimi bu il də Prezident İlham Əliyev və Mehriban Əliyeva da  bu yürüşdə olublar. Yürüş iştirakçıları Xətai rayonunda yerləşən Xocalı abidəsinin yerləşdiyi əraziyə gediblər. Xüsusi ilə bildirilməlidir ki, Xocalı soyqırımının ildönümü olan 26 fevral xalqımızın birlik olmağının simvolu olub.

Xocalı faciəsinin bütün xarici ictimaiyyətə tanıdılması daima Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətləri daxilindədir. Həmin amansız faciyənin dünyaya çatdırılmasında həmçinin Azərbaycanın 1-ci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti olan Mehriban Əliyevanın da mühim fəaliyyəti vardır. Fondun "Xocalıya ədalət!" adlanan layihəsinin nəticəsi ilə dünyada 17 ölkə, ABŞ-ın 24 ştati, İslam Əməkdaşliq Təşkilati Xocalı şəhərində ermənilərin törətdiyi soyqırımda törədilmiş cinayətləri soyqırım olaraq taniyan qərarlar və qətnamələr vermişlər. "Xocalıya ədalət!" layihəsinin məqsədi isə beynəlxalq aləmi Xocalı faciəsi barəsində informasiya verməк, soyqırıma dünya ictimaiyyətində mənəvi cəhətdən və siyasi tərəfdən dəyərləndirilməsinə, faciəvi soyqırımda həlak olanların xatirəsinin anılmasına çatmaqdır.

Erməni işğalından azad edilmiş torpaqlarda “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələri nəzərdə tutulmuşdur. “Ağıllı kənd” texnologiyasının tətbiq edilməsi bu ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişaf olunmasına da töhvə verəcək və Qarabağ regionunun eyni zamanda texnoloji innovasiya-startap mərkəzi olması kimi cəlbediciliyini də artıracaq. “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri artıq bir çox ölkələrdə və şəhərlərdə qurulmuşdur. Nümunə olaraq göstərilə bilər ki, Sinqapur, Nyu-York, London və Amsterdam kimi şəhərləri misal gətirmək olar. Fikir verdikdə görə biləcəyimiz məqamlardan biri odur ki, bu şəhərlər həm də turizm mərkəzlərindən hesab olunur. Bu da o deməkdir ki, “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri gələcək zamanda Qarabağın gözəl məkanlarının dünyada daha da tanıdılmasına kömək edəcəkdir.

Hal-hazırda regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olması ölkənin qlobal bazarlara çıxışı imkanlarını yüksəldəcək, həmçinin də işğaldan azad edilmiş zonaların inkişafına əhəmiyyətli güc verəcək. İşğaldan azad olunan əzəli torpaqlarımızda üç beynəlxalq hava limanı inşa edilməkdədir. Füzuli aeroportu demək olar ki, istifadəyə verilib. Zəngilan hava limanının təməli artıq qoyulub, Laçında isə inşaat etmək məqsədi ilə yer seçimi gedir. Hal-hazırda Qarabağda nəyin ki bərpa quruculuq işləri davam etdirilir hətta artıq market, restoran, çörək sexi və s. obyektlər fəaliyyət göstərir.

Digər bir bərpa-quruculuq işlərindən biri də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlinin qoyulmasıdır. Torpaqların minalardan təmizlənməsindən, məhv edilmiş tikililərin qalıqlarının toplanmasından, çoxillik bitkilərin budanmasından dərhal sonra bu ərazidə abadlıq işlərinə başlanılacaq və buradakı torpağa uyğun bitkilər əkiləcəkdir.

Suqovuşan Turizm Kompleksindəki işlər bu ilin sonuna qədər bitəcək və gələn mövsümdə artıq turistlərə xidmət göstərəcək. (İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/55657 )

Tərtər rayonunun Suqovuşan qəsəbəsində də yeni məscid tikiləcək. 10 mart, 2022-ci ildə Prezident İlham Əliyev və Mehriban Əliyeva məscidin təməlini qoyublar. Məscidin ümumi sahəsi 0,6 hektar olan kompleksə məscid binası, dəstəmaz otağı, köməkçi bina və avtodayanacaq aiddir. İki mərtəbədə olacaq məscid binasının uzunluğu 16,8 metr, eni isə 11,2 metr olacaq. Məsciddə kişilər və qadınlar üçün nəzərdə tutulan ibadət zalının olmağı planlaşdırılıb. (İlham Əliyevin çıxışı, https://president.az/az/articles/view/55655 )

20 mart, 2022-ci ildə "Azərişıq" ASC tərəfindən Prezident İlham Əliyev və Mehriban Əliyevanın iştirakı ilə  Azərbaycanda ilk dəfə olan Tərtər rayonunun Suqovuşan qəsəbəsinə çəkilmiş 35 kilovoltluq yeni izolyasiyalı, kənar müdaxilələrdən qorumalı və xərcləri daha aşağı olan kabel xəttinin təqdimatı həyata keçib.

13 fevral, 2022-ci il tarixində Prezident İlham Əliyev və Mehriban Əliyeva 210 çarpayıdan ibarət Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması tədbirində iştirak etmişlər. Qeyd olunub ki, gələn mərhələlərdə Ağdam rayonunda daha bir neçə sayda səhiyyə binasının inşası düşünülmüşdür. Gələcək zamanda bu ərazilərdə Gigiyena və Epidemiologiya Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası,Təcili Tibbi Yardım Stansiyası, modul tipli xəstəxana, 20 çarpayılıq Narkoloji Dispanser,onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəmə qarşı xəstəxanalar, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, Regional Tibb Kolleci də inşa olunması nəzərdə tutulmuşdur.

Həmçinin də qeyd edilməlidir ki, Qarabağda quruculuq işlərinin həyata keçirilməsinə görə 2,2 milyard manat xərclənməsi qərarlaşdırılıbdır. Qarabağda tikinti-bərpa işləri planlı bir şəkildə təşkil edilir və bu məsələ dövlət başçısının diqqət mərkəzindədir.

Qarbağda həyata keçirilən bərpa və quruculuq işləri də bütün dünyaya onu çatdırır ki, biz öz yurd-yuvalarımıza qayıtmaq üçün ən qısa zamanı gözləyir, öz əzəli torpaqlarımıza hər zaman diqqət, qayğı göstərərək həmin torpaqları dirçəldirik. Amma keçmiş 30 il ərzində düşmən tərəf həmin torpaqlara zərər verməkdən başqa heçnə etməmişdir.

Qarabağ üçün istər işğal müddəti dövründə, istərsə də işğaldan azad olunduğu dövrümüzdə müxtəlif layihələr işlənib həyata keçirilir. Hər birinin məqsədi bizim qədim yaşayış məskənimiz olan, qədim mədəniyyətə sahib olan bu dilbər guşəni bütün dünyaya “Qarabağ Azərbaycandır!” həqiqəti ilə tanıtmaq, onu daha da dirçəltmək.

Belə layihələrdən biri  İlham Əliyevin 07.07.2011 – ci il tarixli  Sərəncamı ilə “Azərbaycan gəncliyi 2011 – 2015 – ci illərdə” Dövlət Proqramının 6.2.2 yarımbəndinə uyğun olaraq Gənclər və İdman Nazirliyi və Rabitə və  İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi və yeddi gənclər təşkilatının vasitəsi ilə “Virtual Qarabağ”  İnformasiya – Kommunikasiya Texnologiyaları Mərkəzinin əsası qoyulmuşdur. 16.12.2013-cü il tarixində baş tutan təqdim edilmə tədbirində “Virtual Qarabağ” İnformasiya–Kommunikasiya Texnologiyaları Mərkəzi eyni zamanda www.virtualkarabakh.az internet saytı xalqa tanıdılmışdır. Bu təbliğat mərkəzinin yaradılmasındakı başlıca amil Qarabağa məxsus olan ümumiləşdirilmiş internet məlumat şəbəkəsinin təşkil olunmsasıdır. Layihə çərçivəsində olan virtualkarabakh.az portalı da hazırlanıb istifadəyə verilmişdir. Portalın məqsədi isə Qarabağ doğrularını elektron kontentlərlə internet platformasında tanıdılmasına şərait yaratmaqdır.

02.12.2014-cü il tarixində Gənclər və İdman Nazirliyinin, Heydər Əliyev Fondunun dəstək olması ilə “Virtual Qarabağ” İnformasiya-Kommunikasiya Texnologiyalarının təşkil etdiyi “Qarabağın səsi” beynəlxalq layihə işinin təqdim edilməsi baş tutmuşdur. Layihənin məqsədi isə Azərbaycanın qədim

mədəniyyətinin inkişaf olunması, hər zaman yaşatmaq və hər kəs tərəfindən tanınması, həmçinin, Qarabağ məsələsi ilə əlaqəli doğruların bütün ölkələrin əhalisinə çatdırılmasından ibarətdir. ( https://www.virtualkarabakh.az/az.html )

“Qarabağın səsi” layihəsində yer alan musiqilər qədim torpaqlarımızın Ermənistan ordu dəstələrinin zamanında işğal etdiyi torpaqlarına  həsr olunmuşdur. Musiqilərin müəllifi isə Rain Sultanov olmuşdur.

27 İyulun 2021-ci il tarixində Qarabağ Dirçəliş Fondu uzun zaman  müddətində davam edən erməni işğalı nəticəsində xalqımızın Qarabağda olan maddi-mədəni irsinə, regionun təbii sərvətlərinə dəymiş zərərə həsr edilmiş “Karabakh.Center” layihəsində olan fotoşəkillərdən ibarət sərgi təşkil dilib. Daha öncə ictimaiyyətə nümayiş olunan “Karabakh.Center” layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın işğalının nəticələri barəsində obyektiv informasiyaların yığılması və ictimaiyyətə çatdırılması məqsədilə yaradılmışdır.“Karabakh.Center” internet adresində 10 mindən çox videogörüntü və fotolar yerləşdirilib. Bütün videolar və fotoşəkillər internet adresinin “Urbisid” bölməsində yerləşdirilib. Bölmədə, eyni zamanda tarixi və memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş xeyli sayda fotoşəkli də yerləşdirilib.

Bütün bu layihələri nəzərə alaraq daha fərqli “Qarabağ Azərbaycandır!” təbliğatı üçün layihə təklif edirəm. Bu layihə həm turistik mərkəz olar, həm də “Qarabağ Azərbaycandır!” təbliğatı üçün möhtəşəm təbliğat nümunəsi olar. Necə ki Türkiyədə “MiniaTürk” adlı bir şəhərcik var bizdə də Qarabağ abidələrindən ibarət bir şəhərciyin olması böyük təbliğat məkanının olması deməkdir . Belə ki, layihəni aşağıdakı kimi təqdim edirəm:

- Layihənin adı: “Mini Qarabağ” və ya “Mini Karabakh” olması nəzərdə tutula bilər.
- “Böyük mədəniyyətin şəhərciyi” sloganı ilə olduqda layihənin məğzini ifadə edər.
- Qarabağda yerləşən bütün abidələrdən ibarət kiçik maketlər hazırlanıb yerləşdirilməsi daha məqsədə uyğun ola bilər.
- Hər bir abidənin yanında abidə haqqında müxtəlif dillərdə məlumatın yazılması daha yaxşı olar.
- Şəhərcikdə dayanacaq, restoran, hədiyyəlik kiçik maketlər satılan yer, açıq havada tədbir yeri və s. inşa oluna bilər.
- Xarı Bülbülün böyük maketinin də burada olmağı gözoxşayan olar.
- Xarı Bülbül formasında musiqi səhnəsi hazırlanıb burada yerləşdirildikdə həmin yerdə milli musiqilərimizin səsləndirilməsi bura gələnlər üçün daha da maraqlı olar.
- Qarabağda inşa olunması daha məqsədə uyğun olar.

Bu şəhərcikdə I və II Qarabağ müharibəsinin şəhidlərinin, əlillərinin şəkillərindən ibarət ayrıca bir guşənin olması bura gələn turistlərə onların tanıdılması hər zaman ən qabaqcıl məqsədlərimizdən biri olmalıdır. Şəhidlərinin, əlillərinin tanıdılması ilə yanaşı, şəhərciyə daxil olduqda rəşadətli orduzumuz döyüş əməliyyatları həyata keçirərək işğaldan azad etdiyi bu torpaqların, bu abidələrin təbliğatında onların döyüş əməliyyatlarından kadrlar, video roliklərin olması onların əməyinin nümayişi olar. Eyni zamanda döyüşlərdən səslər, rəşadətli ordumuzun torpaqlarımızı işğaldan azad etmək üçün atdığı top səsləri, dronla edilmiş zərbənin səsləri olması bu torpaqları, abidələri necə öz gücümüzlə işğaldan azad etməyimizin göstərişi olar.

Həmçinin də siyahısı verilmiş bu abidələrin tarixi haqqında şəkilləri, videoları ilə Azərbaycan dövlət himni ilə birlikdə gündəlik olaraq təbliğat xarakterli video çarx ölkə televizvasında səsləndirilməsi milli mədəniyyətimizin təbliğində daha məqsədə uyğun olar. Bu video çarxlar mütəmadi olarak reklam aralarında, xəbər verlişlərindən əvvəl olması yaxşı olar. Məsələn AZTV xəbər verlişləri bu saatlarda olur:

10:00, 14:00, 16:00, 18:00, 19:00, 19:30, 20:00. Qeyd olunan bu saatlardan bir neçə dəqiqə əvvəl nəzərdə tutulan video çarx nümayiş oluna bilər.

Bu şəhərciyin inşa olunması həm öz xalqımız üçün daha çox informasiya qaynağı olması, şəhərciyi gəzərək gözəl və doğma hisslər hiss etmək, azyaşlılarda vətənə daha da sevgi, abidələrimizi dəqiqlə tanıyıb tarixini öyrənmək, həm də ölkəyə gələn turistlərə Qarabağı tanıtmaq, tarixini dəqiqliklə təbliğ etmək üçün böyük fürsət olar.

Həmin abidələrin siyahısı aşağıdakılardır:






















































**Nəticə və Təkliflər**

“Qarabağ Azərbaycandır!” mövzusu xeyli əhatəli bir mövzudur və həyata keçirilmiş bu tədqiqatdan sonra isə müəyyən nəticələrə gəlinmişdir.

Tədqiqatın əsas hissəsində alınan nəticə ondan ibarətdir ki, dövlətin, siyasi güc mərkəzlərinin nəzərdə tutduğu məsələlərin daha böyük əhali qrupunun inamına çevrilməsi, onlara qəbul etdirilməsi üçün informasiyanın, təbliğatın gücü yüksəkdir. Növü, davamlılığına əsasən təbliğat ictimai rəyin yaranıb formalaşmasında vacib rola sahibdir. Eləcə də xüsusən informasiya mənbələrindən istifadə edə bilməyən əhali kütləsinə aparılan təbliğatın növündən asılı olaraq yeni  bir ictimai rəyi əsaslandırmaq mümkündür. Təbliğat düşmən tərəfin canlı kütləsini həlak etmir. Amma düşmən tərəfin canlı kütləsinin fəaliyyətinin neytrallaşdırılması, silahlı çəkişmənin səmərəliliyinin azaldılması müharibə seçmiş qarşı tərəfin təklənməsi, xarici dəstəkdən məhrum olunması üçün həyata keçirilən təbliğat silahlı mübarizənin həyata keçirilməsindən daha effektiv məna kəsb edə bilər. Həmçinin də Qarabağın iqtisadi göstəricilərinin il keçdikcə inkişaf etməsi nəticələri əldə olunmuşdur. İstehsal hasilatı, investisiya qoyuluşu göstəriciləri bu ərazilərdə artmışdır. Növbəti əldə edilən nəticə belə qeyd edilə bilər ki, həm Qarabağ məsələsinin, həm də başqa ictimai və siyasi məsələlərin uğurla davam etdirməkdə təbliğatın vəzifəsinin mühüm dərəcədə yüksəlməsi inkişaf edən, qloballaşan dünyamızda təbliğatın əhatəliliyini, az bir müddət ərzində daha böyük insan qüvvəsinə təsir etmək özəlliyinin artması ilə bağlı olmasıdır. Zamanındakı Qarabağ məsələsinin təbliğat istiqamətindən bəhs edərkən bəhs olunmalıdır ki, Azərbaycan və Ermənistan vəziyyətə müxtəlif səviyyədə baxmalıdırlar. Məsələnin qaldırılması Azərbaycan  üçün gözlənilməyən  olsa da, Ermənilər üçün qətiyyən gözlənilməyən olmamışdı. Çünki təəssüf ki, Erməni təbliğat maşını bizimkindən daha sürətli işləmişdir. Hazırda informasiya-təbliğat prosesi dünyada var olan bütün etnik münaqişələrin, qarşıdurmaların və onun ətrafında dönən proseslərin idarə edilməsinin ən effektiv vasitələrindən biridir. Buna görə də "Qarabağ Azərbaycandır!" şüarı ilə saysız-hesabsız təbliğat layihələrinin keçirilməsi, keçirilən hər bir layihənin effektivliyinin yoxlanılması vacib amillərdən biridir. Hal-hazırda Azad Qarabağın təbliğatının dövlət səviyyəsində keçirilməsi təbliğat prossesini daha da effektiv etməkdədir. Digər bir alınan nəticəni isə belə qeyd edilə bilər ki, Qarabağ ərazisi işğaldan azad olduğu müddətdən bu vaxta qədər daima, ara vermədən dövlət tərəfindən həm bərpa, quruculuq işləri həyata keçirilmişdir və davamlı olaraq da keçirilir, həm də müxtəlif növ tədbirlər, layihələr həyata keçirilir. Şuşa ili ilə əlaqədar olaraq tədbirlər planı hazırlanıb. Təklif olaraq qeyd etdiyim layihənin həyata keçirilməsi isə təbliğatın bəhrəsini görmək prosedurunu daha da surətləndirər. Həm turistlər üçün bir mərkəz olar və eyni zamanda şəhərimizdə qədim,

tarixi abidələrimizi vizual olaraq görməyimizə şərait yaranar, həm də "Qarabağ Azərbaycandır!" təbliğatının aparıldığı şəhərcik olar.

Ümumilikdə isə "Qarabağ Azərbaycandır!" təbliğatının daha da inkişaf etməsi üçün aşağıdakı təklifləri vermək olar:

1.Dövlətimizin inkişaf etməsini, bölgədə güc, intellekt mərkəzi olması istiqamətində davamlı olaraq çalışmalıyıq. Çünki güc, intellekt cəhətdən nə qədər inkişaf etsək müttəfiq ölkələr ətrafımızda daha çox olar, bölgədə səsimizi rahatlıqla duyura bilərik və təbliğat siyasətimiz də bir o qədər uğurlu olar.

2.İşğaldan azad olunan ərazilərdə keçiriləcək olan layihələrin mövzusu son dərəcə aktual olması daha yaxşı olar. Belə ki, layihədə iştirak edən iştirakçıların, turistlərin diqqətin çəkməli, daha çox turist axınını təmin etməlidir.

3.Təbliğat maşınının daha çox inkişaf etməsi üçün dərsliklərdə bu mövzuya geniş yer verməli, dövlət tərəfindən proqramlar işlənib hazırlanmalıdır.

**İstifadə Edilmiş Ədəbiyyat**


1. Aşırlı A. (2005). “Türkün Xocalı soyqırımı”, Bakı, “Nurlan”, 53 səh.
2. Aşırlı A. (2005). “Türkün Xocalı soyqırımı”, Bakı, “Nurlan”, 54 səh.
3. Göyüşov R. (1988). “Azərbaycanda xristian abidələri” Bakı.
4. Gözəlov F., İmanov M., Rüstəmzadə İ., Orucov T., Abbasov E. (2017). “Qarabağ xalq oyunları və meydan tamaşaları”, Bakı, 7 səh.
5. Hacıyev İ. (2012). “Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri”, Naxçıvan, “Əcəmi”, 117 səh.
6. Hacıyev Q. (2010) “Qarabağın maddi və mənəvi mədəniyyəti”, Bakı, “Təhsil”, 41-52 səh.
7. Həmidov S. Atəşkəsin sonuncu günü: sülh yoxsa müharibə\\ Beynəlxalq münasibətlərin aktual problemləri. 2009. №2.
8. Hüseynov Y. (2018). “Qarabağ”, Bakı, “Afpoliqraf”, 303 səh.
9. Xəlilli X. (2006). “Qarabağ: Etnomənəvi inkişaf tarixi: Ən qədim dövrdən 1920-ci ilə qədər”, Bakı, “Günəş”, 79-86 səh
10. İ.H.Əliyev, N.V.Paşinyan, V.V.Putin. (2020). “Üçtərəfli bəyanat”
11. İsmayılov F. (2013). “Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar”, Bakı, “Nurlar”.
12. Qəniyev H. (2019). “Azərbaycan tarixi”, Bakı, “Elm və təhsil”, 441-458 səh.
13. Məmmədov H.B. (2009) “Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu”, Bakı, “Aypara-3”, 328 s.
14. Məmmədov N. (2009). “Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal”, Bakı, “Təhsil” , 194 səh.
15. Məmmədov N. (2010). “Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi”, Bakı, “Təhsil”, 72-81 səh.
16. Məmmədov N. (2015). “İşğal altındakı tarixi-dini abidələrimiz”,Bakı, “Nurlar”, 12-92 səh.
17. Məmmədova H. (2009). “Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi”, Bakı, “Elm”, 32 səh.
18. Nağı A. (2014). “Qarabağ müharibəsi”, Bakı, “Ağalarov Anar” ,49 səh.
19. Piriyev V. (2002). “Azərbaycan tarixi coğrafiyası”, Bakı, “Araz”, 120-142 səh.
20. Akgönül S. (2002). ““Fransa Ermeni Toplumu ve Türkiye: Propaganda ve Lobicilik”, İstanbul, Ermeni Araştırmaları, 222-251.

21. Ateş Ş. (2002). "Bir siyasal iletişim tarzı olan propagandanın tanınması ve propaganda metinlerinin çözümlenmesi", Ankara, "Bilig", 117-120.
22. Canöz K. (2007). "Halkla ilişkiler uygulaması olarak lobicilik: Ankara Ticaret Odası (ATO) örneği", Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü, 282.
23. Yılmaz T. (2009). "Stratejik Güç; Lobicilik", İstanbul, "Bilig", 5-6.
24. http://culture.gov.az/az/azerbaycan-medeniyyeti
25. https://mod.gov.az/az/qarabagin-tarixi-075/
26. https://www.virtualkarabakh.az/az/posts/3/1/qedim-irevan.html
27. https://www.stat.gov.az/
28. https://www.bakucitycircuit.com/az/news/pwc-study-reveals-277-million-usd-f1-benefit-to-baku
29. https://www.mfa.gov.az/az/category/beynelxalq-emekdasliq
30. https://www.economy.gov.az/article/qarabag-iqtisadi-rayonu/31889

# СОЗДАНИЕ СОВРЕМЕННЫХ ТРЕНДОВ ВНУТРЕННЕГО ТУРИЗМА В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ РАЙОНАХ

**Севал Мусаева**

**Азербайджанский Государственный Экономический Университет**

**seval.musayeva@mail.ru**

## Резюме

В ноябре 2020 года Вооруженные силы Азербайджана под руководством Верховного главнокомандующего Президента Азербайджанской Республики сломили сопротивление армянских оккупантов и одержали исторически значимую победу. Таким образом был положен конец армянской оккупации исконно азербайджанский территорий. Это знаменательное событие для всего азербайджанского народа. После того как оккупированные территории были освобождены первоочередной задачей является возвращение населения на родные земли. Для решения этой важной задачи необходимо проведение комплекса мер. Конечно, для проживания людей должны быть созданы все условия для нормальной жизнедеятельности. Для этого необходимо восстановление экономики освобожденных территорий и реинтеграция их в экономику республики.

По распоряжению Президента Азербайджана были созданы Карабахский и Восточно-Зангезурский экономические районы. Эти районы обладают богатым культурно-историческим наследием и живописным природным ландшафтом. В этих районах есть потенциал для развития сельского хозяйства, промышленности, туризма. Предстоит реализация уникальных инфраструктурных проектов, применение современных технологий во всех сферах, создание зоны «зеленой» энергетики, строительство новых населенных пунктов «умный» город и «умное» село. Будет построена новая модель экономического развития, которая в дальнейшем может применяться и на других территориях. Восстановление территорий придаст мощный импульс для экономического роста всего Азербайджана. Восстановление и реинтеграция освобожденных территорий будут осуществляться в рамках общей стратегии развития Азербайджана и должны носить комплексный и программно-проектный характер.

**Ключевые слова:** освобожденные территории, реинтеграция, восстановление экономики, туристический бренд

## Summary

In November 2020, the Azerbaijani Armed Forces under the leadership of the Supreme Commander-in-Chief of the President of the Republic of Azerbaijan broke the resistance of the Armenian occupiers and won a historically significant victory. All conditions for normal life should be created for people to live. To do this, it is necessary to restore the economy of the liberated territories and reintegrate them into the economy of the republic.

By the order of the President of Azerbaijan, the Karabakh and East Zangezur economic regions were created. There is potential for the development of agriculture, industry, and tourism in these areas. It is necessary to implement unique infrastructure projects, the use of modern technologies in all spheres, the creation of a green energy zone, the construction of new settlements "smart" city and "smart" village. A new model of economic development will be built, which can be applied in other territories in the future. The restoration of the territories will give a powerful impetus to the economic growth of the whole of Azerbaijan. The restoration and reintegration of the liberated territories will be carried out within the framework of the overall development strategy of Azerbaijan.

**Keywords:** liberated territories, reintegration, economic recovery, tourist brand

## Введение

Туризм является одной из развитых сфер деятельности. Под туризмом мы чаще всего понимаем путешествия. В разработанном для Евростата методологическом пособии для статистических данных в сфере туризма отмечается, что целью такого путешествия может быть отдых, бизнес или иная личная причина, за исключением устройства на работу.

Исследователи в области туризма Джон Сварбруг и Сьюзен Хорнер (Swarbrooke & Horner, 2007) дают определение туризма, как недолгое перемещение для получения нового приятного опыта. Специалисты в области туризма, в том числе и международные характеризуют отрасль туризма, как поездки людей в места, которые отличаются от мест их постоянного проживания или от их мест, где находится работа. (Боголюбов, Орловская, 2005)

Таким образом, исходя их вышеизложенного, важнейшими определения в сфере туризма являются:

1. Перемещение в место отличное от постоянного пребывания
2. Продолжительность пребывания
3. Реализация цели путешествия или получение нового опыта.

Но для комплексного понимания индустрии туризма, которая организует и обеспечивает услуги для туристов, необходимо также включать услуги гостеприимства (hospitality industry) и индустрии организации досуга (leisure industry).

Индустрия гостеприимства включает предоставление мест для проживания туристов. Это могут быть как пятизвездочные отели, так и квартиры на Эйр-би-эн-би.

А индустрия организации досуга представлена компаниями, которые организуют услуги для туристов, например, экскурсии, кафе, рестораны, парки-аттракционы и другие развлекательные и познавательные туристические аттракции.

**Метод**

Исследование проводилось с помощью следующих методов: это прежде всего метод наблюдения и сбора фактов, когда происходящие экономические процессы воспринимаются в реальности. Метод анализа и синтеза, когда изучаемые явления рассматривались в целом и по частям. Также применялся метод сравнения. Развитие туризма на освобожденных территориях изучались в их исторической последовательности, а выводы делались при помощи логических методов.

**Анализ**

Виды современного туризма зависят от интересов, потребности и мотивации туриста, и то каким способом передвижения он будет пользоваться в путешествии. Если говорить о видах современного туризма, то можно использовать следующую классификацию:

- посещение родственников и друзей в других городах, когда основной мотивацией туриста является посещение родственников, а вторичной осмотр города и территорий
- культурный туризм, посещение объектов культурного наследия, знакомство с предметами искусства и посещение культурных событий, таких как, фестиваль, например.
- деловой туризм, когда основным мотивом путешествия является посещение конференций, различные стажировки, основной мотивацией здесь является получение новых знаний и навыков.
- паломничество и религиозный туризм, основной мотив – посещение мест религиозной значимости или мест совершения паломничества.
- медицинский туризм, когда перемещение происходит  получения медицинских и оздоровительных услуг.
- социальный туризм, путешествия, организованные для людей с ограниченными возможностями, с особенностями развития.
- экологический туризм, приобретающий все большую популярность. Также сюда можно отнести и ответственный туризм, когда турист старается отдохнуть с минимальным экологическим вредом от

своего путешествия, и даже принимает участие в мероприятиях, направленных на сохранение экосистемы дестинации.
- активный туризм, представлен разными видами активности, например, скалолазание, водные виды спорта и т.д. (Боголюбов, В.С. Орловская В.П, 2005).
Есть туризм по интересам, его также называют нишевый туризм. Существует кинотуризм, гастрономический туризм. Здесь подразумевается индивидуальный туризм, то есть имеется в виду индивидуальные предпочтения и интересы. Главная цель здесь удовлетворить интерес в какой-либо области. Любой интерес может быть положен в основу нишевого туризма, сформировать спрос на рынке и занять определенную нишу.
- круизный туризм, основной способ передвижения теплоход или лайнер с посещением городов по месту следования и различные развлекательно- культурные программы на самом лайнере.
- курортный туризм или Sea & Sun, то есть отдых в курортных зонах.
Также классификацию можно дополнить современными видами туристического отдыха. Новые виды туризма появляются довольно быстро с развитием современных технологий и появления новых способов передвижения. Например, каучсерфинг, появившись лет 10 назад, стал завоевывать популярность по всему миру и собирать много сторонников.
Некоторые виды туризма могут существовать отдельно, то есть сами по себе, некоторые же могут комбинироваться. Например, спортивный отдых, катанье ни на лыжах, сочетаться с посещением объектов культурн0го наследия.
Многие исследователи раньше четко разделяли путешественника, то есть человека, который готов пренебречь собственным комфортом, для того чтобы максимально погрузиться в культуру, даже согласен испытывать дискомфорт и продлить длительность путешествия, если это необходимо. И туриста, который хочет узнать новый регион или территорию с минимальными потерями в удобствах и в заранее запланированное время. Но в современном подходе данное разграничение уже не становится актуальным. Развитие современных технологий и движение прогресса сделало данное разграничение условным (Боголюбов, В.С. Орловская В.П, 2005).,(Колодий Н.А., 2018).
Известный агрегатор туристических отзывов и рецензий TripAdvisor отмечает следующие тренды, которые будут иметь значение в ближайшие годы:
- Поиск новых впечатление
- Готовность платить за интересные направления
- Выбор нишевых и специализированных туристических маршрутов
- Наличие обязательной возможности выйти на связь с внешним миром
- высокие цены на проживание
İnsan resurslarının idarə edilməsinin yeni metodlarından biri olan Məqsədlərə görə idarəetmə (MBO) menecerlər və işçilərin birlikdə müəyyən bir qiymətləndirmə dövründə diqqət yetirmək üçün hədəfləri müəyyənləşdirməsi, planlaşdırması, təşkil etməsi və ünsiyyət qurması ilə qiymətləndirmə metodudur. Aydın hədəflər təyin etdikdən sonra menecerlər və tabeliyində olanlar, müəyyən olunmuş hədəflərə çatmağın mümkünlüyünə nəzarət etmək və mübahisələndirmək üçün əldə olunan irəliləyişləri vaxtaşırı müzakirə edirlər. Bu performans qiymətləndirmə metodu, təyin olunmuş hədəfin konkret, ölçülə bilən, əldə edilə bilən, real və zamana həssas olub olmadığını görmək üçün SMART metodundan istifadə edərək hədəfləri doğrulamaqla birlikdə ümumi təşkilati hədəfləri işçilərin hədəfləri ilə səmərəli şəkildə uyğunlaşdırmaq üçün istifadə olunur (https://kissflow.com/hr/performance-management/employee-performance-appraisal-method/).
İnsan resurslarının idarə edilməsinin yeni metodlarından bir digəri 360 dərəcə Əlaqə, işçinin təsir dairəsindən toplanan rəylərdən, yəni menecerlərdən, həmyaşıdlarından, müştərilərindən və birbaşa hesabatlardan istifadə edərək işçini qiymətləndirən çoxölçülü bir performans qiymətləndirmə metodudur. Bu metod, performans icmallarındakı qərəzliliyi aradan qaldırmaqla yanaşı, bir insanın səriştəsi ilə bağlı aydın bir anlayış da təmin edəcəkdir (https://kissflow.com/hr/performance-management/employee-performance-appraisal-method/).
Bir digər metod olan Qiymətləndirmə mərkəzi konsepsiyası hələ 1930-cu ildə Alman Ordusu tərəfindən təqdim edilmiş, lakin cilalanmış və bugünkü mühitə uyğunlaşdırılmışdır. Qiymətləndirmə mərkəzi metodu

işçilərin başqalarının onları necə müşahidə etdikləri və onların fəaliyyətlərinə təsiri barədə aydın bir şəkil əldə etməyə imkan verir. Bu metodun əsas üstünlüyü ondadır ki, bu, yalnız bir fərdin mövcud fəaliyyətini qiymətləndirməyəcək, həm də gələcək iş performansını proqnozlaşdıracaqdır (https://kissflow.com/hr/performance-management/employee-performance-appraisal-method/).

İnsan resursları (maya dəyəri) uçotu metodu işçinin şirkətə verdiyi pul faydaları vasitəsilə fəaliyyətini təhlil edir. Bu, işçinin saxlanılması ilə maliyyənin (şirkətin xərcləri) və bir təşkilatın həmin işçidən əldə etdiyi pul müavinətlərini (töhfələrini) müqayisə etməklə əldə edilir. Bir işçinin fəaliyyətinin dəyəri mühasibat uçotu metodlarına əsasən qiymətləndirildikdə, vahid baxımından orta xidmət dəyəri, keyfiyyət, əlavə xərclər, şəxsiyyətlərarası münasibətlər və daha çox kimi amillər nəzərə alınır. Maliyyət və fayda analizinə və təhlilçinin yaddaş gücünə yüksək dərəcədə asılılığı insan resursları uçotu metodunun çatışmazlığıdır (https://kissflow.com/hr/performance-management/employee-performance-appraisal-method/).

**Nəticə**

İnsan resurslarının idarə edilməsində bir sıra yeni metodlar vardır. Bu metodlara aşağıdakılar aiddir:

- Məqsədlərə görə İdarəetmə (MBO);
- 360 dərəcə Əlaqə;
- Qiymətləndirmə Mərkəzi Metodu;
- Davranışla Əlaqəli Reytinq Ölçüsü (BARS);
- Psixoloji Qiymətləndirmələr;
- İnsan Resursları (Xərc) Mühasibat Metodu.

Bir sıra nəhəng şirkətlər öz fəaliyyətlərində artıq bu metodlardan istifadə edirlər. Pərakəndə nəhəngi Walmart, yüksək, orta və birinci dərəcəli menecerlərin fəaliyyətini idarə etmək üçün geniş bir MBO iştirakçı yanaşması istifadə edir. RBS, Sainsbury's və G4S kimi ən yaxşı özəl təşkilatlar işçilərin fəaliyyətini ölçmək üçün 360 dərəcə, çox səviyyəli performans geribildirimindən istifadə edirlər.

Microsoft, Philips və bir sıra digər təşkilatlar işçi qüvvəsində gələcək liderləri müəyyən etmək üçün qiymətləndirmə mərkəzi təcrübəsindən istifadə edirlər. Ford Motors, Exxon Mobil, Procter & Gamble işçilərinin şəxsiyyətini və performansını yoxlamaq üçün psixoloji qiymətləndirmələrdən istifadə edirlər.

Göründüyü kimi bəzi metodların birbaşa misallar çəkildi. Digər metodlarda bir sıra xarici şirkətlər tərəfindən istifadə edilir. Yerli şirkətlərimizin bu sahədə yenidən strukturlaşmaya ehtiyacı vardır. Çünki bir sıra şirkətlərdə kadrların idarə edilməsində böyük problemlər vardır. Onlarda işçilərin şirkətdə işləmə müddəti 3 – 4 ayı keçmir. Rəhbərliyin kadrlara qarşı olan yalnış strategiyası şirkət daxilindəki münasibətlərə öz mənfi təsirini göstərir. Belə halların qarşısını almaqdan ötrü şirkət rəhbərlərinin də seminarlarda və təlimlərdə iştirak etməsi məqsədə uyğundur. Bu metodların tətbiqi ilə müəssisələrdə aşağıdakı kimi müsbət effektlər almaq mümkündür:

- Fərdin necə performans göstərdiyi və bunun digər maraqlı tərəflər üzərində təsiri barədə məlumatlılığının artırılması;
- İşçiləri öz inkişafına sərmayə qoymağa təşviq edilməsi və dəyişikliyin rəhbərliyə çatdırılması;
- Bir iştirakçının biliklərinin, düşüncə müddətinin və işçilərin səmərəliliyinin artırılması;
- Aydın standartlardan, inkişaf etmiş əlavələrdən, dəqiq performans təhlilindən və ardıcıl qiymətləndirmədən zövq alınması;
- İçinəqapalı və ya utancaq işçilərə potensiallarını işıqlandırmaq və sübut etmək üçün bir platforma təklif edilməsi;

- Bir işçinin fəaliyyətinin təşkilatın əsas xəttindəki maliyyə təsirlərini müəyyənləşdirməyə kömək edilməsi.

**Ədəbiyyat siyahısı.**


1. A.Nankervis "Linking strategic HRM, performance management and organizational effectiveness: Perceptions of managers in Singapore", Asia Pacific Business Review, 2011.
2. Amstrong's handbook of human resource management practice 13th edition, 2014;
3. Levashina, J. and Campion, M. (2009) 'Expected practices in background checking: Review of the human resource management literature', Employee Responsibilities and Rights Journal, Vol. 21(3), pp. 231-249.
4. A.Riege, "Three-dozen knowledge-sharing barriers managers must consider.", Journal of Knowledge Management, 2005, 9(3), 18-35;
5. M.Perez, A.Sanchez, M.Luis Carnicer, "Benefits and barriers of telework: Perception differences of human resources managers according to company's operations strategy.", Technovation, 2002, 22(12), 775-783;
6. Collins, C.J. and Clark, K.D. (2003) 'Strategic human resource practices, top management team social networks, and firm performance: The role of human resource practices in creating organizational competitive advantage'. Academy of Management Journal, Vol. 46(6), pp.740-751.
7. https://hbr.org/1981/09/managing-human-resources
8. http://www.whatishumanresource.com/human-resource-management
9. https://kissflow.com/hr/performance-management/employee-performance-appraisal-method/
10. https://www.openhrms.com/blog/new-techniques-for-improving-hrm

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İQTİSADİ POTENSİALININ XARAKTERİSTİKASI

**Şirin Ramazanova**

**Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)**

**ramazanova.shirin@mail.ru**

## Xülasə

Ali Baş Komandanın rəhbərliyi altında Müzəffər Azərbaycan ordusu 44 gün sürən əzmli mübarizədə öz tarixi torpaqlarını düşmən əsarətindən azad etdi və tarixi qələbəyə imza atdı. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu tarixi fakt dövlətimizin və millətimizin qarşısında yeni imkanlar və perspektivlər açdı. Ermənilər 30 ilə yaxın bir dövrdə işğal etdikləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bütün yaşayış məskənlərini tamamilə dağıtmış, infrastrukturu məhv etmiş, görünməmiş ekoloji terror həyata keçirmişlər. Odur ki, Azərbaycan dövləti həmin əraziləri sıfırdan başlayaraq canlandırmaq, şəhərləri və kəndləri yenidən qurmaq, infrastruktur yaratmaq, təbiəti bərpa etmək məcburiyyətindədir. Azərbaycanın əzəli və əbədi torpaqları olan bu ərazilər yüksək iqtisadi potensiala malikdir. İşğaldan azad olunan ərazilərin iqtisadi potensialı ölkə iqtisadiyyatının inkişafına təkan verərək daha da sürətləndirəcəkdir. Zəngin təbiətə və faydalı resurslara malik olan bu ərazilər həm də Azərbaycan üçün çox mühüm strateji mövqeyə malikdir. Təqdim olunan məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi potensialı səciyyələndirilmiş, həmin ərazilərdə təbii sərvətlərdən istifadə vəziyyəti və perspektivlərinə münasibət bildirilmiş, bəzi ümumiləşdirmələr aparılmışdır.

**Açar sözlər**: İqtisadi potensial, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, resurs potensialı, prioritet istiqamətlər, iqtisadi inkişaf.

## Summary

Under the leadership of the Supreme Commander -in-Chief, the victorious Azerbaijani army liberated its historical lands from enemy captivity and achieved a historic victory in a 44 day determined struggle. Azerbaijan`s territorial integrity has been restored. This historical fact has opened new opportunities and prospects for our state and nation. For almost 30 years, the Armenians have completely destroyed all settlements in the occupied Karabakh and East Zangazur economic regions, destroyed infrastructure, and carried out unprecedented environmental terror. Therefore, the Azerbaijani state has to revitalize these territories from scratch, rebuild cities and villages, create infrastructure and restore nature.These territories, which are the ancient and eternal lands of Azerbaijan, have a high economic potential. The economic potential of the liberated territories will stimulate and accelerate the development of the country`s economy. These areas, which are rich in nature and useful resources, also have a very important strategic position for Azerbaijan. The presented article characterizes the economic potential of Karabagh and East Zangazur economic regions, comments on the state and prospects of use of natural resources in these areas, and makes some generalizations.

**Keywords**: economic potential, Karabagh and East Zangazur economic regions, resource potential, priority areas, economic development.

## Giriş

Məqalədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonlarının iqtisadi potensialının xarakteristikası araşdırılmış, zəngin təbii sərvətlərin və iqtisadi cəhətdən rentabelli resurs potensialının olması aşkar edilmişdir. İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının xarakteristikasının tədqiq olunması bu ərazilərin iqtisadiyyatının inkişaf etməsi və ölkə iqtisadiyyatına reinteqrasiya etməsi üçün vacibdir. Tədqiqatın məqsədi işğaldan azad edilən ərazilərin iqtisadi potensialını araşdırmaq və qiymətləndirməkdən ibarətdir. Tədqiqatın məhdudiyyətləri- ilkin informasiya bazası təşəkkül mərhələsindədir. Tədqiqat prosesində müşahidə, müqayisəli təhlil və məntiqi ümumiləşdirmə üsullarından istifadə olunmuşdur. İşğaldan azad edilən ərazilərdə dağ-mədən sənayesi, kənd təsərrüfatının bir çox sahəsi, turizm, elekrik

enerjisi, həmçinin "yaşıl enerji" istehsalı üçün yüksək iqtisadi potensialın olduğu vurğulanmışdır. Regionun iqtisadi inkişafında nəqliyyat infrastrukturunun qurulmasının, həmçinin bu ərazinin beynəlxalq logistika mərkəzinə çevrilməsində mühüm əhəmiyyət kəsb etməyi qeyd olunmuşdur. Məqalədə istinad olunan mənbələr əsasən, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, 2010-cu ildə nəşr olunan Nazim Müzəfərlinin "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar"ı adlı kitabı, İqtisadi təhlil və Kommunikasiya Mərkəzinin məlumatları və s. dir.

**İqtisadi potensialın xarakteristikası**

Ölkənin qtisadi potensialı mövcud təbii sərvət və ehtiyatlardan istifadə etmək qabiliyyətidir. "İqtisadi potensial iqtisadiyyatın sahələrinin istehsal imkanlarından və onlardan istifadə olunma səviyyəsindən asılıdır. İnkişaf etmiş məhsuldar qüvvələrə və zəngin milli sərvətə malik ölkələrin iqtisadi potensialı yüksək səviyyədədir" (Научная электронная библиотека). Sənaye sahələrinin, müəssisələrin istehsal-təsərrüfat fəaliyyətini həyata keçirmək, məhsul və əmtəə istehsal etmək, xidmət göstərmək, əhalinin tələbatını ödəmək, istehsalın və istehlakın inkişafını təmin etmək üçün iqtisadi potensialın olması başlıca şərtdir. Ölkənin iqtisadi potensialı əmək ehtiyatlarının sayı, ümumi milli məhsul, milli gəlir, məhsuldar qüvvələrin həcmi, sənaye məhsulunun həcmi, sənaye və kənd təsərrüfatı məhsulları, enerji, su, mineral ehtiyatlar və bir sıra digər göstəricilərlə müəyyən edilir.

Tarixi qələbəyə imza atandan sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa oldu və ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoydu. Lakin 30 il müddətində işğal altında olan torpaqlarımız ermənillər tərəfindən dağıntılara məruz qalıb talan edilmişdir. İşğal olunan ərazilərdə infrastruktur demək olar ki, tamam dağıdılmışdır. İqtisadiyyat nazirliyinin açıqladığı statistikaya əsasən, "işğaldan azad edilən torpaqlarda 7 rayon mərkəzi, 6 şəhər, 12 qəsəbə, 830 kənd, 700 xəstəxana və tibb müəssisəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 600 sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılıb, talan olunub, 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən, təxminən, 128 min suvarılan torpaq, 35 min hektara yaxın üzüm və meyvə bağları məhv edilərək dövriyyədən çıxarılıb. İşğala qədər ölkə üzrə ÜDM istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i həmin rayonların payına düşüb. İşğal ölkənin su ehtiyatlarına ciddi ziyan vurub. Ümumi meşə sahələrinin 25%-i, yəni 280 min hektarı işğal olunan torpaqların payına düşürdü" (**İ**qtisadi inkişaf nazirliyi, 2021). İşğaldan azad edilmiş ərazilərin bərpası prosesi çətin və çox xərc edən olmasına baxmayaraq artıq bu ərazilərin reabilitasiya və reinteqrasiya prosesinə başlanılmışdır. İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı imkan verir ki, bu regionun iqtisadi və sosial cəhətdən əvvəlkindən də intensiv inkişaf etsin. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonuna qoyulan investisiyalar hesabına qat-qat artıq gəlir əldə ediləcəyi proqnozlaşdırılır.

Azad edilmiş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyasını sürətləndirmək və daha çevik etmək məqsədlə Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqləndi. Bu bölgüyə əsasən "işğaldan azad edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirilməsini zəruri edir. Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir". Bu adlandırma həm tarixi həm də

iqtisadi baximdan azərbaycan xalqı üçün çox önəmlidir (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 07 iyul 2021).

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sərəncamına əsasən növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritet sırasında "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" bəndinin yer tutması bir daha posmünaqişə ərazilərinin inkişafının Azərbaycan Respublikası üçün ən önəmli məsələlərdən biri olmasını göstərir."Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır" (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 02 fevral 2021).

Post-münaqişə ərazilərinə Böyük qayıdış planını həyata keçirtmək və dayanıqlı məskunlaşmaya nail olmaq üçün ilk növbədə həmin ərazilərdə minimum yaşayış şərtlərini bərpa etmək lazımdır. "İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisinin təminatı, kritik yol xətlərinin bərpası, içməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası, ev-mənzil yaşayış sahələrinin bərpası və təminatı, humanitar yardım məqsədləri üçün hava limanının bərpası"görüləcək ən vacib işlər sırasındadır (İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2022). İşğaldan azad edilmiş ərazilərdə yaşayacaq insanların təhlükəsizliyi üçün ərazilərin minalardan təmizlənməsi ən vacib məsələdir. "Həmçinin həyat üçün birbaşa təhlükə yaradan ekoloji pozuntular aradan qaldırılmalı, sərhəd və polis nəzarətinin təşkil olunmalı, mülki hakimiyyət orqanlarının bərpa edilməlidir"(Müzəffərli, İsmayılov, 2010).

Azərbaycan dövlətinin ən başlıca prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatının ən azı işğaldan öncəki vəziyyətə çatdırılması və davamlı formada artıma nail olunmasıdır. Bunun üçün həmin ərazilərin kifayət qədər resurs potensialı və təbii ehtiyatları mövcuddur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkə iqtisadiyyatına reinteqrasiya olunması nəticəsində davamlı artan və dayanıqlı iqtisadiyyata nail olunacağı proqnozlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan qiymətləndirməyə əsasən bu ərazilərdə dağ-mədən, turizm, kənd təsərrüfatı və elektrik enerjisi istehsalı üçün zəngin resurs potensialı mövcud olması qeyd olunur (İİTKM, 2022). İşğaldan azad edilən ərazilər minalardan təmizlənib təhlükəsizlik tədbirləri görüldükdən, həmçinin infrastruktur bərpa olunub və demoqrafiq problem həll olunduqdan sonra burada turizmi bərpa etmək işlərnə başlamaq olacaq. Hələ işğaldan öncə bura həm yerli, həm də postsovet ölkələrindən turistlər gəlirdi. Burada turizmin müalicə, kulinariya turizmi, ekoturizm, etnoturizm, dağçılıq və alpinizm turizmi növlərini yaratmaq üçün kifayət qədər resurs potensialı var. Bu ərazilər müxtəlif qədim tarixi abidələr, meşələr, nadir bitki və heyvan növləri, qoruq və yasaqlıqlar ilə məşhurdur. Dünyanın ən qədim yaşayış məskənlərindən olan "Azıx mağarasının, Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr, Xocalıdakı dolmenlər, Xankəndidəki kromlexlərin, Gənçəsər (Qanzasar), Alban-Amaras, Yelisey, Xudavəng, Ağoğlan kimi tarixi məbədlərinin turizm imkanları xüsusilə genişdir" (Leyla Rəşid, 2022). Turizm sahəsində dövlət, özəl sektor və ekspertlərin əməkdaşlığı sayəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonunun sıfırdan turizm potensialı işlənib hazırlanmalıdır. Təbii və antropogen turizm resursları nəzərdən keçirilməlidir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin verdiyi məlumata görə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun turizm üzrə inkişafı şərq istiqaməti üzrə Füzuli və Şuşa, Suqovuşanda Daşaltı sanatoriyası, Kəlbəcərdə İstisu sanatoriyası olmaqla 3 istiqamətdə inkişafı nəzərdə tutulur. Füzuli və Şuşa istiqamətində həm ekoturizm, həm də mədəni turizm abidələri kifayərdir. Əhmədbəyli-Füzuli-Şuşa yolu, eləcə də artıq istifadəyə verilmiş "Zəfər yolu", həmçinin Füzuli hava yolu bu ərazi üzrə turizmin inkişafına böyük töhvə verəcəkdir. Hava limanının yenidən qurulması beynəlxalq turizm inkişafı üçün də zəmin yaradacaqdır. Digər istiqamətlər Suqovuşan-Qaşaltı sanatoriyası və Kəlbəcər-İstisu istiqamətləridir. Bu

ərazilərə çəkilən yollar, əsasən də Kəlbəcər və Laçın rayonlarını birləşdirəcək yol, eləcə də Laçın hava limanı ərazinin turizmini daha da inkişaf etdirəcək, həmçinin xarici turistləri də cəlb etmək imkanı əldə edəcəkdir (İİTKM, 2022).

İşğaldan azad edilmiş ərazilər taxılçılıq, üzümçülük, şərabçılıq, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvəçilik, bostançılıq, heyvandarlıq, həmçinin atçılıq, gön-dəri, ət və süd məhsulları sənayesi, arıçılıq, xalçaçılığın inkişafı üçün böyük potensiala malikdir. İşğaldan öncə Füzuli, Ağdamd rayonlarında pambıqçılıq, taxılçılıq, üzümçülük istehsalı, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında üzümçülük, Laçın, Kəlbəcər, Qubadlı və Zəngilan rayonlarında heyvandarlıq çox inkişaf etmişdi. Göründüyü kimi, posmünaqişə ərazilərinin xammal və resurs potensialı, təbii resursları bu ərazilərdə tez bir zamanda iqtisadiyyatı bərpa etmək üçün şərait yaradır. İşğaldan qabaq bu ərazilərdə aparılan ekspedisiyaların nəticələrinə görə, "torpaqlarının biomüxtəlifliyinin, genetik ehtiyatlarının zənginliyinə görə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları xüsusən seçilir. Bura bir sıra efiryağlı, aromatik, dərman, bəzək və digər qeyri-ənənəvi bitkilərin də vətənidir". Şuşa şəhərində bitən xarı bülbül nadir bir bitki olub başqa heç yerdə bitmir. Xarı bülbül həm də 44 günlük müharibədə qəhrəmancasına vuruşan Azərbaycan igidlərinin rəmzinə çevrilib (Müzəffərli, İsmayılov, 2010).

Hesablamalara əsasən "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycan iqtisadiyyatının 10%-ni təşkil etmək iqtidarındadır. Ümumilikdə taxıl istehsalı üzrə 70 min ton-dan çox məhsul istehalı, 1.8 min ton tütün, 8.4 min ton kartof, 11.9 min ton tərəvəz məhsulları, 4.6 min ton bostan məhsulları, yem bitkiləri üzrə 153.6 min ton, meyvə və giləmeyvə istehsalı üzrə 46.3 min ton, üzüm istehsalı üzrə 27.3 min ton məhsul istehsalı nəzərdə tutulur" (İİTKM, 2022). Qeyd etmək lazımdır yem bitkiləri üçün əsasən Kəlbəcər və Laçın rayonlarının potensialı daha yüksəkdir. Çox illik əkmələr də məsələn, albalı, gilas, xurma, alça, gavalı, fındıq, nar, alma, armud xüsusi əhəmiyyətə malikdir. Qarabağ və Şərqi Zəngəzur ərazisi meşə ehtiyatları ilə də zəngindir. Təkcə Şərqi Zəngəzur ərazisində 178.1 min hektar meşə ehtiyatı mövcuddur. Meşə ehtiyatının çoxu Laçın və Kəlbəcər rayonlarının ərazinə düşür. Meşə ehtiyatlarının böyük olması həm də turizmin inkişafına da dəstək verəcəkdir.

Hal-hazırda taxıl qıtlığı dünyada ən aktual məsələlərdən biridir. 2008-ci ildə dünya böhranı baş verəndə Azərbaycan ilk dəfə taxil qıtlığı ilə üzləşdi. Azərbaycan hər il 1 mln. tondan çox taxıl idxal edir. Azərbaycan taxıla olan ehtiyacını daxili ehtiyatı hesabına ödəyə bilər. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii şəraiti, zəngin su ehtiyatı taxılçılığın ölkənin iqtisadi inkişafında prioritet istiqamətlər sırasına aid edilməsinə imkan verir. Daha çox "Füzuli, Ağdam və Cəbrayıl rayonları taxılçılıq üçün yetərincə əlverişli təbii-iqlim şəraitinə malikdir. Bu rayonlarda taxıl istehsalı sahəsində çoxəsrlik ənənə mövcuddur. Taxılçılığın post-konflikt ərazilərdə iqtisadiyyatın dirçəldilməsində ən mühüm sahəvi prioritetlər sırasına salınmalı və başlıca vəzifələrdən biri kənd təsərrüfatı torpaqlarını mümkün qədər tez dövriyyəyə qaytarmaqdan ibarətdir olmalıdır" (Müzəffərli, İsmayılov, 2010).

Üzümçülük post-konflikt ərazilərinin iqtisadiyyatında ən mühüm sahələrdən biri olmuşdur. Ərazinin təbii-iqlim şəraiti elit üzüm növlərinin yetişdirilməsi üçün əlverişlidir. Bu regionda yenidən üzümçülüyün inkişafına nail olunması, şərabçılıq sənayesinin inkişafına da təkan verəcəkdir. İşğal olunmamışdan qabaq bu ərazilərdə şərabçılıq ənənələrinin mövcud olması, Rusiya bazarının yaxın olması şərabçılıq sənayesinin inkişafı üçün üstünlük yaradır. Digər tərəfdən isə kifayət qədər tanınan brendə sahib olmadan beynəlxalq bazara daxil olmaq bir qədər çətindir.

İşğaldan azad edilmiş ərazilərin dağlıq əraziləri heyvandarlığın, xüsusən də qoyunçuluğun inkişafı üçün əlverişli şəraitə malikdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonlarında heyvandarlıq sahəsində çoxəsrlik təcrübə mövcuddur. Heyvandarlığın inkişafı bu ərazilərdə ət-süd, eləcə də gön-dəri sənayesini inkişafı üçün zəmin yaradır. Ölkəmizdə hal-hazırda heyvandarlıq məhsullarına daxili tələbat tam ödənilir.

Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında heyvandarlığın inkişafı sayəsində xarici bazarlara da məhsul ixrac etmək mümkün olacaqdır. Ölkəmizdə fəaliyyət göstərən şirkətlər də artıq işğaldan azad edilmiş ərazilərdə biznes qurmağa hazırdır. Heyvandarlığın bu regionda inkişafı üçün yüksək iqtisadi potensialın olmasını nəzərə alaraq bu sahə əsas prioritet sahələrdən biri hesab oluna bilər.

**Təbii sərvətlərdən istifadə vəziyyəti və perspektivləri**

Ölkədə gön-dəri istehsalının inkişafı üçün yüksək potensialın olmasına baxmayaraq hələki iqtisadiyyatın kiçik bir hissəsini əhatə edir və daxili təlabatın kiçik bir hissəsini ödəyir. Məsələn, "2007-ci ildə Azərbaycanda dəri, dəri məmulatları və ayaqqabı istehsalı 2 dəfədən də çox artmışdır. Dəri, dəri məmulatları və ayaqqabı istehsalının emal sənayesindəki payı təxminən 3% ətrafındadır. İlkin qiymətləndirmələrə görə, gön-dəri müəssisələrinin rentabellik səviyyəsi, normal işlədikləri təqdirdə, ildə 100%-ə yaxın ola bilər" (Müzəffərli, İsmayılov, 2010). Hazırda Azərbaycan ərazisində istehsal olunan gön-dəri xaricə, əsasən Türkiyəyə ixrac olunur. Daha sonra xaricdən hazır məhsul şəklində idxal olunur. Lakin bütövlükdə ölkədə, xüsusilə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonunda ayaqqabı və digər gön-dəri məhsullarını istehsal etmək üçün əlverişli şərait var. Digər tərəfdən isə gön-dəri məhsullarını istehsal etməyin öz çətinlikləri mövcuddur. Birincisi gön-dəri istehsalı kifayət qədər su məsrəfi tələb edir. İkincisi isə gön-dəri məhsullarının istehsalı təcrübəsinin işğaldan azad edilmiş bölgələrdə kifayət qədər olmamasıdır. Lakin müasir texnologiyaların sayəsində suyun çirklənməsinin qarşısını almaqla gön-dəri sənayesini inkişaf elətdirmək mümkündür. Həmçinin inkişaf etmiş ölkələrin, eləcə də post- münaqişə ərazilərinə malik digər ölkələrin təcrübələrindən istifadə etməklə bu prpblemin də öhdəsindən gəlmək olar.

Qarabağ və Şərqi Zəngəzur ərazisi hər zaman Qarabağ atları ilə məşhur olmuşdur. Dünya şöhrətli ərəb, türk və ingilis atları ilə bərabər Qarabağ atları da idman, əyləncə və turizm baxımından dünya şöhrəti qazanmışdır. Bu ərazidə atçılığı inkişaf elətdirmək başlıca prioritet və rəqabətqabiliyyətli sahələrdən birinə çebirmək olar. Torpaqlarımız işğal olunmamışdan qabaq Ağdam rayonunda atçılıq zavodu fəaliyyət göstərirdi. Təmiz cinsli cıdır atlarına beynəlxalq bazarlarda tələbat böyük olsa da təklif hələ ki nisbətən aşağıdır. Atçılığın bərpası və inkişafı yaxın gələcəkdə ölkənin ixracyönlü sahələrindən birinə çevrilə biləcək.

Bildiyimiz kimi Azərbaycan xalçaları dünyada məşhurdur. Qarabağ xalçaları Azərbaycanın xalçaçılıq sənətində xüsusi yer tutur. Bir qayda olaraq hər 10 kvadrat santimetrə 50 ilmədən az düşmür. Yetərincə güclü marketinq və reklam işi aparılarsa Qarabağ xalçalarının beynəlxalq bazarlarda rəqabət göstərməsi çətin olmayacaqdır. Xalça istehsalı təşkil olunma baxımından çox da çətin və sərmayə tələb edən bir proses olmayıb, istər fabriklərdə, istərsə də ev şəraitində təşkil oluna bilər. Xalçaçılıq sənayesindən yüksək gəlir əldə etmək mümkündür. Xalçaçılıq çətin və zəhmət tələb edən əl əməyi olduğuna görə xalçaların qiyməti də baha olur. Əməktutumlu bir sahə kimi xalçaçılıq post-konflikt ərazilərində həm də əhalinin məşğulluğunu təmin edə bilər (Müzəffərli, İsmayılov, 2010).

Bunu da qeyd etmək lazımdır ki, iqtisadi inkişafa nail olmaq üçün ilk növbədə işğaldan azad edilmiş ərazilərin nəqliyyat infrastrukturu qurulmalıdır. Qarabağ və Şərqi Zəngəzur rayonlarının iqtisadi inkişafında və kənd təsərrüfatı potensialının istifadəsində avtomobil və dəmir yollarının xüsusi rolu olacaq. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun çəkilməsi bu regionun həm də beynəlxalq yükdaşımaları üçün əhəmiyyətli rol oynayacaq. Xüsusiylə Zəngəzur rayonu beynəlxalq loqistika mərkəzinə çevrilə bilər. Zəngəzur dəhlizinin istifadəyə verilməsi beynəlxal yükdaşımalarda mühüm rol oynayacaqdır. Bərdə-Ağdam, Füzuli-Şuşa dəmir yol xətləri də yükdaşımlarda mühüm rol oynayacaqdır. Nəqliyyat infrastrukturunun bərpa və yenidən qurulması Qlobal bazara çıxışı təmin edəcək və işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatına təkan verəcək.

Dağ mədən sənayesi ilə bağlı hesblamalara əsasən Qarabağ qeyri-filiz ehtiyyatlarına, Şərqi Zəngəzur iqtisadi rayonları isə həm filiz həm də qeyri-filiz yataqlarına malikdir. Qeyd edək ki, qeyri-filiz yataqlarına əsasən tikinti materialları, filiz yataqlarına isə civə, qızıl, mis və s. aiddir. Zəngilan, Kəlbəcər, Qubadlı və Laçın rayonları qiymətli və yarımqiymətli daş yataqları ilə, Qubadlı rayonu əqiq yataqları zəngindir (İİTKM, 2022).

İşğaldan azad edilmiş ərazilərdə mövcud olan tikinti materialları yataqlarının və istehsal ənənəsinin olması bu ərazilərin tikinti-quruculuq işlərində xammala olan tələbi tam ödəmək iqtidarındadır. İşğaldan azad edilmiş Cəbrayıl rayonunun yenidənqurma və tikinti işləri üçün lazım olan tikinti materiallarının çoxu elə bu rayonun özündə var. "Mişar daşı istehsalına yararlı Tulus tuf, Çaxmaqçay, tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı, qum-çınqıl, yəşəm, xalsedon və meşə ehtiyatları. Zəngilan rayonundakı Vejnəli, Ağdərə rayonunda Qızılbulaq və Kəlbəcər rayonundaki Zod yataqları sənaye ehtiyatları ilə zəngin qızıl yataqlarıdır" (Leyla Rəşid, 2022).

Təbii resurlar sayəsin işğaldan azad edilən ərazilərdə dağ-mədən sənayəsi və metalurgiya komplekslərinin inkişafı yüksək potensiala malikdir. Metalurgiyanın inkişafı həm də hərbi sənayenin inkişafına təkan olacaq. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin verdiyi məlumata əsasən bu bölgədə faydalı qazıntılardan istifadə əsasən 3 istiqamətdə aparılacaqdır: əlvan metallar və onların metallurgiyası, tikinti materialları və nadir metallar. "Əlvan metallar və tikinti materialları ənənəvi iqtisadiyyat üçün xas olan sahələrdir və mövcud ehtiyatlar bu sahələrdə yeni güclərin yaranmasına imkan verəcəkdir. Əlavə olaraq, yüksək texnologiyalarda geniş istifadə olunan nadir metalların regionda mövcudluğu ilə bağlı araşdırmalar və geoloji işlər aparıla bilər" (İİTKM, 2022).

Laçın rayonu ərazisində xromit filizi, ipək xromit yataqları var. "Bu yataqlarda xrom oksidinin miqdarı nisbətən daha aşağıdır (25,0-39,5%), lakin onlar daha geniş yayılma sahəsinə (500 km2 yaxın) malikdir". Bu ərazilərdə mis yataqları da yüksək perspektivə malikdir. "Mis-porfir və qızıl-mis-kolçedan filizləşmə növləri daha geniş yayılmışdır. Həmçinin bir sıra qızıl-mis-kolçedan yataqlarında geologiya-kəşfiyyat işləri artıq başa çatdırılmış, sənaye ehtiyatları dövlət balansına götürülmüşdür. Bunlara ilk növbədə Ağdərə rayonundakı Qızılbulaq qızıl-mis-kolçedan yatağı (misin orta miqdarı – 1,38%) aiddir". Kiçik Qafqaz ərazisində qurğuşun və sink yataqları əsasən damar tipli kütlələr şəklindədir. Həmçinin civə ehtiyatları ilə zəngindir. Bəzi civə yataqları hələ sovet dövründə istismar edilmişdir. Məsələn, "Kəlbəcər rayonu ərazisində yerləşən və indi ehtiyatı artıq tükənmiş Ağyataq civə yatağı 1984-cü ilədək istismar olunmuşdur. Bununla belə, elə həmin rayonda daha bir neçə perspektivli civə yatağı vardır. Lev kəndindən 15-20 km şimalqərbdə yerləşən Levçay civə yatağının sənaye ehtiyatları (20-70 m uzunluğunda və 2,5-6,5 m qalınlığındakı filiz kütlələrində civənin miqdarı (0,261- 0,497%-dir) təsdiq olunaraq dövlət balansına götürülmüşdür". Kəlbəcər rayonundakı Sarıbulaq, Qamışlı və Şorbulaq civə yataqlarının da ehtiyatları kəşfiyyat işləri nəticəsində qeydə alınmışdır. Laçın rayonunda da civə ehtiyatları aşkar edilmişdir: Çilgəzçay yatağı Ələkçi kəndinin, Narzanlı yatağı isə Kalafalıq kəndinin yaxınlığında yerləşir. Qarabağ və Şərqi Zəngəzur ərazisi nəcib metal yataqları ilə də zəngindir. "Azərbaycanın Kəlbəcər və Ermənistanın Vardenis (Azərbaycan toponimikasına görə – Basarkeçər) rayonlarının sərhədində istismarı hələ 1976-cı ildə başlamış Zod yatağı yerləşir. Yatağın 23 qızıl-filiz damarından 16-sı Azərbaycan ərazisində və yalnız 7-si Ermənistan tərəfdədir". İşğal olunan illər ərzində Ermənistan, xarici investorların dəstəyi ilə yatağın onun ərazisindəki hissəsini istismar ediblər. "Vejnəli qızıl yatağı Zəngilan rayonunda, Ağbənd dəmiryolu stansiyasından 4-5 km aralıda yerləşir. Yataq daxilində 25 qızıllı damar aşkar edilmiş və qiymətləndirilmişdir, bunların 6-sı sənaye əhəmiyyətinə malikdir". Bu yatağın ehtiyatlarında əsas komponent olan qızıldan başqa hasilatı mümkün olan gümüş, mis, tellur və vismut da var. (Müzəffərli, İsmayılov, 2010).

İşğaldan azad edilən ərazilər xüsusi ilə də Laçın və Kəlbəcər rayonları mineral və termal su ehtiyatı ilə də zəngindir. Burada mövcud olan su ehtiyatlarını həm içməli su kimi, həm meliorasiya-suvarma tədbirləri üçün, həm də elektrik enerjisi istehsalı üçün istifadə etmək olar. Azərbaycandan xaricdə də tanınan İstisu əvvəllər burada istehsal olunurdu. "Azərbaycanın hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan su anbarı – Sərsəng su anbarının işğaldan azad olunması ilə Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonları suvarma suyu ilə təmin olunacaq. Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması deməkdir. Həmçinin regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir". Azərbaycanın mineral su ehtiyatlarının 40 faizinə qədəri işğaldan azad edilən torpaqlardadır. Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Şırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edir. Mineral su ehtiyyatlarını həm qablaşdıraraq satmaq, həm də üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür. Su ehtiyatlarından həm də elektrik enerjisi istehsalında istifadə etmək olur. Burada Sərsəng və Xudafərin SES-lərindən söhbət gedir. "Prezident İlham Əliyevin Araz çayı üzərində Xudafərin və Qız qalası bəndləri və elektrik stansiyalarının inşası və istismarı haqqında İran İslam Respublikası ilə gəldiyi razılaşmanın aktuallığı bu gün daha da artır. "Xudafərin" hidroqovşağı Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcək". Artıq Laçın rayonunda 8 meqavatt gücündə Güləbird SES-i işə salınıb, Şuşa şəhərinin elektrik enerjisi təchizatının birinci mərhələsi başa çatıb. Su ehtiyatlarından həm suvarma-meliorasiya işlərində istifadə ediləcək. Bu regionun zəngin su ehtiyatı kənd təsərrüfatının inkişafına dəstək olacaq. Nəticədə kənd təsərrüfatı məhsullarının istehsalı artacaq və qeyri-neft sektoru daha da möhkəmlənəcək(**Məmmədov, 2021**).

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "Yaşıl enerji" zonası kimi bərpa olunması nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərdə ən qabaqcıl texnologiyalar sayəsində alternativ enerji istehsal olunacaq. Laçın-Kəlbəcər bölgələrində külək enerjisindən, Zəngilan-Cəbrayıl bölgələrində isə günəş enerjisindən istifadə imkanları genişdir. Mütəxəssislər bildirirlər ki, Azərbaycan Respublikası ərazisində beş milyard kilovatt-saat enerji almaq üçün alternativ enerji mənbələri mövcuddur və bunların 60 faizi Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonlarında olan çayların payına düşür. "Laçın və Kəlbəcər rayonlarının dağlıq hissələrində 100 metr hündürlükdə küləyin orta illik sürəti 7-8 metr/saniyəyə çatan geniş ərazilər mövcuddur. Burada küləyin potensialı 300-500 meqavatadəkdir. Dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşən Kəlbəcər kimi rayonlarımızda ildırım enerjisindən istifadə olunması planlaşdırılır və buna əsasən, yüksək ərazilərdə ildırım ötürücülərin quraşdırılması nəzərdə tutulur. regionda 4000 meqavattdan çox Günəş enerjisi potensialı var. Qarabağın cənub hissəsi - Füzuli, Cəbrayıl və Zəngilan rayonları bir kvadrat metr əraziyə düşən Günəş radiasiyasının miqdarına görə, Naxçıvan Muxtar Respublikasından sonra ikinci yerdə gəlir. Belə ki, bu ərazilərdə bir kvadrat metr üfüqi səthə düşən Günəş radiasiyası ildə 1600-1700 kilovatt-saat təşkil edir. Əlavə olaraq bildirməliyik ki, Qarabağ və ətraf rayonlarımız geotermal enerji mənbələri ilə də zəngindir" (Virtual Qarabağ)

İşğaldan azad edilmiş ərazilərdə müasir rəqəmsal dünyanın tələblərinə uyğun olaraq informasiya texnologiyalarının tətbiqi sayəsində "Ağıllı şəhər" və "Ağıllı kənd" xidmətlərinə keçid üçün kifayət qədər potensial var. Uzun illər Ermənistanın işğalı altında qalmış bu ərazilər yenidən qurulub, bərpa olunduğuna görə "ağıllı yaşayış məntəqələrinin" bu ərazidə salınması məqsədə uyğundur. İnnovativ kənd təsərrüfatı modeli sayəsində kənd təsərrüfatından gələn gəlir bir neçə ilə milyardlarla dollara çata bilər. Şəhər və kəndlərin bu modeli həmçinin təhlükəsizliyin, səmərəliliyin artırılmasında, dayanıqlı inkişafın təmin olunmasında əsas prioritetlərindəndir (Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 aprel 2021).

**Nəticə**

Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə imza atdı. Qarşıdakı məqsəd işğaldan azad edilən ərazilərə Böyük qayıdış planını həyata keçirməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi "biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik". Qarabağ və Şərqi Zəngəzur iqtisadi-rayonlarının iqtisadi potensialı və həyata keçirilən tədbirlərin, görülən işlərin sürətlə aparılması bunu deməyə əsas verir. Qarabağda aparılan quruculuq işləri yüksək məbləğdə vəsait tələb edən bir prosesdir. Lakin ilkin mərhələdə bu əraziyə qoyulan sərmayə daha sonra həm sosial, həm də iqtisadi cəhətdən inkişafa səbəb olacaqdır. Yaradılacaq yeni iqtisadi dəyərlər dövlətin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. İşğaldan azad edilən ərazilərin bərpası nəticəsində yeni iş yerləri açılacaq və layiqli məşğulluq təmin olnacaqdır. Ən son texnologiyalar vasitəsiylə aparılan quruculuq işləri qeyri-neft sektorunun böyüməsinə şərait yaradacaqdır.

**Ədəbiyyatlar**


1. Ağıllı şəhər (Smart City) və Ağıllı kənd (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 aprel 2021-ci il.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 07 iyul 2021
4. Müzəffərli N., İsmayılov E. (2010) Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar. Bakı, Qafqaz nəşriyyat evi, 270 s
5. https://ereforms.gov.az/files/article/pdf/az/928f9df13982b83325e7a69f720563df.pdf İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
6. http://www.anl.az/down/meqale/xalqqazeti/2020/dekabr/729567(meqale).pdf Leyla Rəşid, 9 dekabr 2022-ci il
7. https://www.economy.gov.az/az **İ**qtisadi inkişaf nazirliyi
8. http://bteb.science.gov.az/az/news/1765/ **Tofiq Məmmədov, 4 mart 2021**
9. https://www.virtualkarabakh.az/az/post-item/27/98/kelbecer.html Virtual Qarabağ
10. https://monographies.ru/ru/book/section?id=174 Научная электронная библиотека, Монографии, изданные в издательстве Российской Академии Естествознания.

# ОСНОВНЫЕ ПРОБЛЕМЫ ОБРАЗОВАТЕЛЬНЫХ БИЗНЕС-СУБЪЕКТОВ В УСЛОВИЯХ ПАНДЕМИИ И ПУТИ ИХ РАЗРЕШЕНИЯ (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ)

**Софья Ахмед**

**Азербайджанский Государственный Экономический Университет**

**sofia.k.ahmed@gmail.com**

## Abstract

Since ensuring effective education at all levels is the most important goal of the world countries, and we know that the education sector turned out to be one of the most vulnerable during the pandemic, studying the functioning of educational business entities during the pandemic is extremely important. This article reviewed the process of emergency transition to distance education both in Azerbaijan and in neighboring countries, and what steps were taken in this case. Due to the globalization of the world economy, the digitalization of education was an inevitable and necessary step. But not all countries of the world were ready for these steps due to the lack of various resources - financial, technical, and personnel. Traditional learning has been replaced by distant or hybrid learning. Since not all states have previously practiced education in such formats, they borrowed each other's experience, made their own responsible decisions, and cooperated for one common goal -ensuring continuous education even in a crisis. That’s why it is crucial to consider the experience of different countries, and how they coped with the crisis at different levels of education.

**Keywords:** pandemic, COVID-19, distance education, online learning, education in Azerbaijan

## Аннотация

Так как обеспечение эффективного образования на всех уровнях является важнейшей целью стран мира, и мы знаем, что сфера образования оказалась одной из самых уязвимых в ходе пандемии, изучение функционирования образовательных бизнес-субъектов во время пандемии представляется крайне важным. В данной статье был рассмотрен процесс экстренного перехода на дистанционное образование как в Азербайджанской Республике, так и в соседних странах, и то, какие при этом были предприняты шаги. В связи с глобализацией мировой экономики, цифровизация образования была неизбежным и необходимым этапом. Но не все страны мира были готовы к данным шагам из-за нехватки различных ресурсов – финансовых, технических, кадровых. Пандемия же вынудила все государства осуществить резкий переход на новый формат обучения. Традиционное обучение заменилось дистанционным, или гибридным. Так как не все государства ранее проводили обучение в таких формах, страны мира заимствовали опыт друг друга, или принимали собственные ответственные решения, и осуществляли сотрудничества ради одной общей цели - обеспечения непрерывного образования даже в условиях кризиса. Именно поэтому очень важно рассмотреть опыт различных стран, то, как они справлялись с кризисом на разных уровнях образования. Основное внимание в данной работе уделено сфере высшего образования.

**Ключевые слова:** пандемия, COVID-19, дистанционное образование, онлайн-обучение, образование в Азербайджане

## Введение

Анализировать и сравнивать опыт отдельных стран мира в таком новом для всех нас явлении важно для того, чтобы у нас появлялись возможные сценарии будущего сферы образования. Они могут стать руководством реальных действий как для отдельных вузов, так и для мировой системы образования в целом.

Поскольку явление пандемии коронавируса в современном мире являлось неожиданным и новым для мирового сообщества, не было научных исследований на эту тему, и практических рекомендаций к действию во время пандемии для поддержания стабильного уровня всех сфер жизнедеятельности. Тем не менее, начиная с ноября 2019-го года, когда был зафиксирован первый

случай заражения коронавирусом в Китае, и позднее, 13-го января 2020-го года, когда коронавирус впервые был обнаружен вне Китая, у женщины в Таиланде, мировое сообщество, а точнее его определенные круги стали уделять более пристальное внимание явлению коронавируса. Позднее, в начале 2020 года международные организации, такие как ЮНЕСКО и ЮНИСЕФ опубликовали пособия для государств, и граждан, сборник рекомендуемых мер, которые могут быть предприняты, для того чтобы предотвратить распространение вируса. За это время было опубликовано множество статей различного характера – в них рассматриваются негативные и позитивные аспекты пандемии, возможные сценарии развития, а также представляются статистические данные по географическим, демографическим и прочим признакам. Но данная проблема все еще остается не до конца изученной, так как несмотря на все послабления в карантинном режиме по всему миру, пандемия еще не завершилась, она с нами.

Целью исследования является анализ проблем, с которыми сталкиваются образовательные бизнес-субъекты Азербайджана и зарубежных стран за период пандемии. Сюда относится рассмотрение основных действий, предпринятых в сфере образования по странам мира, и выдвижение собственных предложений по тому, как можно оптимизировать эти действия. Задачами исследования являются изучение особенностей функционирования образовательных бизнес-субъектов в условиях пандемии зарубежных стран, организационных и управленческих решений в условиях пандемии в сфере образования Азербайджана, анализ деятельности оргструктур и бизнес субъектов образования Азербайджана в условиях пандемии, совершенствование организационных и управленческих решений в сфере образования Азербайджана, и основные направления развития бизнес-субъектов образования Азербайджана в условиях пандемии.

Объектом исследования являются функционирование образовательных бизнес-субъектов и проблемы, возникающие перед ними в период пандемии. Предмет исследования то, какие действия для поддержания онлайн обучения были предприняты разными правительствами, и как справлялись с проблемами, возникающими в связи с пандемией.

Для решения поставленной проблемы был проведен теоретический анализ литературы, были изучены различные документы и отчеты, использована информация с проведенных научных конференций, рассмотрены статистические показатели и был описан практический опыт.

При написании статьи были использованы методы анализа, описания, и аналогии. Также был использован эмпирический метод, проведены SWOT и PEST анализы.

Информационную базу исследования составили официальные сайты Минобразования АР, ЮНЕСКО, отдельных вузов, а также интервью главы государства, министра образования, экспертов и руководств университетов; законы АР, статьи и публикации иностранных авторов.

Ограничения в исследовании: Исследование ограничивается тем, что современный мир впервые испытал пандемию, следовательно подобная тема не была ранее изучена. Еще одно ограничение в том, что пандемия еще не завершилась, поэтому мы не можем считать данный этап пройденным и все проблемы изученными, возможно нам есть что ожидать.

Научная новизна и практические результаты исследования: В исследовании использованы новейшие источники литературы. Результаты исследования помогают продвинуться в понимании функционирования разных уровней образования во время пандемии в нашей и в других странах.

**Образование в мире до COVID-19**

Еще до пандемии COVID-19 в мире наблюдался кризис обучения. Не все население мира могло реализовывать  одно из своих основных прав - право на образование. Подтверждают это данные

ООН, согласно которым, до начала пандемии колоссальное число детей — более 250 миллионов — не ходили в школу и почти 800 миллионов взрослых оставались неграмотными, и это при том, что начальное образование обеспечивается во многих странах мира (Организация Объединенных Наций, 2020).

Способствовав закрытию школ почти по всей планете весной 2020 года, пандемия COVID-19 нанесла серьезное одновременное потрясение для систем образования всех стран мира. Согласно исследованию всемирного банка, Пандемия COVID-19 составила угрозу образованию в результате двух основных типов потрясений:

(1) непосредственные последствия закрытия школ и вузов и

(2) последствия экономического спада, инициированного встречными действиями на пандемию, которые были предприняты, и усиливались в течение некоторого времени (Всемирный Банк, 2020).

Что касается экономической стороны, финансирование образования еще до COVID-19 было тяжелой задачей. По оценкам ООН, на начало 2020 года в странах с невысоким уровнем дохода и с уровнем заработка ниже среднего недостаток денежных средств для получения эффективного образования ежегодно составлял ошеломительную сумму в размере 148 млрд долларов США. Судя по прогнозам, этот недостаток средств должен был увеличиться примерно на треть в результате кризиса, вызванного COVID-19 (Организация Объединенных Наций, 2020).

В 2019 году глобальный сектор онлайн-образования оценивался в чуть более чем 200 млрд. долл., что составляло 3% от общего объема рынка образования. По экспертным прогнозам, до пандемии, ожидалось, что объем рынка будет расти в среднем на 8–10% в год и к 2025 г. достигнет отметки 300 млрд. долл. Самым быстрорастущим сегментом должно было стать корпоративное обучение (Innoagency, GlobalNewsAgency, HSE, GmInsights, 2019).

В Азербайджане государство осуществляет социальную политику, которая направлена на три сектора: здравоохранение, образование и социальная защита. Как показано на графике 1 (внизу), государственные расходы на образование и здравоохранение фактически уменьшились пропорционально общим расходам бюджета с 2007 по 2014 гг. Государственные расходы на образованию снизились с 13% от общего бюджета в 2007 г. до 9% в 2014 г. Государственные расходы на здравоохранение оставались довольно неизменными, составляя 5% от общего бюджета в 2007 г. и упав до 4% в 2014 г. Расходы на социальную защиту оставались примерно на одном уровне - 11% от общего бюджета.

**График 1. Государственные расходы в Азербайджане на образование, здравоохранение и социальную защиту.(% от общих расходов бюджета, 2007–2014 гг.)**




**Источник: (https://css.ethz.ch/en/publications/cad.html)**

В 2015 же году, государственные расходы Азербайджана на образование (% от общих гос. расходов) достигли 7,63 %, что на 0,392 п. п. больше, чем в 2014 году (7,23 %) (Всемирный Банк, 2017).

В 2018 году в Берлине был опубликован Всемирный доклад ЮНЕСКО, в котором был проведен мониторинг образования. По результатам данного доклада, в Азербайджане основная доля финансирования образования лежит на плечах государства, и только малая часть осуществляется самими домохозяйствами. А точнее, ¾ часть всех расходов на образование покрывается государством. Хотя в странах с низким доходом, таких как Азербайджан, обратная ситуация.

Согласно результатам данного отчета, в 2018 году расходы на образование в Азербайджане составляли 2,9% ВВП. В соседних же государствах Южного Кавказа - в Грузии этот показатель составлял 3,8%, а в Армении 2,8% от ВВП.

В общей сумме госрасходов Азербайджана доля образования составляла 8,2%. А расходы на образование домохозяйств были распределены следующим образом: в Азербайджан - 1% от ВВП, в Грузии – 0,1% ВВП, по Армении данные отсутствовали.

Не является секретом то, что пандемия подчеркнула разность уровней систем образования. По результатам опроса, проведенного ОЭСР в Дании, Норвегии, Словении, Исландии, Швейцарии Литве, Польше, Австрии, и Нидерландах более чем 95% студентов отметили, что у них есть компьютер для осуществления онлайн-обучения. На этот же вопрос в Индонезии только 34% студентов ответили, что у них имеется компьютер (PISA, 2020). В ряде стран мира университетами были предприняты различные меры по поддержке своих студентов. К примеру, африканские университеты подарили или заняли своим студентам компьютеры, и предлагали оплатить доступ в интернет. (UNESCO, 2021).

Что касается наших соседних стран, то в связи с неблагоприятной эпидемиологической обстановкой, 16 марта 2020 года Министерство образования Российской Федерации «рекомендовало вузам организовать обучение студентов с использованием цифровых образовательных технологий вне места нахождения организаций» (Минобрнауки РФ, 2020).

В марте 2020 года все вузы Российской Федерации переключились на дистанционное обучение. К концу весны 2020 г. Минобразования и Науки Росии поручило вузам и научным организациям снять

ограничения, введённые в связи с пандемией, в зависимости от ситуации в регионе, где они находятся. Однако, в большинстве регионов России летняя сессия проходила дистанционно. В этой же форме были проведены государственные аттестации и защиты выпускных квалификационных работ. В начале 2020/2021 учебного года Минобразования и науки рекомендовало вузам самостоятельно принимать решения о формате обучения, исходя из текущей ситуации. И хотя региональные вузы в сентябре начали свою работу в основном в очном формате, университеты столицы, Санкт-Петербурга, и других крупных городов организовывали обучение по смешанному принципу. Для иностранных студентов был организован дистанционный формат обучения, поскольку большая часть из них находились за пределами России и не имели возможности въехать в страну. Последующее ухудшение эпидемиологической ситуации в стране в конце осени 2020 года способствовало тому, что занятия в крупных городах вернулись полностью в удалённый формат.

В период пандемии со стороны института социального анализа и прогнозирования (ИНСАП) РАНХиГС был проведен опрос, по результатам которого стало ясно, что преподаватели и студенты считают дистанционное обучение менее эффективным, чем очное. Большинство преподавателей отметили, что занятия по их предметам лучше проводить в живом формате и что пришедший на замену онлайн формат увеличил их рабочую нагрузку (85,7%); кроме того, более половины респондентов (66%) отметили, что они не полюбили работу из дома, а 34% заявили, что у них нет места для комфортного ведения занятий (Померанцева Н., 2020).

**Организация дистанционного обучения в странах Центральной Азии.**

В 2020 г. следуя рекомендациям ВОЗ и с принимая во внимание санитарно-эпидемиологические меры по предотвращению распространения инфекции COVID-19 в большинстве просветительных учреждений Центральной Азии было осуществлен переход на удаленное обучение. За исключением образовательных учреждений в Туркменистане, где власти не признавали распространение коронавируса в стране, но, не смотря на это, и там было введено частичное дистанционное обучение либо сокращены учебные часы в школах и университетах.

Государства региона предприняли похожие меры для организации обучения в новом формате. Например, в Кыргызстане и Узбекистане по государственным каналам транслировались видеоуроки. В том числе в Кыргызстане были запущены интернет-платформа и специальные приложения с учебными материалами. С целью повышения компьютерной грамотности преподавателей во всех странах Центральной Азии были проведены тренинги.

С самого начала онлайн-обучения в этом регионе преподаватели и студенты пережили ряд проблем, особенно, технического характера. Число людей в данном регионе, не имеющего выхода в интернет, по некоторым данным составляет 34 млн человек, а общая численность населения - 74 млн человек. Наиболее технически уязвимыми являются Киргизия и Таджикистан, где более 90% местности состоит из горных хребтов, что создает технические трудности в обеспечении коммуникаций. При том, что в Кыргызстане проблема частично решается низкими тарифами за интернет и развитием сети операторов сотовой связи, а мобильный интернет Таджикистана считается один из самых медленных в мире, но его стоимость почти самая высокая, и согласно данным из открытых источников, по состоянию на 2017 г. в Таджикистане непрерывный выход в интернет имело только 20% населения (ИСАП, 2021).

В целом, в самом начале пандемии система образования Центральной Азии не была готова к формату дистанционного обучения, но, с другой стороны, активное использование таких платформ, как Zoom, Google Meet, Google Class и др., позволили решить эту проблему, к тому же общество

центральноазиатских государств оказалось способным адаптироваться к освоению новых технологий обучения.

Выше мы рассмотрели проведение дистанционного обучения на примере отдельных стран. В целом можно отметить, что чтобы образование продолжалось, образовательным учреждениям пришлось быстро адаптироваться к ситуации.

Во время адаптации они в основном столкнулись с рядом общих проблем –связанными с уровнем доступности каналов связи, нехваткой оборудования и программного обеспечения, высокой стоимостью телекоммуникационных услуг.

Для решения этих проблем правительства отдельных стран и профессиональные организации объединили усилия для обеспечения образовательного процесса при помощи доступных ресурсов, пытаясь снизить дифференциацию в сложившемся цифровом неравенстве. Данные усилия можно свести к нескольким направлениям:

- проведение обучения посредством образовательных онлайн-платформ
- вещание образовательного контента по телевидению и радиоканалам
- проведение уроков через социальные сети, мессенджеры и электронную почту
- тиражирование печатны копий учебных материалов с и их доставкой учащимся на дом(Всемирный Банк, 2020)

**Переход на дистанционное образование в Азербайджане**

Пандемия COVID-19 заставила пересмотреть содержание и формат образования. После того, как в стране был зарегистрирован первый случай заболевания COVID-19, с 3 марта во всех учебных заведениях было приостановлено обучение. Приостановка учебного процесса по всему Азербайджану стала одним из первых решений, принятых в борьбе с пандемией. Через семь дней, 11 марта, Министерство образования инициировало и организовало телеуроки. По словам советника министра образования Эльнура Мамедова, в Соединенном Королевстве, являющемся развивающейся страной, школы были закрыты 20 марта, но занятия по телевидению начались ровно через месяц после закрытия школ. Соединенное Королевство запустило общенациональное вещание BBC 20 апреля. По словам министра образования, когда было принято решение о приостановке учебного процесса по всему Азербайджану, подобное решение было принято только 12-и странах. Позже так было решено еще в 191-й стране мира (Trend, 2020).

Информатизация общества формирует модель дистанционного образования, что особенно актуально в условиях пандемии COVID-19.

Хотя в законодательстве об образовании Азербайджана в качестве одной из форм обучения указана форма дистанционного обучения, долгое время эта форма применялась только с целью повышения квалификации и переподготовки.

Причиной этого являлось отсутствие какого-либо нормативно-правового документа по организации дистанционного обучения на уровне бакалавриата. Дистанционное образование упоминалось как форма обучения только в законе «Об образовании» (Azərbaycan Respublikasının Təhsil Qanunu, 2009). Альтернативой дистанционному образованию считалось заочное образование, которое, к слову, по миру распространено только в странах СНГ.

Поэтому не случайно, что пункты 4.3, 4.7 и 4.8 IV Стратегического Направления Государственной стратегии развития образования в Азербайджанской Республике требуют развития дистанционного образования в Азербайджане, расширения доступа к цифровым образовательным ресурсам,

предоставления медиа и интернет-ресурсов, связанных с образованием (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013).

**Одна из 12 стран, сделавших быстрый шаг**

Как неоднократно подчеркивалось Всемирной организацией здравоохранения (ВОЗ) и признано на международной арене, Азербайджан стал одной из стран, выбравших наиболее успешную стратегию в период пандемии. Принятие президентом Азербайджанской Республики своевременных и гибких решений с целью минимизации последствий пандемии, принятие превентивных мер предотвратили широкое распространение пандемии.

В первую очередь была усилена система здравоохранения, внедрены механизмы устойчивой поддержки социально уязвимого населения, предприняты важные шаги по обеспечению экономической устойчивости. Общественность всей страны с большим сочувствием встретила предпринятые в то время шаги. Примечательно, что опыт Азербайджана в борьбе с пандемией был изучен и применен рядом стран (Azertag, 2020).

Шаги нашего государства в борьбе с пандемией охватывали главные 3 направления:

Во-первых, шаги по предотвращению распространения вируса, защите здоровья людей;

Во-вторых, минимизацию последствий колебаний, вызванных пандемией в мировой экономике, с помощью социально-ориентированных пакетов;

В-третьих, поддержку международных усилий по борьбе с пандемией, организация глобального диалога и сотрудничества в этом контексте.

Обеспечение непрерывности образования в Азербайджане в условиях пандемии охватило ряд направлений и этапов. Так, на первом этапе, в связи с выполнением "Плана действий по предотвращению распространения нового коронавируса в Азербайджанской Республике", утвержденного распоряжением Кабинета Министров АР от 30 января 2020 года № 35С, Министерством образования был подготовлен и претворен в жизнь план мероприятий. В министерстве был создан штаб, работающий в режиме 7/24, и ежедневно из каждого учебного заведения собиралась, обобщалась и передавалась информация о ситуации в Оперативный Штаб при Кабинете министров.

Министерство образования отправило письмо с руководствами местным органам управления образованием и образовательным учреждениям о том, как реагировать на ситуацию и проводить медико-профилактические мероприятия, проводить активную просветительскую и разъяснительную работу среди обучающихся, обучающихся и родителей по вопросам медико-профилактических мероприятий в образовательных учреждениях, повышать контроль за оснащением учреждений необходимыми медицинскими принадлежностями, дезинфицирующими и гигиеническими средствами и создавать условия для проведения санитарно-эпидемиологической работы.

В целях минимизации последствий пандемии коронавируса Кабинет министров подписал постановление от 13 апреля 2020 года "о возмещении расходов на оплату обучения студентов, являющихся членами семей, принадлежащих к социально уязвимым группам населения". К уязвимой группе населения относятся лица, получающие адресную государственную социальную помощь; имеющие обоих родителей (а в случае с единственным родителем-одно и то же лицо) или законных представителей, относящихся к любой из следующих категорий: лица с инвалидностью I и II степени; состоящие на учете в качестве безработных; трудовые пенсионеры по возрасту; получатели социальных пособий по возрасту.

Решение коснулось более 22 тысяч студентов, обучающихся в учреждениях высшего, среднего специального и профессионального образования. 50 процентов расходов на оплату обучения студентов указанных категорий были оплачены в весеннем семестре 2019-2020 года, а 50 процентов-в осеннем семестре 2020-2021 учебного года в электронном виде за счет государственного бюджета. Министерство образования также провело ряд социально-психологических мероприятий, направленных на смягчение последствий пандемии. С целью морально-психологической поддержки учащихся и учителей, а также граждан, оставшихся дома в связи с пандемией, Министерство образования с 6 апреля начало работу "горячей линии" 146-3.

Еще одним этапом мероприятий, осуществляемых Министерством образования, стало определение шагов, связанных с завершением учебного года. В связи с этим были организованы Государственный экзаменационный центр, общественный совет при Министерстве образования, многочисленные обсуждения со специалистами. Были приняты решения, касающиеся проведения итоговых оценок и мониторинга в общеобразовательных учреждениях, организации приема в первый класс, перевода обучающихся из одного класса в другой, организации выпускных экзаменов, организации летних экзаменационных сессий в высших учебных заведениях и на других ступенях образования, сроков, формата и порядка проведения экзаменов при наборе учителей.

Встречи Президента Азербайджанской Республики Ильхама Алиева с главой и представителями «Microsoft» заложили основу для развития информационных технологий, что наиболее важно для дистанционного образования. В 2019 году между Президентом Ильхамом Алиевым и вице-президентом «Microsoft» состоялась встреча в Давосе, целью которой было обсуждение вопросов искусственного интеллекта в настоящее время. В 2020 году, в ходе инициированной Президентом Азербайджанской Республики видеоконференции с вице-президентом «Microsoft» Филипом Роггом, руководителем отдела корпоративных отношений и правовых вопросов Центральной и Восточной Европы Нанной-Луизой Линде и другими представителями, глава нашего государства отметил «Наше партнерство впечатляет, и я уверен, что ближайшие годы укрепят его. Также эта ситуация с пандемией заставляет нас по-новому взглянуть на образование и дистанционное обучение».

На встрече обсудились вопросы, касающиеся дистанционного обучения, и были предприняты важные шаги для сложившейся ситуации. На встрече Президента с руководством «CISCO» также обсудились вопросы дистанционного образования, состоялись переговоры по налаживанию дистанционного образования в нашей стране на уровне международных стандартов.

**Выводы и предложения**

Таким образом, для эффективного применения формы дистанционного обучения в образовательной практике Азербайджана важно реализовать следующие меры:

1. Основываться на опыте дистанционного обучения в развитых странах;
2. Закон о высшем образовании также должен включать положения, касающиеся дистанционного образования;
3. Разработка государственных программ, связанных с дистанционным образованием;
4. Создание единой технической базы дистанционного обучения;
5. Составление предметных программ, используемых в дистанционном обучении, в соответствии с требованиями данной формы обучения;
6. Увеличение количества преподавателей дистанционного обучения и увеличение их опыта;
7. Создание механизма контроля за дистанционным обучением и т.д (Nitqlər, çıxışlar, bəyanatlar. (2020). s.280).

Для достижения успешной цифровизации в направлении эффективного обеспечения качества в высших учебных заведениях необходимо следующее:

- Повышение осведомленности о цифровой трансформации, которая будет внедрена в высших учебных заведениях;
- Координация цифровой трансформации с видением и стратегией университета на будущее;
- Выделение ресурсов энтузиастам и квалифицированным специалистам, которые могут использовать цифровые инновации.

Надо отметить, что пандемия имела как негативное, так и позитивное влияние на образование на разных уровнях. И можем полагать, что приобретенный в данный период опыт будет применяться и в пост пандемический период. Если, к примеру, в сфере среднего образования дистанционное обучение наименее эффективно, так как учащиеся в средней школе больше всех нуждаются в живом контакте с учителем, в повторном объяснении, в том, чтобы учитель многократно отвечал на их вопросы, то на уровне бакалавриата и магистратуры дистанционное обучение может применяться в сочетании с очным видом. Такой вид обучения, гибридный, обеспечит наибольшую эффективность и сэкономит время преподавателей и студентов. В предлагаемом западными исследователями, и в том числе данным исследованием формате обучения студентам могут транслироваться заранее записанные лекции (по теоретическим предметам), а семинары, а также промежуточные тесты и финальные экзамены могут проводиться в очном виде.

Тем самым, студенты смогут получить доступ к своим письменным и записанным лекционным материалам в любое время, а преподаватели смогут уделить освободившееся время на совершенствование силлабуса и преподаваемых материалов. Конечно, для того чтобы реализовать такую форму преподавания от университетов будут требоваться большие инвестиции. В первую очередь для этого требуется создание онлайн платформы университета, и электронных кабинетов преподавателей и студентов. К тому же нужно обеспечить преподавателей техникой для записи своих лекций, которые можно проводить как в университете, так и индивидуально со стороны каждого педагога. Также было бы хорошо учесть то, чтобы лекции могли просматриваться не только на компьютерах, но и на смартфонах. Такое удобство и досягаемость может повысить уровень подготовленности к урокам.

Возможно, предложенный выше формат будет применяться когда-то и в нашей стране. Мы знаем, что несколько наших университетов предлагают иностранным студентам дистанционное обучение. В Азербайджане дипломы, полученные от дистанционного обучения, не признаются со стороны министерства образования, но если страны мира, в том числе и наша страна займутся разработкой нормативно правовой базы дистанционного обучения, если будут выбраны параметры контроля за качеством обучения, и универсальные требования к форме организации процесса обучения, то вполне возможно, что дистанционное образование и дипломы о нем встанут по уровне значимости в один ряд с очным.

Еще одним предложением в результате исследования является предоставление со стороны университетов (платных и бесплатных) онлайн курсов. Мы знаем, что со стороны известных мировых университетов предлагаются открытые и платные онлайн курсы по разным профилям. Поскольку среди азербайджанских университетов есть те, в частности, UNEC, которые обладают достаточной материально-технической базой и квалифицированным педагогическим составом для того, чтобы запустить онлайн курсы. Эти курсы будут посещаться как со стороны студентов самого университета, так и со стороны иностранных учащихся. В том числе, такие курсы станут большой помощью для абитуриентов, которые затрудняются с выбором вуза и хотели бы заранее знать, какой

уровень преподавания их ждет в том или ином университете. Так же, курсы могут помочь абитуриентам, и тем, кто хочет сменить свой профиль с выбором направления.

Может быть создана единая государственная платформа, где будут размещены курсы разных университетов страны. Как в период пандемии наши университеты объединились и проводили онлайн встречи касательно вопросов сотрудничества, дистанционного обучения, и преодоления появившихся трудностей, так и в будущем предоставляемые ими курсы могут быть размещены на одной платформе для наибольшего удобства для иностранных, и местных студентов. Такой шаг может повысить узнаваемость нашей страны в сфере образования, и вместе с тем, привлечь больше иностранных студентов для обучения в нашей стране, и дать возможность организовать еще больше програм по обмену студентами между нашими и зарубежными вузами, тем самым азербайджанские студенты могут получить новый опыт и использовать его в дальнейшем с пользой для своего государства.

**Источники Литературы**


1. Концептуальная записка: Образование в эпоху COVID-19 и в последующий период https://www.un.org/sites/un2.un.org/files/policy_brief_-_education_during_covid-19_and_beyond_russian.pdf
2. THE COVID-19 PANDEMIC: SHOCKS TO EDUCATION AND POLICY RESPONSES https://openknowledge.worldbank.org/bitstream/handle/10986/33696/148198.pdf?sequence=4&isAllowed=y
3. https://express.liberty7.ru/blog/global-online-education-during-pandemic
4. https://css.ethz.ch/en/publications/cad.html
5. https://trendeconomy.ru/data/wdi/AZE/SE_XPD_TOTL_GB_ZS
6. Минобрнауки России запустило «горячую линию» по переходу на смешанные и дистанционные форматы обучения [Электронный ресурс]. – Режим доступа: https://www.minobrnauki.gov.ru/ru/press-center/card/?id_4=2472
7. Померанцева Н. Почему студенты и преподаватели невзлюбили дистанционное обучение// Ведомости. – 28.05.2020.
8. https://isap.center/analytics/67
9. How countries are using edtech (including online learning, radio, television, texting) to support access to remote learning during the COVID-19 pandemic. *The World Bank*. – URL: https://www.worldbank.org/en/topic/edutech/brief/how-countries-are-using-edtech-to-support-remote-learning-during-the-covid-19-pandemic
10. https://documents1.worldbank.org/curated/en/668741627975171644/pdf/Remote-Learning-During-the-Global-School-Lockdown-Multi-Country-Lessons.pdf
11. https://az.trend.az/azerbaijan/society/3266447.html
12. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, Hüquq ədəbiyyatı. (2009). 80 s.
13. https://president.az/az/articles/view/9779
14. В период мировой пандемии Азербайджан признан как самая Инновационная страна в сфере образования https://azertag.az/ru/xeber/V_period_mirovoi_pandemii_Azerbaidzhan_priznan_kak_samaya_Innovacionnaya_strana_v_sfere_obrazovaniya-1583847
15. Nitqlər, çıxışlar, bəyanatlar. (2020). s.280

# AZƏRBAYCANIN AVROPA BİRLİYİ ÖLKƏLƏRİNƏ XAM NEFT İXRACINDAN OLAN GƏLİRLƏRİNİN ÖLKƏ İQTİSADİYYATINA TƏSİRİ

**Teymur Amirov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**amirovteymur0@gmail.com**

## Xülasə

Sənaye inqilabı və texnologiyanın inkişafı ilə dünyada enerji istifadəsinin miqdarında böyük bir artım olmuşdur. Enerji resursları arasında ən çox istifadə olunan resurs neft olub. Neft 21-ci əsrdə ən çox istifadə olunan enerji mənbəyidir. Bu gün neftdən istifadənin həcminin artması mövzuya marağın artmasına səbəb olur. Bu kontekstdə neft hasil edən ölkələrin əhəmiyyətli üstünlüyə malik olduğunu söyləmək olar. Bu ölkələrdən biri də Azərbaycandır. Azərbaycan təbii sərvətlərlə zəngin ölkədir. Bu ehtiyatlar arasında neft və təbii qaz ön plana çıxıb. Ölkədəki neft ehtiyatlarının böyük hissəsi Xəzər dənizi hövzəsində yerləşir. XIX əsrdən Azərbaycanda neft quyuları qazma yolu ilə qazılmağa başlanmışdır. İkinci Dünya Müharibəsi illərində Sovet İttifaqının tərkibində müharibədə iştirak etmiş Azərbaycanda hasil edilən neft müharibənin qalib gəlməsində mühüm rol oynamışdır. 1991-ci ildən müstəqillik əldə edən Azərbaycan 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamış və qərb neft şirkətləri ilə əməkdaşlığa başlamışdır. Neft və təbii qaz sahəsində böyük layihələrə imza atan Azərbaycan Avropa İttifaqı ölkələrinə neft və təbii qaz ixrac edir. Araşdırmadakı məlumatlar zaman silsiləsi metodu ilə təhlil edilmişdir. Təhlil nəticəsində neft ixracından iqtisadi artıma səbəb əlaqəsi müəyyən edilmişdir. Başqa sözlə, neft ixracından iqtisadi artıma doğru bir istiqamətli səbəb əlaqəsi mövcuddur. Neft ixracında 1 vahid artım ÜDM-i 0,0004 vahid artırır. Başqa sözlə, neft ixracı ilə ÜDM arasında müsbət əlaqə var. Bu nəticələr göstərir ki, Azərbaycanda neft ixracı artdıqca ÜDM artacaq. Bu nəticəyə əsasən, Azərbaycanın Aİ-yə üzv ölkələrə ixrac etdiyi xam neftdən əldə edilən gəlirlərin ölkə iqtisadiyyatının yüksəlişinə müsbət töhfə verdiyini görmək mümkündür.

**Açar sözlər:** Enerji və Makroiqtisadiyyat, Neft İxracatı, İqtisadi İnkişaf

## Abstract

With the industrial revolution and the development of technology, energy usage has increased significantly in the world. Oil is the most commonly used energy resource. Oil is the most common energy source in the 21st century. Today, the increase in oil consumption is drawing increased interest in the subject. With oil-producing countries being so successful, they have a significant advantage over other countries when it comes to oil production. One of these countries is Azerbaijan. Azerbaijan is a country blessed with natural resources. The reserves of oil and natural gas are particularly important among these. Most of the country's oil reserves are located in the Caspian Sea basin. Since the 19th century, oil wells have been drilled in Azerbaijan. The oil produced in Azerbaijan during World War II played an important role in the Soviet Union's victory in the war. Azerbaijan gained independence in 1991 and quickly began cooperating with Western oil companies. In 1994, the two parties signed a contract that helped to strengthen their relationship with the entertainment industry. Azerbaijan exports oil and natural gas to the European Union. The data in the study were analyzed using the time series method. Based on the analysis, the cause of economic growth from oil exports was found. Oil exports are positively associated with economic growth. An increase of 1 unit in oil exports increases GDP by 0.0004 units. There is a positive correlation between oil exports and GDP. These results indicate that GDP will increase as Azerbaijan's oil exports increase. According to this data, it can be seen that the sale of crude oil from Azerbaijan to European Union member states has helped to contribute to the country's economic growth.

**Key words:** Energy and the Macroeconomy, Petroleum Export, Economic Growth

## Giriş

Enerji bütövlükdə bəşəriyyətin həyatını müəyyən edən və ölkələrin iqtisadi artımına təsir edən əsas aktordur. Enerji olmasaydı, dövlətlər öz iqtisadiyyatlarını və sənayelərini inkişaf etdirə və inkişaf etdirə bilməzdilər. Xarici enerjidən asılı olan dövlətlər daim bu asılılıqlardan qurtulmağın yollarını axtarırlar. Bu gün qloballaşan iqtisadiyyatda ölkələr daha ucuz enerji əldə etməyi hədəfləyirlər (Uslu, 2004). İnkişaf etməkdə olan dövlətlərin inkişaf etmiş dövlətlərdən daha çox enerjiyə ehtiyacı var. Bu ölkələr sənayelərini inkişaf etdirmək və iqtisadiyyatlarını inkişaf etdirmək üçün daha ucuz enerji əldə etməyə çalışırlar. Qısa

müddətdə enerji istehlakı fərdlər və firmalar tərəfindən onların gəlirləri, enerji qiymətləri və faiz dərəcələri ilə bağlı müəyyən edilir. (Bilginoğlu, 1991). Müasir dünyada sənayeləşmə və texnoloji inkişaf səviyyəsi azalmadan artır. Bunlarla yanaşı, enerji tələbatı da artır. İqtisadiyyatda nə qədər çox enerji istehlak edilərsə, o ölkənin böyüməsi bir o qədər sürətli olar. Enerji ehtiyatlarını iki sinfə bölmək olar. Ticarət edilə bilən enerji və qeyri-kommersiya enerji mənbələri. Kommersiya enerji resursları milli və beynəlxalq bazarlarda ticarət edildiyi halda, qeyri-kommersiya enerji resursları daxili iqtisadi fəaliyyətlərin həyata keçirilməsində istifadə olunur (Ghali və El-Sakka, 2004). Neft, təbii qaz, kömür və nüvə enerjisi mənbələri kommersiya enerjisi kimi göstərildiyi halda, qeyri-kommersiya enerjilərinə misal olaraq biokütlə enerjisi və geotermal enerjilər göstərilə bilər (Uslu, 2004). Enerjinin iqtisadiyyata təsirini təyin edərkən adambaşına düşən enerji istehlakının miqdarı və enerji intensivliyinin miqdarı da mühüm əhəmiyyət kəsb edir. Enerji sıxlığı ilə ÜDM-də adambaşına istehlak edilən ilkin enerji mənbələri ifadə edilir. Ölkələrin iqtisadi inkişaf səviyyəsi və əhalinin həyat səviyyəsi ölkənin enerji tələbatı ilə birbaşa bağlıdır. Əhalinin həyat keyfiyyəti nə qədər yüksək olarsa, adambaşına sərf olunan enerjinin miqdarı bir o qədər yüksəkdir. Ona görə də bu iki amilin bir-birini tamamladığını söyləmək olar. Digər tərəfdən, iqtisadi artım enerjiyə tələbatı artırır, tələbatın artması isə enerji istehlakının artmasına səbəb olur. Ona görə də iqtisadi artıma nail olmaq üçün enerji istehlakı artırılmalıdır. Başqa sözlə, iqtisadi artım və enerji istifadəsi arasında birbaşa əlaqə var. Bu əlaqə ölkədən ölkəyə fərqli ola bilər. İƏİT üzvü olmayan ölkələrdə enerji istehlakı ilə iqtisadi artım arasında sıx əlaqə var. Keçmiş Sovet İttifaqı ölkələrinə nəzər saldıqda, ittifaqın dağılmasından dərhal sonra enerjiyə tələbatın azaldığı görünür(Ghali və El-Sakka, 2004). Digər tərəfdən, həmin ölkələrin ÜDM nisbətləri daha sürətlə azaldığından enerji istehlakı iqtisadiyyata böyük təsir göstərmişdir. Enerji və iqtisadi artım arasındakı əlaqə müxtəlif iqtisadi baxışlardan olan iqtisadçılar arasında müzakirə mövzusu olmuşdur. Neoklassiklərə görə, enerji iqtisadi artıma o qədər də təsir etmir. Bu fikrə görə, enerji xərclərinin ÜDM-ə təsiri azdır (Mehrara, 2007). Keynsçi iqtisadçılar enerjinin iqtisadi artımda böyük əhəmiyyət kəsb etdiyini iddia edirlər. Bu fikrə görə, enerji olmadan istehsal etmək demək olar ki, mümkün deyil (Ghali və El-Sakka, 2004). Yəni bu iqtisadçılar iddia edirlər ki, enerji olmadıqda işçi qüvvəsi öz funksionallığını itirəcək. Bu baxışa görə, istehsalda enerjidən istifadə iqtisadi artım və inkişafın ən mühüm amilidir. Məhsulun səmərəliliyini və müxtəlifliyini artırmaq üçün enerji resursları tələb olunur. Digər tərəfdən dünyada enerji ehtiyatlarının bölüşdürülməsində nizamsızlıq olduğu üçün ölkələrin inkişafı da bu səbəbdən fərqlənir. İnkişaf etməkdə olan ölkələr daim enerjiyə ehtiyac duyduqlarından, xarici enerjidən asılı olduqları halda davamlı olaraq enerji idxal etməli olurlar. Enerji idxal edən ölkələr üçün bu vəziyyət tədiyyə balansına mənfi təsir göstərir. Enerji ixrac edən ölkələrin enerji təchizatını azaltması və ya hər hansı bir mənfi hal olduğu halda qiymət artımı enerji idxal edən ölkələrin istehsalında ciddi itkilərə səbəb olur və istehsalın azalmasından asılı olaraq işsizliyin səviyyəsinin artması, artım tempinin azalması kimi makroiqtisadi təsirlərə səbəb olur (Mehrara, 2007). Ölkələrin enerji siyasətlərinin müəyyənləşdirilməsi zamanı enerjidən istifadənin iqtisadi artıma təsirinin müəyyən edilməsi son dərəcə vacibdir. Enerji istifadəsi ilə artım arasında əlaqə ümumiyyətlə iqtisadi təhlil vasitəsilə aşkar edilir.

Bəzi xarici iqtisadi araşdırma şirkətlərinin son bir neçə ildə apardığı qiymətləndirmələrə görə, Azərbaycan iqtisadi cəhətdən riskli ölkələr sırasındadır (Karaca, 2016). Buna səbəb ölkə iqtisadiyyatının neftdən asılı olması və neftin qiymətinin aşağı düşməsi ilə ölkənin gəlirlərinin azalmasıdır. Bu gəlir itkisinin iqtisadiyyatı çətin vəziyyətə salacağı düşünülür. Bunun qarşısını almaq üçün dövlət qeyri-neft sektorlarının inkişafı üçün digər sahələrə investisiyaları artırsa da, neft sektorundan başqa sahələr hələ də kifayət qədər inkişaf etməyib (Abbasov və Əliyev, 2017).

**Cədvəl 1: 2018-2021-ci illər üzrə Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri**

| | **2018** | **2019** | **2020** | **2021-1** |
|---|---|---|---|---|
| **ÜDM cari dəyərlə (milyard dollar)** | **47,11** | **48,05** | **41,67** | **11,1** |
| **ÜDM böyümə sabit dəyərlərlə (%)** | **1,5** | **2,2** | **-4** | **-1,3** |
| **Adam başına düşən milli gəlir** | **4760** | **4814** | **4125** | **1112** |
| **İstehlakçı qiymət inflyasiyası (%)** | **2,3** | **2,7** | **3** | **3,9** |
| **Toplam investisiyaların ÜDM-ə nisbəti** | **20** | **20,3** | **14,4** | **10,9** |
| **İşsizliyin toplam iş gücünə nisbəti** | **4,9** | **4,8** | **6,5** | **1,4** |

**Mənbə**: International Monetary Fund (IMF) 2020 (24.04.2022). https://www.imf.org/en/Publications/WEO/Issues/2021/03/23/world-economic-outlookapril-2021

Cədvəl 1-dəki 2018-ci ilin məlumatlarına əsasən, ölkənin ÜDM-i 47 milyard dolları keçib və bu il artım tempi 1,5% təşkil edib. 2018-ci ildə adambaşına düşən gəlir səviyyəsi 4760 dollara yüksəlib. 2018-ci ildə inflyasiyanın 2,3% olduğu müşahidə edilir. 2019-cu ildə ÜDM 48 milyard dollara yüksəlib, adambaşına düşən gəlir isə 4 min 814 dollar olub. 2019-cu ildə iqtisadi artım tempi 2,2% olduğu halda, inflyasiya 2,7% olaraq müəyyən edilib. 2018-ci ildə işsizlik 4,9% olduğu halda, 2019-cu ildə bir qədər azalaraq 4,8%-ə düşüb. 2020-ci ildə baş verən epidemiya ilə əlaqədar dünyanın bütün ölkələrinin iqtisadiyyatına böyük ziyan dəyib və təbii ki, Azərbaycan iqtisadiyyatına bu vəziyyət mənfi təsir göstərib (Hacıyev və Əhmədov, 2021). 2020-ci ildə ölkənin ÜDM-i əvvəlki illə müqayisədə xeyli azalaraq 41 milyard 67 milyon dollar olub. 2020-ci ildə ölkə iqtisadiyyatı 4% daralıb, adambaşına düşən gəlirdə ciddi azalma müşahidə olunub. 2020-ci ildə inflyasiya 3% olaraq müəyyən edilib. İşsizlik səviyyəsi 6,5%-ə yüksəldi. 2021-ci il üçün məlumatlar bu ilin birinci rübünün məlumatları nəzərə alınmaqla hazırlanıb. Bu məlumatlara görə, 2021-ci ilin birinci rübündə ÜDM məlumatları əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3% azalıb. 56 2021-ci ilin birinci rübündə adambaşına düşən gəlir 1112 dollar olub. 2021-ci ilin birinci rübündə işsizlik səviyyəsi 1,4%, inflyasiya isə 3,9% olub (Abbasov və Əliyev, 2017).

Azərbaycanda Şahdəniz təbii Qaz hasilatı sahəsi fəaliyyətə başladıqdan sonra ölkədə təbii qaz hasilatının həcmi artmağa başlayıb. Bu gün Azərbaycan təbii qaz idxal edən ölkədən təbii qaz ixrac edən ölkəyə çevrilib. Təbii qazın daha sürətli nəqli məqsədilə Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərinin tikintisinə dair üç dövlət arasında müqavilə imzalanıb. BTE boru kəməri 2006-cı ildə istismara verilib (Vural, 2006). Belə ki, Səngəçal terminalında ayrılan Şahdəniz təbii qazı nasoslar vasitəsilə BTE boru kəmərinə verildikdən sonra Ərzuruma ötürülür (Vural, 2006). Sonrakı illərdə Türkmənistan qazının Xəzər dənizi vasitəsilə Bakıya, oradan isə BTE vasitəsilə Türkiyəyə nəqlinə qərar verildi (Bağırzadə, 2014). “Şahdəniz 2” təbii qaz hasilatı sahəsi fəaliyyətə başladıqdan sonra yeni təbii qaz xətti layihəsinə də start verilib. Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) adlanan bu layihə hər il 30 milyard kubmetr təbii qazın Avropa bazarlarına nəqlini nəzərdə tutan boru kəməridir (Bağırzadə, 2014). TANAP xəttinin Türkiyədən keçərək Avropadakı bəzi boru kəmərlərinə qoşulması planlaşdırılır. Əsası 2015-ci ildə qoyulan TANAP kəməri 2018-ci ildə fəaliyyətə başlayıb.

**Şəkil 1: "TANAP" Xəttinin Keçid Marşrutu**




**Mənbə**: Azərbaycan Energetika Nazirliyi, (25.04.2022)
https://www.akademikkaynak.com/tanap-projesi-baglaminda-bolgesel-kalkinma.html

## Tədqiqat Metodu

Tədqiqat zamanı məlumatların müqayisəli təhlil metodu, statistik təhlil, kompleks yanaşma və Granger səbəb nəticə əlaqəsi testi həmçinin digər iqtisadi metodlardan istifadə edilmişdir.

## Məlumatların Təhlili

Cadval 2-də verilən məlumata görə, 2011-ci ildə təxminən 27 milyon ton neft ixracından 22,9 milyard dollar gəlir əldə edilib. 2015-ci ildə neft ixracı təqribən 22 milyon ton, bu ixracdan əldə edilən gəlir isə təxminən 8,9 milyard dollar olub. Nəhayət, 2020-ci ildə Azərbaycanın neft ixracının 29 milyon ton, bu ixracdan əldə edilən gəlirin isə 9,3 milyard dollar olduğu görünür. Azərbaycanın təbii qaz ixracına nəzər saldıqda, 2011-ci ildə 2885,8 milyon kubmetr olan təbii qaz ixracının təqribən 574 milyon dollar gəlir əldə etdiyi, 2010-cu ildə isə təbii qaz ixracının sürətlə artaraq təxminən 1,8 milyard kubmetrə yüksəldiyi görünür. İxracdan 288,5 milyon kubmetr gəlir əldə edilib. 2015-ci ildə təbii qaz ixracının 8,4 milyard kubmetrə, 2020-ci ildə isə təxminən 12,4 milyard kubmetrə yüksəldiyi müşahidə edilir. Bu ixracatdan 2015-ci ildə 1,5 milyard dollar, 2020-ci ildə isə 2,2 milyard dollar gəlir əldə edilib.

**Cədvəl 2: Azərbaycanın neft və təbii qaz ixracı və gəlirləri (2011-2020)**

| İllər | Neft (milyon ton) | Milyon, Abş dolları | Qaz (milyard metr kub) | Milyon, Abş dolları |
|---|---|---|---|---|
| **2011** | 27825,3 | 22911.044,6 | 2885,8 | 574551,6 |
| **2012** | 24244,2 | 20232.597,8 | 2714,0 | 648717,2 |
| **2013** | 24855,9 | 20244052,8 | 3035,1 | 701980,2 |
| **2014** | 23611,9 | 18404936,6 | 1825,7 | 304684,0 |
| **2015** | 21960,3 | 8866158,6 | 8432,7 | 1505023,9 |
| **2016** | 34096,4 | 10692835,5 | 8396,0 | 1096683,2 |

| | | | | |
|---|---|---|---|---|
| **2017** | 30524,4 | 12171339,3 | 8258,8 | 1237569,4 |
| **2018** | 29482,4 | 15710529,3 | 8039,9 | 1512290,9 |
| **2019** | 30837,1 | 14814132,7 | 12537,4 | 2366833,7 |
| **2020** | 29023,1 | 9363570,7 | 12424,5 | 2190522,1 |

**Mənbə**: Azərbaycan Dövlət Statistika Komitəsi, (29.04.2022) https://www.stat.gov.az/source/trade/

Daha sonra isə neft və təbii qaz gəlirləri və bunun ÜDM-ə olan təsirini səbəb nəticə əlaqəsi nöqteyi nəzərindən ölçmək üçün Granger səbəb nəticə əlaqəsi testindən istifadə edək. Belə ki, Cədvəl 3-ə əsasən, Granger səbəb-nəticə analizinə əsasən, neft ixracından iqtisadi artıma səbəb əlaqəsi müəyyən edilmişdir; İqtisadi artımdan neft ixracına qədər heç bir səbəb müəyyən edilə bilmədi. Başqa sözlə, neft ixracından iqtisadi artıma doğru bir istiqamətli səbəb əlaqəsi mövcuddur. Bu nəticələr göstərir ki, Azərbaycanda neft ixracı artdıqca ÜDM artacaq.

**Cədvəl 3: Granger səbəb-nəticə analizinin nəticələri**

| Səbəb nəticə əlaqəsinin yönü | F-dəyəri | Ehtimal göstəricisi | Son qərar |
|---|---|---|---|
| ÜDM->Neft (qaz) | 0.16606 | 0.78558 | İqtisadi artımdan neft ixracına yönlü 5%-lik əhəmiyyətlilik səviyyəsində heç bir səbəb əlaqəsi yoxdur. |
| Neft (qaz)-> ÜDM | 2.45264 | 0.07746 | Neft ixracından ÜDM-ə yönlü 5% əhəmiyyətlilik səviyyəsində səbəb əlaqəsi mövcuddur. |

**Mənbə**: Müəllifin hesablamaları

Əlavə olaraq belə nəticəyə gəlmək olar ki, bu iki anlayış arasında müsbət yönkü korrelyasiya mövcuddur və təxmini hesablamalara əsasən neft və qaz ixracatındakı 1 vahidlik artım ÜDM-ni 0,0004 vahidlik artırır.

**Nəticə**

Neftin Azərbaycan iqtisadiyyatı üçün mühüm gəlir mənbəyi olduğunu nəzərə alaraq, bu araşdırmada Azərbaycanın neft ixrac etdiyi Aİ-yə üzv ölkələrdən əldə olunan gəlirlərin Azərbaycanın iqtisadi artımına təsiri illik məlumatlardan istifadə edilərək araşdırılmışdır. Təhlil nəticəsində neft ixracından iqtisadi artıma səbəb əlaqəsi müəyyən edilmişdir. Başqa sözlə, neft ixracından iqtisadi artıma doğru bir istiqamətli səbəb əlaqəsi mövcuddur. Bu nəticələr göstərir ki, Azərbaycanda neft ixracı artdıqca ÜDM artacaq. Neft ixracının ÜDM-ə təsirini qiymətləndirdiyimiz təhlillər nəticəsində neft ixracatındakı 1 vahid artımın ÜDM-i 0,0004 vahid artırdığı müəyyən edilmişdir. Başqa sözlə, neft ixracı ilə ÜDM arasında müsbət əlaqə var. Azərbaycan iqtisadiyyatı neftə əsaslanan iqtisadiyyatdır. Ölkədə iqtisadiyyatın vahid sektor üzərində qurulmasının yaxın illərdə pis nəticələri ola biləcəyi təxmin edilir. Neftin qiymətinin ən kiçik ucuzlaşması belə ölkə iqtisadiyyatına ciddi ziyan vura bilər. 2015-ci ildə neftin qiymətinin xeyli aşağı düşməsinin ölkə iqtisadiyyatına zəlzələ təsiri göstərməsi bu proqnozları sübut edir. 2015-ci ildə neft gəlirlərinin azalması səbəbindən hökumət həmin il valyutanı iki dəfə devalvasiya etməli oldu. Neftin qiymətinin aşağı düşməsi bir daha göstərdi ki, Azərbaycan iqtisadiyyatı təkcə enerji sektoru üzərində qurulmamalıdır (Abbasov və

Əliyev, 2017). Bu kontekstdə bəzi ehtiyat tədbirlərinin görülməsi böyük əhəmiyyət kəsb edir. Görüləcək tədbirlərin başlanğıcında enerji sektorundan əldə olunan gəlirlərin digər sahələrə köçürülməsi və qeyri-neft sahələrinin inkişafı dayanır. Görüləcək bu kimi tədbirlər sayəsində ölkə iqtisadiyyatı neftdə gəlir itkisindən əziyyət çəksə belə, bu gəlir itkisini digər sektorlar vasitəsilə kompensasiya etmək şansı əldə edəcək. Bundan əlavə, aparılan araşdırmalara görə, 50 ildən sonra dünyada neftin tükənəcəyi təxmin edilir. Belə olan halda iqtisadiyyatı bütünlüklə neft sektoruna əsaslanan Azərbaycanda böyük iqtisadi böhranların yaşanmasının qaçılmaz olacağı proqnozlaşdırılır. Belə böhranların qarşısını almaq üçün bərpa olunan enerji mənbələrindən əldə edilən enerjinin həcmini artırmaq və enerji sahəsində islahatları qısa zamanda aparmaqla qeyri-neft sektorlarını inkişaf etdirmək lazımdır.

**Ədəbiyyat Siyahısı**


1. Abasov, İ və Aliyev, T. (2017). Petrol Dışı Sektörün Gelişimi. Bilim Dergisi, 27-32
2. Bağırzadə, E. (2014). Azerbaycan'ın Enerji Kaynakları ve Mevcut Kullanım Durumu. Azerbaycan'ın Enerji Kaynakları, 44-56.
3. Bayraç, H. N. (2005). Uluslararası Petrol Piyasasının Genel Analizi. Finans-Politik ve Ekonomik Yorumlar Dergisi, 6-20.
4. Bilginoğlu, M. (1991). Gelişmekte Olan Ülkelerde Enerji Sorunu ve Alternatif Enerji Politikaları. Erciyes Üniversitesi İ.İ.B.F.Dergisi, 122-147. .
5. Furuncu, Y. (2018). TANAP'ın Orta Asya ve Avrupa Enerji Pazarlarına etkisi.
6. Ghali, K. E.-S. (2004). Energy Use and Output Growth in Canada A Multivariate Cointegration Analysis. Energy Economics Journal, 225-238.
7. Memmedli, E. (2017). Azerbaycan ile Avrupa Birliği İlişkilerinde Enerji Faktörü. Akademik Bakış Dergisi, 1-10.
8. Mehrara, M. (2007). Energy consumption and economic growth: The case of oil exporting countries. Energy Policy Journal, 2939-2945.
9. Hacıyev, J. və Əhmədov, V. (2021). Azerbaycan'da Girişimcilik Faaliyetinin Mevcut Durumu ve Gelişme Yönleri. Stratejik ve Sosyal Araştırmalar Dergisi, 181-193.
10. Hüseyin, R. (2011). Azerbaycan'da Petrole Dayalı Ekonomiden Çok Sektörlü Ekonomiye Geçişin Gerekliliği ve Tarım. Bilim Yayınları, 147-166.
11. Hekalov, V. (2015). Azerbaycan'ın Petrol Endüstrisi ve Gelişme Aşamaları. Azerbaycan Devlet İktisat Üniversitesi Yüksek Lisans Yayınları, 13-15.
12. Karaca, N (2016). Azerbaycan Cumhuriyeti Ülke Raporu.
13. Karluk, R. (2013). Uluslarası Ekonomi Teori ve Politika
14. Vural, Z. (2006). Hazar Havzası enerji kaynaklarının uluslararası politikadaki yeri ve Türkiye' ye etkisi. Atılım Üniversitesi Dergisi, 12-30.
15. Uslu, K. (2004). Avrupa Birliğinde Enerji Politikaları. Marmara Üniversitesi İİBF Dergisi,155-160
16. Zıppel. A. (2009). Wulfdiether Enerji Kaynaklarını Çeşitlendirme Yaklaşımları Altında AB'nin Enerji Politikası

# RƏQƏMSAL TRANSFORMASİYA VƏ PANDEMİYANIN ROLU

**Ülkər İsfəndiyarova**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**ulkar-isfendiyarova@unec.edu.az**

## Xülasə

Bu gün rəqəmsallaşma bütün dünyanın diqqət mərkəzində olan, ölkələrin iqtisadi inkişafı üçün zəruri və hərtərəfli şəkildə tədqiq olunmağı tələb edən bir mövzudur. Baxmayaraq ki, qlobal iqtisadiyyatda rəqəmsal transformasiya tələbi hələ onilliklər əvvəl başlamışdır, Kovid-19 pandemiyası bu prosesi olduqca sürətləndirdi. Pandemiya əhalinin sağlamlıq problemləri ilə birlikdə həm də dövlətlərin və biznes subyektlərinin məruz qaldığı iqtisadi problemlərə görə dünya iqtisadiyyatına zərbə vurdu. İnsanların həyatlarının və sağlamlıqlarının qorunması üçün məsafədən iş, virtual məktəb, distant təhsil, telesəhiyyə, onlayn ticarət və başqa bir sıra elektron xidmətlərin istifadəsi zərurətə çevrildi. Bu məqsədlə biz hökümətlərin rəqəmsal transformasiyanı, innovasiyanı yüksək səviyyədə təşviq edə bildiyinin şahidi olduq.

Pandemiya rəqəmsallaşmaya hazırlıqsız dövlətləri olduqca tez bir müddətdə bu rəqəmsal həll yollarından istifadə etməsinə səbəb oldu. Bu zaman həm avadanlıq, həm də internet çıxışı baxımından kifayət qədər təmin olunmayan əhalinin bu həll yollarından istifadə edə bilməməsi çoxsaylı problemlərə gətirib çıxardı.

Məqalə rəqəmsallaşmanın danılmaz faydalarını nəzərdən keçirməklə yanaşı, hal-hazırda rəqəmsallaşmanın cari vəziyyəti və perspektiv inkişafını nəzərdən keçirilir. Pandemiyadan sonrakı dövr üçün iqtisadiyyatın bərpası və rəqəmsal transformasiyanın sürətləndirilməsi üçün hansı istiqamətdə tədbirlərin önəmli olacağı təhlil edilir.

**Açar sözlər:** rəqəmsal transformasiya, dayanıqlı inkişaf, innovasiya, pandemiya, texnologiya.

## Abstract

In modern world digitalization is a topic that is in the center of attention of the whole world, which is of significant importance in the cource of economic development of countries and thus, is a very attractive subject of a comprehensive study. Although the demand for digital transformation in the global economy began already decades ago, the Covid-19 pandemic has greatly accelerated this process. The pandemic has hit the world economy, along with the health problems of the population, as well as the economic problems faced by states and businesses. The switch to the remote mode of work, virtual school, distance learning, telehealth, online commerce and a number of other electronic and remote services has become necessary to protect people's lives and health. To this end, we have seen that, governments push promotion of digital transformation and innovation at a high level. The pandemic has led countries unprepared for digitalization to use these digital solutions very quickly. At the same time, the inability of the population to use these solutions, both in terms of equipment and Internet access, has led to many problems.

In addition to reviewing the undeniable benefits of digitalization, the article examines the current state and prospects of digitalization. It analyzes the direction, in which, measures will be important for the recovery of the economy and the acceleration of digital transformation in the post-pandemic period.

**Key words:** digital transformation, sustainable development, innovation, pandemy, technology.

## Rəqəmsal Transformasiya Və Rəqəmsallaşmanın İqtisadi Faydaları

Biznes subyektlərində rəqəmsal transformasiya həm əməliyyat xərclərinin azalmasına, məhsuldarlığın yüksəlməsinə, həm də şəffaflığın və maliyyə resurslarının əlçatanlığının artmasına səbəb olur. Bazara çıxış imkanlarının artması, elektron kommersiya və paylaşım iqtisadiyyatı vasitəsilə yeni biznes modellərinin yaranması, açıq bankçılıq vasitəsilə məlumatların mübadiləsi rəqəmsallaşmanın əsas faktorlarıdır.

Kovid-19 yaranmamışdan qabaq belə bizneslərin rəqəmsallaşması qlobal iqtisadiyyata yön verən əsas trend hesab olunurdu. 2000-ci illərin əvvəllərindən informasiya və kommunikasiya texnologiyaların (İKT) inkişaf sürəti şirkətlərin hesablama resursları və məlumatların işlənilməsini dəyişəcək bulud və mobil platformların əmələ gəlməsinə imkan yaradırdı. Rəqəmsal texnologiyaların tətbiqi səmərəlilik və istehsal proseslərinin effektivliyini artırmaq potensialına malik idi. Buna görə də biznes proseslərinin rəqəmsallaşdırılması yalnız inkişaf üçün deyil, həm də həyatda qalma üçün üçün əhəmiyyətli idi.

Rəqəmsallaşmaya keçid uzun müddət ərzində təkamül etmişdir. Kovid-19 pandemiyasından əvvəl də rəqəmsal transformasiyaya ehtiyac artırdı. Belə ki, iqlim dəyişikliyi, ticarət müharibələri, sosial narahatlıq,

fabrik və təklif zəncirlərində intelektə əsaslanan avtomatlaşdırma kimi xarici təsirlər rəqəmsal dəyişikliklərə səbəb idi. (Nanda, 2021)

Rəqəmsal transformasiya qloballaşma şəraitində yarana biləcək dağıdıcı dəyişikliklərə cavab vermək üçün ən yaxşı strategiyalardan biri hesab olunurdu. Elə buna görə də Kovid-19-un dağıdıcı təsirlərinə cavab vermək üçün rəqəmsal texnologiyaların geniş tətbiqi elə tam zamanında oldu. (Nanda, 2021) Əlbəttə ki pandemiyanın təsiri ilə yaranan transformasiya digər ənənəvi formalarda yarananlardan fərqli xarakterə malik oldu. Belə ki pandemiya vəziyyətində firmalar davamlı rəqabət qabiliyyətli üstünlük qazanılmasından daha çox iflasdan hansı halda qurtula biləcəklərini düşünürdülər. Nəticədə rəqəmsal texnologiyalar artıq müəssisələr üçün köməkçi bir vasitə kimi deyil, şirkətlərin biznes innovasiya strategilarının əsas baza hissəsinə çevrildi. (Chakravorti, Chaturvedi, Filipovic, Brewer, 2020)

Rəqəmsallaşmanın iqtisadi faydaları danılmazdır. Hər şeydən əvvəl qlobal istiləşmə probleminin getdikcə dərinləşməsi ətraf mühitə buraxılan zərərli qazların miqdarının tənzimlənməsini vacib edir. İKT sektorunun ətraf mühitə GHC (greenhouse gas-istilik effekti yaradan qazlar) emissiyası ümumi dünya hasilatının 1,4 %-ni təşkil edir. Amma rəqəmsallaşmanın inkişafı, İKT-in tətbiqi digər sektorlardakı GHG hasilatını 15-20 % qədər azalda bilər. (Belkhir & Elmeligi, 2018).

Belə ki, informasiya əsaslı xidmətlərin hər bir əlavə vahidinin istehsalı sıfır marjinal xərclə başa gəlir və istehsalda əlavə resurs sərfiyyatının qarşısını alır. Bu həmçinin cəmiyyətin daha aşağı gəlirli qrupu üçün də əlverişli olur. Məsələn,  müəssisədə videokonfrans xidmətinin tətbiqinin bir sıra üstünlükləri vardır:

- Səmərəliliyi artırırır– ofisə getmədən, bir-birindən uzaq məsafədə yerləşən əməkdaşlar çox asanlıqla bir-biri ilə canlı video ünsiyyəti qura və qrup halında əyani müzakirələr apara bilərlər ki, bu da qərarların çevik və effektiv qəbul olunmasına, nəticə etibarilə təşkilatın fəaliyyətinin səmərəliliyinin yüksəlməsinə səbəb olacaq.
- Zamana və maddi resurslara qənaət edir – videokonfransla kommunikasiyanın tətbiqi istifadəsi bahalı və zaman aparan ezamiyyətlərə ehtiyacın aradan qalxmasına səbəb olur. Belə ki, əksər hallarda mövzuların müzakirəsini məhz video bağlantı vasitəsilə aparmaq lazımi nəticələrin əldə edilməsi üçün kifayətdir. Bundan əlavə, video bağlantı vasitəsilə gündəlikdə duran mövzuların müzakirəsi və materialların vizual olaraq paylaşılması məlumatların (təqdimatlar və s.) kağız üzərində çap olunmasına ehtiyacı aradan qaldırır və resurs israfının qarşısını almağa kömək edir.
- Distant xidmət göstərmə imkanlarını yaradır – videokonfrans rabitəsi vasitəsilə telesəhiyyə, məsafədən təhsil və konsultasiya kimi xidmətlərin göstərilməsi mümkün olur ki, bu da eyni fəaliyyət sahələrində çalışan təşkilat və mütəxəssislər üçün çox faydalı nəticələr verir.

Tələb və təklifin real zaman müddətində rəqəmsal platformalar köməyi ilə koordinasiya olunması həm işin keyfiyyətinin artırılmasına resursların daha səmərəli istifadə olunmasına imkan yaradır. Məsələn, uber və digər bu tipli platformalar müştərilərin sifarişlərinə ən uyğun olan sürücüləri koordinasiya edərək xidməti daha keyfiyyətli və ucuz edərək israfı da minimuma endirir.

Beləliklə, rəqəmsallaşmanın fərdi faydalarını üç əsas qrupda birləşdirə bilərik:

- Xərclərin azaldılması.
- Gəlirlərin artırılması.
- Rahatlığın artırılması.

Qeyd etdiyimiz kimi rəqəmsal transformasiya iqtisadiyyatın bütün sektorlarında fayda qazanılmasına imkan yaradır. Lakin iqtisadiyyatın yalnız 8 sektorunun qiymətləndirilməsi göstərir ki, rəqəmsallaşma 2030-cu ilə qədər illik 11 trl dollardan daha çox gəlirin artmasına səbəb ola bilər. (Global e-sustainability initiative, 2015) Bu sektorlar daşınma və çatdırılma, istehsal, ərzaq, tikinti, sağlamlıq və təhsil sektorlarıdır.

Sağlamlıq sektorunda İKT-in tətbiqi insanların səhiyyə əlçatanlığını artıra bilər. Belə ki elektron səhiyyə xidmətlərindən istifadə edərək insanlar harda olmasından asılı olmayaraq həkimə daha yaxın ola bilərlər. Məsələn, Azərbaycanda pandemiya dövründə "E-Təbib" tətbiqi istifadəyə verildi. Bu tətbiq bluetooth texnologiyası əsasında işləyir və yaxınlıqdakı digər tətbiq istifadəçiləri ilə əlaqə qurur. Eyni zamanda yalnız bir toxunuşla Kovid əleyhinə qaynar xətlə əlaqə saxlayaraq informasiya almaq və ya yardım istəmək imkanı yaradır.

Qida sektorunda İKT-in tətbiqi istehsalın məhsuldarlığını artırır və qida israfının qarşısını alır. Bu isə ölkələrin ərzaq təhlükəsizliyinin təmin olunmasında olduqca önəmlidir.

Təhsil sistemində İKT-in tətbiqi təhsili daha əlçatan, effektiv, rahat edir. Pandemiya dövründə Azərbaycan Dövlət İqtisad Universiteti tədrisin tez bir zamanda distant formada keçirilməsinə nail ola bildi. Eduman sistemindən və Zoom platformasından istifadə edərək təhsilin davamlılığının təmin olunmasına zəmanət verdi. Bu Azərbaycan təhsil sistemi üçün yenilik hesab olunsa da, müəllimlər və tələbələr tərəfindən tez bir zamanda mənimsənilə bildi. Daha sonra aparılan sorğularda həm müəllimlər, həm də tələbələrin 60 %-dən çoxu tədrisin distant formasına üstünlük verdiyini bildirdilər.

Beləliklə, rəqəmsal transformasiyanın ümumi cəmiyyət üçün faydaları isə ətraf mühit, sosial və iqtisadi baxımdan yaratdığı faydalar kimi qeyd oluna bilər. Belə ki, rəqəmsal çözümlərin tətbiqi bizneslərin ətraf mühiti riskə atmadan inkişaf etdirilməsinə yönəlib. Eyni zamanda rəqəmsallaşmanın təsiri Şərqi Afrikadakı kənddən tutmuş iri meqolopolisdə yaşayanlara qədər bütün yer üzündəki insanların həyat səviyyəsini yüksəldə bilər. (GeSİ, 2015)

Xüsusilə də inkişafdan geridə qalan ölkələr üçün rəqəmsallaşmaya keçid maliyyə sisteminə və iqtisadi artıma müsbət təsir göstərir. Ona görə də bu ölkələr yeni texnologiyaalara investiisyaları artırmalı, İKT –in inkişafı üçün effektiv siyasətlər formalaşdırmalıdırlar. (Mudasir, Kofi,Fosu, Emmanuel, 2019)

**Azərbaycanda Rəqəmsal Transformasiyanın Cari Vəziyyəti. Bütün Vətəndaşlar üçün Rəqəmsal Əlçatanlıq**

Rəqəmsal transformasiyanın mövcud vəziyyətinin və potensial inkişaf imkanlarının qiymətləndirilməsi üçün müxtəlif metodologiyalar tətbiq olunur. İqtisadiyyat əsasən 2 faktor baxımından qiymətləndirilir: ölkədə rəqəmsallaşdırmanın cari vəziyyəti və müddət ərzində rəqəmsallaşmanın tempi. (Mudasir et., 2019)

Azərbaycanda rəqəmsallaşmanın cari vəziyyətini təhlil etmək üçün bəzi statistik məlumatlara nəzər salaq.

**Cədvəl 1. Kompüteri olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə**

| | **2018** | **2019** | **2020** |
|---|---|---|---|
| **Ölkə üzrə** | 64,1 | 65,0 | 69,7 |
| **şəhər** | 82,3 | 86,0 | 86,6 |
| **kənd** | 55,4 | 59,1 | 60,5 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az (05.05.2022)

Cədvəldən də göründüyü kimi pandemiyadan əvvəl ev təsərrüfatlarının kompüterlə təmin olunması bütün ölkə üzrə 64,1 % idisə, pandemiya ərzində bu rəqəm 69,7 %-ə çatdı. Şəhər və kənd əhalisi arasında da bu statistika fərqlidir. Belə ki 20202-ci ildə şəhər əhalisinin kompüterlə təmin olunması 86,6 %, kənd əhalisinin

isə 60,5 % olmuşdur. Əlbəttə ki daha yüksək təmin olunma Bakı şəhərində bu rəqəm 98 %-ə yaxınlaşır.(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021)

**Cədvəl 2. İnternetə çıxışı olan ev təsərrüfatlarının ölkə üzrə ev təsərrüfatlarında xüsusi çəkisi, faizlə**

| | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| **Ölkə üzrə** | 78,2 | 79,1 | 84,8 |
| **şəhər** | 79,3 | 82,7 | 87,5 |
| **kənd** | 71,7 | 74,9 | 81,6 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az (05.05.2022)

Cədvəldən də görünür ki, pandemiya ərzində ev təsərrüfatlarının internet çıxışı artsa da, yenə də bütün ev təsərrüfatlarının 15 %-i internetlə təmin olunmayıb. Kəndlərdə bu rəqəm daha çox olub təxminən 18 %-ə bərabərdir.

Digər ölkələrlə müqayisə etsək görərik ki, internet əhatəsi Ukrayna və Gürcüstanda 63 % olduğu halda Azərbaycanda bu rəqəm 80 %-dir. Bu göstərici bu Şərq tərəfdaşlığı (EaP) ölkələrinin ortalama faizindən daha aşağıdır. (Eastern Partnership Civil Society Forum, 2021)

**Cədvəl 3. Azərbaycan internet istifadəçiləri statistikası**

| Göstəricilərin adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Əhalinin hər 100 nəfərinə düşən internet istifadəçilərinin sayı, nəfər** | 78 | 79 | 80 | 81 | 85 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az (05.05.2022)

Əhalinin rəqəmsal transformasiya şəraitində həm avadanlıq, həm də rəqəmsal girişlərin məhdudluğu əhalinin rəqəmsal xidmətlərdən istifadəsini məhdudlaşdırır. Dövlətlər postpandemiya dövründə rəqəmsallaşmaya bərabərlik baxımından yanaşmalı və "hər kəs üçün rəqəmsal giriş" imkanları yaratmalıdırlar (Causey, Kelkar, Guha, Malouche, 2022)

Azərbaycan İKT sektorunun inkişafı üzərində uzun müddətdir ki çalışır. Hökümət ölkəni Qafqaz üçün İKT mərkəzinə çevirməyi qarşısına əsas məqsəd kimi qoymuşdur. Prezident İlham Əliyev tərəfindən 2013-cü ilin İKT ili elan olunması barədə sərəncam, 2016-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasında "Telekommunkasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" bu yolda atılmış əhəmiyyətli addımlardır. (Asian Development Bank, 2019) Bundan başqa Azərbaycanda Prezidentinin 2014-cü il 2 aprel tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" qəbul edilmişdir.

**Cədvəl 4. İKT sektoru ilə bağlı statistika.**

| Göstəricilərin adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat | 1555,9 | 1688,0 | 1826,8 | 2083,2 | 2315,2 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 958,7 | 1 038,1 | 1 112,0 | 1293,3 | 1430,2 |
| İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə | 1,6 | 1,5 | 1,4 | 1,6 | 2,0 |
| İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər | 18,0 | 18,1 | 19,0 | 19,3 | 20,5 |
| İKT sektorunda çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti, faizlə | 1,2 | 1,2 | 1,2 | 1,3 | 1,4 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az (05.05.2022)

Bu gün dövlətlər rəqəmsal infrastrukturun inkişafına daha çox diqqət edirlər. Kommunikasiya infrastrukturuna investisiyaları artırmaqla çatışmazlıqları aradan qaldırmaq üçün mübarizə aparırlar. Onlar fiber şəbəkələrə, pulsuz ictimai wi-fi zonalaraının yaradılmasına, rəqəmsal savadlılıq proqramlarına geniş investisiyalar yatırırlar. (Cassidy, Bhalerao, O'Leary, Kelkar, 2021)

Azərbaycanda elmə və tədqiqat işlərinə çəkilən xərclərdə də artım müşahidə olunmuşdur. Belə ki 2016 və 2020-ci illər ərzində Dövlət büdcəsindən elmə çəkilən xərclər təxminən 33 milyon manat artmışdır. Tədqiqat və İşləmələrə çəkilən xərclərdə isə təxminən 39 min manat məbləğində artım olmuşdur. (ARDSK, 2021).

**Cədvəl 5. Elmə və tədqiqat işləmələrinə çəkilən xərclər**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| **Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manat** | 110.2 | 109.8 | 117.8 | 122.3 | 143.6 |
| **Tədqiqat və işləmələrə çəkilən ümumi xərclər - cəmi, min manat** | 129 289.8 | 132 340.0 | 150 532.1 | 171 067.6 | 168 940.9 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az (05.05.2022)

**Nəticə**

Bütün qeyd olunanları ümumiləşdirsək, deyə bilərik ki rəqəmsallaşma həm mikrosəviyyədə, həm də bütünlükdə iqtisadiyyat səviyyəsində çoxsaylı faydaların qazanılmasına səbəb olur. Kovid-19 rəqəmsallaşmanı əhəmiyyətli dərəcədə sürətləndirdi. Lakin ayrılıqda bütün sektorların rəqəmsal keçidə hazırlığı gözdən keçirilməlidir. Kənd təsərrüfatı, balıqçılıq, meşəçilik, karxana və mədənçilik, ərzaq məhsulları, içki və tütünçülük, elektrik, qaz, su təklifi, kanalizsaiya və tullantıların idarə olunmasıtikinti, daşınmaz əmlak və s kimi bəzi sektorlar var ki, proseslərin yalnız az bir hissəsi rəqəmsallaşdırıla bilər. Rəqəmsal texnologiyaları daha sürətli şəkildə mənimsəyə bilən sektorlara isə nəqliyyat avadanlıqları, telekommunikasiya, İT və informasiya xidmətləri, maliyyə və sığorta, hüquqi və mühasibat fəaliyyətləri, elmi araşdırmalar və inkişaf, reklam və bazar tədqiqi, digər biznes xidmətləri, idarəetmə və konsultasiya xidmətləri kimi sahələr aiddir.

Rəqəmsallaşmaya keçidlə yaranan problemləri və rəqəmsallaşmanın iqtisadi, ətraf mühit və sosial faydalarını nəzərə alsa, dövlətlər daha uğurlu rəqəmsal transformasiya üçün bəzi tədbirləri əhatə etməlidirlər:

1. Rəqəmsal imkanların genişləndirilməsi vacib bir şərtdir:

- Rəqəmsal istehlakçı alətlərinin (e-kommersiya, rəqəmsal ödənişlər, əyləncə və s.) qəbulu genişləndirillməlidir;
- Rəqəmsal sahibkarlıq vençurlarının himayəyə götürülməsi;
- Sürətli, universal (məsələn fibroptik) və mobil genişzolaqlı internet çıxışlarının təmin olunması;
- Rəqəmsal əmtəələrin, xidmətlərin və ya medyanın ixrac olunmasında ixtisaslaşmaq;
- Universitetlər, bizneslər və rəqəmsal hakimiyyətlər arasında koordinasiyanın təmin olunması;
- Rəqəmsal imkanlara çıxışları təmin etmək üçün düzgün iqtisadi siyasətin istifadə olunması və tənzimləmələrdən istifadəyə davam edilməsi. Bununla yanaşı olaraq istehlakçıların fərdi zorakılıqlardan, kiberhücumlardan və digər təhlükələrdən qorunmasının təmini (məlumatların yeni rəqəmsal tətbiqləri üçün istifadəsinə davam etməklə) ;
- Yeni texnoloji xüsusiyyətlərin təyin olunması və ətraf mühitin bu sahələrdə innovasiyanı himayədarlığı;
- Rəqəmsal müəssisələrə investisiyaların cəlbi, rəqəmsal tədqiqatların və R&D inkişafının maliyyələşdirilməsi, rəqəmsal savadlılığın inkişaf etdirilməsi və peşələrin yaradılmasının təşviqi;
- Təhlükəsizliyin təmin olunması, xüsusilə də məhsuldarlığı artıran və yeni peşələr yaradan rəqəmsal məhsul və xidmətlərin istehlakçılar tərəfindən mənimsəməsini təmin edəcək institutsional mühitin yaradılması;

2. Rəqəmsal savadlılığın artırılması

Bizneslərin fəaliyyət göstərdiyi bir çox sektorlarda rəqəmsal savadlılığın aşağı səviyyəsi onlayn biznes qabiliyyətlərinin öyrədilməsi iqtisadiyyatın bir çox sahələri üçün əhəmiyyətli sayıla bilər.
Kovid 19-a cavab vermək üçün onlayn video və onlayn təlimlər rəqəmsal savadlılıq kompaniyalarına təkan verə bilər, xüsusi sektorla belə materialların asanlaşdırlması yolları nəzəri alınmalıdır.

3. Mobil pulun və maliyyə texnologiyalarının dəstəklənməsi. Bu eyni zamanda hələ də belə texnologiya ilə tanış olmayan firmalara rəqəmsal savadlılıq təlimləri ilə birlikdə baş verməlidir. Xüsusi sektor ilə əməkdaşlıq bu texnologiyaların qısa müddətdə istifadəsinin artırılmasına kömək edə bilər
4. Rəqəmsal alətlərə etimadın artırılması.

## Ədəbiyyatlar


1. Rich Nanda (2021) Digital transformation evolution. Start your digital transformation with the end in mind, 2.
2. Bhaskar Chakravorti, Ravi Shankar Chaturvedi, Christina Filipovic, and Griffin Brewer (2020) Trust in the Digital Economy and Its Evolution Across 90 Economies as the Planet Paused for a Pandemic, 2.
3. Lotfi Belkhir, Ahmed Elmeligi (2018) Assessing ICT global emissions footprint: Trends to 2040 & recommendations. Journal of Cleaner Production. 177,440-448
4. Global e-sustainability initiative (2015) ICT Solutions for 21st Century Challenges. Smarter 2030, 11-17
5. Yussif Mohammed Mudasir, Anthony Kofi, Osei Fosu and Buabeng Emmanuel. Kumasi, Ghana (2019) Digitisation, Financial Development and Economic. Growth in Emerging Economies, 8-59

6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi www.stat.gov.az
7. Eastern Partnership Civil Society Forum(2021) SMEs Digital Transformation in the EaP countries in Covid-19 Time: Challenges and Digital Solutions, Covid-19 Policy paper, 12
8. Michele Causey, Mahesh Kelkar, Arindam Guha, Mohamed Malouche (2022) Digital access for all: Government transformation, 2
9. Asian Development Bank Overview (2019) Country Diagnostics January 2019 Azerbaijan: Country Digital Development, 4
10. John Cassidy, Harshal Bhalerao, John O'Leary, Mahesh Kelkar (2021) Closing the digital divide. How states can expand broadband,

# AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA MALİYYƏ MEXANİZMLƏRİNİN FORMALAŞMASI

**Ülkər İsmayılzadə**

**Azərbaycan Dövlət İqtisad Univertsiteti**

**ismayilzadeulker99@gmail.com**

## Xülasə

Müasir dövrdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafında maliyyə mexanizmlərinin təkmilləşdirilməsi mövzusu vacib və araşdırılmanı zəruri edən mövzudur. Azərbaycan regionlarının həyat şəraitinin yüksəldilməsi siyasətinin izlənilməsi üçün regionların sosial-iqtisadi inkişaflarına mane olan amillərin araşdırılması və aradan qaldırılmasını bu mövzunun tədqiqatını zəruri etmişdir. Bəzi hallarda seçilən maliyyə mexanizmləri qarşıya qoyulan məqsədlərə nail olmaq üçün maneələr yaradır və bunun nəticəsində cəmiyyət itki ilə qarşılaşır. Bu səbəbdən də, regionlarının siyasətin formalaşdırılması, o cümlədən onun maliyyə mexanizminin müəyyən edilməsi ətraflı formada əsaslandırma tələb etməkdədir. Bu tədqiqatda qoyulan problem müasir dövrümüzdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq maliyyə mexanizmlərinin və onların təkmilləşdirmə yollarının aşkarlanmasıdır. Bu regionlarda iqtisadi inkişafın baş tutmasını təmin etmək üçün mövcud resurslardan istifadə etməklə maliyyə mexanizmlərində islahatlar aparılmalıdır. Tədqiqatın obyekti kimi Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin olunmasında bir çox maliyyə mexanizmlərini, predmeti kimi də sosial-iqtisadi inkişafa səbəb olan bir çox maliyyə mexanizmlərini göstərmək olar. Tədqiqatın əsas məqsədi Azərbaycan regionlarında sosial-iqtisadi inkişafın maliyyə mexanizmlərinin təkmilləşdirilməsi üçün istiqamətləri müəyyən etməkdir. Aparılmış tədqiqat nəticəsində pandemiyadan sonra ölkənin regionlarında maliyyə mexanizminin əsas istiqamətlərinə uyğun maliyyə sabitliyini təmin etmək üçün dövlət tərəfindən istifadə oluna bilər.

**Açar sözlər:** maliyyə inkişafı, regionlar, maliyyə tənzimlənməsi, dövlət.

## Summary

Improving financial mechanisms in the socio-economic development of the regions of Azerbaijan in modern times is an essential topic. It is necessary to study what hinders the socio-economic development of the regions. The chosen financial mechanisms create obstacles to achieving the set goals. As a result, society suffers losses. The formulation of policy in the regions, including the definition of its financial mechanism. The problem posed in this study is to identify financial mechanisms that will play an essential role in the socio-economic development of the regions of Azerbaijan in modern times. Financial mechanisms need to be reformed using available resources to ensure economic growth in these regions. The object of the study is many financial mechanisms to ensure the socio-economic development of the regions in Azerbaijan. The subject of the study is many financial mechanisms that lead to socio-economic development. The primary purpose is to identify areas for improving the financial mechanisms of socio-economic development in the regions of Azerbaijan. As a result of the research, financial stability in the country's regions after the pandemic by the main direction of the financial mechanism.

**Keywords:** financial development, regions, financial regulation, state.

## Giriş

Bu araşdırmada qoyulan problem müasir dövrdə regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayan maliyyə mexanizmləri və onların təkmilləşdirməsi yollarının aşkarlanmasıdır. Hazırda ölkənin Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı normativ sənədlərdə öz əksini tapmış, dövlət proqramları qəbul edilmişdir. Bu dövlət proqramlarının reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən sərəncamlar imzalanmış, icraedici orqanlar müəyyən edilmişdir. Regionların sosial-iqtisadi inkişafında "region" anlayışının öyrənilməsi, onun ehtiva etdiyi məna mühüm əhəmiyyət kəsb edir. Regionu, onun problemlərini və perspektivlərini araşdırmaq problemin qoyuluşu baxımından önəmlidir. Daha sonra önəmli yeri bu inkişafı təmin edəcək maliyyə mexanizmləri tutur. Bu maliyyə mexanizmlərini detallı nəzərdən keçirmək onların praktiki işləkliyini, üstünlüklərini və çatışmazlıqlarını müəyyən etməyə fürsət yaradır.

Fikrimcə, Azərbaycan regionlarının çatışmazlıqların araşdırılması nəticəsində onların aradan qaldırılması üçün maliyyə mexanizmlərinin işlənib hazırlanmasının hansı istiqamətdə vacib olduğunu aydınlaşdırmaq mümkündür. Qeyd etmək lazımdır ki, problemin tədqiqi həm xarici, həm də yerli mənbələr tərəfindən ətraflı şəkildə aparılıb. Xüsusən də xarici mənbələrə istinad edilərək tədqiqatın nəzəri əsasları hazırlanmışdır. Alman və İngilis iqtisadiyyat məktəblərinin nəzəriyyəçilərinin tədqiqatlarına istinadlar edilmişdir.

Bu gün Azərbaycan regionlarda maliyyə mexanizmlərini təkmilləşdirmək üçün prioritet istiqamətlərdən biri kimi yoxsulluğun azaldılması, müasir texnologiyanın tətbiqi, yeni iş yerlərinin yaradılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, infrastrukturun yenilənməsi, yerli və xarici kapitalın cəlb edilməsini göstərmək olar. Bundan başqa, iqtisadi gücün artırılması, biznes mühitinin inkişaf etdirilməsi və işsizliyin azaldılması kimi hədəflərə çatmaqda dövlətin atdığı addımlar dövrümüzün ən aktual məsələləridir. Tətbiq edilən maliyyə mexanizmlərinin və onların rolunu araşdırmaq hazırda bu məsələlərin araşdırmasını vacib edir.

Təhlil zamanı Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üzrə bir neçə metodlar və təhlillər reallaşdırılmışdır ki, bunlardan da birincisi təhlil metodu olmuşdur. Bu metodla sosial-iqtisadi inkişafın tənzimləməsi üçün bir sıra tədqiqat işləri və ədəbiyyat formaları təhlil olunmuşdur. Müqayisəli üsuldan istifadə ilə sonda analiz olunan tədqiqat işlərinin hər biri və yerli ədəbiyyatlar qarşılaşdırılmışdır.

Araşdırılmış ədəbiyyatlar vasitəsilə də Azərbaycan regionların sosial inkişafında maliyyə mexanizmləri qiymətləndirilmişdir. Modelləşdirmə metodu mövcud tədqiqat obyektinin süni formada yaradılan bir modelə köçürülməsi üçün aparılan təhlillərdən biridir. Bu, həmin vəziyyətlərin daha uğurlu modelləşdirilməsi üçün, o cümlədən reallıqda əldə edilməsi çətin olacaq nəticələr üçün edilir.

Nəticədə, Azərbaycan regionlarının maliyyə mexanizminin əsas istiqamətlərinə uyğun olaraq vahid informasiya məkanının yaradılması üzrə İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi birgə iş görməli, təkliflər planı hazırlamalı, kiçik və orta sahibkarlar üçün vergi azadolmaları, vergi güzəştləri hazırlamalı, likvidliyinin artırılmasında bizneslərə xüsusi investisiya proqramı həyata keçirilməsi üçün fəaliyyətlər gpstərilməsi təklif edilmişdir.

**Azərbaycanda regionların sosial-iqtisadi inkişafı**

Ölkə üçün sosial-iqtisadi inkişafın təmin edilməsi zəruridir. Regional inkişaf qlobal müstəvi ilə yanaşı ölkədaxili inkişafın əsas parçası olaraq da bilinməkdədir. Regional iqtisadi fərqliliklər demək olar bütün ölkələrin quruluşunda mövcuddur. Dövlətlərin əsas hədəfi regional qeyri-bərabərliyi aradan qaldırmaq və davamlı, balanslı iqtisadi tərəqqini təmin etmək olmuşdur (Bogdanski, 2012).

Ölkənin sosial-iqtisadi inkişafının qan-damar sistemini təşkil edən vergi siyasəti obyektiv reallıqlar əsasında formalaşmalıdır (Gülməmmədova, 2015). Vergi dövlətin müxtəlif xidmətləri reallaşdırmaq üçün birbaşa və yaxud dolayı yolla hüquqi və ya fiziki şəxslərdən topladığı pul vəsaitidir(Securities and Exchange Commission, 2016).

Ümumiyyətlə, maliyyə mexanizmləri dövlətin və ya biznesin özünü maliyyələşdirmək üçün istifadə etdiyi vasitələrdir. Hansı maliyyə mexanizminin tətbiq ediləcəyi dövlətin və ya müəssisənin məqsədindən, yaxud həmin anda hansının istifadə edilməsi daha zəruridirsə, onun tərcih edilməsindən asılıdır.

Nəzəriyyələrdən belə qərara gələ bilərik ki, regionların sahib olduğu resurslardakı müxtəliflik yalnız məhsulların regionlararası hərəkəti ilə avantaja çevrilə bilər. Bu da bütün regionların gəlirlərinin nisbətən bərabərləşməsinə şərait yaradır (Hüseynova, 2010). Məsələn, Lənkəran–Astara iqtisadi coğrafi rayonu çay bitkisi istehsalı üzrə ixtisaslaşmışdır. Çünki bu region çay bitkisinin yetişdirilməsi üçün zəruri olan resurslarla zəngindir. Mərkəzi Aran isə pambıqçılıq üzrə ixtisaslaşmışdır. Baxmayaraq ki, cənub bölgəsində pambıq yetişdirilməsi üçün şərait yoxdur və eynilə Mərkəzi Aranda çay bitkisini yetişdirmək çətindir, yenə

də qarşılıqlı mübadilə ilə bu regionlar öz əhalisini bu məhsullarla təmin edə bilərlər. Nəticə etibarilə, bu ticarətdən hər iki region mənfəətli çıxacaq(Veronica, Tatiana, Alla, Oleg and Denis, 2016).

Maliyyə bazarının infrastrukturunu anlamaq üçün maliyyə ekosisteminə geniş perspektivdən baxmaq lazımdır. Ödəniş sistemləri, mərkəzi tərəfdaşlar və ya mərkəz təhlükəsizlik depozitariləri və qiymətli kağızlar hesablaşma sistemləri maliyyə mexanizmlərinin mübadiləsində mühüm rol oynayır. Hansı ki, bu maliyyə mexanizmləri iqtisadiyyatın maliyyələşdirilməsini dəstəkləyir (Veronica et., 2016). Maliyyə bazarı maliyyəyə ehtiyacı olan iqtisadi agent ilə, maliyyəni təmin edən iqtisadi agenti bir araya gətirə bilir. Bu həmçinin maliyyə riskini bütün bazar iştirakçıları arasında təkrar bölməklə onu idarə etməyə kömək edir. Maliyyə resurslarını bölməyə köməklik göstərən maliyyə sistemi eyni zamanda risk və mənfəətlilik bölgüsünə icazə verir.

Balanslı regional inkişaf nəzəriyyələrinə görə sektoral və ya regional formada olmasından asılı olmadan inkişafa nail olmaq zəruridir. Disbalanslı və ya regional iqtisadi artım və ya inkişaf nəzəriyyələri daha az kapital tələb edir, çünki ancaq iqtisadiyyatın aparıcı sahələrinə yatırım etməyi və önəm verməyi tövsiyə edir. Lakin bu balanslı inkişafdan fərqli olaraq qısa müddətli strategiya hesab olunur.

Regionların hər birinin özünəməxsus və fərqli inkişaf xüsusiyyətlərinə sahib olduğunu nəzərə alaraq regional sosial-iqtisadi inkişafa yönəldilmiş nəzəriyyələrdən uyğun nəzəriyyənin müəyyən edilib tətbiq edilməsi azad olunmuş regionların inkişafında uğurlu nəticələrə gətirib çıxara bilər.

**Azərbaycanda regionlarda maliyyə mexanizmlərinin nəzəri-metodoloji aspektləri**

Bugün regionların sosial-iqtisadi vəziyyətinin təhlilləri göstərir ki, inkişafa mane olan amillərin müəyyən edilərək aradan qaldırılması zəruri hesab edilir. Regionların inkişaf göstəricilərinə diqqət edəndə regionlar arasında qeyri-bərabərliyin olduğu aydın olur. Regionlararası qeyri-bərabərlik sərmayə və əməyin müəyyən regionlarda toplanması nəticəsində ortaya çıxır və regional tarazlığın pozulmasına gətirib çıxarır. İqtisadi fəaliyyətlərin müəyyən bölgələrdə toplanmasının əsas səbəbləri coğrafi, iqtisadi, sosial- mədəni və digər səbəblərdir (Bayramov, 2020).

Bu regional bərabərsizliklərlə bağlı üç yanaşma mövcuddur. Birinci yanaşmaya görə regionlararası bərabərsizlik inkişaf etmiş ölkələrdə azalmağa doğru gedəcək və əksinə zəif inkişaf etmiş ölkələrdə daha da geniş vüsət alacaq. İkinci yanaşmada sosial-iqtisadi inkişafın zaman getdikcə daha böyük ərazini əhatə edəcəyi, hətta bütün ölkəyə yayılaraq regionlararası bərabərsizliyin yoxa çıxacağı təxmin edilir. Üçüncü və sonuncu yanaşmaya görə isə hansı ölkələrdəki dövlət müdaxiləsi həddən artıq çoxdur, bu ölkələrdə regionlar arasında sosial-iqtisadi inkişaf cəhətdən bərabərsizliklər daha da artacaqdır (Gülməmmədova, 2015).

Bu səbəbdəndir ki, iqtisadçılar tərəfindən mövcud regional inkişaf nəzəriyyələri və konsepsiyalar dinamik şəkildə araşdırılır. Çünki bu nəzəriyyələr regionlardakı dəyişikliyin səbəblərini aşkarlamağa, və mövcud potensialdan maksimal şəkildə istifadəyə töhfə verə bilər. Qeyd etdiyimiz regional inkişaf nəzəriyyələrini aşağıdakı kimi sistemləşdirmək olar:

**Sxem 1:Regional inkişaf nəzəriyyəsi**




**Mənbə:** Müəllif tərəfindən yaradılmışdır

Regional sosial-iqtisadi inkişafa dair nəzəriyyələrin ilk qrupunun, yəni regionların müəyyən məhsullar üzrə ixtisaslaşmasını və bu məhsullar üzərindən regionlararası ticarətin də inkişaf etdirilə biləcəyini önə sürən nəzəriyyələr beynəlxalq-iqtisadi münasibətlər nəzəriyyələri arasında ortaya çıxmışdır. Hər bir dövlət öz sosial və iqtisadi inkişafına nail olmaq üçün bütün mövcud maliyyə vasitələrindən səmərəli istifadə edir. Qısacası, maliyyə mexanizmi dövlətin öz maliyyə siyasətini həyata keçirmə vasitəsidir. Maliyyə mexanizmləri quruluş etibarilə mürəkkəbdir, müxtəlif maliyyə əlaqələrini ifadə edir. Dövlətlər iqtisadi qanunların onlara diktə etdiyi formada məhsulu, milli və pul gəlirlərini, fondları bölüşdürərkən maliyyə mexanizmlərindən istifadə edir ki, nəticə etibarilə özünün maliyyə ehtiyatlarını yaratmış olur. Maliyyə mexanizmlərinin bölgüsü müxtəlif meyarlar əsasında aparıla bilər. Dövlətin maliyyə mexanizmi büdcə və büdcədənkənar dövlət mexanizmi şəklində qruplaşdırıla bilərkən, digər tərəfdən ərazi üzrə də bölgü aparmaq mümkündür (Abdullayev, 2015).
Maliyyə mexanizmin tətbiqi hüquqi tənzimləmə, yəni dövlət tərəfindən maliyyə işlərinin həyata keçirilməsi üçün hüquqi normativ aktların hər birinin qəbul olunması, planlaşdırma və idarəetmə ilə baş tutur. Araşdırdıqda görürük ki, maliyyə mexanizmləri anlayışı genişdir. Müxtəlif xarakterli maliyyə alətlərini əhatə edir. Ümumiyyətlə, maliyyə mexanizmlərini maliyyə resurslarının təsisatçı tərəfindən onlara ehtiyacı olan təşkilatlara təqdimetmə yolları kimi müəyyən edə bilərik ki, bu da kapitalın bərpası, gözlənilən gəlirlilik, mülkiyyət hüquqları və s. baxımından fərqli təsirləri ola bilər. Bu təsirlərə görə bəzi mexanizmlər idarəetmə, mülkiyyət strukturu, fəaliyyət strukturu və s. baxımdan fərqli xüsusiyyətlərə malik qurumlara ya az, ya da çox uyğun ola bilər. Mexanizmlərdən bəziləri Sosial və həmrəylik iqtisadiyyatı qurumları üçün uyğundur, bəziləri isə bütün müəssisələrə uyğun gələ bilir. Maliyyə mexanizmlərini 6 geniş kateqoriyada qruplaşdırmaq olar. Sosial baza, idarəetmə, qrantlar, maliyyə , kapital və qarışıq (Namazova, 2012).

**Azərbaycanda regionlarda maliyyə mexanizmlərinin tətbiqinin qiymətləndirilməsi**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədəki davamlı dəstəyi sayəsində bu rayonlar ölkədə əvvəlki şöhrətini geri qaytara bilmişdir. Azərbaycan Respublikasında 2016-cı ildən bu sahələrin inkişafı üçün kompleks tədbirlər planı həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidentinin əsas vəzifəsi bir tərəfdən kənd yerlərində məşğulluq və gəlir yaratmaq, digər tərəfdən isə bu sahələrdə ölkənin potensialından istifadə etməklə ölkənin ixrac potensialını gücləndirməkdir. Eyni zamanda, bu tapşırığın həyata keçirilməsi üçün xüsusi dövlət dəstəyi göstərilmişdir.
Bütün bunlarla yanaşı olaraq qeyd edək ki, 2016-cı ilin aprel ayında Ali Baş Komandan olan İlham Əliyevin rəhbərliyi nəticəsində AR Ordusunun Cəbrayılın Cocuq Mərcanlı kəndinə uğurlu əks-həmləsi ilə bölgə erməni işğalçılarından azad edilib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tam nəzarətində olan bu torpaqlarda burada yaşayan mülki əhalinin öz doğma yurdlarına qayıtması üçün genişmiqyaslı yenidənqurma işlərinin başlanması üçün şərait yaranmışdır. Dövlət başçısının tapşırığına əsasən Cocuq Mərcanlı kəndinin bərpası üçün görüləcək işlər çərçivəsində də müvafiq infrastrukturun yaradılması, habelə yeni iş yerlərinin təşkili istiqamətində tədbirlər həyata keçirilib.
Beləliklə, AR Prezidenti İlham Əliyevin sərəncamları ilə hazırlanan dövlət proqramlarının icrası ölkəmizdə aqrar sahənin dinamik inkişafında münbit zəmin yaratmışdır. Həmin sahədə köklü dəyişikliklər baş vermiş, mülkiyyət və yeni iqtisadi münasibətlər formalaşmışdır. Normativ baza daim inkişaf etdirilir. İdarəetmədə şəffaflığı və səmərəliliyi artırmaq üçün elektron formada kənd təsərrüfatı sistemindən istifadə edilir. Aqrar sahəyə dövlət dəstəyinin gücləndirilməsi, müvafiq olaraq institusional dəyişikliklər, bir neçə yeni çağırışlara uyğun olaraq strateji hədəflərin müəyyənləşdirilməsi sayəsində keyfiyyətcə yeni bir mərhələyə keçid başlanıb.

Dövlət proqramlarında nəzərdə tutulmuş yenidənqurma işləri turizm sahəsinə müsbət təsir edən amillərdəndir. Ümumiyyətlə, bu tədbirlər sahibkarlığın inkişafına, yeni mehmanxanaların açılmasına, mədəniyyət və istirahət obyektlərinin sayının artırılmasına şərait yaratmaqdadır. Bu da özlüyündə turistlərin yalnız paytaxta deyil, regionlara da səfər etməsinə şərait yaradır. Azərbaycan Respublikasında digər inkişaf etməmiş turizm sahələrinin, xüsusən də aqroturizmin inkişafına töhfə verilir. Kənd yerlərindəki insanların evlərini turistlər üçün kirayə verməsi, habelə onlara xidmət göstərməsi əhalinin maddi durumuna müsbət təsirlər göstərir. Ölkəmizə əlavə vəsaitlərin daxil olmasının ölkənin makroiqtisadiyyatında olduğu kimi əhalinin həyat səviyyəsinin artırılmasında da mühüm rol oynadığından turizmin inkişafı Azərbaycan Respublikasının iqtisadiyyatı üçün də faydalıdır. Ümumiyyətlə, bu, Azərbaycan Respublikasının dünyada geniş şəkildə tanınmasına şərait yaradır, o cümlədən investisiya axınını şərtləndirir.

Azərbaycan Respublikası regionlarının inkişafı, regionlar arasında sosial-iqtisadi fərqlərin aradan qaldırılması və bu ərazilərin iqtisadi potensialından səmərəli və tam istifadə edilməsi istənilən bir dövlətin, o cümlədən də Respublikamızın iqtisadi inkişafının əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu kontekstdə regional iqtisadi siyasət Azərbaycan Respublikasının ümumi iqtisadi siyasətinin və strategiyasının ən mühüm tərkib hissələrindən biri olmalıdır. Bu, Azərbaycan Respublikasının kontekstində xüsusilə vacibdir (Azəri, 2020).

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi ədəbiyyatlarında maliyyə mexanizmi anlayışına aid bir neçə müxtəlif yanaşmalar mövcuddur. O cümlədən də maliyyə mexanizmi ümumilikdə iqtisadi və sosial inkişafda əlverişli şərait yaratmaq məqsədilə cəmiyyət tərəfindən həyata keçirilən maliyyə münasibətlərinin tənzimlənməsi qaydaları və üsullarının məcmusu kimi ifadə olunur. Maliyyə mexanizmini maliyyə münasibətlərinin təşkili üsullarının, formalarının və növlərinin, onların ölçülməsi qaydalarının və üsullarının məcmusu kimi hesab edənlər var.

Maliyyə mexanizminin strukturu çox mürəkkəbdir. O, müxtəlif maliyyə münasibətlərinə uyğun gələn elementləri ehtiva edir. Maliyyə mexanizminin çoxlu sayda elementlərini tələb edən maliyyə münasibətlərinin müxtəlifliyi maliyyə təşkilatının forma, üsul və növlərinin müxtəlifliyidir.

İctimai təsərrüfatın bir çox subyektlərinin işinin xüsusiyyətlərindən, habelə maliyyə münasibətlərinin, onun dairələrinin müxtəlifliyindən asılı olaraq maliyyə mexanizmlərini bir neçə hissəyə bölmək olar:

**Sxem 2: Maliyyə mexanizminin hissələri**




**Mənbə:** Müəllif tərəfindən tərtib olunmuşdur

AR regionlarının sosial-iqtisadi inkişafında maliyyə mexanizminin ictimai istehsala təsiri baxımından resursların səfərbər edilməsi, maliyyələşdirilməsi, maddi maraqların yaradılması və s. fəaliyyət sahələri seçilməkdədir (Azəri, 2020).

Maliyyə mexanizminin hər bir dairəsi və hər bir fəaliyyət sahəsi vahid tərkib hissəsi kimi çıxış etməkdədir. Onlar bir-birindən asılıdır və bir-biriylə qarşılıqlı əlaqəlidir. Bununla belə, həm fəaliyyət sahələri, həm də ayrı-ayrı dairələr nisbi müstəqillik əldə edirlər. Bu, maliyyə mexanizminin bütün aspektlərinin daimi əlaqələndirilməsini tələb edir.

2015-2020-ci illər ərzində əsas kapital üzrə investisiyaları analiz elədikdə əsas diqqətin paytaxt şəhərdə olduğunu görə bilərik. 2020-ci ildə pandemiya və Qarabağ müharibəsindən sonra bəzi iqtisadi regionlarımızda azalma olmuşdur. Cədvəl 3-ə nəzər saldıqda aydın olur ki, bu azalmalar 1,06 faiz fərqlə Abşeron-Xızı iqtisadi rayonunda, 1,05 faiz fərqlə Mil-Muğan iqtisadi rayonunda, 1,04 faiz fərqlə Quba-Xaçmaz iqtisadi rayonunda, 0,79 faiz fərqlə Dağlıq Şirvan iqtisadi rayonunda, 0,49 faiz fərqlə Şirvan-Salyan iqtisadi rayonunda, 0,39 faiz fərqlə Mərkəzi Aran iqtisadi rayonunda, 0,37 faiz fərqlə Lənkəran-Astara iqtisadi rayonunda, 0,09 faiz fərqlə Qazax-Tovuz iqtisadi rayonunda olmuşdur. Cari vəziyyətə baxmayaraq əsas kapital üzrə investisiyalarda artım isə 3,12 faiz fərqlə Bakı şəhərində, 1,04 faiz fərqlə Gəncə-Daşkəsən iqtisadi rayonunda, 0,50 faiz fərqlə Naxçıvan Muxtar Respublikası iqtisadi rayonunda, 0,50 faiz fərqlə Şəki-Zaqatala iqtisadi rayonunda, 0,12 faiz fərqlə Şərqi Zəngəzur iqtisadi rayonunda, 0,01 faiz fərqlə Qarabağ iqtisadi rayonunda olmuşdur.

**Cədvəl 1: Əsas kapitala investisiyaların həcmində ayrı-ayrı iqtisadi rayonların payı (faizlə)**

| | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
| **İqtisadi rayonlar** | 100% | 100% | 100% | 100% | 100% | 100% |
| **Bakı şəhəri** | 73,54% | 74,65% | 68,27% | 63,36% | 58,76% | 61,88% |
| **Naxçıvan Muxtar Respublikası** | 6,10% | 6,33% | 5,78% | 6,01% | 5,55% | 6,05% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Abşeron-Xızı** | 2,51% | 1,99% | 2,64% | 7,23% | 13,67% | 12,61% |
| **Dağlıq Şirvan** | 0,98% | 1,22% | 1,69% | 1,87% | 2,09% | 1,30% |
| **Gəncə-Daşkəsən** | 2,78% | 2,26% | 2,90% | 2,76% | 1,74% | 2,78% |
| **Qarabağ** | 0,79% | 1,46% | 2,69% | 2,23% | 1,50% | 1,51% |
| **Qazax-Tovuz** | 1,42% | 1,33% | 1,67% | 1,76% | 3,03% | 2,94% |
| **Quba-Xaçmaz** | 1,73% | 2,25% | 2,31% | 2,69% | 3,63% | 2,59% |
| **Lənkəran-Astara** | 2,19% | 2,79% | 3,11% | 2,94% | 1,53% | 1,16% |
| **Mərkəzi Aran** | 3,36% | 1,61% | 2,50% | 2,41% | 2,63% | 2,24% |
| **Mil-Muğan** | 1,90% | 1,43% | 1,77% | 1,94% | 1,68% | 0,63% |
| **Şəki-Zaqatala** | 1,38% | 1,12% | 2,09% | 2,27% | 2,18% | 2,68% |
| **Şərqi Zəngəzur** | 0,00% | - | 0,11% | 0,01% | 0,01% | 0,12% |
| **Şirvan-Salyan** | 1,32% | 1,55% | 2,48% | 2,50% | 2,00% | 1,51% |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (21.04.2022)

Beləliklə, ölkəmizdə vergi güzəştləri iki yolla təmin edilir. Birinci istiqamət vergidən tam və ya müvəqqəti azadolmalar, o cümlədən vergi dərəcələrinin aşağı salınması ilə təmin edildiyi halda, ikinci istiqamət vergitutma bazasının aşağı salınması ilə təmin olunur. Azərbaycan Respublikası regionlarının inkişafını təmin edən əsas amil buraya investisiyaların cəlb edilməsidir. Ona görə də vergi güzəştləri ilk növbədə regiona investisiyaların cəlb olunması ilə bağlıdır. İnvestisiya cəlb etmək üçün əsas vergi güzəştləri üzrə mənfəət və digər vergilər üzrə vergi güzəştləri, aşağı vergi dərəcələrinin tətbiqi və s. aid oluna bilər.

Aşağıdakı sxemə əsasən də, Azərbaycanda iqtisadiyyata yönəldilən investisiyaların 2018-ci ildən sonra yarısından çoxunu daxili investisiyalar təşkil etdiyini, xarici investisiyanın ümumi həcmində azalmalar olduğunu görə bilərik. Bundan başqa, 2016-ci ilin etibarən daxili investisiyaların cəlb olunmasında tədbirlər artırılmışdır. Lakin 2017-ci ildən ümumi xarici investisiyanın həcmində azalmalar olmuşdur. Yuxarıda qeyd etdiyim səbəblərdən, həm də ölkənin azad edilmiş ərazilərə diqqətinin çox olması nəticəsində daxili investisiyanın payının xarici investisiyaya nəzərən daha çox olacağını proqnozlaşdırmaq mümkündür:

**Sxem 3: İqtisadiyyata 2015-2020-ci illərdə yönəldilən daxili və xarici investisiyaların həcmi(faizlə)**



**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.www.stat.gov.az (21.05.2022)

Prezidentin çıxışlarına əsasən belə nəticəyə gəlmək olar ki, xarici şirkətlər passiv şəkildə iştirak etdiyini, bu da əsas yükün dövlət büdcəsinə düşdüyünü göstərir. Sxem 3-dən də göründüyü kimi, bundan sonrakı proqnozlaşdırmalarda da qənaətə gəlmək olar ki xarici investisiyaların azad olunmuş torpaqlara cəlb edilməsində gecikmələr var. Ona görə də, maksimum uğur əldə etmək üçün maliyyə mexanizmlərindən səmərəli istifadə etmək lazımdır.

İşğaldan azad edilmiş torpaqlara ayrılan vəsait əsasında bu regionlarda aeroportun tikilməsi, su elektrik stansiyaların tikintisi üçün dövlət tərəfindən vəsait ayrılmışdır (https://president.az/az/articles/view/54575). Qarabağ ilə Şərqi Zəngəzura aid investisiya proqramında 2.2 milyard vəsait nəzərdə tutulmuşdur. Minalardan təmizlənmə prosesini sürətləndirilməsi üçün 2022-ci ildə dövlət büdcəsindən 100 milyon manata yaxın pul vəsaiti nəzərdə tutulmuşdur ki, bu ölkə üçün prioritet məsələrdən biridir (https://president.az/az/articles/view/55821). Daxili investisiyanın həcminin də regionlar üzrə artırılması üçün müəyyən tədbirlər görülməlidir.

Digər tərəfdən, Bakı Qarabağın yenidən qurulmasını sürətləndirməklə qələbənin nəticələrini möhkəmləndirmək üçün bütün imkanlarını səfərbər edib. Hər bir yeni qəsəbə, hər bir yeni əkilən torpaq sahəsi xalqın gözündə hakimiyyəti gücləndirəcək.

**Azərbaycanda regionların sosial-iqtisadi inkişafı üzrə maliyyə mexanizmlərinin formalaşması**

Böhran dövründə fiskal siyasətin təsirinə diqqət artırılmalıdır. Belə ki, iqtisadi böhran (pandemiya, müharibə, neftin qiymətinin aşağı düşməsi və s.) dövründə makroiqtisadi sabitliyin tənzimlənməsi fiskal və monetar siyasətin optimal koordinasiyasından xeyli dərəcədə asılıdır. Bu dövrdə ölkə iqtisadiyyatının milli inkişafı problemlərinin həllində neft gəlirlərinin istifadəsi ilə bağlı fiskal və monetar siyasətinin əlaqələndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, bu siyasət ölkədə mövcud inflyasiyanın səviyyəsinə uyğun olaraq ciddi iqtisadi və sosial təhlükənin əsasını təşkil edir. 2020-ci ildə ölkədə həyata keçirilən uğurlu monetar, fiskal siyasət və digər iqtisadi tədbirlər nəticəsində xarici və daxili şoklara uğurlu cavablar verilmiş, iqtisadiyyatın bütün sahələrinə güclü təsir göstərən bu şokların səmərəli idarə olunmasına şərait yaradılmışdır. Azərbaycanın sosial-iqtisadi vəziyyəti 2022-ci il və ortamüddətli dövr üçün ölkədə dayanıqlı iqtisadi artım trayektoriyasına qayıtmaq, növbəti 10 il ərzində ÜDM-in iki dəfə artması, reallıqlar fonunda makroiqtisadi sabitlik və işğaldan azad edilmiş ərazilərin bərpası kimi məsələlərlə üz-üzədir.

Bildiyimiz kimi, mənfəət vergisi dövlət büdcəsinin maddi istehsalı prosesləri ilə bağlıdır. Bu fakt bütün iqtisadi şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsinin həyata keçirilməsinə şərait yaradır. Digər vergilərdən, məsələn, ƏDV-dən fərqli olaraq, mənfəət vergisi tənzimləyici xarakter daşıyır, lakin qeyd etmək lazımdır ki, xüsusən də bugünkü şəraitdə sahibkarların sahibkarlıq və bizneslə məşğul olduqları sahənin xüsusiyyətləri ilə bağlı dövlət tərəfindən həyata keçiriləcək tədbirlər nəzərə alınmaqla dövlət "bərabər vergi prinsipi" kontekstində diqqətli olmalıdır. Nəzəri cəhətdən bu prinsip ondan ibarətdir ki, mənfəət vergisinin vahid dərəcəsi müəyyən edildikdə, böyük mənfəət əldə edən şirkətlər vergi üstünlüyünə malik olacaq və vergi yükü kiçik biznesin üzərinə düşəcək, ona görə də mütərəqqi vergi diqqət mərkəzində saxlanılmalıdır.

Müasir iqtisadi şəraitdə iqtisadiyyatın əsas amili olan sahibkarlığın inkişafı və sahibkarlıq fəaliyyətinin daha da təkmilləşdirilməsi, kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsi, vergi güzəştlərinin səmərəliliyinin artırılması diqqət mərkəzində saxlanılır. Onu da qeyd edim ki, bu gün Azərbaycanda iqtisadiyyatın bütün sahələrində tənəzzül sürətini minimuma endirmək üçün monetar və fiskal siyasət

cəmiyyətin həyatının yaxşılaşdırılması üçün beynəlxalq təcrübədən və standartlardan istifadəyə yönəldilməlidir. Məqsəd gələcəkdə ölkədə innovativ sahələrin inkişaf etdirilməsi, investisiyaların stimullaşdırılması, bu sahələr üzrə gəlirlərin artırılması və müvafiq olaraq büdcə gəlirlərinin artırılmasıdır. Qeyd edək ki, ölkə üzrə daxili investisiyaların strukturunda mühüm paya malikdir (64,0%). Buna görə də, xarici investisiyaların əhəmiyyətli dərəcədə artması fonunda ümumi sərmayədə ciddi artım müşahidə oluna bilər.

Banklar ölkə iqtisadiyyatının mərkəzində dayanır, istehsal və ticarət, kənd təsərrüfatı və cəmiyyət arasında vasitəçilik edir. İqtisadi transformasiya prosesində kommersiya bankları xüsusi rol oynayır. Ölkənin real sektorun inkişafındakı uğurları kommersiya banklarının səmərəli fəaliyyətindən asılıdır. (Quliyeva, 2021). Bankların məqsədi mənfəət əldə etməkdir. Bank düzgün siyasət aparарsa, kifayət qədər resursa malik olarsa və onları düzgün istiqamətə apararsa, müştərilərin rəğbətini və etibarını qazanarsa, qazanc əldə etmək ehtimalı daha yüksəkdir. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən işğaldan azad edilmiş ərazilərdə infrastrukturun bərpası işlərinə başlanılıb. Qarabağda işğaldan azad edilmiş torpaqların bərpasına daxili və xarici investisiyalar qoyulacaq. Bəzi ölkələr bu investisiyaları dəstəkləmək istəyir. Bütün bərpa işlərində banklar da mühüm rol oynayır. Ziraat Bankı (ZB) Şuşada filial açaraq rayondakı sahibkarlara həm dövlət qurumları vasitəsilə, həm də onların xərclərini ödəmək üçün yüngül kreditlər verməyi planlaşdırır. ZB-nin İdarə Heyətinin Sədrinin təmsil olunduğu Caspian Energy Club vasitəsi ilə Qarabağ və Qara dəniz ölkələrindən Qarabağa investisiyaların cəlb edilməsi mümkün olacaqdır. “Ziraat Bank Azərbaycan” ASC ilə AR Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kreditləri və İnkişafı Agentliyi arasında kənd təsərrüfatına dəstək məqsədilə imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, bank hazırda Azərbaycanda sahibkarlıq fəaliyyəti ilə məşğul bir çox hüquqi və fiziki şəxslərə güzəştli kreditlər təklif edir (Qasımlı, 2020). Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) ilə əməkdaşlıq çərçivəsində agentlik tərəfindən kənd təsərrüfatı sektorunun inkişafı üçün ayrılan kreditlər ildə 7% dərəcəsi ilə veriləcək və aqrar sektorda innovativ metodların tətbiqi təşviq ediləcək. Qeyd edək ki, kreditin müddəti damazlıq heyvanlara 3 il, kiçik və orta kreditlər, digər kənd təsərrüfatı istehsalat alətlərinin alınması və güzəştli şərtlərlə iri həcmli kreditlər üçün 5 ildir. Kreditin maksimal məbləği 1 000 000 manatdır və 200 000 manatdan yuxarı kreditlər yalnız kənd təsərrüfatı istehsalı alətlərinin alınmasına verilir.

Bundan başqa AR Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “Yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” da sərəncam imzalamışdır. Dövlət büdcəsindən 2021-ci ildə bu sərəncam 1 milyon 391 min ABŞ dolları həcmində ehtiyat fondu yaradılmışdır. “Yaşıl enerji” zonası kimi bərpa edilməsi nəzərdə tutulan azad edilən ərazilərin dünyanın ən müasir yaşayış məskənlərindən birinə çevrilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Bütövlükdə bank sisteminin inkişafı ölkə iqtisadiyyatının inkişafı üçün mühüm şərtlərdən biridir və bank sisteminin özünün inkişafı hər bir kommersiya bankının səmərəli fəaliyyətindən asılıdır (Мамедов, Велиев & Вейсов, 2021). Ölkə iqtisadiyyatının özəyini təşkil edən banklar istehsal və ticarət, kənd təsərrüfatı ilə cəmiyyət arasında vasitəçilik edirlər. Sosial-iqtisadi transformasiya prosesində banklar xüsusi rol oynayır (Болдырева & Солонина, 2016). Müasir iqtisadi fəaliyyəti bank sistemi olmadan təsəvvür etmək mümkün deyil. Dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan Respublikası üçün bank işinin səmərəliliyinin artırılması ən mühüm məsələlərdən biridir. Azad edilmiş torpaqlarda ölkənin bank sisteminin rolu kifayət qədər səmərəlidir. Dövlət bu sahənin inkişafına hərtərəfli dəstək verməlidir.

## Nəticə

Tədqiqatın nəticəsində, Azərbaycan ərazilərinin sosial-iqtisadi inkişafında maliyyə mexanizmləri qiymətləndirilmiş və təhlil edilmişdir. Ümumi sosial-iqtisadi inkişaf üzrə Azərbaycan regionlarının inkişafı

böyük əhəmiyyət kəsb etməkdədir. Azərbaycan regionlarının maliyyə mexanizminin əsas istiqamətlərinə uyğun olaraq, bu regionlarda maliyyə sabitliyinin təmin edilməsi nəzərə alınmaqla aşağıdakı təkliflər hazırlanmışdır:

1) Azərbaycan regionlarında sistemin əsas məzmunu vahid informasiya məkanının yaradılması təşkil edir. Bundan başqa, yerli və xarici sərmayələrin cəlb olunması qaydalarında məlumatların açıq yerləşdirilməsi zərurəti var. Bu, Azərbaycan regionlarında daha çox xarici sərmayənin cəlb edilməsinə kömək edəcək və bu regionda səmərəliliyin artırılması ilə rəqabət qabiliyyətinin yüksəldilməsinə töhfə verəcəkdir. Təklif edirəm ki, İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyi mövcud maliyyə mexanizmlərindəki boşluqların aradan qaldırılması üçün təkliflər planı hazırlasın. Burdakı təkliflər ölkə ərazilərindəki vergi sistemində müəyyən dəyişikliklər, o cümlədən investisiya mühitinin yaxşılaşdırılması sahəsində olmalıdır.

2)Azərbaycan regionlarında kiçik və orta sahibkarlar, habelə aşağı rentabelliyi olan biznes sahələrində vergi tənzimləmələri üzrə dəyişikliklər etməyi təklif edirəm. Bundan əlavə, ərazilərdə müəyyən vergi güzəştləri olmalıdır. Bu müəssisələr bu ərazilərin iqtisadiyyatının genişlənməsində mühüm rol oynayacaqdır.

3) Azərbaycan regionlarında yerləşən dövlət sektoru müəssisələri üzrə şəffaflığın artırılması investisiya cəlbediciliyinə daha çox müsbət təsir edə bilər. Belə ki, Azərbaycan regionlarında kiçik və orta sahibkarlığın rəqabət qabiliyyətinin yüksəldilməsi və onların likvidliyinin artırılması üçün xüsusi investisiya proqramı həyata keçirilməlidir. Kənd təsərrüfatı sənayesinin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş investisiya proqramı hazırlanmasını təklif edirəm. Turizmə, o cümlədən turizm xidmətlərinə, nəqliyyat və infrastruktur obyektlərinə, qonaqpərvərlik və rekreasiya obyektlərinə investisiyaların artırılması üzrə müəyyən addımlar atılmalıdır. Bundan başqa, mədəniyyət, səhiyyə və idmanla bağlı xidmətlər daxil olmaqla xidmət sənayesi müəssisələrinin yaradılması üçün investisiya proqramını hazırlanmasını zəruri etmişdir. Bunun üçün də Azərbaycan regionlarında müəssisələr üçün şəffaflığın artırılması üçün tədbirlər planı hazırlanmasını təklif edirəm.

**Ədəbiyyatlar**


1. Abdullayev S. Q.(2015), "Maliyyə mexanizmi maliyyənin idarə olunması sistemidir", 82 səh.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/.
3. Azəri N., (3 Sentyabr, 2020), "Azərbaycanda həyata keçirilən uğurlu siyasət regionların dinamik inkişafını təmin edib", Yeni Azərbaycan qəzet, səh.7.
4. Bayramov V., (9 İyun, 2020), "Regionların inkişafı əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir". Xalq qəzeti, səh.5.
5. Bogdanski M. "Modern theories of the regional development – a review of some concept, "Oeconomia Copernicana", 2012, № 2 , p 25-41.
6. Gülməmmədova İ.H. (2015), Regionların sosial-iqtisadi inkişafının maliyyə problemləri , "Azərbaycan Dövlət İqtisad Universiteti", 83 səh.
7. Hüseynova X. M. (2010), "Azərbaycanda regional inkişafın idarə olunması problemləri", 376 səh.
8. Qasımlı V., (11 Fevral, 2020), "Prezident İlham Əliyevin rəhbərliyi ilə maliyyə-bank sektorunda inkişafın yeni mərhələsi başlayır", Xalq qəzeti, səh.7.
9. Quliyeva A.E.,"Azərbaycanda regionların perspektiv inkişafı və maliyyə təminatının gücləndirilməsi problemləri",Bakı: Kooperasiya, 2021, 306 səh.
10. Namazova N.V., (2012) "Gömrük vergi mexanizminin təkmilləşdirilməsi yolları", Bakı, 62 səh.
11. Securities and Exchange Commission (2016). "Mutual funds and ETFS-Guide for investors", 52 p.

12. Veronica V.N., Tatiana M.K., Alla G.G., Oleg A.K. & Denis E.G.(2016) “The Budgeting Mechanism in Development Companies”, “International Journal of Environmental & Science Education”, Vol.11 , No. 15, p 7726-7744
13. Болдырева Л. В., & Солонина С.В.. “Влияние банковской системы на социально-экономическое развитие региона. Государственное и муниципальное управление”. Ученые записки, 2016, №(4), стр.70-77
14. Мамедов З.Ф., Велиев Э.Н., Вейсов Е.Н..,”Банковский сектор Азербайджана: новые вызовы и возможности”, Молдова: 2021.104 стр.
15. https://president.az/az/articles/view/54575
16. https://president.az/az/articles/view/55821

# ОЦЕНКА И ФАКТОРЫ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА РЕГИОНОВ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**доцент Кифаят Худавердийева Аслан**

**Азербайджанский Государственный Экономический Университет (UNEC)**

**kifayat60@mail.ru**

**Худавердили Ульвия Рамиз**

**Азербайджанский Государственный Экономический Университет (UNEC)**

**ulviya.alizade@mail.ru**

## Резюме

Инновации и новшества считаются сложным процессом в экономике. Она основывается на слиянии и использовании двух пунктов: технологический и научный потенциал. Одним из главных моментов данного процесса является субсидирование – правильное использование финансовых средств. Эффективный переход к инновационной деятельности в регионах осуществляется при принятии ими новшеств. Способность регионов к реализации нововведений зависит от его инновационного потенциала, а также от ее степени и величины. В статье рассматриваются основные факторы, оказывающие влияние на развитие инновационного потенциала регионов Азербайджана, оценка данного потенциала каждого региона при помощи опроса предпринимателей на основе блок – схем. При помощи инновационной политики и ее оценки правительство создает и определяет роль и место новшеств в хозяйственной деятельности страны, принимает определенные меры и шаги для дальнейшего развития, изучает ее эффективные и нужные направления. На основе реализации этой политика гармонизируются взаимоотношения в экономике правительства. Факторы, оказывающие влияние на инновационный потенциал в регионах реализуют и распространяют нововведения, привлекают ресурсы для их формирования. Итогами данной стать выступают выводы, сделанные при анализе инновационного потенциала регионов.

**Ключевые слова:** инновация, регион, оценка, фактор, потенциал.

## Resume

Innovation is considered to be a complex process in the economy. It based on the fusion and use of two points: technological and scientific potential. One of the main points of this process is subsidizing - the correct use of financial resources. An effective transition to innovation activity in the regions is carried out when they adopt innovations. The ability of regions to implement innovations depends on its innovative potential, as well as on its degree and magnitude. The article discusses the main factors influencing the development of the innovative potential of the regions of Azerbaijan, assessing this potential of each region using a survey of entrepreneurs based on block diagrams. With the help of innovation policy and its evaluation, the government creates and determines the role and place of innovation in the economic activity of the country, takes certain measures and steps for further development, studies its effective and necessary directions. Based on the implementation of this policy, relationships in the government's economy harmonized. Factors influencing the innovative potential in the regions implement and disseminate innovations, attract resources for their formation. The results of this article are the conclusions made in the analysis of the innovative potential of the regions.

Россия, как и весь остальной мир, устремилась к высоким технологиям через цифровую трансформацию экономики. И здесь важно понять, что цифровая трансформация — это не простая замена бизнес-процесса новой технологией на волне «все побежали, и я побежал». Без понимания предпосылок изменений и ответа на вопрос «зачем мы это делаем?» легко потерять смысл перемен и свалиться в автоматизацию ради самой себя, которая не несет никакой экономической ценности. Можно долго перечислять преимущества работы с большими данными, но в финальном счете цифровая трансформация экономики начинается с осмысленной работы с данными и извлечения из них ценности, которая помогает государственной системе быстро перестраиваться в ответ на изменения рыночной конъюнктуры.

Успешные в прошлом решения, методики и подходы в современных условиях необходимо адаптировать под новые вызовы. Например такой гигант как Газпром, даже при всей своей административной поддержке и практически неограниченных возможностях, будет испытывать сильное внешнее неблагоприятное давление со стороны различного рода факторов рыночного и не рыночного характера. И, если компания своевременно не адаптируют свою бизнес-стратегию в соответствии с тенденциями развития в сфере информационных технологий, то в скором времени неминуемо будет терять конкурентоспособность на своих исторических рынках сбыта, что безусловно негативно отразится на ее финансовых результатах, приведет к снижению прибыли, сокращению капитализации, а вместе с этим принесет убытки ее акционерам.

Подобная ситуация касается не только Газпрома. Госкорпорация Роскосмос, в недавнем прошлом монополист по доставке космонавтов и грузов на Международную космическую станцию (МКС), уже столкнулась с подобными проблемами, когда частная компания SpaceX (США) сначала смогла создать многоразовый ракета-носитель, что позволило использовать его повторно в процессе доставки грузов и вывод искусственных спутников на орбиту, а затем сконструировала пилотируемый корабль, на котором успешно отправила астронавтов к МКС. В результате все это привело не только к потере рынка госкорпорации, но и к сильнейшему снижению цен на ее продукцию (услуги).

Тем не менее, статистика показывает, отстающие экономики, извлекающие пользу из инвестиций в науку, образование, фундаментальные и прикладные исследования, со временем не только догоняют, но и могут опережать лидеров. Для этого необходимо использовать свои конкурентные преимущества. Наличие в стране большого количества тех или иных факторов производства (капитала, труда, технологий), как уже было отмечено может быть, как преимуществом, так и отвлекать ресурсы и приводить к неэффективному использованию капитала. Стратегия социально-экономического развития страны, основанная на умном, эффективном (рачительного) использовании факторов производства в своей производственной функции, является главным элементом конкурентоспособности и позволяет повышать благосостояние страны и граждан.

Для оценки конкурентоспособности страны по большому счету можно использовать любые показатели (или их комбинации) тем или иным образом характеризующие уровень социально-экономического развития. Выбор конкретных показателей будет зависеть в первую очередь от стратегических целей и практических задач, стоящих перед руководством страны, а также от ресурсов и компетенций (технологий), накопленных конкретным государством. Одним из таких

показателей, агрегирующий совокупную экономическую добавленную стоимость страны является валовой внутренний продукт (ВВП). Однако сам по себе ВВП, впрочем как и ВВП на душу населения (ВВП, деленный на численность населения), не вполне отражают уровень конкурентоспособности страны при сравнительном анализе с другими странами, поскольку не учитывают долю страны в совокупном мировом балансе. ВВП на душу населения одной конкретной страны демонстрирует некоторый средний уровень благосостояния ее условно среднего представителя. Проводя сравнительный анализ ВВП по ППС (паритету покупательной способности) на душу населения, например такая страна как Китай (Китайская народная республика, КНР) занимает всего лишь 33 место из 42 стран выборки, а Катар 4-е (таблица 1). При этом уровень ВВП по ППС Китая более чем в 93 раза превышает уровень ВВП по ППС Катара, а значит в мировом балансе играет существенно более значимую экономическую роль. Чтобы учесть этот факт достаточно взвесить ВВП по ППС на душу населения по соответствующей доле страны в совокупном мировом ВВП.

**Таблица 1: Рейтинг 2020 г., выборка из 42 стран (в постоянных ценах 2017 г., долл. США)**

| | Итоговый рейтинг, 2020 г. | Общее кол-во баллов | Рейтинг: взвешенный ВВП по ППС на душу населения | Взвешен-ный ВВП по ППС на душу населения (долл. США) | Рейтинг: ВВП по ППС на душу населения | ВВП по ППС на душу населения (долл. США) | Рейтинг: ВВП по ППС | ВВП по ППС (млрд. долл. США) |
|---|---|---|---|---|---|---|---|---|
| **United States** | 1 | 119 | 1 | $9 472,21 | 7 | $59 919,82 | 2 | $19 863,49 |
| **Germany** | 2 | 111 | 3 | $1 750,10 | 10 | $ 51 423,24 | 5 | $4 276,40 |
| **Japan** | 3 | 102 | 4 | $1 620,98 | 19 | $40 232,21 | 4 | $5 062,66 |
| **United Kingdom** | 4 | 99 | 5 | $974,22 | 16 | $42 675,78 | 9 | $2 868,47 |
| **France** | 5 | 95 | 6 | $960,41 | 18 | $42 320,52 | 10 | $2 851,55 |
| **China** | 6 | 93 | 2 | $2 989,15 | 33 | $16 315,82 | 1 | $23 020,46 |
| **Korea, Rep.** | 7 | 90 | 8 | $739,39 | 17 | $42 335,87 | 14 | $2 194,53 |
| **Canada** | 8 | 90 | 10 | $642,34 | 14 | $46 064,25 | 15 | $1 752,16 |
| **Russian Federation** | 9 | 88 | 7 | $816,03 | 28 | $26 456,39 | 6 | $3 875,69 |
| **Italy** | 10 | 88 | 9 | $722,33 | 20 | $39 073,42 | 12 | $2 322,90 |
| **Saudi Arabia** | 11 | 86 | 11 | $544,42 | 15 | $44 328,18 | 17 | $1 543,24 |
| **Australia** | 12 | 85 | 14 | $484,53 | 12 | $48 678,68 | 18 | $1 250,71 |
| **Singapore** | 13 | 85 | 17 | $394,72 | 2 | $93 397,05 | 25 | $531,04 |
| **Netherlands** | 14 | 84 | 16 | $409,64 | 8 | $54 324,38 | 21 | $947,50 |
| **Turkey** | 15 | 79 | 12 | $541,12 | 27 | $28 393,47 | 11 | $2 394,68 |
| **Switzerland** | 16 | 79 | 21 | $324,92 | 5 | $68 755,44 | 24 | $593,81 |
| **Spain** | 17 | 77 | 13 | $494,25 | 23 | $36 210,87 | 16 | $1 715,07 |
| **Ireland** | 18 | 77 | 19 | $327,05 | 3 | $90 789,22 | 30 | $452,65 |
| **India** | 19 | 69 | 15 | $417,52 | 42 | $6 165,75 | 3 | $8 508,76 |
| **Brazil** | 20 | 69 | 18 | $334,60 | 34 | $14 063,98 | 8 | $2 989,43 |
| **Sweden** | 21 | 68 | 24 | $213,67 | 11 | $50 923,11 | 26 | $527,23 |
| **Austria** | 22 | 66 | 25 | $190,84 | 9 | $51 857,69 | 29 | $462,41 |
| **Norway** | 23 | 65 | 26 | $172,89 | 6 | $63 548,00 | 32 | $341,85 |

| | Итоговый рейтинг, 2020 г. | Общее кол-во баллов | Рейтинг: взвешенный ВВП по ППС на душу населения | Взвешенный ВВП по ППС на душу населения (долл. США) | Рейтинг: ВВП по ППС на душу населения | ВВП по ППС на душу населения (долл. США) | Рейтинг: ВВП по ППС | ВВП по ППС (млрд. долл. США) |
|---|---|---|---|---|---|---|---|---|
| **Mexico** | 24 | 64 | 20 | $327,02 | 32 | $17 852,36 | 13 | $2 301,75 |
| **Qatar** | 25 | 64 | 27 | $166,79 | 4 | $85 290,45 | 34 | $245,73 |
| **Poland** | 26 | 63 | 22 | $316,60 | 25 | $32 398,70 | 19 | $1 227,88 |
| **Indonesia** | 27 | 58 | 23 | $285,13 | 41 | $11 444,96 | 7 | $3 130,47 |
| **Luxembourg** | 28 | 56 | 34 | $63,56 | 1 | $112 557,31 | 38 | $70,96 |
| **Finland** | 29 | 52 | 31 | $97,85 | 13 | $47 154,43 | 33 | $260,74 |
| **Argentina** | 30 | 49 | 28 | $140,02 | 30 | $19 690,66 | 22 | $893,50 |
| **Israel** | 31 | 47 | 30 | $111,87 | 21 | $39 056,42 | 31 | $359,91 |
| **Egypt, Arab Rep.** | 32 | 40 | 29 | $116,33 | 40 | $11 951,45 | 20 | $1 223,04 |
| **Kazakhstan** | 33 | 40 | 32 | $96,01 | 29 | $25 363,17 | 28 | $475,67 |
| **South Africa** | 34 | 36 | 33 | $75,72 | 37 | $12 665,83 | 23 | $751,19 |
| **Lithuania** | 35 | 34 | 36 | $30,63 | 22 | $37 107,06 | 37 | $103,71 |
| **Ukraine** | 36 | 28 | 35 | $50,88 | 39 | $12 375,92 | 27 | $516,64 |
| **Belarus** | 37 | 26 | 37 | $27,48 | 31 | $19 186,78 | 35 | $179,97 |
| **Latvia** | 38 | 25 | 39 | $13,70 | 26 | $30 100,27 | 39 | $57,20 |
| **Estonia** | 39 | 24 | 40 | $13,15 | 24 | $35 257,16 | 41 | $46,87 |
| **Azerbaijan** | 40 | 19 | 38 | $15,14 | 36 | $13 726,77 | 36 | $138,55 |
| **Georgia** | 41 | 13 | 41 | $5,78 | 35 | $13 966,33 | 40 | $51,99 |
| **Armenia** | 42 | 7 | 42 | $3,76 | 38 | $12 619,89 | 42 | $37,40 |

**Источник:** Всемирный банка (The World Bank), https://databank.worldbank.org/ (20.04.2022)

Анализируя представленные в таблице 1 расчеты, можно заметить, что по показателю Взвешенный ВВП по ППС на душу населения, Китай поднялся с 33 (без взвешивания) на 2 место в рейтинге, а США по этому показателю занимают 1 место и намного опережают все остальные страны, а именно разрыв от ближайшего преследователя Китая составляет более чем в 3 раза.

Далее можно составить общий рейтинг стран одновременно по трем показателям и тем самым получить более общую картину конкурентоспособности рассматриваемой выборки стран по оцениваемым показателям. Общий рейтинг стран в конкретном году можно рассчитать например по следующей формуле (1):

$$S_i = \sum_{j=1}^{m} (n + 1 - k_{ij}) \qquad (1)$$

$S_i$ — общее количество набранных баллов $i$-й страны в итоговом рейтинге ($i$ = 1,2,…$n$);
$n$ — общее количество стран;
$m$ — общее количество показателей, по которым оцениваются страны;
$k_{ij}$ — $k$-е место $i$-й страны по $j$-му показателю.

Формула 1 была составлена автором по аналогии со спортивным принципом, а именно страна, у которой больше значение оцениваемого показателя, получает более высокое место в рейтинге по

этому показателю и соответственно большее количество баллов. Баллы распределяются 1,2,…$n$, где $n$ — число ранжируемых стран. Таким образом максимальный балл, равный $n$, получает страна, занявшая 1-е место, а минимальный 1 балл — соответственно страна, занявшая последнее $n$-е место по оцениваемому показателю. Далее для каждой страны баллы суммируются и составляется итоговый рейтинг, как сумма баллов по всем оцениваемым показателям. Если в итоговом рейтинге несколько стран набирают одинаковое количество баллов, то более высокое место получает страна, у которой выше балл за более приоритетный (важный) показатель. Приоритетность показателей определяется отдельно составителем рейтинга, например Методом экспертных оценок или на основании корреляционного анализа.

На рисунке 1 представлена динамика рейтинга конкурентоспособности стран за 31 летний период, начиная с 1990 по 2020 гг. Рейтинг составлен автором на основе формулы 1 по трем показателям: Взвешенный ВВП по ППС на душу населения, ВВП по ППС на душу населения, ВВП по ППС (показатели указаны в порядке их приоритетности). Это было сделано для того, чтобы снять перекос конкретной страны в сторону одного из показателей и тем самым получить более общую картину об изменении конкурентоспособности конкретной страны. Расчеты были выполнены автором в Python. Проводя визуальный анализ, не трудно заметить, что часть стран усилили свои конкурентные позиции за рассматриваемый период, часть их потеряла, а у остальных практически не изменилась. При этом бессменным лидером данного рейтинга, начиная с 1990 г., являются США, а такие страны как Китай (в особенности), Южная Корея, Сингапур, Индия и Ирландия показали существенный рост конкурентоспособности. Полученные результаты требуют дальнейшего анализа с учетом дополнительных факторов, которые могут быть включены в анализ.




**Рисунок 1: Рейтинг конкурентоспособности стран по трем показателям (Взвешенный ВВП по ППС на душу**

**населения, ВВП по ППС на душу населения, ВВП по ППС)**

**Источник:** Всемирный банка (The World Bank), https://databank.worldbank.org/ (20.04.2022)

## Результаты

По результатам проведенного исследования, можно предположить, что Взвешенный ВВП на душу населения точнее отражает конкурентоспособность страны на мировом рынке за счет учета доли страны в мировом балансе, чем без взвешивания. При этом США по показателю Взвешенный ВВП на душу населения в 2020 г. значительно опережали другие страны из рассматриваемой выборки. Ближайший преследователь Китай, по данному показателю отстает от США более, чем в 3 раза, хотя и является мировым лидером отдельно по показателю ВВП по ППС. За рассматриваемый 31 летний период, начиная с 1990 г., США ни разу не теряли лидерство в смешанном рейтинге, рассчитанном по формуле 1 по трем показателям: Взвешенный ВВП по ППС на душу населения, ВВП по ППС на душу населения, ВВП по ППС.

Использованный в статье подход расчета смешанного рейтинга может быть использован в качестве базового для дальнейших исследований конкурентоспособности стран.

## Список Источников


1. Бланшар, О. (2015). Макроэкономика 3-е изд., Пер. с англ.: Высшая школа экономики. Высшая школа экономики.
2. Портер, М. Э. (2005). Конкуренция. Пер. с англ. - М. Вильямс. 608.
3. Фатхутдинов, Р.А. (2009). Глобальная конкурентоспособность. М.: Стандарты и качество. 463.
4. Капелюшников, Р.И. (2017). Технологический прогресс - пожиратель рабочих мест? Вопросы экономики No 11. 111-140. doi: 10.32609/0042-8736-2017-11
5. Кондратьев В.Б., Егоров А.С., Аукуционек С.П., (2013). Оценки конкурентоспособности стран. Мировая экономика и международные отношения No 2. 12–25. doi: 10.20542/0131-2227-2013-2-12-25
6. РосБизнесКонсалтинг (РБК). Индустрия 4.0. Дата обращения Апрель 24, 2020, https://www.rbc.ru/trends/industry
7. www.worldbank.org. Дата обращения Апрель 24, 2022, https://databank.worldbank.org/

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TƏBİİ EHTİYYATLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ

**Piriyev Xaliq**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**xpiriyev@mail.ru**

## Xülasə

Ümumiyyətlə hər bir ərazidə dayanıqlı inkişaf təmin olunarkən o ərazidə zəruri olan iqtisadi amillər formalaşmalıdır. Azad edilmiş ərazilkərin ən böyük potensialı, düzgün təşkil olunarsa, turizm ilə bağlı olacaqdır.Dünya təcrübəsindən istifadə olunaraq bölgədə birinci dəfə olaraq müasir standartlara cavab verən eksperimental layihələrin icra olunması reallaşdırılacaq. "Yaşıl enerji" zonası və "Ağıllı kənd" pilot layihəsi bu layihələr sırasında öndə dayanır.

Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş bölgələrdə dayanıqlı inkişafın təmin olunması üçün bütün perspektivlərin araşdırılmasıdır.

İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı sistemli yanaşma, statistik qruplaşdırma, normativ yanaşma, bundan başqa, deduksiya, induksiya, analiz və axtarış metodlarından istifadə edilmişdir.

Tədqiqatın informasiya bazasının formalaşmasını azad edilmiş ərazilərdəki perspektivlər haqqında görkəmli sosioloq alimlərin əsərləri, tədqiatçıların məcmu əsərləri, son zamanların yerli və xarici ədəbiyyatlarındakı məlumatları, dövlətin müvafiq qanunverici və normativ-hüquqi aktları və ən asas da internet resursları təşkil edəcəkdir.

Tədqiqatın məhdudiyyəti kimi onu göstərə bilərik ki, mövzu ilə bağlı ədəbiyyatların azlıq təşkil etməsi, yəni ki, Qarabağ və ətraf rayonların işğalçılıq siyasəti olaraq 30 il ərzində tam tədric olunmuş halda saxlanılması əsas məhtudiyyətlərdəndir.

**Açar sözlər:** Davamlı inkişaf, İqtisadiyyat, Perspektiv, Ehtiyat, Potensial imkanlar

## Abstract

In general, while ensuring sustainable development in each area, the necessary economic factors must be formed in that area. The greatest potential of the liberated area, if properly organized, will be related to tourism. For the first time in the region, experimental projects meeting modern standards will be implemented using world experience. The Green Energy Zone and the Smart Village pilot project are among the leading projects.

The main purpose of the study is to explore all the prospects for sustainable development in the liberated areas.

Systematic approach, statistical grouping, normative approach, as well as deduction, induction, analysis and search methods were used during the research.

As a limitation of research, we can point out that one of main limitations is the lack of literature on the subject, ie the fact that Karabakh and the surrounding regions have been kept in a state of complete graduation for 30 years as policy of occupation.

The formation of the research database will be based on the works of prominent sociologists on the prospects of the liberated territories, a collection of works by researchers, recent information in local and foreign literature, relevant state legislative and regulatory acts and, most importantly, Internet resources.

**Keywords:** Sustainable Development, Economy, Perspective, Reserve, Potential Opportunities.

## Giriş

Ümumiyyətlə hər bir ərazidə dayanıqlı inkişaf təmin olunarkən o ərazidə zəruri olan iqtisadi amillər formalaşmalıdır. Qarabağ regionunun öz əhalisini, öz infrastrukturunu təmin etmək üçün yetərincə iqtisadi potensialı vardır. Bu potensialı aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- Turizm sənayesinin inkişaf etdirilməsi;
- Təbii ehtiyatların istehaslının təşkil olunması;
- Kənd təsərrüfatının inkişafı;
- Tikinti və meşə sənayesinin inkişaf etdirilməsi;
- Yeni iş yerlərinin açılması və s.

Azad edilmiş ərazilkərin ən böyük potensialı, düzgün təşkil olunarsa, turizm ilə bağlı olacaqdır. Bu ərazilərdə turizmin bir çox növü üçün o cümlədən də tibb turizmi üçün böyük potensial vardır. Bu ərazilərin

turizm gəlirləri ölkəmizin bu vaxta qədər qazandığı turizm qazanclarından daha çox ola bilər, burada söhbət ən azı 1,5-2 mlrd. dollardan gedir.

Qarabağ regionun iqtisadi potensialı müəyyən olunarkən, onu da vurğulamaq lazımdır ki, belə münbit torpaqları olan yerlərdə kənd təsərrüfatının hər iki növünün inkişafı üçün əlverişli mühit vardır. Gələcəkdə icra olunacaq işlərin sürətinin maksimum artırılması üçün, şəraitin daha da yaxşılaşdırılması üçün dünya standartlarına cavab verən bir neçə aeroportun qurulması, başlanğıc icra olunmalı layihələrdən biridir. Hər bir inzibati rayonun ayrı-ayrılıqda coğrafi mövqeyinə görə işlərin görülməsi nəzərə alınmışdır. Ən birinci layihələrin icra edilməsi üçün təyin edilən investisiyalara uyğun olaraq bir çox beynəlxalq şirkətlər ilə yeni-yeni müqavilələrin bağlanması bu regiona və burada görüləcək işlərin böyüklüyündən və vacib olmasında irəli gəlir.

Dünya təcrübəsindən istifadə olunaraq bölgədə birinci dəfə olaraq müasir standartlara cavab verən eksperimental layihələrin icra olunması reallaşdırılacaq. "Yaşıl enerji" zonası və "Ağıllı kənd" pilot layihəsi bu layihələr sırasında öndə dayanı.

Tədqiq edilən, araşdırılan azad edilmiş torpaqların dayanıqlı inkişafı ilə bağlı mövzu hal-hazırki vaxtda Azərbaycan və bu ərazilərə investisiya yatırımı etmək istəyən xarici investorlar üçün ən aktual və əhəmiyyətli məsələ olduğu üçün, aparılan araşdırmalar onu göstərir ki, qeyd olunan mövzu əsasən yerli alimlər, sosioloqlar , iqtisadçılar və s. tərəfindən demək olar ki, davamlı olaraq tədqiq olunur.

Tədqiqat işinin məqsədi ondan ibarətdir ki, azad edilmiş torpaqlarda dayanıqlı inkişafın müyyən olunması və bu prosesdə dövlətin rolu üzrə, dəstəyi üzrə xarici təcrübədən və yeni metodlardan istifadə olunaraq onların həll edilməsinə dair təkliflərin və tövsiyələrin hazırlanması təşkil edilsin. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı inkişafın perspektivləri mövzusunda dissertasiya işinin önündə müvafiq vəzifələrin icra olunması durur ki, bu vəzifələri aşağıda verilən kimi qruplaşdırmaq olar:

• Təbii ehtiyyatlardan istifadə olunmanın səmərəliliyində dövlətin rolunun ön plana dayanması;
• Resurslardan səmərəli istifadə edilməsi və dayanıqlı inkişafın elementlərinin müyyən olunması;
• Turizm sənayesinin hər bir növünün ayrı-ayrılıqda araşdırılması;
• Təbii resursların səmərəli istifadə olunması üzrə planlaşdırma işlərinin aparılması, bərpa-quruculuq işlərinin edilməsi və islahatının aparılması;
• Təbii resurslardan istismar üsulunun təkmilləşdirilməsi ilə səmərəliliyin yüksəldilməsi üsulları və bu ərazilərin bərpa olunmasının iqtisadi aspektlərinin müəyyən olunması;
• Ekoloji baxış və bu ərazilərin eko sisteminin təhlil olunması;
• İnfrastruktur sahələrində köhnənin bərpası və yeninin yaradılması;
• Təbii resursların emal olunmasının səmərəliliyinin icra edilməsində dövlətin önündə duran əsas vəzifələrin seçilməsi;

Tədqiqat işinin nəzəri metodoloji əsaslarını bu sahə üzrə görkəmli sosioloq alimlərin əsərləri, tədqiatçıların məcmu əsərləri, son zamanların yerli və xarici ədəbiyyatlarındakı məlumatları, Azərbaycan respublikasının müvafiq qanunverici aktları və normativ-hüquqi aktları və ən asas da internet resursları təşkil edəcəkdir. Tədqiqat işinin prosesində empirik tədqiqat metodlarından (müşahidə metodu, eksperiment), həmçinin nəzəri tədqiqat metodlarından (ümumiləşdirmə, müqayisə etmə, sistemləşdirmə, qruplaşdırma, təhlil və başqa) metodlardan ümumilikdə geniş istifadə ediləcəkdir.

**Tədqiqat Metodu**

Məqalənin yazılmasında müqayisəli, analitik, sistemli yanaşma, konseptləşdirmə və statistik analiz tətbiq edilib, bununla yanaşı iqtisadçı alim və araştırıcıların müxtəlif fikirləri, xarici və yerli kitablar və digər mənbələrdən istifadə olunmuşdur. Bu tədqiqat işinin aparılması zamanı araşdırmada bir neçə fərqli

metoddan (analiz-sintez ,induksiya-deduksiya) metodlarından istifadə olunub. Analiz metodu istifadə edilən zaman mövzu başlığı götürülüb və altbaşlıqlara bölünərək ayrı-ayrılıqda təhlil olunub, mahiyyəti üzə çıxarılmışdı.

Daha sonra isə sintez metodundan istifadə edilərək onlar iqtisadi sistem üzrə birləşdirilmişdir. İnduksiya metodunun vasitəsilə isə öncə azad edilmiş bölgələrə aid sənədlər və faktlar toplanır sonra isə seçilərək sistemləşdirilir. İnduksiya metodun ən əsas vəzifəsi toplanmış faktların ümumi bir yerə gətirilməsi və izahının verilməsidir. Sonra isə toplanmış bütün faktlar əsasında ümumi prinsiplər, vacib tövsiyyələr, nəzəri nəticələr hazır edilir. Bu, deduksiya metodudur. Nəhayət, deduksiya metodu və induksiya metodunun tətbiq edilməsinin nəticəsi olaraq nəzəriyyədən faktlara sonra isə faktlardan ümumiləşdirməyə keçid olunur. Bununla yanaşı tədqiqat zamanı ümumiləşdirmə və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Analiz**

2020-ci il sentyabrın sonu başlayan il 44 günlük Vətən müharibəsində azad olunana torpaqlarda zəruri infrastrukturun yaradılması fərqli istiqamətləri əhatə edir. Yeni, müasir yol-nəqliyyat infrastrukturu azad edilmiş torpaqlara gediş-gəlişi və yüklərin təyinatı üzrə daşınmasını asanlaşdıracaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edərkən beynəlxalq hava limanında davam etdirilən tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Füzuli Beynəlxalq Hava Limanının təməli 2021-ci ilin yanvarında Prezident İlham Əliyevin şəxsən iştirakı ilə qoyulub. Limanda uçuş-enmə zolağının inşası 2021-ci ilin sonlarında tamamlanmışdır. Bundan əlavə , bir qədər bundan qabaq yenə də Prezidentin iştirakı ilə Zəngilanda beynəlxalq hava limanının təməlqoyma mərasimi olmuşdur (https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.htm).

Azərbaycanın tarixi ədaləti bərpa edərək, öz torpaqlarını azad etməsi haqda məlumatlara keçməzdən öncə bu torpaqların işğal vaxtı haqda olan məlumatlara qısa nəzər salaq. Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min kvadrat kilometr ən məhsuldar ərazilərininc işğal edilməsinə, 9 yüz yaşayış məntəqəsinin, 150 min evin, 7 min ictimai binanın, 856 uşaq bağçasının, 928 kitabxananın, 694 məktəbin, 696 tibb müəssisələrinin, 45 məbədin, 9 məscidin, 40 min muzey eksponatlarının, 474 tarixi abidələr, muzeylər və sarayların, 6 min sənaye və kənd təsərrüfatı yönümlü müəssisələrinin, 160 körpünün, 2300 kilometr su kommunikasiyalarının, 2,6 min kilometr avtomobil yollarının, 2 min kilometr qaz kommunikasiyalarının, 15 min kilometr elektrik xətlərinin, 1 milyon hektar kənd təsərrüfatı üçün yararlı olan torpaqların, 280 min hektar meşələrin və 1,2 min kilometr irriqasiya sistemlərinin məhv edilməsinə səbəb olmuşdur. Mənfur düşmən ermənistanın hərbi təcavüzünün nəticəsi olaraq 20 min nəfər Azərbaycan vətəndaşı həlak olmuş, 100 mindən çox yaralanmış, 50 min nəfərdən çox müxtəlif dərəcəli bədən xəsarətləri alaraq əlil olmuş, 4011 şəxs isə itkin düşmüşdür.

Erməni qəsbkarları işğal etdikləri torpaqlarda dövlətimizin mədəni irsini təşkil edən müxtəlif mədəniyyət obyektlərini amansızcasına məhv etmişlər. Ələ keçirdikləri torpaqlarda onlar 12 muzeyi, 6 rəsm qalereyasını, yüksək tarixi əhəmiyyətli 9 sarayı talan etmiş və yandırmışdılar. Nadir tarixi əhəmiyyəti olan 40 min muzey eksponatı və sərvəti talan edilmiş, 45 məbəd və 9 məscid təhqir olunmuşdur. Dağıdılan və tamamilə yandırılan 928 kitabxanada 4,6 milyon kitab və əlyazma nümunələri məhv olunmuşdur.

Azad edilmiş ərazilərdə daha bir yeni beynəlxalq hava limanının inşa edilməsi isə Laçın ərazisində nəzərə alınıb. Bu beynəlxalq hava limanları ayrı-ayrı müxtəlif magistrallarla inteqrasiya ediləcək. Nəhayət, dövlətimizin digər guşələrindən, o cümlədən xarici dövlətlərdən azad edilmiş torpaqlarımıza gediş-gəliş və yüklərin çatdırılması asanlaşacaq (Soltanov,2016).

Ümumilikdə, azad edilmiş bölgələrdə yüksəksəviyyəli yol-nəqliyyat infrastrukturunun yenidən yaradılması ilə bağlı statistik göstərici kifayət qədər zəngindir. Ali Baş Komandan İlham Əliyev imzaladığı sərəncamlar ilə azad edilmiş bölgələrdə çoxlu sayda avtomobil yollarının qurulması məqsədi ilə böyük məbləğlərdə maliyyə vəsaitləri ayırmışdır. Hal-hazırda Əhmədbəyli-Füzuli-Şuşa yolunda, həmçinin Zəfər yolunda işlər sürətlə davam etdirilir. Nəzərinizə çatdıraq ki, İkinci Qarabağ müharibəsində qəhrəman hərbçilərimiz Azərbaycan xalqı üçün dəyərli olan Şuşaya Zəfər yolunun keçdiyi yerlərdən daxil olublar və misilsiz qəhrəmanlıqlar göstərərək Şuşa şəhəri azad ediblər. Uzunluğu 81 km olan Əhmədbəyli-Füzuli-Şuşa yolu 4 və 6 hərəkət zolağından ibarətdir. Zəfər yolunun ümumi uzunluğu isə 101 kilometrdir. Hər iki yol qırağınca tunellər, yeni körpülər inşa edilir , bütün lazimi infrastruktur yaradılır. Zəfər yolunun Xocavənd rayonuna düşən hissəsində yeni körpü inşa olunur. Quruçay üzərində 86 metrdən ibarət olan üçaşırımlı körpünün inşa edilir (Soltanov,2016).

Azad olunan torpaqlarımızda görülən bütün bərpa-quruculuq işləri kimi, burada da infrastruktur layihələrin quruluşu intensiv sürət ilə aparılır və yol istifadəyə verilənədək bu körpünün hazır olması nəzərdə tutulub. Ölkə Prezidenti İlham Əliyev bəhs edilən səfəri müddətində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltıdan keçən hissəsində inşa ediləcək tunelin təməlini qoyub. Bu tunelin texniki göstəriciləri yüksək səviyyədədir. Yol uzunu, ümumilikdə, iki tunel inşa olunacaq və onların hər biri ayrı-ayrılıqda ikizolaqlı olacaqdır. Tunellərin eni 12 metr, uzunluğu isə 530 metr təşkil edəcəkdir (https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.html).

Əvvəlki vaxtlarda olduğu kimi, azad olunan ərazilərə geri dönən insanların davamlı təhlükəsiz yaşayışı təmin olunmalı, bu bölgələr Azərbaycanın ən abad, dilbər guşələrindən birinə çevrilməlidir. 21-ci əsrdə müasir həyatın əsasını təşkil edən layiqli yaşayışın bərpa edilməsi üçün bütün sahələrdə yenidən quruculuğa nail olunmalıdır. Bu quruculuq işləri, stimullar əsasında, dövlət və özəl tərəfdaşlığının birgə inkişafı çərçivəsində reallaşdırılmalıdır. Yalnız belə olduğu halda azad edilən torpaqların Azərbaycanın Dövlətinin parlaq gələcəyinə tam inteqrasiya olunmasını təmin etmək mümkündür (Bilalov,2015).

Bu prioritetin uğurla gerçəkləşdirilməsi üçün aşağıda göstərilən iki məqsədə nail olunmalıdır:

1. Daimi dayanıqlı məskunlaşma;
2. İqtisadi fəaliyyətə reinteqrasiya.

**Nəqliyyat sektoru**

Azad edilmiş torpaqların bərpası istiqamətində atılan başlanğıc addımlar avtomobil yollarının yenidən çəkilməsi oldu. İşğaldan azad edilmiş ərazilərin bərpasına aparan "Böyük Qayıdış" proqramının ilk mərhələsi azad edilmiş torpaqlarda yeni yol-nəqliyyat infrastrukturunun qurulmasıdır. İcra olunan nəqliyyat layihələri Cənub, Şimal və Şərq istiqamətlərindən Qarabağ zonasına hərəkət etmək üçün imkan yaradacaqdır. İcra olunan və ya icra edilməsi planlaşdırılan avtomobil yolları , hava limanı və dəmiryolu layihələrini ayrılıqda bir-bir incələyək (Soltanov,2016):

Talış və Suqovuşan avtomobil yolu: İcraolunmasına başlanılan layihələrdən biri Talış və Suqovuşana gedən avtomobil yollarının təzədən bərpası oldu. Hələ döyüşlərin qızğın vaxtında bu yolların inşasına başlanıldı. Bu yolun Tərtərdən Suqovuşan kəndinə kimi olan hissəsi 21 kilometr, Suqovuşan kəndindən Talış kəndinə tərəf uzanan hissəsi isə 7,5 kilometrdir. İki böyük hərəkət zolağından ibarət yolun asfalt-beton örtüyünün eninin ölçüsü 9 metrdir və artıq bu yollar ikinci texniki dərəcəyə uyğun birinci mərhələ üzrə bərpa olunub. Sonrakı mərhələdə isə Çaylıdan Talışa kimi uzunluğu 8 km olan yolun, habelə Talış kəndindən Naftalana doğru 22 km məsafəyə malik təzə yolun inşa olunması da planlaşdırılır. Yuxarıda adını çəkdiyimiz avtomobil yollarının birləşdirilməsinin nəticəsi olaraq Tərtər şəhəri ilə birlikdə, alternativ olaraq Naftalandan da Suqovuşan və Talış istiqamətində getmək mümkün olacaqdır.

Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu: Digər yüksək səviyyədə əhəmiyyət kəsb edən avtomobil yolu isə Əhmədbəyli–Füzuli–Şuşa yoludur. 17 noyabrın 2020-ci ildə Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və yenidən tikintisi ilə bağlı tədbirlər barədə sərəncam imzalanmışdır. Bu sərəncama görə Prezidentin ehtiyat fondundan 50 milyon manat Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmışdır. Yolun uzunluğu 101.5 kilometr, eni isə 37.7 metr olması nəzərdə tutulur və ən geci 2022-ci ilin sonuna hazır olması qarşıya qoyulmuşdur. Bu yolu Füzulidə hava limanı ilə əlaqələndirmək üçün isə yolun 27-ci kilometrində hava limanına giriş və yol qovşağının inşa edilməsi 2022-ci ildə başa çatmışdır.

Yolun simvolik məna verən hissəsi “Füzuli-Şuşa” avtomobil yoludur. Füzuli-Şuşa yolu Topxana meşələrindən keçməklə Daşaltı kəndinə çatır, oradan isə Şuşaya birləşir. Buradan İsa bulağına dörd zolaq və altı zolaqdan ibarət yol da çəkilmişdir.. Füzuli-Şuşa yolu Azərbaycanın qəhrəman əsgərlərinin Qarabağın mərkəzinə, ən əsas da Şuşaya doğru canı,qanı bahasına irəlilədikləri yoldur. Elə bu səbəbdən də cənab prezident bu yolu “Qələbə Yolu” deyə adlandırmışdır (Soltanov,2016).

Toğanalı - Kəlbəcər avtomobil yolu: Toğanalı-Kəlbəcər yolunun şimal istiqamətində çəkilişi davam edir. Qeyd etdiyimiz yol Göygölün Toğanalı kəndindən başalyıb, Murov silsiləsindən keçərək, Kəlbəcər, İstisu, Laçın istiqamətində inşa olunacaqdır. Bu yolun ümumi uzunluğu təqribi 190 kilometr hesablanmışdır. Toğanalıdan Kəlbəcər istiqamətində çəkilən hissəsi 74 kilometr, Kəlbəcər-İstisu istiqamətində çəkilən 28 kilometr, Kəlbəcərdən Laçın istiqamətinə isə 87 kilometr təşkil edir. Toğanalı-Kəlbəcər yolu iki və üç zolaqlı olması nəzərdə tutulub.

Bu layihənin 16 kilometrliyindən çox sərt yamaclı Murov silsiləsi başlanır və bu silsilənin bəzi hissələrində yolun keçəcəyi elə yerlər varki 3500 metr yüksəklikdən keçir. Bu isə öz növbəsində qış vaxtı bu yolda həm çətinliklər törədəcək, həm də təhlükə yaradacaqdır. Bu problemin həll olunması üçün tunellərin tikintisi davam etdirilir. Tikinti prosesi davam edən bu tunellərin ümumi uzunluğu təqribi olaraq 10-12 kilometr olacağı nəzərdə tutlub. Tunellərdə hərəkət zolaqlarının 4-ə qədər çatdırılması planlaşdırılır (https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc).

**Dəmir yolları**

Hal-hazırda Avtomobil yolları ilə birgə bərpa və yenidən qurma prosesində dəmiryollarının da inşa edilməsi, yenidən qurulması işləri görülür. Nəzərdə tutulan dəmiryollarından biri də Bərdə-Ağdam dəmir yoludur və bu yol şərq tərəfdən Qarabağa doğru hərəkət etməyə şərait yaradır. Bu dəmir yolu xətti torpaqların işğalından qabaq istifadə olunmuş və 104 kilometr məsafəlik Yevlax-Xankəndi dəmir yolunun bir parçasıdır. Hal-hazırda bu yolun Bərdə rayonundan başlayaraq Ağdam rayonuna qədər uzanan 45 km-lik hissəsi tamamilə yenidən qurulur. Bu dəmir yolu xəttinin yenidən layihələndirmə və tikinti işlərinin ümumilikdə iki mərhələdə icra olunması nəzərdə tutulur. Birinci mərhələdə Bərdə-Təzəkənd istiqamətində 19 km, sonrakı mərhələdə isə Təzəkənd-Ağdam istiqamətdə 26 kilometrlik dəmiryolu yolu bərpa olunur. Bu yolun tikilib yenidən qurulması üçün dövlət tərəfindən 2021-ci ildə 5 mln manat ayrılmışdır.

Bununla yanaşı azad edilmiş torpaqlarda Horadiz-Füzuli və Füzuli-Şuşa dəmir yolu xəttləri də çəkiləcəkdir. Şuşa şəhərinin Qarabağ regionunda önəmli turizm və mədəniyyət mərkəzinə çevrilməsi planda tutulduğundan avtomobil yolu ilə birgə Şuşa şəhərinə dəmiryolu da çəkiləcəkdir. Başqa inşa olunması nəzərdə tutulan dəmir yolu xətti layihəsi isə Horadiz-Ağbənd xəttinin təzədən tikilməsidir. Horadiz-Ağbənd yolu indiki Ermənistan ərazisi olub tarixən Azərbaycanın olan hissədən keçməklə Naxçıvan MR-ə gedən Zəngəzur dəhlizinin ən önəmli komponentlərindən biridir (Soltanov,2016).

**Hava limanları**

Azad olunmuş torpaqların sürətli inkişafının təşkil olunması və turizm potensialının tam olaraq gerçəkləşdirilməsi məqsədi ilə hava limanlarının da tikilməsi nəzərdə tutulur. Birinci hava limanı layihəsi Beynəlxalq Füzuli Hava Limanının layihəsidir. 14 yanvar 2021-ci ildə təməli qoyulan Füzuli hava limanı 16 oktyabr 2021-ci ildə Azərbaycan və Türkiyyə Respublikalarının liderlərinin şəxsən iştirakı ilə istifadəyə verilmişdir. Bu beynəlxalq hava limanı müasir standartlara cavab verən infrastruktur ila təchiz olunmuşdur. Limanın uçuş-enmə zolağının ümumi uzunluğu 2,8 kilometrdir. Yeni hava limanının ən önəmli məqsədi xarici qonaqların və xarici turistlərin işğaldan azad olunmuş torpaqlara, ən əsas da Şuşaya gəlməsini təmin etməkdir. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, buradan Füzuli-Şuşa avtomobil yolu ilə çox rahat Şuşaya gedə biləcəklər. Bununla yanaşı işğaldan azad olunmuş torpaqlarda iki hava limanın inşası nəzərdə tutulmuşdur. Bu hava limanlar Zəngilan rayonun və Laçın rayonunun ərazisində tikiləcəkdir.

**Enerji sektoru**

Ən əsas məqsəd işğaldan azad olunmuş ərazilərdə yeni, müasir standartlara cavab verən kompleks enerji sisteminin yaratmaq və dövlətin ümumi enerji sisteminə inteqrasiya etməkdir. 2021-ci ildəbaşlanğıc olaraq “Azərenerji” və “Azərişıq” Şuşaya iki elektrik enerjisi xətti çəkildi. Bununla yanaşı “Azərişıq” tərəfindən azad olunmuş torpaqlardac xüsusi dövlət əhəmiyyətli infrastrukturun elektrik enerjisi ilə təcili təmin edilməsi məqsədi ilə “Azərişıq Qarabağda” yeni layihəsi reallaşdırılır.

Bu proseslər ilə bərabər işğaldan azad olunmuş torpaqlarda əvvəllər qurulmuş SES-lərin da bərpa edilməsi və yenidən qurulması işləri həyata keçirilir. İkinci Qarabağ müharibəsi dövründə Ermənilər azad edilən torpaqlarda mövcud olan kiçik SES-ləri məhv edərək bütün işə yararlı olan avadanlıqlarını söküb aparıblar. Apara bilmədiklərini isə mənfur xislətlərinə uyğun olaraq yandırıb və ya partladıblar. Nəhayət, yekun olaraq azad olunmuş torpaqlarda olan su elektrik stansiyalarıı yararsız hala düşmüşdür. Onun üçün də ilk olaraq o stansiyaların bərpası prosesi həyata keçirilir (Bilalov,2015).

Bu stansiyalardan biri, Laçın rayonunda yerləşən və 8 meqavat gücə sahib olan “Güləbird” su elektrik stansiyası artıq istismara verilmişdir. 14 fevral 2021-ci il tarixdə Prezident İlham Əliyev SES-in açılışını etmişdir. Güləbird stansiyası təxminən 7-8 min nəfərin elektrik enerjisi ilə təmin olunmasına şərait yaradacaqdır. Bu stansiyasında istehsal edilən enerji Qubadlının Xanlıq kəndini, Laçının cənub bölgəsini və buraya yaxın yerlərdə olan başqa infrastruktur layihələrini elektrik ilə davamlı təmin edəcəkdir. Güləbird SES-nin azad edilmiş torpaqlarda infrastruktur layihələrin reallaşdırılması və nəzərdə tutulan başqa işlərin gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyətə sahibdir (https://aircenter.az/uploads/files/orxan%20tehlil).

İşğaldan azad olunmuş torpaqlarda reallaşdırılacaq enerji siyasətinin ən önəmli məqsədi isə bu bölgələri “Yaşıl Enerji” zonasına çevirməkdir. Elə buna görə də işğaldan azad olunmuş torpaqlarda energetika sahəsində görülməli işlərdə bərpaedilən enerji qaynağlarından istifadəyə və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiq olunmasına üstünlük verilir. Öz növbəsində bu proses isə enerji resurslarından istifadənin daha da səmərəli istifadə olunmasına şərait yaradacaqdır. Su elektrik stansiyalarının əsaslı formada bərpası da bu məqsədlərin həyata keçirilməsinə şərait yaradacaqdır (Bilalov,2015).

İşğaldan azad olunmuş torpaqlarda bərpa edilən enerji potensialının düzgün qiymətləndirilməsinə gəldikdə isə onu vurğulamaq yerinə düşər ki, Laçın və Kəlbəcərdə külək enerjisinin əldə olunması üçün böyük potensial vardır. Zəngilanda, Cəbrayılda isə daha çox günəş elektrik stansiyalarının qurulması üçün potensiyal vardır. Beynəlxalq Bərpaedilən Enerji Agentliyinin ilkin təxmini qiymətləndirilməsinə görə, işğaldan azad olunmuş torpaqlarda 4000 meqavatdan çox Günəş enerjisi, 500 meqavata qədər külək

enerjisi potensialı vardı. Bu ərazilərdə yaşıl enerji layihələrinin reallaşdırılması üçün xarici investorlarla danışıqlar üzərində işlər aparılır.

Nəhayət, müharibədən sonrakı dövrdə Qarabağın və ətraf rayonların inkişaf edilməsi istiqamətində irimiqyaslı layihələr aparılır. Demək olar ki, konkret müqavilələr də imzalanmış və işğaldan azad edilmiş ərazilərin bərba edilməsi və yenidən qurulması prosesinə başqa-başqa xarici dövlətlərin marağı da artmaqda davam edir. Dövlətimizin sevincini bölüşən və azad olunmuş torpaqların yenidən qurulmasına töhfə vermək istəyən dost ölkələr, qardaş ölkələr də mənfur erməni vandalizminin izlərini təmizləməyə hazır olduqlarını deyirlər. Azərbaycana səfərə gələn Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisdə çıxış edın vaxt bildirmişdir ki, Azərbaycan xalqı Qarabağdan çıxmaq məcburiyyətində qalan vaxtlar heç yeri dağıtmadılar: “Lakin ermənilər hər bir yeri dağıtdılar. Bu dağılan ərazilər Azərbaycan və onun qardaş dövlətinin yardımı ilə yenidən inşa ediləcəkdir. Birlikdə bu torpaqları yenidən inşa edəcəyik, quracağıq və yeni dövrün Qarabağın ortaya gətirəcəyik” (Bilalov,2015).

Bir sözlə, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması bərpa və quruculuq işləri həyata keçirən dövlətimiz üçün yeni imkanlara şərait yaratmışdır. Xalqımız bizə dost və qardaş dövlətlər ilə birlikdə bu tarixi missiyanı uğur ilə başa vuracağıq(https://xalqqazeti.com/az/news/78552).

Məlumumuzdur ki, azad edilmiş torpaqların bərpa edilməsi və yenidən qurulması istiqamətində hökumət tərəfindən müvafiq işlər görülür, davamlı olaraq fəaliyyətlər həyata keçirilir. İşğaldan azad edilmiş torpaqlara böyük qayıdışın təmin olunması üçün bütün şəhər və kəndlərin pərpa edilməsi və yenidən qurulması, bu torpaqlarda müasir infrastrukturların təşkil edilməsi məqsədi ilə 2021-ci ildə dövlət büdcəsindən 2,2 milyard manatdan çox vəsait ayrılmışdır. Bu vəsait hesabına azad olunmuş ərazilərdə elektrik enerjisinin fasiləsiz təşkili, təbii qaz, yol, su, rabitə, mədəniyyət, təhsil, səhiyyə, mənzil-kommunal və başqa lazımi infrastrukturların, o cümlədən mədəni-tarixi abidələrin bərpa edilməsi və yenidən qurulması, yeni yaşayış evlərinin tikilməsi istiqamətində də danılmaz zəruri addımlar atılır (Soltanov,2016).

O da aydındır ki, ölkə investisiyaları ilə birgə , xarici və yerli sərmayələrin cəlb olunması ilə azad edilən torpaqlarda sosial və iqtisadi infrastrukturun yenidən təşkil edilməsi, əhalinin məşğulluğunun təmin olunması yönündə işlərin proseslərin həyata keçirilməsi prioritetdir. Yerli və xarici ekspertlər vurğulayır ki, azad olunmuş Azərbaycan torpaqlarının böyük iqtisadi potensialı , təbii ehtiyatları vardır. Bu da azad edilmiş torpaqlaraa yerli və xarici investisiyaların cəlb edilməsi, bu fonda əhalinin məşğulluğunun təşkil olunması baxımından vacib əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, işğaldan azad edilmiş torpaqların iqtisadi potensialının yüksək qiymətləndirilməsi dünya çapında da qəbul edilir. Misal üçün, işğaldan azad olunan rayonlar işğaldan əvvəlki dövrlərdə üzümçülük, pambıqçılıq, taxılçılıq və heyvandarlıq sahəsində ölkə və region üzrə xüsusi paya malik olmuşdur (Bilalov,2015).

İqtisadçı və alim, Azərbaycan Respublikasının Milli Məclisinin iqtisadiyyat, sənaye, sahibkarlıq komitəsinin üzvü olan Vüqar Bayramov bildirmişdir ki, işğaldan azad edilən torpaqlara investisiyaların cəlb edilməsi dövlətimiz qarşısında duran ən önəmli, ən zəruri prioritetlərdən biridir. Bu baxımdan, sosial sığorta ödənişlərindən tutmuş, qaz, elektrik, su təchizatına kimi bütün sahələrdə güzəştlərin tətbiq edilməsi işğaldan azad edilən torpaqlarac investisiyaların cəlb olunması üçün çox vacib şərtdir. Qeyd olunan güzəştlər xarici investorların da bu bölgələrə gəlməsini stimullaşdıracaq. Ölkə olaraq, xalq olaraq biz yalnız işğaldan azad edilən torpaqların bərpası deyil, həmçinin də oradakı iqtisadiyyatın dövlət iqtisadiyyatına inteqrasiya etməsinə nail olmalıyıq. Bu səbəbdın də stimullaşdırıcı addımların atılması lazımi şərtlərdəndir (https://musavat.com/news/hokumet-azad-olunan-erazilere-investor-celbinin-de-agilli-yolunu-tapa-bilecekmi_852217.html).

İşğaldan azad edilən torpaqlardakı bərpaetmə işlərinə xarici investorların marağı da aşkar hiss olunmaqdadır. Misal üçün , Türkiyə Cumhiriyyəti, Cənubi Koreya Respublikaı, İtaliya Respublikası, İsrail

və digər respublikaların şirkətləri bu torpaqlarda işləmək istəklərini açıq bəyan ediblər. Cəbrayıl rayonunda yaradılan Araz Vadisi azad iqtisadi zonası, Ağdamdakı sənaye parkı tipli təsisatlar xarici və yerli şirkətləri cəlbedə bilər. İşğaldan azad edilən torpaqlara investisiya yatırmaq istəyən şirkətlərə maliyyə və bank fəaliyyəti, o cümlədən idxal prosesi və başqa istiqamətlərdə də böyük güzəştlər edilməsi nəzərdə tutulur. Mütəxəssislərin çoxu hesab edirlər ki, bu güzəştlərlə birgə işğaldan azad edilən torpaqlarda, həmçinin də bütövlükdə dövlət boyu ədalət və azadlığa sökənən məhkəmə sisteminin formalaşması, yüksək səviyyədə təminat verilən mülkiyyət hüququ investisiya axınını cəlb etmək üçün ən önəmli şərtlərdən biridir.

Azad olunmuş torpaqların aqrar istehsal və ixrac potensialı yetərincə böyükdür. Xüsusi ilə də Şuşa , Kəlbəcər, Füzuli və Zəngilan rayonlarında böyük turizm potensialı vardır. Yaxın zamanlarda Araz çayının üstündə "Xudafərin" və "Qız qalası" adlanan iki böyük SES-in inşası planlaşdırılıb və bununla azad olunan torpaqların elektrik enerjisi ilə davamlı təmin olunmasına şərait yaranacaq. Yerli elektrik enerjisi tələbatının təmin olunması və dövlətin enerji ixrac potensialının intensiv artması baxımından bu SES-lərin hər ikisi yüksək əhəmiyyət kəsb edir. Təbii resursların, faydalı qazıntı işlərinin aparılması investisiyaların cəlb edilməsi baxımından çox böyük perspektiv vəd edir. Azərbaycanın qeyri-neft ixrac dövriyyəsində son illərdə qızıl önəmli yer tutur (https://www.baki-xeber.com/siyaset/116274.html).

Dünya bazarlarında qızılın qiymətinin bahalaşması və bu sahədəki şirkətlərin son istehsal texnologiyalarına sahib olması onu əsaslandırır ki, azad olunmuş torpaqlarda qızıl yataqlarının istismar edilməsi yaxın dövrlərdə dövlətimizin iqtisadiyyatına böyük töhfə verəcəkdir. Azərbaycan Respublikasının ÜDM-də aqrar sektorun və turizm sektoruna düşən pay az olsa da, qeyd olunan sektorlar məşğulluğa yetərincə təsir göstərə bilən sahələrdir. Bu səbəbdən də əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi üçün böyük perspektiv yaranır. irimiqyaslı bərpaetmə fəaliyyətləri və təzə infrastrukturun qurulması tikinti sahəsi üçün yeni imkanlar vəd edir. Qeyd olunanların hər biri xarici investorları da maraqlandırır.

Ukrayna dövlətinin Azərbaycandakı səfiri Vladislav Kanevski qeyd etdiyimiz mövzuda maraqlı açıqlamalar verərək, Ukraynanın da azad olunan bölgələrdə investor kimi çıxış etmək məqsədini bəyan edir. Azərbaycan Respublikasını Cənubi Qafqazda Ukraynanın əsas tərəfdaşı olduğunu vurğulayan diplomat Azərbaycan Respublikasının ərazi bütövlüyünü tam şəkildə tanıdıqlarını, dəstəklədiklərini, azad olunmuş bölgələrin bərpa-quruculuq işlərində kömək etməyə hazır olduqlarını vurğulayıb: "Ölkələrimiz iqtisadi baxımdan tamamilə bir-birini tamamlayır".

**Nəticə və Təkliflər**

Ümumiyyətlə azad edilmiş ərazilərdə dayanıqlı inkişafın təmin olunması anlayışına birtərəfli baxmaq olmaz. Bir regionda iqtisadiyyatın digər bölgələrdən və ya dövlətdən tam asılı olmadan öz ayaqları üstündə duraraq özünü təmin edə biləsi üçün bütün elementlərindən maksimum yararlanmaq lazımdır.

Qarabağ 30 il işğal müddətində tam deformasiya olunmuş və yaşayış məskəni kimi heç bir əlaməti qalmamışdır.Düzdür, 2020-ci il torpaqlarımızın işğaldan azad olması bitdiyi dövrdən dayanmada bu ərazilərdə bərpa quruculuq işləri davam etdiril ama uzun müddət məhv edilmiş bir ərazinin bərpası çox da asan olmayacaqdır.

Cənab prezidentin işğaldan azad edilmiş ərazilərə olan diqqəti sayəsində 2021-ci ildə bu ərazilərə 2 milyard manatdan çox vəsait yatırılmışdır və bir neçə gələcək illər ərzində də ayrılacaqdır. Lakin, bu xərclərlə yanaşı get-gedə bu ərazilərin də öz iqtisadiyyatı qurulmalıdır. Qarabağ regionu təbii sərvətlərinə görə, turizim-rekresiya ehtiyatlarına görə, kənd təsərrüfatına görə və s. göstəricilərinə görə çox zəngin regiondur. Ancaq hal-hazırda dünyada gedən proseslərlə bağlı olaraq ilk öncə "kənd təsərrüfatı" və "qida sənayesi" mövzusuna toxunaq.

Dünyada baş verən kəskin iqlim dəyişməsi, müharibələr və ən əsas hal-hazırki Rusiya-Ukrayna müharibəsi bir daha onu göstərdi ki, bir dövlət olaraq qida sənayesinə çox diqqət ayırmalıyıq. Azərbaycan müsbət saldosu olan bir dövlətdir, taxıl ehtiyatının 60 %-ni daxil istehsal sayəsində qarşılayır, ancaq onu da bilirik ki, qida rasionunda əsas yer alan ərzaqlıq buğdanın 70 %-ə yaxını xaricdən, əsasən də Rusiya, Qazaxıstan, Ukraynadan idxal edilir. Ukrayna-Rusiya müharibəsinə görə hal-hazırda əsas idxal Qazaxıstan Respublikasındandır. Bu kim hallar baş verdikdə, ərzaq böhranının qarşısını almaq, ölkəmizin xaricdən asılılığını azaltmaq məqsədilə əkin sahələrinin becərilməsi, yaylaqlardan istifadə etməklə maldarlığın inkişafı və nəticə olaraq ərzaq ehtiyatının artırılması gündəmdə olmalıdır. 2020-cildən azad edilmiş ərazilərdə mina və partlayıcı vasitələrdən təmizlənən əkinə yararlı torpaqlarda taxıl sahələri salınmaqdadır.Azərbaycanın indiki əsas taxıl istehsal edən aran rayonlarına nisbətdə azad edilmiş torpaqlar suvarma, torpaq keyfiyyəti cəhətdən daha üstündür.

Ərazilər təmizləndikdə qış otlaqları üçün Ağdam, Füzuli, Cəbrayıl o cümlədən yay otlaqları üçün Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan ərazilərinin ət,süd, və digər qida məsulları istehsalı üçün çox böyük rolu olacaqdır

Bu yolda ilk addımlar atılmaqdadır. Bu yaxınlarda cənab prezident İlham Əliyev İsrailin Kənt Təsərrüfatı Nazirini qəbul etməs çox önəmli bir addımdır. Nazir Azərbaycanda yeni kənd təsərrüfatı modelinin qurulması barədə açıqlama vermişdir. Ölkəmizin apardığı siyasət nəticəsində, İsrail kimi inkişaf etmiş bir ölkənin kənd təsərrüfatı modelindən yararlanmaq çox böyük uğurdur.

İndi isə ən önəmli mövzulardan biri olan investorların cəlb edilməsinə toxunaq. İstər yerli, istərsə də xarici investorların cəlb edilnməsi üçün müxtəlif güzəştlər olmalı, əlverişli şərait yaradılmalıdır. Bunlara misal olaraq Ağdam sənaye parkını göstərmək olar. Sənaye parklarında vergilərə edilən güzəştlər gəlir və mənfəət vergisinin 50 %-indən 7 il ərzində azadolma, 7 il müddətinə torpaq vergisindən və burada istifadə ediləcək əmlak vergisindən azadolma və s.) investor cəlb etmədə mühüm addımdır. İnkişaf etmiş ölkələrdə əsasən, vergilirin yüksək olması məlumumuzdur, Ona görə də, vergi azadolmaları,güzəştləri və gömrük rüsumlarının azaldılması bu ölkələrin şirkətlərini aza edilmiş ərazilərə cəlb etmək üçün mühümdür.

Təbii resurslar haqda mövzumuzda ətraflı müzakirə aparılmışdır. Nəticə olaraq onu demək olar ki, bu ehtiyatların istismara verilməsi həm ölkə üçün böyük gəlir mənbəyidir. O cümlədən azad edilmiş ərazilərdə tikinti sənayesinin inkişafına təkan verəcək faydalı qazıntıların çıxarılması üçün işçilərin cəlb olunması nəticəsində neçə-neçə insanın işlə təmin edilir. Meşə sənayesini inkişaf etdirmək üçün böyük potensial vardır.

İş yerlərinin və təhsilin inkişafı, o cümlədən paytaxda və digər böyük şəhərlərdə insan sıxlığını azaltmaq üçün bu ərazilərdə universitetlərin açılması perspektivlidir.

Dünyada tükənməyən gəlir növü kimi ilk sıralarda olan turizim sənayesinin hər bir sektoru üçün azad olunmuş ərazilərdə böyük perspektivlər vardır. Başlanğıc olaraq dövlət dəstəyi sonra isa dövlət və özəl sektorun birlikdə dəstəyi ilə Qarabağ regionunda yay,qış, tarixi, müalicəvi və turizmin digər növlərini inkişaf elətdirmək olar.

Bir neçə gün öncə Milli Məclis Ələt Azad İqtisadi Zonasında olan şirkətləri bütün vergi və gömrük rüsumundan azad edilməsi haqda qanun qəbul edib. Bu, çox uğurlu bir addım kimi qiymətləndirilir, çünki bu kimi şərtlərin yumşaldılması, güzəştlər və s. investor axınına səbəb olacaqdır. Gələcəkdə azad edilmiş ərazilərdə də belə bir prosesin olması burada inkişafı sürətləndirəcəkdir.

Həmçinin, Qarabağ regionun yenidən qurulmasında, bərpasında dünya praktikasından istifadə edilməlidir. Buna nümunə olaraq belə hadisələrin son baş verdiyi bəzi ölkələr üzrə xüsusi nümayəndələr təyin edilməli və orada müharibədən sonra başlayan dirçəliş prosesin araşırmalıdır. Düzdür, hər bir ölkə üzrə tamamilə spesifikdir ancaq bu araşdırmaların yekunu olaraq ortaya çıxan araşdırmaların nəticəsi azad

edilmiş torpaqların inkişafın sürətini gücləndirə bilər. Bununla yanaşı, Dünya Bankının post-konflikt ərazilərdə bərpa-quruculuq sahəsində apardığı araşdırmalar,tədqiqatlar xüsusilə faydalı ola bilər.

**Ədəbiyyat Siyahısı**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı
2. Bilalov B.Ə., Gülalıyev Ç.G., (2015), Turizmin əsasları. Bakı, "QHT Nəşriyyatı" – 492 səh..
3. Soltanova H.B. (2016), Azərbaycan Respublikasında turizm və onun inkişafı, monoqrafiya, Bakı, Adiloğlu, 238 səh.
4. Acar Y. (2020). "Yeni Koronavirüs (COVID-19) Salgını ve Turizm Faaliyetlerine Etkisi". Güncel Turizm Araştırmaları Dergisi, 4(1), 7-21.
5. McKibbin W. J. and Fernando R. (2020). "The global macroeconomic impacts of COVID-19: Seven scenarios". №3, p.59-63
6. Wilson M. E. and Chen L. H. (2020). "Travellers give wings to novel coronavirus (2019-nCoV)". Journal of Travel Medicine, 2020, 1–3.
7. https://president.az/az/articles/view/50474
8. https://yeniazerbaycan.com/Iqtisadiyyat_e60014_az.html
9. https://xalqqazeti.com/az/news/78552
10. https://aircenter.az/uploads/files/orxan%20tehlil%20mart.pdf?fbclid=IwAR0vC980vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc
11. https://apa.az/az/dagliq-qarabag/Isgaldan-azad-olunan-razilrin-brpasi-il-bagli-konsepsiyanin-sas-istiqamtlri-aciqlanib-620982
12. https://www.baki-xeber.com/siyaset/116274.html
13. https://musavat.com/news/hokumet-azad-olunan-erazilere-investor-celbinin-de-agilli-yolunu-tapa-bilecekmi_852217.html

# KORONAVİRUS PANDEMİYASININ VƏ RUSİYA-UKRAYNA MÜNAQİŞƏSİNİN DÜNYA SIĞORTA BAZARINA TƏSİRİ

**i.ü.f.d., dosent Səmədzadə Elşad**

**UNEC**

**Babayeva Xavər**

**UNEC**

**khavar.babayeva@unec.edu.az**

## Xülasə

Bəşəriyyət zaman-zaman pandemiyalarla üzləşdiyi üçün tədqiqatın mövzusu hər zaman aktualdır. Dünyada qədim və dayanıqlı sahələrdən olan sığorta da iqtisadiyyat, cəmiyyət üçün önəmli əhəmiyyət kəsb edir. Pandemiya bir çox sahələrə yeniliklərin yaranmasına səbəb oldu. Koronavirus xəstəliyi gələcəkdə bitsə belə, amma onun gətirdiyi dəyişikliklər hələ uzun müddət qalacaq. Pandemiya və digər risklərlə mübarizənin ən yaxşı üsullarından biri sığortadır. Tədqiqatda beynəlxalq təşkilatların, yerli və xarici alimlərin araşdırmalarından istifadə olunub. Tədqiqat zamanı pandemiyanın dünya sığorta bazarına təsiri araşdırılıb. Müəyyən olunub ki, sığorta sektoru təlatümlərə dayanıqlı sektordur. 2020-ci ildə bir çox sahələrin kiçilməsinə baxmayaraq dünya sığorta bazarı böyüyüb. Həm dövlətlər, həm də insanlar sığortanın faydalı olması haqqında bir daha düşünüblər. Pandemiya yavaş-yavaş səngiməyə başlasa da dünyada baş verən Rusiya-Ukrayna müharibəsi də təkcə müharibənin tərəfləri olan ölkələrin deyil, eyni zamanda digərlərinin sığorta bazarına dolayı yolla təsrini göstərmiş olur. Araşdırma zamanı sığorta bazarı sığorta premimumu, sığorta sıxlığı, sığorta nüfuzetmə faizi kimi göstəricilərdən istifadə edilərək təhlil olunub. Araşdırmada müqayisə, analiz, sintez metodlarından istifadə olunub.

**Açar sözlər**: pandemiya, koronavirus, sığorta bazarı, Rusiya.

## Abstract

The subject of research is always relevant, as humanity is constantly pandemic. Insurance, which is old and durable in the world, is also a dangerous loss for the economy and people. The pandemic has led to innovations in many areas. Even to prevent it from coronavirus, but it will last a long time. One of the best ways to deal with pandemics and other risks is insurance. The study used research from international organizations, local and foreign studies. The study examined the impact of the pandemic on the global insurance market. It has been determined that the insurance sector is earthquake-resistant. In 2020, despite the reduction of many areas, the world insurance market. Both states and people have thought more about the benefits of insurance. Although the pandemic is slowly subsiding, the Russia-Ukraine war in the world is not only a party to the war, but also has an indirect impact on the insurance market. During the study, the insurance market was analyzed using services such as insurance premium, insurance density, insurance penetration percentage. Analysis and synthesis methods were used in the research.

**Keywords**: pandemic, coronavirus, insurance market, Russia

## Giriş

Tədqiqatın mövzusu təkcə indiki dövr üçün deyil bütün dövrlər üçün aktual mövzudur. Çünki bəşəriyyət zaman-zaman kütləvi səviyyəli yoluxucu xəstəliklərlə üzləşir. Sözsüz ki, COVİD-19 pandemiyası təkcə tibb cəbhəsinə deyil, iqtisadiyyata da öz təsirini göstərdi və yeni çağırışlar yaratdı. Pandemiya zamanı qapanmalar olduğu üçün bir çox insan müvəqqəti olaraq öz işlərindən uzaqlaşdı və ya onlayn iş rejiminə keçdi. Təbii ki, gəlirlərin azalması insanların da maliyyə öhdəliklərini yerinə yetirə bilməməsinə, maliyyə risklərinin özünü qabarıq şəkildə göstərməsinə gətirib çıxardı.

Məlum olduğu kimi pandemiya insanları daha çox elektron xidmətlərdən istifadə etməyə məcbur etdi. Rəqəmsallaşmanın müsbət cəhətləri olduğu kimi eyni zamanda bu kiber təhlükələrin, hücumların da artmasına səbəb olur. Bu risklər baş verdiyi halda da bir çox insanlara, şirkətlərə ziyan dəyir.

Bütün bu sadalanan və sadalanmayan risklərə qarşı ən effektiv yol riskləri vaxtında qiymətləndirib sığorta xidmətlərindən istifadə etməkdir.

Tədqiqatın əsas məqsədi dünyada baş verən hadisələrin sığorta bazarına təsirini araşdırmaqdır. Bunun üçün dünya sığorta bazarını müxtəlif hissələrə bölərək təhlil etmək qarşıya vəzifə qoyulub. Tədqiqat zamanı müşahidə, müqayisə, analiz, sintez metodlarından istifadə olunub. Tədqiqatın məhdudiyyəti dünya sığorta bazarı üzrə 2021-ci il statistik göstəricilərin əldə oluna bilməməsi olub. Tədqiqatda E.Səmədzadə, A.Hüseynov, U.İbrahimli kimi azərbaycanlı alimlərin pandemiya, sığorta sahəsindəki tədqiqatları ilə yanaşı Dünya Bankının, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının, dünyaca məşhur sığorta şirkətlərinin araşdırmalarından, statistik göstəricilərindən istifadə olunub.

**Pandemiyanın Sığorta Bazarına Təsiri**

Həzrəti Mövlanə: "Olmaz dediyin nə varsa hamısı olur."

(www.sabah.com.tr/galeri/yasam/hz-mevlana-sozleri-en-guzel-ozlu-ve-resimli-mevlana-celaleddini-rumi-sozleri/6)

2019-cu ilin fevral ayında çox insanın ağlına belə gəlməzdi ki, bir il sonra dünyanın düzəni dəyişəcək. Artıq iki ildən çoxdur ki, günümüzün aktual məsələsi pandemiyadır. Başlanğıcı Çin olan koronavirus xəstəliyi bu gün demək olar ki, dünyanın hər yerində yayılıb. Səhiyyədən tutmuş bir çox sahəyə öz təsirlərini göstərir. Sözsüz ki, virus iqtisadiyyatdan da yan keçmədi. Amerikalı iqtisadçı Rickards deyib ki, virus pandemiya səbəb ola bilər, amma onun iqtisadi çöküş yaratmasının səbəbkarı bizik (Rickards, 2020). Əksər ölkələrdə tətbiq olunan məhdudlaşdırma tədbirləri, sərhədlərin bağlanması, bir çox beynəlxalq səviyyəli tədbirlərin müvəqqəti ləğv olunması, kütləvi yığışmalara qoyulan qadağalar, evdən çıxmağa, ictimai nəqliyyatdan istifadəyə məhdudiyyətlər və s. əslində birinci növbədə iqtisadiyyata, davamlı inkişafa təsir göstərir. Koronavirus həmçinin davamlı inkişaf məqsədlərinə nail olunmasında bir qədər çətinlik yaratmışdır (Hasanli & Safarova, 2020). Pandemiyanın davamlı inkişaf məqsədlərinə həm, müsbət, həm mənfi təsiri olmuşdur. Məsələn, xəstəlik səbəbindən bir çox insan işini itirdiyi üçün bu yoxsulluğun artmasına, amma nəqliyyatdan istifadəyə məhdudiyyətlər isə havaya daxil olan zərərli maddələrin azalmasına səbəb olub (Gulseven, Al Harmoodi, Al Falasi, Al Shomali, 2020).

Bir çox hallarda sığorta bütün dünyada çətin vəziyyətlərdə ümid çırağına çevrilir. Amma bununla yanaşı iqtisadiyyatda baş vermiş durğunluq sığorta şirkətlərinin də maliyyə cəhətdən zəifləməsinə səbəb olmuşdur (Babuna et al, 2020).

Sığorta sektoru ilə digər sahələr arasında əlaqə olduğu üçün ilk öncə koronovirusun təsir etdiyi sahələri araşdırmaqda fayda var. Pandemiyada udan tərəflər informasiya texnologiyaları, elektron ticarət, dərman istehsalçılarıdırsa, uduzan tərəflər isə enerji, bərbər, gözəllik salonları, turizm, xarici ticarətdir (Samedzade & Huseynov, 2020).

Buradan belə nəticəyə gəlmək olar ki, rəqəmsallaşma daha da çoxaldığına görə kiber risklərdən təminat sığortasına tələbat artıb. Səyahətlərin ləğvi isə səyahət sığortasına tələbatın azalmasına səbəb olub.

Sığorta bazarını təhlil etməzdən öncə müqayisə üçün istifadə olunan anlayışlar barəsində məlumat verək.

1) Sığorta premimumu-ölkə üzrə yığılmış bütün sığorta haqlarının cəmi
2) Sığortanın nüfuzetmə faizi-sığorta premimunun ölkənin ÜDM-nə nisbəti
3) Sığorta sıxlığı-sığorta premimunun ölkə əhalisinin sayına nisbəti (İbrahimli, 2021).

Beynəlxalq Valyuta Fondu tərəfindən 2020-ci ildə aparılan araşdırmada göstərilirdi ki, COVİD-19 pandemiyası səbəbindən maliyyə şokları, xəstəlik-ölüm hallarının çoxalması sığortaçılara da öz təsirini göstərəcək (Kirti & Shin, 2020).

Avropa və Amerikada sığorta şirkətləri eyni zamanda investor olduqları üçün şübhəsiz ki, maliyyə bazarında baş verən təlatümlər onların gəlirlərinə də təsir göstərir. Əldə etdiyimiz məlumata, əsasən, ABŞ-da

sığortaçılar bütün korporativ istiqrazların 21 %-ni, bələdiyyələr tərəfindən emissiya olunan istiqrazların 20 %-ni saxlayır. 2020-ci ilin mart ayında Böyük Britaniyanın "Aviva" həyat sığorta şirkəti ödəmə qabiliyyətinin 206 faizdən 175-ə düşdüyünü açıqladı (Sugimoto & Windsor, 2020).

Aşağıdakı cədvəldən göründüyü kimi iki illə müqayisədə dünya sığorta bazarında az da olsa böyümə var. Təqribən 1 % faiz dünya sığorta bazarı artıb. Lakin sığorta növlərinə baxdıqda görülür ki, həyat sığortası üzrə yığımlarda azalma, qeyri-həyat sığortası üzrə yığımlar da isə artım var. Zənnimcə, bunun səbəbi insanların gəlirlərinin azalması, qeyri-həyat sığorta sinfinə daxil olan tibbi sığortaya marağın artması ola bilər. Belə ki, həyat sığortası sinfinə daxil olan sığorta məhsulları yığım xarakteri daşıdığı üçün insanların gəlirləri azaldıqca sözsüz ki, yığım barəsində deyil ancaq xərcləri barəsində daha çox düşünürlər. Başqa bir tədqiqatda isə həyat sığortasının azalma səbəbi kimi isə ölüm hallarının olması göstərilir (Preda, Popescu, Driga, 2020).

Dünya bankının məlumatına ,əsasən, ÜDM 2019-cu ildə 87.555 trilyon ABŞ dolları, 2020-ci ildə isə 84.68 trilyon dollar olmuşdur. (Dünya Bankı, 2021) O zaman buradan belə nəticəyə gəlmək olar ki, dünya üzrə sığortanın nüfuzetmə dərəcəsi təqribən 2019-cu ildə 7 %, 2020-ci ildə elə 7 % faiz olmuşdur.

**Cədvəl 1: Dünya sığorta bazarı üzrə göstəricilər (min ABŞ dolları)**

| İllər | Həyat sığortası üzrə yığımlar | Qeyri-həyat sığortası üzrə yığımlar | Cəmi |
|---|---|---|---|
| 2019 | 2,889,249 | 3,396,112 | 6,284,360 |
| 2020 | 2,797,437 | 3,489,608 | 6,287,044 |

**Mənbə:** İnsurance Information İnstitute, https://www.iii.org/ (10.02.2022)

SwissRe institutunun əməkdaşı İrina Fan deyib ki, pandemiya sığorta bazarında da yeniliklərin gətirilməsinə, yeni sığorta məhsullarının ortaya çıxmasına səbəb oldu. İstər özəl tibbi sığorta, istərsə də müəssisələr üçün tədarük zəncirinin kəsilməsi olsun, pandemiya təcrübəsi insanları sığorta müdafiəsinə ehtiyac barədə daha çox məlumatlandırıb (Swiss Re, 2021).

Cədvəl 2-dən göründüyü kimi iqtisadi cəbhədəki savaşları ilə tez-tez gündəmdə olan iki böyük dövlət-ABŞ və Çin dünya sığorta bazarının 50 faizindən çox paya sahibdirlər. Maraqlıdır ki, Çin sığorta bazarı da ABŞ-a nisbətən pandemiya dövründə daha çox böyüyüb. Avropa ölkələrinin bir qismində və Avstraliyada isə ciddi şəkildə kiçilmə olub.

**Cədvəl 2: 2019-2020 ci illərdə top 20 ölkənin sığorta bazarı üzrə göstəriciləri**

| Reytinq | Ölkələr | Dünya ÜDM-də payı (%-lə) | Yığılmış sığorta haqlarının cəmi (milyon ABŞ dolları) | | Dəyişmə faizi | Dünya sığorta bazarında payı | |
|---|---|---|---|---|---|---|---|
| | | | 2020 | 2019 | | 2020 | 2019 |
| 1 | ABŞ | 25 % | 2530570 | 2485326 | 1.8 % | 40.3% | 39.5 % |
| 2 | Çin | 17% | 655874 | 617399 | 6.2% | 10.4% | 9.8% |
| 3 | Yaponiya | 6% | 414805 | 427580 | –3.0% | 6.6% | 6.8% |
| 4 | Birləşmiş Krallıq | 3% | 338321 | 364352 | –7.1% | 5.4% | 5.8% |
| 5 | Almanya | 5% | 258566 | 249207 | 3.8% | 4.1% | 4.0% |
| 6 | Fransa | 3% | 231347 | 260457 | –11.2% | 3.7% | 4.1% |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 7 | Cənubi Koreya | 2% | 193709 | 179018 | 8.2% | 3.1% | 2.8% |
| 8 | İtaliya | 2% | 161973 | 167881 | –3.5% | 2.6% | 2.7% |
| 9 | Kanada | 2% | 143468 | 134839 | 6.4% | 2.3% | 2.1% |
| 10 | Tayvan | 0.8% | 113304 | 117823 | –3.8% | 1.8% | 1.9% |
| 11 | Hindistan | 3% | 107993 | 107893 | 0.1% | 1.7% | 1.7 % |
| 12 | Hollandiya | 1% | 87529 | 84179 | 4.0% | 1.4% | 1.3 % |
| 13 | Hong-Kong | 0.4% | 73131 | 70696 | 3.4% | 1.2% | 1.1% |
| 14 | İspaniya | 2% | 66323 | 70982 | –6.6% | 1.1% | 1.1% |
| 15 | Avstraliya | 2% | 62840 | 68688 | –8.5% | 1.0% | 1.1% |
| 16 | İsveçrə | 1% | 62669 | 58868 | 6.5% | 1.0% | 0.9% |
| 17 | İrlandiya | 0.5% | 58 089 | 58645 | –0.9% | 0.9% | 0.9% |
| 18 | Braziliya | 1.7% | 57623 | 73388 | –21.5% | 0.9% | 1.2% |
| 19 | Belçika | 0.6% | 41236 | 41372 | –0.3% | 0.7% | 0.7% |
| 20 | İsveç | 0.6% | 40939 | 38,026 | 7.7% | 0.7% | 0.6% |

**Mənbə:** Dünya Bankı, Swiss Re**,** https://data.worldbank.org/, https://www.swissre.com/ (10.02.2022)

Maraqlıdır ki, aşağıdakı cədvəldə olan Şimali Amerika ölkələrində qeyri-həyat sığortasına olan maraq daha çoxdur. Ancaq Avropa və Asiya ölkələrinin böyük əksəriyyətində isə bunun əksi müşahidə edilir. Bunu 2020-ci ildə yığılmış sığorta haqlarının cəminə görə ən böyük bazara malik 10 ölkə üçün verilən cədvəldə də görmək olar:

**Cədvəl 3: Top 10 ölkənin sığorta sahələri üzrə yığımları (milyard ABŞ dolları)**

| Ölkələr | Həyat sığortası üzrə | Qeyri-həyat sığortası üzrə |
|---|---|---|
| 1.ABŞ | 633 | 1898 |
| 2.Çin | 348 | 308 |
| 3.Yaponiya | 294 | 120 |
| 4.Birləşmiş Krallıq | 239 | 99 |
| 5.Almaniya | 107 | 151 |
| 6.Fransa | 137 | 95 |
| 7.Cənubi Koreya | 106 | 88 |
| 8.İtaliya | 119 | 43 |
| 9.Kanada | 58 | 85 |
| 10.Tayvan | 91 | 22 |

**Mənbə:** Swiss Re, https://www.swissre.com/ (10.02.2022)

Məlum olduğu kimi koronavirus xəstəliyi ilə bağlı bir çox ölkədə karantin rejimi elan olundu. Bu gün də sərt və ya yumşaq formada karantin rejimi dünyanın çox yerində davam edir. “Evdə qal, həyat qurtar” şüarı ilə insanlar lazımi vaxtlarda çölə çıxmağa məcbur edildi. Bunun da nəticəsi o oldu ki, nəqliyyatdan istifadə xeyli dərəcədə azaldı. Şimali Amerikada və Böyük Britaniyada sığortaçılar müştərilərinin nəqliyyatdan

istifadəsinin əhəmiyyətli dərəcədə azaldığını görüb müvafiq sığorta üzrə sığorta haqlarını müştərilərinə geri qaytarırlar (Lloyds, 2020).

Sığortanın hansı ölkələrdə daha çox inkişaf etdiyini bilmək istifadə olunan göstərici sığortanın nüfuzetmə faizinə müəyyənləşdirmək olar. Görüldüyü kimi bu göstərici üzrə ən yüksək pay Luksemburqa məxsusdur. Digər göstəricidə olduğu kimi burada da daha çox Avropa ölkələri üstünlük təşkil edir. Lüksemburqda sığortanın inkişafının səbəbi maliyyə sabitliyi cəhətdən üstünlüyü, Avropa direktivlərinə uyğun fəaliyyət göstərməsi, sığortaçıların peşəkarlığı, aktivlərinin, investisiyalarının geniş olması, tənzimləyici orqanın səmərəli fəaliyyəti, sığorta məhsullarının çeşidinin zəngin olması, həyat sığorta bazarı üzrə yaxşı mexanizmə malik olması və s. (The Financial Centre Development Agency, 2021).

**Cədvəl 4: Top 10 ölkədə sığortanın nüfuzetmə faizi**

| Ölkənin adı | Ölkənin ÜDM-i (milyon ABŞ dolları ilə) | Sığortanın nüfuzetmə faizi |
|---|---|---|
| 1. Lüksemburq | 73,353.13 | 30.9 |
| 2. ABŞ | 20,953,030.00 | 12.5 |
| 3. Cənubi Koreya | 1,637,895.80 | 11.5 |
| 4. Birləşmiş Krallıq | 2,759,804.06 | 11.4 |
| 5. Danimarka | 356,084.87 | 11.3 |
| 6. Sinqapur | 339,998.48 | 10.9 |
| 7. İrlandiya | 425,888.95 | 10.4 |
| 8. Fransa | 2,630,317.73 | 10.1 |
| 9. Hollandiya | 913,865.40 | 9.6 |
| 10. İsveç | 541,220.06 | 9.3 |

**Mənbə**: Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, https://data.worldbank.org/ , https://stats.oecd.org/ (15.03.2022)

Ölkələrdə əhalinin sığortaya marağının ölçülməsi üçün sığorta sıxlığı göstəricisindən istifadə olunur.

**Cədvəl 5: Top 10 ölkədə sığorta sıxlığı göstəricisi**

| Ölkə adı | Əhali sayı (min nəfər) | Sığorta sıxlığı (min ABŞ dolları) |
|---|---|---|
| 1. Lüksemburq | 630.42 | 36152 |
| 2. İrlandiya | 4,985.67 | 8901 |
| 3. ABŞ | 331,501.08 | 7929 |
| 4. Danimarka | 5,831.40 | 6911 |
| 5. İsveçrə | 8,636.56 | 6646 |
| 6. Hollandiya | 17,441.50 | 5035 |
| 7. İsveç | 10,353.44 | 4830 |
| 8. Birləşmiş Krallıq | 67,215.29 | 4590 |
| 9. Fransa | 67,379.91 | 4062 |
| 10. Norveç | 5,379.48 | 3958 |

**Mənbə**: Dünya Bankı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı, https://data.worldbank.org/ , https://stats.oecd.org/ (15.03.2022)

Siyahıya Lüksemburqun yenə liderlik etməsinin səbəbi ölkənin əhalisinin sayının az, sığorta yığımlarının isə çox olmasıdır. Digər sıralama əvvəldə olduğu kimi demək olar ki, eynidir. ABŞ-da əhali sayının çox olmasına baxmayaraq bu göstərici üzrə ilk sıralarda olmağı bir daha sübut edir ki, bu ölkədə sığorta bazarı inkişaf edib, sığortaya maraq çoxdur.

**Rusiya-Ukrayna Müharibəsinin Sığorta Bazarına Təsiri**

Təəssüf ki, bu gün də dünya bir müharibənin şahidi olur. Müharibə bitsə belə onun iqtisadi təsirləri uzun illər davam edir. Müharibə riskləri bəzən sığorta təminatına daxil edilir. Bu müharibə təkcə Rusiya deyil eyni zamanda dünya sığorta bazarına təsir edəcək. Burada da ən çox ziyan çəkən sözsüz ki, Rusiya sığorta bazarı olacaq (İbrahimli, 2022). Müharibənin təsirini sığortaçı və sığortalı mövqeyindən təhlil etməyə çalışaq. Sığortalı kimi çıxış edən Rusiyaya qarşı bir çox sahələrdə, eləcə də sığorta sahəsində də sanksiyalar tətbiq olundu. Qeyd etmək lazımdır ki, beynəlxalq sığorta bazarında Rusiyanın iştirakı ilə bağlı məhdudiyyətlər 2014-cü ildə Rusiyanın Krımı işğal etdikdən sonra olub və bu beynəlxalq təkrar sığorta şirkətlərinin sığorta təminatının geri götürməsi ilə nəticələnib (https://www.fitchratings.com/research/insurance/market-volatility-is-ukraine-wars-main-risk-for-european-insurers-17-03-2022). Hal-hazırda şimal qonşumuza tətbiq edilən sanksiyalar ,əsasən, aviasiya, kosmik, dəniz, ticarət risklərinin olduğu sığorta ilə bağlıdır. Belə ki, müharibə bu sahələr üzrə sığorta iddialarının artmasına səbəb olur ki, bu da sığorta şirkətlərinin daha çox sığorta ödənişi etməsi deməkdir. Dünyaca məşhur "Lloyds" sığorta şirkəti artıq Rusiya ilə bağladığı sığorta müqavilərini ləğv etdi (https://www.theguardian.com/business/2022/mar/24/ukraine-war-will-present-major-insurance-claims-warns-lloyds-of-london). Həmçinin sığortaçı kimi çıxış edən "Lloyds" bildirib ki, Rusiya, Ukrayna, Belarusiyadakı biznes ümumi bazar biznesin 1%-dən azını təşkil edir (https://www.reuters.com/business/lloyds-london-sees-major-claims-this-year-ukraine-conflict-2022-03-24/).

**Nəticə**

Bütün bu danışılanlar bir daha sübut edir ki, risklər hər zaman mövcuddur. Dünya üçün yaxın gələcəkdə olan riskləri aşağıdakı kimi göstərmək olar:

- COVİD-19 yeni ştamplarının meydana çıxa bilmə ehtimalı;
- Kiber təhlükələr;
- Qlobal iqlim dəyişikliyi;
- İnflasiya;
- Terror;
- Kriptovalyutalarla bağlı risklər və s.

Risklər ilə mübarizədə hökumətlər, beynəlxalq təşkilatlar ilə yanaşı sığorta bazarı da aktiv iştirak etməlidir. Post-pandemiya dövrünə yavaş-yavaş qədəm qoyuruq. Peyvəndləmə, insanlarda xəstəliyə qarşı immunitetin formalaşması onu deməyə əsas verir ki, koronavirus artıq əvvəlki kimi təhlükəli deyil. Bağlanan sərhədlər açılması, xarici ticarət yenidən canlanması, səyahətlərin çoxalması, kütləvi yığışmalar, oflayn görüşlər və s. Bir sözlə, həyat artıq normala dönür. Koronavirus səngiməyə başlasa da, onun həyatımıza gətirdiyi yeniliklər, verdiyi dərslər hələ uzun müddət bizimlə olacaq. Həm pandemiya, həm son zamanlarda baş verən yanğın hadisələri, iqlim dəyişikləri bir daha göstərdi ki, risklər qaçınılmazdır. Əslən Hindistandan olan, "CNN" televiziyasının jurnalisti Fareed Zakarianın qələmə aldığı "Pandemiya sonrası dünya üçün 10 dərs" kitabında beşinci dərs belə adlanır: "Həyat artıq rəqəmsaldır." (Zakaria, 2021) Pandemiya davamlı inkişaf üçün yeni çağırışlar yaratdı. Onlardan ən mühümü rəqəmsallaşma ilə bağlıdır. Rəqəmsallaşma bir çox sahələrə , o cümlədən sığorta sahəsinə də həm şəffaflıq, həm çeviklik, həm əlçatanlıq, yeniliklər gətirir. Bu yeniliklər ,əsasən, sığorta xidmətinin rəqəmsallaşması, bazara yeni məhsulların çıxarılması, sığorta müqavilələrində sığorta hadisəsi hesab olunan halların sayının artması ilə bağlı olacaq.

**Ədəbiyyatlar**


1. Babuna P., Yang X., Gyilbag A., Awudi D., Ngmenbelle D., Bian D. (2020). The impact of COVID-19 on the insurance industry. İnternational Journal of Environmental Research and Public Health, 17, p 1-14
2. Gulseven O., Al Harmoodi F., Al Falasi M., ALshomali İ. (2020). How the COVID-19 Pandemic Will Affect the UN Sustainable Development Goals? Available at SSRN: https://ssrn.com/abstract=3592933
3. Hasanli Y., Safarova A., (2020). Assessing the distinctive impact of COVID-19 on sustainable development goals. UNEC, 55th İnternational Scientific Conference on Economic and Sosial Development – Socio Economic Problems of Sustainable Development- Baku, p.599-603.
4. Huseynov A.G., Samedzade E.Z. (2020). Global pandemic call and sustainable development. UNEC, 55th İnternational Scientific Conference on Economic and Sosial Development – Socio Economic Problems of Sustainable Development- Baku, p 56-62.
5. İbrahimli Uğur (19.09.2021). Sığorta bazarlarının müqayisəsi". "Sığorta" qəzeti. Səh 2
6. İbrahimli Uğur ( 27.03.2022). Rusiya-Ukrayna müharibəsinin sığorta bazarına təsiri. "Sığorta" qəzeti. Səh 2
7. Kirti D., Shin M. (2020). The impact of COVİD-19 on insurers. İMF Research special series on COVİD-19, p 1-11
8. Lloyds (2020). Supporting global recovery and resilience for customers and economies.
9. Preda A., Popescu M., Driga I. (2021). The impact of covid-19 on global insurance market. MATEC Web of Conferences 342, 08012 UNIVERSITARIA SIMPRO 2021, p 1-6
10. Rickards James, (2020), Yeni büyük çöküş. Pandemi sonrası dünyanın kazanan ve kaybedenleri, Scala Yayıncılık, Istanbul
11. Sugimoto N., Windsor P. (2020). Regulatory and Supervisory Response to Deal with Coronavirus Impact—The Insurance Sector. IMF Special series on COVID-19, p 1-6
12. Swiss Re (2021). World insurance: the recovery gains pace.
13. The Financial Centre Development Agency (2021). İnsurance- in Luxembourg.
14. Zakaria Fareed, (2021), Pandemi sonrası dünya için 10 ders, Kırmızı Yayınları, Istanbul
15. https://data.worldbank.org/
16. https://www.iii.org/
17. https://stats.oecd.org/
18. https://www.fitchratings.com/research/insurance/market-volatility-is-ukraine-wars-main-risk-for-european-insurers-17-03-2022
19. https://www.theguardian.com/business/2022/mar/24/ukraine-war-will-present-major-insurance-claims-warns-lloyds-of-london
20. https://www.reuters.com/business/lloyds-london-sees-major-claims-this-year-ukraine-conflict-2022-03-24/.
21. www.sabah.com.tr/galeri/yasam/hz-mevlana-sozleri-en-guzel-ozlu-ve-resimli-mevlana-celaleddini-rumi-sozleri/6

# ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ İQTİSADİ RAYONLARININ TURİZM POTENSİALININ TƏHLİLİ

**Xəyal Quliyev**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**xeyalquliyev761@gmail.com**

## Xülasə

Respublikamızın 14 iqtisadi rayonundan 2-si Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarıdır. Bu iqtisadi rayonlar ölkə ərazisinin təxminən 20%-ni əhatə edir. Bu iqtisadi rayonların ərazisi həm də ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın ölkəmizə qarşı apardığı dağıdıcı işğal siyasətinindən də müəyyən zərər görmüşdür. İşğal dövründə bu ərazilərdə yerləşən bir sıra turizm əhəmiyyətli abidələrimizə ciddi ziyan vurulmuşdur. Lakin 2020-ci sentyabrın 27-də düşmənin növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatı sonda ölkəmizin parlaq qələbəsi ilə yekunlaşdı və torpaqlarımız tam olaraq işğaldan azad edildi. Hazırda qarşıya qoyulan prioritet məsələlərdən biri də işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın müxtəlif sferalarının yenidən dirçəldilməsidir. Burada böyük inkişaf potensialı olan sferalardan biri də məhz turizmdir. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Qarabağın turizm potensialı kifayət qədər genişdir. Burada turizmin bir çox növləri - ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizminin inkişafı üçün bütün imkanlar mövcuddur. Azərbaycanın qədim tarixə malik olan bu bölgəsi özünün flora və faunası, mətbəxi, tarixi mədəni-dini abidələri, qədim qalaları, körpüləri, meşələri, bulaqları və s. görməli məkanları ilə turistləri cəlb edəcək.
**Açar sözlər:** turizm, potensial, Qarabağ, infrastruktur, stimullaşdırma

## Abstract

2 out of 14 economic regions of our republic are East Zangazur and Karabakh economic regions. These economic regions cover about 20% of the country's territory. The territory of these economic regions has also suffered from the destructive occupation policy pursued by Armenia against our country in the early 1990s. During the occupation, a number of our monuments of tourism importance located in these areas were severely damaged. However, the counter-offensive launched on September 27, 2020 in response to the next provocation of the enemy, ended with a brilliant victory of our country and our lands were completely liberated from occupation. One of the current priorities is the revival of various sectors of the economy in the liberated territories. One of the areas with great development potential here is tourism. Rich in underground and surface resources, the tourism potential of Karabakh is quite wide. There are many opportunities for the development of many types of tourism – ecotourism, mountain tourism, winter tourism, hunting tourism, health tourism. This region of Azerbaijan, which has an ancient history, has its own flora and fauna, cuisine, historical, cultural and religious monuments, ancient castles, bridges, forests, springs, etc. will attract tourists with its sights.
**Keywords:** tourism, potential, Karabakh, infrastructure, stimulation

## Giriş

**Tədqiqatın aktuallığı.** Bir çox inkişaf etmiş ölkələrdə turizmin inkişafına böyük diqqət ayrılır. Çünki turizm ölkə iqtisadiyyatına böyük miqdarda vəsait axınının təmin olunmasında ciddi rol oynayır. Həmçinin turizmin böyük sosial əhəmiyyəti də mövcuddur. Turizmin inkişaf etdiyi ərazilərdə tarixi abidələrin qorunmasına diqqət və qayğı göstərilir. Turizm sektorunda ayrılan bir yatırım digər sektorlarda da iqtisadi fəaliyyəti bərabərində gətirir və yeni iş yerlərinin yaradılmasına kömək göstərir. Yaradılan vahid gəlir isə həm turizm sektorunda həm də digər sektorlardakı yatırımlara müsbət təsir göstərir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları kifayət qədər əlverişli coğrafi zonada yerləşir. Belə ki, bu ərazilərimizin həm zəngin flora və faunaya, həm də nadir iqlim xüsusiyyətnə, münbit torpaqlara malik olması burada böyük turizm potensialının mövcudluğundan xəbər verir.

Müxtəlif iş adamları və biznes subyektləri tərəfindən Qarabağın turizm sahəsində fərqli layihələrin həyata keçirilməsi regionun turizm potensialının dolğun şəkildə realizə olunmasına kömək edə bilər. Eyni zamanda

dövlət tərəfindən qəbul olunacaq müxtəlif proqramlarda bu prosesi sürətləndirə bilər. İşğaldan azad olunmuş ərazilərimiz həm də müalicəvi əhəmiyyətə malik mineral və termal su mənbələri ilə də zəngindir.
Azad olunmuş ərazilərdə turizm sahəsinin inkişaf etdirilməsi həm də ölkəmizin iqtisadi artımında qeyri-neft sektorunun payının daha da artmasında mühüm rol oynaya bilər.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi işğaldan azad edilmiş ərazilərin turizm potensialının inkişaf perspektivləri üzrə nəzəri konseptual müddəalar və praktiki tövsiyyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqat işinin əsas vəzifələri bunlardır:

- İşğaldan azad olunmuş ərazilərdə turizm fəaliyyətinin təşkilati-iqtisadi əsaslarını müəyyənləşdirmək;
- Azad olunmuş ərazilərin turizm potensialının mahiyyətini, məzmununu, xüsusiyyətlərini açmaq;
- Qarabağın turizm potensialının qiymətləndirilməsi üçün metodologiyanın işlənib hazırlanması və sınaqdan keçirilməsi;
- Turizm sahəsində innovasiyaların təhlilinə metodoloji yanaşma təklif etmək;
- Qarabağda turizm sahəsində innovasiya və investisiya fəaliyyətini təhlil etmək;
- Turizm fəaliyyətinin stimullaşdırılması üçün strateji istiqamətləri əsaslandırmaq;
- Azad olunmuş ərazilərdə turizm-rekreasiya ehtiyatları tipli xüsusi iqtisadi zonanın formalaşdırılması əsasında turizm potensialının inkişafı və həyata keçirilməsi mexanizmini işləyib hazırlamaq.

**Tədqiqatın metodologiyası.** Tədqiqatın gedişində abstrakt məntiqi, emprik, iqtisadi statistik metodlardan, habelə ekspert qiymətləndirmə metodu, struktur, funksional və statistik təhlil üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri.** İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri davam etdiyindən mövcud vəziyyətlə əlaqədar turizm potensialının ayrı-ayrı sahələr üzrə dəyərləndirilməsinin və uyğun elmi ədəbiyyatın məhdudluğu səbəbindən əsasən işğala qədər formalaşmış turizm potensialı təhlil edilmiş, həmçinin bərpa-quruculuq işləri bitdikdən sonra ərazilərin iqtisadi potensialının inkişaf istiqamətləri göstərilmişdir.

**Tədqiqat ilə bağlı əsas istinad olunan mənbələr.** Tədqiqatın aparılmasında informasiya bazası kimi yerli müəlliflərin elmi əsərlərindən və məqalələrindən, vaxtilə azad edilmiş ərazilər haqqında yazılmış tədqiqat işlərindən, Dövlət Statistika Komitəsinin hesabatlarından, mövzu üzrə bir sıra internet resurslarından istifadə edilmişdir.

## İşğaldan Azad Edilmiş Ərazilərdə Ümumi Turizm Mənzərəsi

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkəmizin turizm baxımından yüksək inkişaf potensialına malik ərazilərindən hesab olunur. 44 günlük Vətən Müharibəsində qazanılmış parlaq qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə bütün sahələrdə olduğu kimi turizm sahəsinin inkişafına da diqqət ayrılır. Ölkəmizin müəyyən ərazilərində, xüsusən Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarının ərazilərində həm yay, həm də qış turizmi müəyyən inkişaf yolu keçmişdir. Bu ərazilərdə əldə olunmuş təcrübəni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm inkişafında istifadə etmək olar. Bununla yanaşı, müxtəlif yeniliklərin də tətbiqi zəruridir.

İşğaldan azad edilmiş ərazilərin turizm potensialı Qarabağ və Şərqi Zəngəzurda biznes proseslərinin intensivləşdirilməsinə yeni yollar aça bilər. Burada gözəl, əsrarəngiz, füsunkar təbiət guşələri, mualicəvi mineral sular, turizm-rekreasiya potensialı var. Kəlbəcər və Zəngilanın termal su mənbələri, Şuşanın balneoloji mərkəzləri, kanat yolları kimi böyük potensialı var, Cəbrayıl rayonundakı Xudafərin körpüsü, Füzuli rayonundakı Azıx mağarası yeni turist marşrutları üçün cəlbedici ola bilər. Qarabağda xalça turlarının

təşkil olunması böyük maraq doğura bilər. Turşsu yaylasının mualicə-sanatoriya potensialı çərçivəsində böyük turizm kompleksinin, turizm klasterinin yaradılması imkanı mövcuddur. Bu ərazilərdə mövcud olan dini, ekoloji, aqro turizm, həmçinin, turizmin başqa istiqamətləri üçün əlverişli turizm biznesi imkanlarını da diqqətdən kənara qoymaq olmaz. İşğaldan azad olunmuş Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından azsaylı regionlardan biri hesab olunur. Çünki bu ərazini yayda və qışda, istər tarixi, dini, istərsə də müalicəvi cəhətdən turizm istiqamətində inkişaf etdirmək mümkündür. Həmçinin, digər azad olunmuş ərazilərdə də turizm potensialı yüksəkdir. Artıq Qarabağ bölgəsində turizmin dirçəldilməsi üçün mümkün biznes imkanları araşdırılır, təkliflər verilir və fəaliyyət strategiyaları üzərində sürətli iş gedir.

İşğaldan azad olunmuş ərazilərdə müxtəlif təbii abidələri, nadir bitki və heyvan növləri yayılmışdır. Kiçik Qafqazın dağlıq zonası Azərbaycanın iri meşə rayonudur. Regionun ümumi meşə sahəsi təxminən 246.7 min hektardır. Bu meşə sahəsinin 13197 ha qiymətli meşə sahələri hesab olunur. Azərbaycanda xüsusi mühafizə edilən təbiət ərazilərinin sahəsi hazırda 890 min hektara çatdırılıb. Bu meşə sahəsinin 42997 hektarı azad edilmiş ərazilərin payına düşür(http://ereforms.gov.az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193).

Azad edilmiş ərazilərdə yerləşən mədəni və ekoturizm obyektlərinin siyahısı Cədvəl 1-də verilmişdir.

Cədvəl 1: Azad olunmuş ərazilərdə yerləşən turizm obyektləri

| Şərqi Zəngəzur | Qarabağ |
|---|---|
| • Gəncəsər monastrı | • Ağdam cümə məscidi |
| • Xudavəng monastrı | • Şahbulaq qalası |
| • Lex qalası | • Pənahəli xan sarayı |
| • Zar mağarası | • Çörək muzeyi |
| • Böyük bulaq | • Qutlu Musa türbəsi |
| • Ağoğlan monastrı | • Azıx mağarası |
| • Dəmirovlu pir məbədi | • Amaras monastrı |
| • Məlik Əjdər Türbəsi | • Tağlar mağarası |
| • Həmzə Sultan sarayı | • Dizaq məlik sarayı |
| • Uşaq qalası | • Ktişvəng monastrı |
| • Xudafərin körpüsü | • Ağ xaç kilsəsi |
| • Laləzar körpüsü | • Qırmızı kilsə |
| • Gürcülü türbəsi | • Yeddi qapı monastrı |
| • Hacı Bədəl körpüsü | • Şeyx babı türbəsi |
| • Oğlan-Qız daşı | • Şah Abbas karvansarayı |
| • Məmmədbəyli türbəsi | • Mirəli türbəsi |
| • Şəhri-Şərifan şəhərinin qalıqları | • Alı körpüsü |
| • Qız Qalası | • Kərəm körpüsü |
| • Zəngilan şəhər məscidi | • Bərdə imamzadə türbəsi |
| • Qız Qalası | • Müqəddəs Yelisey monastrı |
| • Sultan Məcid hamamı | • Tərtərçayı üzərində qədim körpü |
| • İstisu | • Suqovuşan |
| • Qoturlu | • Ağgöl Milli Parkı |
| • İlıqsu | • Köndələnçay su anbarı |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (https://ereforms.gov.az/files/review/pdf/az/50106b9302c648fb32645cc9493f2dad.pdf)

Təbii landşaftı, nadir bitki ehtiyatlarını və heyvanat aləmini mühafizə etmək məqsədi ilə Qarabağın işğaldan azad olunmuş ərazilərində vaxtilə bir neçə qoruq və yasaqlıqlar təşkil edilmişdir. Bunlara misal olaraq Bəsitçay Qoruğunu, Laçın yasaqlığını göstərə bilərik. Bəsitçay qoruğu Azərbaycanın cənub-qərb hissəsində Zəngilan ərazisində Bəsitçayın dərəsində 1974-cü ildə yaradılıb. Qoruğun sahəsi 107 hektardır. Bu qoruqda qorunan əsas ehtiyatlar şərq çinarlarıdır. Çay boyunca çinar meşəliyi 12 km məsafəyə qədər uzanır. Burada 500 ilə yaxın yaşı olan şərq çinarları bitirdi və bu şərq çinarı hazırda "Qırmızı Kitab"a daxil edilib.
Laçın yasaqlığı Azərbaycanın Laçın rayonunda 1961-ci ildə təşkil olunmuşdur. Sahəsi 21.4 min hektardır. Yasaqlıqda bir sıra heyvanlar, o cümlədən, dağ keçisi, cüyür, çöl donuzu, turac, kəklik mühafizə edilirdi. Həmçinin, Şuşa şəhərinin cəlbedici təbiəti də turizmin inkişafı baxımından əlverişlidir. Azərbaycanda əsasən Şuşa ətrafında bitən xarıbülbül Qarabağın rəmzi hesab edilir.
Ehtimal olunur ki, Azərbaycanda mineral suların ümumi geoloji ehtiyatlarının 39.6%-işğaldan azad edilmiş iqtisadi rayonlarımızın payına düşür.
Bunların arasında Kəlbəcər rayonu ərazisində yerləşən Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda mövcud olan İlıqsu, Minkənd, Şuşada yerləşən Turşsu, Şırlan və digər mineral sular diqqəti xüsusilə cəlb edirlər (http://ereforms.gov.az/media/xeberler/isgal-olunmus-erazilerin-azad-edilmesi-azerbaycan-iqtisadiyyatina-ne-ved-edir-193).
Kəlbəcər rayonunda yerləşən İstisu mineral bulaqları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə fərqlənir. İstisu bulağının ərazisində ötən əsrin 80-ci illərində böyük kurort və mineral sudoldurma zavodu inşa edilmişdir. Bu zavod sutkada 800 min litr su istehsal edə bilirdi. Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərindən 17 km-lik məsafədə yerləşir. Turşsunun koməyi ilə müxtəlif daxili xəstəliklər müalicə edilir, buradan çəkilmiş su kəmərinin köməyi ilə Şuşa şəhərinə su verilirdi.
Həmçinin, regiondakı bol mineral su ehtiyatı içki sənayesində yeni emal güclərinin, içki sənayesi/rekreasiya/turizm üçbucağında müasir turist qovşağının təşkil olunmasına şərait yarada bilər (http://interfax.az/print/817974/az).

**Şərqi Zəngəzur İqtisadi Rayonunun Turizm Potensialı**

**Kəlbəcər rayonu**

Kəlbəcər rayonu ölkəmizdə əsas turizm destinasiyalarından birinə çevrilməsi üçün olduqca yüksək potensiala malikdir.
Kəlbəcərdə turizm sferasının inkişafı üçün gözəl təbiət, əlverişli relyef, zəngin mineral su ehtiyatları dövlətin iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Yuxarı İstisu, Aşağı İstisu kimi çox mühüm müalicəvi təsirə malik olan mineral su ehtiyatları da mövcuddur. Kəlbəcər ərazisində həm də Alagöllər, Qaragöl, Zalxa gölü və s. göllər də mövcuddur. Kəlbəcərin ən yüksək zirvələri Gamışdağ (3724 metr) və Dəlidağdır (3616 metr). Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral bulaq suları özünün əlverişli qazı və kimyəvi tərkibinə, yuxarı temperaturuna, böyük təbii ehtiyatına görə xüsusi fərqlənir. Onun suyu ilə insanın xarici və daxili xəstəliklərinin müalicəsi mümkündür. İstisu bulağının ərazisində 80-ci illərdə böyük kurort və mineral sudoldurma müəssisəsi tikilmişdir. Həmin müəssisə gün ərzində 800 min litr su istehsal etmək potensialına malik idi. Kəlbəcər rayonunun İstisu qəsəbəsində müalicəvi İstisu sanatoriyaları fəaliyyət göstərirdi. Orada hər il 50 mindən çox insan müalicə alır, həmçinin istirahət edirdi. Bu cür sanatoriyaların yenidən bərpa olunması və fəaliyyət göstərməsi buraya olan turist marağını yenidən

artıracaq (https://ereforms.gov.az/az/media/xeberler/kelbecer-zengin-tebii-resurslara-ve-turizm-potensialina-malikdir-108).
Kəlbəcər ərazisi bir çox turistlərdə maraq oyadacaq tarixi abidələrlə zəngindir. Burada alban dövrünə aid çoxlu sayda tarixi abidələr var. Kəlbəcərin Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı ehtimal edilir. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarıdır.

**Laçın rayonu**

Azərbaycanın cənub-qərb hissəsində, dağlıq relyefdə yerləşən Laçın turizm məkanı kimi böyük potensiala malikdir. Zəngin florası və faunası, sahəsi 21 min hektardan artıq olan Laçın qoruğu və İlıqsu müalicəvi əhəmiyyətə malik mineral bulağı ərazinin turizm imkanlarını daha da artırır. Ərazinin dağlıq relyefə malik olması gələcək dövrdə burada dağ və qış turizminin inkişafına imkan yaradacaq. Bu rayonumuzda da beynəlxalq hava limanının inşası planlaşdırılır.
Laçın rayonunda olan İlıqsu müalicəvi əhəmiyyətə malik mineral bulağı və zəngin flora və faunaya sahib olan, sahəsi 21 min hektardan yuxarı olan Laçın yasaqlığı bu regionun turizm imkanlarını bir az da artıracaq. Biz bu imkanlardan yararlanaraq rayonda "içki sənayesi-turizm-rekreasiya" üçbucağının yaradılmasını təmin edə bilərik. Əgər bu işi müasir tələblərə müvafiq şəkildə qursaq, bu üçbucaq zəncirvari reaksiya yolu ilə turizm üçün daha cəlbedici amilə çevriləcək (https://www.7news.az/az/lacinin-iqtisadi-potensiali-turizm-kend-teserrufati-heyvandarliq/).
Laçın ərazisində Cicimli kəndində türbələr (XIV əsr), kurqanlar (Dəmir dövrü), Qoçaz kəndi ərazisində Mağara məbədi (V əsr) bu rayonun turizm perspektivini daha da artırır.
Laçın rayonunda sağlamlıq turizminin inkişafı baxımından çox gözəl imkanlar var. Belə ki, Çardaqlı və İlıqsu mineral bulaqları, müxtəlif xəstəliklərin müalicəsi üçün geniş şəkildə istifadə olunur.

**Qubadlı rayonu**

Qubadlı rayonu da böyük turizm potensialına malik rayonlarımızdan biridir. Bu rayonumuzun zəngin təbiəti meşə turizminin inkişaf etdirilməsi üçün zəmin yaradır. Qubadlı rayonu ərazisində iki əsas çay keçir. Bazarçay şəhərin tən ortasından keçir. Həkəri çayı isə təkcə Qubadlının yox, bütün Azərbaycanın, böyük sərvətidir.
Qubadlının füsunkar təbiəti, meşələri, dağları, sərin bulaqları insanın ruhunu oxşayır. Buraya gələnlər Qubadlının gözəl təbiətindən ağızdolusu danışırlar. Bu ərazilər yaxın gələcəkdə turistlər üçün çox cəlbedici olacaq.
İşğal dövründə erməni vandalizmi nəticəsində burada bir çox turizm məkanlarımız viran edilib. Onlar qısa müddətdə bərpa ediləcək.
Qubadlıda turizm sahəsinin inkişafı üçün xeyli sayda tarixi-mədəni obyekt var. XIX əsrdə tikilmiş məşhur Hacı Bədəl körpüsü, 1867-ci ildə Bərgüşad çayı üzərində tikilmiş altı oval, üstü düz formada inşa olunmuş Laləzar körpüsü, Məmər kəndində XVIII əsrdə inşa edilmiş tarixi məscid, Dondarlı və Dəmirçilər kəndindəki məscidlər, Azərbaycanın səkkizguşəli türbələri içərisində unikal formasıyla seçilən Gürcülü türbəsi, Sarıbulaq, Paşa bulağı, Şirin bulaq, Məşhədi Allahverdi kimi müalicəvi bulaqlar, VI və VII əsrlərə tikildiyi bildirilən alban abidələri, Qubadlının simvolu hesab olunan qoç heykəllər və qəbir daşları, V əsrə aid Göy qala, Qalalı kimi tarixi tikililər mövcuddur. Onların böyük bir hissəsinin ermənilər tərəfindən dağıdılmasına baxmayaraq, tezliklə bərpa edilərək istifadəyə veriləcək.
XIX əsrdə inşa olunmuş Hacı Bədəl körpüsü Dəmirçilər kəndinin ərazisində yerləşir. Yaz fəslində Ağa çayının güclü selinin körpünü dağıtmaması məqsədilə tikili tağbənd formasında inşa olunub. Körpünün

tikilişində tuf daşdan (xüsusi bəzək vurmaqla), əhəng və yumurta sarısından istifadə olunub (https://xalqqazeti.com/az/news/88587).
Məmər kəndinin ərazisində XVIII əsrdə inşa edilmş tarixi memarlıq tikilisi sovet dövründə anbara çevrilsə də, müstəqilliyimizin ilk illərində bərpa olunaraq əhalinin ibadəti üçün istifadəyə verilib.
XVIII əsrdə tikmiş memarlıq abidəsi olan Gürcülü türbəsi Qubadlı rayonunun memarlıq incilərindən hesab olunur. Bəzi xüsusiyyətlərinə görə ölkəmizin səkkizguşəli türbələri içərisində unikallığı ilə diqqəti cəlb edir. Sarıbulaq, Paşa bulağı, Şirin bulaq, Məşədi Allahverdi bulaqları da insanların daha çox ziyarət etdiyi yerlərdəndir. Sarıbulağın suyundan sarılıq xəstəliyinin müalicəsi zamanı istifadə edilir.
Qubadlının əksər guşələri yaşıl turizmin inkişafı üçün olduqca əhəmiyyətlidir. Bərgüşad çayı boyu bir sıra kəndlərimiz meşəlik zonada yerləşir. Seytas, Qayalı, Qədili, Təmir Müskanlı, Eyvazlı kəndlərinin möhtəşəm, füsunkar mənzərələri var. Kənd-yaşıl turizm həvəskarlarını bu yerlərə səyahət etmək üçün stimullaşdırıcı tədbirlər təşkil etmək çox faydalı olacaq (http://femida.az/az/news/141502/qubadlinin-turizm-potensiali-fotolar).
Qubadlıda meşə ərazilərinin, çayların mövcudluğu çadır turizminin inkişafına da təkan verəcək. Həmçinin, burada toxunmuş xalçaları, ipək məhsullarını da turistlərə hədiyyə verməklə onlarda rayon haqqında müsbət təsəvvür formalaşdırmaq mümkündür.

**Zəngilan rayonu**

Zəngilan rayonu da böyük turizm potensialına malik rayonlarımızdan biridir. Bu rayonumuz dah çoxözünəməxsus çinar ağaclarına görə məşhurdur. Həmçinin, rayonun təbiət baxımından da zəngin olması ərazidə eko-turizmin inkişafına təkan verəcək. Zəngilanda hava limanının inşa edilməsi də buraya həm yerli, həm də xarici turistlərin asanlıqla səyahət etməsinə şərait yaradacaq.
Zəngilan həm də özünün tarixi abidələri ilə fərqlənir. XIV əsrə aid edilən, səkkizguşəli prizmadan ibarət Məmmədbəyli türbəsi, XII əsrdə inşa olunmuş qədim Şərifan şəhərinin qalıqları, Ağbiz kəndində mövcud olan eyni adlı tarixi bulaq, xalq qəhrəmanı Koroğlunun adı ilə hallandırılmış ağ rəngli daş, rayonun Babalı kəndi ərazisində yerləşən alban kilsəsi və 107 hektar ərazidə, xüsusilə nadir təbii çinar meşəliyinin qorunması məqsədilə yaradılmış Bəsitçay qoruğu bu rayonun turizm potensialını daha da artırır (Zəngilanlı və Rəhimoğlu, 2015).

**Cəbrayıl rayonu**

Cəbrayıl rayonu da Azərbaycanın geniş turizm potensialına malik ərazilərindən biridir. Cəbrayıl rayonu Azərbaycanda tarixi abidələr, həmçinin dini təyinatlı abidələrlə zəngin rayonlardan biri hesab edilir. Bu abidələrə nümunə olaraq Dağ-Tumas kəndinin yaxınlığında mövcud olan “Divlər Sarayı” mağarası, Qalacıq ərazisində yerləşən “Məscid Təpəsi”, “Canqulu” və “Qumtəpə” kurqanları, Tatar kəndinin yaxınlığında yerləşən Qızılqaya dağında mövcud olan Sigeon tikilisi, Şıxlar kəndinin yaxınlığındakı şəhərcik qalıqları, qışlaq yerləri, Diri dağında yerləşən Mazannənə, Mərmər nənə məqbərələri, Dağtumas kəndində mövcud olan “Başıkəsik Gümbəz”, Sirik kəndində yerləşən “Qala”, Diri dağında mövcud olan “Qız qalası”, Xudafərin körpüsü, Çələbilər kəndində tikilmiş məscid kompleksi, rayon mərkəzində inşa olunmuş “Sultan Məcid hamamı”, Şıxlar kəndində yerləşən “Dairəvi Türbə”, Xubyarlı kəndində mövcud olan dairəvi səkkiz guşəli türbələ və məqbərələr, türk qəbiristanlığında inşa edilmiş türbə və məqbərələri misal çəkmək olar. Rayon ərazisində çox sayda yazılı abidələr var ki, bunların içərisində Ağoğlan ərazisində yerləşən Orxon yazılı abidəsini xüsusi qeyd etmək lazımdır (http://www.cabrail-ih.gov.az/az/news/465.html).
Cəbrayıl rayonunda turizmin inkişafına həm də onun ərazisindəki dini abidələrlə nail olmaq olar. Məscid, xanəgah, türbə və məqbərələrdən əlavə, rayon ərazisində 40-a qədər ziyarətgah mövcuddur. Cəbrayıl

rayonunun Böyük Mərcanlı kəndinin ərazisində Lalə ocağı, Horovlu kəndi yaxınlığında Qan ocağı, Sarı ocaq və Çələbi ocağı, Çaxırlı kəndinin ərazisində Yel ziyarətgahı, şəhər mərkəzi yaxınlığında Ağoğlan ziyarətgahı, Xubyarlı piri və digər abidələr yerli əhalinin ziyarət etdiyi dini-inanc yeri kimi mühüm əhəmiyyət kəsb edir. İşğal müddətində ən çox zərər görmüş mədəni irsimiz sırasında İslam mədəniyyətinin nümunələri olan abidələrimiz üstünlük təşkil edir.

Araz çayı üzərində müxtəlif dövrlərdə çox sayda körpülər salınsa da, onlardan yalnız ikisi Cəbrayıl rayonunda dövrümüzə gəlib çıxmışdır. Biri digərindən 750 metr məsafədə salınmış bu körpülər Araz çayının yatağında ən əlverişli keçidlərdən olan Xudafərin dərəsində yerləşir. Burada genişlənmiş çay yatağında iri qayalıqlar mövcuddur. Bu qayalar körpünün tağları üçün güclü təməl rolu oynamışdır. Körpülər arasında böyüyü 15 aşırımlıdır və memarlıq üslubu baxımından XII əsrə aid abidə hesab olunur. Qumlaq kəndinin ərazisində salınmış bu abidənin əsası daha qədim zamanlarda qoyulmuşdur. Körpü tarix boyu bir neşə dəfə  təmir-bərpa işlərinə məruz qalaraq indiki görünüşünü almışdır.

Xudafərin körpüsü Yaxın və Orta Şərq regionunda ən möhtəşəm və ən məşhur körpülərindən biri hesab edilir. Qəzvini öz əsəsrində yazırdı ki, Xudafərin körpüsünü Məhəmməd peyğəmbərin yaxın adamı sayılan Bəkir ibn Abdulla miladi təqvimlə 736-cı ildə inşa etdirib. Digər mənbələrdən birində isə körpünün Bəkir ibn Abdulla tərəfindən tikilmədiyi və yalnız təmir edildiyi qeyd olunub. Hətta belə bir fikir də mövcuddur ki, Bəkir ibn Abdulla ərəb qoşunları Qarabağ ərazisinə yaxınlaşdığı zaman şimal və cənubu birləşdirən bu körpünü görərkən belə bir ifadə işlədir: “Xudaya Afərin”. Xudafərin körpüsünün adının buradan gəlməsi də ehtimal olunur (Salamzadə və Məmmədzadə, 1979).

Əksər araşdırmaçıların fikrinə görə, körpülərin dayaqları çayda mövcud olan olan təbii sal daşların üstündə qurulduğuna görə onlara “Xudafərin” adı verilib. Bir sözlə, hələ ki, Xudafərin körpüsünün sirri tam şəklidə aydınlaşmayıb.

Xudafərin körpüsü Cəbrayıl rayonunun turizmin həyatının inkişaf etdirilməsi baxımından rayonun əsas turist məntəqələrindən birinə çevrilə bilər.

**Füzuli rayonu**

Füzuli rayonu daxili və gəlmə turizmin inkişafı imkanlarına görə ən cəlbedici rayonlarımızdan biridir. Xüsusən nəzərə alınmalıdır ki, Füzuli rayonunun Qarabağın dağlıq hissəsinə yaxın olan ərazisində iqlim və təbiət xarici turistlər üçün cəlbedici ola bilər. Bu da, sozsüz ki, turizmin inkişaf etdiriliməsi üçün geniş imkanlar yaradır. Həmçinin, Füzuli rayonunda xeyli sayda tarixi abidə var. Misal üçün, Azıx mağarası, şəhərin yaxınlığında yerləşir. Füzulinin Qarğabazar kənd ərazisində Şah İsmayıl məscidi mövcuddur. Şah İsmayıl bu məsciddə namaz qılıb. Füzuli rayonunda müxtəlif tarixi və dini abidlər mövcuddur ki, bu da gəlmə turizmin inkişafı baxımından olduqca cəlbedicidir və bu prosesi sürətləndirə bilər (https://aqreqator.az/az/cemiyyet/1106924).

Füzuli, eyni zamanda, dünyanda ən qədim insan məskənlərindən biri sayılır. Belə ki, Azıx mağarası da məhz bu rayonumuzun ərazisində yerləşir. Füzuli rayonunda müxtəlif zamanlarda Qaraköpəktəpədə, Qarabulaq kurqanları, Günəştəpə, Quruçay sahilləri və digər ərazilərdə tədqiqatlar həyata keçirilib. Bu tədqiqatlarla Azərbaycanın qədim köklərə malik olduğu sübut olunub. 1968-ci ildə arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən Füzuli rayonunda aşkar edilmiş Azıxantrop adamının alt çənə sümükləri rayon mərkəzinin 15 km-lik məsafəsində yerləşmiş Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin ciddi nəaliyyətlərindən olan bu abidə Qarabağda Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcud olduğunu sübuta yetirdi (Salamzadə və Məmmədzadə, 1979).

Füzulidə istifadəyə verilmiş beynəlxalq hava limanı regionun ən qısa müddətdə inşa edilmiş hava limanlarından biri sayılır. 2021-ci ildə inşası yekunlaşmış hava limanında artıq bir neçə uçuş baş tutub. Hava

limanının infrastrukturu üç kilometr uzunluğunda və altmış metr enində olan uçuş-enmə zolağı, 60 min kvadratmetrlik səkkiz təyyarənin durması üçün sahə, sərnişinlərə xidmət göstərən terminal, təyyarələrin idarə olunması üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və digər köməkçi tikililərdən ibarətdir. Hava limanı, həmçinin, bir saat ərzində 200 sərnişinə xidmət etmək qabiliyyətinə malikdir. Bu hava limanı təkcə Füzulinin yox, eləcə də digər işğaldan azad edilmiş ərazilərə həm yerli, həm də xarici turistlərin rahat gediş-gəlişini təmin edəcək.

**Qarabağ İqtisadi Rayonunun Turizm Potensialı**

**Ağdam rayonu**

Ağdam rayonu da işğaldan əvvəlki dövrdə zəngin turizm potensialına malik bir ərazi kimi tanınıb. Həm dağlıq, həm də dağətəyi ərazilərdə yerləşən rayonda çoxlu sayda müalicəvi mineral bulaqlar, zəngin təbiəti özündə ehtiva edən Gülablı və Şelli kəndlərində sanatoriya, həmçinin, Şahbulaqda turizm bazası mövcud olub. Belə turizm və müalicə müəssisələri Azərbaycanı həm dünyada tanıdır, həm də dövlət büdcəsinə əhəmiyyətli gəlir gətirirdi.

İşğaldan əvvəlki dövrdə kurort və istirahət mərkəzləri turistləri öz gözəllikləri ilə yanaşı, müalicəvi xarakterinə görə də cəlb edirdi. Ağdamda Gülablı kəndində 100, Şelli kəndində 50, Şahbulaqda 40 yerlik istirahət-müalicə kurortları fəaliyyət göstərirdi.

Ağdam rayonunun düşmən işğalından azad edilməsi yeni iqtisadi təşəbbüsləri ortaya qoyur. Ağdam rayonunun ərazisi əkinçilik və heyvandarlıq təsərrüfatlarının yaranması, sənaye bölgəsinin formalaşması, turizmin inkişafı baxımından geniş perspektivlər vəd edir.

Ağdam rayonunun əlverişli iqtisadi və coğrafi mövqedə yerləşməsi, gözəl təbii və iqlim xüsusiyyətləri, münbit torpaqları, zəngin ehtiyatları, qeyri-adi flora və faunası Azərbaycanın turizm sənayesinin inkişafı üçün yeni imkanlar açır. Bu ərazilərə qoyulmuş investisiyalar turizm sahənin iş adamları üçün geniş imkanlar yarada bilər.

Azərbaycanda xidmət və turizm sektorunun inkişafına diqqətin artırılması, başqa sözlə desək, xidmət və turizm sahəsində kadr hazırlığına və peşəkar təhsilin verilməsinə xüsusi yanaşma tələb edir. Azərbaycanda rəqabət əsaslı turizm fəaliyyəti, ölkənin sosial-iqtisadi inkişafına aşağıdakı imkanları yaradır:

- yeni xidmət növlərinin və xidmət formalarının sürətli inkişafını təmin edir;
- əhalinin keyfiyyətli xidmətə artan tələbatını ödəmək üçün səy göstərir;
- ixtisaslı mütəxəssislərə xidmət və turizm müəssisələrinə olan tələbatın artması əsasında əmək bazarından peşəkarlarla təmin edilməsi prosesi baş verir;

Prezidentin sərəncamına uyğun olaraq 2006-cı ildə yaradılmış Azərbaycan Turizm İnstitutu, 2014-cü ildə yaradılmış Azərbaycan Turizm və Menecment Universiteti, respublikanın regionlarındakı ixtisaslaşdırılmış təhsil müəssisələri üçün yüksək peşəkar kadrların hazırlanmasında mühüm rol oynayır. Turizm bazarı iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi və tənzimlənməsi, turizm sənayesi üçün peşəkar kadrların hazırlanmasına köməklik göstərilməsi və sektorda çalışan işçilərin sertifikatlaşdırılması, Azərbaycan Turizm Assosiasiyasının prioritet planlarındandır.

Ölkənin bir çox regionlarında Amerika İnstitutu AHLEİ (The American Hotel & Lodging Educational Institute) tərəfindən hazırlanmış xüsusi proqramlardan istifadə etməklə turizm şirkətləri, otellər və restoranlar üçün kadrların hazırlanması məqsədilə bir sıra təlimlər keçiril. Bu otel sənayesi üçün hər cür təhsil və təlim proqramları ilə məşğuldur ki, bu da Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının "Azərbaycanda turizmin inkişafı layihəsi" çərçivəsində icra olunur. Regional turizm informasiya mərkəzlərinin əməkdaşları üçün təşkil olunmuş təlim-seminarında müasir təcrübədə geniş tətbiq olunan müxtəlif mehmanxana rezervasiya sistemləri və növləri , turizm agentliklərinin və mehmanxanaların uğurlu fəaliyyəti üçün zəruri olan qanunvericilik bazası vardır.

Azərbaycanda turizm sənayesini inkişaf etdirmək üçün əsas məsələlər həll edilməli və turizmin iqtisadiyyatın prioritetlərindən biri kimi tanınması, biznes qurumları arasında koordinasiya, infrastruktur və nəqliyyat əlaqələrinin inkişafı, rəsmiləşdirmələrin asanlaşdırılması, peşəkar marketinq, dünya turizm bazarında tələb olunan mal və xidmətlərin istehsalı, tətbiqi turizm sənayesində yeni texnologiyaların yardılması lazımdır (Fache, 2015).

Son zamanlar Azərbaycanda beynəlxalq turizm sərgiləri tez-tez baş verir və müntəzəm olaraq keçirilən sərgilərdən biri də yerli turizm şirkətlərini, mehmanxanaları, mehmanxana şəbəkələrini, sanatoriyaları, pansionatları, aviaşirkətləri, turoperatorları və turizm agentliklərini, müxtəlif turizm növlərini, VIP turları, turistlərə təqdim edən Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi bu məsələdə mühüm rol oynayır. Bu sərgilərdə səfər qonaqları və müxtəlif istiqamətlər ilə tanış olmaq imkanı yaranır. Sərgi fəaliyyətində, eləcə də onun rolunda müsbət tendensiyalar mövcuddur.

Ölkənin turizm sektorunda rəqabət qabiliyyəti olan turizmin formalaşması və sərgilər əsasında dünyanın bir çox ölkəsindən yüzlərlə bu istiqamətdə fəaliyyət göstərən firma və ya şirkətləri bir araya gəldiyi üçün səmərəli hesab edilir. Azərbaycanın UNWTO-nun üzvü olmasına baxmayaraq, Beynəlxalq "Turizm və Səyahət" sərgilərində Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi "İpək Yolu" layihəsinin həyata keçirilməsi üzrə tərəfdaşlıq sazişi mühüm əhəmiyyət kəsb edir.

Ümumdünya Turizm Təşkilatı (UNWTO) Azərbaycanda turizmin inkişafı üçün mühüm istiqamətlər müəyyən etmiş və Azərbaycan öz mətbəxi ilə bütün dünyada məşhur olmuşdur. Milli yeməklərimiz öz incəliyi, orijinallığı ilə dünyanın müxtəlif yerlərindən gələn turistləri cəlb edir. Bakıda müvafiq beynəlxalq konfransların keçirilməsi "İpək Yolunun dadı" birgə layihəsi uğurlu layihə hesab edilir. "AITF" sərgisinin keçirilməsi öz iştirakçılarına bir sıra üstünlüklər verir ki, bu da, mədəni və işgüzar proqramın birləşməsi, turizmin əsas peşəkar iştirakçılarının toplanması, Azərbaycanın beynəlxalq nüfuzu və zəngin turizm potensialını nümayiş etdirir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən sərgilərdə yüzlərlə firma və ya şirkətlərin təmsil olunması, Azərbaycanın regional istirahət zonalarının, sanatoriya və mehmanxanalarının parlaq şəkildə nümayiş etdirilmişdir. Azərbaycan xalqının zəngin folkloru, mətbəxi və adət-ənənələri təqdim olunması, şübhəsiz ki, turizm potensialının inkişafına, ölkənin müsbət turizm imicinin yaradılmasına, yerli turizm obyektlərinin beynəlxalq miqyasda tanıdılmasına müsbət təsir göstərir (Fache, 2015).

Avropanın ən böyük ixtisaslaşmış sərgilərində iştirak edən Azərbaycan dünya turizm biznesi arenasına inamla çıxmışdır və Azərbaycan 2003-cü ildən iştirak etdiyi "ITB Berlin 2013" sərgisinin tərəfdaşı hesab edilir (Ахмедов, Гаджиев, Заманов, 2012). İTB Berlin bütün dünyada turizm sənayesi üçün ən böyük təcrübə meydanı hesab edilir. Bu sərgi kommersiya əlaqələrinin və kommunikasiyaların qurulması üçün ən mühüm forum kimi qiymətləndirilir. Müxtəlif simpoziumların, seminarların, ekspertlərlə görüşlərin, mətbuat üçün dəyirmi masaların keçirilməsi üçün nəzərdə tutulan bu platforma səmərəli bir alətdir.

"ITB Berlin" sərgisi yeni ideyaların təbliğində və dünyanın müxtəlif ölkələrinin nailiyyətlərinin tətbiqində mühüm yardım göstərir, turizm məhsullarının böyük seçimini təqdim edir. Bu, müxtəlif tədbirlərin keçirilməsini, hərtərəfli əlaqə proqramlarından istifadəni nəzərdə tutur. Azərbaycanın turizm sənayesinə beynəlxalq təcrübə cəlb etməsinin mühüm təsdiqi Bakı Turizm İnformasiya Mərkəzi ilə Fransa Turizm İnstitutu arasında müqavilənin bağlanmasıdır.

Fransa Turizm İnstitutunun mütəxəssislərinin təcrübəsindən istifadə edərək Azərbaycanda turizmin inkişafı sahəsində 100 zəruri proqram və layihə həyata keçirilmiş və Fransanın əsas turizm regionları, turizm şirkətləri, turizm mütəxəssisləri assosiasiyaları və təhsil müəssisələri tərəfindən yalnız turizm sahəsində tədqiqat, innovasiya və peşəkar təhsil üçün yararlıdır. Həmçinin Azərbaycanda Avropa İttifaqı "Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin turizm şöbəsinin potensialının gücləndirilməsi" tvinninq layihəsini həyata keçirilmişdir.

Azərbaycan turizmində inteqrasiya proseslərinin parlaq göstəricisi ölkədə kifayət qədər əhəmiyyətli sayda dünya şöhrətli mehmanxana şəbəkələrinin olmasıdır. Onların arasında "Jumeirah Hotel"in açılışı, Türkiyənin lüks otellər şəbəkəsi "Rixos", "Hilton Baku Hotel", beşulduzlu "Four Seasons Hotel Baku", beşulduzlu "JW Marriott Absheron" və bir çox digərləri hal-hazırda fəaliyyət göstərir və onlar otel sənayesinə inteqrasiya proseslərinə böyük töhfə verir və onun inkişafına təsir göstərir. Bakı Turizm İnformasiya Mərkəzi ilə Fransa Turizm İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bu vacib məsələlərdə irəli gələn bir sıra nəticələri aydınlaşdırmaq olar ki, bu da, mehmanxanaların yüklənməsinin həyata keçirildiyi müvafiq, sifariş sisteminin olması səbəbindən çoxlu sayda ziyarətçi cəlb etmək imkanı yaranır (Ахмедов, Гаджиев, Заманов, 2012).

Daha aktiv reklam vasitələri ilə yeni müştərilərin diqqətini cəlb etmək və daimi müştərilərlə əlaqə saxlamaqla, yüksək keyfiyyətli xidmətlərin göstərilməsi üçün ən böyük maliyyə imkanlarının əldə edilməsi və mövcud işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, eləcə də daha ixtisaslı kadrların cəlb edilməsi məsələlərini həll etmək. Turizm sənayesi beynəlxalq xidmət ticarətinin ən dinamik inkişaf edən formalarından biridir ki, burada turizm xidmətləri insanların ən çox tələb etdiyi və istehlak etdiyi xidmətlərdən biri hesab edilir. Turizm sosial, iqtisadi, estetik əhəmiyyətini birləşdirərək insanlara öz şəxsiyyətini formalaşdırmaq və inkişaf etdirmək, tarixi-mədəni dəyərlərlə tanış olmaq, idmanla məşğul olmaq, istirahət etmək, mədəni tədbirlərdə iştirak etmək və s. amillər mühüm hesab edilir (Getz, 2008).

Bu gün Azərbaycanda turizm inkişaf mərhələsindədir, dövlət bu istiqamətdə layihələr hazırlayır və həyata keçirir və turizm fəaliyyətini tənzimləyərək dövlət büdcəsinin doldurulmasını stimullaşdırır, məşğulluğun təmin edilməsinə kömək edir, əhalinin gəlirlərini artırır, insanların istirahəti, təkmilləşməsi,

turizm sənayesinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, turizm sənayesinin rəqabətədavamlılığının artırılması üçün şərait yaradır. Əhalinin mühafizəsinə qayğı göstərir. təbii mühitin, mədəni irsin qorunması və s. normativ hüquqi aktların qəbulu, turizmin inkişafı üzrə dövlət məqsədli proqramlarının hazırlanması və həyata keçirilməsi, turizm sənayesində əlverişli investisiya mühitinin yaradılması yolu ilə dövlət turizm fəaliyyətini tənzimləyir (Ахмедов, Гаджиев, Заманов, 2012).

Ölkənin turizm potensialının bütün dünyada təbliği və tanışlığı, turistlərin hüquqlarının müdafiəsinin təmin edilməsi, standartların müəyyən edilməsi, lisenziya və sertifikatların verilməsi, vergi və gömrük tənzimlənməsi məsələlərinə diqqətlə yanaşılır. Turizm sənayesinin peşəkar kadrlarla təmin edilməsi, elmi-tədqiqat işlərinin stimullaşdırılması, güzəştli kreditlərin verilməsi, yerli turizm sənayesi subyektlərinin beynəlxalq proqram və tədbirlərə cəlb edilməsi, turizmin inkişafı prioritetləri nəzərə alınmaqla dövlətin ərazi sərhədlərinin keçməsi prosedurunun qanunvericiliklə tənzimlənməsi, qanunla müəyyən edilmiş digər üsullar turizm sənayesinin idarə edilməsinin dövlət rıçaqlarına daxildir (Ахмедов, Гаджиев, Заманов, 2012).

Bir sıra dövlət tənzimləmə mexanizmlərini nəzərə alaraq, ölkənin davamlı iqtisadi inkişafını təmin etməyə qadir olan səmərəli, rəqabətə davamlı turizm sənayesinin yaradılması işləri durmadan aparılır (Ананьев, 2008). Dövlət qayğısı və dəstəyinin dərəcəsi, turizm sənayesinin inkişafının prioritetini və səylərin göstərilməsi ölkədə turizmin davamlı inkişafının təmin edilməsinə nə dərəcədə səmərəli yönəldiyini qiymətləndirmək lazımdır. Turizm bazarının inkişafının hüquqi əsaslarını müəyyən etməklə, dövlət turizm siyasətinin prinsiplərini müəyyən edir. Qanun, turizm sənayesinin əsas termin və anlayışlarının əhəmiyyətini qeyd edir, sənayenin rəqabət qabiliyyətinin artırılmasına və ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə töhfə verən turizm ehtiyatlarından səmərəli istifadəyə dair tələbləri özündə birləşdirir.

Azərbaycanda dövlət tərəfindən qəbul edilmiş "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Turizm-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydaları", "Xüsusi razılığın (lisenziya) verilməsi Qaydaları haqqında" qanunların əhəmiyyətini qeyd etmək lazımdır. Müəyyən fəaliyyət növləri üzrə", Qəbul edilmiş "Mehmanxanaların təsnifatı", "Turist xidmətləri" və s. kimi dövlət standartları da Azərbaycan Respublikasında təsərrüfat subyektlərinin turizm fəaliyyətinin inkişafına öz töhfəsini verir və bu gün respublikada qəbul edilmiş dövlət proqramları əsasında turizmin inkişafının dəqiq strategiyası mövcuddur.

"Turizm haqqında" Azərbaycan Respublikasının milli qanunu ilə təsdiq edilmiş müvafiq illərdə turizmin inkişafına dair dövlət proqramı çərçivəsində turizmin inkişafını təmin etmək üçün lazımı addımlar atılır. Müvafiq dövlət proqramlarının həyata keçirilməsi nəticəsində ölkədə turizm sənayesinin inkişafı üçün əlverişli şərait yaradılmışdır. Azərbaycanın beynəlxalq turizm bazarına çıxması üçün şərait yaradılmış və bu bu sənaye bu günə qədər uğurla inkişaf edir.

Belə ki, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyev tərəfindən imzalanmış "Dövlət Proqramları" turizm sahəsində mövcud problemlərin həllinə xidmət etmiş və ölkədə turizmin daha da inkişafını təmin etmişdir. Bu proqramların turizm infrastrukturunun inkişafı və onun yeni fəaliyyət növlərinin yaradılması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, ölkənin turizm potensialından səmərəli istifadə edilməsi, sahibkarlar üçün əlverişli biznes mühitinin yaradılması üçün zəruri olanların həyata keçirməyə imkan vermişdir.

Azərbaycan "Turizm haqqında" qanun layihəsini Ümumdünya Turizm Təşkilatına ekspertiza üçün təqdim etmiş və layihə turizm sektorunun inkişafına təkan verəcək yeniliklərin, o cümlədən lisenziyalı şirkətlərin, turoperatorların yaradılması, başqa ölkələrə gedən turistlərin tibbi sığortası, dövlət turizm reyestri yaradılmışdır. Turizm ehtiyatlarının vəziyyəti, turizm ehtiyatlarının coğrafi yeri və sərhədləri, rekreasiya zonaları və obyektləri, turizm fəaliyyəti üçün lisenziya almış hüquqi və fiziki bu istiqamətdə

fəaliyyət meydanı tapa biləcəklər. Göründüyü kimi, Azərbaycan turizm ehtiyatlarının artırılması üçün səylər göstərir. turizmin iqtisadiyyatda iştirak dərəcəsi getdikcə artır və digər ölkələrlə müqayisədə Azərbaycanda turizm sənayesinin rəqabət qabiliyyətinin səviyyəsini əks etdirən indeksi göstəricisi müsbət istiqamətdə artır (Ананьев, 2019).

**Şuşa şəhərinin turizm imkanlarınının qiymətləndirilməsinin iqtisadi inkişafa praktiki təsiri və əhəmiyyəti**

Nəzərə alsaq ki, turist səfəri üçün ölkə seçilərkən mehmanxana və mehmanxana obyektlərinin müəyyən etdiyi qiymətlər də xüsusi əhəmiyyət kəsb edir. Bir sıra yeni 4 və 5 ulduzlu mehmanxanaların istifadəyə verilməsi Azərbaycanda mehmanxana və mehmanxana obyektlərində qiymətlərin təxminən 20 faiz ucuzlaşmasına səbəb olmuşdur. Məlumdur ki, turistləri maraqlandıran məqbul qiymətlər müəyyən etməyə çalışdığı üçün, turizm obyektlərinin sayının artması bu sahədə qiymət siyasətinə müsbət təsir göstərir və buna görə də ölkə daxili turizm inkişaf etdirməlidir.

Azərbaycanın regionlarında mehmanxana obyektlərinin monitorinqi aparılmalıdır və onlar bir neçə keyfiyyət meyarları üzrə yoxlanılmalıdır:

- sanitar normalar görə;
- qida standartlarına görə;
- xidmətlərin müxtəlifliyinə görə;
- asudə vaxtın təşkili və s.

Qiymətləndirmə rəqabət qabiliyyətinin aşağıdakı determinantlarına uyğun olaraq aparılmalıdır:

- şəraitə uyğun amillər;
- bazar amilləri.

Şuşada mehmanxanaların sayında artım mövcuttur və mehmanxana xidmətlərinin qiymətləri son iki ildə təxminən 20% aşağı enmişdir. M. Porter tərəfindən təklif olunan ölkənin turizm kompleksinin rəqabət qabiliyyətinin qiymətləndirilməsi sxem əsasında turizm kompleksinin inkişafı və fəaliyyət göstərməsi şərtləri Şuşa şəhəri ünün aşağıdakı kimi xarakterizə etmək olar:

- faktor şərtləridir ki, burada, ölkədə tarix və mədəniyyət abidələrinin, müalicə sanatoriyalarının, meşələrin olması, turizm sektorunda çalışan işçilərin sayı, onların ixtisas səviyyəsi, turizm infrastrukturu müəssisələrinin əsas istehsal fondlarının vəziyyəti;
- investisiya resursları və turizm şirkətlərinin onlardan razılıq dərəcəsi və s. yayda günəş istiliyinin bolluğu, dəniz qumları.

Turistlərə ölkə ərazisindən dərman məqsədləri üçün istifadə etmək imkanı verilir ki, bu da ən mühüm təbii və rekreasiya ehtiyatlarına, onların suları, habelə onların yaratdığı mikroiqlim şəraiti daxil edilməlidir. Ölkədə turizm fəaliyyətinin inkişafı, əhalinin istirahət zonalarının yaradılması üçün Şuşa ərazilərdə bitən meşələrdən istifadə oluna bilər. Bu məqsədlər üçün nadir bitki növlərinə rast gəlinən bu ərazi səmərəli istifadə edilə bilər.

Şuşa ərazisində mineral bulaqlar bazasında böyük komplekslər yerləşdirilə bilər və bu ehtiyatları ilə bağlı saysız-hesabsız memarlıq, incəsənət və arxeologiya abidələrinin olması işin xeyrinə istifadə edilə bilər. Həm xarici turistlərin, həm də yerli sakinlərin bura cəlb edilməsində bu ehtiyatların əhəmiyyəti böyükdür. Arxeoloji abidələrin səmərəli təbliği və qeydiyyatı və digər şəhərlərdə tarixi-memarlıq abidələrinin təbliği lazımdır.

Nəzərə alsaq ki, son üç ildə turizm fəaliyyəti ilə məşğul olanların sayı 15,9 faiz artmış və bu əsasla qeyd etmək istərdim ki, bu istiqamətdə qeyri-dövlət müəssisələrinin işçilərinin sayı daha çox artmışdır. Bu

da bu sahədə rəqabət şəraitinin mövcudluğunu təsdiqləyir və əsas istehsal fondları kontekstindən əsas vəsaitlərin uzun müddət istehsal prosesinə xidmət etməsi və öz dəyərini fiziki formasını dəyişmədən köhnəldiyi üçün hissə-hissə istehsal olunan məhsula köçürür amilini unutmaq olmaz.

Şuşa şəhərinin mehmanxana və mehmanxana tipli obyektlərin sayı ildən-ilə artacaq, ticarət şəbəkələri genişlənəcək, turizm məhsullarının istehsalına müasir texnika və avadanlıqlardan istifadə ediləcəkdir. Otellər və mehmanxana tipli obyektlər arasında ən məşhur olanlar orada öz filiallarını yaradacaqlar. Şuşanın turizm potensialı durmadan artdığı üçün, ən böyük şirkətlər Pasha Travel, Dervish Travel, Galaxy Travel, Improtex Travel və s. bu ərazinin turizmin inkişafı üçün mövcud investisiya resurslarının həcmi dinamikası artacaqdır.

Cəlb edilən investisiyaların həcmi zonasında, turizmin inkişaf perspektivləri investisiyaların cəlb edilməsinə imkan yaradığı üçün, cəlb olunmuş investisiyaların həcminə görə ön plana keçəcəkdir. Ekspertin sözlərinə görə, bu yer bütün ölkənin mədəniyyət mərkəzi Şuşaya məxsus olmalıdır və burada investisiyalar əsasən turizm sektoruna (mehmanxanaların tikintisi və s.) yönəldilməlidir (Getz, O'Neill., Carlsen, 2001).

Unutmaq olmaz ki, TMK-lar turizm bazarında da özlərinin inhisarçı mövqeylərini təsdiq etməklə, digər məsələlərlə yanaşı, infrastruktura xərclərin artırılması üçün hökumətə təzyiq göstərə bilirlər (Алирзаев, 2003). Bu kompaniyalar, yeni hava limanlarının tikintisini, mövcud yerüstü nəqliyyat sistemlərində dəyişiklikləri və ya torpaqdan istifadə islahatlarını diktə edə bilirlər. Onlar öz məqsədlərini güdərək turizm siyasətini müəyyənləşdirməyə çalışırlar ki, infrastrukturun inkişafının səmərəsini xarici turistlər aldığı, onun yaradılması xərclərini isə yerli əhalinin öz üzərinə götürdüyü İspaniyanın timsalında bunu aydın görmək olar.

Şuşa şəhəri ilə bağlı Milli inkişaf planı çərçivəsində turizm infrastrukturunun tikintisinə vəsait ayrılmış bu isə dövlət büdcəsinin 12% həcmindədir. Nəzərə alsaq ki, Şuşa şəhəri Kiçik Qafqaz dağlarının gözəl mənzərəsində yerləşir və təbiət hüsünkarığını bu ərazidən əsirgəməmişdir. Bu şəhərdə yetişən zəka sahibi insanlar şairlər, rəssamlar, memarlar, musiqiçilər öz dəyərli töhvələrini vermişlər və bu səbəbdən Şuşa Azərbaycan Respublikasının mədəniyyət paytaxtı hesab edilir.

Bu şəhərin tarişinə nəzər salsaq görərik ki, XVIII əsrin əvvəlində Pənah xan tərəfindən qoyulan şəhər-qala sonradan isə bu yerin adı ilə Şuşa adlandırılmağa başlanmışdır. Bu şəhərin səlnaməsi saxlanıldığı üçün turistlərə maraqlıdır və şəhəri tarixi mərkəzi daha çox maraq doğurur çünki, 1822-ci ilə qədər xanlığın paytaxtı olub.

Buradakı tarixi məscidlər Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidləri mühüm tarixi əhəmiyyət daşıyır və bu məscidləri XIX-u əsirdə İbrahimxəlil xanın qızı Gövhərağanın sifarişi ilə o dövrdə məşhur memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. Bu məscidləri minarələrinin naxışlarını isə Mir Mövsün Nəvvab işləmişdir.

Şuşanın xalçaları dünyada şöhrət qazanmı və bu gündə onların bəziləri ən məhşur muzeylərdə saxlanılır. Dağıdılmış xalça muzeyi də qısa müddətdə bərpa ediləcəkdir. XVIII-ci əsrdə yaşayıb-yaratmış Molla Pənah Vaqif (1717-1797) məqbərəsi artıq bərpa edilib.

Əlbəttə Şuşa şəhərinin turizm obyektlərinin kapital tutumunun yüksək olması səbəbindən TMK-ların tələblərinə cavab verən infrastruktur yaratmaq üçün lazımı işlər görülür. Burada müharibədən sonra geriliyi aradan qaldırmaq üçün əsas ümidi onlarla birləşdirməklə burada turizm bazarları açmaq mümkün olacaq. Eyni zamanda, hökumət transmilli şirkətlərlə danışıqlarda daha təkmil təkliflərlə beynəlxalq turizmin rıçaqlarından istifadə etməklə pu problemin həllinə nail olacaq (Ананьев, 2008).

Turizmin təsir dairəsini genişləndirmək istəyən TMK-ların sayı getdikcə Şuşada artmalıdır və unutmaq olmaz ki, qəbul edən tərəf onlarla müqavilə bağlayarkən daha çox güc qazanır. Turist axınına nəzarət vasitəsi ilə alıcı ölkənin iqtisadiyyatına təsir göstərir və transmilli şirkətlərin turizm sahəsində

fəaliyyəti əsasən, turist tələbatının coğrafiyasında dəyişikliklərə səbəb olmaqla, ziyarətçi axınının istiqamətini dəyişə bilər.

Hökuməti fiskal siyasətə yenidən baxmağa və turizm infrastrukturuna xərcləri artırmağa məcbur etməklə, bir çox sahələrdə beynəlxalq turizmin yüksəlişinə nail olmaq olar. Eyni zamanda, TMK-ların turistləri təyinat yerinə cəlb etmək səyləri çox vaxt milli turizm administrasiyalarının maraqları ilə üst-üstə düşə bilər.

Öz xidmətlərindən yüksək gəlir əldə etməyi hədəf olaraq götürən və elit turistlərin nisbətən dar bazar seqmentini seçmələri belə, mənfəətin maksimum olması motivini rəhbər tutan transmilli şirkətlər üçün kütləvi turistlə işləmək daha sərfəli hesab edilir. Təşkil edilən və yönləndilən geniş turist axınları yerli mədəniyyətə və təbii mühitə təhlükə yarada bilər (Азар, 2019).

Bu baxımdan, TMK-lar yüksək ixtisaslaşmış turist axınına nəzarəti həyata keçirsələr, daha az kəskin problemlər yaranır ki, bu da fəaliyyətin istiqamətləndirdiyi ən gəlirli bazar yerini müəyyənləşdirə bilir. Gələnlərin sayı azdır, turizm təbiətə, mədəniyyətə dağıdıcı təsir göstərmir və maliyyə gəliri artır. İlk baxışdan, TMK-ların bu cür fəaliyyəti yerli turizm bazarının, milli iqtisadiyyatın inkişafına töhfə versə də, reallıqda bu praktika təhlükə ilə doludur.

Turist axınları üzərində nəzarəti qurmaqla, müvafiq rıçaqlardan istifadə etməklə ölkəyə təzyiq göstərmək üçün onun verdiyi vergi və digər güzəştlərin siyahısını genişləndirmək üçün istifadə etmək olar. Hökumətinin ən böyük vəzifəsi Şuşa şəhərinin turizm gəlirlərinin daha da artmasına mane olan hərəkətlərinə cavab verən tədbirləri həyata keçirməsi lazımdır. Beləliklə, bu ərazidə dövlət xarici kapitaldan istifadə etməklə turizmin inkişafına nail olmalı və müasir və qlobal səyahət bazarında, qlobal davranış strategiyası hazırlamalıdır (Ананьев, 2019).

Şuşada şirkətlər arasında əməliyyatları yerinə yetirərkən turizm məhsulunun tərkib hissələrinin qiymətlərini manipulyasiya etməklə, bəzi hallarda onları yüksək qiymətləndirməklə, digərlərində, əksinə, aşağı qiymətləndirməklə, TMK-lar korporativ mənfəəti artıra bilərlər. Bu baxımdan, şirkətin əlində, fəaliyyətinin strateji məqsədlərinə uyğun olaraq, bir böyük imperiya daxilində mənfəət dövriyyəsini təmin edən bir mexanizm olduğu üçün güclü hesab edilir.

Bu ərazidə gələcəkdə qiymət səviyyəsinin dəyişdirilməsi TMK-ların ixtirası deyil, ümumi kommersiya təcrübəsinə əsaslanmalıdır. Qarşı tərəflər arasında razılaşma əsasında baza qiymətinə əlavə haqq və ya ondan endirim müəyyən edilməlidir. Bir çox məhsul və xidmətlər toplu alışlar üçün dövriyyə endirimlərinə məruz qalmaqla, turizmdə mövsümdən kənar məhsul alınarkən mövsümi endirimlərdən də geniş istifadə olunması məntiqə daha çox uyğundur. Onun köməyi ilə tələb və təklif balanslaşdırılar və turoperatorlar və turizm agentləri vasitəçi olaraq, bazarda qiymətlər üzrə rəqabət apara bilmək üçün səyahət xidməti təminatçılarından satış endirimləri ala bilərlər.

**Nəticə və Təkliflər**

Şuşa şəhərinin turizm imkanlarının qiymətləndirilməsi üçün aşağıdakı nəticələri qeyd etmək olar:

- Şuşa səhərinin turizminin inkişafına qoyulan investisiyaların həcmi artırılmalı və müasir şəraitdə turizm sənayesi dünyasına daxil olması təmin edilməlidir;
- Şuşa şəhərinin turizm imkanlarından daha çox bəhrələnmək üçün, sahibkarlara müraciət edilməsi formatı nəzərdən keçirilməli:

a) bankdan kommersiya kreditinin alınması;
b) korporativləşdirmə;
c) fyuçers müqavilələri ilə ticarət;
d) françayzinq layihələrinin həyata keçirilməsi;

e) xarici investisiya və kreditləşmə problemlərinin asan həlli;

q) dünya standartlarının tələblərinə cavab verən inkişaf etmiş infrastrukturun, əsasən mehmanxana sənayesinin yaradılması.

- Şuşa şəhərində turizm investisiyalarının təsnifatını aşağıdakı əsas xüsusiyyətlərini investisiyaların həcminə görə təmin etmək üçün:

a) maliyyə qoyuluşları (qiymətli kağızlara investisiya, kommersiya banklarına kapital qoyuluşu, daşınmaz əmlak fondlarında və ya kapitalda payın əldə edilməsi ilə bağlı);

b) müasir beynəlxalq iqtisadi münasibətlərdə xidmət sektorunun tərkib hissəsi kimi rolunu artırmaq.

- Qiymətli kağızların buraxılması üzərindən Şuşa şəhərinin turizm imkanlarını artırmaq və qoyulan məqsədlərə çatmaq üçün, portfel investisiyaların tətbiqini artırmaqla:

a) real investisiya həcmini artırmaqla həm öz, həm də borc götürülmüş, bank kreditlərinin turizmin inkişafına cəlb edilməsi;

b) kapitalının qoyulması, real investisiyalar edən investorun real sərmayələr maddi (turizm məhsullarının və istehlak mallarının istehsalı vasitələri) və qeyri-maddi (turizm kadrlarının ixtisasının artırılması və ya yenidən hazırlanması, zəruri elmi-tədqiqat işlərinin aparılması və s. vasitəsilə hər hansı qeyri-maddi səmərənin əldə edilməsi).

- Şuşa şəhərinin turizm imkanlarını artırmaq üçün investisiyaların həyata keçirilməsi baxımından, qısamüddətli (bir ilədək), ortamüddətli (5 ildən 10 ilədək), uzunmüddətli (10 ildən çox) layihələr tətbiq edilməlidir;
- Birbaşa investisiyalar (investor tərəfindən birbaşa olaraq səhm və ya əmlak qiymətləri formasında aktivlərin əldə edilməsi, dolayı investisiyalar (portfelin yaradılması, yəni qiymətli kağızların və ya əmlak dəyərlərinin pul vəsaitləri hesabına yığılması, intellektual sərmayələr (patentlərin, lisenziyaların, nou-hauların alınmasını, işçilərin ixtisasının artırılmasını, elmi-tədqiqat işlərinin aparılmasını;
- İnvestisiyaların istifadəsi istiqamətində isə, vəsaitlərin turizm müəssisəsələrinin yaradılması, yeni müəssisə və ya törəmə firma və ya şirkətin aktivlərinin yaradılması;
- Şuşa şəhərinin turizm imkanları üzərindən mövcud turizm müəssisəsi üçün yeni obyektlərin yaradılmasına yönəldilmiş və strateji əhəmiyyət daşıyan turizm sənayesinə töhfə verə bilən strateji ideyalarının həyata keçirilməsi;
- Turizm müəssisəsinin əsas fondlarının cari və əsaslı təmirinə, yaxud fiziki cəhətdən köhnəlmiş və köhnəlmiş istehsal avadanlıqlarının dəyişdirilməsinə vəsaitin yönəldilməsi;
- Turizmə tələbatın böyük olması səbəbindən istehsalın artırılmasına yönəldilməsi baxımından, kiçik və orta biznes bu ərazidə daha çox dəstəklənməlidir;
- Özəl investisiyalara fiziki şəxslərin və özəl müəssisələrin vəsaitlərinin cəlb edilməsi dövlət tərəfindən dəstəklənməlidir və xarici investisiyalar xarici fiziki və hüquqi şəxslər bu işə cəlb edilməlidir;
- Şuşa şəhərinin turizm imkanlarını genişləndirmək üçün birgə investisiyalı, birgə müəssisələr yaradılmalıdır.

**Ədəbiyyat Siyahısı**


1. Qəhrəmanov Y.M., Bilalov B.Ə. (2012), Səyahət agentlikləri və turoperatorluq. Bakı. "Mütərcim", 216 s.
2. Zeynalov C.V Soltanova H.B. (2013), "Otelçilik fəaliyyətinin əsasları". Bakı: AzTu-nun mətbəəsi,413 s.
3. Ağakərimov M.M. (2016), Hotel menecmenti. Dərs vəsaiti / M. M. Ağakərimov.- Bakı: Mütərcim, 316 s.
4. Ağakərimov M.M. (2015), Otel menecmentində proqnozlaşdırma və planlaşdırma//- Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları. "Renessans-A" MMC. s. 26.
5. Ağakərimov M.M. (2018), Otel biznesində françayzinq idarəetmə forması//-Bakı: - Turizm və qonaqpərvərlik tədqiqatları. «IDEA-A» MMC,- s.48
6. "Azərbaycan Respublikası regionlarının inkişafı üzrə 2019-2023-cü illəri əhatə edən Dövlət Proqramı" //29 yanvar 2019-cu il. №500 - Bakı
7. "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" 6 aprel 2010-cu il tarixli sərəncamı
8. Bilalov B. Ə. (2015), Turizmin əsasları: dərslik / B. Ə. Bilalov. - Bakı: QHT nəşriyyatı, - 2015. 496 s.
9. Bilalov B.Ə. (2006), Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti./ B. Ə. Bilalov. - Bakı: Mütərcim, - 289 s.
10. Cəfərov C. (2015), Yeni yolda. //- Bakı: Turizm və qonaqpərvərlik tədqiqatları. "Renessans-A" MMC, s.13
11. Кнышева Е.Н. (2010), Маркетинг туризма, М.: ИД «ФОРУМ», ИНФРА-М, с. 9
12. Fyall. A., Callod, C., Edwards. B., (2003), "Relationship Marketing: The Challenge For Destinations", Annals of Tourism Research, Vol. 30, No. 3, p. 659.
13. Fache, W., (2015), "Methodologies for Innovation and Improvement of Services in Tourism", Managing Service Quality, Vol. 10, Num: 6, p. 366.
14. Getz D. (2008), Progress in Tourism Management, Event Tourism: Definition, Evolution and Research. Tourism Management, p.39

# SUMQAYIT KİMYA-SƏNAYE PARKINDA YERİDİLƏN İNVESTİSİYA SİYASƏTİ VƏ VERGİ SİYASƏTİNİN İLKİN TƏHLİLİ

**Yusif Nəcəfzadə**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**necefzadeyusif@gmail.com**

## Xülasə

Bu tədqiqatda Azərbaycan ərazisində sayca ən çox olan və xüsusi iqtisadi zona növü sayılan sənaye parkları araşdırılmış, dünya üzərində yaranan ilk sənaye parkı barədə məlumat verilmişdir. Azərbaycanda yerləşən sənaye parklarında yeridilən rejim barədə informasiyalar paylaşılmışdır. Məqalədə Sumqayıt kimya-sənaye parkı barədə ilkin təhlil və orada yerləşən "SOCAR Polymer" MMC barəd ə ilkin maliyyə analizi aparılmışdır.

Dünya üzərində bir çox xüsusi iqtisadi zonalar mövcuddur və onlar öz növlərinə görə bir-birindən fərqlənir. Bunlardan birisi Sənaye parkları adlanır. Bu zona azad ticarət zonasından fərqlənir və parkda yalnız təyinatı üzrə məhsulların istehsalına dəstək göstərilir. Dünya üzərində ilk sənaye parkı sayılan Trafford sənaye parkı bunun ilk nümunələrindəndir. Məqalədə Britaniyada yerləşən bu park barədə ilkin təhlillər aparılmış və məqalədə qeyd edilmişdir.

Sumqayıt kimya-sənaye parkı Azərbaycan Respublikası tarixində yaradılmış ilk və ən böyük sənaye parkıdır. Xüsusi iqtisadi zona növü sayılan sənaye parkları Azərbaycanın xarici kapitalı cəlb etməsində və qeyri-neft sektorunun inkişafında önəmli vasitə rolunu oynayır. Belə ki, Sənaye parklarında yeridilən vergi-gömrük azad olmaları vasitəsi ilə bura investorlar üçün "Safe haven (təhlükəsiz cənnət)" rolunu oynayır. Bu məqalədə bu siyasətin Azərbaycanda nə qədər effektiv olduğunu və Sumqayıt kimya-sənaye parkının Azərbaycanın xarici kapitalı cəlb etməsi barədə barədə ilkin təhlillər aparılmışdır.

**Açar sözlər:** Sənaye Parkı, Investisiya, XİZ, Vergi, BXİ

## Abstract

This study examined Industrial parks which is one of Special economic zone and has the highest number in Azerbaijan. Article shared information about first industrial park in the world. Paper also shared information about regime applied industrial parks based on Azerbaijan. Article consists initial analysis about Sumgait chemical-industrial park and primary financial analysis about "SOCAR Polymer" LLC which it is in there.

Special Economic Zones are all over the world and they are distinguishing in different types. One of them is Industrial Parks. This zone is different from Free Trade Zones and supports only production of designated products. Trafford park is first industrial park in the world which is one of the examples from that topic. Article distributes information about that park located in United Kingdom.

Sumgait chemical-industrial park first and biggest industrial park in Azerbaijan Republic. This special economic zone helps Azerbaijan as an important tool to attract foreign direct investment and development of non-oil sector. So that, Sumgait chemical-industrial park has exemption of tax and duty which attracts investors and it bears a role as a "Safe haven". This article shows the effectiveness of that policy in Azerbaijan and analysis of Sumgait chemical-industrial park.

**Key words:** Industrial park, Investment, SEZ, Tax, FDI

## Giriş

Xüsusi İqtisadi Zonalar(bundan sonra XİZ) dünyanın bir çox ölkələrində və o cümlədən Azərbaycanda yaradılmış, nəzəri və praktiki cəhətdən təsdiqini tapmış modeldir. XİZ zonaları dünyanın bir çox ölkələrində fərqli formatda və fərqli iqtisadi-siyasi çərçivədə olmuşdur. Bunlardan biri də Sənaye parklarıdır. Bu parklar region ərazi və o cümlədən dövlət səviyyəsində olduqca əhəmiyyətlidir. Bu parklar regionda işsizliyin azalmasına, istehsal(və ya xidmət) qabiliyyətinin yüksəlməsinə, ölkəyə birbaşa və ya dolayı yolla pul axınını artırmağa, ixracın güclənməsinə tövhə verir (Pakdeenurit, Suthikarnnarunai, & Rattanawong, 2014). Ümumiyyətlə, Sənaye parkları XİZ növləri içərisində perspektivli sahələrdən biri olaraq götürülür. Buna

səbəb, burada yaradılacaq parkın hansı məhsulları istehsal edə biləcəyini, sənaye parkının yaradılacağı ərazi, coğrafi və demoqrafik mövqesi əvvəlcədən müəyyən edilə bilir. Təyinatı üzrə sənaye parkları müxtəlif sahələr üzrə fəaliyyət göstərə bilər. Belə ki, yaradılan sənaye parkında müəssisələr tibbi məhsullar və kimyəvi məhlulların istehsalı ilə, ağır(və ya yüngül) sənaye məhsullarının istehsalı ilə, xam materialların və o cümlədən kənd təsərrüfatı məhsulların istehsalı ilə məşğul ola bilərlər. Bu məşğulluq sənaye parkının fəaliyyət dairəsinə və o ərazidə fəaliyyət göstərən işçi qüvvəsindən asılıdır.

Ümumiyyətlə bu sahəyə keçməzdən öncə sənaye parkları haqqında ilkin biliklər əldə etmək lazımdır. Sənaye parkı bir çox ölkələrdə müxtəlif adlarda işlənilmişdir. Bunlardan bəziləri sənaye obyekti, sənaye ərazisi, Sənaye məhəlləsi və Sənaye şəhəri kimi bir çox adlar altında işlənilib. Sənaye parkları XİZ kateqoriyaları içərisində İxtisaslaşmış zonalar növünə aiddir (Murray, 2013). Bu zonanın yaradılması zamanı sənaye parkının nəqliyyat dəhlizinə yaxın olmasına xüsusi fikir verilir. Daha sonra bu zonanın idarəçiliyi, yaradılan agentliyə həvalə edilir. Bu agentlik bu zonaya xarici investorları cəlb edir və eyni zamanda burada fəaliyyət göstərən(və ya fəaliyyət göstərəcək) müəssisələri yerli qanunvericiliklə tənzimləyir (Farole, 2008). Burada yeridilən qanunvericilik ölkə üzərində yeridilən qanunvericilikdən fərqlidir. Belə ki, burada tətbiq olunan idarəçilik, vergi-gömrük rejimi, qanunvericilik digər ərazilərdən fərqlənir. Bunu etməkdə əsas məqsəd bu ərazilərə investisiya cəlb etmək, yaradılan müəssisələr vasitəsi ilə vergi daxilolmalarını artırmaq və ölkənin rifah iqtisadiyyatını gücləndirməkdir (Vidova, 2010). İxtisaslaşmış Zonaların digər XİZ növlərindən fərqli olmasının əsas səbəblərindən biri bu ərazilər yalnız müəyyən istehsal(və ya xidmət) yönünə fokuslanır. Belə ki, Texnologiya parkı adı altında yaradılan ərazidə biz kənd təsərrüfatı məhsullarının yaradılması və ya satışını görə bilmərik. Buna görə də bu kimi ixtisaslaşmış zona yaradılarkən yerləşəcəyi ərazi, investisiya məbləği, dövlətə və büdcəyə xeyiri, ərazinin demoqrafik göstəriciləri kimi bir çox faktorlar nəzərə alınır.

Tarixən, dünya üzərində ilk sənaye parkı olan Trafford Park 1896-cı ildə Mançester şəhəri yaxınlığında yaranmışdır. Sənaye inqilabının sonlarına doğru yaranan bu park I və II dünya müharibələrində Böyük Britaniyanın zirehli texnikalarını, gəmilərini və uçuş aparatlarını mühərrik, ehtiyat hissələri və digər avadanlıqlarla təchiz etmişdir (Holland & Procter, 2019). 1940-1950 illərində bu sənaye parkında 75000 nəfər şəxs müxtəlif sahələrdə işləmişdir (Ekosgen, 2008). Hal-hazırda 1300-dən çox müəssisə və 35000 işçini tərkibində barındıran Trafford parkı 2021-ci ildə 106 investisiya layihəsi və bunlarla bərabər 1.3 milyard Funt sterlinqi(2.75 milyard manatı) bu əraziyə cəlb etmişdir (Butler, 2022). Ümumi sahəsi 9 $km^2$ olan bu ərazi hal-hazırda aeroport, dəmiryolu, marşrut yolu və dəniz yolu nəqliyyat vasitələri ilə məhsulları ixrac etməyə davam edir. Birləşmiş Krallıq bu tendensiyanın başlanğıcı olsa belə digər ölkələrdə də bu tendensiya davam etdi və hətta Birləşmiş Krallığa nəzərən gücləndi. Hal-hazırda Səudiyyə Ərəbistan və Amerika Birləşmiş Ştatları bu sahələrdə olduqca yüksək nəticələr əldə ediblər (The World's Largest Industrial Areas - WorldAtlas, 2019).

Azərbaycan 1990-cı ildən bu yana müxtəlif proseslərdən keçmişdir. Sovet dövründən sonra Azərbaycan-Ermənistan müharibəsi iqtisadi cəhətdən Azərbaycanı sarsmışdı. Azərbaycan iqtisadiyyatı 2000-ci illərdə artmağa başladı və bu dövlət büdcəsinin neftdən asılılığın güclənməsinə gətirib çıxardı. Bunun nəticələri 2015-ci ildə yaranan neft böhranında gördük. Azərbaycan məzənnəsi xarici valyutalara nəzərən zəiflədi. Bu səbəbdən büdcədən və o cümlədən Azərbaycan dövlət neft fondundan bir çox sosial dəstək proqramları üçün yardımlar və məzənnənin hazır ki dəyərinin qorunub saxlanılmasına vəsait ayrıldı ki, neft gəlirlərinin azalması nəticəsində büdcə defisitə düşdü. Bunun qarşısını almaq məqsədi ilə Azərbaycan ölkə iqtisadiyyatının diversifikasiyasını gücləndirməyi özünə məqsəd qoydu (Гюльмамедов, 2020). Bu tendensiyanı gücləndirməyin ən etibarlı yolu qeyri-neft sektoruna edilən Birbaşa Xarici İnvestisiya(BXİ) həcmini artırmaqdır. Bunun üçün 2016-cı ildə yaradılan Azərbaycan Respublikasının milli

iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində 4 əsas indikatorlardan birisi məhz qeyri-neft sektoruna yönəldilmiş BXİ-nın Ümumi Daxili Məhsuldakı payını 4%-ə çatdırmaq olmuşdur (Strateji yol xəritəsi, 2016). Bunun prioritet indikator qoyulmasının əsas səbəblərindən birisi 2000-2017 illəri arasında Azərbaycana edilən 77.8 milyard ABŞ dollarının 85%-dən çoxu (66.8 milyard ABŞ dolları) neft və qaz sektorunun payına düşüb (Mehtiyev, 2018). Hal-hazırda Azərbaycana 1995-2020 illəri arasında edilən ümumi XDİ həcmi 146.9 milyard ABŞ dolları(və ya 159.1 milyard AZN) olmuşdur (Dövlət Statistika Komitəsi, 2022).

**Qrafik 1:**




**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Azərbaycan qeyri-neft sektoruna yönəldilmiş BXİ-nın həcmini artırmaq üçün investorları təşviq edəcək müxtəlif alətlərdən istifadə etməyə başladı. Bunun ən effektiv növlərindən biri XİZ-lərdir. Sənaye parkları Azərbaycanda ən geniş istifadə olunan XİZ tipidir (Həsənova & Şahbazlı, 2021). İndiyə qədər Azərbaycanın Sənaye zonalarına qoyulan investisiya dəyəri 6.4 milyard manatdan çox olmuşdur (Nuriyev, 2022). Hal-hazırda 7 Sənaye parkı fəaliyyət göstərir və onların ümumilikdə 56 rezidentləri mövcuddur(fəaliyyət göstərəcək rezidentlər daxildir).

**Cədvəl 1: Azərbaycanda yerləşən əsas Sənaye parkları**

| Sənaye parkları | İstehsal sferası | Rezidentlərin sayı | Yaranma tarixi |
|---|---|---|---|
| Sumqayıt Kimya Sənaye Parkı | Kimyəvi və sənaye məhsulları | 29 | 2011 |
| Balaxanı Sənaye Parkı | Təkrar emal | 10 | 2011 |
| Mingəçevir Sənaye Parkı | Tekstil | 1 | 2016 |
| Qaradağ Sənaye Parkı | Gəmi təmiri və tikintisi | 1 | 2015 |
| Pirallahı Sənaye Parkı | Tibbi məhsullar | 5 | 2017 |
| “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkı | Logistik və Transport Xidmətləri | 1 | 2021 |

| | | | |
|---|---|---|---|
| Ağdam Sənaye Parkı | Sənaye avadanlıqları və texnikalar | 9 | 2021 |

**Mənbə: Sub-regional Innovation Policy Outlook 2020:Eastern Europe and the South Caucasus**

Sumqayıt kimya-sənaye parkı Azərbaycanda bir çox göstərici baxımından ən güclü sənaye parkı olaraq nəzər alınır. Hal-hazırda bu parka 17-si fəaliyyətdə olmaqla 29 rezident investisiya etmişdir. Bu rezidentlər dünyanın bir çox ölkələrin şirkətləridir. Buraya İtaliya, Çin, Türkiyə, BƏƏ, İsveçrə, Rusiya kimi ölkələr daxildir (Li, Wu, & Tao, 2019).

**Məqsəd**

Bu məqalədə əsas məqsəd, Azərbaycan Respublikasında yaradılan ilk və hal-hazırda ən böyük sənaye parkı olan Sumqayıt kimya-sənaye parkının dövlətin büdcə siyasətində rolunu öyrənməkdir. Burada yerləşən müəssisələrin investisiya dəyəri və onlar haqqında ilkin nəzəri biliklər əldə etməkdir. Daha sonrasında burada fəaliyyət göstərən və Azərbaycanın ən perspektivli qeyri-neft müəssisələrindən olan "SOCAR Polymer" MMC-nin 2018-2038 illəri arasında proqnozlaşdırdığı gəlirlər əsasında analizlər apararaq müəssisənin perspektivliyini öyrənməkdir.

**Metod**

Bu məqalədə Sumqayıt kimya-sənaye parkının Azərbaycanın fiskal siyasətində rolu barədə ilkin nəzəri analizlər aparılacaq. Daha sonrasında "SOCAR Polymer" MMC-nin proqnozlaşdırdığı gəlirlər əsasında Xalis Cari Dəyər(NPV), Daxili Dönüş Dərəcəsi(IRR), Geri Ödəmə Müddəti hesablanacaq və reqressiya analizi əsasında proqnozlaşdırılan gəlirlərin proqnozlaşdırılan vergilərlə arasında korrelyasiya tapılacaqdır.

**Analiz**

Sumqayıt kimya-sənaye parkı Azərbaycan ərazisində yaradılan ilk və həmçinin ən böyük Sənaye parkıdır. Hal-hazırda Sumqayıt kimya-sənaye parkında 29 rezident qeydiyyatdan keçib və onların 17-si fəaliyyət göstərir. Sumqayıt kimya-sənaye parkı Azərbaycanın qeyri-neft sektorunda inkişafı üçün atılan ilk addım olaraq görünür. Belə ki, burada fəaliyyət göstərən müəssisələr vasitəsilə qeyri-neft sənayesi və sektorlarında ixrac həcmləri artmağa başlayır. Sumqayıt kimya-sənaye parkı fəaliyyəti müddətindən 2021-ci ilin yanvarına qədər 2.5 milyard manat dəyərində məhsul istehsal etmiş. Lakin, park təkcə 2021-ci ilin ilk 11 ayında 1.9 milyard manat dəyərində məhsul istehsal edib. Həmçinin, sənaye parkı fəaliyyəti müddətindən 2021-ci ilin yanvarına qədər 764 milyon manat dəyərində məhsul ixrac etmişdisə, 2021-ci ilin ilk 11 ayında isə 764 milyon manat dəyərində məhsul ixrac edib (Scip.az, 2021). 2021-ci ilin ilk 11 ayına qədər bu park 4.4 milyard manat dəyərində məhsulu istehsal edərək satışa çıxarıb ki, bunun 1.5 milyard manatlıq hissəsi(təqribi 34%-i) ixrac edilmişdir (Scip.az, 2021). 2021-ci ilin ilk 11 ayında Azərbaycanın ümumi ixracı 19.79 milyard dollar olmuşdur. 2021-ci ilin ilk 11 ayına əsasən Sumqayıt kimya-sənaye parkının ixracatı Azərbaycanın ümumi ixracatının 3.85%-ni təşkil etmişdir. Keçmiş illərə nəzərən Sumqayıt kimya-sənaye parkı olduqca parlaq nəticə vermişdir. Belə ki, burada hal-hazırda 17 müəssisənin fəaliyyətdə olduğunu nəzər alsaq, gələcək də Sumqayıt kimya-sənaye parkı Azərbaycan ixracatında çox böyük rol oynayacaqdır. Aşağıda göstərilən cədvəldə Sumqayıt kimya-sənaye parkı rezidentləri barədə məlumatlar mövcuddur:

**Cədvəl 2: Sumqayıt kimya-sənaye parkları rezidentləri**

| № | Rezidentlər | İnvestisiya(milyon manat) | İşçi qüvvəsi | Məhsul | Təyinatı üzrə | Qeydiyyat tarixi |
|---|---|---|---|---|---|---|
| 1 | "SOCAR-Polimer" MMC | 636.48 | 750 | Polimer və Polietilen | İxrac/Yerli | 9/23/2013 |
| 2 | "Azərtexnolayn" MMC | 80.02 | 700 | Boru | İxrac/Yerli | 9/23/2013 |
| 3 | "Azerbaijan Fibro Cement" MMC | 90 | 175 | İnşaat malları | İxrac/Yerli | 5/5/2015 |
| 4 | “Baku Non Ferrous and Foundry Company” MMC | 38.84 | 160 | Dəmir atıqları | İxrac/Yerli | 2/19/2016 |
| 5 | “MST Engineering Services” MMC | 8.49 | 40 | Fitinqlər | İxrac/Yerli | 3/14/2016 |
| 6 | "SIKA" MMC | 9 | 30 | İnşaat malları | İxrac/Yerli | 3/15/2016 |
| 7 | Agro chemistry Azerbaijan LLC | 32.28 | 100 | Pestisid(Həşərat qovucu) | İxrac/Yerli | 6/13/2016 |
| 8 | "Alco" MMC | 23.7 | 100 | Mineral yanacaq və Sürtkü yağları | İxrac/Yerli | 7/29/2016 |
| 9 | STDC LLC | 101.93 | 100 | İnformasiya çatdırılması və ötürülməsi | Yerli | 3/31/2017 |
| 10 | "Azərfloat" QSC | 179.5 | 150 | Şüşə | İxrac/Yerli | 8/28/2017 |
| 11 | "Azərxalça" QSC | 30.58 | 100 | Xalça | İxrac | 9/11/2017 |
| 12 | STP MMC | 1143 | 2000 | Avadanlıq | Yerli | 11/3/2017 |
| 13 | "Tabaterra" QSC | 81.55 | 200 | Tütün | İxrac/Yerli | 11/17/2017 |
| 14 | SOCAR Carbamide Plant | 1520 | 500 | Karbamid | İxrac/Yerli | 12/6/2017 |
| 15 | "SumPlast" LLC | 5.09 | 30 | Polietilen materialları | İxrac/Yerli | 12/12/2017 |
| 16 | "LabDisc Azerbaijan" LLC | 0.5 | 43 | Avadanlıq | İxrac | 2/6/2018 |
| 17 | "Archi Glass" MMC | 5.4 | 50 | Şüşə | Yerli | 10/5/2018 |
| 18 | “Azmonbat” MMC | 25 | 100 | Akkumulyator | İxrac/Yerli | 1/23/2020 |
| 19 | “Bakı Tekstil Fabriki” MMC | 3.9 | 30 | Tibbi maska | Yerli | 4/6/2020 |
| 20 | "Glassica" QSC | 20.38 | 160 | Şüşə | İxrac/Yerli | 7/15/2020 |
| 21 | “Azərsulfat” MMC | 10.19 | 30 | Sulfid turşusu | İxrac | 7/15/2020 |
| 22 | "Novus Plastica" MMC | 11 | 100 | Polimer materialları | İxrac/Yerli | 8/31/2020 |
| 23 | "Azərbaycan Wanhong Ceramics Co." MMC | 67.95 | 400 | Keramika | İxrac/Yerli | 7/12/2021 |
| 24 | “Universal Packing İndustry” QSC | 4.24 | 80 | Qablaşdırma məhsulları | İxrac/Yerli | 9/1/2021 |
| 25 | “Azeka BM” MMC | 7 | 40 | Divar boyaları | İxrac/Yerli | 10/7/2021 |
| 26 | "4MAPS Bilgi Teknolojileri" MMC | 10 | 750 | Naviqasiya | Yerli | 4/13/2022 |
| 27 | "Az-Tex-Import" MMC | 19.2 | 90 | Avtomobil hissələri | İxrac/Yerli | 4/29/2022 |
| 28 | "Çinar-Servis" IKF | 13.3 | 70 | Maye qaz və sıxlaşdırılmış oksigen, azon | İxrac/Yerli | 5/4/2022 |
| 29 | "AK PACK" MMC | 7 | 35 | Polimer materialları | İxrac/Yerli | 5/6/2022 |

**Mənbə:  KİV mənbələri vasitəsilə yazıçının öz tədqiqatı**

Belə bir proses zəncirvari reaksiya yaradacaqdır. Belə ki, müəssisələrin gəlirlərinin yüksəltməsi xarici ölkələrdən investisiya axınını gücləndirəcəkdir. Yerli qanunvericiliyə əsasən sənaye parkları aşağıda göstərilən rüsum və vergilərdən azaddır:

1) Vergi məcəlləsinin 106.1.13. maddəsinə əsasən Sənaye parkı rezidentləri qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə Mənfəət vergisindən;

2) Vergi məcəlləsinin 199.7 maddəsinə əsasən Sənaye parkı rezidentləri qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə Əmlak vergisindən;

3) Vergi məcəlləsinin 207.3 maddəsinə əsasən Sənaye parkı rezidentləri qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə Torpaq vergisindən;

4) Vergi məcəlləsinin 164.1.16 maddəsinə əsasən idxal olunan cihazın, texnoloji avadanlıqların və texnikanın xaricdən idxalı, parkın rezidentinin qeydiyyata alındığı tarixdən etibarən 10 il müddətinə ƏDV-dən azad edilir (Azərbaycan Dövlət Vergi Xidməti, 2022).

5) Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunun 20.0.19 maddəsinə əsasən idxal olunan cihazın, texnoloji avadanlıqların və texnikanın xaricdən idxalı, parkın rezidentinin qeydiyyata alındığı tarixdən etibarən 7 il müddətinə Gömrük rüsumundan azad edilir (Azərbaycan Dövlət Gömrük Xidməti, 2022).

Göründüyü kimi, bu güzəştlər Azərbaycana yönələn xarici kapitalın həcmini artırmağa səbəb olan faktorlardan hesab edilir. Yuxarıda göstərilən məhsullar üzrə vergi və rüsumlardan azad olma hər bir investor üçün olduqca vacibdir. Buna səbəb müəssisə bu vergi xərcini azaldacaq və bu birbaşa müəssisənin ümumi xərcini düşürəcəkdir (Магеррамов , 2020). Azərbaycan 10 il müddətinə parkın rezidentlərini bu vergilərdən azad edərək onların maksimum dərəcədə burada inkişafına və istehsalatını gücləndirməyi planlaşdırır. 10 ildən sonra inkişaf etmiş bu müəssisələr digər müəssisələr kimi vergi məcəlləsinə əsasən vergi və rüsumlarını ödəməyə davam edəcəklər. Artıq onlar öz istehsalat sferalarını və satış qabiliyyətini gücləndirdiyindən vergi axını bu parkda daha güclü olacaqdır. Bunun nəticəsində dövlət büdcəsinə qeyri-neft sektorundan daxil olan gəlirlərin artmasına səbəb olacaqdır ki, bu da büdcənin neftdən asılılığını azaldacaqdır.

Bu nəzəri metodikaya dəstək kimi Sumqayıt kimya-sənaye parkında fəaliyyət göstərən və parkın ən güclü layihəsi kimi nəzərə alınan “SOCAR Polymer” MMC tərəfindən nəşr olunan rüblük bülletenə əsasən 2018-2038 illəri arasında illik gəlirləri nəşr etmişdir:




**Mənbə: SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 25 / 2019-cü il**

Yuxarıda göstərilən məlumatlara əsasən, 20 il ərzində “SOCAR Polymer” MMC-nin ümumi mənfəəti və gələcək proqnozlaşdırılan mənfəəti əsasında ilkin maliyyə göstəriciləri olan Xalis Cari Dəyər, Daxili Dönüş Dərəcəsi və Geri Ödəmə Müddətini hesablayaq:

**"SOCAR Polymer" MMC 2018-2038 illər arasında əldə etdiyi və proqnozlaşdırılan gəlirlər əsasında yaradılan maliyyə göstəriciləri**

| № | İllər | Gəlir(Milyon manatla) | Faiz Dərəcəsi* | Cari Dəyər faktoru(PV Factor) | Cari Dəyər(PV) |
|---|---|---|---|---|---|
| | - | 636.48 ₼ | | 0 | |
| 1 | 1/1/2018-1/1/2019 | 7.70 ₼ | 11.00% | 0.90 ₼ | 6.94 ₼ |
| 2 | 1/1/2019-1/1/2020 | 16.00 ₼ | 8.50% | 0.83 ₼ | 13.29 ₼ |
| 3 | 1/1/2020-1/1/2021 | 29.00 ₼ | 7.00% | 0.78 ₼ | 22.50 ₼ |
| 4 | 1/1/2021-1/1/2022** | 90.00 ₼ | 6.50% | 0.73 ₼ | 65.58 ₼ |
| 5 | 1/1/2022-1/1/2023** | 90.25 ₼ | 7.75% | 0.68 ₼ | 61.03 ₼ |
| 6 | 1/1/2023-1/1/2024** | 89.25 ₼ | 7.75% | 0.63 ₼ | 56.01 ₼ |
| 7 | 1/1/2024-1/1/2025** | 90.25 ₼ | 7.75% | 0.58 ₼ | 52.57 ₼ |
| 8 | 1/1/2025-1/1/2026** | 95.00 ₼ | 7.75% | 0.54 ₼ | 51.35 ₼ |
| 9 | 1/1/2026-1/1/2027** | 100.00 ₼ | 7.75% | 0.50 ₼ | 50.17 ₼ |
| 10 | 1/1/2027-1/1/2028** | 104.00 ₼ | 7.75% | 0.47 ₼ | 48.42 ₼ |
| 11 | 1/1/2028-1/1/2029** | 106.50 ₼ | 7.75% | 0.43 ₼ | 46.02 ₼ |
| 12 | 1/1/2029-1/1/2030** | 109.50 ₼ | 7.75% | 0.40 ₼ | 43.91 ₼ |
| 13 | 1/1/2030-1/1/2031** | 113.00 ₼ | 7.75% | 0.37 ₼ | 42.06 ₼ |
| 14 | 1/1/2031-1/1/2032** | 115.50 ₼ | 7.75% | 0.35 ₼ | 39.90 ₼ |
| 15 | 1/1/2032-1/1/2033** | 120.00 ₼ | 7.75% | 0.32 ₼ | 38.47 ₼ |
| 16 | 1/1/2033-1/1/2034** | 123.50 ₼ | 7.75% | 0.30 ₼ | 36.74 ₼ |
| 17 | 1/1/2034-1/1/2035** | 126.00 ₼ | 7.75% | 0.28 ₼ | 34.79 ₼ |
| 18 | 1/1/2035-1/1/2036** | 130.00 ₼ | 7.75% | 0.26 ₼ | 33.31 ₼ |
| 19 | 1/1/2036-1/1/2037** | 134.00 ₼ | 7.75% | 0.24 ₼ | 31.87 ₼ |
| 20 | 1/1/2037-1/1/2038** | 136.00 ₼ | 7.75% | 0.22 ₼ | 30.02 ₼ |

| | | |
|---|---|---|
| ***Xalis Cari Dəyər(NPV):*** | | 1,441.42 ₼ |
| ***Daxili dönüş dərəcəsi(IRR):*** | 10.48% | |
| ***Geri Ödəmə Müddəti(Payback Period):*** | 9.16 il müddətinə | |

****Faiz dərəcəsində illik ortalama faiz dərəcəsi istifadə olunmuşdur.***

***** 2022-ci ildən sonrakı dövrdə proqnozlaşdırılan Ümumi mənfəətdən istifadə edilmişdir.***

**Mənbə: Yazıçının öz tədqiqatı**

Xalis cari dəyər vasitəsi ilə gələcək də qazanacağımız gəliri bugünkü dəyərinə çevirə və onların cəmi vasitəsi ilə bugün etdiyimiz investisiya arasında fərqi tapa bilərik (Bora, 2015). Cavab müsbət olduğu təqdir də proyekt məqsədə uyğun hesab edilir. Excel cədvəlində hesablanmış göstəricilərə əsasən xalis cari dəyər 1441.42 milyon manat olmuşdur. Bu o deməkdir ki, məbləğ 0-dan böyükdür və investisiya qoyuluşu məqsədə uyğundur. Digər maliyyə göstəricisi isə daxili dönüş dərəcəsidir. Burada investisiya qoyuluşu və gələcək də əldə olunacaq gəlirlər əsasında faiz dərəcəsinin ən yüksək həddi tapılır. Faiz dərəcəsinin yüksək olması əlimizdəki pulun 1 il sonrasında daha da dəyərsizləşməsi deməkdir. Yəni gələcəkdə əldə edəcəyimiz pulun dəyərini kiçildir. Daxili dönüş dərəcəsi vasitəsi ilə biz faiz dərəcəsinin maksimum dərəcəsini taparaq

hansı faiz dərəcəsinə qədər proyektin dəyərli olduğunu öyrənə bilərik. Burada həmin maksimum faiz dərəcəsi 10.48%-dir. Geri ödəmə müddəti sadə maliyyə aləti olaraq istifadə edilir. Belə ki, əldə olunan mənfəət vasitəsi ilə investisiyaya çəkilən xərcin ödənəcəyi hesablanır. Burada həmin müddət 9.16 il olaraq hesablanmışdır.

Hər bir rəqəmi məlumatlar üzrə statistik analizlər aparmaq və onlar barədə nəticə əldə etmək lazımdır. Bu məqalədə biz reqressiya analizindən istifadə edərək bir asılı olmayan dəyişən toplusunun digər asılı dəyişənə təsiri barədə öyrənəcəyik. Əlavə olaraq Pearson Korrelyasiya Kofisienti vasitəsi ilə biz verilən arasında mütənasibliyin gücünü öyrənərək birinin digərinə təsirini öyrənə bilərik (Sedgwick, 2012). Aşağıda “SOCAR Polymer” MMC-nin əldə etdiyi və edəcəyi ümumi mənfəətlər və onlar vasitəsi ilə əldə olunacaq vergi məbləği göstərilmişdir:

| İllər | X(Gəlir vergisi, Milyon manatla)* | Y(Gəlir, Milyon manatla) | XY | $X^2$ | Say |
|---|---|---|---|---|---|
| 2019* | - ₼ | 7.70 ₼ | 0 | 0 | 1 |
| 2020 | - ₼ | 16.00 ₼ | 0 | 0 | 1 |
| 2021 | - ₼ | 29.00 ₼ | 0 | 0 | 1 |
| 2022 | - ₼ | 90.00 ₼ | 0 | 0 | 1 |
| 2023 | - ₼ | 90.25 ₼ | 0 | 0 | 1 |
| 2024 | - ₼ | 89.25 ₼ | 0 | 0 | 1 |
| 2025 | - ₼ | 90.25 ₼ | 0 | 0 | 1 |
| 2026 | - ₼ | 95.00 ₼ | 0 | 0 | 1 |
| 2027 | - ₼ | 100.00 ₼ | 0 | 0 | 1 |
| 2028 | 20.80 ₼ | 104.00 ₼ | 2163.2 | 432.64 | 1 |
| 2029 | 21.30 ₼ | 106.50 ₼ | 2268.45 | 453.69 | 1 |
| 2030 | 21.90 ₼ | 109.50 ₼ | 2398.05 | 479.61 | 1 |
| 2031 | 22.60 ₼ | 113.00 ₼ | 2553.8 | 510.76 | 1 |
| 2032 | 23.10 ₼ | 115.50 ₼ | 2668.05 | 533.61 | 1 |
| 2033 | 24.00 ₼ | 120.00 ₼ | 2880 | 576 | 1 |
| 2034 | 24.70 ₼ | 123.50 ₼ | 3050.45 | 610.09 | 1 |
| 2035 | 25.20 ₼ | 126.00 ₼ | 3175.2 | 635.04 | 1 |
| 2036 | 26.00 ₼ | 130.00 ₼ | 3380 | 676 | 1 |
| 2037 | 26.80 ₼ | 134.00 ₼ | 3591.2 | 718.24 | 1 |
| 2038 | 27.20 ₼ | 136.00 ₼ | 3699.2 | 739.84 | 1 |
| **CƏM** | ***263.60 ₼*** | ***1,925.45 ₼*** | ***31827.6*** | ***6365.52*** | ***20*** |
| | $\sum x_i$ | $\sum y_i$ | $\sum x_i y_i$ | $\sum x_i^2$ | n |

***Sənaye parklarında yaradılan müəssisə qeydiyyata alındıqdan 10 il müddətinə vergilərdən azaddır.***

**Mənbə: Yazıçının öz tədqiqatı**

Burada biz ilk öncə verilənlər əsasında Pearson Korrelyasiya Kofisientini taparaq vergi gəlirləri və gəlirlər arasında əlaqəni tapmaq lazımdır. Pearson Korrelyasiya Kofisientinin qiyməti -1 və 1 arasında qiymətləri alır və bu aralıq onlar arasında əlaqəni göstərir. -1 əks əlaqəni göstərir. Bu o deməkdir ki, asılı olmayan dəyişəndə olan artım asılı olan dəyişəndə eyni qədər azalmaya gətirəcək bu mükəmməl əks korrelyasiyadır. -1 və 0 aralığında eyni şəkildə əksdir. Lakin, burada asılı olan da dəyişiklik asılı olmayan dəyişikliyə az təsir göstərir. 0 rəqəmini aldığı təqdirdə onlar bir-birindən fərqli rəqəm olaraq qeydə alınır yəni asılı olmayanda dəyişiklik baş versə asılı olan da baş verməyəcək. 0 və 1 aralığında rəqəm alacağı təqdirdə isə düz mütənasibliyi yaradacaq yəni asılı olmayanda baş verən dəyişiklik asılı olan dəyişikliyə az da olsa müsbət təsir göstərəcəkdir. 1 olduğu təqdirdə isə bu mükəmməl korrelyasiya yaradacaq yəni asılı olmayan

dəyişəndə olan artım asılı olan dəyişəndə eyni qədər artmaya gətirəcək. Aşağıda Pearson düsturu və və düstur vasitəsi ilə müəyyən statistik məlumatlar verilmişdir.

$$r = \frac{\sum(x - m_x)(y - m_y)}{\sqrt{\sum(x - m_x)^2 \sum(y - m_y)^2}}$$

Yuxarıda göstərilən məlumat əsasında reqressiya analizi aparılmışdır:

**Qrafik 2**




SUMMARY OUTPUT

| *Regression Statistics* | |
|---|---|
| Multiple R | 0.739588575 |
| R Square | 0.54699126 |
| Adjusted R Square | 0.521824108 |
| Standard Error | 25.73081029 |
| Observations | 20 |

ANOVA

| | *df* | *SS* | *MS* | *F* | *Significance F* |
|---|---|---|---|---|---|
| Regression | 1 | 14389.74961 | 14389.74961 | 21.73433273 | 0.000193951 |
| Residual | 18 | 11917.34277 | 662.0745982 | | |
| Total | 19 | 26307.09238 | | | |

| | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95.0%* | *Upper 95.0%* |
|---|---|---|---|---|---|---|---|---|
| Intercept | 66.8690999 | 8.5371111 | 7.832755028 | 3.3067E-07 | 48.93329503 | 84.80490477 | 48.93329503 | 84.80490477 |
| X Variable 1 | 2.230910478 | 0.478529799 | 4.662009516 | 0.000193951 | 1.225556676 | 3.23626428 | 1.225556676 | 3.23626428 |

**Mənbə: Yazıçının öz tədqiqatı**

Reqressiya analizinə əsasən biz görə bilərik ki, Pearson Korrelyasiya Kofisienti 0.73 olaraq tapılmışdır. Bu o deməkdir ki, SOCAR polimer zavodunda təqribi əldə olunacaq gəlirlər, buradan əldə ediləcək mənfəət vergisi ilə düz mütənasibdir. Belə ki, il boyunca davamlı şəkildə artan tendensiya bu zavoddan əldə ediləcək mənfəət vergisinidə artırır. Sənaye parklarında yeridilən 10 illik vergi azad olmaları da SOCAR Polimer zavodunun istehsalını və satışını maksimumlaşdıracaq. Analizə əsasən, həm zavodun gəliri həm də mənfəət vergisi il keçdikcə trend xəttindən müsbət istiqamətdə aralanır. Bu o deməkdir ki, Azərbaycan sadəcə

Sumqayıt Kimya-Sənaye Parkında fəaliyyət göstərən SOCAR Polimer zavodundan gələcək də müsbət saldoda gəlir əldə edə biləcək.

**Nəticə**

Araşdırma nəticəsində Azərbaycan respublikası daxilində XİZ zonaları barədə məlumatlar və XİZ növü olan Sənaye parkları barədə ilkin məlumatlar əldə etdik. Bu məqalədə dünya üzərində yaradılan ilk sənaye parkı barədə ilkin məlumatlar paylaşıldı və bu sənaye parkının xarici kapitalın cəlb etməsində rolunu izah edildi. Daha sonrasında Azərbaycan iqtisadiyyatında xarici birbaşa investisiyalar barəsində müəyyən maliyyə məlumatları araşdırıldı. Məqalənin sonrakı mərhələsində sənaye parkları barədə və orada yeridilən xüsusi vergi-gömrük rejimi barədə məlumat verildi. Sonda isə Sumqayıt kimya-sənaye parkında fəaliyyət göstərən "SOCAR Polymer" MMC-nin 20 il üzrə hazırladığı məlumatlara əsasən maliyyə göstəriciləri hesablanaraq analizlər aparıldı.

**Ədəbiyyat Siyahısı**


1. Vidova, Jarmila. (2010). Industrial Parks - History, Present and its Influence to the Employment. Review of Economic Perspectives. 10. 41-58. 10.2478/v10135-009-0008-1.
2. Hasanov, Niyazi & Akbulaev, Nurkhodzha. (2020). Innovative development of key sectors of economy based on the creation of technological parks in the Republic of Azerbaijan. New Trends and Issues Proceedings on Advances in Pure and Applied Sciences. 44-56. 10.18844/gjpaas.v0i12.4986.
3. Li, C., Wu, J. & Zeng, T. Global industrial park research trends: a bibliometric analysis from 1987 to 2016. Environ Monit Assess 192, 29 (2020). https://doi.org/10.1007/s10661-019-7993-z
4. Aliyev, Shafa. Economic and Social Development: Book of Proceedings; Varazdin, Vol. 4, (Jun 18/Jun 19, 2020).
5. Rapid development continues. Sumgayit. July 14, 2018
6. Aliyev, S.T. (2014). Economics of Azerbaijan: Upgrading and implementation of effective instruments. 11. 321-326.
7. Hüseynova, A., 2017. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Institute for Scientific Research on Economic Reforms. Retrieved from https://policycommons.net/artifacts/1612974/azrbaycan-respublikasi-iqtisadiyyat-nazirliyi/2302901/ on 25 May 2022. CID: 20.500.12592/6qp4db.
8. Samedov F.F, SITUATION OF SUMGAYIT CHEMICAL INDUSTRY (2010-2018) Том 32 (71) № 2 2021
9. Babayev, Bahruz. Economic and Social Development: Book of Proceedings; Varazdin, Vol. 2-4, (Jun 18/Jun 19, 2020).
10. МАГЕРРАМОВ М.М., ВОПРОСЫ ФИНАНСОВОЙ УСТОЙЧИВОСТИ УСИЛЕНИЯ ИНФРАСТРУКТУРЫ НЕНЕФТЯНОГО ПРОИЗВОДСТВА НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ 22–23 октября 2020; 237-40. РОЛЬ ТРАНЗИТНОГО ПОТЕНЦИАЛА АЗЕРБАЙДЖАНА В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ
11. Aliyev, Shafa. (2021). Problems of the Azerbaijani Economy Diversification in Modern Conditions. 10.2991/assehr.k.210322.081.
12. James E. Hogan, the Downstream Sector in Azerbaijan: The Legal Environment. 26 April 2017 SOCAR Caspian and Central Asia Downstream Conference-Baku

13. Səbinə Sadıqova, RƏQABƏT STRATEGİYASI VƏ ONUN TƏHLİLİ. İPƏK YOLU, No.3, 2017, səh.114-125
14. Azərbaycan Respublikasının Prezidentinin 24 Aprel 2013-cü il fərmanı ilə təsdiqlədiyi "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"
15. Azərbaycan Respublikasının Vergi məcəlləsi
16. Azərbaycan Respublikasının Gömrük məcəlləsi
17. SOCAR Polymer MMC-nin xəbərlər bülleteni / Nömrə 25 / 2019-cü il
18. Sumqayıt Kimya Sənaye Parkının ölkənin qeyri-neft sektorun inkişafında rolu ilbəil artır (scip.az)
19. https://www.stat.gov.az/source/finance/
20. https://en.wikipedia.org/wiki/Trafford_Park
21. https://www.trafford.gov.uk/business/locations-for-business/docs/trafford-park-brochure.pdf

# AZƏRBAYCANDA ELEKTRON TİCARƏTİN İNKİŞAFI VƏ PANDEMİYA DÖVRÜNDƏKİ VƏZİYYƏTİ

**Zamir Şabanov**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**z.shabanov@unec.edu.az**

## Xülasə

Məqalə 2020-ci il Çinin Vuhan şəhərində başlayan qısa bir zaman ərzində bütün dünyanı cənginə alan koronavuris (Covid-19 ) pandemiyasının bütün dünyada öz təsirini ciddi göstərdiyi bir dönəmdə elektron ticarətdə baş verən temdensiyalar ilə bağlıdır. Elektron ticarətin istifadəsində görünən müsbət təsirlər Azərbaycandan da yan keçməmişdir.

Məqalədə pandemiyanın başladığı ilk günlərdən Azərbaycanda istehlakçıların alış davranışlarında ciddi bir dəyişikliyə gedərək elektron ticartədən artıq daha geniş istifadə etdiklərini göstərilmişdir. Buna isə əsas səbəb olaraq isə qapanmalar səbəbindən isanlarda yaranan narahatlıqlar və virusa yoluxma riskinin pandemiyanın ilərləyən zamanlarda şiddətini artırması elektron-ticarət platformalarından alış-veriş etməsi göstərilə bilər.

Məqalədə Azərbaycanda elektron ticarətin inkişafını, təhlükəsizliyini dətəkləmək məqsədilə 2018-ci ildə təsdiqlənən "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramını" göstərilmişdir. Qeyd edilən proqram ərzində qarşıya qoyulan bir sıra sıra tədbirlərlə yanaşı 2021-ci ilin yanvar ayının birindən fəaliyyətə başlayan yeni layihə olan Smart Customs tətbqini elektron ticarətə dövlətin bir digər dəstəyi kimi göstərilə bilər.

Ümumilikdə isə məqalədə pandemiyanın da təsiri ilə əhatə dairəsini və istifadəsini ciddi bir şəkildə genişləndirən elektron ticarətin yerli bazarda istifadəsinin daha da təkmilləşdirilməsi və müştəri məmnuniyyətinin artırılması baxımından bir sıra təkliflər irəli sürülmüşdür.

**Açar sözlər: elektron ticarət, pandemiya, istehlakçı davranışı, onlayn**

## Summary

The article deals with the trends in e-commerce at a time when the coronavuris (Covid-19) pandemic, which hit the world in a short time, began in Wuhan, China in 2020, has had a serious impact around the world. The positive effects of the use of e-commerce have not gone unnoticed in Azerbaijan.

The article shows that from the first days of the pandemic, consumers in Azerbaijan have made significant changes in their purchasing behavior and are increasingly using e-commerce. The main reasons for this are the inconveniences caused to people due to closures and the risk of infection with the virus during the pandemic, when shopping on e-commerce platforms.

The article shows the "State Program for the expansion of digital payments in the Republic of Azerbaijan in 2018-2020", approved in 2018 in order to support the development and security of e-commerce in Azerbaijan. In addition to a number of measures taken during the program, the introduction of Smart Customs, a new project launched on January 1, 2021, can be seen as another state support for e-commerce.

In general, the article makes a number of proposals to further improve the use of e-commerce in the local market and increase customer satisfaction, which significantly expands the scope and use of the pandemic.

**Keywords: e-commerce, pandemic, consumer behavior, online**

## Giriş

Bir tərəfdən informasiya və ideyalar internet vasitəsilə böyük sürətlə ötürülürkən, digər tərəfdən isə biznesdən istehlakçıya, istehlakçıdan biznesə və istehlakçıdan istehlakçıya fəaliyyətləri arasında ünsiyyət də sürətlənib. Bu sürətlənmənin ən böyük pay sahibi kimi isə heç şüphəsiz ki, elektron kommersiya mühitinin yaranmasını göstərə bilərik. Hətta bu gün belə elektron ticarət (e-ticarət) biznesin idarə edilməsi və informasiya texnologiyalarının yeni, inkişaf edən və daim dəyişən sahəsi olaraq qalır. Müasir dövrdə artan rəqabətlə sahibkarlıq və ticarət sahəsində həyatı asanlaşdıran yeni məhsul və xidmətlər ortaya çıxır.

Azərbaycanda bu texnoloji inkişafdan yan keçməmişdir texnolgiyanın inkişaf etdiyi bir dövrdə Azərbaycan bazarında da istehlakçılar elektron ticarətin rahatlığından və faydalarından istifadə edirlər və bu gün keçdikcə dah da artır.

Azərbaycanda pandemiyanın da təsiri ilə artan elektron kommersiya fəaliyyətlərinin inkişaf etdirilməsi və baza strukturunun təkmilləşdirilməsi dövlət səviyyəsində gələcək prioritet məsələrdən olmalıdır. Bu yeni yaranan rəqabət mühitində artıq şirkətlər kommersiya fəaliyyətində istehlakçılar ilə daha yaxın əlaqələr yarada bilirlər. Bu isə öz növbəsində bazarda rəqabəti artırır.

İstehlakçıların onlayn mühitdə artıq daha çox ödəniş əməliyyatlarını həyata keçirirlər. Bununla bağlı Mərkəzi Bankın yayımladığı statistikalara əsasən 2019-cu ildə 48% olan ümumi nağdsız ödəniş nisbəti 2021-ci ildə artıq 68%-ə yüksəlmişdir. Bunda isə elektron ticarətin istifadəsinin artmasının böyük təsiri vardır. Bu isə öz növbəsində təhlükəsizlik məsələlərində təkmilləşdirilmələrin aparılmasını zəruri edən bir digər şərtlərdəndir.

Məqalənin yazıldığı zaman əsas qarşılaşdığım problem elektron ticarətin mövcud vəziyyəti və istiqamətləri ilə bağlı azərbaycan dilində kifayət qədər mənbənin olmaması idi. Nəzərə alsaq ki, bu sahə 21-ci əsrdə ən aktual biznes fəaliyyətlərindən biridir. Bu isə ölkənin bazar mühitinin təkmilləşməsi bu da birbaşa iqtisadi rifahının artmasına müsbət təsir göstərir.

## Metod

Məqalənin yazılması zamanı əsasən statistik təhlil, müqayisəli təhlil istifadə edilmişdir. Azərbaycanda dinamik dəyişən iqtisadi və sosial proseslərin inteqrativ (kompleks) öyrənilməsində statistik tədqiqatlar kifayət qədər geniş tətbiq edilmişdir. Məqalənin hazırlanmasında induksiya-deduksiya və müqayisəli təhlil metodundan istifadə edilmiş covid-19 pandemiyası zamanı Azərbaycanda elektron kommersiyanın inkişafına təsir göstərən amillər arasında müqayisələr aparılaraq problemlər araşdırılmışdır və bu problemlərin aradan qaldırıması, Azərbaycanda elektron ticarət mühitinin genişləndirilməsi üçün həll yolu istiqamətində bəzi təkliflər irəli sürülmüşdür.

## Analiz

### Elektron ticarət istifadəsi niyə genişləyir?

Texnoloji inkişafla birlikdə ortaya çıxan və ötən əsrin ən mühüm ixtiralarından biri olaraq görülən internet saytları, kommersiya müəssisələri ilə istehlakçıların (müştərilərin) 24 saat üz-üzə görüşmədən ünsiyyət qurduğu kanallar olaraq görülür. İnternetin geniş yayılması, mobil rabitə, internet mühitinin fiziki şəraitlə müqayisədə üstünlükləri, istifadəçilərin marketinq baxımından meylləri və müəssisələrin öz istehlakçıları ilə ünsiyyət qurmaq istəyi internet saytlarını potensial marketinq kommunikasiyası vasitəsinə çevirmişdir (Demirel və Eriş, 2019).

Vesaytların şirkətlər üçün önəmi danılmazdır. Mobil-dostu (Mobile-Friendly) veb-sayta sahib olmaq Smartfon və planşet istifadəçilərinin artması ilə hər keçən gün artan vebsayt ziyarətçi sayının artmasına səbəb olur. Bütün böyük markalar, vebsaytlarının mobil uyğun olmasını təmin edərək müştəri təcrübəsini inkişaf etdirir və elektron kommersiya mühitində alış-verişi daha da rahatlaşdırır (Akyazı, 2018).

Həqiqətən, sosial media e-ticarət saytları üçün güclü bir vasitədir. Bir çox insanın gündəlik problemlərinə cavab tapmaq üçün telefonlarına müraciət etdiyi bir dövrdə e-ticarət və sosial medianın niyə bu qədər birləşdiyini anlamaq çətin deyildir. Sosial media müştərilərə hər zamankindən daha çox brendə qoşulmağa imkan verir. Bu isə öz növbəsində potensial müştərilərin də sayının çoxalmasına geniş imkan yaradır və beləliklə də e-ticarət ilə məşğul olan şirkətlərin payını artırır (Abed, Dwivedi və Williams, 2015).

Kütləvi Fərdiləşmə (Mass Customization)- biznesin fərdi müştərilərin ehtiyaclarına uyğunlaşdırılmış məhsul və xidmətləri istehsal etmək və onlayn bazara çıxarmaq qabiliyyətinə istinad edən biznes konsepsiyasıdır. Bu biznes strategiyası çevik istehsal prosesindən istifadə edir. Yaşadığımız dövrdə

pərakəndə, texnologiya, ev inşaatı, interyer dizayn və.s bu kimi sənayə sahələri, istehlakçı tələbatlarını qarşılamaq və məmnuniyyyəti artırmaq üçün bu yanaşmadan istifadə edilir (Taylor, Charles R., 2020).
Artıq müştəri bir yox bir neçə kanaldan hərəkət edərək onlayn varlığını göstərir. Tək kanal üzrə hərəkət göstərən klassik ticarət, artıq çoxlu və çapraz kanallar arası strukturlarla bir formada yoluna davam edir. Çoxlu-kanal (Omni-Channel) mühitində müştəri sadəcə bir kanalı deyil, brendin özünü bütün şəxsiyyəti ilə görür. Brend eyni zamanda istifadəçini həm strateji, həm də əməliyyat baxımından tək bir müştəri kimi görür və müştəriyə ehtiyaclarına və vərdişlərinə uyğun istifadəçi təcrübəsi təqdim edir. Omni-Channel xidməti nəinki müştəri məmnuniyyətini artırır, həm də düzgün qurulduqda müştəri xidmətindən tutmuş müştərinin loyallığının artırılmasına qədər bir çox əməliyyatlarda səmərəliliyə töhfə verir. Şirkətlər inkiaf etmiş e-ticarət və omnichannel strategialarının faydalarından artıq daha çox faydalanırlar. Ən böyük fayda kimi satışların kəskin artmasını göstərə bilərik. Omnichannel strategiyaları kontekstində e-ticarət daha yaxşı müştəri təcrübəsi və daha yüksək müştəri loyallığı, məlumatların toplanması, artan satış və təkmilləşdirilmiş səmərəlilik yarada bilmişdir. Bu yeni ssenaridə logistika həllərinə və əməliyyatlara daha çox diqqət yetirilməsi vacibdir (Lemon K. N., & Verhoef 2016).

**Azərbaycanda elektron ticarət və dövlət dəstəyi**

Dünyanın bir çox ölkərində olduğu kimi Azərbaycanda da elektron-ticarət platformalarından istifadədə ciddi artış müşahidə edilmişdir. Bütün dünyada yeni halını alan bu tendensiya Azərbaycan elektron ticarət bazarından da yan keçməmişdir. Əhalinin istehlak vərdişləri dəyişərək elektron-ticarət üzərindən edilən alışların həcmi kəskin artmışdır. Elektron ticarət dünyada və Azərbaycanda ən sürətlə inkişaf edən və dəyişən sektorlardan biridir. Son on ildə onlayn ticarət platformaları tərəfindən göstərilən xidmətlərin çeşidi və keyfiyyəti davamlı olaraq artmışdır (Cabbarova, 2018; Süleymanov və İbrahimova, 2018).
Bundan başqa elektron ticarətin inkişafına təkan verən səbəb isə Covid-19-un köməyi ilə sürət qazanan onlayn ticarət artıq daha təkmil bir hal almışdır. Müşahidə olunan bu artış eyni zamanda sektordakı rəqabətə də təkan vermişdir. Elektron kommersiya nə dərəcədə istehlakçını dəyişdirirsə, o da özünü istehlakçının gözləntilərinə uyğun inkişaf etdirir (Ağakişiyev və Məmmədrzayev, 2018).
Belə ki, məlumatlara əsasən pandemiyanın ilk hökmünü göstərdiyi il olan 2020 ci ilin yanvar-noyabr ayı ərzində elektron ticarət dövriyyəsi öncəki il müqayisədə 2.4 dəfə artmışdır (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2020).
Bunu bir çox səbəb ilə açıqlamaq olsada, bu tendensiyaya ən böyük səbəb kimi alış-veriş və ticarət mərkəzlərinin bağlanmasını göstərmək olar. Qapanmalar səbəbindən isanlarda yaranan narahatlıqlar və virusa yoluxma riskinin pandemiyanın irəliləyən zamanlarda şiddətini artırması elektron-ticarət platformalarından alış-veriş etməyə marağı artırdı.
Bütün dünyada olduğu kimi Azərbaycanda da elektron ticarətin inkişaf etdirilməsi üçün tədbirlər görülməli, infrasturuktur təminatı yaxşılaşdırılmalı və huquqi-normativ məsələlərə baxılmalıdır. E-ticarət qlobal informasiya cəmiyyətinin ayrılmaz hissəsidir. Həyata keçiriləcək siyasətlər, tətbiqat vasitələri və texniki standartlar beynəlxalq normalara uyğun formada təşkil edilməli və maksimum tələsmədən aparılmaldır (Əliyev, Abbasova, Abedini, 2010). Dövlət özü də, bir elektron sistemin gətirdiyi funksionallığın istifadəçisidir. Bu istiqamətdə Azərbaycanda icra orqanları elektron ticarətin verdiyi funksiyalardan istifadə edərək inkişaf etdirilməsinə öz töhfələrini verməlidir (Əkbərov M.Q., 2011). Ölkə əhalisinin qeydiyyata alınması, vergiqoyma və ödəmə, mal və xidmət alınması zamanı dövlətin özünün bu funksiyalardan istifadə etməsi buna misal olaraq göstərilə bilər.
Azərbaycanda pandemiya dövründə elektron ticarətin payının artmasına bir digər təkan verici amil isə hökumət tərəfindən bu sektorun inkişafı üçün atılan bir sıra addımlardır. Bunlardan biri kimi, 2018-ci ildə

təsdiqlənən “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramını” göstərmək olar (https://e-qanun.az/framework/40164). Qeyd edilən dövrdə elektron ticarətin inkişaf etdirilməsi üçün qarşıya qoyulan bir sıra əsas tədbirlər aşağıdakılardır.

- Rəqəmsal ödəniş xidmətlərinin institusional və hüquqi bazasının gücləndirilməsi.
- Rəqəmsal ödəniş sistemlərinin təkmilləşdirilməsi.
- Yeni ödəniş sistemlərinin keçidin ttəmin edilməsi.
- Gərəkli olan infrastrukturun təmin edilməsi.
- Elektron ticarət platformalarında minimal təhlükəsizlik tədbirlərinin təmin edilməsi.

Bundan başqa hökümətin elektron ticarətdə biznes fəaliyyətlərinin tətbiqinə də dəstək göstərir. Buna misal olaraq prezident İlham Əliyev 2016-cı il oktyabrın 5-də yerli qeyri-neft sektoru məhsullarının “Made in Azerbaijan” brendi ilə xarici bazarlarda geniş təbliğini nəzərdə tutan Sərəncamını göstərmək olar. Bu Fərman 10 müxtəlif mexanizmi, yəni “Made in Azerbaijan” brendinin xaricdə tanıdılması və ixracın stimullaşdırılması üçün dəstək tədbirlərinin həyata keçirilməsini əhatə edir (https://azpromo.az/az/page/made-in-azerbaijan).

2021-ci ilin yanvar ayının birindən fəaliyyətə başlayan yeni layihə olan Smart Customs tətbqini də elektron ticarətə dövlətin bir digər dəstəyi hesab etmək olar. Layihənin əsas məqsədi e-ticarət əməliyyatlarının daha sürətli həyata keçirilməsi və şəffaflığın artırılması ilə yanaşı, vətəndaş-məmur təmasının ən aza endirməklə istehlakçılar arasında vaxt itkisinin qarşısının alınmasıdır. Bu sayədə gömrük statistikalarının düzgün aparılması və mövcud resurların səmərəli şəkildə istifadə edilməsi təmin olunacaqdır (https://customs.gov.az/az/faydali/xeberler/4448_).

Aparılan bu işlər və 2020-ci ildən dünyada baş qaldıran koronavirus pandemiyası sektora öz təsirini göstərmişdir. Belə ki, pandemiya başladığından bəri Azərbaycanda ödənişlərdə bank kartlarından istifadədə artım müşahidə olunmuşdur. Mərkəzi Bankın verdiyi bir digər məlumatda da biz bunu görə bilərik. Məlumata əsasən 2020-ci ilin noyabr ayı ərzində ölkədə 2 milyard 471 milyon manat həcmində bank kartları vasitasilə onlayn alış həyata keçririlmişdir. Edilən ümumi ödənişlərin 179 milyon manatı kredit kartlarının, 2 milyard 295 milyon manatı isə debet kartlarının payına düşür (Azərbaycan Respublikası Mərkəzi Bankı, 2020).

Verilən dövlət dəstəyi və pandemiyanın öz təsirini qoruması ilə 2021-ci ildə nağdsız ödənişlərdə artım tendensiyası davam etmişdir. Belə ki, pandemiyadan öncəki dövrdə ölkə daxili ödənişlərdə üsstünlük təşkil edən nağd ödənişlər pandemiyanın da təsiri ilə artıq öz yerini nağdsız ödənişlərə vermişdir (https://apa.az/az/maliyye/olkede-nagdsiz-emeliyyatlarin-hecmi-artib-705098). Bununla bağlı Mərkəzi Bankın yayımladığı statistikalara əsasən 2019-cu ildə 48% olan ümumi nağdsız ödəniş nisbəti 2021-ci ildə artıq 68%-ə yüksəlmişdir (ARMB, 2021).

Ödəniş kartları ilə edilən ölkə daxili nağdsız ödənişlərdə 2021-ci il ərzində böyük artım müşahidə edilmişdir. Qrafik 2 pandemiydan əvvəlki və sonrakı dövrlər olmaqla ümumi 4 il ərzində Azərbaycanda nağdsız ödəniş əməliyyatlarında artım rüblərə uyğun olaraq göstərilmişdir.

**Qrafik 1: Ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız ödənişlərin sayı (mln. ədəd)**




Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bank statistikası www.cbar.az

Qrafikdən də, görüldüyü kimi, pandemiya Azərbaycanda kartlar ilə aparılan nağdsız ödənişlərə böyük təsir göstərərək aparılan əməliyyatların ümumi həcminə kəskin artım yaratmışdır. 2019 və 2021 ci ilin II rüblərini müqayisə etsək, görə bilərik ki, aparılan nağdsız ödənişlərin sayında 3 dəfədən çox bir artım müşahidə edilmişdir.

Nağdsız əməliyyatların sayında olan bu kəskin artım məntiqi olaraq özünü ümumi ödəniş həcmində də göstərmişdir. Bu isə öz növbəsində elektron ticartdən istifadənin də artdığını göstərir. Elektron kommersiya altyapısı isə buna imkan tanıyır. Qrafik 2-də bu bu artım rüblərə görə qeyd edilmişdir.

**Qrafik 2: Ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız ödənişlərin həcmi (mlrd. manat)**




Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bank statistikası www.cbar.az

Qeyd edilən statistikalardan da görüldüyü kimi 2021-ci ilin II rübündə bir əvvəlki rüb ilə müqayisədə nağdsız ödənişlərdə böyük artım (35%) müşahidə edilmişdir. Bu artıma biz illkin müqayisədə baxsaq daha böyük bir artımın şahidi oluruq.

Qeydə alınan bütün bu məlumatlar və pandemiyanın başladığı 2020-ci ilin ilk rübündə nağdsız ödəniş həcminin 2.9 mlrd. manat səviyyəsindən 2 il ərzində 7 mlrd. manat həcminə yüksəlməsi bunu deməyə əsas verir ki, ölkədə artıq nağdsız ödəniş vasitələrindən geniş bir formada istifadə edilir. Buna əsas səbəb isə pandemiya zamanı insanların onlayn alış-verişdəki davranışlarının artıq onlarda vərdiş halını alaraq qapanmalar yumşalsa belə bu vərdişləri davam etdirmələri və dövlətin elektron ödəniş sistemlərinin təkmilləşməsinə verdiyi dəstəkdir.

Pandemiya dönəmində insanların virusa yoluxma riski qorxusu, qapanmalar və nağdsız ödəniş sistemi üçün gərəkli olan infrastrukturun dövlət dəstəyi tıkmilləşməsi istiqamətində görülən işlər bütün dünyada olduğu kimi Azərbaycanda da istehlakçıların onlayn alış davranışlarında da ciddi dəyişikliklərə səbəb oldu. Bu dəyişikliklər özünü  bir sıra rəqəmlərdə göstərmişdir. Elektron ticartdən istifadənin həcmi artmışdır.

Arzşdırmalar gösrərir ki, pandemiya ərzində ən çox təsirə məruz qalan sektorlardan biri də elektron ticarət sektorudur. İstehlakçılar bu dövrdə həm məcburiyyətdən həm də, fiziki alış-veriş ilə müqayisədə daha az riskli olduğunu düşünərək onlayn ticarət platformalarına daha çox üz tutmağa başladılar.
2020-ci ildə sosial-iqtisadi həyatı al-üst edən və uzun bir müddət həyatımızda qalan koronavirus (covid-19) pandemiyasının bazardakı bir sıra ticarət fəaliyyətlərinə mənfi təsiri olsada, elektron ticarətdə ciddi bir müsbət artıma səbəb olmuşdur.
Bu dəyişikliklər dünyada olduğu kimi Azərbaycanda da müşahidə edilmişdir. İnsanların fiziki təmaslardan çəkinməsi və hökumət tərəfindən tətbiq olunan qapanmalar isnsanların elektron kommersiya mühitini daha təhlükəsiz olaraq qiymətləndirməsinə və gün keçdikcə daha çox istifadə etməsinə səbəb oldu.

**Qrafik 3: Ölkədaxili elektron ticarət əməliyyatlarının həcmi (mln. manat)**




Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bank statistikası www.cbar.az

Qrafikdən göründüyü kimi, 2021-ci ilin iki rübü arasında ümumi elektron ticarət əməliyyatlarının həcmi təqribi 2.1 milyard manat artmışdır. Ümumilikdə isə 2021 ci il ərzində toplam e-ticarət həcmi 4.8 mlrd. manat təşkil edərək rekord həddə çatmışdır. Bu isə 2020-ci ilin eyni rübü ilə müqayisədə 2021-ci ildə 50%-dən daha çox onlayn ticarət platformaları üzərindən ödəniş həyata keçirildiyini göstərir.
Azərbaycan əhalisi elektron ticarət patformaları üzərindən 2021-ci il iyul ayında 481 mln. manatlıq alqı-satqı əməliyyatı həyata keçirmişdir ki, bu o zamanadək müşahidə edilmiş maksimum göstərici idi. Pandemiyanın hakim olduğu bir əvvəlki il olan 2020-ci ilin eyni ayında isə bu göstərici 313 mln səviyyəsində idi. Bu rəqəmlərə uyğun olaraq deyə bilərik ki, qeyd edilən dövrə qədər (2021 iyul ayına qədər) olan illik artış 35%-dir.
İyul ayı üzrə olan bu göstərici həm də, bir öncəki ayın (iyun) ayına olan rekord göstəricidən 7.8 % daha çoxdur. İyun ayında elektron satış alış əməliyyatlarının dövriyyəsi 446 mln. manat qeydə alınmışdır.
Mərkəzi Bank tərəfindən verilən məlumatlara əsasən nağdsız olaraq həyata keçirilən ümumi ödənişlərin payında əsas hissəni 54,6%-lə elektron ticarət əməliyyatları zamanı həyata keçirilən nağdsız ödənişlər təşkil edir (Azərbaycan Mərkəzi Bankı məlumatları əsasında "APA-Economics " hesablamaları).

**Qrafik 4: 2020-ci iyul ayından 2021-ci iyul ayına qədər ayalara görə elektron ticarət alış həcmi (manatla)**




Mənbə: Azərbaycan Mərkəzi Bank məlumatlarına əsasən "APA-Economics" hesabatı, https://apa.az/az

Qrafik 4-də 12 aylıq bir dövr ərzində ümumi elektron ticarət ödənişlərinin həcmi göstərilmişdir. Özəlliklə aprel-iyul ayları ərzində ödənişlərdəki artım tendensiyasının kəskin davam etdiyini görə bilərik. Pandemiyanın da dünyada təsirin gün keçdikcə daha artması ilə İstehlakçıların qarşılaşdıqları bu yeni həyat tərzinin, qapanmaların qorxusundan təşvişə düşərək bazar və qida sektorunda da ciddi bir dəyişikliyə səbəb oldu. Bu dəyişikliklər arasında isə xüsusilə insanların bir öncəki dövrdən daha çox ciddi bir şəkildə elektron ticarətdən istifadəsini göstərmək olar (https://apa.az/az/maliyye/azerbaycanda-e-ticaretin-hecmi-yeni-rekorda-catib-qrafik-699489).

**Azərbaycan istehlakçıların elektron ticarətdən istifadəsinin müasir vəziyyəti**

Aşağıdakı qrafik 5-də Azərbaycanda pandemiyanın 2-ci ili olan 2021-ci il ərzində elektron-ticarət istifadəçilərinin illik satınalma rəqəmləri göstərilmişdir.

Qrafik 5: İllik satınalma tezliyi




Mənbə: Twentify "E-Commerce in Azerbaijan 2021" araşdırması
https://www.twentify.com/reports/e-commerce-in-azerbaijan-2021

Buna əsasən deyə bilərik ki, 2021-ci il ərzində Azərbaycanda 10 dəfədən daha çox elektron ticarət alışı edənlərin payı 24% faizlə xüsusilə nəzərə çarpır. Toplam onlayn alış veriş edənlərin ortalama alış tezliyi isə eyni ildə 5 dəfə olmuşdur. 18-35 yaş arasında olan mobil-telefon istifadəçilərinin 84% ən azı birkərə onlayn alış prosesi həyata keçirmişdir.

İstehlakçıların ənənəvi satınalma (mağazaya gedərək, məhsula fiziki toxunaraq və.s) üsullarından istifadəsinin çətinləşdiyi dönəmlərdə insanlar bir sıra yerli və xarici e-ticarət platformalarının alış-veriş üstünlükləri ilə tanış olmağa başladılar. Bu sayədə istifadəçilər çeşidli məhsullar arasında daha tez seçimlərini edə, məhsul dəyərləndirmələrinə izləyə, müasir istehlakçı real vaxt rejimində satılan məhsulların çeşidinə baxa, uyğun məhsulu tez tapa, onun xüsusiyyətlərini öyrənə, digər istehlakçıların rəylərini oxuya, rahat çatdırılma üsulunu və vaxtını seçə, onlayn ödənişlər edə bilər (Armstrong C., 2016).

Azərbaycanda isytehlakçılar bu satınalma davranışlarının yerli və xarici bir sıra elektron ticarət platformalarını üzərində göstərərək həmin şirkətlərin ölkə bazarındakı rəqabətini sürətləndimişdirlər. İstifadəçilər əsasən daha çox 4 e-ticarət platformaları üzərindən alış-veriş əməliyyatlarını həyata keçirmişdir. Bunlardan birincisi 46% -lə Trendyol olmuşdur. Daha sonra isə 14%-lə AliExpress, 11%-lə Tap.az və 9%-lə Lalafo olmuşdur.

**Qrafik 6: Azərbaycandakı istifadəçilərin seçdiyi əsas 4 e-ticarət platforması**.




**Mənbə: Twentify "E-Commerce in Azerbaijan 2021" araşdırması** https://www.twentify.com/reports/e-commerce-in-azerbaijan-2021

Bununla belə aşağıda qeyd edilən bir başqa qrafikə baxsaq Azərbaycandan olan elektron-ticarət istifadəçilərinin ümumi alışlarında istifadə etdikləri onlayn ticarət platformalarının adı qeyd edilmişdir.

**Qrafik 7: Pandemiya ərzində Azərbaycan bazarındakı e-ticarət platformalarının istifadəsinə görə sıralaması.**




Mənbə: Twentify "E-Commerce in Azerbaijan 2021" araşdırması **https://www.twentify.com/reports/e-commerce-in-azerbaijan-2021**

Ümumi istifadə edilən platformların göstərcilərinə baxsaq, ən çox istifadə edilən 4 elektron ticarət platformalarından sonrakı yerlərdə müvafiq olaraq milli markalar olan "Araz" supermarket şəbəkəsini, "Umico"-nu və xarici marka olan "Alibaba" yerləşdiyini görə bilərik. Göstəriciyə əsasən demək olar ki, milli şirkətlər arasında pandemiya dönəmində sektor üzrə kəskin rəqabət yaşanmışdır.
İstehlakçıların bu elektron ticarət platformaları üzərindən hansı növ məhsul çeşidini seçməsi və kateqoriya səviyyəsində seçilən məhsulların uyğun sıralaması aşağıdakı qrafikdə qeyd edilmişdir.

**Qrafik 8: Pandemiya ərzində Azərbaycanda istehlakçıların seçdikləri məhsul çeidlərinin sıralaması.**




**Mənbə: Twentify "E-Commerce in Azerbaijan 2021" araşdırması** https://www.twentify.com/reports/e-commerce-in-azerbaijan-2021

Qrafikin məlumatlarından görünür ki, pandemiya ərzində Azərbaycan istehlakçıları daha çox geyim və aksesuar çeşidinə aid olan məshulları 65 %-lə daha çox seçmişdirlər. İkinci yerdə isə elektronik kateqoriyasının istehlakçılar arasında ən çox seçilən olaraq görürük. Kosmetika və şəxsi baxım məhsulları isə elektron ticarət platformaları üzərindən pandemiya ərzində ən çox tələb görən 3-cü kateqoriyadır. Bu kateqoriyaya aid məhsulların tələb görməsində başlıca səbəb isə pandemiyanın insanlar arasında yaratdığı gigiyenik narahatlıqlardır.
Pandemiyanında dünyada təsirin gün keçdikcə daha artması, sürətlə yayılması qlobalda insanlar arasında da mübarizənin başlamasına səbəb oldu. İstehlakçıların qarşılaşdıqları bu yeni həyat tərzinin, qapanmaların qorxusundan təşvişə düşərək bazar və qida sektorunda da ciddi bir dəyişikliyə səbəb oldu.

**Nəticə və Təklif**

Qlobal iqtisadiyyatın bütün sahələrini öz aguşuna alan pandemiya ticarət sektoruna təsir göstərdi. Belə ki, Çindən başlayan pandemiya dünya bazarında tədarük zəncirinin qırılmasına yol açdı və pandemiyanın ilk dövürlərində ölkələrdə bu ajiotaja səbəb oldu. Bu baxımdan demək olar ki, əksər dünya ölkələri elektron ticarətin bütün formalarından istifadəni daha da sürətləndirdilər. Bu proseslərlər Azərbaycandan da yan keçmədi və elektron ticarətin inkişafına öz təsirini göstərdi. Elektron ticarət istehlakçıların bir sıra yerli və xarici elektron ticarət platformalarından geniş istifadə etmələrinə şərait yaratdı.
Aparılmış tədqiqatlar əsasında Azərbaycanda istehlakçıların hansı yeni vərdişlərə üz tutduğnu və bu davranışların onların seçdiyi məhsul kateqoriyalarına təsiri müəyyən olunmuşdur. Araşdırmadan belə bir nəticə çıxarmaq olar ki, artıq istehlakçılar markalara daha az bağlıdırlar və elektron ticarətin təklif etdiyi

hədsiz çeşid və alternativ imkanı artıq markaların müştərilər ilə daha sıx əlaqələrdə olması tələbini yaratmışdır. Satıcılar artıq ənənəvi kanallardan daha çox rəqəmsal kanallar investisiya yatıraraq reklam fəaliyyətlərini dəyişdirməlidirlər. İstehlakçıların son potensial satış təcrüblərini araşdıraraq onlara uyğun kanal vasitəsilə, uyğun məzmun təqdim edilməsi halı şərtlənmişdir.
Bu nöqtədə isə istrehlakçıların tələbinə uyğun elektron ticarət platformasına sahib şirkətlər bazardakı dəyişikliklərə daha tez uyğunlaşa bildilər. Azərbaycandan olan istehlakçıların Türkiyə və birsıra xarici elektron ticarət platformalarından edilən onlayn alış-veriş artıq daha da artmışdır. Səbəb isə bu kimi şirkətlərin pandemiyadan daha əvvəl formalaşdırdığı onlayn ticarət və ödəmə altyapısıdır. Artan istehlakçı tələbi və sürətli elektron ticarətə keçidə daha tez adaptasiya olan şirkətlər daha çox qazanc əldə edə bildilər. Digər bir yandan isə bu alt-yapıya sahib olmayan şirkətlər isə mövcud yeni durumda daha çox çətinliklə qarşılaşdılar və nəticədə onlayn ticarət platformalarında keçidin vacibliyini dərk etdilər.
İstehalakçı təcrübsinə uyğun olaraq xüsusiləşdirilmə imkanları, potensial müştəri ilə bütün alış prosesi boyunca izləyə bilmək və buna uyğun kontent təklif etmək elektron ticarətin son dərəcə əhəmiyyətli bir mövqəyə malik olduğunu bir daha göstərdi.
Azərbaycanda və dünyada qeydə alınan bu yeni tendensiyada paralel olaraq sektordakı bəzi boşluqları və hansı istiqamətdə təkmilləşmələrin aparılmasının daha təcili olduğunu da göstərdi. Bu nöqtədə aşağıdakı bəzi təkliflərin Azərbaycan bazarında elektron kommersiya mühitinin təkmilləşdirilməsi istiqamətində gərəkli olduğunu düşünürəm :

- Rəqəmsal bazar seqmentləri arasındakı fərqi aradan qaldırmaq üçün keyfiyyətli, endirimli və təhlükəsiz məhsul qrupları eyni zamanda kənd yerlərinə doğru da genişləndirilməlidir.
- E-ticarət fəaliyyətlərində həssas istehlakçı qruplarını (yaşlılar və s.) uyğunsuz istehlak və biznes təcrübələrindən, təhlükəli məhsullardan qorumasını təmin etmək.
- Azərbaycanda yerli brandləşmə apararaq ölkə daxilində çatdırılma və elektron ticarət ilə mşğul olan firmaların sayını artırmaq.
- İnnovativ e-ticarət biznes modelləri yaradılaraq rəqəmsal biznesdə şəraitinə tətbiqini sürtələndirmək lazımdır.
- Ölkədə elektron ticarətdə hüquqi qeyri-müəyyənliklər azaldılmalı, məlumat mübadiləsi və şəffaflıq artırılmalıdır. Bazardakı şirktələr arasında e-ticarətə inamını artırmaq və yeni satış sahələri təklif etmək üçün hüquqi və maliyyə stimulları təmin edilməlidir.

Bundan əlavə isə elektron ticarət və sosial medianın qarşılıqlı əlaqədə uyğun formada işləməsini təmin etmək də elektron ticaratin tətbiqində səmərililiyi artıra bilər. Sosial media istifadə eilməkli məhsul və xidmət barədə ümumi bir istehlakçı anlayışı formalaşdıraraq onları bir sonrakı mərhələdə nə etməli olduqları ilə bağlı yönləndirmək mümkündür.
Bazar araşdırmasının aparmaq və analiz etmək çox önəmlidir, daha da önəmlisi isə elektron ticarətlə təkmilləşən istehlakçının sizin şirkətinizlə olan son təcrübələrini analiz etməkdir. Bu sayədə siz onların sizdən istədiklərini öyərə bilər, alış prosesinin hansı mərhələsində qırılma yaşandığını və ya müştərinin veb səhifənizi tərk etdiyini öyrənə bilərsiniz. Sonda isə əldə edilən nəticələr postensial müştərilərin tələblərinə, problemlərinə həll yolu təklif etmək baxımından çox önəmlidir.

**Ədəbiyyatlar**

1. Abed S. S., Dwivedi Y. K., and Williams M. D., (2015). “SMEs' adoption of e–commerce using social media in a Saudi Arabian context: a systematic literature review”, International Journal of Business Information Systems, Vol 19(2), p. 159-179.

2. Ağakişiyev M.A., Məmmədrzayev M.M. (2018). “Kommersiya fəaliyyətnin təşkili”, Bakı, “Elm”, 462 səh.
3. Akyazı A., (2020). “Dijitalleşen Ticaret: Yaşlı Dostu E-Ticaret Siteleri Üzerine Bir Araştırma” The Turkish Online Journal of Design Art and Communication, Vol 8 (4), 602-614.
4. Armstrong C., (2016). “Omnichannel retailing and demand planning.” The Journal of Business Forecasting, Vol 35, p. 10.
5. Cabbarova K. (2018). Beynəlxalq kommersiya fəaliyyəti. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, - 228 səh.
6. Demirel D., Eriş V., (2019). “Innovation trends in e-commerce applications: gittigidiyor.com case”, PressAcademia Procedia (PAP), Vol (9), s. 192-196
7. Elçin Süleymanov və Xəyalə İbrahimova, (2011). “Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri”, Bakı Mühəndislik Universiteti, 2018 səh. 12-35.
8. Əkbərov M.Q., “Elfektron kommersiya Ali məktəblər üçün dərs vəsaiti Bakı”, İqtisad Universitet nəşriyyyatı, 212 səh
9. Əliyev Ə.Q., Abbasova V.Ə., Abedini M.A., (2010). “Elektron kommersiya texnologiyalarının həyata keçirilməsinin tənzimlənməsi məsələləri”, İnformasiya cəmiyyəti problemləri jurnalı, 1-ci nəşr, s. 41-47
10. Lemon K. N., & Verhoef P. C., (2016). “Understanding customer experience throughout the customer journey” Journal of Marketing, Vol 80(6), p. 69–96.
11. Taylor Charles R., (2020). “Advertising and COVID-19”, International Journal of Advertising, Vol 39 (5), p. 587-589.
12. https://www.cbar.az/pages/stats
13. https://www.twentify.com/reports/e-commerce-in-azerbaijan-2021
14. https://www.stat.gov.az/
15. https://apa.az/az/maliyye/azerbaycanda-e-ticaretin-hecmi-yeni-rekorda-catib-qrafik-699489
16. https://apa.az/az
17. https://customs.gov.az/az/faydali/xeberler/4448_
18. https://e-qanun.az/framework/40164
19. https://azpromo.az/az/page/made-in-azerbaijan

# THE INSURANCE INDUSTRY IS OUT OF THE PANDEMIC[3]

**Zhanna V. Pisarenko**

**St. Petersburg State University**

**z.pisarenko@spbu.ru**

**Natalia P. Kuznetsova**

**St. Petersburg State University**

**n.p.kuznetsova@spbu.ru**

**Sergey I. Dukhno**

**Independent researcher**

**a150@yandex.ru**

**Nguyen Cahn Toan**

**Vietnamese Academy of Social Sciences**

**ocab@gmail.com**

**Abstract**

The pandemic has changed the world and transformed the insurance industry, which proved to be quite resistant to the crisis. The goal of the paper is to access the reaction of the insurance industry and its adaptation to new pandemic realities in the short run. The findings of the study are as follows: along with the negative impact, certain types of insurance (namely health insurance) turned out to be in a better position compared to other types, demonstrating good results in both developed and emerging markets; the pandemic and widespread lockdowns have accelerated the digitalization of the industry and the introduction of an ecosystem approach to the insurance market and changes in risk management. Further research is in need to find new ways of industry development: individualizing the supply-side and demand-side, taking into account the social, ecological and environmental responsibility of the insurer and insured, negative risk externalities of 2022.

**Keywords** COVID-19 pandemic, insurance market, health insurance, insurance market structure

## Introduction.

It has been almost three years passed since the COVID-19 pandemic outbreak. The pandemic has changed the world, and it has also changed the insurance industry, which has proven to be relatively resilient to the crisis. Both on the demand side and on the supply side, new risks and new opportunities for the development of insurance markets have emerged. The goal set involves solving the following objectives: the new risks of a pandemic assessment, the response of insurance markets and their adaptation to new pandemic realities clarification, comprehension and generalization the role, features and indicators of health insurance development in comparison with other types of insurance during a pandemic in different countries and regions of the world.

Overall history shows that this is not the first-time humans have faced pandemic risks. An influenza epidemic, for example, has historically been the most common pandemic, with about three occurring every century (Pandemic Center, 2021). The coronavirus, however, has increased public awareness of the epidemiological threat and its global impact on the economy's sustainability and national security. In 2020,

---

[3] This work was supported by the RGNF «Empowerment of Russia and Vietnam on the World Markets from the Risks Perspective of Ecosystem Financial Conglomerates Development and Transition of National Economies to Industry 4.0 [grant number 21-510-92001].

the GDP of the G20 countries decreased by 3.3%. Growth was recorded only in China (by 2.3%) and Turkey (by 1.8%). The most significant drop was demonstrated by the UK economy - the decline reached 9.9%[4].

The crisis caused by the pandemic has significantly raised the demands of all stakeholders on the insurance industry and risk management, not least in relation to customer interaction. For insurers, it means a profound transformation from a simple orientation to sales to a holistic approach to services focused on risk prevention and risk management.

It is obvious that the pandemic has serious social and economic consequences, including an increase in the volatility of financial (including insurance) markets, a rapid unemployment growth[5], a decrease in household income and in insurance coverage for socially significant risks, etc.

Risk of pandemics differs significantly in nature from catastrophic risks, both natural and man-made. Any pandemic risk is global, systemic and has a long-term impact and consequences. According to the NAIC definition (the Centers for Disease Control and Prevention), a pandemic is a sudden outbreak of an infectious disease that spreads over several countries or continents and affects many people. Pandemics have the potential to influence all industries and affect insurers and businesses across all insurance sectors. Pandemics can also disrupt the operation of financial markets, which influences negatively the investments of insurers (Chernova, 2010, p.89-99). However, unlike the losses from climate disasters, the losses from pandemics do not come from the destruction of physical structures (Rusetskaya, 2012; Pinkovetskaya, 2017, p.36-42).

The risk of a coronavirus pandemic can be defined as a type of catastrophic risk[6], the cause of which is contained in the very essence of social or natural phenomena that are beyond human control[7]. Both natural and social components are intertwined in the risk of a pandemic. The virus is a product of nature[8], but its rapid spread occurs, among other things, for reasons related to the current stage of globalization and the development of society - the movement of large passenger and migrant flows from one region / country / continent to others (tourism, business trips), as well as international trade (international air, rail, auto and sea freight, etc.) (Dumm, 2015, p.159-177). The risk profile due to the Covid-19 pandemic is different, not because societal trends have changed, but because there have been fundamental changes in the public narrative - the awareness and behavior of economic actors.

---

[4] According to www.imf.org

[5] The unemployment rate in some countries reached record levels in May 2020 (for example, in the USA - 13.3%, in the Eurozone - 7.4%).

[6] Catastrophic risks in insurance are such risks, the occurrence of which in the ratio of frequency (frequency of occurrence) and severity (strength of consequences) is described as “low frequency - high severity”, that is, rare events with a high destructive capacity. So, at least, it was commonly believed: nature lives according to the laws of its own and can present unpleasant surprises more often than previously justified trends. (Protection against catastrophic risks. Ford I.A., Chief underwriter, production director of LLC PO Nakhodka Re).

[7] Catastrophic risks could be referred to as fundamental risks that are uncontrolled and pervasive. As a rule, the entire society is responsible for these risks consequences and their overcoming.

[8] The authors share the opinion about the natural theory of the coronavirus origin.

**The impact of the 2020[9] pandemic on the global and national insurance markets.**

According to Allianz, one of the world's largest insurance groups, in 2020, the sharpest decline in insurance premiums written in the world occurred in developed insurance markets: in Japan - by 7.7% and Western Europe - by 5.1%, and mainly due to life insurance reduction (the decrease was 7.8% and 9.6% respectively). However, globally, the insurance industry suffered relatively less, with written premiums downswing only by 2.1% in 2020. The growth driver, as in the pre-Covid period, was China and the Asian market (not including Japan).

As for the growth of the insurance market in the regional context, in 2021 a slight positive change is expected due to broad fiscal measures and rapid vaccination rates. As can be seen from the Table 1, the major growth of the insurance market was provided by China, as it was before the pandemic. During the lockdown, China has adapted to the new reality as quickly as possible thanks to the rapid introduction of digital sales channels, consumer readiness and regulatory framework.

Table 1. Growth of insurance premium written in 2020 by regions, %.

| Markets | 2020 | 2010-2019 | 2021F | 2022F | 2020 | 2010-2019 | 2021F | 2022F |
|---|---|---|---|---|---|---|---|---|
| | Life insurance real premium growth | | | | Non-life insurance real premium growth | | | |
| Advanced | -5.7% | 0.8% | 3.3% | 3.2% | 1.5% | 2.8% | 2.2% | 2.8% |
| Emerging | 0,3% | 6.4% | 5.7% | 6.3% | 1.4% | 8.3% | 5.8% | 8.2% |
| **World** | **-4.4%** | **1.7%** | **3.8%** | **4.0%** | **1.5%** | **3.5%** | **2.8%** | **3.7%** |
| China | 2.8% | 9.0% | 6.2% | 7.7% | 4.4% | 15.4% | 6.5% | 10.5% |

Source: National financial supervisory authorities, insurance associations and statistical offices, Thomson Reuters, Allianz Research, Swiss Re sigma No 3/2021 https://www.swissre.com/dam/jcr:ca792993-80ce-49d7-9e4f-7e298e399815/swiss-re-institute-sigma-3-2021-en.pdf

It should be noted that no matter how extraordinary was 2020 period in terms of indicators' dynamic, the general trend of faster growth in the property insurance segment compared to life insurance remained unchanged. At the same time, the rate of increase in the volume of insurance premiums was not higher than the rate of increase in the volume of global nominal GDP.

One of the types of insurance that did not reduce its attractiveness during the pandemic was health insurance due to higher risk awareness (Rho, 2021).

In US, the world's leading insurance market in terms of insurance premiums, as in many countries around the world, many private medical institutions were forced by regulatory issues to cancel planned surgeries to raise the capacity of hospitals for patients with coronavirus infection. This led not only to the delay in the provision of planned medical and surgical care to patients, but also to the financial losses of US hospitals in 2020, which are estimated at $323 billion (American Hospital Association, 2021), and to a series of closures that disproportionately affected social security hospitals activities.

At the same time, the pandemic has become a source of income for medical insurance sector - 2020 was a record year for US commercial insurance companies' income (see Fig. 2). Profits for public health insurers increased by 1.2% compared to 2019. For non-public companies, profit increased by 1.6% compared to declining profitability in 2019, while margins for other health care providers increased by 2.4%.

